**Cəfər Cəfərli**

# Bakı Şəhər Duması XIX əsrin sonu-XX əsrin əvvəllərində

*ADPU-nun Elmi  Şurasının*
*27.05.2024-cü  il tarixli iclasının*
*qərarına əsasən çap edilir  (pr № 9)*

**Bakı-2024**

**Elmi redaktor:** **Həsənov Hacı Nuru oğlu.**
**tarix üzrə fəlsəfə doktoru, professor**

**Rəyçilər:** **Hüseynov Xəzər Allahverdi oğlu.**
**tarix üzrə elmlər doktoru, dosent**

**Əhmədova Naibə Əhmədağa qızı.**
**tarix üzrə fəlsəfə doktoru, dosent**

**Abdullayev Mehman Qəhrəman oğlu.**
**tarix üzrə fəlsəfə doktoru, dosent**

**Hacıyev Eldar Əli oğlu.**
**tarix üzrə fəlsəfə doktoru.**

**Cəfərli Cəfər Sudeyyub oğlu**
**Bakı Şəhər Duması XIX əsrin**
**sonu-XX əsrin əvvəllərində**
**Bakı-2024. ADPU-nəş. 306 s**

**Annotasiya:** Monoqrafiyada Bakı şəhərində özünüidarə islahatının keçirilməsi, XIX əsrin sonu XX əsrin əvvəllərində Bakı Şəhər Dumasına seçkilərin keçirilməsi və Bakı Dumasının əsas fəaliyyət istiqamətləri tədqiq edilmişdir.

Monoqrafiyadan ali məktəblərin tarix fakültəsinin tələbələri, magistrlar, tarixçilər, elmi işçilər, ali və orta məktəb müəllimləri faydalana bilər.

## Mündəricat

**Giriş ------------------------------------------------------------4**

**I Fəsil. Bakı şəhərində özünüidarənin tətbiqi.**

**§1.1. Bakı şəhərində özünüidarənin tətbiq edilməsinin sosial-iqtisadi və siyasi zəmini ---------------------------------22**

**§1.2.Rusiyada 1870 və 1892-ci illərdə keçirilən şəhər islahatlarının Bakı şəhərində tətbiqi ------------------------34**

**§1.3. Bakı Şəhər Dumasına seçkilər keçirilməsi-----------49**

**II Fəsil. Bakı Şəhər Dumasının əsas fəaliyyət istiqamətləri.**

**§2.1. Şəhər özünüidarəetmə sahəsində milli hüquq bərabərsizliyinin aradan qaldırılması-----------------------81**

**§2.2. 1905-ci ildə şəhərdə erməni terroruna qarşı mübarizə------------------------------------------------------97**

**§2.3. Təhsil ----------------------------------------------------111**

**§2.4. Su təchizatı ----------------------------------------------143**

**§2.5. Abadlaşdırma -------------------------------------------214**

**§2.6.Tibbi xidmət --------------------------------------------241**

**§2.7.Ərzaq təchizatı-------------------------------------------265**

**Nəticə ---------------------------------------------------------279**

**İstifadə edilmiş ədəbiyyatın siyahısı-----------------------289**

# GİRİŞ

Şimali Azərbaycan tarixinin XIX-XX əsrlər dövrünün obyektiv tədqiq edilməsi müasir mərhələdə tarixçilərimiz qarşısında duran təxirəsalınmaz mühüm vəzifələrdən biridir. Vətən tariximizin bütün dövrləri qədim, orta əsrlər, yeni və müasir dövrünün öyrənilməsi, yenidən tədqiq edilməsi, təbligi və gələcək nəsllərə çatdırılması həm elmi, həm də siyasi baxımdan əhəmiyyətə malikdir.

Göstərilən dövrün öyrənilməsi olduqca böyük elmi əhəmiyyətə malikdir. Çünki bu dövr Azərbaycanın dövlət müstəqilliyinin itirilməsi və böyük bir dövlətin-Rusiya imperiyasının müstəmləkəsinə çevrilməsi ilə xarakterizə olunur.

XIX əsrin sonu-XX əsrin əvvəllərində Rusiya imperiyasında gedən siyasi proseslərin və iqtisadi inkişafın təsiri ilə Şimali Azərbaycanda da kapitalist münasibətləri meydana gəlir və inkişaf edirdi. Kapitalist münasibətlərinin inkişafı ilə əlaqədar olaraq sənaye, kənd təsərrüfatı, ticarət, həmçinin mədəniyyət və şəhərlər də inkişaf edir, əhalinin sayı isə sürətlə artır və siması dəyişirdi. Şəhərlərin inkişafı ilə əlaqədar olaraq orada idarəçilik sistemi də dəyişir, köhnə müstəmləkə idarə sistemi artıq yeni şəraitə uyğunlaşmırdı. Məhz bu dövrün sənayesinin, kənd təsərrüfatının, ticarətinin və mədəniyyət tarixinin öyrənilməsi ilə yanaşı, həmin dövr şəhərlərində yeni idarə sisteminin meydana gəlməsi və inkişafının öyrənilməsi də tarixşünaslığımız qarşısında duran mühüm vəzifələrdən biridir.

Rusiya işğalından sonra Şimali Azərbaycan şəhərləri içərisində Bakı şəhəri xüsusi ilə fərqlənir, həm siyasi, həm də iqtisadi baxımdan əhəmiyyət kəsb edirdi. Belə ki, XIX əsrin ikinci yarısında neft sənayesinin sürətli inkişafı ilə əlaqədar olaraq şəhərlərin əhalisi sürətlə artmağa başladı. Belə ki, Şimali Azərbaycanın bütün qəzalarından, Cənubi Azərbaycandan, Mərkəzi Asiyadan, Şimali Qafqazdan, Volqaboyundan və Rusiya imperiyasının müxtəlif bölgələrindən işləmək üçün gələnlərin

sayının artması ilə əlaqədar olaraq şəhərin etnik və sosial tərkibi dəyişməyə başladı.

İşğaldan əvvəl şəhərlər milli tərkib baxımından ancaq azərbaycanlılardan ibarət idisə çarizmin ağır müstəmləkə siyasəti nəticəsində şəhərlərin etnik və sosial tərkibi ciddi surətdə dəyişikliyə məruz qaldı. Rus imperiyasının köçürmə, ruslaşdırma və xristianlaşdırma siyasətinin nəticəsində indi artıq şəhər əhalisinin müyyən hissəsini xristianlar yəni, daha çox ermənilər və ruslar təşkil etməyə başladı.

İqtisadi inkişafın nəticəsi olaraq Bakı şəhəri təkcə quberniyanın deyil, ticarəin inkişafı ilə əlaqədar olaraq bütün Şimali Azərbaycanın siyasi, iqtisadi və mədəni mərkəzinə çevrilməyə başladı. Bakı şəhərində cərəyan edən iqtisadi və siyasi proseslər Şimali Azərbaycanın bütün qəza və şəhərlərinə təsir edirdi. Ona görə də XIX əsrin ikinci yarısı-XX əsrin əvvəllərində Bakı şəhərinin tarixini tədqiq etmədən Azərbaycanın digər şəhərlərinin tarixini tədqiq etmək və öyrənmək olduqca çətindir. Bu baxımdan şəhərlərin sosial-iqtisadi, siyasi və mədəni həyatını, idarəçilik sistemini və onun inkişaf dinamikasını öyrənmədən həmin dövrün obyektiv tarixini yazmaq mümkün deyil. Bu nöqteyi nəzərdən yanaşsaq tədqiq olunan dövrdə Bakı şəhəri tarixinin xüsusilə onun idarəçilik sisteminin öyrənilməsi mühüm aktuallıq kəsb edir və tarix elmi qarşısında duran mühüm vəzifələrdən biridir.

Tariximizin az öyrənilən səhifələrindən biri də şəhərlərin bələdiyyə tarixidir. Hüquqi dövlətin formalaşması, siyasi münasibətlərdə plüralizm və demokratiyanın inkişafı ilə əlaqədar olaraq özünüidarəetmə ideyası dövlətşünaslıq nəzəriyyəsində işlənib hazırlanmış və sivil cəmiyyətin ayrılmaz xüsusiyyətlərindən biri hesab edilmişdir. Müasir dövrdə Avropanın inkişaf etmiş liberal demokratik dövlətlərinin demək olar ki, hamısında özünüidarə orqanları olan bələdiyyələr geniş səlahiyyətlərə malikdir və həmin ölkələrin inkişafında bələdiyyələr mühüm rol oynayır. Bu baxımdan Bakı şəhərinin bələdiyyə tarixinin öyrənilməsi həm siyasi-hüquqi, həm də elmi və təcrübi baxımdan

böyük əhəmiyyətə malikdir. Bildyimiz kimi, Bakı şəhərinin bələdiyyə tarixi Rusiya imperiyası dövründən 1878-ci ildən başlayır. Bu baxımdan 1878-ci ildən-1918-ci ilə kimi fəaliyyət göstərən Bakı Şəhər Dumasının tarixini elmi cəhətdən tədqiq edilməsi olduqca əhəmiyyətlidir. Yarananda özünüidarə orqanı kimi formalaşdırılan Bakı Duması demək olar ki, XX əsrin əvvəllərində artıq şəhərdə parlament rolunu oynamağa başladı. Bu baxımdan da Bakı Dumasının fəaliyyətini tədqiq etmək siyasi və hüquqi baxımdan da olduqca vacibdir.

Cəmiyyətdə baş verən iqtisadi, siyasi və mənəvi yeniləşmə prosesi Vətən tarixinə marağın artmasına, Şimali Azərbaycanın ictimai-siyasi ənənələrinə və köklərinə qayıtmağın vacibliyinin dərk edilməsinə səbəb oldu. Ölkəmizdə hüquqi, demokratik və dünyəvi dövlətin formalaşması ilə əlaqədar dövlət müstəqilliyinin bərpa edildiyi 1918-ci ilin 28 may tarixinə qədərki Şimali Azərbaycanın özünüidarə orqanlarının fəaliyyəti təcrübəsinin öyrənilməsi mühüm tarixi və hüquqi əhəmiyyət kəsb edir.

Müasir dövrdə 1918-ci ilin 28 may tarixinə qədərki dövrdə yerli özünüidarəetmənin təşkili məsələsi mühüm yer tutur. Çünki şəhər özünüidarəetmə orqanları kapitalizm dövrü siyasi sisteminin özünəməxsus institutlarından birini təşkil edir. Onlar özlərində müstəmləkəçi avtoritar siyasi rejimə əsaslanan bütün dövlət aparatının ciddi mərkəzləşdirilməsi ilə yerli idarəetmə sistemində müstəqillik və liberal başlanğıc prinsiplərini uyğunlaşdırmaq cəhdini əks etdirir. Bu orqanların mahiyyəti Rusiyada mütləqiyyətin mövcudluğunun son illərində, onun bütün daxili ziddiyyətlərinin kəskinləşməsi dövründə xüsusilə aydın təzahür edirdi.

Təqdim olunan monoqrafiyada XIX əsrin sonu-XX əsrin əvvəllərində Bakı Şəhər Dumasının tarixi tədqiq edilir və araşdırılır. Tədqiqat işində XIX əsrin ikinci yarısında Bakı şəhərində neft sənayesinin inkişafı ilə əlaqədar olaraq şəhərdə baş verən inkişaf, əhalinin sayının kəskin surətdə artması, etnik və sosial tərkibinin dəyişikliyə məruz qalması, Bakı şəhərində

özünüidarə sisteminin tətbiq edilməsinin sosial-iqtisadi və siyasi zəmini, Şəhər Dumasına seçkilər keçirilməsi və Dumanın fəaliyyətinin əsas istiqamətləri arxiv, elmi ədəbiyyat və dövri mətbuat əsasında elmi cəhətdən araşdırılır.

Bakı Şəhər Duması Şimali Azərbaycan tarixində yaradılmış ilk seçkili orqandır. Duma deputatları xalq tərəfindən seçilmiş ilk deputatlar olduqlarına, onların əsas fəaliyyət istiqamətləri, qaldırdıqları problemlər, bu problemlərin həll olunması istiqamətində göstərdikləri cəhdlər şəhər özünüidarə orqanının fəaliyyəti baxımından mühüm siyasi, hüquqi və elmi əhəmiyyət kəsb etdiyinə görə Bakı Duması tarixinin tədqiq olunması həlli vacib məsələlərdən biridir.

Bakı şəhərində özünüidarənin tətbiqi kapitalist münasibətlərinin inkişafı ilə əlaqədar idi və ilk növbədə sənaye və ticarət burjuaziyasının maraqlarına xidmət edirdi. Lakin Şəhər Dumasının fəaliyyəti getdikcə bütünlüklə şəhər əhalisinin ehtiyaclarının təmin edilməsinə-təhsil, tibbi xidmət, şəhərin abadlaşdırılması, əhalinin su və ərzaqla təchiz edilməsinə yönəlmişdir.

Sovet tarixşünaslığında özünüidarə orqanları tarixinin öyrənilməsinə bütün keçmiş SSRİ məkanında XX əsrin ikinci yarısından başlandı. Çünki Sovet dövləti yerli özünüidarə orqanlarını-bələdiyyələri qəbul etmir, onları burjua orqanı kimi qələmə verərək fəaliyyətlərini təhrif edirdi. Bələdiyyə idarəetmə sistemi və demokratiyası Sovet cəmiyyətinin xarakterinə uyğun hesab edilmirdi.

XX əsrin ikinci yarısından başlayaraq bütün dünyada o cümlədən müasir liberal-demokratik Avropa cəmiyyətində hökumətlər yerlərdə hakimiyyətlərinin böyük bir hissəsini yerli özünüidarə orqanlarına verdilər.Yerli əhəmiyyətli məsələlərin həllini bələdiyyələrə həvalə edən cəmiyyətlər yerlərdə həm iqtisadi, həm də siyasi baxımdan böyük demokratik inkişaf yolu keçdilər. Lakin Sovet cəmiyyəti isə Avropanın bələdiyyə sisteminə qarşı yerlərdə Sovetlər tərəfindən idarə olunan idarəçilik sistemini tətbiq etdi. Lakin Sovet dövlətinin yerli idarəçilik sistemi özünü doğrultmadı. Ona görə ki, yerli Sovetlər mərkəzi

hakimiyyətdən tam asılı idi və birbaşa onun tabeçiliyində fəaliyyət göstərirdi. Lakin Avropada yerli idarəçilik sistemi-bələdiyyələr isə yerlərdə müstəqil qurum olmaqla nə yerli, nə də ki, mərkəzi hakimiyyət orqanlarına tabe deyildilər. Onlar yalnız qanuna tabe olmaqla yerli hakimiyyət orqanları ilə yerlərdə hakimiyyət bölgüsü əsasında fəaliyyət göstərirlər. Avropa bələdiyyə demokratiyasının elə üstünlüyü də ondan ibarətdir ki, orada bələdiyyələr mərkəzi və yerli hakimiyyət orqanlarından asılı olmadan qanunla onlara verilmiş səlahiyyətlər çərçivəsində müstəqil fəaliyyət göstərirlər.

Sovet dövləti totalitar sosializm cəmiyyəti olduğundan nə tarixi, nə hüquqi, nə də ki, iqtisadi baxımdan bələdiyyələrin fəaliyyətinin tədqiqinə imkan vermirdi. Bundan da məqsəd Avropa bələdiyyə idarəçiliyi və demokratiyasından Sovet cəmiyyətinin xəbər tutmasına imkan verməmək idi. Buna görə də çar Rusiyası dövründə mövcud olan və fəaliyyət göstərən özünüidarə orqanları tarixinin öyrənilməsi uzun müddət tədqiqatlardan kənarda qalmış və onların fəaliyyəti ya gizlədilmiş və yaxudda təhrif edilmişdir.

XX əsrin ikinci yarısından başlayaraq Sovet cəmiyyətində totalitar rejim müəyyən qədər yumşaldı. İctimai elmlər o cümlədən, tarix elmi üzərində total nəzarət də tədricən zəifləməyə başladı. Bunun nəticəsidir ki, həmin dövrdən başlayaraq Sovetlərə qədərki dövrdə mövcud olmuş yerli özünüidarə orqanlarının tarixindən bəhs edən dissertasiyalar yazıldı və bələdiyyə tarixinin öyrənilməsinə başlandı.

Şimali Azərbaycan şəhərlərinin XIX-XX əsrin əvvəlləri tarixinin öyrənilməsinə isə nisbətən bir qədər gec XX əsrin 70-80-ci illərindən başlandı.

XX əsrin 80-ci illərindən başlayaraq Şimali Azərbaycan şəhərlərinin tarixindən bəhs edən bir sıra dissertasiyalar yazıldı. Bu dövr tarixçiləri tarixşünaslığımız qarşısında duran çox mühüm bir məsələnin-şəhərlərin tarixinin tədqiqinə nail oldular.

XX əsrin ikinci yarısından başlayaraq Şimali Azərbaycan şəhərlərinin tarixinə həsr edilmiş dissertasiyalar A.Şıxəliyev

(207), F.Tağiyev (209), N.Cəfərli (151), G.İsmayılova (162), F.Məmmədov (178), N.Məmmədov (177), X.Vahidova (213) və E.Muradəliyeva (182) tərəfindən yazıldı.

E.Muradəliyeva "Şimali Azərbaycan şəhərləri XIX əsrin ikinci yarısında" mövzusunda yazdığı dissertasiyasında və eyni adlı monoqrafiyasında XIX əsrin ikinci yarısında Şimali Azərbaycan şəhərlərində, o cümlədən Bakı şəhərində çarizmin müstəmləkəçi iqtisadi siyasətinin mahiyyəti, şəhər iqtisadiyyatının strukturu, şəhərlərin iqtisadi həyatında nəqliyyatın rolu, şəhərlərin sosial və milli tərkibi tədqiq edilmişdir. Müəllif həmçinin şəhərlərin inzibati idarə sistemi, çarizmin şəhər ictimai özünüidarə sistemində müstəmləkəçi siyasətini elmi faktlarla sübut etmiş, həmçinin Bakı şəhər özünüidarəsi və qəza mərkəzi olan şəhərlərdə məhdud şəkildə tətbiq edilən ictimai özünüidarə sistemini də tədqiq etmişdir.Tarixşünaslığımızda ilk dəfə olaraq qəza şəhərlərində məhdud formada həyata keçirilən özünüidarə orqanlarının tarixi araşdırılmışdır.

A.Şıxəliyev tərəfindən yazılmış XIX əsrin ikinci yarısında Şamaxı şəhərinin tarixindən bəhs edən dissertasiyasında 1859-cu ildən-1901-ci ilə kimi olan dövrdə şəhərin idarəçilik sistemi, sosial-iqtisadi və mədəni həyatı tədqiq edilib.

N.Cəfərlinin "XIX əsr-XX əsrin əvvəllərində Lənkəran şəhərinin tarixi", G.İsmayılovanın "XIX əsr-XX əsrin əvvəllərində Şuşa şəhərinin tarixi", F.Məmmədovun "Gəncə şəhəri kapitalizm dövründə (1868-1917)", N.Məmmədovun "XIX əsr-XX əsrin əvvəllərində Quba şəhərinin tarixi" və X.Vahidovanın "XIX əsr-XX əsrin əvvəllərində Ordubad şəhərinin tarixi" adlı dissertasiyalarında həmin şəhərlərin Rusiya tərəfindən işğalından 1917-ci ilin fevral inqilabınadək olan dövrdə inzibati idarə sistemi, əhalisi, sosial-iqtisadi və mədəniyyət tarixi tədqiq edilmişdir.

Göstərilən həmin elmi əsərlərdə şəhər özünüidarəsi ilə əlaqədar məsələlərə az toxunulmuşdur. Şəhərlərdə özünüidarə orqanlarının təşkili, həmin orqanlara seçkilərin keçirilməsi və özünüidarə orqanlarının fəaliyyəti tədqiq edilməmişdir. Halbuki,

tədqiq olunan dövrdə yəni, 1892-ci il şəhər əks-islahatından sonra Gəncə və Şuşa şəhərlərində tam, Naxçıvan, Şəki, Quba, Lənkəran, Ordubad və Şamaxı şəhərlərində isə məhdud şəkildə olsa da ictimai özünüidarə islahatı keçirilmişdir.

Şimali Azərbaycan tarixşünaslığında Bakı şəhər tarixinin öyrənilməsinə dair ilk əsər tədqiqatçı alim S.Aşurbəyli (22) tərəfindən yazılmışdır. Müəllif əsərində Bakı şəhərinin orta əsrlər dövrünü geniş və hərtərəfli tədqiq etmiş, şəhərin siyasi, sosial-iqtisadi, mədəni həyatı, şəhərdə ticarət və sənətkarlığın inkişafı tədqiq edilmişdir.

N.İbrahimov tərəfindən "XIX əsrin sonu-XX əsrin əvvəllərində Bakı şəhərinin siyasi və mədəni tarixi" (72) adlı kitabında müəllif şəhərin siyasi və mədəni tarixini tədqiq etmişdir.

F.Tağıyev tərəfindən isə "XIX əsrin birinci yarısında Bakı şəhərinin tarixi" adlı dissertasiyası və eyni adlı monoqrafiyasında (209, 210) Bakı şəhərinin Rusiya tərəfindən işğalından quberniya mərkəzinə çevrilməsinədək olan dövrdə sosial-iqtisadi və mədəni həyatı, idarəçilik sistemi, sənətkarlıq və ticarətin inkişafı tədqiq edilib.

Şimali Azərbaycan tarixində şəhər özünüidarə orqanları tarixinin ilk tədqiqatçısı A.Milman olmuşdur. O "İnqilabaqədərki Azərbaycanda özünüidarə orqanları necə seçilirdi" adlı kitabında (179) 1878-ci ildən başlayaraq 1917-ci il oktyabr seçkisi də daxil olmaqla Bakı Şəhər Dumasına seçkilərin keçirilməsi, seçkilərdə seçicilərin iştirak faizi, seçki hüququnun məhdudlaşdırılması, seçkilərin saxtalaşdırılması və Dumaya seçilən deputatların milli və sosial tərkibi və s.məsələlər tədqiq edilmişdir.

Onun "XIX-XX əsrin əvvəllərində Azərbaycanın siyasi quruluşu" adlı monoqrafiyasında (180) çoxsaylı zəngin arxiv sənədlərinə istinad edərək XIX-XX əsrin əvvəllərində Şimali Azərbaycanın çar Rusiyasının hakimiyyəti dövründə mövcud olan idarəçilik sistemi, 1840-cı il 10 aprel tarixində həyata keçirilən inzibati-məhkəmə islahatı və onun ölkəmizdə tətbiqi və quberniya idarə sisteminə keçirilməsi tədqiq edilmişdir.

Müəllif monoqrafiyasında həmçinin XIX əsrin ikinci yarısında Rusiya imperiyasında keçirilən 1864-cü il məhkəmə və 1870-ci il şəhər islahatlarının Şimali Azərbaycanda tətbiqinə də geniş yer vermişdir. Əsərdə islahatın keçirildiyi Mərkəzi Rusiya şəhərləri ilə Bakı şəhərinin müqayisəli təhlili verilmiş, şəhər əhalisinin sayı, şəhərdə yığılan vergilərin miqdarı, Bakı şəhərinin islahatın keçirilməsinə hazır olub-olmaması faktlar əsasında araşdırılmış və hüquqi qiyməti verilmişdir. O, 1892-ci ildə həyata keçirilən şəhər əks islahatının Şimali Azərbaycanda tətbiqinin müstəmləkəçi xarakterinin xüsusiyyətlərini, özünüidarə orqanlarının formalaşdırılması, seçki sistemi, seçki prosesində qanun pozuntuları, islahatdan sonra seçicilər dairəsinin məhdudlaşdırılmasını və əmlak senzinin yüksəldilməsini kəskin şəkildə tənqid etmişdir. O, həmçinin tədqiqatlarında şəhər özünüidarəsi sahəsində çarizmin rəsmi dövlət siyasətini və bu siyasətin müstəmləkəçi xarakterinin mahiyyətini göstərmiş, 1870-ci il şəhər islahatı ilə müqayisədə 1892-ci il şəhər əks-islahatının imperiyanın ucqarlarında tətbiqinin daha çox müstəmləkəçi xarakter daşıdığını, inzibati orqanların özünüidarə orqanları üzərində nəzarətinin güclənməsini kəskin tənqid etmişdir. A.Milman əsərində az də olsa Bakı Dumasının fəaliyyətinə toxunmuş və Dumanın fəaliyyətini tam tədqiq etməmişdir. Bununla belə, onun tədqiqatları sonrakı tədqiqatlar üçün baza rolu oynadığına və ilkinliyinə görə olduqca əhəmiyyətlidir.

A.İbrahimovanın"Azərbaycanda iki hakimiyyətlilik" mövzusunda yazdığı dissertasiyasında (161), həmçinin onun "Bakı Şəhər Dumasının demokratikləşdirilməsi uğrunda bolşeviklərin mübarizəsi (mart-oktyabr 1917)" (69) adlı elmi məqaləsində Bakı Dumasının 1917-ci il fevral inqilabından sonrakı dövrdə fəaliyyətinə toxunur. Məqalədə xüsusən də, bolşeviklərin Şəhər Dumasına yeni seçki keçirilməsi uğrunda mübarizələri işıqlandırılır.

Şimali Azərbaycan tarixşünaslığında Bakı şəhər özünüidarəsinin tarixinə aid ilk dissertasiya K.Ocaqova tərəfindən

yazılmışdır. Onun “XIX əsrin sonu-XX əsrin əvvəllərində Bakı şəhər özünüidarəsi” mövzusunda yazdığı dissertasiyasında (190), həmçinin 2003-cü ildə nəşr etdirdiyi eyni adlı monoqrafiyasında (191), “XIX əsrin sonunda Bakıda şəhər islahatı” (192), və “XX əsrin əvvəllərində idarəçilik aparatı və şəhər özünüidarəsi” (193) mövzularında yazdığı elmi məqalələrində 1870-ci il şəhər islahatına qədərki dövrdə Bakı şəhərinin idarəsi, şəhər islahatının hazırlanması və keçirilməsi, Şimali Azərbaycanda islahatın gec tətbiq olunmasının səbəbləri, Bakı şəhərində özünüidarənin tətbiqi, mahiyyəti və çarizmin bu sahədəki müstəmləkəçilik siyasəti tədqiq edilmişdir. Müəllif həmçinin 1870 və 1892-ci illər şəhər islahatlarının fərqlərini, özünüidarə orqanlarının strukturunu, Şəhər Dumasına seçkilərin keçirilməsini və ictimai özünüidarənin müxtəlif sahələrdə-təsərrüfat, büdcə, səhiyyə, əhalinin su və ərzaqla təchizatı məsələlərini tədqiq etmişdir.

Göstərmək istəyirəm ki, K.Ocaqova tədqiqatları ilə Bakı şəhər özünüidarəsi tarixinin öyrənilməsinə çox böyük zəhmət çəkmiş və araşdırmaları ilə tarix elminə qiymətli töhfələr vermişdir. Lakin o Bakı Şəhər Dumasının tarixini tam şəkildə tədqiq etməmişdir.

A.Adıgözəlova tərəfindən şəhər özünüidarə tarixindən bəhs edən “Fevral inqilabından sonra Azərbaycanda müvəqqəti hökumətin yerli hakimiyyət orqanlarının və şəhər özünüidarəsinin təşkili və fəaliyyəti” (12) mövzusunda yazdığı dissertasiyasında 1917-ci il fevral inqilabından sonra müvəqqəti hökumətin hakimiyyəti dövründə qəbul edilmiş “Şəhər Əsasnaməsi” əsasında Şimali Azərbaycan şəhərlərində özünüidarə orqanlarının təşkili, mahiyyəti, strukturu, Şəhər Dumalarına seçkilərin keçirilməsi, onların fəaliyyəti və müvəqqəti hökumətin yerli özünüidarəetmə sahəsində yeritdiyi siyasət tədqiq edilmişdir.

Bakı Şəhər Dumasının tarixindən bəhs edən növbəti elmi iş C.Cəfərli tərəfindən “Azərbaycanlı deputatların Bakı Şəhər Dumasında fəaliyyəti” (1893-1917) mövzusunda (37) yazdığı

dissertasiyadır. Bu dissertasiyada azərbaycanlı deputatların Bakı Dumasında fəalyyəti hərtərəfli tədqiq edilmişdir.

X.İsmayılovun “Azərbaycanda yerli özünüidarənin təşkili və fəaliyyətinin normativ-hüquqi əsasları” (79) mövzusunda yazdığı hüquq üzrə elmlər doktoru dissertasiyasında, həmçinin “Azərbaycanda məhkəmə və yerli özünüidarəetmə orqanları: ”XIX əsr-XX əsrin əvvəlləri (78) və “XIX əsrin II yarısı-XX əsrin əvvəllərində Azərbaycanda yerli özünüidarəetmə: təşkilati və hüquqi aspektləri” (77) adlı monoqrafiyalarında Azərbaycanda XIX əsrin ikinci yarısı-XX əsrin əvvəllərində fəaliyyət göstərən yerli özünüidarə orqanlarının təşkili və fəaliyyətini hüquqi cəhətdən tədqiq etmişdir.

Bakı Dumasının tarixinin öyrənilməsində ən qiymətli əsərlərdən biri də etnoqraf və Zərdabişünas alim E.Cavadova tərəfindən “Həsən bəy Məlikov Zərdabinin Bakı Şəhər Dumaında fəaliyyəti (1897-1907)” (30) adlı kitabıdır. Müəllif kitabında H.Zərdabinin 1897-1907-ci illərdə Bakı Şəhər Dumasında deputat kimi çıxışları, iştirak etdiyi Duma iclaslarında aparılan müzakirələrdə onun mövqeyini əks etdirən materialları dərc etdirmişdir. Həmçinin kitabda H.Zərdabi ilə bərabər Şəhər Dumasının bütün deputatlarının çıxışları da öz əksini tapıb. Göstərilən kitab “Kaspi” qəzetində dərc edilmiş materiallar əsasında tərtib edilib və Bakı Şəhər Dumasının 1897-1907-ci illər tarixinin öyrənilməsində ən qiymətli mənbələr sırasındadır.

Bakı Duması tarixinin öyrənilməsi ilə yanaşı, Dumanın təhsil, abadlaşdırma, tibbi xidmət, əhalinin su və ərzaqla təchiz edilməsi və s. sahələrdə göstərdiyi fəaliyyət tarixinin tədqiq edilməsi də Şəhər Dumasının tarixinin öyrənilməsi baxımından olduqca əhəmiyyətlidir.

1908-ci ildə nəşr edilmiş “Bakı su kəməri” (141), 1909-cu ildə nəşr edilmiş “Bakı şəhərinin su təchizatı” (220 ) və 1915-ci ildə nəşr edilmiş “Bakı-Şollar su kəməri” (144) kitabları “Şollar-Bakı” su kəməri tarixinin öyrənilməsi və tədqiq edilməsində qiymətli ədəbiyyatlar sırasındadır.

Müəlliflərdən F.Şahbazovun "Bakı qəzasında su məsələsi" (124) kitabında Bakı şəhərinin su ilə təchiz edilməsinin tarixi araşdırılmış və tədqiq edilmişdir.

V.Xanəliyev tərəfindən "Bakı şəhərinin su təchizatının tarixi (XIX əsrin ikinci yarısı-XX əsrin 70 ci illəri)" (63) mövzusunda yazdığı dissertasiyasında XIX əsrin sonu-XX əsrin 70-ci illərinə kimi olan dövrdə şəhərin su təzhizatı tarixi xüsusən də, "Şollar-Bakı" su kəmərinin çəkilməsini ətraflı tədqiq etmişdir. Müəllif həmçinin dissertasiyasında Bakı Dumasının şəhərə müxtəlif su mənbələrindən su kəmərinin çəkilməsini araşdırmışdır.

XXI əsrin ilk on illiyindən başlayaraq "Şollar-Bakı" su kəmərinin çəkilməsi tarixinin tədqiqinə diqqət artırılmiş və bu sahədə bir sıra elmi əsərlər yazılmışdır.

F.Cabbarov və M.Məmmədov tərəfindən "Şollar-Bakı su kəmərinin tarixindən" adlı əsərlərində (27) XIX əsrin sonu-XX əsrin əvvəllərində Bakı şəhərinin su təchizatı tarixini xüsusilə, "Şollar-Bakı" su kəmərinin çəkilməsini tədqiq etmişdirlər. Əsərdə həmçinin bəhs edilən dövrdə şəhərə müxtəlif su mənbələrindən su kəmərinin çəkiliməsi də araşdırılmışdır.

V.Xanəliyev və Ə.Məmmədov tərəfindən yazılan "Şollar-Bakı-100.Su kəmərinin çəkiliş tarixindən" kitabında (65) da "Şollar-Bakı" su kəmərinin çəkilməsi tarixi tədqiq edilmiş, o cümlədən də şəhərə müxtəlif su mənbələrindən su kəmərinin çəkilməsinin tarixi işıqlandırılmışdır.

2017-ci ildə Bakıda "Şollar-Bakı su qurğuları kompleksinin" 100 illiyinə həsr olunmuş Beynəlxalq elmi-praktiki konfrans keçirilmişdir. Konfransda müəlliflərdən H.Həsənovun "Hacı Zeynalabdin Tağıyev-Bakı Su təchizatı məsələləri. XIX əsrin sonu-XX əsrin əvvəllərində" (59), P.Xəlilovun "XIX əsrin sonu-XX əsrin əvvəllərində böyük Bakı sənaye rayonunun su təchizatı üzrə layihələr və onların taleyi" (67), N.Verdiyevanın "Şollar su kəməri-dayanıqlı və etibarlı su təchizatı sistemi" (136), F.Tağıyevin "XIX əsrdə (80-ci illərin ortalarınadək) Bakı şəhərinin su təchizatının tarixindən" (127), İ.Tağıyev və

N.Babayevin "Bakı şəhərinin içməli su təchizatının inkişaf tarixi"(126), E.Vahabovanın "Bakı-Şollar su kəmərinin tikintisini Bakı şəhər mətbuatında işıqlandırılması" (135), Ç.Abdullayevin "XX əsrin unikal qurğusu.Şollar-100" (11), S.Mustafayevanın "Şollar-Bakı su kəmərinin çəkilişinə dair" (94), Z.Qafarovanın "Şollar su kəmərinin çəkilişində Bakı Şəhər Dumasının fəaliyyətinin tarixi"(106), S.Rüstəmova-Tohidinin "Şollar su kəmərinin tarixi Bakının siyasi-ictimai və iqtisadi mühitinin göstəricisi kimi"(XIX əsrin sonu-XX əsrin əvvəlləri)". (114) və R.Niftəliyevin "XX əsrin əvvəllərində Şimali Azərbaycanda içməli su mənbələrinin axtarışı tarixindən":Şollar. (101) adlı məqalələrdə"Şollar-Bakı" su kəmərinin çəkilməsi tarixi araşdırılmışdır.

Müəlliflərdən S.Rüstəmova-Tohidinin "Azərbaycan" qəzetində nəşr etdirdiyi "Əsl bakılı kimdir. Şollar-Bakı su kəmərinin tarixi bu suala cavab verir" (113) adlı məqaləsində "Şollar-Bakı" su kəmərinin çəkilməsi tarixi və bu kəmərin çəkilməsinə qarşı Dumada erməni icmasına məxsus deputatların qarşı çıxmaları və Dumanın azərbaycanlı deputatlarının onlara qarşı mübarizəsi işıqlandırılmışdır.

T.Ağayevin "Şollar-Bakı və Xaçmaz-Bakı su kəmərlərinin tikilmə tarixi" (15), "Bakı şəhərinin su təchizatı" (16) və "Şollar-Bakı su kəmərinin tikintisi, layihə gücünə çatdırılması və mövcud vəziyyəti" (17), T.Əliyev və M. Məmmədovanın "Bakı şəhər əhalisinin mövcud və gələcək su təchizatı mənbələri, onların ekoloji problemləri" (50), Z.Nağıyevin "Bakı şəhəri və Abşeron regionunun su mənbələri" (95) adlı kitablarından "Şollar-Bakı" su kəmərinin tarixi araşdırılmışdır.

M.S.Ordubadinin "Qanlı sənələr" adlı kitabı (105) 1905-1906-cı illərdə "Daşnaksütun" partiyasının silahlı dəstələrinin Bakı, Gəncə, Qarabağ, İrəvan, Naxçıvan, Zəngəzur və digər bölgələrdə azərbaycanlılara qarşı törətdikləri terror aktları və soyqırımı araşdırlıb. Həmçinin F.Cabbarovun "Cənubi Qafqazda erməni ekstermizmi:XIX əsrin ikinci yarısı-XX əsrin əvvəllərində" adlı monoqrafiyasında (152) "Rusiya imperiyasının

Azərbaycanda milli siyasəti və 1905-1906-cı illərdə kütləvi qırğınlar" adlı dissertasiyasında (28) və B.Nəcəfovun "XIX əsrin sonu -XX əsrin əvvəllərində Cənubi Qafqazda erməni millətçiliyinin tarixi" (185) adlı monoqrafiyasında ermənilərin Şimali Azərbaycan torpaqlarında və azərbaycanlılara qarşı törətdikləri terrorçu fəaliyyətləri hərtərəfli araşdırılmışdır.

D.Seyidzadənin "XX əsrin əvvəlində Azərbaycan burjuaziyasının tarixindən" (200),"Azərbaycandan olan deputatlar Rusiya Dövlət Dumasında" (202) "Azərbaycan XX əsrin əvvəllərində: müstəqilliyə aparan yoldur" (118) monoqrafiyalarında, və "Azərbaycan burjuaziyasının ictimai-siyasi fəaliyyəti (1905-1917) mövzusunda yazdığı dissertasiyasında (201) XX əsrin əvvəllərində Şimali Azərbaycan tarixinin, xüsusən, milli burjuaziyasının tarixinin öyrənilməsində əhəmiyyəti böyükdür. Müəllif bu əsərlərində həmçinin milli burjuaziya nümayəndələrinin Şəhər Dumasındakı fəaliyyətlərini qısa da olsa tədqiq etmişdir.

D.Hüseynova "XIX əsrin sonu-XX əsrin əvvəllərində Azərbaycan ziyalıları" mövzusunda yazdığı dissertasiyasında (175) məhdud şəkildə olsa da Şəhər Dumalarında və İdarələrində təmsil olunan azərbaycanlı ziyalıların fəaliyyətini araşdırmışdır. Xüsusən, Bakı Dumasına deputat seçilən və Şəhər İdarəsində çalışan azərbaycanlı ziyalıların fəaliyyətləri tədqiq edilmişdir.

C.Həsənlinin "Tarixi şəxsiyyətin tarixi: Əlimərdan bəy Topçubaşov" (57) adlı kitabında tədqiq olunan dövrün tarixi xüsusən də, Ə.M.Topçubaşovun Şəhər Dumasının deputatı və sədri kimi fəaliyyəti araşdırılıb. Kitabda Ə.M.Topçubaşovun Dumada deputat kimi fəaliyyəti və çıxışları, o cümlədən onun şəhərdə azərbaycan dilli məktəb şəbəkəsinin genişləndirilməsi, 1905-1906-cı illərdə Bakıda ermənilərin azərbaycanlılara qarşı terror fəaliyyətinə qarşı onun apardığı mübarizə ətraflı işıqlandırılıbdır. Əsərdə həmçinin Ə.M.Topçubaşovun nəinki Şimali Azərbaycan, o cümlədən bütün Rusiya müsəlmanlarının siyasi lideri kimi fəaliyyəti zəngin arxiv sənədləri əsasında

ətraflı araşdırılmışdır. Kitab Bakı Dumasının tarixinin öyrənilməsində xüsusi əhəmiyyət kəsb edən əsərlər sırasındadır.

İ.Bağırovanın "XX əsrin əvvəllərində Azərbaycanda siyasi partiyalar və təşkilatlar (1900-1917)" (145) və "XIX əsrin sonu-XX əsrin əvvəllərində Azərbaycanda liberal cərəyanın inkişafı" (23) adlı monoqrafiyaları tədqiq edilən dövrün öyrənilməsində mühüm əhəmiyyəti olan ədəbiyyatlar sırasındadır.

Ə.M.Topçubaşovun 2014-cü ildə və Ə.Ağaoğlunun 2019-cu ildə anadan olmalarının 150-illiyinə həsr olunmuş beynəlxalq konfransın materiallarından hazırkı əsərin yazılmasında istifadə edilmişdir. Xüsusən, İ.Bağırovanın Əli Mərdan bəy Topçubaşovun ictimai-siyasi fəaliyyəti (24) və Əhməd bəy Ağayevin ictimai-siyasi fəaliyyəti (1894-1907-ci illər) (25) adlı məqalələrində hər iki görkəmli siyasi xadimin siyasi fəaliyyyəti və xüsusən, onların Bakı Dumasındakı fəaliyyətləri tədqiq edilmişdir.

X.Məmmədovun "Azərbaycan Milli hərəkatı (1875-1918)", (85) "Azərbaycan Milli və maarifçilik hərəkatı (1875-1918), (86)" və "Azərbaycan xalqının milli istiqlal mübarizəsi (XIX yüzilliyin sonu-XX yüzilliyin əvvəlləri)" (88), M.Əmrahovun "XX əsrdə Azərbaycanda milli-azadlıq hərəkatı" (42) və S.Süleymanovanın "Azərbaycanda ictimai-siyasi hərəkatlar (XIX yüzilliyin sonu-XX yüzilliyin əvvəlləri)" (123) adlı əsərləri də tədqiq olunan dövrün tarixinin öyrənilməsində mühüm əhəmiyyəti olan ədəbiyyatlardır.

M.İsmayıl və M.İbrahimovun "El atası" (75) kitabı, M.Süleymanovun "Eşitdiklərim, oxuduqlarım və gördüklərim" (121) və "H.Z.Tağıyev" (122) adlı kitablarında milli burjuaziyanın lideri H.Z.Tağıyevin Şəhər Dumasında fəaliyyətinə və Bakı şəhərində özünüidarə orqanının təşkili, şəhərin abadlaşdırılması və s. məsələlərə toxunulmuşdur.

S.Məmmədovun "Azərbaycanda qadın təhsili və Azərbaycanın tərəqqipərvər qadınlarının maarifçilik fəaliyyəti (XIX əsrin ikinci yarısı-1990-cı ilə qədər)" (90), G.Əliyevanın "XIX-XX əsrin əvvəllərində Şimali Azərbaycanda rus dilli təhsil"

mövzularında yazdığı dissertasiyalarında (48) və Ə.Tağıyevin "Azərbaycan məktəb tarixi" (128) kitabında tədqiq olunan dövrdə Bakı şəhərində təhsilin inkişafı və məktəb şəbəkəsinin genişləndirilməsi tədqiq edilmişdir.

Q.İlkinin "Bakı və Bakılılar" kitabında (74) Bakı şəhərində özünüidarə islahatının keçirilməsi, şəhərin abadlaşdırılması və təsərrüfat həyatına aid ətraflı məlumatlar verilmişdir.

Z.Eminovanın "XIX-XX əsrin əvvəllərində Azərbaycanda səhiyyənin tarixi " adlı (39) əsərində tədqiq olunan dövrdə Bakı şəhərində səhiyyənin vəziyyəti, Bakı şəhərində özünüidarə orqanının əhaliyə tibbi xidmət göstərilməsi və s. məsələlərə toxunulmuşdur.

R.Nəbiyevin "XX əsrin əvvəllərində Bakı şəhərinin ərzaq təchizatı" mövzusunda yazdığı dissertasiyasında (99), "I Dünya müharibəsi illərində Bakı şəhərinin un və çörək təchizatı" (96), "I Dünya müharibəsinin başlanmasının Bakı şəhərinin ərzaqla təchizatında yaratdığı problemlər və bununla əlaqədar görülən tədbirlər" (97) adlı məqalələrində Birinci dünya müharibəsi illərində şəhər əhalisinin ilkin və daha çox istifadə olunan ərzaq məhsulları ilə təmin edilməsində Şəhər Duması və İdarəsinin gördüyü tədbirləri tədqiq etmişdir.

Rusiyada şəhər islahatının tədqiqinə isə çar Rusiyasının mövcudluğu dövründən başlanmışdır. Müəlliflərdən Q.Evanqulov (156), E.Mixaylovski (181), A.Nemirovski (188), A.Novikov (189), K.Pojitanov (196), B.Qessen (176), D.Semenov (203), O.Semin (204), M.Sveşnikov (206), Q.Tumanov (211,212), İ.Verner (217) və başqaları XIX əsrin ikinci yarısında Rusiya şəhərlərində keçirilən islahatı tədqiq etmişdirlər.

XX əsrin ikinci yarısında Sovet tarixşünaslığında da Rusiya və onun müstəmləkələrində şəhər özünüidarə orqanları tarixinin öyrənilməsinə həsr edilmiş dissertasiyalar və monoqrafiyalar yazıldı. Rusiyada şəhər özünüidarə orqanlarının əsas tədqiqatçısı V.Nardova olmuşdur. Onun "XIX əsrin 60-90-cı illərində Rusiyada şəhər özünüidarəsi" (186) və "XIX əsrin sonu-XX əsrin əvvəllərində Rusiyada mütləqiyyət və Şəhər Dumaları"

(187) adlı monoqrafiyalarında Rusiya imperiyasında şəhər özünüidarə islahatının keçirilməsini doğuran səbəblər, islahatın keçirilməsi və mütləqiyyətin bu istiqamətdə yeritdiyi siyasət, Duma və özünüidarə orqanlarının səlahiyyətləri və s. məsələlər ətraflı araşdırılmışdır.

Həmçinin H.Baydakova (147), İ.Budak (148), Q.Burdina (149), A. Bendianişvili (150), İ.Doynikov (153), M.Yuroçkin (158,159), H. Karjanski (167), H.Krujalov (169), V.Kruçkovs-kaya (171), E.Pavlyuçenko (195), L.Pisarkova (197), M.Qor-lovski (173), Y.Qvinitadze (174), L.Vyalikova (223), B.Zlatous-tovski (225), A.Şefer (208) və başqaları Rusiya imperiyasının müxtəlif şəhərlərində özünüidarə islahatının keçirilməsini tədqiq etmişdirlər.

Yuxarıda adları çəkilən əsərlərdən monoqrafiyanın yazılmasında istifadə edilmişdir.

Bakı Şəhər Duması tarixinin öyrənilməsində mühüm mənbələrdən biri də "Kaspi" qəzetidir. "Kaspi" qəzetinin nəşr olunduğu illər Bakı Dumasının fəaliyyət göstərdiyi dövrə düşür. Qəzetin səhifələrində Dumanın və Şəhər İdarəsinin fəaliyyətini əks etdirən çoxsaylı məqalələr də dərc edilirdi.

XIX əsrin sonu-XX əsrin əvvəllərində "Kaspi" qəzetində şəhər həyatının sosial-iqtisadi problemlərinə, ictimai və mədəni həyatına və əhalinin məişətinə dair bir sıra məqalələr dərc edilmişdir. Həmin mövzularda məqalələr, əsasən azərbaycanlı ziyalılar-H.Zərdabi, Ə.M.Topçubaşov, Ə.Ağayev, H.Mah-mudbəyov, N.Nərimanov və başqaları tərəfindən yazılmışdı.

"Kaspi" qəzeti ilə geniş əməkdaşlıq edən ziyalılardan biri H.Zərdabi olmuşdur. Onun "Kaspi" ilə əməkdaşlığını iki mərhələyə bölmək olar: birinci mərhələ- 1881-1896-cı illərdə Zərdabda yaşadığı illərdə oradan yazdığı məqalələr; ikinci mərhələ isə 1896-cı ildə Bakıya köçdükdən sonra qəzetlə etdiyi əməkdaşlıq. İkinci mərhələ daha çıx əməkdaşlıq dövrüdür. Məhz bu dövrdə H.Zərdabi Şəhər Dumasının fəaliyyətinə və şəhər həyatının müxtəlif sahələrinə həsr edilmiş çoxsaylı məqalələrini yazıb dərc etdirmişdir.

H.Zərdabinin "Kaspi" qəzetində "Bakı tramvayı haqqında", (166,1899.23.09), "Şərqi Zaqafqaziyada suya ehtiyac" (166,1899.2.06), "Susuzuluq"(166,1899.27.06), "Yeni su kəmərinin layihəsi haqqında"(166,1899.3.12), "Lindleyin layihəsi ilə bağlı qeyd"(166,1899.6.12),"Su kəməri məsələsi" (166,1899.-14.12), "Su epopeyasına dair" (166,1901.28.03), "Su epopeyasının sonu" (166,1901.9.05), "Bakı şəhərində su məsələsi" (166,1900,№147,149 və150), "Bakı bazarının qaydaları haqqında" (166,1901.№4),"Bakı şəhərində yeni bazar yaradılmasının vasitələri" (166,1901.10.01),"Şəhərin abadlıq məsələsi"(166,1901.16.01),"Bir daha Şərqi Zaqafqaziyanın geridə qalması barədə" (166,1899.№223),"Yeni qadın təhsil müəssisəsinin layihəsinə dair" (166,1903.№ 50), "Şəhər məsələləri" (166,1903.№ 41,44 və 45) "Mühəndis Lindleyin müdafiəsinə dair" (166,1903.№5), "Cənab şəhər başçısına cavab" (166,1902.11.08),"Bakı Şəhərində küçələrin sulanması və bağların becərilməsi"(166,1902.26.07),"Bakı Mexaniki və inşaat texniki məktəbi" (166,1900.22.07) adlı məqalələrində şəhər həyatının müxtəlif sahələrinə, xüsusilə də şəhərin su təchizatı məsələlərinə toxunmuşdur.

Ə.Ağayev "Kaspi" qəzetində 200-dən çox məqalə çap etdirmişdi. 2019-cu ildə nəşr edilən "Bəs bizim ziyalılarımız haradadır? "Kaspi"dən seçmələr" (18) kitabında onun müxtəlif illərdə "Kaspi" qəzetində dərc etdirdiyi məqalələr toplanıb. Həmçinin qəzetin səhifələrində onun "Qafqazda milli məsələ" (20), "Özünüidarə ideyası"(166,1903.7.10.№125),"Müsəlman qızları üçün yeni məktəb" (166,1903.8.10),"Bakı Panaması" (166,1903.16.10), "Lavrov gimnaziyasının şagirdlərinə köməklik edildimi?"(166,1903.17.10) "Kimdir günahkar" (166, 1904.04.05), "Biz şəhərə necə xidmət edirik"? (166,1903.20.06) və s. adlı məqalələrində şəhərin ictimai həyatından bəhs etmişdir.

Ə.M.Topçubaşov da "Kaspi" qəzetində çoxsaylı məqalələr çap etdirmişdir. 2018-ci ildə nəşr edilən Ə.M.Topçubaşov. "Kaspi"dən seçmələr" (131) kitabında onun müxtəlif illərdə

“Kaspi” qəzetində dərc etdirdiyi məqalələr toplanıb. O, “Şəhər özünüidarəsində müsəlmanların hüquqlarının məhdudlaşdırılmasının ləğvi barədə” (166,1905.№156), “Zemstvo nümayəndəliyinin təşkili barədə” (166,1905. №157), “Bakıda rus-müsəlman qadın məktəbinin açılması haqqında” (166,1905. №207-208), “Qafqazda islahatın başlanması” (166,1905.№140), “Bakıda orta təhsil” (166,1901.№ 252-253-256), “Qafqazda ali müsəlman məktəbinin təsis edilməsinin zəruriliyi barədə” (166,1895. № 368) və s. adlı məqalələri şəhərin ictimai həyatının və Şəhər Dumasının tarixinin öyrənilməsində qiymətli mənbələrdəndir.

Beləliklə, “Kaspi” qəzeti XIX əsrin sonu-XX əsrin əvvəllərində Şimali Azərbaycanın siyasi, iqtisadi və mədəni həyatını öyrənmək üçün ən qiymətli mənbələr sırasındadır.

Lakin adları çəkilən bu əsərlər Bakı Şəhər Dumasının tarxini tam öyrənməyə imkan vermir. Buna görə də Şəhər Dumasının fəaliyyətinin elmi cəhətdən tədqiq edilməsinə ehtiyac var.

Yuxarıda göstərilən əsərlərdə şəhər özünüidarə orqanlarının fəaliyyətinə toxunulsada, təqdim olunan bu monoqrafiyada XIX əsrin sonu-XX əsrin əvvəllərində Bakı Şəhər Dumasının təşkili, fəaliyyəti, seçkilərin keçirilməsi, Azərbaycanlı deputatların şəhər özünüidarəsi sahəsində milli hüquq bərabərsizliyinin aradan qaldırılması, şəhərdə erməni terroruna qarşı apardıqları mübarizə, Şəhər Dumasının təhsil, tibbi xidmət, abadlaşdrılma, şəhərin su və ərzaqla təzhizatı ilə bağlı fəaliyyəti tədqiq edilib. Əsərdə xüsusən də, Şimali Azərbaycan milli burjuaziyanın nümayəndələrinin və ziyalıların Bakı Dumasında göstərdikləri fəaliyyət və onların Dumada şəhərin erməni icmasından olan deputatlara qarşı apardıqları ümummilli mənafe uğrunda mübarizələri ətraflı tədqiq edilmişdir.

# I Fəsil
# Bakı şəhərində özünüidarənin tətbiqi

## §1.1. Bakı şəhərində özünüidarənin tətbiq edilməsinin sosial-iqtisadi və siyasi zəmini

Krım müharibəsində (1853-1856) çar Rusiyasının ağır məğlubiyyəti ölkədə siyasi və sosial-iqtisadi böhranı daha da sürətləndirdi. Avropa dövlətləri ilə müharibə Rusiya imperiyasının həm zəifliyini və gücsüzlüyünü, həm də hərbi, iqtisadi və texniki cəhətdən geriliyini açıq şəkildə göstərdi. Müharibədəki məğlubiyyət və onun ölkənin iqtisadiyyatına təsiri nəticəsində kəndlilərin vəziyyətinin daha da ağırlaşması onların mülkədarlara qarşı mübarizəsini gücləndirdi. Kəndlilər artıq təhkimçilik zülmündən qurtarmaq uğrunda fəal çıxış etməyə başladılar. Belə bir vəziyətdə çar hökuməti ölkənin geriliyini aradan qaldırmaq üçün əsaslı islahatlar keçirməyə məcbur oldu.

Göstərilən islahatların keçirilməsinin digər səbəbi isə Rusiyada XIX əsrin 30-80-ci illərini əhatə edən sənaye çevrilişi ilə bağlı idi. Kəndlilərin təhkimli vəziyyətində olması sənaye çevrilişinin başa çatmasını ləngidirdi. Çünki sənayenin azad işçi qüvvəsinə böyük ehtiyacı vardı.

Beləliklə, Rusiyada XIX əsrin 60-70-ci illərində keçirilən islahatların əsas səbəbləri Krım müharibəsindəki ağır məğlubiyyət, sənaye çevrilişinin başa çatma ərəfəsində olması, təhkimçilk sisteminin böhranı və kəndli çıxışları oldu.

Belə bir şəraitdə çar hökuməti məcburiyyət qarşısında güzəştə getməyə, məhsuldar qüvvələrin inkişafına az da olsa şərait yaratmağa məcbur oldu. Çünki təhkimçilik hüququ ölkədə kapitalizmin inkişafını ləngidirdi. Kənd təsərrüfatı və sənayedə mövcud olan təhkimçi əməyi isə az məhsuldar idi. Sənayenin azad işçi qüvvəsinə böyük ehtiyacı olduğu halda, kəndlilər hələ də torpağa təhkim olunmuş halda çalışırdılar. Məhz bütün bunlarla əlaqədar olaraq 1861-ci il fevralın 19-da çar II Aleksandr təhkimçilik hüququnun ləğvi haqqında manifest və

təhkimçilik asılılığından qurtaran kəndlilər haqqında "Əsasnamə"ləri imzaladı. Hökumət bu islahat vasitəsilə ölkənin iqtisadiyyatını və siyasi quruluşunu kapitalizm təməli üzərinə keçirtdi. Qanun elan edilən gündən təhkimli halda olan sahibkar kəndlilərə şəxsi azadlıq verilirdi (7,s.190).

Təhkimçilik hüququnun ləğv edilməsi ölkədə inzibati-məhkəmə, şəhər, hərbi və maarif və s. sahələrdə islahatların keçirilməsi məsələsini qarşıya qoydu. Göstərilən islahatların həyata keçirilməsi bütün Rusiyada baş verən sosial-iqtisadi dəyişikliklərlə, feodal münasibətlərinin kapitalist istehsal münasibətləri ilə əvəz olunmağa başlanması ilə bilavasitə bağlı idi. Kəndli islahatı Rusiyada kapitalist münasibətlərinin bərqərar olması üçün əlverişli şərait yaratdı.Təhkimçilik qalıqları hələ uzun müddət xeyli güclü olsa da, sənayedə kapitalizm sürətlə inkişaf etməyə başladı.

XIX əsrin ikinci yarısında göstərilən islahatların keçirilməsi nəticəsində Rusiya öz inkişafının yeni bir mərhələsi-kapitalizmin inkişafı mərhələsinə qədəm qoydu. Belə ki, təhkimçilik hüququnun ləğvi feodal istehsal üsulunun kapitalist istehsal üsulu ilə əvəz edilməsində yeni bir mərhələ idi. Rusiyada feodal istehsal münasibətləri tədricən burjua istehsal münasibətləri ilə əvəz edilirdi. Cəmiyyətin sosial-iqtisadi quruluşundakı dəyişikliklər labüd olaraq onun siyasi sistemində də müvafiq dəyişikliklər əmələ gətirməli idi (37,s.15).

Burjua cəmiyyətinin əsas təbəqəsi olan burjuaziya, habelə kapitalist inkişaf yoluna qədəm qoymuş mülkədarlar da burjua islahatlarının keçirilməsində maraqlı idilər. Belə bir şəraitdə çarizm mövcud sosial-siyasi quruluşu saxlamağa cəhd göstərməklə bərabər kapitalist təsərrüfatının tələblərinə uyğun olaraq bir sıra burjua islahatları keçirməyə məcbur oldu. Çar hökuməti zadəgan mülkədarların hüquq və imtiyazlarını müdafiə edərək idarəçilik, məhkəmə, maarif, şəhər, zemstvo, hərbi, senzura və başqa sahələrdə burjua islahatları keçirərkən Rusiyanın mütləqiyyət polis quruluşunu kapitalist inkişafı tələbinə uyğunlaşdırmağa çalışırdı (37,s.15).

Qeyd etmək lazımdır ki, kapitalist münasibətlərinin meydana gəlməsi və inkişafı nəinki Rusiyanın mərkəzi quberniyalarını, hətta imperiyanın müstəmləkə ucqarlarını da əhatə edirdi. Belə ki, XIX əsrin ortalarından başlayaraq Şimali Azərbaycanda da sənaye kapitalizminin şəhərlərdə ilkin ocaqları meydana gəlməyə və əmtəə-pul münasibətləri inkişaf etməyə başladı. Düzdür, əgər Rusiyanın mərkəzi regionları ilə müstəmləkələrdə kapitalist münasibətlərinin inkişaf səviyyəsini müqayisə etsək, onda birmənalı şəkildə milli ucqarların, o cümlədən, Cənubi Qafqazın öz inkişafında Rusiyanın daxili quberniyalarından geridə qaldığını görərik (37,s.15).

Bu gerilik hər şeydən əvvəl Rusiya və işğal olunmuş ölkələrin siyasi və iqtisadi inkişaf səviyyəsi ilə izah olunur. Çar hökuməti müstəmləkəçilik siyasəti yeridərək işğal olunmuş ölkələrdə burjua islahatlarını keçirməyə tələsmirdi. Lakin çar hökumətinin istəyib istəməməsindən asılı olmayaraq Şimali Azərbaycan iqtisadiyyatını yeni şəraitə uyğunlaşdırmağa məcbur idi. Bundan başqa, Rusiyada kapitalist münasibətlərinin təsiri altında çarizm Cənubi Qafqazda, o cümlədən Şimali Azərbaycanda da feodal asılı münasibətlərinin ləğv edilməsinə başladı.

XIX yüzilliyin ikinci yarısında Mərkəzi Rusiya quberniyalarında kapitalizmin inkişafı sənaye məhsulları üçün xammal mənbəyi və satış bazarları tələb edirdi. Bu isə müstəmləkələrin həmin prosesdə iştirakı məsələsini zəruri etmişdi. Bu dövrdə çar Rusiyasının müstəmləkələrindən biri kimi Şimali Azərbaycan da ümumrusiya bazarına qoşulurdu. Başqa müstəmləkələrdən fərqli olaraq Şimali Azərbaycan Rusiya sənayesini duru yanacaqla təchiz edir və bununla da orada məhsuldar qüvvələrin inkişafına təkan verirdi (7,s.174).

XIX əsrin 60-cı illərində inkişaf etməkdə olan sənaye işçi qüvvəsindən korluq çəkirdi. Ona görə çar hökuməti Şimali Azərbaycanda feodal asılı münasibətlərin əsaslarını laxladan bir sıra tədbirlər görməyə məcbur oldu. 1864-cü ildə Balaxanı mədənlərində məcburi kəndli əməyi ləğv edildi və bundan sonra

neft istehsalı işində muzdlu fəhlə əməyindən istifadə olunmağa başlanıldı. Bu neft sənayesinin kapitalistcəsinə yenidən qurulmasını sübut edən əlamət idi (4,s.215).

Şimali Azərbaycanda inkişaf etməkdə olan əmtəə-pul münasibətlərinin təsiri altında bəylər-mülkədarlar hər cür vergi və mükəlləfiyyətləri artırmağa, kəndlinin becərdiyi məhsulun daha çox hissəsini mənimsəməyə çalışırdılar. Onların kəndli torpaqlarını tutması halları artmışdı. Bütün bunlar kənddə narazılığı artırırdı. Belə bir şəraitdə çar hökuməti feodal asılı münasibətlərini daha çox sarsıdan daha bir tədbirə əl atdı. 1865-ci il 23 avqustda "Kənd cəmiyyətləri ictimai idarəsi haqqında" qanun qəbul etdi. Bu qanuna görə Şimali Azərbaycan bəyləri kənddə inzibati-məhkəmə idarəsindən uzaqlaşdırıldı. Bu qanunun mütərəqqi əhəmiyyəti elə bundan ibarətdir ki, kəndlilər bəylərin məhkəmə və polis özbaşınalığından azad oldular (7,s.194).

XIX əsrin 60-cı illərində cəmiyyətin sosial-iqtisadi və siyasi həyatında baş verən bir sıra əhəmiyyətli dəyişikliyin nəticəsində çarizm Şimali Azərbaycanda inzibati-məhkəmə, kəndli və şəhər özünüidarə islahatlarını keçirməyə məcbur oldu. Lakin çarizm bu islahatları özünün müstəmləkəçi siyasətindən irəli gələrək yarımçıq həyata keçirtdi.

1866-cı ildə Şimali Azərbaycanda tətbiq edilən məhkəmə islahatına əsasən Rusiyada hakimlər seçildiyi halda Şimali Azərbaycanda hakimlər yerli əhalinin dilini, mədəniyyətini və məişətini bilməyən xristianlardan təyin olunur, məhkəmə iclasları və kargüzarlıq isə rus dilində aparılırdı. Azərbaycanlıların hakim olmasına icazə verilmirdi. İslahatın nəticəsində vəkillik təsisatı yaransada o da, Şimali Azərbaycanda bir sıra məhdudiyyətlərlə tətbiq edilmişdi. Xristian hüquqşünasların vəkil seçilməsində heç bir məhdudiyyət qoyulmasada, müsəlmanların vəkil təyin edilməsi üçün Rusiya İmperiyası Ədliyyə Nazirinin razılığı tələb olunurdu.

M.Ə.Rəsulzadə "Açıq söz" qəzetində "Xristian olmayan dava vəkilləri haqqında" adlı məqaləsində xristian olmayan

hüquqşünasların vəkil seçimində çar hakimiyyət orqanlarının yeritdiyi siyasəti kəskin tənqid edərək yazırdı: “1889-cu ildə böylə bir qərar verildi ki, xristian olmayan millətlərdən vəkillik silkinə girmək istəyənləri gərək ədliyyə vəziri özü bizzat təsdiq eləsin. Bu qanunun nəşrindən məqsəd yəhudi vəkillərin ədədini əksiltmək idi. Necə ki, bu qanundan sonra vəzirə müraciət edən yəhudi hüquqşünaslarının cüzi bir qismi təsdiq edildilər.

Fəqət ibtidada yəhudilər əleyhinə hazırlandığı iddia olunan bu qanun nəticə etibarilə müsəlmanları da, xristian omadıqları üçün haman təzyiq etməyə başladı. Fəqət bu din ayrılığı güdən qanun əhalinin hüququnu müdafiəyə hazırlanan cavanlarımızı haman sıkmaya başlıyor. Biçarə cavanlar aylarla bəzən illərlə gözləyərək qalmalıdırlar, tainki vəzarət tərəfndən vəkillikləri təsdiq olunsun” (21,1915.07.10).

Göründüyü kimi, məhkəmə islahatının nəticəsində Şimali Azərbaycanda təşkil edilən Bakı və Yelisavetpol dairə məhkəmələrində azərbaycanlılar hakim heyətinə buraxılmırdı və vəkillik fəaliyyətində də azərbaycanlılar üçün bir sıra məhdudiyyətlər tətbiq edilirdi. Rusiya İmperiyası Ədliyyə Naziri müsəlmanlardan, o cümlədən azərbaycanlılardan istədiyi hüquqşünası vəkillik fəaliyyəti ilə məşğul olmasına icazə verir, istəmədiyinə isə icazə vermirdi. Bu siyasətin nəticəsidir ki, XIX əsrin sonu-XX əsrin əvvəllərində Şimali Azərbaycanda vəkillik fəaliyyəti ilə məşğul olanlar əsasən ali müsəlman silkinə mənsub olan hüquqşünaslar idi.

Kəndli islahatına gəldikdə isə bu islahatın keçirilməməsindən daha çox kəndlilər əziyyət çəkirdilər. Bu da kəndlilər arasında narazılığın artmasına gətirib çıxarırdı. Belə bir şəraitdə çar hökuməti 1870-ci il mayın 14-də Şimali Azərbaycanda da kəndli islahatını keçirtməyə məcbur oldu. İslahat sahibkar kəndlilərinə aid edildi. İslahatın nəticəsində kənddə ictimai təbəqələşmə güçləndi. Aztorpaqlı və torpaqsız kəndlilərin sayı artdı. Torpaqlarını itirmiş kəndlilər iş dalınca şəhərlərə axışmağa başladılar. Həmin dövrdə Bakı şəhərində neft sənayesinin sürətli inkişafı ilə əlaqədar olaraq yeni-yeni sənaye müəssisələrinin

meydana gəlməsi ucuz işçi qüvvəsinə ehtiyacı artırırdı. Bu da şəhər əhalisinin sayının artmasına gətirib çıxarırdı. Beləliklə, kəndli islahatı Şimali Azərbaycanda kapitalist münasibətlərinin meydana gəlməsi və inkişafına əlverişli şərait yaratdı.

Keçirilən kəndli islahatı və onun nəticəsində kapitalist münasibətlərinin inkişafı idarəçilik sistemində də dəyişikliklər edilməsini tələb edirdi. Çünki köhnə feodal idrəçilik sistemi artıq kapitalist istehsal münasibətlərinin inkişafı şəraitinə uyğun gəlmirdi. İdarəçilik sistemində o cümlədən, şəhərlərin idarə edilməsində islatların keçirilməsi artıq zəruri idi. Bu səbəbdən də, Bakı şəhərinin idarəçilik sistemində dəyişikliklər edilməsi həlli vacib məsələlərdən birinə çevrilmişdi. Çünki idarəçilik sistemində islahatların keçirilməməsi şəhərdə kapitalist münasibətlərinin inkişafını ləngidə bilərdi. Bu da bütün Rusiya imperiyasının iqtisadiyyatına ağır zərbə demək idi. Belə ki, kapitalist münasibətlərinin inkişafı ilə əlaqədar olaraq Mərkəzi Rusiya ilə Şimali Azərbaycan arasında yaranan iqtisadi əlaqələr inkişaf edirdi. Mərkəzi Rusiya üçün bu əlaqə yeni satış bazarı və xammal mənbəyi əldə etməklə, Şimali Azərbaycan üçün isə burada əmtəə-pul münasibətlərinin inkişaf etməsi, yeni sənaye müəssisələrinin yaranması və kənd əhalisi hesabına şəhər əhalisinin artması ilə nəticələnirdi.

Şəhərlərin islahataqədərki idarə edilməsinə nəzər salsaq görərik ki, burada polis tərəfindən idarə olunan feodal despotik idarə sistemi mövcud olmuşdur. Polisin səlahiyyətinə təkcə şəhərdə qayda-qanunu mühafizə emək deyil, həmçinin şəhərin abadlaşdırılması və təsərrüfat məsələləri də daxil idi. Əhali polisin özbaşına və heç bir qanunla məhdudlaşdırılmayan mütləq idarəçiliyindən olduqca əziyyət çəkirdi. Bu baxımdan şəhərlərin idarəçilik sistemində dəyişiklik edilməsi həmçinin əhalini polisin özbaşına idarəçiliyindən də xilas edəcək idi.

Bakı 1806-cı ildə Rusiya tərəfindən işğal edildikdən sonra burada 1840-cı ilədək mövcud olan komendant idarə üsulu tətbiq edildi. 1812-ci ilədək Bakıda xüsusi şəhər idarə orqanları yox idi. 1812-ci ilin fevralında “Bakı qalası və onun ətrafı üçün

şəhər məhkəməsi haqqında qərar qəbul edildi. Bu qərarla Bakı şəhər məhkəməsi yaradıldı. Bu məhkəmə şəhərdə təkcə məhkəmə hakimiyyətini deyil, eyni zamanda inzibati idarə orqanı rolunu da oynayırdı. Şəhər məhkəməsi komendant idarəsində təsərrüfat işlərini həll edir, şəhərin gəlirlər smetasını tərtib edir, şəhərdəki tikintiyə nəzarət edirdi və s. (138,c.5,s.204).

1840-cı il 10 aprel tarixli "İnzibati məhkəmə" islahatına əsasən komendant idarə üsulu ləğv edildi. Bu inzibati islahata əsasən Bakı şəhəri Xəzər vilayətinin tərkibində saxlanıldı. 1846-cı il 14 dekabr qanuna əsasən, Xəzər vilayəti ləğv edildi və Bakı şəhəri yeni yaradılan Şamaxı quberniyasının tərkibinə verildi (154,s.57).

Bakı şəhərinə iqtisadi və siyasi baxımdan o qədər də əhəmiyyət verməyən  çar hakimiyyət orqanları quberniya mərkəzi kimi Şamaxı şəhərini seçmişdirlər. Lakin 1859-cu il 15 mayda baş vermiş zəlzələdən sonra Şamaxı şəhəri tamamilə dağıldı. Bundan sonra imperiya üçün Bakı şəhərinin əhəmiyyəti artır. Bununla əlaqədar olaraq Qafqaz canişini knyaz A.Baryatınski 1859-cu il iyunun 7-də Şamaxı hərbi qubernatoruna yazırdı: "Mən bütün quberniya idarələrinin Bakıya köçürülməsinin əhəmiyyəti haqqında düşünürəm. Şübhə yoxdur  ki, bu şəhərin dəniz sahilində yerləşməsi, burada limanın mövcudluğu, Bakının gələcəkdə dəmir yolunun çıxış nöqtəsi olacağı kimi amillər sayəsində Bakı tezliklə mühüm liman şəhərinə çevriləcək"(52,s.41).

1859-cu il dekabrın 6-da çar II Aleksandr Şamaxı quberniya adminstrasiyasını və orada olan bütün quberniya idarələrinin Şamaxıdan Bakıya köçürülməsi, Bakının quberniya şəhəri səviyyəsinə yüksəldilməsi və Şamaxı quberniyasının Bakı quberniyası adlandırılması  barədə fərman verdi (210,s.86).

Bakının quberniya mərkəzinə çevrilməsi şəhər üçün bir sıra müsbət dəyişikliklərə səbəb oldu: şəhərdə ticarət  inkişaf etməyə başladı; əhalinin sayı getdikcə artdı; şəhərin ərazisi genişləndi; şəhərdə torpaq sahələrinin satınalma qiymətləri

yüksəldi; torpaq sahələrinin satılması hesabına şəhərin gəlirləri artdı; şəhərin polis idarə sistemi daha da gücləndirildi.

Göstərilən bu səbəblərdən Bakı inkişaf etməyə başladı 1859-cu ildən 1872-ci ilə kimi şəhərin inkişafı onun quberniya mərkəzinə çevrilməsi ilə, 1872-ci ildən sonra isə neft sənayesinin sürətli inkişafı ilə bağlı olmuşdur.

Quberniya mərkəzinə çevrilməsi ilə Bakının ərazisi tədricən böyüməyə başladı. Əgər şəhərin ərazisi 1855-ci ildə 60 hektar idisə, 1864-cü ildə bu rəqəm 89,3 hektara, 1878-ci ildə 250 hektara, 1908-ci ildə 1.100 hektara, 1910-cu ildə 1.160 hektara, 1913-cü ildə 1.200 hektara və 1918-ci ildə isə 1.300 hektara çatmışdır (52,s.239).

Göründüyü kimi, şəhərin ərazisi 1855-ci ildən 1864-cü ilə qədər 49,3%, 1878-ci ilə qədər isə 3 dəfə, şəhərdə özünüidarənin tətbiqindən sonra isə böyümə daha sürətlə davam etmiş 1908-ci ildə 4,4 dəfə, 1910-ildə 4,64 dəfə, 1913-cü ildə 4,8 dəfə və 1918-ci ildə isə 5,2 dəfə böyümüşdür.

Özünüidarə islahatından sonra şəhərdə həmçinin ticarət də sürətlə inkişaf etməyə başladı. Bakıda 1877-ci ildə olan ticarət müəssisələrinin sayı 997 ədəddən 1880-cı ildə 1.392 ədədə çatmışdır. Yəni dörd il ərzinidə şəhərdə mövcud olan ticarət müəssisələrinin sayı 395 ədəd artmışdır (92,s.100).

1876-cı ilin martın 1-də Rusiya imperiyasında mövcud olan gildiya (tacir birliyi) qaydası Bakı şəhərinə də aid edildi (44,1876,29.02.№ 4).

Bir neçə il ərzinidə Bakıda olan gildiya ticarət müəssisələrinin sayı xeyli çoxaldı. Belə ki, gildiyanın Bakıya aid edilməsinin ikinci ili olan 1877-ci ildə burada 26 birinci gildiya və 325 ikinci gildiya ticarət müəssisələri var idi, 1880-ci ildə bunların sayı müvafiq surətdə 102 və 446-ya çatdı. Qeyd etmək lazımdır ki, 1880-ci ildə gildiya ticarət müəssisələri həmin ildə Bakıda mövcud olan bütün ticarət müəssisələrinin 40 faizini təşkil edirdi (92,s.105).

1872-ci ilin fevralında iltizam sisteminin ləğv edilməsi Bakıda neft sənayesinin sürətli inkişafına səbəb oldu. Neft emalı

müəssisələrinin artması Bakını dünya neft sənayesinin mərkəzlərindən birinə çevirmiş və müxtəlif sahələri əhatə edən xarici kapitalın Bakı şəhərinə axınını gücləndirmişdi.

H.Zərdabi "Kaspi" qəzetində bu barədə yazırdı: "Cansıxıcı, səliqə-sahmansız bu şəhərciyəzin torpağı və havası o qədər qonaqsevməz və xoşagəlməz idi ki, bura sürgün yerinə çevrilmişdi. Lakin qonaqsevməz bu yerlərdəki xəzinəyə məxsus neft mədənləri 1872-ci ildə otkup (iltizam) idarəçiliyindən çıxarıldı və xüsusi idarəçilyə verildi. Buruqlar gurladı, neft aşıb-daşdı, yaranışından bu günə qədər hətta yağış suyu ilə belə bircə dəfədə olsun dolmayan qumluqlar və daşlıqlar neftlə tamam doldu. Bu möcüzə haqqında xəbərlər dünyanın hər yerinə gedib çatdı və işbazlar öz alətlərini yır-yığış edərək, hər yerdən axışıb, buralara gəlməyə başladılar.

Beləliklə, sürgün olunanların məcburi saxlandıqları bu yerlərə saysız-hesabsız könüllü gəlmələr axın elədilər və heç zaman heç bir gəlir gətirməyən bu dənəvar qumluqların, balıqqulağından yaranan əhəngdaşlarının sahiblərinin başına milyonlar yağmağa başladı. Dirçəlməyə başlayan həmin bu Bakı şəhərində əvvəlki qonaqsevməz şəhərdən əsər-əlamət qalmadı və Bakı günbə-gün deyil, saatbasaat böyüyürdü, genişlənirdi, burada həyat qaynayırdı. İndi hamının gözləri Bakıya, onun ətrafına, oradan isə Şərqi Zaqafqaziyanın başqa ərazilərinə dikilmişdi "(166, 1899, № 223).

Belə bir iqtisadi yüksəliş dövrü keçirən Bakıya Rusiya imperiyasının müxtəlif, Şimali və Cənubi Azərbaycanın bütün bölgələrindən iş dalınca gəlməyə başladılar. Bu vəziyyət XIX əsrin sonu-XX əsrin əvvəllərində şəhərdə əhalinin sayının kəskin sürətlə artmasına gətirib çıxartdı.

1859-cu ildə Bakının quberniya mərkəzinə çevrilməsi ilə şəhərdə həm ticarət və sənaye inkişaf etmiş, həm də əhalinin sayı tədricən artmağa başlamışdır. Belə ki, 1859-cu ildə şəhərdə əhalinin sayı 12.191 nəfər idisə, bu rəqəm 1873-cü ildə 15.105, 1886-cı ildə 86.611 və 1897-ci ildə isə 111.904 nəfərdən ibarət olmuşdur (182,s.65).

Bakının quberniya mərkəzinə çevrilməsindən sonra şəhərdə əhalinin sayı 1873-cü ilə kimi 2.914 nəfər, neft sənayesində iltizam sisteminin ləğv edilməsindən 1886-cı ilə kimi 71.506 nəfər və 1886-cı ildən 1897-ci ilə kimi isə 25.293 nəfər artmışdı.

1883-cü ildə Bakı-Tiflis və 1900-cü ildə Petrovsk-Dərbənd-Bakı dəmiryol xətlərinin istifadəyə verilməsi ticarətin inkişafına, yük və sərnişin daşımalarının ucuzlaşdırılmasına, həmçinin də şəhərdə əhalinin sayının artmasına səbəb oldu. Beləliklə, Bakı dəmir yolu vasitəsi ilə Tiflis və Qara dəniz limanları ilə birləşdirildi. Bundan sonra Bakı dəmiryolu stansiyasının mal dövriyyəsi də əhəmiyyətli dərəcədə artdı. Artıq 1900-cü ildə Bakı dəmiryolu stansiyasının mal dövriyyəsi 95,4 milyon puddan ibarət olmuşdur. Həmin ildə Bakı stansiyasından 1,1 milyon sərnişin yola düşmüş və buraya 1,4 milyon nəfər gəlmişdir (92,s.25).

Beləliklə, XIX əsrin ikinci yarısından başlayaraq Bakıda kapitalist münasibətlərinin inkişafı ilə əlaqədar olaraq şəhərdə əhalinin sayı sürətlə artmağa başladı.

1897-ci il 28 yanvar tarixində bütün Rusiya imperiyasında keçirilən əhalinin ilk ümumi siyahıya alınmasına görə Bakı şəhəri 111.904 nəfər əhalinin yaşadığı iri ticarət və sənaye mərkəzinə çevrilmişdi. Bunlardan 40.341 nəfər azərbaycanlı (Cənubi Azərbaycandan gələn kəsbkarlarla birlikdə 43.710), 38.965 nəfər rus, 19.909 nəfər erməni, 1.072 nəfər tat, 1.905 nəfər yəhudi, 696 nəfər ləzgi, 835 nəfər polyak, 466 nəfər alman və 4812 nəfər isə digər millətlər idi (182,s.82-83).

Göstərilən siyahıya alınmanın nəticələrinə görə şəhər əhalisinin 37,5%-ı azərbaycanlılar (Cənubi Azərbaycandan gələn kəsbkarlarla birlikdə 39,06 %), 34,8 %-ı ruslar, 17,7 %-ı isə ermənilər, 8,3% isə digər millətlər təşkil edirdi.

Əhalinin artım sürətinə görə Bakı təkcə Rusiya imperiyasında deyil, hətta Avropa miqyasında kəskin şəkildə fərqlənirdi.

Şəhər İdarəsi "Şollar-Bakı" su kəmərinin çəkilməsi ilə əlaqədar olaraq şəhərin suya olan tələbatının həcmini müəyyənləşdirmək üçün 1903-cü il 22 oktyabr tarixində şəhər əhalisini siyahıya aldı. Həmin ildə şəhərdə əhalinin sayı 143.786 nəfər olmuşdur (154,s.29). Onlardan 42.132 nəfəri və ya 29,30% azərbaycanlı, 50.972 nəfəri və ya 35,44% rus, 24.837 nəfəri və ya 17,27%, erməni və 25.845 nəfəri və ya 17,97% isə başqa millətlər idi (117,s.21).

1913-cü ildə də eyni məqsədlə aparılan siyahıya alınmaya görə isə şəhərdə əhalinin sayı 214.672 nəfərə çatmışdır (154,s.29). Onlardan 83.690 nəfəri və ya 38,9% azərbaycanlı, 74.542 nəfəri və ya 34,7% rus, 38.302 nəfəri və ya 17,8%, erməni və 18.138 nəfəri və ya 8,6% isə başqa millətlər idi (117,s.22).

Neft sənayesinin və onunla əlaqədar olaraq sənayenin digər sahələrinin inkişafı nəticəsində Bakı orta əsr feodal şəhərindən, ticarətin və sənayenin inkişaf etdiyi, ərazisinin genişləndiyi və əhali sayının sürətlə artdığı bir kapitalist şəhərinə çevrildi.

Kapitalist sənayesinin inkişafı ilə əlqədar olaraq Bakı ilə yanaşı bölgələrdə də şəhər əhalisinin sayı durmadan artırdı. 1897-ci il siyahıya alınmasına görə Gəncədə 32.216, Şamaxıda 19.625, Nuxada 24.373, Şuşada 25.594, Qubada 15.171, Naxçıvanda 8.656, Ordubadda 4.551 nəfər, Salyanda 11.787 nəfər, Zaqatalada 3.009 nəfər və Göyçayda isə 2.201 əhali yaşayırdı (182,s.82).

1897-ci il siyahıya alınmasına əsasən Şimali Azərbaycanda 1.890.126 nəfər əhali yaşayırdı. Onunda 275.664 nəfəri və ya 14,58%-i şəhər əhalisi təşkil edirdi. Şimali Azərbaycanda bütün şəhər əhalisinin 40,59 % Bakıda yaşayırdı.

XIX əsrin 70-ci illərində kapitalist münasibətlərinin inkişafı ilə əlaqədar olaraq Bakı şəhərində burjuaziya təbəqəsi təşəkkül tapmağa başladı. Çarizm burjuaziyanı mütləqiyyətin dayağına çevirməyə çalışaraq onun idarəetmə orqanlarında iştirakına icazə verməyə məcbur oldu. Çünki iqtisadi cəhətdən

güclənən burjuaziya daha artıq iqtisadi fəaliyyətlə kifayətlənməyərək tədricən idarəetmədə də iştirak etmək uğrunda mübarizəyə qoşulurdu.

XIX əsrin sonu-XX əsrin əvvəllərinə Şimali Azərbaycanda ictimai-siyasi hərəkatların genişlənməsində milli burjuaziya və demokratik ziyalıların əvəzsiz xidmətləri omuşdur. Milli burjuaziya və demokratik ziyalıların böyük bir hissəsi Bakı şəhərində yaşayırdılar və öz iqtisadi və siyasi maraqlarını müdafiə etməkdən ötrü yerli özünüidarə orqanlarında təmsil olunmağa çalışırdılar. Bu səbəbdən milli burjuaziya da özünüidarə islahatının Şimali Azərbaycan şəhərlərində xüsusən, Bakıda keçirilməsini istəyirdi. Çünki Şimali Azərbaycan milli burjuaziyası iqtisadi fəaliyyətini genişləndirmək və mülkiyyətlərinin toxunulmazlığını təmin etmək üçün özünüidarə orqanlarında iştiraka ehtiyac duyurdu. Belə bir şəraitdə, çarizm Şimali Azərbaycan milli burjuaziyasını da mütləqiyyətin dayağına çevirməyə çalışaraq şəhər özünüidarə islahatını Şimali Azərbaycan şəhərlərində də keçirməyə məcbur oldu.

Göründüyü kimi, Şimali Azərbaycan şəhərlərində xüsusən, Bakı şəhərində özünüidarə islahatının keçirilməsi üçün həm siyasi, həm də iqtisadi şərait tam yetişmişdir. Buna şəhərdə baş verən iqtisadi inkişaf, əhalinin sayının artması və şəhərin gəlirlərinin çoxalması, milli burjuaziya və fəhlələrin bir sosial təbəqə kimi formalaşması imkan verirdi. Lakin çarizm Rusiya, Belarusiya, Bessarabiya və Gürcüstan şəhərlərində özünüidarə islahatı keçirərkən nə əhalinin sayını, nə də ki, şəhərlərin gəlirlərini nəzərə almamışdır. Şimali Azərbaycanda şəhər islahatının bir qədər gec keçirilməsi isə hər şeydən əvvəl çarizmin xristianlarla müqayisədə müsəlmanlarla bağlı milli ayrı-seçkilik siyasətindən irəli gəlirdi. Çar hökuməti xristianların yaşadıqları müstəmləkə bölgələrində yaratdığı şəraiti, verdiyi güzəşt və imtiyazları müsəlman xalqlarının yaşadıqları bölgələrdə müsəlmanlar üçün yaratmırdı, heç bir imtiyaz və güzəştlərə getmirdi.

## §1.2 Rusiyada 1870 və 1892-ci illərdə keçirilən şəhər islahatlarının Bakı şəhərində tətbiqi.

Çarizm ictimai həyatın bütün sahələrində-zemstvo, məhkəmə və hərbi sahədə olduğu kimi şəhər özünüidarəsi sahəsində də islahat keçirməyə başladı. Kəndli islahatından sonra şəhərlər inkişaf etməyə başlayır, əhalinin sayı çoxalırdı. Bununla əlaqədar şəhərlərin büdcələri də artırdı. Buna görə də şəhərlərin mövcud idarəçilk sistemi artıq dəyişdirilməli idi.

1870-ci il iyunun 16-da Dövlət Şurasında "Şəhər Əsasnamə"si təsdiq edildi. Yeni qanun ilk növbədə Avropa Rusiyası, Sibir və Bessarabiya şəhərlərində tətbiq edildi. Qalan şəhərlərdə qanunun Daxili İşlər Nazirinin göstərişi ilə yerli şərait nəzərə alınmaqla tətbiq edilməsi nəzərdə tutulurdu. Bu "Əsasnamə" Polşa, Finlandiya və Mərkəzi Asiyada tətbiq edilmədi (186,s.50).

"Şəhər Əsasnaməsi" Mərkəzi Rusiyaya nisbətən Cənubi Qafqazda bir qədər gec tətbiq edildi. Çar hökumətinin fikrincə guya özünüidarənin təşkili sahəsində "özgə xalqdan olanların" təcrübəsi yoxdur (74,s.159).

Bundan başqa, çar hökuməti belə hesab edirdi ki, Şimali Azərbaycan şəhərlərində, o cümlədən Bakıda şəhər islahatının tətbiq edilməsi üçün zəruri vəsait yoxdur. Lakin XIX əsrin 60-70-ci illərində Bakıda sənaye və ticarət inkişaf etmiş, əhalinin sayı xeyli çoxalmış və büdcəsi isə artmışdır.

XIX əsrin ikinci yarısından başlayaraq Bakı dünya neft sənayesinin, dəniz və dəmiryolu daşımalarının, böyük tranzit və ticarət, maliyyə və kredit müəssisələrinin inkişaf etdiyi bir sənaye mərkəzinə çevrilmişdi. Əsrin sonunda şəhərdə 5 minədək sənaye və ticarət müəssisəsi fəaliyyət göstərirdi. 1871-ci ildə Bakı şəhəri üzrə şəhər vergisi 60 min rubl idi. Lakin şəhər islahatının tətbiq edildiyi bir sıra şəhərlərdə isə şəhər vergisi Bakıdan aşağı idi. Məsələn, 1869-cu ildə Ryazanda 40 min rubl, Novqorodda 30 min rubla qədər, Vladimirdə 27 min rubl, Smolenskidə 20 min rubl, Kutaisidə isə 55 min rubl idi.

Göstərilən dövrdə Şimali Azərbaycanın digər şəhərlərində də şəhər vergisinin miqdarı və əhalinin sayı islahatın keçirildiyi şəhərlərə bərabər idi. Belə ki, Gəncədə şəhər vergisi 26 min rubl, Nuxada 30 min rubl və Şuşada isə 29 min rubl idi (182,s.130).

Şimali Azərbaycan şəhərlərində əhalinin sayı da islahatın keçirildiyi şəhərlərin əhalisinin sayına bərabər idi. Belə ki, islahatın tətbiq edildiyi Bessarabiya şəhərlərində 1869-cu ildə Kişinyovda 94.114, Akkermanda 29.343, Benderanda 22.448, Sorokaxtda 8.303, Xatında isə 18.828 nəfər (148,s.161-162) və Gürcüstan şəhərlərindən 1886-cı ildə Tiflisdə 78.445, Kutaisidə 22.643, Batumidə 14.803 və Axalsıxada isə 16.116 nəfər əhali yaşayırdı (174.s.9).

Göründüyü kimi, Şimali Azərbaycan şəhərlərində yığılan şəhər vergisi və əhalinin sayı islahatın keçirilməsi üçün kifayət qədər idi. Lakin çarizm vəsait çatışmazlığını və əhalinin sayını bəhanə gətirərək şəhər özünüidarə islahatının Şimali Azərbaycanda tətbiqinin bir qədər gecikdirilməsində əsas məqsədi, Şimali Azərbaycanda yerli özünüidarə orqanlarının meydana gəlib inkişaf etməsinə yol verməmək və azərbaycanlıların yerli özünüidarə orqanlarının işində iştirakının qarşısını almaq idi. Çünki şəhər islahatının tətbiqi ilə əlaqədar olaraq təşkil ediləcək Şəhər Dumalarında deputatların müəyyən bir hissəsini də azərbaycanlılar təşkil etməli idi (37,s.17).

Lakin XIX əsrin 70-ci illərində Bakı şəhərində kapitalist münasibətlərinin inkişafı, şəhərin imperiyanin inkişaf etmiş iri ticarət və sənaye mərkəzlərindən birinə çevrilməsi və Şimali Azərbaycan milli burjuaziyasının getdikcə artan tələbləri qarşısında çarizm şəhər özünüidarə islahatını Şimali Azərbaycan şəhərlərində də keçirməyə məcbur oldu (37,s.17).

1870-ci il 16 iyun tarixli "Şəhər Əsasnaməsi"nin Cənubi Qafqaz diyarı şəhərlərində tətbiqi qaydaları barədə Qafqaz canişininin təqdimatına 1877-ci il oktyabrın 28-də Dövlət Şurasının ümumi iclasında baxıldı və Qafqaz canişininə Cənubi

Qafqaz diyarının şəhərlərində “Şəhər Əsasnaməsi”nin tətbiqinə aşağıdakı müvəqqəti qaydaları gözləməklə icazə verdi:

a) ictimai idarələrə malik olmayan şəhərlərdə “Əsasnamə”nin tətbiq edilməsi, hər bir şəhərdə canişin tərəfindən təyin olunan şəxsin sədrliyi ilə xüsusi komissiya yaradılır. Komissiyanın tərkibinə qubernator tərəfindən seçilmiş 6-dan-12 nəfərədək yerli əhalinin daha çox nüfuzlu və tanınmış nümayəndələri daxil edilir;

b) bu xüsusi komissiyaya Şəhər Duması və Şəhər İdarəsinə seçkilərin hazırlanması və keçirilməsi vəzifəsi həvalə edilir;

v) seçki yığıncaqlarına xüsusi komissiyanın sədri rəhbərlik edir;

q) xüsusi komissiyanın sədrinə şəhər başçısının vəzifələrini müəyyən müddətdə icra etmək həvalə edilir (182,s.132).

Dövlət Şurasının göstərilən 1877-ci il 28 oktyabr tarixli qərarına əsasən Cənubi Qafqazda “Şəhər Əsasnaməsi”nin tətbiq olunması qaydaları müəyyənləşdirildi, diyarın müxtəlif şəhərlərində “özünüidarə” orqanlarının təşkiletmə ardıcıllığı məsələsinin həlli Qafqaz canişininin özünə tapşırıldı (180,s.208).

Cənubi Qafqazda şəhər islahatı ilk əvvəl Gürcüstan şəhərlərində tətbiq edildi. Gürcüstan şəhərlərində özünüidarə islahatı müxtəlif vaxtlarda Tiflis və Kutaisidə 1875-ci ildə, Qori və Ahalsıxda 1876-cı ildə, Potidə 1882-ci ildə, Batumidə 1888-ci ildə, Telavi, Suxumi, Ozurqeti və Axalkalaki şəhərlərində isə XIX əsrin 90-cı illərində keçirildi (174,s.12).

Qərbi Azərbaycan şəhərləri içərisində islahat İrəvan şəhərində 1879-cu il oktyabrın 1-də tətbiq edildi.1886-cı ildə Dumanın icra orqanı Şəhər İdarəsi də fəaliyyətə başladı. İrəvan Şəhər Dumasının deputatları azərbaycanlı, erməni və ruslardan ibarət idi (58,s.946-963).

1892-ci il “Şəhər Əsasnaməsi”ndən sonra Qərbi Azərbaycanın Gümrü və Yeni Bəyazid şəhərlərində də şəhər özünüidarəsi tətbiq edildi (43,309-317).

Şəhər islahatının keçirildiyi zaman İrəvan şəhərində əhalinin yarı hissəsini azərbaycanlılar təşkil edirdi.

“Əsasnamə”nin 44-cü maddəsinə görə azərbaycanlılar Dumada deputatların yarısına qədəri ilə təmsil olunmalı idi.

1886-cı il məlumatına görə İrəvan şəhərində 14.738 nəfər əhali yaşayırdı. Şəhərdə yaşayan əhalinin etnik tərkibində azərbaycanlılar 7.228 nəfər, ruslar 313 nəfər, ermənilər 7.142 nəfər, digər millətlər isə 55 nəfər idi (43,s.50).

1897-ci il ümumrusiya siyahıya alınmasına görə, İrəvan qəzasının etnik tərkibi aşağıdakı kimi idi: azərbaycanlılar 77.491 nəfər, ruslar 3.713 nəfər, ermənilər 58.148 nəfər, kürdlər 8.195 nəfər, yəhudilər 326 nəfər, aysorlar 2.288 nəfər, digər millətlər 718 nəfər, İrəvan şəhərində azərbaycanlılar 12.359 nəfər, ruslar 3.171 nəfər, ermənilər 12.523 nəfər, kürdlər 64 nəfər, yəhudilər 204 nəfər, aysorlar 81 nəfər, digər millətlər isə 604 nəfər idi (43,s.52).

İrəvan Şəhər Dumasına seçkilər azərbaycanlı və erməni namizədlər arasında kəskin mübarizə şəraitində keçirdi. Bakı və Tiflis şəhərlərində olduğu kimi İrəvan şəhərində də çar hakimiyyət orqanları tərəfindən müdafiə olunan ermənilər Şəhər İdarəsində demək olar ki, bütün vəzifələri ələ keçirmişdirlər. Çar hökuməti İrəvan şəhərini ermənilərin siyasi mərkəzi kimi nəzərdə tutduğundan orada yaşayan azərbaycanlıları heç bir halda idarəçilik orqanlarında o cümlədən, özünüidarə orqanlarında geniş təmsil olunmalarına imkan vermir və azərbaycanlıları idarəçilikdən uzaqlaşdırmaqla şəhərin idarəsini bütünlüklə ermənilərə vermişdi. Bu da Rus imperiyasının yerli özünüidarə sahəsində ağır müstəmləkə və azərbaycanlılara münasibətdə milli ayrı-seçkilik siyasətindən irəli gəlirdi.

Şəhər özünüidarə islahatı Şimali Azərbaycan şəhərləri içərisində 1878-ci ildə yalnız Bakıda tətbiq edildi. Şəhər islahatına əsasən iki orqanın-qərarverici və sərəncamverici orqan olan Şəhər Duması və onun icra orqanı olan Şəhər İdarəsinin yaradılması nəzərdə tutulurdu. Bakı şəhərində Duma və Şəhər İdarəsi Rusiya senatının fərmanına əsasən 1877-ci ilin dekabrında təsis edildi (37,s.19).

Duma seçkili orqan idi. Dumaya seçkilər dörd ildən bir keçirilirdi. 1870-ci il "Şəhər Əsasnaməsi" ilə verilən seçki hüququ burjua xarakteri daşıyırdı.Yeni qanunvericiliyə görə seçki hüququ silki aidiyyat üzrə deyil, xüsusi mülkiyyət üzrə verilirdi. Şəhərdə yaşayıb vergi verən bütün əhali seçkilərdə iştirak edə bilərdi. Vergi ödəməyən ziyalılar, fəhlələr, 25 yaşına çatmayan şəxslər və qadınların seçkilərdə iştirak etmək hüququ yox idi.

"Əsasnamə"yə görə həmçinin, mülki hüquqları məhdudlaşdırılanlar, cinayət törətməyə görə məhkum olunanlar, istintaq və polis nəzarətində olanlar, şərab dükanları və meyxana sahibləri, habelə altı aylıq maaşından artıq vergi borcu olan şəxslərin də seçkilərdə iştirak etmək hüququ yox idi (154,s.145).

Şəhər Dumasının üzvləri verilən verginin miqdarından asılı olaraq yaradılan üç kuriya üzrə seçilirdilər. Lakin hər kuriya bərabər miqdarda deputat seçirdi ki, bu da Dumada iri burjuaziyanın üstünlüyünü təmin edirdi. 1870-ci il şəhər islahatı burjua prinsipinə uyğun olaraq vahid əmlak senzi əsasında təşkil edilirdi. Buna seçki ərəfəsində iki il fasiləsiz şəhərdə yaşamaq şərti ilə əsasən tərkibi ticarət və sənaye müəssisələri olan daşınmaz əmlak sahibləri, tacir şəhadətnaməsinə malik olanlar, sənətkarlar və xırda tacirlər daxil idilər (182,s.138-139).

Bakı şəhərinin mədən-zavod rayonuna özünüidarə tətbiq edilmədiyindən orada yaşayan əhaliyə də seçki hüququ verilməmişdir. Bu mədən rayonuna, Sabunçu, Balaxanı, Ramana, Zabrat, Biləcəri, Suraxanı, Əmircan, Bülbülə, Bibiheybət kəndləri, zavod rayonuna isə Qaraşəhər, Ağşəhər, Zığ, Şıx, Əhmədli, və Keşlə daxil idi. Mədən-zavod rayonunda əsasən Cənubi Azərbaycandan və Volqaboyundan neft sənayesində işləmək üçün gələnlər yaşayırdı.

Bakı Dumasının 1903-cü il 14 oktyabr tarixli iclasında mədən-zavod rayonlarından Bayıl burnunun, Ağ şəhərin və Bibiheybətin Bakı şəhərinə birləşdirilməsi məsələsi müzakirəyə çıxarıldı. Lakin Dumada təmsil olunan erməni deputatlar səs vermədiklərinə görə bu birləşmə təklifi qəbul edilmədi (166, 1903.16.X.№223).

Yalnız 1907-ci ildə Bayıl və Bibiheybət yaşayış məntəqələri Bakı səhər hüqudlarına daxil edilərək özünüidarə bu ərazilərə də tətbiq edildi.

Mədən-zavod rayonlarının və şəhərin demokratik ictimaiyyətinin təkidli tələblərinə baxmayaraq, çar hakimiyyət orqanları və Neft Sənayeçiləri Qurultay Şurası mədən rayonlarının şəhərin hüdudlarına daxil edilməsinə bütün vasitələrlə mane olurdular.

Mədən rayonlarında idarəçilik polis orqanları tərəfindən həyata keçirilirdi. Abadlaşdırma, əhalinin su və ərzaqla təchizi, əhaliyə tibbi xidmət göstərilməsi, təhsilin inkişafı, yanğından mühafizə və s. işlərlə Bakı Neft Sənayeçiləri Qurultay Şurası (1884-1920) məşğul olurdu. Qurultay Şurası erməni neft sənayeçilərinin nəzarətində idi və ona XIX əsrin 90-cı illərindən 1906-cı ilədək Pavel Qukasov, 1909-1917-ci illərdə isə onun qardaşı Arşak Qukasov rəhbərlik etmişdir. Onların hər ikisi müxtəlif vaxtlarda Dumanın deputatları olmuş, "Daşnaksütyun" partiyasının tərəfdarı idilər və ona maddi yardım göstərirdilər.

Erməni neft sənayeçiləri çar hakimiyyət orqanları ilə birləşərək 1905-1906-cı illərdə ermənilərin Bakıda terror törətdikləri vaxt mədənlərdə təşkil etdikləri qarşılıqlı yanğınları azərbaycanlıların üstünə ataraq Sabunçu, Zabrat, Balaxanı və Ramana kəndlərinin azərbaycanlı əhalisini köçürtmək və həmin kəndlərə erməni və digər xristian əhalini yerləşdirmək istəyirdilər. Bakı kəndlərinin köçürülməsi ideyasını ermənilərin başçılıq etdiyi üç aparıcı ticarət-sənaye təşkilatı-P.Qukasovun rəhbərlik etdiyi Bakı Neft Sənayeçiləri Qurultay Şurası, K.Xatisovun rəhbərlik etdiyi İmperator Rus Texniki Cəmiyyətinin Bakı şöbəsi və S.Tağıanosovun rəhbərlik etdiyi Bakı Birja Komitəsi dəstəkləyirdi (20,s.68).

Lakin 1905-1907-ci illər inqilabi hərəkatı dövründə Şimali Azərbaycanda milli-azadlıq hərəkatının gücləndiyi bir şəraitdə çar hakimiyyət orqanları bu mənfur planın həyata keçirilməsindən imtina etmək məcburiyyətində qaldı. Göstərilən planın həyata keçirilməsinin qarşısının alınmasında Bakı Dumasının

deputatları H.Z.Tağıyev, Ə.M.Topçubaşov və Ə.Ağayev mühüm rol oynadılar.

Şəhər özünüidarə orqanlarının səlahiyyətlərinə əsasən şəhərin təsərrüfat məsələləri, abadlaşdırma, ticarətə himayəçilik etmək, yangından mühafizə tədbirləri, əhaliyə tibbi xidmət göstərilməsi, təhsilin inkişafı, əhalini içməli su, ərzaqla təchiz etmək, vergi və rüsumları müəyyən etmək və toplamaq, küçələrin təmizlənməsi, işıqlandırılması, yaşıllaşdırma, şəhərdə sərnişin daşımanı təşkil etmək, bazarların təşkili, orada qaydaların müəyyən və nəzarət edilməsi və s. istiqamətlərdə müəyyənləşdirilmişdir (5,s.597).

Özünüidarə orqanlarının fəaliyyəti üzərində inzibati nəzarət də müəyyən edilmişdi.Şəhər Duması və İdarəsinin qanuni fəaliyyəti üzərində nəzarət qubernatorun şəxsində Şəhər İşləri üzrə Quberniya İdarəsi tərəfindən həyata keçirilirdi (180,s.209).

Şəhər İşləri üzrə Baki Quberniya İdarəsi Qafqaz canişininin sərəncamı ilə 1877-ci il martın 18-də 1870-ci il "Şəhər Əsasnaməsi"nin Bakı şəhərində tətbiq edilməsi ilə əlaqədar özünüidarə orqanlarının fəaliyyətinə inzibati nəzarət etmək üçün təsis edilmişdir.O, həmçinin məhkəmə instansiya rolunu icra edir, Duma və Şəhər İdarəsinin qanuni fəaliyyəti üzərində inzibati nəzarəti həyata keçirir, qanuna uyğun olmayan şəhər özünüidarə orqanlarının qərarlarını ləğv edirdi. Daha çox vergi və rüsumların müəyyən edilməsi və şəhər torpaqlarının icarəyə verilməsi və icarə haqqı ilə bağlı qərarlar ləğv edilirdi. Məsələn, Dumanın 1897-ci ildə Bakı sakini Şestakova Molokan küçəsindən hər kv.sajeni 30 rubldan 81,03 kv.sajen torpaq sahəsinin satılması ilə bağlı qərarını quberniya idarəsi torpağın hər kv.sajenini 30 rubl qiymətləndirilməsini hədsiz aşağı hesab edərək ləğv etmişdir. Halbuki həmin dövrdə, həmin ərazidə torpağın hər kv.sajeni 60 rubl idi (30,s.55).

Şəhər İşləri üzrə Baki Quberniya İdarəsinin tərkibinə qubernator, vitse-qubernator, quberniya vergi idarəsini idarə edən və ya dövlət əmlakını idarə edən şəxs, dairə məhkəməsinin prokuroru və şəhər başçısı daxil idi (37,s.21).

“Əsasnamə”yə uyğun olaraq qubernator Dumanın hər hansı bir qərarı üzərində veto qoymaq hüququna malik idi. Dumanın vacib qərarları ancaq quberniya idarəsi tərəfindən təsdiq edildikdən sonra icra edilə bilərdi. Məsələn, borc müqavilələrinin təsdiqi, şəhərin daşınmaz əmlakının özgəninkiləşdirilməsi, vergilərin miqdarının artırılması kimi qərarlar quberniya idarəsi tərəfindən təsdiq edilməli idi. Göründüyü kimi şəhər özünüidarə orqanlarının fəaliyyəti üzərində nəzarət ancaq qubernatora həvalə edilmişdir (37,s.21).

Sovet tarixşünaslığında tədqiqatçılar rəsmi ideologiyadan çıxış edərək şəhər özünüidarə orqanlarının, o cümlədən Bakı şəhər özünüidarə orqanlarının işində müstəqilliyin formal xarakter daşıdığını qeyd edirdilər. Qeyd etmək istəyirəm ki, Bakı şəhər özünüidarə orqanları bələdiyyə orqanı kimi bütün səlahiyyətlərə malik olmuşdur.Lakin özünüidarə orqanlarının qanunauyğun olmayan qərarlarının məhkəmələr deyil, inzibati orqan tərəfindən ləğv edilməsi şəhər özünüidarə islahatının çatışmayan cəhəti idi. Bu da həmin dövrdə Rusiyada mütləqiyyət rejiminin güclü olması və mütləqiyyət bürokratik aparatının qeyri-məhdud səlahiyyətlərə malik olması ilə əlaqədar idi. Rusiya imperiyası ictimai həyatın digər sahələrində olduğu kimi qanunvericilik və hüquq qaydası baxımından da dövrünə görə Avropa ölkələrindən geri qalırdı. Rusiyanın qanunvericilik sistemi və hüquq qaydası o inkişaf səviyyəsinə hələ çatmamışdır ki, özünüidarə orqanlarının qərarlarından narazı qalan vətəndaşlar və maraqlarına toxunan şəxslər məhkəməyə müraciət etsinlər.

1881-ci ildə xalqçılar tərəfindən çar II Aleksandrın (1855-1881) sui-qəsd nəticəsində öldürülməsindən sonra mütləqiyyət bütün imperiya ərazisində irticanı gücləndirdi və əks-islahatlar keçirdi. Belə bir şəraitdə, 1892-ci il iyunun 11-də Rusiyada yeni “Şəhər Əsasnamə”si qəbul edildi. Bu islahat "şəhər əks islahatı" adını aldı.

Yeni “Şəhər Əsasnaməsi” şəhər özünüidarə orqanları üzərində dövlətin nəzarətini həddindən artıq gücləndirdi. Özünü-

idarə orqanlarının bürokratik mütləqiyyət aparatına tabeçiliyi son dərəcə artdı. Bu qanunla şəhər özünüidarə orqanları yerli hakimiyyət orqanlarının ciddi nəzarəti altına keçirildi. Qubernatorun nəzarəti şəhər özünüidarə orqanlarının bütün fəaliyyətinə yönəlmişdi. Duma qərarlarının qubernator və Daxili İşlər Naziri tərəfindən təsdiq edilməsi məcburi idi. Dumanın qərarları qubernatorun, yaxud Daxili İşlər Nazirinin razılığı olmadan icra edilə bilməzdi. İndi Dumanın az-çox əhəmiyyətli qərarlarının da təsdiq edilməsi tələb olunurdu. Duma ancaq kiçik əhəmiyyətli işləri müstəqil həll edə bilərdi. Dumanın bütün qərarlarının surəti qəbul edildiyi gündən keçən iki həftə ərzində qubernatora göndərilməli idi. Təsdiq edilməyə aid olmayan qərarlar əgər qubernator tərəfindən qəbul edildiyi gündən iki həftə müddətində icrası dayandırılmayıbsa icra edilə bilərdi. Dumanın qərarları hakimiyyət orqanları tərəfindən təsdiq edilməlidirsə, təsdiq olunanadək icra edilmirdi (37,s.22).

"Şəhər Əsasnamə"si qubernatorun şəhər özünüidarə orqanlarının bütün işlərinə qarışmasını qanuniləşdirdi və ona vəzifəli şəxslərin tutduğu vəzifələrdən kənarlaşdırmaq hüququ verdi. 1899-cu il mayın 15-də qəbul edilmiş "Qafqaz diyarının şəhərlərində Şəhər Dumalarının və müvəkkillər məclislərinin yaradılması ilə bağlı müvəqqəti qaydaların müəyyən edilməsi haqqında" Əsasnamə ilə şəhər özünüidarə orqanlarının hüquqları bir qədər də məhdudlaşdırıldı. Yeni qaydalara uyğun olaraq Şəhər Dumasının deputatları tutduqları vəzifələrdən məhrum edilə bilərdilər (37,s.22)

Göründüyü kimi, Dumanın qanunauyğun olmayan bütün qərarları qubernator tərəfindən ləğv edilə və icrası dayandırıla bilərdi. Özünüidarə orqanlarının vəzifəli şəxslərinin tutduqları vəzifələrdən kənarlaşdırılması bu orqanların mütləqiyyət bürokratik aparatının ciddi nəzarəti altına keçməsinə gətirib çıxartdı. Çarizm bu yolla müstəmləkələrində yerli xalqların özünüidarəetmə orqanlarının inkişafına və müstəqilliyinə yol verməməyə, özünüidarə orqanlarını tamamilə öz canişinlərinin tabeçiliyində saxlamağa çalışırdı.

“Əsasnamə” ilə Duma rəhbərliyinin, habelə Şəhər İdarəsi üzvlərinin və şəhər katibinin seçilməsi qubernatorun mülahizəsi əsasında həyata keçirilirdi. Qeyd etmək lazımdır ki, Şəhər İşləri üzrə Quberniya İdarəsi özünüidarə orqanlarının hər bir qərar və sərəncamının qanuniliyini və düzgünlüyünü müzakirə etmək hüququna malik idi (180,s.215).

Şəhər başçısı Duma deputatları tərəfindən, Duma deputatlarından və ya kənar şəxslərdən seçilirdi və Şəhər İşləri üzrə Quberniya İdarəsi tərəfindən vəzifəyə təsdiq edilirdi. Şəhər qulluqçularının şəxsi heyəti də quberniya idarəsinə tabe edilmişdir. Əvvəllər tələb edilirdi ki, şəhər başçısı ancaq seçilmiş şəxs kimi təsdiq edilsin, indi isə Şəhər İdarəsinin bütün üzvləri, hətta şəhər qulluğuna daxil olmuş bütün şəxslər təsdiq edilməli idilər. “Əsasnamə” ilə şəhər başçısı və Şəhər İdarəsinin üzvləri adi dövlət qulluqçuları statusuna malik oldular (180,s.215).

Yeni qəbul edilən “Əsasnamə”yə uyğun olaraq Şəhər İşləri üzrə Quberniya İdarəsi 1892-ci il dekabrın 4-də yenidən təşkil edildi (37,s.23).

“Şəhər Əsasnaməsi” ilə üç kuriyalı seçki sistemi ləğv edildi. Deputat seçkiləri indi bir seçki yığıncağında keçirilirdi. Seçkinin məntəqələr üzrə aparılması nəzərdə tutulurdu. Seçicilərin sayı çox olduqda, Duma üzvlərinin məntəqələrdə seçilməsi müəyyənləşdirilirdi. Duma üzvləri hər məntəqənin öz seçicilərindən seçilməli idi. Dumaya seçkilər aşağıdakı qaydada keçirilirdi: seçki təyin olunan gündə seçki yığıncağı çağırılırdı; yığıncaq deputat seçkilərini həyata keçirmək üçün səlahiyyətli hesab olunurdu; səsverməyə namizəd şəxslər çıxarılırdı; səsvermə gizli yolla həyata keçirilirdi; səsvermə hər bir namizəd üçün ayrıca şarlarla aparılırdı; seçki qutusu iki hissəyə bölünürdü; seçici bir seçki şarı alırdı; səsvermə namizədin xeyrinə aparılırdısa, onda şar qutunun sağ yarısına, namizədin əleyhinə aparılırdısa, onda sol yarısına salınırdı (198,c.XII.mad.8708).

Lakin Şimali Azərbaycanın heç bir şəhərində məntəqə seçki sistemi tətbiq edilmədi. Bu da iri sənayeçilərin, ev sahibkarla-

rının və tacirlərin maraqlarına bütünlüklə cavab verirdi (180,s.218).

Deputat seçilmək üçün səslərin əksəriyyətini almaq kifayət idi. Namizədlərin aldıqları səslər bərabər olduqda seçilmiş şəxs püşk atma yolu ilə müəyyən edilirdi. Seçkilər əsas və əlavə seçkilərə bölünürdü. Əsas seçki günündə müəyyən edilmiş miqdarda deputat seçilmədikdə, əlavə seçki günü təyin edilirdi. Qanunun tələbinə müvafiq olaraq seçkidə az sayda deputat seçildikdə təkrar seçkinin keçirilməsini nəzərdə tuturdu. Əgər bundan sonra seçilmiş deputatlar müəyyən edilmiş sayın üçdə ikisindən az idisə, onda çatışmayan deputatları Dumanın əvvəlki tərkibinin deputatları ilə tamamlayırdılar (198,c.XII. mad.8708, 1892).

“Əsasnamə”nin 24-cü maddəsinə əsasən ancaq 25 yaşına çatmış kişi cinsinə məxsus Rusiya təbəələri və ən azı bir il müddətində şəhər daxilində dəyəri 300 rubldan 3 min rubladək daşınmaz əmlakı olan hökumət, xeyriyyə, tədris və elmi idarələr seçki hüququndan istifadə edə bilərdilər. Hətta, şəhər daxilində ticarət, sənaye müəssisələri olan şəxslərin, cəmiyyət və şirkətlərin seçki üçün birinci və yaxud ikinci tacir gildiyasına məxsus şəhadətnaməsinin olması tələb olunurdu. Əmlakı olmayan şəhərin qalan əhalisi seçki hüququndan məhrum edilirdi. Ziyalılar, sənətkar müəssisələrinin sahibləri və fəhlələr Dumaya seçkilərdə iştirak etmək hüququndan məhrum edilmişdilər (198,c.XII.mad. 8708).

Yeni şəhər islahatı tam formada ancaq böyük qəza şəhərlərində tətbiq edildi. Lakin çar hökuməti şəhər özünüidarəsinin bu formasını belə Şimali Azərbaycan şəhərlərində həyata keçirməyə tələsmirdi.Yerli əhalinin inkişaf etməməsi və hazırlıqlı olmaması barədə rəsmi konsepsiyadan çıxış edən çarizm müstəmləkə ucqarlarının əhalisini şəhərlərdə müstəqil idarəetməyə icazə verməyi belə ağlına gətirmirdi. “Şəhər Əsasnaməsi”nin bütün tələbləri, tam şəkildə yalnız 1897-ci ildə quberniya mərkəzi olan Yelisavetpol və 1898-ci ildə isə qəza mərkəzi olan Şuşa şəhərlərində tətbiq edildi (182,s.134).

“Şəhər Əsasnaməsi”nə əsasən digər qəza mərkəzi olan şəhərlərdə isə daha sadə özünüidarə sistemi tətbiq edildi. İslahat nəticəsində həmin şəhərlərdə 12-15 nəfərdən ibarət şəhər müvəkkillər məclisi təsis edilirdi. Müvəkkillər yerli ev sahiblərinin yığıncaqlarında dəyəri 100 rubldan az olmayaraq daşınmaz əmlaka sahib olan şəxslər seçilirdi. Müvəkkillər Məclisi şəhər ağsaqqalını və onun bir və ya iki köməkçisini seçirdi (8,s.75).

“Şəhər Əsasnaməsi” Şimali Azərbaycan şəhərlərində Dövlət Şurasının 1895-ci il 29 may tarixli qərarı ilə şamil edildi. Bu məhdud idarəçilik sistemi 1896-cı ildə Şəki və Şamaxıda, 1897-ci ildə isə Quba, Lənkəran, Naxçıvan və Ordubadda tətbiq edildi. Şəhər Dumalarına nisbətən şəhər ictimai özünüidarə orqanlarının səlahiyyəti çox məhdud idi.

Hətta, bu məhdud və sadə özünüidarə sistemi Salyan, Zaqatala və Göyçay şəhərlərində belə tətbiq edilmədi. Çar hakimiyyəti orqanları Zaqatala və Göyçayda şəhər əhalisinin sayının azlığını və Salyanda isə şəhərin islahatın keçirilməsinə hazır olmamasını bəhanə edərək özünüidarə islahatını keçirtmədi.1897-ci il siyahıya almasına görə Salyan şəhərində 11.787 nəfər əhali yaşayırdı. Burada islahatın keçirilməsi üçün şəhər əhalisinin sayı kifayət edirdi.

Yelisavetpol və Şuşa şəhərlərində islahat ona görə tam şəkildə həyata keçirildi ki, həmin şəhərlərdə xristian əhalinin xüsusən, ermənilərin sayı kifayət qədər idi. Belə ki, 1897-ci il siyahıya alınmasına görə Yelisavetpol şəhərində azərbaycanlıların sayı 17.426 nəfər, rusların sayı 2.735 nəfər və ermənilərin sayı 12.055 nəfər, Şuşa şəhərində azərbaycanlıların sayı 10.778 nəfər, rusların sayı 396 nəfər və ermənilərin sayı isə 14.420 nəfər idi. İslahatın məhdud şəkildə həyata keçirildiyi şəhərlərdə isə əksinə xristianların xüsusən, ermənilərin sayı olduqca az idi. Quba şəhərində azərbaycanlıların sayı 7.134 nəfər, rusların sayı 635 nəfər və ermənilərin sayı isə 807 nəfər, Lənkəran şəhərində azərbaycanlıların sayı 5.600 nəfər, rusların sayı 1.369 nəfər və ermənilərin sayı isə 299 nəfər, Şamaxı şəhərində azərbaycanlıların sayı 16.160 nəfər, rusların sayı 807

nəfər və ermənilərin sayı isə 2.515 nəfər, Şəki şəhərində azərbaycanlıların sayı 19.974 nəfər, rusların sayı 213 nəfər və ermənilərin sayı isə 4.186 nəfər, Naxçıvan şəhərində azərbaycanlıların sayı 6.161 nəfər, rusların sayı 232 nəfər və ermənilərin sayı isə 2.263 nəfər və Ordubad şəhərində isə azərbaycanlıların sayı 4.088 nəfər, rusların sayı 377 nəfər və ermənilərin sayı isə 1.400 nəfər idi (182,s.82).

1897-ci il siyahıya alınmasına görə Yelisavetpol şəhərində azərbaycanlılar şəhər əhalisinin 54,09%, ruslar 8,4%, ermənilər isə 37,41%, Şuşa şəhərində azərbaycanlılar 41,64%, ruslar 2,64%, ermənilər isə 55,72%, Şamaxı şəhərində azərbaycanlılar 82,34%, ruslar 4,1%, ermənilər isə 12,81%, Lənkəran şəhərində azərbaycanlılar 65%, ruslar 15,89%, ermənilər isə 3,74%, Şəki şəhərində azərbaycanlılar 81,95%, ruslar 0,87%, ermənilər isə 17,14%, Naxçıvan şəhərində azərbaycanlılar 71,17%, ruslar 2,68%, ermənilər isə 26,14%, Ordubad şəhərində azərbaycanlılar 89,82%, ruslar 3,93%, ermənilər isə 6,24%, təşkil edirdi.

Bakı Dumasına seçkilər hakim mövqe tutmaq uğrunda Azərbaycan və erməni burjuaziyasının mübarizəsi şəraitində keçirilirdi. Çar hakimiyyət orqanları bu mübarizədə erməni burjuaziyasını müdafiə edir və onların Dumada daha çox təmsil olunmalarına şərait yaradırdılar. Çarizmin bu siyasətinin nəticəsi idi ki, Dumaya seçilən erməni deputatların demək olar ki, hamısı ali təhsilli idilər və rus dilini mükəmməl bilirdilər. Lakin azərbaycanlı deputatların əksəriyyətinin həm ali təhsilli olmurdu, həm də rus dilini belə yaxşı bilmirdilər. Rus dilini bilmədiklərinə görə isə Duma iclaslarında çıxış etmirdilər və şəhərin problemlərini Duma tribunasından səsləndirməkdə çətinlik çəkirdilər. Çar hakimiyyət orqanları çalışırdı ki, azərbaycanlılardan daha çox ticarət burjuaziyasının nümayəndələri Dumaya deputat seçilsinlər. Onlarda ticarət fəaliyyəti ilə əlaqədar olaraq Duma iclaslarında belə çox vaxt iştirak etmirdilər. Bu siyasətin nəticəsi idi ki, Dumada üstün mövqe uzun müddət erməni-rus deputatlarında olmuşdur.

Ə.Ağayev “Kaspi” qəzetində “Kimdir günahkar?” adlı məqaləsində bu barədə yazırdı ki, Qafqaz sakinləri şəhərlərin bütün çatışmazlıqlarında Şəhər İdarəsini günahlandırmağı adət ediblər. O, göstərir ki, Şəhər Duması necədirsə Şəhər İdarəsi də o cürdür. Məqalədə Ə.Ağayev yazırdı: “Bakı Şəhər Dumasının deputatlarından biri mənim sualıma sadəlövcəsinə belə cavab verdi:“Mən ticarət adamıyam. Moskvaya gedirəm, hansı ki, böyük ticari əlaqələrə sahibəm”.“Şəhər Dumasının deputatı” sözü mənim vizit kartımda böyük ticari əhəmiyyət kəsb edir: mənə vəsait verənlər üçün o, mövqe deməkdir. Bu mənim məqsədimdir” (166,1903.04.05.№ 98).

Yeni seçilmiş Duma deputatları öz fəaliyyətlərinə məxsus olduqları dinin ruhani başçısı qarşısında and içməklə başlayırdılar. Dumanın ildə iki sesiyası keçirilirdi. Qış sesiyası yanvarın əvvəlindən iyunun ortalarınadək, payız sesiyası isə sentyabrın ortalarından dekabrın sonunadək davam edirdi. Adətən, hər sesiya dövründə Dumanın 24 iclasının keçirilməsi nəzərdə tutulurdu. Duma hər il üçün iclaslarının cədvəlini ondan əvvəlki ilin sonunda müəyyən edirdi. Müsəlman və xristian bayram günlərinə düşən iclaslar keçirilmirdi. Bununla yanaşı, şəhərin büdcəsinin təsdiq edilməsi ilə əlaqədar Dumanın növbədənkənar iclaslarının da keçirilməsi nəzərdə tutulurdu. Duma deputatlarının əksəriyyəti şəhər özünüidarə orqanlarında iştiraka belə laqeyd idilər. Onlar özlərinin ticarət maraqlarını hətta Duma iclaslarından üstün tuturdular. Buna görə də kvorum olmadığından Dumanın hər üç iclasından biri pozulurdu (37,s.26).

Dumaya şəhər başçısı rəhbərlik edirdi. Şəhər başçısı Dumanın iclasını çağırmaq haqqında sərəncam verir və iclasın gündəliyini müəyyən edirdi. Deputatlar Dumanın iclasında arzu etdikləri hər hansı bir təklifi irəli sürmək istədikdə iclasa üç gün qalmış bu barədə şəhər başçısına xəbər verməli idilər. Hökumət şəhər başçısı vəzifəsinə namizədlərin seçilməsinə çox böyük əhəmiyyət verirdi. Duma şəhər başçısını seçirdi, hökumət isə onu bu vəzifəyə təsdiq edirdi. Bu cür vacib vəzifəyə hökumət üçün əlverişli olmayan şəxslər buraxılmırdı. Şəhər başçısının,

Şəhər İdarəsi üzvlərinin və katibin seçilməsi iki dəfə səsvermə yolu ilə keçirilirdi. Birinci dəfə namizədlər irəli sürülürdü, ikinci dəfə isə konkret şəxslər seçilirdi. Dumanın seçdiyi Şəhər İdarəsinin üzvlərinin vəzifəyə təsdiqi qubernatorun səlahiyyətlərinə aid idi. Təsadüfən əvvəl təsdiq edilməyənlər, təkrar vakant vəzifəyə seçilmiş şəxslər Daxili İşlər Naziri və qubernatorun təyinatı üzrə vəzifəyə təyin edilirdilər (180,s.213).

Şəhər başçısı vəzifəsinə bir qayda olaraq qeyri-azərbaycanlılar seçilirdilər. Bakı Şəhər Dumasına müxtəlif vaxtlarda S.I.Despot-Zinoviç (1879-1893), E.A.Fon-der Nonne (1898-1901), N.İ.İretski (1895-1898, 1904-1905), A.İ.Novikov (1902-1904), N.V.Rayevski (1907-1911) və L.L.Bıç (1913-1917) şəhər başçısı seçilmişdirlər. 1905-1907-ci illərdə azərbaycanlılardan Kamil bəy Səfərəliyev və 1912-1913-cü illərdə isə erməni C.Arutyunov şəhər başcısı vəzifəsini icra etmişdir. Azərbaycanlılardan Məhəmməd bəy Hüseynov 1899-1903-cü illərdə və Nəcəf bəy Vəzirov isə 1903-1913-cü illərdə Şəhər Dumasının katibi vəzifəsində işləmişdirlər (190,s.18).

Şəhər başçısının seçilməsi çox vaxt Dumadan kənarda, nüfuzlu yerli burjuaziya və inzibati orqanların rəhbərlərinin gizli sövdələşməsi nəticəsində həll edilirdi. Bakı qubernatoru 1886-cı ilin aprel ayında Qafqazın mülki hissə üzrə rəisinə göndərdiyi məktubunda Despot-Zinoviçin təkrar şəhər başçısı vəzifəsinə seçilməsi təklif edilirdi. Despot-Zinoviç 1891-ci ildə Paris bankiri Rotşildə məxsus olan Kaspi-Çernomorski neft sənayesi və ticarət cəmiyyətinin direktorlarından biri idi. N.Rayevski (1907-1911) isə şəhər başçısı vəzifəsinə H.Z.Tağıyevin təklifi və məsləhəti ilə seçilmişdir. H.Z.Tağıyev N.Rayevski ilə yaxın münasibətlərindən "Şollar-Bakı" su kəmərinin çəkilməsində istifadə etmişdir. O, Bakıya Şollardan su kəməri çəkilməsinin tərəfdarı idi.

Beləliklə, XIX sonu -XX əsrin əvvəllərində Rusiyada həyata keçirilən şəhər islahatlarının Şimali Azərbaycan şəhərlərində tətbiq etməsi nöqsanlarına baxmayaraq bütövlükdə Şimali Azərbaycan üçün mütərəqqi bir hal idi. Çünki

demokratiyanın əsaslarından biri olan yerli özünüidarənin əsası məhz həmin şəhər islahatlarının tətbiqi ilə qoyuldu.

Bakı şəhərində özünüidarənin tətbiq edilməsinin şəhər üçün əhəmiyyəti olduqca böyük idi: Belə ki, şəhər despotik polis idarəçiliyindən azad olub, seçkili və kollektiv tərkibli orqanın idarəçiliyinə keçirdi; şəhərin ictimai həyatının bütün sahələrini əhatə edən qərarlar tək bir adam (polismeyestr) tərəfindən deyil, seçkili orqanın üzvlərinin birgə müzakirəsi ilə qəbul edilib icra edilirdi; şəhər əhalisi xüsusən də, azərbaycanlılar polisin özbaşına idarəçiliyindən azad olunurdular; islahatdan əvvəl azərbaycanlılar idarəetməyə heç cür buraxılmadıqları halda, indi onlar şəhərin idarə edilməsində fəal iştirak etmək hüququ əldə etdilər; milli burjuaziya nümayəndələrinin özünüidarə orqanlarında təmsil olunması onların sahibkarlıq və mülkiyyət hüquqlarının qorunmasına təminat verirdi ki, bu da onların gələcək sahibkarlıq və ticarət fəaliyyətlərinin genişləndirilməsinə şərait yaradırdı; islahat şəhərin erməniləşməsi və ruslaşdırılmasının qarşısını aldı; özünüidarə islahatı öz dövrünə görə mütərəqqi bir islahat olaraq şəhərin iqtisadi, siyasi və mədəni həyatının sonrakı inkişafına öz müsbət təsirini göstərdi.

## §1.3. Bakı Şəhər Dumasına seçkilər keçirilməsi.

Bakı Şəhər Dumasına seçkilərin keçirilməsi şərtləri, seçici siyahılarının tərtibi və təsdiqi, səsvermənin qaydası, qanun pozuntularından şikayətlərin verilməsi, seçki tarixinin müəyyən edilməsi və keçirilməsi ilə əlaqədar bütün məsələlər "Şəhər Əsasnaməsi"nə müvafiq olaraq tənzimlənirdi. Seçkinin əhali qarşısında kütləvi şəkildə və gizli yolla keçirilməsi Bakı şəhəri üçün yeni bir siyasi hadisə idi. Çünki islahata qədər burada heç bir seçkili nümayəndəli orqan olmamışdır.

Qafqaz canişini Bakı Dumasına seçkinin keçirilməsi üçün hazırlıq komissiyasının yaradılması barədə sərəncam verdi. Bu sərəncama müvafiq olaraq komissiya 1877-ci ildə seçki siyahılarını hazırladı (37,s.28).

Bakı Dumasına ilk seçki üç kuriyalı seçki sistemi əsasında keçirildi. Seçkidə iştirak dərəcəsi şəhər büdcəsinə ödənilən verginin miqdarına uyğun idi. Bu hesaba uygun olaraq seçki siyahıları tərtib edilirdi. Seçki qanunvericiliyinə görə şəhər əhalisindən kim daha çox vergi ödəyirdisə onun şəhər özünüidarə orqanlarında daha çox iştirak etmək hüququ var idi. Seçicilər ödədikləri verginin miqdarına uyğun olaraq ümumi siyahıya daxil edilirdilər. Sonra isə bütün seçicilər ödədikləri verginin ümumi məbləğinə uyğun olaraq üç kuriyaya bölünürdü. Hər bir kuriya bütün seçicilərin ödədikləri verginin ümumi məbləğinin üçdə birini təşkil etməli idi. Bu hesaba uyğun olaraq vergi ödəyənlərin siyahısı ardıcıl qaydada ödədikləri verginin miqdarına uyğun olaraq tərtib edilirdi. Birinci kuriyaya onlarla iri ev sahibkarları, tacirlər, fabrik sahibləri və iri şəhər vergi ödəyiciləri, ikinci kuriyaya yüzlərlə orta, üçüncü kuriyaya isə minlərlə kiçik vergi ödəyiciləri daxil idi (37,s.29).

Kuriyaların miqdarındakı belə müxtəlifliyə baxmayaraq, onların hər biri bərabər sayda deputat seçirdi. Hər bir kuriya xüsusi seçki yığıncağı təşkil edir və deputatların ümumi sayının üçdə birini seçirdi. Bu qayda yüzlərlə və hətta minlərlə tacir və ev sahibkarlarından nə qədər deputat seçilməsinə imkan verirdi (180,s.211).

Kuriyalardan hər biri 24 deputat seçməli idi. Hətta birinci kuriyaya az seçici daxil olsa belə digər kuriyalar kimi eyni sayda deputat seçirdi.

İlk iki kuriyaya daxil olan seçicilər deputatların 67%-ni seçirdilər, halbuki onlar seçicilərin ancaq 4,9 %-i təşkil edirdilər. Seçki sisteminin elə özü bu kuriyalara daxil olan iri ev sahibkarları, sənayeçilər və tacirlər üçün böyük imtiyazlar verirdi. Üç kuriyalı seçki sistemi seçkilərdə iri ev sahibkarlarına, sənayeçilərə və tacirlərə üstünlük verirdi. Hər bir kuriya namizədləri müstəqil surətdə irəli sürürdü. Duma deputatlarının seçkisinə etibarnamə alanlar da daxil olmaqla seçkidə iştirak etmək hüququna malik olanların hər biri buraxılırdı. Senzli seçki sisteminin iri sahibkarlara üstünlük verməsi geniş seçici

dairəsinin qeyri-fəallığını doğururdu. Bakı Dumasına ilk seçki dövründə seçki hüququ verilmiş birinci və ikinci kuriyada 165 şəxsdən 22-i və ya 13%-i seçkiyə buraxılmış, üçüncü kuriyada isə ondan daha az 3.234 nəfərdən 90-ı və ya 3%-i seçkidə iştirak etmişdi (37,s.30).

Dumaya keçirilən ilk seçki azərbaycan, rus və erməni burjuaziyasının kəskin mübarizəsi şəraitində gedirdi. Lakin əhalinin böyük əksəriyyəti seçkiyə maraq göstərmirdi. Çünki seçki hüququnun hərtərəfli məhdudlaşdırılması nəticəsində şəhər əhalisinin ancaq 2 faizi seçkiyə buraxılırdı (37,s.31).

Seçkiyə hazırlıq dövründə Azərbaycan ziyalıları Dumaya ali təhsilli və rus dilini bilənlərin deputat seçilməsinə böyük əhəmiyyət verirdilər. Bu məqsədlə görkəmli Azərbaycan maarifçisi Həsən bəy Zərdabi seçki ərəfəsində 1877-ci ildə "Əkinçi" qəzetində əhaliyə belə bir məsləhət verirdi: “Hökm olunub ki, Qafqaz vilayətinin şəhərlərində mümkün olduqca təzə şəhər qərardadı bina olunsun və bu günlərdə Badukubə şəhərində şəhər pulu verənlərin siyahısı xalqa məlum olacaq ki, ondan sonra o siyahıda isimləri olanlar cəm olub, zikr olan siyahıda adları olanlardan şəhər divanxanaları üçün calislər intixab eləsinlər.

Bu qərardadın muradı budur ki, şəhər əhli şəhərdən təhmilatı cəm edib, özü o məbləği məsrəf eləsin. Əlbəttə, bu muradın yaxşı olmağına söz yoxdur, amma məlumdur ki, nə qədər bir çobanın əyninə əlvan paltar geydirəsən çoban çobanlığından çıxmaz və habelə nə qədər əlatər qərardad ola, onu işdədənlər nadan olsa, ol qərardaddan bir səmərə olmaz. Pəs indi qoyulan qərardad nə qədər yaxşı da olsa, onun yaxşı işlənməyinə səbəb biz özümüz olacayıq. Ona binaən ki, onu işdədənləri biz özümüz intixab edəcəyik. Çünki bizim adam həmişə başısoyuqluğa adət edib və bu halda bir tərəfdən taun və bir tərəfdən cəng xəbəri bizi dəxi başısoyuq edib, ona binaən lazım bilib bizim intixabedici qardaşlarımıza bir az məsləhət edəcəyik.

Siz allah, intixab edən zaman, intixab elədiyiniz adamların uzun saqqalına, böyük qurşağına, dəmir sandığının doluluğuna

baxmayın. Şəhər divanxanalarında danışıq və yazı-pozu rus dilində olacaq. Ona binaən gərək rus dilini bilən, doğru adamlara intixab edəsiniz ki, xaçpərəstlər intixab edən calislərin (onlar üçdə iki hissə intixab edəcəklər) arasında bizim adımıza dəxi ziyadə batırmasınlar.

Güman etməyin ki, bu məsləhəti biz özümüzdən ötrü deyirik. Xeyr, biz buğda yeyib cənnətdən çıxmışıq. Bizi intixab edənlərin siyahısına yazmayıblar "(44,s.361).

Dumaya ilk seçki keçiriləndə birinci kuriyaya 10, ikinci kuriyaya 155, üçüncü kuriyaya isə 3.234 seçici daxil idi. Bu seçicilərdən birinci kuriyada 4-ü azərbaycanlı, 6-ı erməni, rus, ikinci kuriyada 73-ü azərbaycanlı, 82-i erməni, rus, üçüncü kuriyada isə 2.823-ü azərbaycanlı, 411-ü isə erməni və rus idi (37,s.30).

İlk seçkidə 3.390 nəfər seçiciyə seçki hüququ verilmişdi. Bunlardan 2.900 nəfəri azərbaycanlı, 499 nəfəri xristian dininə mənsub olan erməni və rus millətindən olan seçicilər idi (179,s.16).

Seçicilərin sayındakı olan bu fərqə baxmayaraq həm azərbaycanlılar, həm də xtistianlar (şəhərin erməni və rus icması) eyni miqdarda deputat seçməli idilər. Belə ki, Dumaya keçirilən ilk seçkidə 72 deputatın seçilməsi nəzərdə tutulmuşdur ki, bunların 36-nı azərbaycanlılar, 36-nı isə xristianlar seçməli idi.

Dumaya ilk seçki 1877-ci il 6,7 və 9 dekabr tarixində keçirildi. Seçkinin taleyi iri sahibkarlar tərəfindən həll edilirdi. Seçkidə birinci kuriyada on seçicidən yalnız üçü: Lalayev, Krasilnikov və Dadaşov səsvermədə iştirak etdi. Onlar deputatlığa namizədlərin siyahısını özləri tərtib etmiş və özləri də həmin siyahıya səs vermişdilər (143,1877.30.XI).

Seçicilərin ikinci kuriyadan deputat seçkilərinin də taleyi bu cür həll edildi. Bu kuriyada seçicilərə H.Z.Tağıyev, Nemət Seyid oğlu Əbdülsəlim bəy Hacınski rəhbərlik edirdi. 155 seçicidən seçkidə ancaq 31 nəfər iştirak edirdi. H.Z.Tağıyev və

Ə.Hacinski deputatlığa namizədlərdən kimlərə ağ və qara şar salmağı müəyyən edirdilər (143,1877.30.XI).

Beləliklə, seçkinin nəticələrinə görə iri sahibkarlar və sənayeçilər Dumanın tərkibinin özləri üçün əlverişliliyini təmin edə bildilər (37,s.32).

Dumaya keçirilən ilk seçkidə seçilən azərbaycanlı deputatlar aşağıdakılar idi:

Birinci seçki kuriyasından:

Dadaş bəy Səfərəliyev, Məlik Məmməd Ağa Mikayıl oğlu, Ağa Murad Əlinuriyev, Hacı Hüseynəlibəy Xanlarov, Hacı Əbdulrəhman Kərbəlayi Hüseyn oğlu, Əbdül Vahab Hacıbaba oğlu, Hacı Əbdülbağır Hacı Murad oğlu, Hacı İsgəndər Məmmədkərim oğlu, Hacı Əskər Cəfərov, Əlibəy Hacı Heybətqulu bəy oğlu Səlimxanov, Hacı Rəcəb Əli Hacı oğlu, Mahmud bəy Xanlarov.

İkinci seçki kuriyasından:

Hacı Zeynalabdin Tağıyev, Hacı Şıxəli Dadaşov, Hacı Baba Həşimov, Hacı Əbdülbağı Hacı Baba oğlu, Hacı Əbdülsalam bəy Hacınski, Məşədi Ağahüseyn Tağıyev, Hacı Nemət Seyid oğlu, Ağaqafar Səfər oğlu, Mirzə İbrahim Sultanov, Hacı Ağa Dadaşov, Hacı Mustafa Kərbəlayı Hüseyn oğlu, Məmməd Babayev.

Üçüncü seçki kuriyasından:

Hacı Məstan Kazım oğlu, Hacı Zərdablı Mirzə Əli oğlu, Kərbəlayı Seyid Məmməd Məşədi Hacı Məmməd oğlu, Kərbalayı Vahab bəy Hacı Məmmədqulu bəy oğlu, Kərbəlayı Ələkbər Hacıbaba oğlu, Kərbəlayı Abbasqulu Məmməd Hüseyn oğlu, Hacı Cavad Ələsgər oğlu, Məmmədşəfi Hacı Ələsgər oğlu, Molla Kərim Hacı oğlu, Hacı Məmməd bəy Rza bəy oğlu, Hacı Ağadadaş Cəfərov, Hacı Ağabəy Sultanbəyov (143,1878. № 5).

Birinci seçkidə şəhərin erməni və rus icmasından seçilən deputatlar isə aşağıdakılar idi:

Birinci seçki kuriyasından:

Qriqori Ayvazov, Sergey Melikov, İlya Yeriazarov, Pavel Nikitin, Artemiy Nersesov, Nikitin Vartanov, Yeqor Lalayev,

Qriqor Aslanov, Minay Melikov, Voskan Xaçaturov, İvan Alekseyev və Samuel Bağdasarov.

İkinci seçki kuriyasından:

Nikolay Saparov, Bağdasar Şagedinov, Pavel Sarkisov, Konstantin Krikorov, İvan Mirzaavakov, Xristofor Antonov, Nerses Krasilnikov, Avakul Vermişev, Qriqori Dildarov, Yakov Adamov, Qriqori Tumayev və İvan Serebryakov;

Üçüncü seçki kuriyasından:

Qriqoriy Mirzoyev, Artemiy Madatov, Dmitriy Krundov, Artemey Melikov, Stepan Levaşev, Moisey Şevçenko, Tomas Amirov, Yakov Anpesov, Avakim Mortirasov, Nikolay Markaroviç, Andrey Filipinov və İvan Suçkiy (143,1878.№ 5).

Dumaya seçilmiş ilk azərbaycanlı deputatlar haqqında "Bakinskiye izvestiya" qəzeti yazırdı: "Bizim deputatlar arasında bir nəfərdə universitet təhsilli texnik və mütəxəsis yoxdur. İçərilərində elələri var ki, rus dilini ağıllı-başlı bilmirlər. 36 nəfər müsəlman deputatdan ancaq 5 nəfəri rus dilində öz fikrini izah edə bilirlər (143,1878.№7).

Çar hakimiyyət orqanları islahat nəticəsində azərbaycanlıların deputat seçilmələrinə mane ola bilməsə də, ali təhsili olmayan və rus dilini bilməyən azərbaycanlıların deputat seçilmələrinə imkan yaradırdı. Bu siyasətin birbaşa nəticəsidir ki, rus dilini yaxşı bilmədiklərinə və ali təhsilli olmadıqlarına görə azərbaycanlı deputatlar erməni və rus deputatlarla müqayisədə Duma iclaslarında nəzərə çarpan fəallıq göstərə bilmirdilər.

Bakı Şəhər Dumasının açılışı 1878-ci il 8 yanvar tarixində oldu. Lakin Dumanın ilk iclası isə 1878-ci il 14 yanvarda keçirildi (37,s.33).

Bakı Dumasına 1886-1890-cı illər üçün seçkidə birinci seçki kuriyasında seçicilərin sayı 13, ikinci seçki kuriyasında seçki kuriyasında seçicilərin sayı 80, üçüncü seçki kuriyasında isə seçicilərin sayı 4.180 nəfər idi.

Seçkidə cəmi 4.273 seçici iştirak edirdi. Onlardan 3.541-i azərbaycanlı və 732-i isə xristian seçicisi idi. Lakin seçicilər

arasında olan say fərqinə baxmayaraq azərbaycanlı, erməni və rus seçiciləri eyni miqdarda Dumaya deputat seçməli idilər.

Birinci və ikinci kuriyaya hətta az seçici daxil olmasına baxmayaraq eyni miqdarda deputat seçirdi. Birinci iki kuriyanın seçiciləri deputatların 2/3-i seçirdi.

Üç kuriya üzrə seçkidə iştirak edən 4.273 seçicidən seçkidə ancaq 363 nəfər seçici iştirak etmişdir. Seçki 1886-cı ilin fevralında keçirildi.

Seçkinin taleyini iri sənayeçilər və sahibkarlar öz xeyirlərinə həll etdilər. İstər azərbaycanlılardan, istərsə də erməni və ruslardan seçilən Duma deputatları iri sənaye və ticarət burjuaziyasının nümayəndələri idilər.

1886-cı ildə Dumaya keçirilən seçkidə azərbaycanlılardan H.Aşurov, A.Aşurov, A.N.Allahverdiyev, K.M.Əliyev, Əbdül Vahab Hacı Baba oğlu, H.C.Aşurov, M.Abdullayev, K.A.Əliyev, M.H.Atamaliyev, Ə.Hacınski, H.C.Hacıyev, A.Hüseynov, M.C.Hüseynov, M.C.Hüseynov, H.R. Hacıyev, Hacıağa Hacı Əbdülhüseyn oğlu, K.K.Hacıyev, H.Ş.Dadaşov, H.H.Dadaşov, M.R.Cabbarov, M.M.Zəkiyev, M.M. Kərimov, M.M.Mikayılov, N.Mehdiyev, H.B.Mustafayev, M.A.Mir-Məmmədov, H.H.Pirverdiyev, M.Rzabəyov, C.Səlimbəyov, Tağıyev Hacı Zeynalabdin, Tağıyev Hacı Əlabbas, Xanlarov Mövsüm bəy, Xanlarov Mahmud bəy, D.Səfərəliyev, İ.Səfərəliyev, xristianlardan isə X.S.Antonov, A.İ.Antonov, İ.Əsirbekov, Q.Ayvazov, H.Aslanov, Q.Aslanov, T.Amirov, Y.Apresov, B.Başkirov, C.Bağırov, İ.Budaqov, H.Vartanov, P.Qukasov, C.Despot-Zenoviç, L.De-Bur, B.Doluxanov, B.Dikov, F.Doluxanov, İ.Yeğizarov, K.İretski, H.Krasilnikov, E.Kələntərov, Q.Karasev, B.Kozlyakovski, E.M.Lalayev, K.İ.Lalayev, H.Lianozov, A.Melikov, M.Melikov, A.Nikulin, A.Nersesov, Q.Ternudd, Q.Tumayev, S.Tamasov, H.Şaheddinov, Q.Şərəbəndov deputat seçilmişdir (165, 1887.s.41).

Seçkidən sonra X.Antonov və D.Səfər-Əliyev Şəhər İdarəsinin üzvü, A.Nikulin və V.Dikov üzvlüyə namizəd, M.

Belyaviski isə Şəhər İdarəsinin katibi vəzifəsinə seçildi. Bu seçkidə azərbaycanlılar içərisindən görkəmli kimyaçı alim Mövsüm bəy Xanlarov da Dumaya deputat seçilmişdir (165, 1887.s.41).

1892- ci il iyunun 11-də Rusiyada yeni "Şəhər Əsasnamə"si qəbul edildi. Yeni "Şəhər Əsasnaməsi" ilə yüksək əmlak senzinin tətbiqi seçicilərin sayının kəskin surətdə azalmasına gətirib çıxartdı. İndi artıq əmlak vəziyyətinə görə əhalinin yalnız 10-15%-nə seçki hüququ verilirdi. Vergi borcu olanlar seçkidə iştirak etmək hüququndan məhrum edilmişdirlər. Belə ki, əgər 1877-ci ildə Dumaya keçirilən ilk seçki dövründə 3.399 seçici iştirak etmişdirsə, yeni "Şəhər Əsasnaməsi"nə uyğun olaraq 1893-cü ildə keçirilən seçkidə seçicilərin sayı 1.003 nəfərədək azaldıldı. Yəni, seçkidə seçicilərin sayı üç dəfə azaldılmışdır. Yeni seçki qanunvericiliyi hətta varlı olmayan ev sahibkarları, xırda və orta tacirləri və sənayeçiləri də seçki hüququndan məhrum etmişdir (37,s.36).

Seçicilərin sayının azaldılmasına müxtəlif cür saxtakarlıqların tətbiqi hesabına nail olunmuşdur. Belə ki, 1893-cü ildə Dumaya seçki dövründə əhalisi 100 min nəfərdən artıq olan şəhərlər üçün 1.500 manat məbləğində əmlak senzi müəyyən edilmişdi. Çar hökuməti göstərilən məbləğdə əmlak senzini qaldırmaq üçün şəhərdə müvəqqəti sakin olanlarıda əhalinin siyahısına daxil etdi. Əmlak senzinə bu cür yanaşma tacirlər və varlı olmayan sahibkarlar arasında narazılığa səbəb oldu. 1896-ci ilin dekabrında Bakı sakinlərinin böyük bir hissəsi şikayətlə Daxili İşlər Nazirinə müraciət edərək, müəyyən edilmiş əmlak senzinin 15.00-dan 1.000 manata endirilməsini xahiş etdilər. Lakin Daxili İşlər Naziri əmlak senzinin azaldılmasından imtina etdi (179,s.17).

Beləliklə, yüksək əmlak senzinin tətbiqi nəticəsində təxminən 102.000 nəfərdən artıq şəhər əhalisindən yalnız 1.003 nəfər seçki hüququ əldə etdi. Seçicilərin sayı bütün əhalinin yalnız 0,98 %-ni təşkil edirdi.

“Şəhər Əsasnaməsi”nə uyğun olaraq Şəhər İdarəsinin tərtib etdiyi seçici siyahıları elan olunmazdan əvvəl quberniya idarəsi tərəfindən təsdiq edilməli idi. “Əsasnamə”nin 35-ci maddəsinə uyğun olaraq seçici siyahıları seçkiyə üç ay qalanadək mütləq hazırlanıb elan olunmalı idi. Şəhər İdarəsinə 1893-cü il aprelin 25-dək seçici siyahılarının hazırlanması təklif edilmişdi. Bu təklifə əsasən seçki iyulun 25-də keçirilməli idi. Lakin seçkinin yayda keçirilməsi olduqca əlverişsiz idi. Çünki isti yay aylarında seçicilərin çox hissəsi, xüsusən də hər iki tacir gildiyasından olan varlı ev sahibkarları və tacirlər bağ evlərinə, xaricə və ticarət işləri ilə əlaqədar olaraq Rusiyanın müxtəlif şəhərlərinə gedirdilər. Beləliklə, də yay vaxtı Bakı şəhərində seçki keçirilməsi olduqca əlverişsiz idi. Buna görə də, Bakı quber-natoru Şəhər İdarəsinə qarşıdakı seçkinin sentyabrın ikinci yarısında və yaxud da 1893-cü il oktyabrın 1-dən gec olmayaraq keçirilməsini təklif etdi (37,s.37).

“Şəhər Əsasnaməsi”nə uyğun olaraq Dumaya 80 deputat seçilməli idi. “Əsasnamə”nin 56-ci maddəsinə müvafiq olaraq əhalisinin sayı 100 min nəfərdən artıq olan şəhərlər Dumaya 80 deputat seçməli idi. Həmin vaxt Bakı şəhərinin əhalisinin sayı 100 min nəfərdən artıq idi (198, c.XII.mad.8709.1892).

Seçki qanunvericiliyinə əsasən deputat seçkisi ilə yanaşı deputatlığa namizədlər də seçilirdi. “Əsasnamə”nin 42-ci maddəsinə uyğun olaraq deputatlığa namizədlər seçilmiş deputatların 1/5-dən az olmamalı idi. Bakı şəhəri üçün deputatlığa namizədlərin sayı 80 deputatın 1/5-nə müvafiq olaraq 16-dan az ola bilməzdi (37,s.37).

“Əsasnamə”nin 115-ci maddəsinə görə şəhər başçısı və Şəhər İdarəsinin üzvləri vəzifəyə seçki üzrə seçilirdilər. 116-ci maddəyə görə isə bu vəzifələrə yalnız deputatlar deyil, kənar şəxslər də seçilə bilərdi (198,c.XII.mad.8709.1892).

Bakı Dumasına 1893-1897-ci illər üçün deputat seçkisi 1893-cü il oktyabrın 2-də keçirildi. Seçkidə 168 şəxsin deputatlığa namizədliyi irəli sürülmüşdü. Bunlardan 45-i azərbaycanlı, qalan 123-ü isə erməni və rus millətinə məxsus idi

(166,1893,№ 212). Yəni 88 namizəd və ya namizədlərin 52%-i erməni, 35-i və ya namizədlərin 21%-i rus idi. Azərbaycanlı namizədlər isə seçilənlərin 27%-ni təşkil edirdi (166,1893.№ 214).

Seçkinin nəticəsinə görə Dumaya seçilən 62 deputatdan 19-u azərbaycanlı, 27-si erməni, 16-ı isə rus idi. Bu seçkidə Dumaya azərbaycanlılardan Ş.Əsədullayev, H.Həşımov, K.A.Aşurov,M.M.Zəkiyev,İ.Hacınski,Ə.Dadaşov,H.A.Dadaşov, H.Z.Tağıyev, N.Xanbutayev, M.Xanlarov, İ.Səfərəliyev, S.Nəcəfov,M.Rəsulov,B.Orucəlibəyov,M.Nağıyev,M.Mikayılov A.Əliyev, R.Əliyev, H.Nəbibəyov, xristianlardan isə N.Ayvazov, İ.Budaqov, T.Əmirov, P.Qukasov, V.Qurdov, K.İretski, Y.Kələntərov, Q.Tumaev, A.Çaturov, N.Şagedinov, D.Yüzbaşıev, N.Şarumov, A.Saparov, İ.Popov, A.Melikov, L.Mailov, Q.Şərəbəndov, A.Antonov, X.Antonov, Q.Ayvazov, Ə.Kolesnikov,İ.Kolesnikov,Y.Yüzbaşiev,N.Kaşayev,B.Abromo viç,M.Jiqulov,B.Doluxanov,C.Doynikov,İ.Yelizarov,S.Baqirov, S.Tağianosov, Q.Kyancuntsev, A.Benkendorf, A.Vaçyants, Tixnov, A.Nikitin, M.Unanov, Terentyev, Skibinski, Alekseyev, Sobolevski, Kamenski, Dildarov, Zurabov deputat seçilmişdirlər (166,1893.№ 214).

Yeni tərkibdə Dumanın ilk iclası 1893-cü il noyabrn 2-də keçirildi. Dumanın 1893-cü il dekabrın 29-da keçirilən iclasında azərbaycanlı deputat Balabəy Orucəlibəyov şəhər idarəsinə üzv seçildi (166,1893.№ 265).

Dumanın 1894-cü il 25 yanvar tarixli iclasında şəhər başçısı vəzifəsinə K.İretski seçildi. Həmin vəzifəyə H.Z.Tağı-yevin də namizədliyi irəli sürülmüşdü. Lakin o namizədliyini son anda geri götürdü (166,1894.№ 21).

"Şəhər Əsasnaməsi"nə əsasən azərbaycanlılar deputatların üçdə birini təşkil edə bilərdi. Buna görə də 1893-cü ildə Dumaya keçirilən seçkidə ermənilərdən 28, azərbaycanlılardan isə 18 deputat seçilmişdir.

Çarizmin milli ayrı seçkilik siyasətinin nəticəsi idi ki, XIX əsrin sonu-XX əsrin əvvəllərində ermənilər şəhərdə demək olar

ki, bütün vəzifələri ələ keçirə bilmişdirlər. Ermənilərin xüsusəndə Tiflisdən gələn ermənilərin şəhərdə bütün vəzifələri ələ keçirməsi çar hakimiyyət orqanlarını da artıq narahat etməyə başlayırdı. Hətta Qafqazın baş hakimi knyaz Qriqori Qolitsın 1897-ci ildə vəzifəsinin icrasına başlayan kimi çarı xəbərdar edirdi ki, Bakıda və Tiflisdə ermənilər bütün hakimiyyəti ələ keçiriblər.Cənubi Qafqazda vəziyyəti öyrəndikdən sonra o, Rusiya imperatorunun əmri ilə yaranmış xüsusi müşavirənin 1900-ci il iyun ayının 14-də keçirilmiş qapalı iclasında erməni məsələsi haqqında maraqlı məlumat vermişdi. Knyaz Q.Qolitsın XIX əsrin əvvəllərində rusların gəlişindən sonra Cənubi Qafqazda baş vermiş demoqrafiq dəyişikliklərə toxunaraq deyirdi: "Biz Cənubi Qafqazı fəth edəndə burada bütün yerli erməni əhalisinin sayı 45 min nəfəri keçmirdi, indi isə Qafqazda ermənilər 1,5 milyondan çoxdurlar" (57,s.52).

Tədqiqatçı alim Cəmil Həsənlinin fikrincə məhz bu təhlükənin artdığı bir şəraitdə şəhər özünüidarə orqanına seçilmiş azərbaycanlı deputatlar Dumanın işində fəal iştirak etməklə Bakının müsəlman əhalisinin ehtiyaclarını önə çəkir və bu qurumu getdikcə onların maraqlarına uyğunlaşdırmağa çalışırdılar (57,s.52).

1893-1897-ci illərdə azərbaycanlı deputatlar Dumanın işində o qədər də fəal iştirak etməmişdirlər. Bunun bir sıra səbəbləri vardır. Birincisi, onlar Dumada az təmsil olunurdular; ikincisi isə onların içərisində ali təhsili deputatlar az idi. Dumada təmsil olunan azərbaycanlı deputatlar əsasən ev sahibkarları və ticarət-sənaye burjuaziyasının nümayəndələri idilər. Onlar da çox vaxt Dumanın iclaslarında belə iştirak etmirdilər.

Bakı Dumasına 1898-1901-ci illər üçün deputat seçkisi 1897-ci ilin sonunda keçirildi. Bu seçkidə ümumi əhalisi 111.904 nəfər olan şəhər əhalisinin ancaq 1.636 nəfərinə seçki hüququ verilmişdi. Bu da şəhər əhalisinin ancaq 1.4%-ni təşkil edirdi. Bu seçkidə əmlak senzinin yüksək olması seçicilərin sayının kəskin surətdə azalmasına gətirib çıxarmışdı.

1898-1901-ci illər üçün keçirilən seçkidə 59 deputat seçildi. Bu 59 deputatdan 34-ü və ya 58% daşınmaz əmlak sahibi, 5 nəfər ticarət-sənaye müəssisəsinin sahibi, 15 nəfəri isə qarışıq seçki senzinə malik idi. Bu 59 deputatdan 26-sı azərbaycanlı idi.

Dumaya azərbaycanlılardan Ə.M.Topçubaşov, H.Z.Tağıyev, X.Axundov, Ə.Dadaşov, A.Aşurov, İ.Səfərəliyev, M.Rəsulov, Ş.Əsədullayev, H.Mahmudbəyov, İ.Hacınski, A.Nağıyev, F.Vəzirov, A.Əliyev, X.Kazımov, M.Mikayılov, B.Əlibəyov, H.Zərdabi, M.Sultanov, H.Ə.Axundov, K.Səfərəliyev, N. Xanbutayev, Ə.B.Muradəli oğlu və N.H.Mehdi oğlu, xristianlardan isə N.Ayvazov, M.Unanov,A.Nikitin, M.Zaxarbəyov, X.Antonov, A.Vaçyants, S.Tixnov, T.Amirbəyov, Jiqulov, B.Şagidanov, Kələntərov, Q.Şərəbəndov, Q.Kyancuntsev,A.Şixiyants,V.Əsirbəyov,S.Tağıanosov,A.Saparov, İ.Qarsoyev, A.Ayvazov, A.Benkendorf, P.Qukasov, K.İretski, Q.Dildarov, M.Belyavski deputat seçilmişdirlər (2,s.1,iş.194.v.75**)**.

Bu seçkidə ilk dəfə olaraq Dumaya Azərbaycan xalqının görkəmli maarifçi ziyalıları-H.Zərdabi, H.Mahmudbəyov və görkəmli siyasi xadim və vəkil Ə.M.Topçubaşov da deputat seçildilər.

1907-ci ilədək mütərəqqi Azərbaycan ziyalılarının nümayəndələrindən biri görkəmli ictimai xadim və maarifçi H.Zərdabi Dumanın deputatı olmuşdur. Bakı qubernatoruna yazılmış anonim məktubda H.Zərdabinin Dumaya deputat seçilməsi haqqında qeyd olunurdu: “H.Məlikov Cavad qəzasının sakinidir. Öz fəaliyyəti ilə Göyçay və Cavad qəzalarında tanınmışdır, burdan köçməyə məcbur olmuşdur. 1878-ci ildə türkləri açıq təbliğ etdiyinə görə Bakı Realnı məktəbinin müəllimləri sırasından çıxarılmışdı. Belə bir insanı şəhər özünüidarəsində görmək nə dərəcədə arzu olunandır”. Və ardınca məlumatda digər bir azərbaycan maarifçi deputatı H.Mahmudbəyova mənfi qiymət verilirdi: "rus-Tatar" (Azərbaycan) məktəbinin müəllimi, Şamaxıdandır müvəqqəti olaraq Bakıda yaşayır. Bütün bu adamlar vəsaitsizdir və Bakıda heç bir əmlaka malik

deyildirlər. Məlumatın müəllifi təklif edirdi ki, 1898-1901-ci illər Duma seçkisinin nəticələri təsdiq olunmasın və yaxud seçilənlərin sırasından bir neçə "nalayiq şəxslər" çıxarılsın (2,s.1.iş.60.v.99).

Göründüyü kimi çarizmin siyasətinə xidmət edən yerli çinovniklər yalnız imkanlı şəxslərin Dumaya deputat seçilməsinə çalışırdılar. Azərbaycanlı ziyalı və ictimai-siyasi xadimlərin Dumaya deputat seçilməsi bəzilərini çox ciddi narahat edir, hətta onları deputatlar sırasından çıxarılmasını təkid edirdilər.

Duma yeni tərkibdə öz işinə 1898-ci il fevralın 17-də başladı.Dumanın 1898-ci il 6 oktyabr tarixli iclasında şəhər başçısı vəzifəsinə mənşəcə alman olan N.A.Fonder Nonnen (1898-1901) seçildi (166,1898.№ 215).

Bakı Dumasına növbəti 1902-1905-ci illər üçün deputat seçkisi 1901-ci il oktyabrın 29-da əsas, noyabrın 16-da isə əlavə olaraq keçirildi. Seçkidə ümumi sayı təxminən 138 mindən artıq olan şəhər əhalisinin ancaq 2.167 nəfərinin sasvermədə iştirak etmək hüququ var idi. Bu da şəhər əhalisinin ancaq 1.5 %-ni təşkil edirdi. Bunlardan 1.332 nəfəri ev sahibkarları və 835 nəfəri isə iri tacir və sənayeçi idi.

Bu seçki 1900-cü il dekabrın 14-də “Şəhər Əsasnaməsi”nin 44-cü maddəsinə edilmiş dəyişiklikdən sonra keçirildiyinə görə azərbaycanlı deputatlar Dumaya seçilən deputatların ümumi sayının yarısını təşkil edə bilərdilər. Lakin 1901 ci il 29 oktyabr və 16 noyabrda Dumaya keçirilən seçkidə seçilən 59 deputatdan 36-sı azərbaycanlı, 23-ü isə rus və erməni idi (166,1901.№252). Bu da “Şəhər Əsasnaməsi”nə görə azərbaycanlı deputatlar üçün müəyyən edilmiş həddən artıq idi.

Həmin il oktyabrın 29-da keçirilən əsas seçkidə 33 deputat seçilmişdi. Bunlardan 22-si azərbaycanlı, 11-i isə erməni və rus idi. Təkrar seçki isə noyabrın 16-da keçirildi. Seçkidə seçilən 26-ı deputatdan 14-ü azərbaycanlı idi. Seçkidə 26-ı deputatlığa namizəd səslərin əksəriyyətini ala bildi. Bu seçkinin nəticəsinə görə 14-ü azərbaycanlı və 12-i erməni deputat seçildi (166,1901.№ 252).

1901-ci il noyabrın 18-də şəhər başçısı Şəhər İşləri üzrə Quberniya İdarəsinə seçkilərin nəticələrinin təsdiq edilməsi barədə vəsatətində bildirirdi ki, 14 azərbaycanlı bu seçkidə mütləq səs çoxluğu alıb. Onlardan 6-sı əsas, 8-i isə təkrar seçkidə deputat seçilmişdirlər (166,1901.№ 252).

Nəticədə Quberniya İdarəsi azərbaycanlı deputatların sayını ixtisar edərək 36-dan 27-ə endirdi, xristian deputatlarının sayını isə Dumanın əvvəlki tərkibinin deputatlarından deyil, seçkidə seçilmiş deputatlığa namizədlərin hesabına 27-ə çatdırdı. Beləliklə də, Dumada azərbaycanlı, erməni və rus deputatlarının sayı qanuna müvafiq olaraq bərabərləşdirildi. Çünki seçki qanunvericiliyinə görə azərbaycanlı deputatlar Duma tərkibinin yarıdan çoxunu təşkil edə bilməzdilər (166,1901.№252).

1902-1905-ci illər üçün Dumaya azərbaycanlılardan Ə.İ.Aşurov, Ş.Əsədullayev, K.A.Aşurov, F.Vəzirov, H.Həsənov, İ.Hacıyev, İ.Hacınski, Ə.Dadaşov, A.Zərbəliyev, K.Səfərəliyev, H.Zərdabi, N.Sadiqov, N.Mehdiyev, M.Nağıyev, S.Tağıyev, K.M.Rəsulov, H.Z.Tağıyev, M.Sultanov, Ə.M.Topçubaşov, İ.Səfərəliyev, Ə.Ziyadxanov, H.H.Atamalıyev, Ə.Əhmədov, X.Kazımov, H.Mahmudbəyov, H.Y.Yaqubov, xristianlardan isə A.Adamov, A.Benkendorf, İ.Qarsoyev,P.Qukasov, İ.Bitişinskiy, V.Qurdov, K. Qurdov, K.İretski, N.Kaçeçov, B.Makedonski, A.Saparov, İ.Radçenko, Q.Şərəbəndov, N.Ayvazov, M.Unanov, A.Nikitin, M.Zaxarbəyov, X.Antonov, A.Vaçyants, A.Tixnov, T.Amirov,S.Jiqulov,B.Şagidinov,A.Kələntərov, Q.Kyancuntsev, A.Şxiyants, və S.Tağıanosov deputat seçilmişdirlər. (166,1901.№ 253).

1902-ci il martın 3-də Duma yeni tərkibdə özünün ilk iclasına başladı. İlk iclasda Dumanın sədri seçildi. "Şəhər Əsasnaməsi"nin 120-ci maddəsinə uyğun olaraq şəhər başçısı yerində olmadıqda və ya iclasa sədrlik edə bilmədikdə Dumanın sədri iclasa sədrlik etməli idi. Bu vəzifəyə N.İretski, S.Tağıanosov, İ.Radçenko və Ə.M.Topçubaşovun namizədliyi irəli sürülmüşdü. Lakin ilk üç şəxs namizədliyini geri götürdü və səsverməyə

yalnız Ə.M.Topçubaşovun namizədliyi çıxarıldı. Səsvermənin nəticəsinə görə O, Dumanın sədri seçildi.

Ə.M.Topçubaşov 1862-ci ildə anadan olub, Peterburq Universitetinin hüquq fakultəsini bitirib, 1896-cı ildən Bakı şəhərinə köçərək burada yaşamış, "Kaspi qəzetinin redaktoru və və Bakı Dairə Məhkəməsində vəkil işləmişdir. Qısa bir müddətdə şəhər əhalisinin və milli burjuaziya nümayəndələrinin məhkəmələrdə hüquqlarının müdafiəçisi istiqamətində gördüyü işlər onun həm yerli əhali, həmdə milli burjuaziya və ziyalılar arasında nüfuzunun yüksəlməsinə gətirib çıxartdı. Bu yüksək nüfuz onun 1898-ci ildə Bakı Dumasına deputat seçilməsinə imkan verdi. Ə.M.Topçubaşov kimi bir hüquqşünasın və tanınmış vəkilin Şəhər Dumasına deputat seçilməsi Dumada azərbaycanlıların hüquqlarının müdafiə edilməsində, azərbaycanlı deputatların siyasi cəhətdən təşkilatlanmasında və şəhər əhəmiyyətli bütün məsələlərin həll edilməsində mühüm rol oynadı. O bir növ Dumada azərbaycanlı deputatların rəhbəri və istiqamətvericisinə çevrildi. Məhz Ə.M.Topçubaşov Dumaya deputat seçildikdən sonra Dumada azərbaycanlıların hüquqlarının digər millətlərin-erməni və rusarın hüquqlarına bərabərləşdirilməsi uğrunda mübarizə məsələsi Duma tribunasından səsləndirilməyə başlanıldı. Dumaya deputat seçilməsi ilə Ə.M.Topçubaşov siyasi səhnəyə çıxdı. Qısa bir zamanda o nəinki Azərbaycanda, o cümlədən bütün Rusiya imperiyasında müsəlmanların və türklərin siyasi liderinə çevrildi. Bunu 1905-1906-cı illərdə Rusiya müsəlmanlarının keçirilən qurultaylarına rəhbərlik etməsi, birinci qurultayda yaradılan "Müsəlman İttifatı" partiyasının, birinci Dövlət Dumasında müsəlman fraksiyasının sədri seçilməsi və həmin dövrdə həm Azərbaycanda, həm də ondan kənarda hüquqi xarakterli bütün sənədlərin tərtib edilməsinə rəhbərlik etməsi təsdiq edir. Ə.M.Topçubaşov Azərbaycan milli hərəkatının rəhbərlərindən biri olmuşdur.

Dumanın 1902-ci il 25 aprel tarixli iclasında A.Novikov şəhər başçısı (1902-1904) vəzifəsinə seçildi. Bu vəzifəni 1904-

1905-ci illərdə N.İretski, 1905-1907-ci illərdə isə Şəhər İdarəsinin üzvü azərbaycanlı deputat Kamilbəy Səfərəliyev icra etmişdir. Beləliklə, K.Səfərəliyev şəhər başçısı vəzifəsini icra etmiş ilk azərbaycanlı deputat idi. O, 1898-ci ildən 1911-ci elədək həm Şəhər İdarəsinin üzvü, həm də Dumanın deputatı seçilmişdir (190,s.19).

Şəhər başçısı A. Novikovu isə 1904-cü ildə K.İretski əvəz etdi. K.İretskinin şəhər başçısı seçilməsinin əleyhinə olan Ə.Ağayev 1904-cü ilin oktyabrında Duma iclasında çıxış edərək şəhər başçısı üçün Bakı şəhərinin yerli əhalisinin dilini, maddi və mədəni ehtiyaclarını, psixologiyasını və mənəvi xüsusiyyətlərini bilməyin zəruri olduğunu bildirdi (2.s.1.iş.260.v.29-30).

Ə.M.Topçubaşov Dumanın sədri seçildikdən sonra təkcə Bakının təsərrüfat həyatında deyil, şəhərin siyasi həyatında da yaxından iştirak edirdi. Bakıya gələn mötəbər qonaqların qarşılanması, onların şərəfinə verilən təntənəli ziyafətlərdə o, yaxından iştirak edirdi. 1902-ci ilin aprelin 26-da Qacar şahının Bakı şəhərindən keçməklə Avropaya səfəri gözlənildiyindən aprel ayının 10-da keçirilən Duma iclasında onun “duz və çörəklə qarşılanması”, şahın gəlişi şərəfinə “şəhərin bayraqlarla bəzədilməsi”, ona ehtiram göstərilməsi məsələsi müzakirə edildi. Şəhər rəisi Dumaya məlumat vermişdi ki, Müzəffərəddin şahın aprel ayının 29-na Bakıda olacağı gözlənilir. Bu qarşılanma mərasimini təntənəli şəkildə keçirmək üçün lazım olan vəsait Duma tərəfindən Şəhər İdarəsinə ayrıldı.

Qacar şahı Müzəffərəddin şahı qarşılayanlar arasında Dumanın sədri Ə.M.Topçubaşov da var idi. Bakı ilə tanışlıq zamanı şah sentyabrın 13-də H.Z. Tağıyevin açdığı qız məktəbinə də baş çəkmişdi. “Kaspi” qəzeti yazırdı ki, əlahəzrət İran şahı onu müşayət edən şəxslərin iştirakı ilə qız məktəbini ziyarət etmişdir. Məktəblə tanış olduqda o, H.Z.Tağıyevi yanına çağırıb məktəb haqqında suallar vermişdi. Qəzetin yazdığına görə cənab “Tağıyev şahın diqqətindən son dərəcə məmnun olub həyacanla bunları demişdir: Rusiyadakı 12 milyonluq müsəlman

əhali arasında bu, ilk qadın təhsil müəssisəsidir. Mən onu müsəlmanlar üçün savadlı analar hazırlamaq ümidi ilə yaratdım". Ə.M.Topçubaşov da bu mərasimdə yaxından iştirak etmişdir (57,s.84-85)

Ə.M.Topçubaşov məşhur "Vıborq" bəyannaməsini imzaladığına görə, deputatlar sırasından xaric edildi. Dumanın 1907-ci il 15 fevral tarixli iclasında Ə.M.Topçubaşovun Duma üzvlüyündən xaric edilməsi məsələsi müzakirə edildi. Azərbaycanlı deputatlar Ə.M.Topçubaşovu müdafiə etmələrinə baxmayaraq, Duma onu deputat hüququndan tamamilə məhrum etdi (85,s.68-69).

1906-cı il sentyabrın 25-də Şəhər Dumasına növbəti 1907-1911-ci illər üçün deputat seçkisi keçirildi. Seçkidə cəmi 2.080 nəfərin iştirak etmək hüququ var idi. Lakin bunların yarısı vergi borcunu ödəməyənlər idi. Qanuna əsasən vergi borcunu ödəməyənlər seçkilərə buraxılmırdı. Buna görə də, hazırlanan siyahıda yalnız 1.068 nəfərə seçkidə iştirak etmək hüququ verilmişdir. Bu seçkidə 80 deputat yeri uğrunda 65 azərbaycanlı, 57 erməni və rus deputatlığa namizəd mübarizə aparırdı. Əsas seçkidə 80 deputat əvəzinə 67 deputat seçildi. Bunlardan da 57-i azərbaycanlı idi. Qalan 10 deputat isə erməni və rus idi. Dumaya təkrar seçki 1906-cı il oktyabrın 13-də keçirildi. Təkrar seçkidə seçilən 13 deputatın hamısı erməni idi. Seçkidə seçilən 80 deputatdan 57-i azərbaycanlı, 19-u erməni, 4-ü isə rus idi Seçilən deputatlardan 31-i Dumanın keçmiş tərkibinin deputatları idi. Qalan deputatlar isə yeni seçilənlər idi (166,1906.№ 211).

Dumanın 1906-cı il 7 noyabr tarixli iclasında şəhər başçısı vəzifəsini icra edən K.Səfərəliyev məlumat verdi ki, Şəhər İşləri üzrə Quberniya İdarəsi yeni seçilmiş deputatların tərkibini təsdiq etməyib və yeni seçkilərin keçirilməsini tövsiyə edib. Seçkilərin təsdiq olunmamasının səbəbləri isə aşağıdakılardan ibarət idi: 1) seçkidə iştirak edən şəxslərin şəhərə yarımillik maaşından yuxarı vergi borcu var, hərçənd onlar əmlak senzlərinə əsasən deyil, borcu olmayan digər şəxs və müəssisələrin vəkaləti üzrə iştirak ediblər; 2) ilkin şeçkilərdə iştirak edən şəxslər əlavə

seçkilərə buraxılıb  və seçilmiş hesab olunurlar. Daha sonra o bildirdi ki, bu gün Şəhər İdarəsi bu məsələni müzakirə edib, seçkilərdən şikayət etməyin mənası olmadığından  yeni seçkilər təyin etməyi zəruri sayıb (166,1906.9.XI.№ 241).

Bu məsələnin müzakirəsi iclasda deputatların etirazına və mübahisəsinə səbəb oldu. Deputat A.Saparov çıxışında bildirdi ki, təkrar seçkilər keçirmək lazımdır, amma bununla yanaşı, Şəhər İşləri üzrə Quberniya İdarəsinin qərarından da şikayət verilməsini təklif etdi (166,1906.9.XI.№ 241).

Ə.Ağayev isə seçkinin nəticələrinin bütünlüklə ləğv edilməsinə qəti etirazını bildirərək qeyd etdi ki, bütün seçkilər hansı əsasla ləğv edilib axı? Seçkiləri qismən ləğv etmək, daha doğrusu, düzgün seçilməmiş şəxsləri, kənarlaşdırmaq olardı. Amma başqa şəxslərin nə günahı, onlar ki, qanunun bütün qaydalarını gözləməklə seçiliblər. Daha sonra o seçkinin ləğvi barədə qərardan  şikayət verilməsi üçün deputat A.Saparovun təklifini müdafiə edərək şikayət verilməsinin vacib olduğunu bildirdi.

Həmin iclasda H.Zərdabi Dumanın və Şəhər İdarəsinin lazımsız və izafi pul xərcləməsinin əleyhinə çıxaraq dedi:"Şəhər maliyyə baxımından acınacaqlı durumdadır, hazırda illik 600 min rubldan çox izafi xərcimiz çıxır. Biz səbrsizliklə yeni seçkiləri gözləyirdik ki, dərhal cari xərclərin məhdudlaşdırılmasına başlayaq, amma ümidlərimizi azı yarım illik müddətə təxirə salmalı oluruq. Belə vəziyyətdə dərhal xərclərin azaldılmasına başlamaq lazımdır. Bir il bundan əvvəl Duma xərclərin azaldılması üçün xüsusi komissiya seçdi, amma bu komissiya hələ də bir iş görməyib. Tələsmək lazımdır, axı bu altı ay ərzinidə şəhər daha 300 min rubl borca düşəcək" (166,1906.9.XI.№ 241).

1906-cı ilin ikinci yarısında şəhərin maliyyə vəziyyəti olduca ağır vəziyyətdə idi. Şəhər İdarəsi demək olar ki, xərclərini ödəyə bilmirdi. Seçkilər şəhər büdcəsinin hesabına keçirilirdi. Seçkinin nəticələrinin ləğv edilməsi və yeni seçki keçirilməsi isə əlavə və izafi xərclərin çəkilməsi demək idi.

Şəhərin maliyyə vəziyyəti barədə Duma iclasında iştirak edən Şəhər İdarəsinin üzvü M.Hacınski çıxışında bildirdi ki, vəziyyətimiz dəhşətlidir (şəhəri nəzərdə tutur).Yeni Dumaya ümid edirdik və qəpiyi qəpiyə calayırdıq ki, bu gündən sabaha işlər düzələcək. Ümidlərimiz doğrulmadı və yenə də biz yarım il müddətini köhnə tərkiblə keçirəcəyik. İşləri bu cür davam etdirmək olmur. O çıxışında iclaslarda iştirak etməyən deputatları kəskin tənqid etdi və qeyd etdi ki, şəhərdə tətbiq edilməli olan çoxlu gəlir yerləri var. Amma neynəməli ki, bizim deputatlar Duma iclaslarına gəlmək əvəzinə klublarda oturub kart oynayırlar. Hər gün torpaqların icarəyə götürülməsi ilə bağlı xeyli müraciət daxil olur, amma onları kim həll edəcək? Yeganə çıxış yolu deputatlara təsir göstərməkdir. Bu təsir də yalnız cəzalandırma yolu ilə mümkündür (166,1906.9.XI.№ 241).

M.Ə.Rəsulzadə "Təkamül" qəzetində Bakı şəhərinin maliyyə vəziyyətinin ağırlığı barədə yazırdı: "Bakı kimi dövlətli bir şəhərin kassasını öylə bir hala yetirmişlər ki, qulluqçulara verməyə bir qəpik pul tapılmır?".

Bu suallara seçicilər nə cavab verəcəklər, onu bilmiyorum. Lakin həm seçiçilərin özləri üçün, həm də ümumi Bakı cəmaəti üçün yaxşı olar idi ki, qohumluğu, nisbəti, tabelik və hörmət gözləməyi kənara qoyub, bu dəfə hər kəs öz əqlinin göstərdiyi, öz insafının hiss etdiyi kimi cəmaət və millət üçün çalışan birinin ümumi mənfətini özününkündən yuxarıda görən bir şəxsə intixab eləsin. Zikr etdiyimiz bu xasiyyət sahibləri ilə bərabər, öylələri gərək cəmaət işinin başında olsunlar ki, həqiqətən onlar haman işi aparmağa, layiqincə yerinə yetirməyə müsaid olub öz əfkar və hissiyatlarını deməyə, yoldaşlarına bəyan etməyə müqəddir olmaqla bərabər cəmaətin aşağı sinfinin tərəfdarə, fəqərayi-cəmaətin himayəçisi olsunlar (109,s.130-131).

Belə hesab edirəm ki, seçkidə azərbaycanlı namizədlər üstünlük qazandıqlarına görə Quberniya İdarəsi vergi borcunu bəhanə edərək seçkinin nəticələrini bütünlükə ləğv etdi. Belə ki, həmin seçkidə göstərdiyimiz kimi 80 deputat yerindən 57-ni

azərbaycanlı namizədlər qazanmışdı. Bu hal çar hakimiyyət orqanlarının özünüidarə orqanlarına münasibətdə yeritdiyi rəsmi dövlət siyasəti və seçkilərdə azərbaycanlılarla xristianlar arasında fərq qoyduğunu bir daha əyani şəkildə təsdiqlədi.

Duma seçkilərində azərbaycanlıların üstünlük qazanması XX əsrin əvvəllərində Azərbaycanda milli-azadlıq hərəkatının güclənməsi və milli şüurun oyanmasının nəticəsi idi.

Bakı Dumasına yeni seçki 1907-ci il martın 15-də keçirildi. Seçkidə iştirak etmək hüququ olan şəxslərin siyahısı fevralın 15-də elan edildi. Dumaya seçkilərdə 152 şəxsin namizədliyi irəli sürülmüşdü. Bunlardan da 90-ı azərbaycanlı, 62 isə qeyri azərbaycanlı namizədlər idi. Əsas seçki günü seçilmiş 81 deputatdan 50-i azərbaycanlı idi.

Seçkidə 73 deputat seçildiyindən əlavə seçki təyin edildi. Əlavə seçkidə isə 7 deputat və 16 deputatlığa namizəd seçilməli idi. Əlavə seçki 1907-ci il aprelin 14-də keçirildi (37,s.52).

Bakı şəhər rəisi Dumaya 77 nəfərin deputat seçilməsini təsdiq etdi. Bu deputatlardan 47-i azərbaycanlı, 19-u erməni, 8-i rus, 4-ü alman və 2-i isə gürcü idi. Bunlardan 44-ü əsas, 3-ü isə təkrar seçki günü Dumaya deputat seçilmişdilər (166,1907.№ 67).

Beləliklə, 1907-1911-ci illər üçün Dumaya azərbaycanlılardan M.Əfəndiyev, A.Tağıyev, Q.Sultanov, M.Sultanov, A.Aşurov, H.A.Aşurov, İ.Səfərəliyev, H.Aşurov, T.Səfərəliyev, Ə.Axundov, Ə.Əhmədov, Ə.Ağayev, M. Sadiqov, Ə.Əmircanov, Y.Dadaşov, Ə.Cəfərov, K.Hacınski, K.A.Zərbaliyev, A.Quliyev, X.Kazımov, M.Rəsulov, H.Mahmudbəyov, Ə.Həsənov, H.Z.Tağıyev, M.Useynov, K.Səfərəliyev, H.Xanbutayev, N.Sadıqov, Ə.Aşurov, İ.Aşurov, İ.Hacıyev, H.H.Atamaliyev, M.Əsədullayev, H.Hacıyev, N.Əmircanov, H.Əliyev, H.Həsənov, M.Hacınski, İ.P.Muxtarov, A.Rzayev, A.Rzayev, Y.Əhmədov, Ə.Əliyev, H.S.Sultanov, xristianlardan isə İ.İ.Dadıyev, Şumaxer, B.Şıxyants, D.Arutyunov, S.Tağıanosov, İ.Skobelev, B.Akopov, M.Unanov, S.Ayvazov, K.İretski, A.Benkendorf, N.Ayvazov, A.Ayvazov, X.Antonov,

A.Qukasov, P.Zurabov, T.Melikov, İ.Melikov, B.Makedonski, A.Qelovani, K.Qyunter, Q.Dildarov, A.Saparov, E.Skibinski, A.Feyql, P.Nikitin, S.Lianozov, Q.Kyancuntsev, P.Nijeradze, İ.Kolesnikov, A.Vaçyants və B.Eritsov deputat seçilmişdirlər (166,1907.16.03.№ 60).

1907-ci ildə şəhər başçısı vəzifəsinə N.Rayevski seçildi (121,s.24).

Dumanın azərbaycanlı deputatı Ə.Ağayev 1908-ci ildə deputat mandatından imtina etdi. Onun rəhbərlik etdiyi "Difai" partiyası və "İrşad" qəzeti də fəaliyyətini dayandırdı. Ə.Ağayevin deputat mandatından imtina etməsinin əsas səbəbi 1905-1907-ci illər birinci rus inqilabı hərəkatının məğlubiyyətindən sonra inqilabi hərəkatın iştirakçılarına və siyasi xadimlərə qarşı irticanın güclənməsi ilə bağlı idi. O mümkün olan həbsdən qurtulmaq üçün Duma deputatı mandatından imtina edərək 1908-ci ildə Osmanlı dövlətinə mühacirət etməyə məcbur olmuşdur (142,1908.№ 44).

Bakı Dumasına növbəti 1911-1915-ci illər üçün deputat seçkisi 1911-ci ilin payızında keçirildi. Bu dövrdə də şəhər özünüidarə sistemi elə bir dəyişikliyə məruz qalmamışdır. Çar hökuməti bu seçkidə də Azərbaycan milli burjuaziyasının Dumada onların nümayəndələrinin seçilməsini məhdudlaşdıran qanunu ləğv etmək haqqında tələbini təmin etməkdən imtina etdi. Belə bir tələb 1911-ci ildə Şəhər Dumasına keçirilən növbəti seçki ərəfəsində tez-tez ortaya qoyulurdu. Belə ki, Azərbaycan milli burjuaziyası "ümumimilli maraqlar" və "milli azadlıq və demokratiya" şüarını irəli sürərək Dumada üstün mövqe tutmağa çalışırdı. Şəhər Dumasının və Şəhər İşləri üzrə Quberniya İdarəsinin 1910-cu il noyabrın 12-də qəbul etdikləri qərarla Qafqaz canişinliyi qarşısında Dumaya seçkilərin azərbaycanlılar üçün məhdudiyyət tətbiq edilmədən keçirilməsi üçün vəsatət qaldırmışdı. Bununla bağlı Qafqaz canişinin Bakı şəhər rəisinə göndərdiyi 1911-ci il 28 yanvar tarixli məktubla Dumaya 1911-1915-ci illər üzrə deputat seçkilərinin "1892-ci il "Şəhər Əsasnaməsi"nin 44-cü maddəsində müəyyən edilmiş

qeyri-xristianlardan olan deputatların sayının Dumanın tərkibinin yarısı ilə məhdudlaşdırılması haqqında qaydaya riayət olunmadan" keçirilməsinə icazə vermişdi. Lakin seçkilərin keçirilməsi ərəfəsində bu icazə canişinlik tərəfindən ləğv olundu (180,s.289).

Dumaya 1911-ci il martın 31-də əsas, aprelin 20-də isə təkrar seçkilər keçirildi. Seçkidə səs vermək hüququ olan 3.500 seçicidən 1.500 nəfər və yaxud 42,85 % iştirak etmişdi. Seçkidə 115 nəfərin deputatlığa namizədliyi irəli sürülmüşdü. Əsas seçkidə 24, təkrar seçkidə isə 35 namizəd deputat seçildi (37,s.56).

1911-ci il mayın 7-də Şəhər İşləri üzrə Quberniya İdarəsinin şəhər polis idarəsinin rəisi polkovnik P.Martınovun sədrliyi ilə iclası keçirildi. İclasda Dumaya keçirilən seçkinin nəticələrinin təsdiq edilməsi məsələsi müzakirə edildi. İclasda həmçinin seçki ilə əlaqədar olaraq alınmış bir sıra şikayətlərə baxıldı və müəyyən edildi ki, səsvermədə iştirak etmək hüququ olmayan şəxslər də seçkidə iştirak etmişdir. Nəticədə, Quberniya İdarəsi 1911-ci il 31 mart və 4 aprel seçkilərinin nəticələrini təsdiq etmədi və onların nəticələrini ləğv etdi (166,1911.8.05).

Şəhər İdarəsi Dumaya yeni seçkinin keçirilməsini 1911-ci il mayın 23-ə təyin etdi. Seçkidə yenə də 115 deputatlığa namizəd iştirak edirdi. Seçkinin nəticələrinə görə tələb olunan 80 deputat yeri əvəzinə 52 deputat seçildi. Bunlardan 34-ü azərbaycanlı, 15-i erməni və 3-ü rus idi (166,1911.8.05).

Dumaya keçirilən seçkilərin nəticələri barəsində RSDF(b)P-nin Bakı komitəsinin liderlərindən olan Məşədi Əzizbəyov "Kavkazskaya kopeyka" qəzetinin müxbiri ilə müsahibəsində keçirilən seçki ilə bağlı fikirlərini belə şərh etmişdir: "Seçkilər ləğv olunmalıdır, axı rusların heç biri seçilməmişdir. Bəzi adlı-sanlı ermənilər də seçilməmişlər, nəyə görə?". Məsələn, mənə məlumdur ki, bəzi qolu zorlu müsəlmanlar onların seçilməmələri üçün açıq təbliğat aparmışlar. Onlar deyirlər: adamlar iftiraçıdırlar! Onlara qarşı mübarizədə çətinlik çəkəcəyik (120, s.70)

M.Əzizbəyovun müsahibəsindən göründüyü kimi ermənilərin deputat seçilməməsinə görə seçkinin nəticələrinin ləğv edilməsi tələbi ilə çıxış etməsi hər şeydən əvvəl onun milli mənafeyi deyil, sinfi və firqə mənafeyini üstün tutmasından irəli gəlirdi.

Seçkidən sonra erməni və ruslar deputat mandatından imtina etdi. Buna səbəb rus namizədlərə seçicilərin səs verməməsi idi.

Beləliklə, Şəhər İşləri üzrə Quberniya İdarəsi Dumaya keçirilən seçkilərinin nəticələrini ləğv etdi. Dumaya seçkinin həmin ilin payızında keçirilməsi qərara alındı (166,1911.7.06).

Bakı Dumasına 1911-ci il dekabrın 14-də yeni seçki keçirildi. Seçkidə iştirak etmək hüququ 1911-ci il 28 fevral seçki siyahısına daxil edilmiş şəxslərə verilmişdi. Seçki gününədək yarım illik vergi borcunu ödəməyən şəxslər seçkilərə buraxılmırdı (166,1911.№ 264).

1911-ci ilin mart-may aylarında Dumaya keçirilən seçkilərdə erməni və rusların az yer almasını nəzərə alaraq, bu seçkidə Dumaya seçiləcək 80 deputat yeri quberniya idarəsi tərəfindən azərbaycanlı və erməni-ruslar arasında bölüşdürüldü. 80 deputat yerindən 40-ı azərbaycanlılara, 20-i ruslara və 20-i də ermənilərə verilməsi əvvəlcədən razılaşdırıldı.

Seçkidə 115 şəxsin namizədliyi irəli sürülmüşdü. 2.530 seçicidən səsvermədə ancaq 854 nəfəri və yaxud 33,7% iştirak etmişdir (180,s.289).

Dumaya keçirilən 14 dekabr seçkisində yalnız azərbaycanlı deputatlar seçildi. Seçkidə 40 deputat yeri əvəzinə 47-i deputat və 7-i deputatlığa namizəd seçilmişdir (166,1911.№ 281).

Dumaya təkrar seçki dekabrın 22-də keçirildi. Bu seçkidə isə 21 erməni və 19 rus deputat seçildi. Lakin erməni və rus seçki komitələrinin əvvəlcədən razılaşmalarına əsasən deputatların sayı Dumada hər iki millətdən bərabər olmalı idi (166,1911. №291). Buna görə də seçilmiş erməni deputatlardan biri ixtisar edildi və rus deputatlarının sayına isə bir deputat əlavə edildi.

Şəhər İşləri üzrə Quberniya İdarəsi özünün 1912-ci il 9 yanvarda keçirilən iclasında 1911-ci il dekabr seçkilərinin nəticələrini təsdiq etdi. Bakı Şəhər Polis İdarəsinin rəisi polkovnik P.Martınov Şəhər İşləri üzrə Quberniya İdarəsinin təsdiq etdiyi Duma deputatlarının yeni tərkibinin siyahısını təsdiq olunmaq üçün Qafqaz canişinliyinə təqdim etdi. 1912-ci il yanvarın 28-də Qafqaz canişinliyindən alınan teleqramda seçilən 80 deputatın təsdiq olunduğu göstərildi (166,1912.№ 9).

Bu seçkidə Dumaya azərbaycanlılardan İ.Hacınski, Ə.Axundov, M.Vəkilov, M.Sultanov, M.Əsədullayev, M.Əziz-bəyov, H.M.Rəsulov, A.Aşurov, A. Məmmədov, H.Mahmud-bəyov, B.Rüstəmbəyov, İ.Axundov, İ.Aşurbəyov, Y. Dadaşov, A.Quliyev, Y.Mikaylov, Ə.Aşurbəyov, A.Mustafabəyov, Ə.Cəfərov, Q.Qasımov, N.Əmircanov, A.Nağıyev, H.Hacıyev, H.A.Rzayev, İ.Səfərəliyev, N.Əlizadə, M.Hüseynov, İ.Məlikov, A.Mehdiyev, M.Sultanov, A.Əhmədov, Ə.Hüseynov, İ.Hüseynov, K.A.Zərbəliyev, K.M.Salayev, M.C.Sadıxov, N. Sadıxov, T.Nağıyev, xristianlardan isə D.Arutyunov, S.Tağıanosov, N.Ayvazov, M.Unanov, A.Manço, A.Saparov, A.Xatisov, F.Qavrilov, P.Knyazev, Q.Ter-Mikaelyan, A.Leonteviç, F.Skibinski, D.Kulikovski, K.İretski, P.İlyuşkin, İ.Ter-Zaxaryans, A.Serebryakov, M.Ağacanov, F.Yefremoviç, T.Budaqyants, A.Vaçyants, İ.Skobelev, Q.Vorobeyev, İ.Kolesnikov, İ.Mailov, İ.Tomas, A.Aleksandr, A.Babayants, V.Yeriçev, A.Metçiqer, A.Popov, T.Zaxaryants, T.Melikov, F.Bıkov, L.Bıç, Mixail Qriqoryeviç Alibekov, və S.Ayvazov və başqaları deputat seşilmişdirlər (140,1912.№24).

Dumanın yeni tərkibinin ilk iclası 1912-ci il fevralın 1-də keçirildi. İclasda 70 deputat iştirak edirdi. Şəhər başçısı vəzifəsinə L.Bıç seçildi (166,1912.№14).

Dumanın 1911-1915-ci illər üçün nəzərdə tutulmuş səlahiyyəti 1917-ci oktyabr seçkisinədək davam etdi. 1915-ci il aprelin 28-də Duma Birinci dünya müharibəsi başa çatanadək 1916-1919-cu illər üzrə keçiriləcək deputat seçkisini təxirə salmaq haqqında qərar qəbul etdi. Bu qərar 1916-cı il yanvarın

16-da Qafqaz canişinliyi tərəfindən təsdiq edildi (2,s.1.iş. 532.v.12).

Dumanın 1916-cı il 26 yanvar tarixli iclasında şəhər başçısı L.Bıç məruzə edərək müharibə başa çatanadək Dumaya deputat seçkisinin təxirə salınması haqqında Qafqaz canişinliyindən razılıq alınması haqqında məlumat verdi (166,1916.№ 22).

Lakin Dumanın Azərbaycanlı deputatları seçkinin təxirə salınması ilə razılaşmamış müharibə dövründə seçkinin keçirilməsi məsələsini dəfələrlə qaldırmışdırlar. Onlar 1915-ci ilin sonlarından başlayaraq Dumaya növbəti seçki keçirilməsi təklifini irəli sürmüş və səlahiyyət müddəti başa çatmış Dumanın fəaliyyətini açıqca tənqid etmişdirlər. Dumanın Birinci dünya müharibəsi ilə əlaqədar olaraq seçkiləri təxirə salmaq barədə qərarını azərbaycanlı deputatlar və ictimai-siyasi xadimləri çıxışlarında və yazılarında kəskin tənqid edirdilər. Azərbaycanlı deputatlardan fərqli olaraq Dumanın erməni deputatları isə müharbə ilə əlaqədar olaraq seçkinin təxirə salınmasını müdafiə edirdilər. Ona görə ki, erməni deputatlar yaxşı başa düşürdülər ki, Bakı şəhərinin azərbaycanlı əhalisi artıq onların hüquqlarını məhdudlaşdıran "Şəhər Əsasnaməsi"nin 44-cü maddəsi ilə yeni seçkiyə getməyəcəklər. Bu da onların Dumaya növbəti seçkidə deputat seçilmələrini şübhə altına alacaqdır. Bu səbəbdən də onlar Birinci dünya müharibəsi başa çatana kimi səlahiyyətlərini uzatmaq istəyirdilər (37,s.125).

A.Aşurov Dumada çıxışlarının birində köhnə Dumanın daha artıq fəaliyyət göstərməsini qeyri-qanuni saydı. Q.Qasımov isə seçkinin təxirə salınması əleyhinə çıxış edərək bildirdi ki, 4 il müddətinə seçilmiş deputatların səlahiyyəti başa çatıbdır, nə üçün onlar öz səlahiyyətlərini davam etdirirlər (37,s125).

Dumanın 1916-cı il 24 fevral tarixli iclasında Q.Qasimov, M.Əsədullayev və A.Aşurov Dumaya yeni seçki keçirilməsi məsələsini bir daha qaldırdılar. İclasda çıxış edən A.Aşurov Dumanın və deputatların fəaliyyətsizliyini, əhalinin və mətbuatın bu qədər məzəmmət etməsindən sonra deputatların və Şəhər

İdarəsi üzvlərinin daha öz vəzifələrində qala bilməyəcəklərini bildirdi (166,1917.№ 43).

Dumanın 1917-ci il 21 fevral tarixli iclasında çıxış edən Q.Qasımov Dumaya yeni seçkinin keçirilməsinin zəruriliyini əsaslandıraraq çıxışında Rusiyanın və Qafqazın hər yerində seçkilərin keçirildiyindən söz açaraq, Bakının isə nə üçün istisna təşkil etdiyini və burada Duma seçkilərinin keçirilmədiyini çıxışında kəskin tənqid etdi (37,s.125).

Lakin iclasda erməni deputatlardan P.Knyazev, Q.Ter-Mikaelyan və T.Zaxaryan çıxış edərək müharibə ilə əlaqədar olaraq seçkinin keçirilməsinin əleyhinə olduqlarını bildirdilər. Dumaya seçki keçirilməsi ilə əlaqədar olaraq çıxış edən M.Əziz-bəyov Dumaya yeni seçki keçirilməsinin təyin olunmasını irəli sürdü. O, çıxışında bildirdi ki, Duma milli məsələ deyil, təsər-rüfat məsələləri həll etdiyindən müsəlmanlara Duma deputatlarının yarıdan çoxunu seçməyi qadağan edən "Şəhər Əsasnaməsi"nin 44-cü maddəsi ləğv edilməlidir (166,1917.№ 43).

Həmin iclasda deputatlardan M.Əsədullayev və A.Aşurov isə daha kəskin çıxış edərək mövcud Dumanın buraxılmasını zəruri hesab etdilər. M.Əsədullayev çıxışında Dumanın fəaliyyətsizliyini önə çəkərək dedi ki, biz artıq yorulmuşuq. Çünki biz ciddi məsələləri zarafatyana həll edirik. A.Aşurov isə özlərini "yarıtmaz təsərrüfatçı" adlandıraraq belə qənaətə gəldi ki, onlar-deputatlar nə qədər tez getsələr, şəhər üçün bir o qədər yaxşı olar (37,s.126).

M.Ə.Rəsulzadə "Yeni İqbal" qəzetində Dumaya seçkinin təxrə salınmasını "Duma intixabları" adlı məqaləsində kəskin tənqid etmişdir.O yazırdı: "Dumanın keçənki iclasında Duma intixablarına aid Şəhər İdarəsi tərəfindən hazırlanan layihə müzakirə olunaraq təsdiq və tədil olunmalı idi. Fəqət müza-kirənin nəticəsində degil, daha ibtidasında ikən layihə təsdiq də degil, tədi də degil, intizar olunmadığı halda təxir edildi.

Gözlənilmədiyi bir halda təxir məsələsi çıxaran qlasnı Tağıanosov olmuşdur. Tağıanosova görə intixab bir çox zehn və

fikirləri, məsələ və qüvvətləri alır bir məsələdir.Böylə bir zamanda (birinci dünya müharibəsinin getdiyi nəzərdə tutulur) intixab məsələsi ilə məşğul olmağa gəlməz imiş. İclasda qlasnı Qasım Qasımov cənabları söyləmişlər ki, qlasnıların öz səlahiyyətlərini qanun xaricindədir və bu surətlə artırmağa heç bir mənəvi həqləri yoxdur".

Müəllif məqaləsinin sonunda qeyd edirdi ki, hər halda görünüyor ki, Tağıanosovun "həzarət, bir az daha oturalım, yerimiz xoşdu" məsələsinə uyan təklfi bütün qlasnılarımızın ən zəif nöqtəsinə toxunmuşdur ki, haman bir yıldırım təsiri icra edərək Duma heyətini başdan-ayağa təsxir etmişdir (110,s.147-148).

M.Ə.Rəsulzadə məqaləsində haqlı olaraq bir mənalı şəkildə azərbaycanlı deputat Q.Qasımovun haqlı mövqeyini müdafiə edərək göstərirdi ki, səlahiyyət müddəti artıq başa çatmış Duma buraxılmalı və ona yeni seçkilər keçirilməlidir. Q.Qasımovdan fərqli olaraq erməni deputat S.Tağıanosovun Birinci dünya müharibəsinin gedişi ilə əlaqədar olaraq seçkini təxirə salaraq səlahiyyəti başa çatmış Dumanın fəaliyyətinin davam etdirilməsi mövqeyini isə kəskin tənqid edirdi. Çünki Dumanın erməni deputatları şəhər əhəmiyyətli bütün məsələlərin həllini müharibə başa çatanadək bir mənalı olaraq təxirə salmaq istəyirdilər.

Göründüyü kimi, Dumanın azərbaycanlı deputatlarının əksəriyyətinin də etiraf etdiyi kimi səlahiyyət müddəti artıq 1915-ci ildən başa şatmış Duma artıq əvvəlki kimi fəaliyyət göstərə bilmir və şəhərin problemlərini həll edə bilmək gücündə deyildi. Ona görə də Dumaya yeni seçkinin keçirilməsi şəhərin problemlərinin həlli baxımından olduqca əhəmiyyətli idi.

Azərbaycanlı deputatların Dumaya yeni seçki keçirilməsi kimi demokratik səciyyəli tələb irəli sürmələri olduqca zəruri və ədalətli idi. Çünki Duma artıq fəaliyyətsiz bir quruma çevrilmiş və demək olar ki, fəaliyyət göstərmirdi. Kvorum olmadığına görə Duma iclasları təxirə salınır və şəhər əhəmiyyətli məsələlər isə həll edilməmiş qalırdı.Bu vəziyyətdən isə onsuz da ağır vəziyyətdə olan şəhər təsərrüfatı və əhali zərər görürdü. Belə ki,

Dumaya seçilmiş 80 deputatdan 24-ü müxtəlif səbəblərə görə deputat vəzifəsindən getmişdir. Dumada cəmi 56 deputat qalmışdı. Onun da 10-15 nəfəri iclaslarda iştirak etmirdi. Buna görə də mühüm məsələlərin həlli, o cümlədən torpaqların icarəyə verilməsi məsələsi yetərsay olmadığından təxirə salınırdı (37,s.126).

1917-ci il fevral inqilabının nəticəsində Rusiyada mütləqiyyət devrildi və müvəqqəti hökumət hakimiyyətə gəldi. Mütləqiyyət quruluşunun devrilməsi ilə yerlərdə inzibati polis idarəçiliyini seçkili hakimiyyət orqanları əvəz etdi. Şəhər özünüidarəsində isə vəziyyət fərqli idi. Belə ki, müvəqqəti hökumət ilk vaxtlar onları ləğv etmədi, yenidən seçilənədək fəaliyyətlərinin davam etdirilməsini zəruri saydı. Çünki müharibə şəraitində, dövlətin iqtisadi və siyasi böhran keçirdiyi bir vaxtda bütün idarə sistemini dərhal ləğv etmək vəziyyəti daha da ağırlaşdıra bilərdi. Belə ki, şəhər özünüidarə orqanlarının buraxılması əhalinin və ordunun ərzaqla təchizi işini, təsərrüfatın idarə edilməsini və maliyyə sistemini çıxılmaz vəziyyətə salardı. Buna görə də müvəqqəti hökumət çar hökuməti qanunları əsasında seçilmiş şəhər özünüidarə orqanlarını dəyişməz saxladı (37,s.67).

Dumanın 1917-ci il 3 mart tarixli iclasında baş vermiş çevrilişə münasibət məsələsi müzakirə edildi. Duma müvəqqəti hökumətə tam etimad göstərdiyini və "yeni quruluşu" yaratmaqda ona hərtərəfli kömək edəcəyini bildirdi (37,s.67).

Şəhər başçısı L.Bıç çıxışında qeyd etdi ki, köhnə hakimiyyət orqanlarının əvəzinə yenisini yaratmağa ehtiyac yoxdur. Çünki Qafqaz canişini böyük knyaz Nikolay Nikolayeviç müvəqqəti hökuməti müdafiə etdiyini bildirmişdir.

Şimali Azərbaycanın digər yerlərində də çarizmin devrilməsi sevinclə, mitinq və nümayişlərlə qarşılandı. Martın 4-də Gəncə şəhər rəisi X.Xasməmmədov Petroqradda Müvəqqəti hökumətə teleqram göndərərək bildirdi ki, "Yelisavetpol Şəhər Dumasının martın 3-də keçirilən fövqəladə iclasında şəhər başçısının çevriliş haqqında məlumatını dinləyərək müvəqqəti hökuməti

alqışlayır və Dövlət Dumasının hüquq və hakimiyyət uğrundakı qəti qələbəsindən sevindiyini bildirir" (71,s.36)

Müvəqqəti hökumət 1917-ci il 15 aprel tarixli qərarı ilə " şəhər özünüidarəsi" haqqında yeni qanun çıxanadək Şəhər Dumalarına seçkilər keçirilməsinin müvəqqəti qaydalarını müəyyən etdi. Qaydalara görə milliyyətindən və dini etiqadından asılı olmayaraq 20 yaşına çatmış bütün vətəndaşlara seçki hüququ verilirdi. Yeni seçki qanunu əmlak senzini ləğv etdi. Seçkidə hərbi qulluqçulara və qadınlara da səs vermək hüququ verilirdi. Qadınların səs verməsini təşkil etmək üçün ayrıca seçki yığıncağı təşkil edilməli idi (205, maddə 85.1917).

Dumaya seçki "Müsəlman ictimai və siyasi təşkilatları", "Sosialist bloku", "Bolşeviklər" partiyası və "Daşnaksütun" partiyası arasında kəskin mübarizə şəraitində gedirdi. "Müsəlman ictimai və siyasi təşkilatları" əsasən azərbaycanlı, xüsusəndə müsəlman əhalisini, "Sosialist bloku" şəhərin rus, həmçinin sosialist ideyalarına inanan xristian və müsəlman əhalisini, "Bolşeviklər" partiyası şəhərin rus, həmçinin də bolşevizm ideyalarının arxasınca gedən xristian və müsəlman əhalisini və "Daşnaksütun" partiyası isə şəhərin əsasən erməni, o cümlədən rus və digər xristian əhalisini öz tərəflərinə çəkməyə və seçkidə qalib gəlməyə çalışırdılar.

Bakı Dumasına seçki 1917-ci il oktyabrın 29-da keçirildi. Bu seçkidə 12 ictimai-siyasi təşkilat Dumada 105 deputat yeri uğrunda mübarizə aparırdı. Seçkidə 106.248 seçicidən, 72.816 seçici iştirak etmişdi. Dumada bir deputat yeri almaq üçün təxminən 700 səs almaq tələb olunurdu (166,1917.02.11.№246).

Səsvermənin nəticəsinə görə "Sosialist" bloku (Sosialist-inqilabçılar və Menşeviklər) seçkidə qalib gəldi. Bu blok 17.519 səs və ya səslərin 24.10 % alaraq 25 deputat yeri qazanmışdır. "Sosialist" blokundan deputat seçilmişdir: L. Atabekov, N.Drujnik, N.Topelberq, A.Çurayev, C.Saakyan, X.Anşles, Q. İsrafilbəyov, A.Roxlin, N.Sundukyants, P.Baqaturov, N.Nikitin, Q.Ayollo, S.Polonskiy, F.Matveyev, P.Ter-Oqanyants, E.Blyumşteyn, N.Proxorov, Q.Ter-Qazaryants, B.Ter-Qriqoryev,

A.Okinşeviç, B.Miçkeviç, A.Xaçiyev, L.Loyko, T.İsxanyan və S.Dneykin.

"Daşnaksütun" partiyası 12.331 səs və ya səslərin 16.97 % alaraq 17 yeri əldə etmişdir. Bu partiyadan deputat seçilmişdir: O.Kaçaznuni, A.Gülxandanyants, S.Şahnazaryants, S.Akop-yants, T.Bekzadyan, A.Çilingəryan, T.İonasyan, P. Abramyants, X.Çubaryan, C.İonesyan, A.Malxazov, T.Ter-Arekelov, B. Akopçayan, Q.Varşamyan, S.Qriqoryan, Q.Xaçaturov, C.Dastakov və L.Zarapanyan.

"Bolşeviklər" partiyası 11.195 səs və ya səslərin 15.40 % alaraq 16 deputat yeri qazanmışdır. Bu partiyadan deputat seçilmişdir: S.Şaumyan, M.Əzizbəyov, P.Çaparidze, N.Nərimanov, İ.Fioletov, A.Zərgəryan, A.Davit, B.Naneyşvili, M.İsrafilbəyov, N.Kolesnikov, C.Zavaryan, A.Terequlov, Y.Zevin, M.Basin, M. Atabekov və A. Xrenov.

"Müsəlman ictimai və siyasi təşkilatları" 10.234 səs və ya səslərin 14.08 % alaraq 14 deputat yeri qazanmışdır. Bu blokdan deputat seçilmişdir: Ə.M.Topçubaşov, F.Xoyski, M.Ə.Rə-sulzadə, M.Vəkilov, M.Hacınski, Q.Qasımov, M.Əsədullayev, A.Aşurov, M.Rəfiyev, A.Əmircanov, B.Cavanşir, A.Tağıyev, A.Qarayev, Y.Əliyev və A.Həsənov.

"Rusiyada müsəlmanlıq" partiyası 8.015 səs və ya bütün səslərin 11.03 % alaraq 12 deputat yeri qazanmışdır. Bu parti-yadan deputat seçilmişdir: S.Qəniyev, B.Aşurbəyov,A.Tağıyev, M.Mehdiyev, E.Məmmədbəyov, N.Sultanov, Q.Babayev, A.Yusifov, N.Əmiraslanov, N.Hacıyev, Q.Tağıyev və İ. Mah-mudquliyev.

"Xalq-azadlıq" partiyası (Kadetlər) 4.172 səs və ya səslərin 5.74 % alaraq 6 deputat yeri qazanmışdır. Bu partiyadan deputat seçilmişdir: P.Kara-Murza, M. Podşibyakin, X.Vermişev, B. Klementyev, A. Delçin və B. Badayev.

"Sosial-demokrat birlik qrupu" (Yedinstvo) 2.581 səs və ya səslərin 3.55 % alaraq 4 deputat yeri qazanmışdır. Bu qrupdan deputat seçilmişdir: B.Frolov, F.Blinov, Ç.Xanzadyan və B. Badayev.

“Erməni milli demokrat partiyası” 2.357 səs və ya səslərin 3.24 % alaraq 4 deputat yeri qazanmışdır. Bu partiyadan deputat seçilmişdir:S.Tağıanosov, A.Vaçyants, Q.Ter-Mikaelyan və T.Zaxaryan.

“Yəhudi seçki birliyi” 2.208 səs və ya səslərin 3.04 % alaraq 3 deputat yeri qazanmışdır. Bu birlikdən deputat seçilmişdir: M.Şor, B.Veynşal və M.Abezquz.

“Qafqaz rus demokratik mədəni maarif cəmiyyəti”-1.647 səs və ya səslərin 2.27 % alaraq 2 deputat yeri qazanmışdır. Bu cəmiyyətdən deputat seçilmişdir: B.Panamaryov və İ.Viquro (166,1917.02.11.№246).

Dumaya seçkidə azərbaycanlı namizədlər təxminən 21.700 səs alaraq 31, erməni namizədlər təxminən 26.600 səs alaraq 38, rus namizədlər təxminən 13.300 səs alaraq 19, yəhudi namizədlər təxminən 8.400 səs alaraq 12, polyak namizədlər təxminən 2.100 səs alaraq 3 və gürcü namizədlər isə təxminən 1.400 səs alaraq 2 deputat yeri əldə etdilər.

1917-ci ilə şəhərdə seçicilərin təxminən 40 %-i azərbaycanlılar təşkil edirdi. Seçkidə təxminən 28.700 azərbaycanlı və ya bütün seçicilərin 39,41% səsvermədə iştirak etmişdir. Bu hesaba müvafiq olaraq seçkidə azərbaycanlılardan 41 deputat seçilməli idi. Lakin 21.700 və ya seçicilərin təxminən 30 % “Müsəlman ictimai və siyasi təşkilatları”na və “Rusiyada müsəlmanlıq” partiyasından olan namizədlərə, qalan 10 % isə başqa partiyadan, xüsusən də “Sosialist” blokundan olan namizədlərə səs vermişdir.

Şəhərin erməni əhalisi isə seçicilərin təxminən 20 % qədərini təşkil etmələrinə baxmayaraq seçkidə təxminən 26.600 səs və ya bütün seçicilərin 36,53 % səsini ala bilmişdirlər. Erməni deputatlar əsasən, “Sosialist” blokundan, “Daşnaksütun” partiyasından, “Bolşeviklər” partiyasından və “Erməni milli demokrat” partiyasından seçilmişdirlər. Erməni siyasi təşkilatları ermənilərlə yanaşı şəhərin başqa xristian əhalisini də öz tərəflərinə çəkərək onların səslərini ala bilmişdir.

Şəhərin rus əhalisi isə seçicilərin təxminən 35 % qədərini təşkil etmələrinə baxmayaraq seçkidə təxminən 13.300 səs və ya bütün seçicilərin 18,26 % səsini almışdırlar. Ruslar əsasən "Sosialist" blokundan və "Bolşeviklər" partiyasından və "Xalq-azadlıq" partiyasından (Kadetlər) olan namizədlərə səs vermişdirlər. Rus seçicilərin 16,74 % başqa partiyalara və ya namizədlərə səs vermişdilər.

Seçicilərin təxminən 9,44 % isə "Sosial-demokrat birlik" qrupuna (Yedinstvo) "Yəhudi seçki birliyi" nə və "Qafqaz rus demokratik mədəni maarif cəmiyyəti"nə və deputat yeri ala bilməyən digər təşkilatlara səs vermişdirlər.

Bakı Şəhər Dumasının yeni tərkibdə ilk iclası 1917-ci il noyabrın 10-da keçirildi. İclasda F.Xoyski Dumanın sədri, S.Saakyan isə onun müavini seçildi (166,1917.14.11.№ 249).

1917-ci ilin noyabrında fəaliyyətə başlayan Duma bolşeviklərin üstünlük təşkil etdikləri Bakı Sovetinin yeganə rəqibi idi. 1918-ci martında kütləvi türk-müsəlman soyqırımından sonra hakimiyyəti ələ keçirən bolşeviklər 1918-ci ilin aprelin 20-də Bakı Şəhər Dumasını buraxdılar.

Azərbaycan Demokratik Respublikası hökuməti isə 1918-ci il iyulun 30-da şəhər özünüidarə orqanlarının fəaliyyətinin bərpa olunması haqqında qərar qəbul etdi.

Hökumətin 1919-cu il 29 yanvar tarixli qərarı ilə şəhər özünüidarələrinin səlahiyyət müddəti yeni seçkilərədək uzadıldı (14,s.80-81).

1919-cu il avqustun 7-də Parlament "Şəhər Dumasına Seçkilər" haqqında yeni "Əsasnamə" qəbul etdi. Yeni "Əsasnamə"yə görə deputatlar 4 illiyə deyil, 2 illiyə seçilirdi. Bakı Duması üçün deputatların sayı 105 nəfər müəyyən edilmişdi. 1920-ci ilin aprel işğalı Bakı Dumasına yeni demokratik seçki keçirilməsinə imkan vermədi (14,s.82).

Sovet Rusiyası tərəfindən 1920-ci il aprelin 28-də Şimali Azərbaycan işğal edildikdən sonra Bakı Şəhər Duması Azərbaycan İnqilab Komitəsi tərəfindən buraxıldı.

## II FƏSİL

### Bakı Şəhər Dumasının əsas fəaliyyət istiqamətləri

### §2.1. Şəhər özünüidarəetmə sahəsində milli hüquq bərabərsizliyinin aradan qaldırılması

Şəhər özünüidarəsi sahəsində milli hüquq bərabərsizliyinin aradan qaldırılması istiqamətində mübarizə Dumanın azərbaycanlı deputatları tərəfindən aparılırdı. Çar hökuməti bütün sahələrdə olduğu kimi, şəhər özünüidarəsi sahəsində də yeritdiyi siyasət müstəmləkəçi xarakter daşıyırdı.

1870-ci il "Şəhər Əsasnaməsi"nin 35-ci maddəsinə görə xristian olmayan deputatlar Dumanın ancaq 1/3 hissəsini təşkil edə bilərdilər (37,s.24-25).

Ancaq 1887-ci ildə Dövlət Şurası Daxili İşlər Nazirliyinin Cənubi Qafqaz diyarının şəhərlərində müsəlmanların xristian əhalisi ilə şəhər özünüidarəsində iştirak hüquqlarının bərabərləşdirilməsi təklifinə baxaraq, Cənubi Qafqaz şəhərlərində Şəhər Dumalarının qeyri xristian deputatların sayının Şəhər İdarəsi üzvlərinin sayı kimi 1/2-dən artıq olmamasını qərara aldı (182,s.140).

1892-ci il "Şəhər Əsasnaməsi" milli hüquq bərabərsizliyini daha da möhkəmləndirdi. Yeni "Şəhər Əsasnaməsi"nin 44-cü maddəsinə əsasən "xristian olmayan deputatların sayı deputatların ümumi sayının 1/5 hissəsindən artıq ola bilməzdi. Xristian deputatların sayının kifayət qədər olmaması ilə əlaqədar olaraq Daxili İşlər Nazirinin icazəsi ilə "Şəhər Əsasnaməsi"nin 44-cü maddəsinə müvafiq olaraq azərbaycanlılara deputatların 1/3 hissəsini seçmək hüququ verildi (37,s.25).

Bu "Əsasnamə" ilk növbədə imperiyanın bəzi şəhərlərində toplu halda yaşayan yəhudilərə qarşı yönəlsə də, Cənubi Qafqazın müsəlman əhalisi də bu ayrı-seçkilikdən ciddi şəkildə əziyyət çəkirdi. Məhz, "Əsasnamə" tətbiq edildikdən sonra

əhalisinin böyük əksəriyyətini azərbaycanlıların təşkil etdiyi Bakı, İrəvan və Şuşa kimi şəhərlərin özünüidarə orqanlarında üstünlük ermənilərin əlinə keçdi. Yaşayış mülklərinin, torpaq sahibliyinin, ticarətin və sənayenin başlıca olaraq ermənilərin əlində cəmləşməsi nəticəsində onlar seçkilərdə çoxluq qazanırdılar. Azərbaycanlılar onların hüquqlarını məhdudlaşdıran "Əsasnamə"nin göstərilən maddəsindən çox narazı idilər və hətta H.Zərdabi "Əsasnamə"nin göstərilən maddəsinin dəyişdirilməsi tələbi ilə Bakı qubernatorunun qəbulunda olmuş, Rusiya Nazirlər Şurasına şikayət ərizəsi də göndərmişdi. Bu işdə milli burjuaziyanın görkəmli nümayəndəsi H.Z.Tağıyev də onu müdafiə edirdi. Bütün bu narazılıqlardan sonra 1898-ci aprel ayının 28-də Nazirlər Şurası Bakı Şəhər Dumasına seçkilər haqqında yeni "Əsasnamə" qəbul etdi. Yeni "Əsasnamə" 1899-cu il may ayının 15-də çar fərmanı ilə təsdiqləndi və 1900-cu il dekabr ayının 14-də Dövlət Şurası onun təsdiq edilməsi barədə sərəncam verdi (57,s.82-83).

Nəhayət, 1900-cü il dekabrın 14-də "Şəhər Əsasnaməsi"nin 44-cü maddəsinə dəyişiklik edildi. Bu maddənin yeni redaksiyasına görə Şəhər Dumasının azərbaycanlı deputatlarının sayı xristian deputatların sayından çox ola bilməzdi (37,s.25).

Lakin bu dəyişiklik də Azərbaycanlı deputatları qane etmirdi. Onlar XIX əsrin sonu-XX əsrin əvvəllərində Bakı Dumasına keçirilən seçkilərdə azərbaycanlıların hüquqlarını məhdudlaşdıran "Şəhər Əsasnaməsi"nin 44-cü maddəsinin ləğv olunması uğrunda fəal mübarizə aparmışdırlar.

Milli burjuaziyanın nümayəndələri və demokratik fikirli ziyalılar çar hakimiyyət orqanlarına təqdim etdikləri müştərək ərizələrlə, Şəhər Duması və Rusiya Dövlət Dumasına seçilən azərbaycanlı deputatlar vasitəsi ilə şəhər özünüidarəsindəki bu milli hüquq bərabərsizliyinin aradan qaldırılmasını tələb edirdilər. Bu istiqamətdə Bakı Dumasının deputatları Ə.Ağayev, Ə.M.Topçubaşov və digər azərbaycanlı deputatlar olduqca fəallıq göstərirdilər.

Duma seçkilərində azərbaycanlıların hüquqlarının kobud pozulması məsələsini Ə.Ağayev ilk dəfə 1904-cü ildə Şəhər Dumasının iclaslarının birində qaldırmışdır. Həmin iclasda Rusiya şəhər başçıları qurultayında nümayəndələrin iştirakı məsələsinə baxılırdı. Qurultayda müzakirə olunacaq məsələlər barədə çıxış edən Ə.Ağayev demişdir: "70-ci illərin qanunvericisi imperiyada "Şəhər Əsasnaməsi"ni tərtib edərkən dövlətin bütün əhalisinin maraqlarını nəzərdə tuturdu. Lakin bu maraqlar çoxdan diqqətə alınmır. Rusiyada tətbiq edilən qanunlar şablon kimi ucqarlarda da şamil olunurdu. Buna misal kimi şəhər özünüidarəçiliyində müsəlmanların hüquqlarının məhdudlaşdırılmasını göstərmək olar. Həmin məhdudiyyət nə ilə əlaqədardır? Bu məsələ lazımi dərəcədə burada işıqlandırılmalı və sonra əsaslandırılmış şəkildə qurultayın müzakirəsinə təqdim edilməlidir. Belə məsələlər az deyil və onların əsaslandırılması yerli özünüidarəetmənin proqramını təşkil etməlidir ki, həmin proqram elə indi hazırlanmalıdır. Mən təklif edirəm ki, deputatlardan ibarət komissiya təşkil edilsin. Qoy bu komissiya qurultayda müzakilə ediləcək məsələlərin proqramını hazırlasın, qoy bizim yerli ehtiyaclarımız müzakirə edilsin" (166,1904. 25.11.№264;20,s.17).

Çar II Nikolay 1904-cü il dekabr ayının 12-də fərman imzaladı və bu fərmana görə hökumətə və senata tapşırıq verdi ki, yerli idarəçilikdə zemstvo və şəhər orqanlarının rolunu artıran, məhkəmələrin yenidən qurulmasını özündə ehtiva edən, torpaq və kəndli siyasətini stimullaşdıran geniş islahatlar proqramı hazırlasınlar.

Şimali Azərbaycanın ictimai-siyasi xadimləri də 1904-cü il 12 dekabr fərmanından yararlanmağa çalışırdılar. Ə.Ağayev 12 dekabr fərmanını əsas tutaraq 1905-ci il yanvar ayının 18-də şəhər özünüidarə orqanlarında müsəlmanların hüquqlarını imperiyanın digər əhalisinin hüquqları ilə bərabərləşdirmək haqqında Duma qarşısında məsələ qaldırdı. O yazırdı: "Məlum olduğu kimi, indiyə qədər şəhər özünüidarə orqanlarında Cənubi Qafqaz müsəlmanlarının hüquqları hansısa səbəbdən məhdud-

laşdırılmışdır. Bu məhdudlaşdırma anlaşmazlıqdan başqa heç nə ilə izah edilmədiyi, təcrübədə isə müsəlmanların maraqlarına böyük ziyan vurduğu, şəhər özünüidarəçiliyinin düzgün fəaliyyət göstərməsinə maneə olduğu və bu idarəçiliyin bütün mahiyyətini kökündən inkar etmişdir" (2,s.1.iş.260.v.28-33). Ə.Ağayev öz müraciətində ən yaxın zamanda Bakı Şəhər Dumasının bu məsələni müzakirə etməsini və bununla yanaşı Cənubi Qafqazın digər şəhər özünüidarə orqanlarının da bu vəsatətə qoşulmağa dəvət edilməsini Duma rəhbərliyindən xahiş edirdi. Onun fikrincə, şəhər özünüidarə orqanlarının idarə edilməsində Cənubi Qafqaz müsəlmanlarının hüquqları nəinki xristianlardan, hətta Rusiya imperiyasının müsəlmanlar yaşadığı digər əyalətlərdən də aşağıdır.

Ə.Ağayevin ərizəsinə baxan və onu bütövlükdə dəstəkləyən Şəhər İdarəsi hesab edir ki, həqiqətən insanların vətəndaş hüquqlarını yalnız onların bu və ya başqa dinə mənsubluğuna görə məhdudlaşdırmağa heç bir ciddi əsas yoxdur. İdarə qeyd edir ki, bu ərizədə toxunulan məsələ dolayısı ilə Dumanın şəhər başçıları və şəhər özünüidarəçiliyi nümayəndələrinin qurultayının keçirilməsi haqqında vəsatətin qaldırıldığı 1904-cü il 23 noyabr tarixli iclasında artıq müzakirə edilmişdir. Buna görə yəqin ki, ərizənin işlənilməsi üçün hələ o vaxt Duma tərəfindən seçilən və keçirilməsi nəzərdə tutulan qurultayın proqramını hazırlayacaq komissiyaya göndərmək lazımdır.

İdarə hesab edir ki, Ə.Ağayevin təşəbbüskarı olduğu vəsatəti qaldırmaqla Duma onu yalnız Cənubi Qafqaz müsəlmanlarının şəhər idarəçiliyində hüquqlarının imperiyanın digər əhalisinin hüquqları ilə bərabərləşdirilməsi məsələsi ilə məhdudlaşdırmamalıdır (2,s.1.iş.260.v.28-33).

Bütün Rusiyanın acı təcrübəsi açıq-aydın göstərdi ki, əmlak senzi əsasında formalaşan seçki sistemi bir qayda olaraq, cəmiyyətə mürəkkəb şəhər təsərrüfatını şüurlu idarə edə biləcək nümayəndələri seçmək imkanı vermir.Cəmiyyət həmin nümayəndələrə get-gedə daha çox əqli və mənəvi xarakterli tələblər irəli sürməyə başladığı üçün ilk növbədə, seçicilər dairəsini

genişləndirmək lazımdır ki, Duma deputatlarının tərkibi şəhər təsərrüfatının uğurla aparılmasında marağı olan sakinlərdən ibarət olsun. İkincisi, çox arzu olunandır ki, şəhər təsərrüfatını idarə edən nümayəndələr ən azından yazıb-oxumağı bacarsınlar (2,s.1.iş.260.v.28-33).

Şəhər İdarəsi yuxarıda göstərilənlərlə əlaqədar olaraq hesab edir ki, Şəhər Duması Rusiya şəhər başçıları qurultayında aşağıdakı vəsatəti qaldırmalıdır:

1) şəhər özünüidarəçiliyində Cənubi Qafqaz müsəlmanlarının hüquqlarının imperiyanın digər əhalisinin hüquqları ilə bərabərləşdirilməsi haqqında;

2) şəhər özünüidarəçiliyinin inzibati himayəçilikdən azad edilməsi haqqında;

3) mənzil vergisi ödəyən kirayənişinlərə seçki hüququ verilməsi haqqında;

4) seçicilər üçün olmasa da, seçilənlər üçün ən azından minimum təhsil senzinin tətbiq edilməsi haqqında;

5) bütün Cənubi Qafqaz şəhərlərinin bu vəsatətə qoşulmağa dəvət edilməsi haqqında.

Şəhər Duması 1905-ci il 25 yanvar tarixli iclasında Ə.Ağayevin şəhər özünüidarəsi sahəsində azərbaycanlıların hüquqlarının imperiyanın digər əhalisinin hüquqları ilə bərabərləşdirilməsi haqqında müraciətini müzakirə etdi. Şəhər başçısı K.İretskinin sədrliyi ilə keçirilən müzakirələrdə Dumanın erməni deputatları Ə.Ağayevin müraciətinə Duma üzvü seçilmək üçün tətbiq edilən əmlak senzini təhsil senzi ilə əvəz etməyə çalışdılar. Müzakirələrdə erməni deputatlar A.Melikov, X.Antonov, S.Tağıanosov, Q.Kyancutsev və digərləri Ə.Ağayevin müraciətində səsləndirilən “Cənubi Qafqaz müsəlmanları” ifadəsinin çıxarılması və onun bütövlükdə “imperiyanın qeyri-xristian əhalisi” ifadəsi ilə əvəz edilməsini təklif edirdilər. Onların fikrincə Dumanın ancaq müsəlmanlar haqqında məsələ qaldırması yaxşı deyil. Ə.M.Topçubaşov, H.Mahmudbəyov, İ.Hacınski və digər azərbaycanlı deputatlar isə yaxşı bilirdilər ki, bir senzin başqa bir senzlə əvəz edilməsi ilk növbədə Cənubi

Qafqaz şəhərlərinin müsəlman əhalisinə qarşı yönəlib, məhz onlar arasında savadsızlığın səviyyəsi qeyri-müsəlmanlar arasında olduğundan xeyli yüksəkdir. Digər tərəfdən, onlar anlayırdılar ki, xüsusən erməni deputatların canfəşanlığı ilə Ə.Ağayevin müraciətinə ümumi şəkildə baxılması məsələdən yayınmaq xarakteri daşıyır. Ə.Ağayev iclasda bir neçə dəfə geniş məruzə ilə çıxış etdi və bildirdi ki, heç kim yalnız müsəlmanların hüquqlarını genişləndirməkdə məndən şübhələnməsin. Belə baxışla mən heç vaxt razılaşmaram. Rusiyada ümumi hüquqların genişləndirilməsini hamı arzu edir, biz də onların ardınca gedirik. Lakin bu işi şəhər özünüidarəsində Cənubi Qafqaz müsəlmanlarının hüquqlarının imperiyanın digər əhalisinin hüquqları ilə bərabərləşdirilməsini, digər məsələlərdən, məsələn, şəhər özünüidarəsini inzibati qəyyumluqdan azad edilməsi haqda məsələ ilə qarışdırmaq olmaz (37,s.121).

Daha sonra Ə.Ağayev çıxışında bildirdi ki, "Rusiya daxilindəki şəhər özünüidarə orqanlarında müsəlmanların hüquqları məhdudlaşdırılmayıb. Bu məhdudlaşdırma yalnız Cənubi Qafqaz müsəlmanlarına tətbiq edildiyindən müstəsna və yerli xarakter daşıyır. Ona görə də bu məsələni ümumi xarakterli digər məsələlərlə qarışdırmaq olmaz. Mən xristian deputatlardan xahiş edirəm, biz müsəlmanların hüquqlarını özlərinin səviyyəsinə qaldırsınlar, onda əl-ələ verib birgə irəliləyəcək və sizin qaldırdığınız ümumbəşəri məsələni ikiəlli imzalayacağıq" (2,s.1.iş. 260.v.28-33).

Ə.Ağayev çıxışında həmçinin qeyd etdi ki, müsəlmanların hüquqları məhdudlaşdırıldığına görə biz daha çox əziyyət çəkirik. Ona görə ki, məhdudlaşdırıcı seçki senzində əmlak senzi əsas rol oynayır, ondan da yalnız ev sahibkarları istifadə edirlər. O, çıxışında təhsil senzinin seçicilər üçün deyil, seçilənlər üçün də müəyyən edilməsini və təhsil senzinə doğma dilin də əlavə olunmasını təklif etdirdi. Ə.Ağayevin bu çıxışı Dumadakı xristian deputatların, xüsusən də ermənilərin ciddi narazılığına və müqavimətinə rast gəldi. Erməni deputatlardan S.Tağıanosov və Q.Kyançutsev onun təklifinə qarşı çıxış etdilər. Hətta onlar

bu məsələlərə Duma iclasında baxılmamasını təklif edirdilər. Bu məsələlərlə əlaqədar olaraq şəhər başçısı K.İretski isə xüsusi komissiyanın seçilməsini təklif etdi. Belə olduqda Ə.Ağayev çıxışında heç olmasa hazırkı iclasda şəhər özünüidarəsi sahəsində müsəlmanların hüquqlarının imperiyanın digər əhalisinin hüquqları ilə bərabərləşdirilməsi haqqında məsələni müzakirə etməyi təklif etdi. Bu məsələ ətrafında azərbaycanlı deputatlardan Ə.M.Topçubaşov, İ.Hacıyev və H.Mahmudbəyov ətraflı çıxış edərək Ə.Ağayevin qaldırdığı məsələdə onun mövqeyini müdafiə etdilər. İclasda çıxış edən erməni deputat A.Melikov Ə.Ağayevin təklifinə rəğbəti olduğunu və irəli sürülən problemin zəruri olduğunu göstərdi. Lakin o, çıxışında təkcə müsəlmanların hüquqlarının genişləndirilməsi haqqında irəli sürülən təkliflə razılaşmadığını bildirdi (2,s.1.iş.260.v.28-33).

Ə.M.Topçubaşov isə çıxışında bildirdi ki, Ə.Ağayevin ərizəsinə ümumi xarakterli müraciət kimi baxmaq olmaz. Doğrudur, elə görünür ki, bu məsələ ancaq müsəlmanlara aiddir. Əslində isə bu belə deyil. Ə.Ağayevin ərizəsinin əsasını mən tamamilə başa düşürəm. Qorxmaq lazımdır ki, onun təklifi keçməsin və müsəlmanlar indiki vəziyyətində olduğu kimi qalsınlar. Müsəlmanlar barədə belə ayrıca müraciət fikrimcə məqsədə çatmaq üçün böyük əhəmiyyət kəsb edir. Doğrudur ümumi xarakterli bir çox məsələlər qaldırmaq olar-kirayənişinlərin hüquqları barədə, təhsil senzinin müəyyən olması barədə və s. (2,s.1,iş.260.v.28-33).

H.Mahmudbəyov isə təhsil senzinin müəyyən edilməsini artıq hesab etdi və göstərdi ki, deputatların tərkibi hər yeni seçkidə yaxşılaşır. İndiki dövrdə demək olar ki, erməni deputatları ali təhsillidirlər, əvvəl axır azərbaycanlılar da belə olacaqlar. Əgər əvvəllər azərbaycanlı deputatların tərcüməçilərə ehtiyacı var idisə də, indi artıq onlar tərcüməçisiz də keçinirlər (37,s.122).

Təhsil senzinə gəldikdə isə Ə.Ağayev çıxışında qeyd edirdi ki, bu məhdudiyyətdən imtina etmək mümkün deyilsə, onda "heç olmasa ana dilində" sözləri sənədə əlavə edilsin. Erməni

deputat Q.Kyancutsev deyəndə ki, müsəlmanların məlum hüquqlarının məhdudlaşdırılması şəhər özünüidarə fəaliyyətinə təsir etmir, bu zaman Ə.Ağayev cavab verdi ki, "əgər müsəlmanlar özününkilər və digərləri arasında baş çıxara bilsələr, onda onlar yalnız özününkiləri seçməli olarlar" (2,s.1.iş.260. v.28-33**).** Bu zaman müzakirələrə qoşulan Ə.M.Topçubaşov isə bildirdi ki, bədbəxtlikdən Rusiyada dini ayrıseçkilik çox dərinləşmişdir və məlum görüşlər də bunun ifadəsidir. Onun fikrincə Ə.Ağayevin müraciətinə ümumi xarakter vermək müsəlmanları əvvəlki vəziyyətdə saxlamaq deməkdir. Ə.M.Topçubaşov daha sonra qeyd etdi ki, müsəlmanlar haqqında ayrıca təqdimat məqsədə nail olmaq mənasında mühüm əhəmiyyətə malikdir. Təhsil senzinə gəldikdə isə, Ə.M.Topçubaşov dedi:"Allah eləsin ki, din və millət fərqinə baxmayaraq, hamı savadlı olsun. Allah eləsin ki, istisnasız olaraq bütün seçicilər seçki qutularının yanına təhsilli adamlar kimi buraxılsınlar. Lakin mən hesab edirəm ki, əgər müstəsna qaydada yalnız rus dilində təhsil tələb edilirsə, müsəlman Bakısında bu senzi tətbiq etmək vaxtından əvvəl qoyulmuş məsələdir" (2,s.1.iş.260.v.28-33). Eyni zamanda müzakirə edilən sənədin əhəmiyyətini nəzərə alaraq Ə.M.Topçubaşov təklif etdi ki, Ə.Ağayevin ərizəsi istisna olmaqla, qalan məsələnin araşdırılması komissiyaya verilməli, onun müraciətinə isə bilavasitə hazırkı iclasda baxılmalıdır. Ə.M.Topçubaşovu müdafiə edən deputat İ.Hacınski dedi: "Hamı Əhməd bəyin ərizəsinə rəğbətlə yanaşdığını izah edir, bununla yanaşı, ona iki pudluq daş bağlayırlar ki, bu müraciət yerindən tərpənməsin. Mənə görə, bu gün yalnız bir məsələyə-gündəliyə salınmış məsələyə, yəni bilavasitə Ə.Ağayevin ərizəsinə baxmaq doğru olardı".

Azərbaycanlı deputatların ilk növbədə isə Ə.M.Topçubaşovun ciddi təkidi ilə məsələ səsverməyə buraxıldı. O, sədrə müraciət edərək belə bir mühüm məsələdə tələsməməyi məsləhət gördü və "bütün varlığı ilə" xahiş etdi ki, Ə.Ağayevin təklifi qəbul edilsin, əks təqdirdə O, Dumanın bundan imtina etməsini "bütün Rusiya qarşısında rüsvayçılıq" hesab edirdi.

Erməni deputatların kəskin müqaviməti nəticəsində məsələ yalnız üçüncü dəfə səsə qoyulduqdan sonra Ə.M.Topçubaşovun müraciəti Şəhər Duması tərəfindən qəbul edildi.

Tədqiqatçı alim C.Həsənlinin fikrincə bununla da Rusiyada başlanmış inqilabın ilk günlərində Azərbaycan ziyalıları Cənubi Qafqaz müsəlmanlarının Rusiyanın xristian əhalisi ilə eyni hüquqlara malik olma haqqını Bakı Şəhər Dumasından keçirə və müstəsna əhəmiyyətə malik bu məsələyə rəsmi xarakter verə bildilər (57,s.94).

Duma Ə.Ağayevin irəli sürdüyü təklifi qəbul edərək onu müzakirə etdi. Lakin 1905-1907-ci illər inqilabi hərəkatının məğlubiyyətə uğraması nəticəsində bütün imperiya ərazisində irticanın güclənməsi özünüidarə sahəsində milli hüquq bərabərsizliyinin aradan qaldırılmasına imkan vermədi. Bu səbəbdən də Ə.Ağayevin Dumada qaldırdığı bu mühüm məsələ yalnız kağız üzərində qaldı və həyata keçirilmədi.

Azərbaycanlılarla xristianlar o cümlədən, ermənilər arasında milli hüquq bərabərsizliyinin aradan qaldırılması ilə bağlı məsələlər Dumanın erməni deputatlarının ciddi müqaviməti ilə rastlaşırdı. Rusiya hakim dairələri tərəfindən müdafiə edilən ermənilər ictimai həyatın bütün sahələrində üstün mövqelərini məharətlə qoruyub saxlamağa çalışırdılar.

Ə.Ağayev 1905-ci il aprel ayının 21-də Peterburqda nəşr olunan “Sankt-Peterburqskiye” vedomosti qəzetində “Bakı hadisələri haqqında həqiqət” adlı məqaləsində yazırdı: “Heç kəsə sirr deyil ki, lap son zamanlara qədər Qafqaz hakim dairələri hər işdə erməniləri müdafiə edir və ruhlandırırdı. Ermənilər isə ağıllı və əlli-ayaqlı bir millət kimi özlərinin bu müstəsna vəziyyətindən bacarıqla yararlanırdılar. Onlar məktəblər açır, qəzetlər təsis edir və bütün bunların sayəsində həm zehni, həm də iqtisadi cəhətdən sürətlə qabağa gedirlər. Nəticədə, sayca nisbətən az olsalar da onlar diyarda üstün rol oynamağa başladılar. Müsəlmanlar isə böyük əksəriyyət təşkil etmələrinə baxmayaraq, hakim dairələrin inamsızlıq və şübhələri nəticəsində

ətalət, cəhalət, zehni və iqtisadi yoxsulluq içərisində yaşamağa davam edirlər” (19,s.341).

Tədqiqatçı alim F.Cabbarov haqlı olaraq göstərir ki, Rusiya imperiyasının milli siyasəti təkcə Bakıda deyil, həmçinin Cənubi Qafqazın digər yerlərində tədricən azərbaycanlılarla ermənilər arasında ziddiyyətlərin meydana gəlməsinə səbəb olmuşdur. Hələ XIX əsrin əvvəllərindən etibarən Rusiyanın Cənubi Qafqazda mühüm sosial dayağına çevrilən erməni elitası imperiyanın hərbi-silki və təsərrüfat-iqtisadi strukturlarına fəal inteqrasiya edirdi. XIX əsrin 70-ci illərinə qədər Rusiya imperiyası birmənalı olaraq erməniləri himayə etmiş və eyni zamanda, azərbaycanlılara qarşı açıq etimadsızlıq nümayiş etdirərək onların hüquqlarını məhdudlaşdırmışdır (20,s.20).

Ə.Ağayevin yuxarıda göstərilən məqaləsində özünüidarə orqanlarında yaranmış milli hüquq bərabərsizliyi barədə isə yazırdı: “Cənubi Qafqazda şəhər özünüidarəsinin yarandığı ilk günlərdən onlar tələb etməyə başladılar ki, müsəlmanlar yəhudilərlə eyniləşdirilsin və şəhər özünüidarə orqanlarında onların nümayəndələrinin sayı xristian olmayanlar üçün qanunda nəzərdə tutulmuş minimuma qədər məhdudlaşdırılsın. Onlar bu məsələdə məqsədlərinə çatdılar. Əhalinin əksəriyyətini təşkil edən şəhərlərdə uzun zaman müsəlmanların Dumadakı təmsilçilərinin sayı bu minimumu ötmürdü. Müsəlmanlar yerli əhali kimi qanunun onları nəzərdə tutmadığını, qanunvericiliyin Qafqaz əhalisinin bir hissəsinin başqasının tabeçiliyinə verilməsi üçün heç bir əsas yaratmadığını sübut etməkdən ötrü nə qədər zəhmət çəkməli, mübarizə aparmalı oldular. Nəhayət, müsəlmanlara böyük iltifat göstərdilər və onlara şəhər özünüidarəsində geniş təmsil olunmaq icazəsi verdilər. Lakin yenə də şərt qoydular ki, müsəlman təmsilçilərin sayı Duma üzvlərinin ümumi sayının yarısından artıq olmamalıdır. İndi isə Bakı kimi bir şəhərdə-elə bir şəhərdə ki, əhalisinin 75 faizi müsəlmanlardan ibarətdir və ermənilər bura sonradan gəlmiş yadellilərdir-demək olar ki, bütün ticarət, sənaye müsəlmanların əlindədir. Belə bir şəhərdə müsəlmanlar hazırda da Duma üzvlərinin

yarıya qədərini təşkil edirlər. Bir müddət bundan əvvəl müsəlman deputatlardan biri Dumanın iclası zamanı şəhər özünüidarə orqanlarında müsəlmanlarla ermənilərin sayını bərabərləşdirmək üçün yuxarı instansiyalara rəsmi müraciət etmək haqqında məsələ qaldıranda və ağlamsınaraq ermənilərdən müsəlmanlara yardım əli uzatmağı, onları öz səviyyələrinə qaldırmağı xahiş edəndə, erməni deputatlar bir nəfər kimi belə bərabərləşdirmə əleyhinə çıxış etdilər. Erməni deputatlardan biri isə xahiş etdi protokola yazılsın ki, məsələ yalnız müsəlmanların əksəriyyət təşkil etmələri sayəsində keçdi. İctimai xarakterli bütün məsələlərdə-birja kontorlarında, ictimai məclislərdə və s. də belədir" (19,s.342)

1905-ci ilin iyulunda Ə.M.Topçubaşov Bakı Dumasına keçirilən növbəti seçkidə azərbaycanlılara tətbiq edilən milli ayrı-seçkiliyin aradan qaldırılması və Dumaya 1905-1909-cu illər üçün keçirilən seçkinin dayandırılması haqqında, Müsəlman Xeyriyyə Cəmiyyəti və Qafqazın müsəlman əhalisi arasında savadlılığı yayan cəmiyyətin nizamnamələrinin qəbul edilməsi barədə vəsatətlər hazırladı. (166,1905.10.08). Onun tərəfindən göstərilən bu sənədlər 1905-ci ilin avqust ayının əvvəlində baxılmaq üçün Qafqaz canişini qraf Vorontsova təqdim edildi. O, canişinlə görüşündə Bakı Dumasına seçkilərdə ayrı-seçkiliyin aradan qaldırılmasının zəruriliyini və xeyriyyə cəmiyyətlərinin müsəlmanlar üçün nə qədər böyük əhəmiyyət daşıdığını ona izah etdi.

Ə.M.Topçubaşovun fəaliyyətinin birbaşa nəticəsi olaraq 1905-ci ilin sonunda Müsəlman Xeyriyyə Cəmiyyətinin fəaliyyətinə icazə verildi. H.Z.Tağıyev həmin cəmiyyətin sədri, Ə.Ağayev katibi və Ə.M.Topçubaşov da onun üzvü oldu. 1906-cı ilin əvvəlində "Nəşri-Maarif" cəmiyyəti fəaliyyətə başladı. Lakin Bakı Dumasına keçirilən seçkilərdə azərbaycanlılara tətbiq edilən məhdudiyyətlər isə Rusiya hakimiyyət orqanları tərəfindən ləğv edilmədi (57,s.115).

1905-ci ilin mayında Yelisavetpol Şəhər Dumasına keçirilən seçkilərdə 55 azərbaycanlı deputat seçilmişdi. Lakin seçkinin

nəticələri təsdiq olunmadı, çünki seçilən azərbaycanlıların sayı qanunla müəyyən edilmiş normadan çox idi (118,s.72).

Lakin çar hakimiyyət orqanları rus və ermənilərin maraqlarını əsas götürərək Şəhər Dumalarına seçkilərdə azərbaycanlıların üstünlük qazanmalarına imkan vermir və şəhər özünüidarə orqanları üzərində nəzarətini saxlamağa çalışırdı.

Dumanın 1907-ci il 14 yanvar tarixli iclasında çıxış edən Ə Ağayev bildirdi ki, xristian deputatların sayı həmişə müsəlman deputatlarla bərabər olmalıdır. Bu, ciddi əhəmiyyət daşıyan məsələdir. Düşünürəm ki, ali adminstrasiya seçkilərdən qalmış boş yerlərə xristian deputatı və namizədləri təyin edərkən bu qaydanı gözləməyib, çünki onlardan iki dəfə artıq müsəlman namizəd təsdiqlənib. Bu səbəbdən də, düşünürəm ki, Dumanı tərk etmiş xristianları müsəlmanlarla əvəz etmək olar. Başqa cür yanaşsaq, bizim qərarlarımız faktiki olaraq qanunsuz sayılacaq, çünki bu tənasüb çoxdan pozulub (166,1907.16.01.№12).

Ə.Ağayevin bu çıxışı səbəbsiz deyildi. Onun bu təklifi yerində və vaxtında irəli sürülmüş təklif idi. Çünki xristianlardan deputatlığa namizədlər olmadığından deputat mandatından imtina etmiş rus və erməni deputatların yerinə deputat təyin edilmədiyinə görə Duma şəhər torpaqlarını icarə və mülkiyyətə verilməsi kmi mühüm məsələlərə baxmaq üçün yetərsay əldə edə bilmirdi.

Bu məsələ ilə bağlı hələ Dumanın 1906-cı il 4 oktyabr tarixli iclasında Şəhər İdarəsinin üzvü M. Hacınski çıxış edərək demişdir ki, Şəhər İdarəsi başını tamamilə itirib və nə edəcəyini bilmir. Duma yarım ildir ki, toplanmır və şəhərin işləri elə bir vəziyyətdədir ki, deputatlar onlarla yaxından tanış olsalar, dəhşətə gələrlər. Duma bundan sonra da öz vəzifə borcuna bu cür indiyə qədər yanaşdığı kimi yanaşarsa, onun dağılması labüddür. Bu cür biabırçı hadisənin yeganə yolu kimi təklif edirəm ki, deputatlar dərhal şəhər təsərrüfatının vəziyyətini ciddi öyrənib, belə çətin vəziyyətdən çıxış yolunu göstərməlidirlər. Bunun üçün 2-3 həftə ərzinidə fasiləsiz hər gün toplaşmaq lazımdır. Beləliklə, cənablar işə başlayın və şəhər işlərini normal nizama

salın, əks halda Dumanın ləğvi qaçılmazdır, belə bir biabırçılığa yol vermək isə nə deputatlar, nə də vətəndaşlar layiqdir (166,1906.7.X.№ 194).

Ə.Ağayev sonrakı dövrlərdə də şəhər özünüidarəsi sahəsində azərbaycanlıların hüquqlarının məhdudlaşdırılmasına qarşı mübarizə aparmışdır. O, Şəhər Dumasının 1907-ci il martın 6-da keçirilən iclasında bir daha şəhər özünüidarəsi sahəsində azərbaycanlıların hüquqlarının məhdudlaşdırılmasının ləğv edilməsi haqqında məsələ ilə bağlı çıxış etdi. Ə.Ağayev çıxışında qeyd etdi ki, "bütün Rusiya, bütün dünya özünün mövcud hüquqları uğrunda mübarizə aparır, müsəlmanlar da haqlarının hər cür məhdudlaşdırılmasını birdəfəlik ləğv etməyi tələb edirlər". O, böyük narahatçılıqla qeyd edirdi ki, Yelisavetpol və Quba şəhər özünüidarə orqanlarına keçirilmiş seçkinin nəticələri ləğv edilibdir, çünki seçilən azərbaycanlı deputatların sayı şəhər "Əsasnaməsi"nin 44-cü maddəsi ilə müəyyən edilmiş deputatların tərkibinin 1/2-dən artıq olubdur. O, Bakı Dumasına seçkilərin keçirilməsinin gözlənildiyini xəbərdarlıq edərək, Dövlət Dumasına müsəlmanların hüquqlarının məhdudlaşdırılmasını ləğv etmək barədə müraciət etməyi təklif etdi. Duma deputatları təklifi müzakirə edərək qarşıdakı martın 15-də Dumaya seçkilərdə məhdudlaşdırmaların aradan qaldırılması barədə canişinə müraciət etməyi qərara aldılar. Bu məsələ ilə əlaqədar olaraq H.Z.Tağıyev çıxış edərək, müsəlmanların hüquqları haqda məsələnin mütləq Dövlət Dumasında müzakirə edilməsinin vacibliyini qeyd etdi. O, həmçinin bildirdi ki, əsas məsələ, şəhər ictimai özünüidarə orqanlarının yenidən təşkil edilməsi məsələsidir. Təəssüf ki, azərbaycanlı deputatların qaldırdığı məsələ bu dəfə də kağız üzərində qaldı və həll edilmədi (140,1907.№ 52).

Ə.Ağayev təkcə şəhər özünüidarəsi sahəsində deyil ictimai həyatın bütün sahələrində azərbaycanlıların hüquqlarını imperiyanının digər bölgələrində yaşayan əhali, xüsusən də xristianların hüquqları ilə bərabərləşdirmək uğrunda fəal mübarizə aparırdı. Onun 1906-cı il 27 yanvar tarixli "Baku" qəzetində

“müsəlmanların geriliyini aradan qaldırılması və onun tərəqqisinə yolaçan şərtlər və hüquqlar haqqında” məqaləsində xalq nümayəndəliyinə seçkilərin ümumi, bərabər və gizli yolla aparılmasını və şəhər və kəndlərdə tezliklə geniş surətdə özünüidarəetmənin tətbiq edilməsini təklif edirdi.

Çünki, qəza şəhərlərində özünüidarə islahatı tam həyata keçirilməmiş və kəndlərdə isə yerli özünüidarə orqanı olan zemestvo idarələri hələ də yaradılmamışdır. Müəllif geniş surətdə tətbiq edilməmiş özünüidarə və kəndlərdə zemestvo idarələrinin yaradılmamasını azərbaycanlıları imperiyanın digər bölgələrində yaşayan əhalidən geri qalmasının əsas səbəblərindən biri olduğunu məqaləsində göstərmiş və hökumətin bu istiqamətdə yeritdiyi siyasəti kəskin tənqid etmişdir. Göstərilən tənqid səbəbsiz deyildir, özünüidarənin tam tətbiq edilmədiyi şəhərlər özünüidarənin tam tətbiq edildiyi şəhərlərlə müqayisədə sosial-iqtisadi inkişafda geri qalırdı.

Ə.Ağayev göstərilən məqaləsində geriliyin aradan qaldırılması üçün müsəlmanların o cümlədən azərbaycanlıların Rusiyanın bütün xalqları ilə bərabər hüquqlu olmasını, siyasi, dini və ictimai sahədə mövcud olan məhdudiyyətlərin ləğv olunmasını, müsəlmanlara vicdan, söz və mətbuat azadlığı verilməsini, dini və ictimai işlərdə senzuranın ləğv edilməsini, şəxsiyyət azadlığı verilməsini, yalnız məhkəmənin qərarı ilə şəxsin həbsə alınmasını, ittihamnamə təqdim edilmədən şəxsin 24 saatdan artıq həbsdə saxlanılmamasını, polisin özbaşına həbs etmək və şəhərdən sürgün etmək hüququnun əlindən alınmasını, seçkili hakimlərdən ibarət məhkəmələrin yaradılmasını, azərbaycanlılara məhkəmələrdə və digər hökumət idarələrində sərbəst surətdə öz dillərindən istifadə etmək imkanının verilməsini, istənilən yerdə yaşamaq və hərəkət etməkdən ötrü pasport sisteminin ləğv edilməsini və s. təklif edirdi (140,1906. 27.01.№ 21).

Şəhər özünüidarəsi sahəsində azərbaycanlıların hüquqlarının məhdudlaşdırılmasının aradan qaldırılması uğrunda mübarizə o dövrdə geniş miqyas almışdı. Bu məsələ bir neçə dəfə Yelisavetpol Şəhər Dumasının da iclasında müzakirə

edilmişdir. "Əsasnamə"nin 44-cü maddəsinin ləğv edilməsi məsələsi 1906-cı ilin fevralında azərbaycanlı-erməni nümayəndələrinin Tiflisdə keçirilmiş qurultayında da canişin qarşısında qaldırılmışdı. Fevralın 24-də qurultayda çıxış edən Ə.M.Topçubaşov şəhər özünüidarəsi sahəsində müsəlmanların hüquqlarını məhdudlaşdıran "Əsasnamə"nin göstərilən maddəsinin indiyədək qüvvədə qalmasını qeyd etdi. O, əlavə etdi ki, canişinin şəxsi təşəbbüsü ilə Yelisavetpol Şəhər Dumasına seçki vaxtı bu məhdudlaşdırma tətbiq edilməyib, buna baxmayaraq, 44-cü maddə hələ də qüvvədə qalır (202,s.73).

Bundan başqa, azərbaycanlılar "Bakı müsəlmanlarının" adından canişinə ərizə təqdim etmişdirlər. Ərizədə Şəhər Dumasına seçki vaxtı müsəlmanlar üçün məhdudlaşdırmaların tezliklə ləğv edilməsi məsələsi qaldırılır. 1907-ci ilin martında şəhərin azərbaycanlı əhalisi, də bu məhdudlaşdırmanın ləğv edilməsi haqqında Dumaya müraciət etmişdir. Müraciətdə Dumanın canişin qarşısında azərbaycanlı deputatların sayını məhdudlaşdıran "Şəhər Əsasnaməsi"nin 44-cü maddəsinin ləğv edilməsini irəli sürməsi göstərilirdi (26,s.127).

Müxtəlif vaxtlarda azərbaycanlıların çar hakimiyyət orqanlarına yazdıqları müxtəlif ərizə-petisiyalarda şəhər özünüidarə orqanlarında onların sayının məhdudlaşdırılmasının ləğv edilməsi irəli sürülürdü (202,s.13). Rusiya Dövlət Dumasına deputat seçilmiş azərbaycanlı deputatlar da azərbaycanlıların şəhər özünüidarə sahəsində hüquqlarının məhdudlaşdırılmasına qarşı çıxış etmişdirlər. I Dövlət Dumasına deputat seçilmiş Ə.Ziyadxanov 1906-cı ildə Dumada çıxış edərək göstərdi ki, bələdiyyələrdə biz müsəlmanlara mövcud nümayəndə miqdarının ancaq beşdə birini seçmək hüququ verilmişdir. Son zamanlarda isə şəhər əhalisinin çoxu müsəlmanlar olduğu halda mövcud bələdiyyə nümayəndələrinin yarısına qədər bir nümayəndə seçmək hüququ verilmişdir (202,s.13).

1907-ci ilin martında Bakı şəhərinin "ən nüfuzlu müsəlmanlarının" Şəhər İdarəsinə göndərdikləri kollektiv ərizədə diqqət yenə bu məsələyə cəlb edilmişdi. Ərizədə deyilirdi ki, iki

il bundan əvvəl Bakı Duması bu məsələni canişin qarşısında qaldırmışdı. Məsələ həll olunmadığına görə onlar bir daha vəsatətlə ona müraciət edirlər. Bütövlükdə bu məhdudiyyətlərin ləğvi məsələsini qoymaq, yoxsa keçirilməsinə səkkiz gün qalmış qarşıdakı seçkilərdə məhdudiyyətlərin götürülməsi xahişi ilə kifayətlənmək məsələsi müzakirə edilərkən deputatlarda fikir ayrılığı yaranmışdır. Deputatların bir hissəsi məsələnin bütövlükdə Dövlət Dumasında həll ediləcəyini hesab edərək bir az gözləməyi və sonralar hərəkət etməyi məsləhət görürdülər. Deputatların digər qismi isə, o cümlədən də H.Z.Tağıyev və Ə.Ağayev ləngimədən hərəkət etməyi təklif edirdilər. Ə.Ağayev təkidlə deyirdi: ”Təsəvvür edin ki, Dövlət Dumasında məsələ keçmədi, onda azərbaycanlılar əvvəlki şəraitdə qalmalı olacaqlar. Biz indi buna öz etirazımızı bildirməli və haray salmalıyıq ki, biz daha ölməkdə olan rejimin siyasətinə dözə bilmirik və axıradək  məhvə doğru gedə bilmərik. Nəhayət, oyanmalı və öz insan hüquqlarımızı dərk etməliyik” Dumanın qəbul etdiyi qərara görə Şəhər İdarəsi canişinə teleqram göndərdi. Teleqramda canişinin diqqəti ona yönəldilirdi ki, “hazırda, əlahəzrət tərəfindən vicdan azadlığı elan edildikdən sonra imperiyanın hər bir vətəndaşı sitayiş etdiyi dini seçməkdə azaddır və bu məsələ barədə qanunvericilik sanksiyası yaxın gələcəyin işidir”. Buna görə də Duma qərara almışdır ki, 15 mart seçkilərində məhdudiyyətləri götürmək üçün onun qarşısında vəsatət qaldırsın. Məqsəd də o idi ki, “əhali dininə fərq qoymadan iş üçün faydalı hesab etdiyi bütün şəxsləri deputat seçə bilsin” (118,s.73).

M.Ə.Rəsulzadə “İqbal” qəzetdə “Gələcək Duma seçkiləri” adlı məqalə çap etdirərək “Əsasnamə”nin göstərilən maddəsini kəskin tənqid etmişdir. O, məqaləsində  yazırdı:“Bələdiyyə qərardadlarında ruslaşdırmaq politikasının ən fəna ən təhqiramiz əlamətini təşkil edən bir maddə vardır-44-cü maddə. Bu maddəyə görə “duma qlasnılarından xristian olmayanların miqdarı beşdən bir dərəcədən artıq olmamalıdır. Fəqət

Qafqasiya şəhər dumalarında isə qeyri xristianlar bütün qlasnı heyətinin yarısından ziyadə olmayacaqdır".

Böylə bir ədalətsizliyin nəticəsi olaraq Bakı kimi bir müsəlman şəhərində sənələrdən bəri Duma heyəti xristian əksəriyyətin əlində olduğu kibi, Quba, Şəki, Şamaxı və sair bir çox qitələr dəxi növ Dumun qəzəbinə gəlmişlərdir.

Məqaləni sonunda M.Ə.Rəsulzadə yazırdı: "Ümid edirəm ki, Dumadakı xristian qlasnılar rus maarifpərvərlərinin tərəqqipərvər və demokratik düşünür qismindən olub da Şəhər İdarəsi ətrafında verilən məruzənin bu cəhətini Qafqasya millətlərini bir-birinə uzaqlaşdıracaq bir yolda degil, qeyri-xristianlar nöqteyi-nəzərindən müsbət bir surətdə həll etməklə müsəlman yoldaşları ilə həmrəy olarlar" (110,s.116-120).

Lakin çar hakimiyyətinin mövcud olduğu dövrdə azərbaycanlılara qarşı tətbiq edilən bu milli ayrı-seçkilik siyasətinin aradan qaldırılması uğrunda aparılan mübarizə heç bir nəticə vermədi. Lakin aparılan mübarizə hadisələrin sonrakı inkişafı üçün olduqca böyük siyasi əhəmiyyət kəsb edirdi. Belə ki, Azərbaycanda XX əsrin əvvəllərində milli azadlıq hərəkatının yüksəlişi dövründə Dumanın azərbaycanlı deputatlarının, Azərbaycan milli burjuaziyasının və demokratik fikirli ziyalıların şəhər özünüidarə orqanlarında milli hüquq bərabərsizliyinin aradan qaldırılması tələbinin qətiyyətlə irəli sürmələri ilə özlərinin çar hakimiyyət orqanları qarşısında ilk siyasi tələblərini irəli sürürdülər.

## §2.2. 1905-ci ildə şəhərdə erməni terroruna qarşı mübarizə.

XIX əsrin 90-cı illərində erməni məsələsi Osmanlı Türkiyəsindən Cənubi Qafqaza keçirildi. Bunda məqsəd Şimali Azərbaycan torpaqları hesabına Rusiya imperyası tərkibində ermənilərə Cənubi Qafqazda muxtariyyət almaq idi. Bu məqsədlə erməni terrorçuları 1890-cı ildə Tiflisdə "Daşnaksütun" partiyasını təşkil etmiş və bu ideyalarını həyata keçirmək üçün

əlverişli şəraitin yaranmasını gözləmişdirlər. Belə bir əlverişli şərait erməni terrorçularının əlinə XX əsrin əvvəllərində düşdü. Erməni terrorçuları İrəvan, Naxçıvan, Zəngəzur, Qarabağ kimi qədim Azərbaycan torpaqlarında yaşayan azərbaycanlıları öz doğma torpaqlarından qovmaq və bu ərazilərdə özləri üçün muxtariyyət təşkil etmək istəyirdilər. Bu siyasətin həyata keçirilməsində erməni terrorçuları çar hakimiyyət orqanları tərəfindən şirnikləndirilir və müdafiə olunurdular.

Rusiyada baş verən 1905-1907-ci illər inqilabi hərəkatı mütləqiyyətin dayaqlarını kökündən sarsıtdı və müstəmləkə xalqlarının milli-azadlıq hərəkatına güclü təkan verdi. Çar hakimiyyət orqanları Şimali Azərbaycanda inqilabi və milli azadlıq hərəkatının qarşısını almaq üçün erməni və azərbaycanlıların birgə yaşadıqları Bakı, İrəvan, Qarabağ, Zəngəzur, Naxçıvan, Gəncə və s. bölgələrdə milli zəmində qırğınlar törətdi. Erməni terrorçularının həmçinin Bakı və ətraf ərazilərdə törədilən qırğınlarda Rusiya hakim dairələri olduqca maraqlı idilər. Onlar istəyirdilər ki, erməni terrorçularının əli ilə Bakı və Xəzər sahili əraziləri azərbaycanlılardan təmizləsinlər, Bakını erməni və rus şəhərinə çevirsinlər. Erməni neft milyonçularının da Bakı şəhəri ilə bağlı xüsusi planları var idi. Onlar "Daşnaksütyun" partiyasını maliyyələşdirir və bu terrorçu partiya vasitəsi ilə Bakını azərbaycanlılardan təmizləmək və neft mədənlərini ələ keçirtmək istəyirdilər. Bu mənfur planların həyata keçirilməsi üçün isə şəhərdə kütləvi surətdə terror hadisələrinin törədilməsi zəruri idi.

1905-ci il fevralın 2-də erməni terrorçuları tərəfindən Bakı sakini Ağarza Babayevin, həmin ayın 6-da isə istintaqa aparılan azərbaycanlı məhbusun erməni əsgəri tərəfindən öldürülməsi şəhərdə fevralın 6-dan 9-dək davam edən erməni-azərbaycanlı qırğınına səbəb oldu. Şəhərdə baş verən hadisələr haqqında M.S. Ordubadi yazırdı:"Həmin gün və gecə sübhə kimi şəhərdə atışma səsi var idi ki, səhər tezdən küçələrdə öldürülmüş 13 nəfər azarxanaya (xəstəxanaya) aparıldı. Fevralın 7-də hər tərəfdə atışma başlanıb, ermənilər ümumi hərbi qiyama başladıqlarından

müsəlmanlar da açıq-açığa tüfəng-tapança götürüb, hərbə girişməkdə idilər. Ermənilər bu halda müsəlmanların hücumuna davam gətirə bilməyərək qaçmaqda və evlərinə pənah aparmaqda idilər" (105,s.16-17).

Ə.Ağayev isə "Bakı hadisələri haqqında həqiqət" adlı məqaləsində bu barədə yazırdı: "Ertəsi gün saat 10 radələrində cahil erməni və müsəlman dəstələri toqquşdular və qırğınlar başladı. Artıq bu əsil qırğın idi. Dəhşətli, amansız, soyğunçuluq və qətllərlə, yanğınlar törətmək və başqa qorxunc hadisələrlə müşayət olunan və həm də xalqın həddini aşmış vəhşi ehtirası ilə alovlanan bir qırğın idi" (19,s.345).

O, məqaləsində daha sonra yazırdı: "Qırğından sonra müsəlmanların ziyalıları və adlı-sanlı adamları heç bir başqa məqsəd güdmədən camaatı sidqlə sakitləşdirdikləri, onlara bu qardaş qığınının çirkinliklərini anlatdıqları halda, qəzetlərdə təbliğat təşkil edən ermənilər ortaya çıxdılar və bütün dünyaya hadisələrlə bağlı heyrətamiz dərəcədə şişirdilmiş araqızışdırıcı teleqramlar yaymağa başladılar. Onlar öldürülmüş 10-15 min nəfərdən danışır, müsəlmanları qaniçən vəhşi kimi təsvir edirdilər. Bütün Rusiya və Avropa ayağa qaldırılmışdı. Hər tərəfdə müsəlmanlara ümumi bir nifrət yaratmaq üçün arasıkəsilməz səylər göstərilirdi. Bu adamların faktları necə şişirtdikləri haqqında təsəvvür əldə etmək üçün təkcə onu demək kifayətdir ki, hakimiyyət dairələri deyil, məhz ermənilərin özü tərəfindən bütün məlumatlar toplandıqdan və diqqətlə araşdırıldıqdan sonra Bakı hadisələrində zərər çəkənlərin cəmisi 700 nəfər olduğu, onlardan 300 nəfərin öldürüldüyü və 400 nəfərin yaralandığı, öldürülənlərdən 130-a qədərinin müsəlman, 170 nəfərinin erməni olduğu aşkara çıxarıldı" (19,s.346).

1905-ci ilin fevralında erməni terrorçuları Bakıda daha böyük kütləvi qırğın törətmək istəyirdilər. Bunun üçün də əvvəlcədən həm psixoloji, həm də hərbi cəhətdən hərtərəfli hazırlaşmışdırlar. Lakin Bakı hadisələrində erməni terrorçuları gözləmədikləri halda azərbaycanlıların ciddi müqaviməti ilə rastlaşaraq ağır məğlubiyyətə uğradılar.

Erməni terrorçularının fevral məğlubiyyəti ilə bağlı M.S.Ordubadi yazırdı:"ermənilərin əvvəlki təşəbbüs və tədarüklərinə baxdıqda belə məğlubiyyətə insan son dərəcə təccüblü qalır. Zənnimcə həmin bu məğlubiyyətə ermənilərin özləri səbəb olmuşdur. Belə ki, müharibədən qabaq bir sıra xırda-para işlərlə müsəlmanları duyuq salıb özlərinin nə xəyalda olduğunu layiqincə islamlara bildirdilər. Müsəlmanlarda ermənilərin bu fikrini başa düşüb özlərinin mühafizəsi qayğısına qalıblar. Hərgah ermənilər bu müharibəni müsəlmanların xəbərsizliyi əsnasında açmış olsaydılar, o vaxt, müsəlmanlara min, yox on munlərlə təlafat verə bilərdilər" (105,s.22-23).

Tədqiqatçı alim X.Məmmədova görə isə ermənilərin məğlubiyyətinin səbəbi Bakının azərbaycanlı əhalisinin erməni təxribatından xəbərdarlığı, ona müəyyən qədər hazırlaşması olmuşdur. Bu hazırlıq isə başlıca olaraq müdafiə xarakteri daşımışdı. Lakin başlanmış münaqişələrdə azərbaycanlı əhalisinin kifayət qədər fəallıq göstərməməsi, sərt mövqe tutmaması erməni-daşnak təcavüzünün daha da genişlənməsinə, Azərbaycanın digər qəza və bölgələrinə yayılmasına səbəb oldu. Bakı hadisələrindən sonra Cənubi Qafqazın bütün ərazisində ermənilərlə azərbaycanlılar arasında münasibətlər gərgin xarakter aldı (85,s.83).

Erməni terrorçularının fevral məğlubiyyətinin əsas səbəbi fikrimcə ermənilərlə müqayisədə pis silahlanmalarına və yaxşı təlim keçməmələrinə baxmayaraq azərbaycanlıların daha cəsur, döyüşkən olmaları və doğma şəhərlərinin müdafiəsi uğrunda ayağa qalxmaları ilə bağlı olmuşdur.

Şəhərdə erməni terroru zamanı Ə.Ağayev Bakı şəhər başçısı K.İretskiyə 1905-ci il 7 fevral tarixində ünvanlanmış müraciətində faciənin qarşısının alınması üçün təxirə salınmaz tədbirlərin görülməsini şəhər başçısının vicdanı və borcu olduğunu vurğulayırdı. O, K.İretskiyə öz səlahiyyətlərindən istifadə edərək, Şəhər Dumasının iclasında yaranmış vəziyyəti müzakirə etmək üçün hər iki tərəfin deputatlarını dəvət etmək, cəmiyyətin nüfuzlu dairələrindən yardım istəmək, din xadimlərini cəlb etməyi təklif edirdi (25,s.106).

Ə.Ağayev "Kaspi" qəzetində baş vermiş qanlı fevral hadisələrinə qiymət verərək, onu hər iki xalq üçün rüsvayçılıq kimi qiymətləndirmişdir. O məqaləsində yazırdı: "Rüsvayçılıq! Rüsvayçılıq! Rüsvayçılıq! Cəhalətin, vəhşiliyin, tənbəlliyin, düşünən insanların laqeydliyinin və şər qüvvələrin rüsvayçılığı! Və bizim hamımızın-müsəlmanların və ermənilərin borcu bu rüsvayçılığı üzərimizdən silmək, ona son qoymaqdır. Qoy hər kəs bu vəzifəsini dərindən anlasın, ona əməl etsin. Faciənin yeganə işıqlı tərəfi odur ki, bu istiqamətdə artıq nələrsə edilib. Həmin müsbət tərəf, birincisi, ziyalıların, yəni təkcə diplomlarına görə deyil, həmçinin zəkasına və mövqeyinə görə ziyalı olanların davranışı, ikincisi isə xalqın davranışıdır" (166,1905.13.02.№ 22).

Şəhərin ziyalıları və din xadimlərinin səyi ilə fevralın 10-da münaqişə dayandırıldı. Qanlı münaqişənin dayandırılmasında Bakı Dumasının deputatları Ə.M.Topçubaşovun, Ə.Ağayevin, İ.Səfərəliyevin, K.İ.Hacıyevin, H.A.Aşurovun, Hacı Baba Aşurovun, K.A.Zərbəliyevin və H.Həsənovun, erməni deputatlardan isə A.Saparovun , N.Şagedinov və başqalarının müstəsna xidmətləri olmuşdur.

Bu erməni azərbaycanlı münaqişəsindən sonra hökumət polis tədbirlərini gücləndirmək üçün 1905-ci il fevralın 15-də Bakıda müvəqqəti olaraq general-qubernator vəzifəsi təsis etdi. Fevralın 18-də çarın fərmanına əsasən Bakı şəhərində hərbi vəziyyət elan olundu.

Erməni terroru zamanı zərərçəkənlərə yardım göstərilməsi üçün 1905-ci il fevralın 13-də Bakı qubernatoru M.Nakaşidzenin sədrliyi ilə keçən iclasda Bakı terroru qurbanlarına yardım göstərilməsi səlahiyyətlərinin Şəhər Dumasına verilməsi barədə qərar qəbul etmişdir (166,1905.15.02.№ 23).

Bakı şəhər başçısının vəzifələrini icra edən K.Səfərəliyevin rəhbərliyi ilə "Əhalinin barışdırılması üzrə Bakı komitəsi" təsis olunmuşdur. Komitəyə böyük səlahiyyətlər verilirdi. Komitə rus, azərbaycan və erməni dilində sülhə çağıran vərəqələr çap etməli, hadisələrin səbəbini izah edən məqalələrlə yerli və

Rusiya mətbuatında çıxış etməli, zərərçəkənlərə maddi yardım göstərilməsi üçün vəsait tapmalı idi (25,s.106).

1905-ci il mart ayının 1-də Dumanın şəhərdə baş vermiş qanlı hadisələri müzakirə edən xüsusi müşavirəsi keçirildi. Xüsusi müşavirə dinindən və milli kimliyindən asılı olmayaraq 6-9 fevral hadisələrindən zərərçəkənlərə 50 min rubl həcmində yardım ayırdı. Duma şəhər rəisinin başçılığı altında 6 azərbaycanlı və 6 erməni deputatdan, 2 neytral şəxsdən və yerli mətbuatın 2 nümayəndəsindən ibarət komitə yaratdı. Ə.M.Topçubaşov bu komitəyə mətbuatın nümayəndəsi kimi qəbul edilmişdir. Erməni mətbuatını isə komitədə X.Sərkisov təmsil edirdi. Xüsusi müşavirənin qərarı ilə Dumanın azərbaycanlı deputatlarından Əhməd bəy Ağayev, Əsədulla bəy Ağayev, İsrafil bəy Hacıyev, İsa bəy Hacınski, Nəcəfqulu bəy Sadıqov və İsmayıl bəy Səfərəliyev komitəyə daxil edilmişdi. Duma 6-9 fevral hadisələri ilə bağlı keçirilən iclasında qərara alır: öz tərkibində müsəlman əhalinin böyük çoxluğunun və ona bərabər sayda erməni əhalinin nümayəndələrini birləşdirən, bu millətin qarşılıqlı münasibətlərini yaxşı bilən Duma qəti şəkildə bəyan edir ki, nə dini, nə milli, nə də yerli iqtisadi şərait faciəli toqquşmalara əsas olmamışdır. Ona görə də baş verən bütün hadisələrdə nə erməniləri, nə də müsəlmanları günahlandırmaq mümkündür. Ümid edirik ki, dəqiq aparılacaq şəffaf araşdırmalar indiyə qədər görünməmiş bu faciəli hadisələrin əsl səbəblərini ortaya qoyacaqdır (2,f.50.s1.iş.260.v 44-45).

Bakı Dumasının 1905-ci il 8 mart tarixli iclası Bakı hadisələri ilə bağlı Cənubi Qafqazın ayrı-ayrı şəhərlərindən gələn teleqramların oxunuşu ilə başladı. Duma deputatı Ə.M.Topçubaşov təklif etdi ki, Bakıda baş vermiş faciəli hadisələrə, insan itkisinə acıyan, bununla bağlı yardım və başsağlığı verən şəhər idarələrinə təşəkkür məktubları göndərmək lazımdır.Onun bu təklifi Duma üzvləri tərəfindən dəstəkləndi. Qori, İrəvan, Batum və digər şəhərlərin özünüidarə orqanlarına Şəhər Duması adından təşəkkürnamələr göndərildi (57,s.107).

Terror qurbanlarına və zərərçəkmiş ailələrə yardım etmək məqsədi ilə Bakı özünüidarəetmə orqanının yanında ianə vermə komitəsi təşkil edilmişdi (166,1905.28.06.№123). Komitənin sonrakı fəaliyyəti formal xarakter daşıyırdı, çünki zərərçəkənlərə lazım olan müavinəti ödəmək üçün onun böyük həcmdə vəsaiti yox idi.

Komitəyə ilk ianə verən H.Z.Tağıyev oldu. O, komitənin hesabına 5 min rubl köçürdü. Şəhər Duması və Neft Sənayeçiləri Qurultay Şurası isə 50 min rubl köçürmüşdür (166, 1905.03.03.№ 38).

Ə.Ağayev rus və Avropa mətbuatında ermənilərin azərbaycanlılara qarşı başladığı görünməmiş böhtan kampaniyasına cavab olaraq "Sankt-Peterburqskiye vedomosti" qəzetində onları layiqincə cavablandırmışdı. Qafqaz müsəlmanlarının nümayəndə heyətinin tərkibində hakimiyyət orqanlarını petisiya ilə tanış etmək məqsədi ilə Peterburqa gələn Ə.Ağayev Rusiya mətbuatında azərbaycanlılara qarşı aparılan kampaniyanı gördükdə, böyük sarsıntı keçirmişdi. Həm Rusiya, həm də xarici mətbuatda ermənilər və onların himayədarları yayılan yazılarda millətlərarası münaqişələrdə yalnız müsəlmanlar, onların din xadimləri və ziyalıları günahlandırırdılar. Bunlara cavab olaraq, Ə.Ağayev baş vermiş faciəli hadisələrin kökünü araşdırmış, hər bir tərəfin günahını müəyyənləşdirmişdir. Münaqişənin mənşəyini Ə.Ağayev sahibkarlıq və ictimai fəaliyyətlə məşğul olan hər iki tərəfin maraqlarının toqquşmasında görürdü. Erməni burjuaziyasının daha möhkəm dayaqları onun nəinki iqtisadi sahədə, həmçinin Qafqaz regionunun siyasi həyatında daha fəal olmasını şərtləndirirdi. Buna şərait yaradan isə müsəlmanların hüquqlarını hər bir sahədə sıxışdıran ənənəvi dövlət siyasəti idi.Yaranmış vəziyyətdən məharətlə istifadə edən mürtəce erməni burjuaziyası guya ki, "xristian dəyərlərini" qoruyaraq, müsəlman cəmiyyətinə və onun təmsilçisi olan milli burjuaziya və ziyalılarına təkəbbürlük və laqeydlilik nümayiş etdirirdilər (166,1905.25.05.№ 97).

Ə.Ağayev qətiyyətlə hər iki xalq arasında milli və dini düşmənçiliyin tarixi köklərinin olduğunu rədd edirdi. O, həmçinin göstərirdi ki, müsəlman əhalisinin son zamanlara qədər olan passiv və cavabsız vəziyyətinə indi son qoyulub, onlar öz hüquqlarını anlayıb, özlərinə tamam başqa münasibət bəsləyirlər. Müsəlmanların qaniçən olmadıqlarını və əksinə, ermənilərin hücumlarına hazır olmadıqlarını və çar adminstrasiyasının bu hadisələrə laqeydsizliyini vurğulayan Ə.Ağayev öz məqalələri ilə bir çox ziyalıların və ictimai xadimlərin fikrini dəyişməyə nail oldu. Məsələn, azərbaycanlılara qarşı yazıları dərc edən Peterburq qəzetlərinin birinin redaksiya heyəti yazılarının dezinformasiya olduğunu etiraf edib müsəlmanlar qarşısında üzr istəməyə məcbur oldu. Digər məşhur "Birjeviye vedomosti" qəzeti yaranmış vəziyyətdə müsəlmanları ittiham etdi, çünki onlar təşkil olunmuş yalana qarşı özlərinin təşkil olunmuş həqiqətlərini qoya bilmədilər. Bu həqiqətləri geniş ictimaiyyətə çatdırmaqda Ə.Ağayevin müstəsna rolu olmuşdur (25,s.108).

Ə.Ağayev "Kaspi" qəzetində erməni-azərbaycanlı qırğınına həsr edilmiş məqaləsində yazırdı: "Nədən yer üzündəki ən müqəddəs tellərlə-qardaşlıq, vətən birliyi, tarix, adət-ənənə telləri ilə-bir-birinə bağlı olan bu iki xalq birdən-birə bu qədər quduzlaşdı, belə vəhşicəsinə, belə mənasız və məqsədsiz bir-birinin üzərinə atıldı və yırtıcı heyvanlar kimi özlərinə əzab verməyə başladı ? Qardaş qardaşa əl qaldırıb və hər ikisi vəhşi kimi bir-birinin qanından həzz alır! Məgər bundan əvvəl bu iki qardaş bir yerdə dinc və sakit yaşamırdımı, bazarlarda, meydanlarda, dükanlarda, kontorlarda, kulublarda və ictimai müəssisələrdə dostcasına salamlaşmırdımı?...Bir-birinin qanına susamağa onların canına birdən-birə kim saldı? Yox, yox! Burada hansısa nifrətdən, düşmənçilikdən, qana susamaqdan söhbət gedə bilməz. Qardaş qardaşı nifrətə və düşmənçiliyə görə deyil, yalnız bilməməzlikdən, və ya vəhşilikdən öldürə bilər". O, daha sonra məqaləsində yazırdı:"hansısa mənəviyyatsız şər qüvvələr iki xalqın arasına girir, onları bir- birindən ayırır", baş

verənlər "yalnız qızışdırmanın və şər qüvvələrin təsirinin nəticəsidir" (166,1905.13.02.№ 22).

O,"Kaspi" qəzetində yazdığı digər bir məqaləsində də göstərirdi ki, vəhşilikləri hamı törədib, hamı özünü günahkar hiss edir, müsəlmanlar və ermənilər eyni dərəcədə günahkardır, eyni dərəcədə ziyan çəkiblər (166,1905. 15.02.№ 23).

Bakı qırğınlarının səbəblərini azərbaycanlılardan fərqli şəkildə izah edən ermənilər isə bütün ittihamları yerli adminstrasiya və polisin üzərində cəmləşdirərək, millətlərarası ədavətin mövcudluğunu qətiyyələ inkar edirdilər. Eyni zamanda, onlar daha irəli gedərək, müsəlman ruhanilərinin və varlılarının hökumətlə əlbir olub erməni talanlarının təşkil etdiklərini bildirirdilər. Ermənilər Bakıda və Tiflisdə çıxan qəzetlərdə, habelə mərkəzi mətbuatda çap etdirdikləri məqalə və xəbərlərdə hər vəchlə sübut etməyə çalışırdılar ki, "qardaş qırğını"nın günahkarı olan çarizm onlara qarşı "şüursuz", "avam", "cahil" azərbaycanlılardan istifadə etmişdirlər (29,s.274).

Şəhərdə yeni erməni terrorunun qarşısının alınması məqsəd ilə 1905-ilin iyunun əvvəlində Duma deputatlarının yığıncağında Əhilini Sakitləşdirmə Komitəsinin yaradılması ideyası irəli sürülmüş və təşkil edilmişdir. Komitənin təşkilinə dair aşağıdakı qərarlar qəbul edildi: komitə ictimai qurum kimi yaradılır; onun üzvləri Şəhər Duması tərəfindən həm Duma deputatları, həm də əhali arasından seçilir; şəhər sahələrə bölünür və hər bir sahəyə müşahidəçi kimi komitənin bir və ya iki üzvü təyin olunur və s. Komitə hər bir hadisənin araşdırılmasında, səbəblərinin aydınlaşdırılmasında və münaqişə tərəflərinin sakitləşdirilməsində mümkün qədər hökumətə yardım göstərəcəyinə dair öz üzərinə könüllü öhdəlik götürürdü; o, hökumətin icazəsi ilə əhali arasında dinc ünsiyyətin və yaşamağın zəruriliyi və xeyri haqqında Azərbaycan, rus və erməni dillərində vərəqələr yaymaq hüququna malik idi; komitə yerli və Bakıdan kənarda çap olunan qəzetlərdə çıxan, əhali arasında yanlış fikir yaradan və ya yarada biləcək faktları və şayələri izah etməli idi; o, təkcə Bakıda deyil, eləcə də Cənubi Qafqazın digər şəhər

və yerlərində qırğınlardan zərərçəkənlərə maddi yardım göstərmək üçün yollar axtarıb tapmalı idi (20,s.48).

1905-ci il iyun ayının 24-də Əhalini Sakitləşdirmə Komitəsi ilk iclasını keçirərək fəaliyyətə başladı (166,1905.26. 06.№ 122).Onun tərkibinə 38 nəfər azərbaycanlı, erməni və digər millətlərin nümayəndələri daxil idi və onların hamısı cəmiyyətin nüfuzlu şəxsləri hesab olunurdu. Beləliklə, yerli şöbələrin üzvləri, üzvlüyə namizədlər ilə birlikdə komitənin tərkibi 90 nəfər idi. Sabitliyi təmin etmək və iğtişaşların qarşısını almaq mədsədi ilə komitə şəhəri 12 sahəyə bölmüşdü. Həmin sahələrə komitə üzvləri rəhbər təyin olunmuşdurlar (20,s.48-49).

Lakin görülən bütün bu tədbirlər ermənilərin terrorçu fəaliyyətini dayandırmadı. Erməni terrorçuları 1905-ci ilin avqustun 19-dan 25-dək Bakıda ikinci dəfə terror təşkil etdilər. Fevaral qırğınlarından fərqli olaraq, avqustda toqquşmalar şəhərin mədən rayonunu da əhatə etmişdir.Ermənilər azərbaycanlılara, azərbaycanlılar da ermənilərə məxsus mədənlərdə yanğınlar törətdilər. Çar hakimiyyət orqanlarının gördüyü ciddi tədbirlər nəticəsində qırğınlara son qoyuldu (20,s.65).

Şəhərdə sülhü bərpa etmək üçün canişin qraf Vorontsov-Daşkov sentyabrın sentyabrın 10-da Bakıya gəldi. Şəhərdə sülh 1905-ci il sentyabrın 14-də onun rəhbərliyi altında bərpa edildi (105,s.90).

Əldə edilən bu sülh də müvəqqəti oldu və ermənilərin yeni üçüncü terror dalğasının qarşısını ala bilmədi.

Bakı şəhərində ermənilərin növbəti terrorçu fəaliyyəti həmin ilin oktyabrın 20-25-də baş verdi. Yenə də hakimiyyət orqanlarının ciddi müdaxiləsindən sonra qırğınlar dayandırıldı. Bu qırğınlar nəticəsində hər iki tərəfdən çoxlu sayda ölən və yaralananlar oldu, şəhərin təsərrüfat həyatına, o cümlədən su və ərzaq təchizatına ağır zərbə vuruldu. Yalnız 1907-ci ilin ikinci yarısından sonra şəhərin təsərrüfat həyatı tədricən bərpa olunmağa başladı.

1906-cı il fevralın 20-də Tiflisdə erməni-azərbaycanlı münaqişəsinə son qoymaq məqsədilə, Qafqaz canişini Vorontsov-Daşkovun sərəncamı ilə canişin sarayında qurultay çağrıldı. Qurultayda hökumət tərəfindən canişin Vorontsov-Daşkov, Tiflis, İrəvan, Yelisavetpol qubernatorları, canişin müavinləri-Krım Soltan Gəray, generallar Malma və Şımıkın və kargüzar Peterson, azərbaycanlılardan M.Şahtaxtlı, Q.Qarabəyov, Ə.Ağayev, Ə.M.Topçubaşov, İ.Hacıyev, A.Ziyadxanov və Ə.Xasməmmədov, ermənilərdən isə Xatisov qardaşları, Kalantar, S.Artyunov, Muşeksyan, doktor Stepanov, Arakelyan, S.Tağıanosov, Ter-Avanesov, A.Muradyan iştirak edirdilər (105,s.134). Qurultayda Bakı Dumasının deputatları Ə.M.Topçubaşov, Ə.Ağayev və İ.Hacıyev olduqca fəal iştirak etdilər, müzakirə olunan bütün məsələlərə milli mənafe baxımından münasibət bildirirdilər. Onların fəaliyyətinin bilavasitə nəticəsində ermənilərin terrorçu fəaliyyəti sülh qurultayında ifşa edildi.

Sülh qurultayının təşkilatçısı qraf Vorontsov-Daşkov açılış çıxışında dedi: "Camaat! Bir ildir ki, sizin əziz vətəniniz olan Qafqaz bu qədər bəlalara mübtəla olub. Hökumət hər binagüzarlıq etsə də, xeyrli bir nəticə vermədi. Lakin Qafqazda və sizin rahatlığınız üçün gərək bu bəlalar aradan götürülsün. Erməni-müsəlman iğtişaşı ancaq quldurlara və iğtişaşçı dəstələrin xeyrinədir. İndi mən sizi buraya cəm etmişəm ki, siz özünüz bu işlərə çarə arayasınız. Lakin mən sizdən təvəqqe edirəm ki, öz müzakirələrinizdə keçmişdən danışmayıb təqsirin kimdə olduğu məsələsini bərkənar edəsiniz" (105,s.135).

Qurultayda ən mühüm məsələ erməni terroru və quldur dəstələrinin fəaliyyətinin müzakirəsi oldu. Erməni tərəfi baş vermiş qanlı hadisələrdə çar hökumətini pisləyir, dövləti və hökuməti fəaliyyətsizlikdə günahlandırırdılar. Bununla da onlar "Daşnaksütyun" partiyasını və erməni terrorçu dəstələrini baş vermiş hadisələrdən kənarda saxlamaq istəyirdilər. Bu istiqamətdə "Daşnaksütyun" partiyasının üzvləri erməni Xatisov qardaşları olduqca fəallıq nümayiş etdirirdilər. Azərbaycan tərəfi isə qanlı hadisələrin əsl səbəblərini və günahkarlarını üzə çıxa-

raraq cəzalandırmaq, “Daşnaksütyun” partiyası başda olmaqla digər erməni terror təşkilatlarının buraxılmasına nail olmaq istəyirdilər.

Sülh qurultayında İ.Hacıyev, Ə.Ağayev və Ə.M.Topçubaşov cəsarətli çıxışlarıyla seçilirdi. İ.Hacıyev çıxışında bildirdi ki, bu nə istisnalardır ki, erməni millətinə məxsusdur?! Xristian olub rus ilə həmmillət olmaları, mədəni və dövlətli olmaları bəs deyil, gərək bir terrorları da olsun !! Bizim də terrorlarımız ola bilər. Biz də mauzer tüfəngləri saxlayıb, bomba ata bilərik, biz də ermənilərdən yaxşı mənsəb sahiblərini, qubernatorları da öldürə bilərik. Lakin biz bunların heç birisini etmirik, çünki bu bir rəzil və alçaq, səltənətə layiq olmayan işlərdir. Bu məsələni müzakirə etməkdə məqsədimiz ancaq hökuməti vadar etməkdir ki, öz vəzifəsini, öz işini, öz ədalətini qorxusuz, vahiməsiz, layiqincə yerinə yetirsin. Əgər belə etməzsə biz də terrora keçməyə məcbur olarıq (105,s.142-143).

Qurultayda terror məsələsinin müzakirəsi zamanı Ə.Ağayev çıxışında göstərdi ki, biz Qafqaz camaatı qəribə bir vəziyyətə düşmüşük ki, bir dəstə hamını qorxu altında saxlayıb heç kəsə fürsət vermirlər ki, nə öz fikrini, nə də öz işlərini, necə ki, lazımdır, izah etsinlər. Camaat işinə müdaxilə edən şəxslər və qulluqçular həmişə qorxu içərisindədirlər. Əgər bir kəs fürsət edib öz fikrini açıq-açığa danışsa və yanıki bir qulluqçu cürət edib öz insafına görə iş görsə, həmin saat möhürlü kağızlar gəlib, qətl fərmanı yetişər. Belə dolanmaq olmaz! Buna axır qoymaq gərəkdir. Qulluqçulardan və sahib-mənsəblərdən bəziləri o qədər alçaq, rəzil olurlar ki, bu qorxu kağızlarından vahimə edib insaflarından və ixtiyarlarından keçirlər. Və qorxu kağızlarını mülahizə edib kağızları göndərən tərəfə meyil edib, müqabil tərəfə bilə-bilə ədalətsizlik və amansızlıq edirlər.Əgər işlər belə gedərsə, əsla dolanmaq olmaz. Bu hərəkətlərə terror deyib eləcə təmizə çıxarırlar.Lakin terrora müəyyən dərəcəyə qədər dözmək olar. Bir dövlətdə ki, danışmağa və yazmağa izn vermirlər, insanları zülm və zorakalıqdan azad edib, insaniyyətə xidmət etmək qəsdilə qəddarlar və zalımlar əleyhinə terror

mümkündür. Lakin terror bu dərəcəyə keçdikdə səbr ediləsi və dözüləsi deyil (105, s.142).

O, çıxışında bildirdi ki, biz müsəlmanlar bu halətdə davam etməyəcəyik və aşkar deyirik ki, hərgah işlər elə gedərsə, nə qədər Qafqazda bir elə terror dəstələri hökm edərsə, Qafqazda asayiş və təhlükəsizlik bərpa olunmayacaqdır. Biz heç kəsin barəsində şeytançılıq etmirik. Ancaq sülhün xatirəsi üçün məclisin diqqətini bir nöqtəyə cəlb edərək və deyirik ki, Qafqazda olan mənsəb sahibləri və hakimlərin çoxu erməni terrorundan qorxub ədalət və insafla iş görmürlər. Asayiş və dinclik olması üçün hər nə təşəbbüs və tədbir görülsə, bu qulluqçular qorxularından bir əlac etməyib ancaq bir tərəfə zülm və səbr edəcəklər və buna görə də heç vaxt asayiş olmayacaqdır (105, s.143).

Müzakirələrdə erməni tərəfinin nümyəndəsi Duma deputatı Artyunov  çıxışında qeyd etdi ki, hazırkı iğtişaşlar müsəlman şiələrlə erməni qriqoryanlar arasında baş verir və bu toplantıya müsəlman sünnilərlə erməni katoliklərin nümayəndələrinin dəvət edilməsi  məqsədəuyğun deyil. Ə.M.Topçubaşov erməni Artyunovun bu fikrinə qəti etirazını bildirdi və qeyd etdi ki, ermənilərin məqsədi müsəlmanların arasında təfriqə salıb, şiələrlə sünniləri bir-birindən ayırmaqdır. Onun  fikrincə baş verən hadisələrdə cəmi müsəlmanlar bədbəxtliyə düçar olmuş həm şiələr, həm də sünnilər eyni dərəcədə xəsarət almışlar (57,s.134).

Ə.M.Topçubaşov həmçinin çıxışında bildirdi ki,  biz gözlərimizi bağlayıb kor ola bilmirik. Bizi bu məsələni qaldırmağa vəziyyətimiz vadar edir. Vətənimizdə elə bir vəziyyət yaranıb ki, hökumət adamları öz insaf və ədalətlərinə görə iş görə bilmirlər (105,s.145).

Qurultayda Ə.Ağayev çıxışlarının birində  həmçinin Azərbaycan xalqının bütün zəruri problemlərini hakimiyyət nümayəndələri qarşısında səsləndirdi. O, çarizmin  müsəlmanlara qarşı  ayrı-seçkilik siyasətini ifşa edərək, bu siyasətin həyatın bütün  sahələrini: təhsil, din, dövlət idarəçiliyi və aqrar siyasəti

əhatə etdiyini yüksək rütbəli məmurların nəzərinə çatdırdı. O, ötən il ərzinidə daşnakların rəhbərliyi ilə erməni hərbi dəstələrinin dinc müsəlman əhalisini və dövlət məmurlarını açıq terrorla üz-üzə qoymasından danışdı və canişini həmin terrorçuları himayədarlıq etməkdə günahlandırdı. Onun kəskin və qətiyyətli çıxışı erməni nümayəndələrini özündən çıxartmışdı. Sonda o, ermənilərdən "Daşnaksütyun" partiyasının ləğv olunması tələbi ilə çıxış etdi və əks təqdirdə azərbaycanlıların da döyüş qabiliyyəti olan partiya yaratmalarına söz verdi (145,s.169).

Ə.Ağayev həmçinin Qafqazda terror məsələsinə toxunarkən həm hökuməti, həm də erməniləri xəbərdar edərək dedi: "....bir müsəlləh partiya on beş ildən bəri təşkil olunub və hökumət adamları bunu bilib də, nəinki əlac etməyir, bəlkə onunla həməqidədirlər, bizim istər hökumətdən, istər ermənilərdən belə partiyanın götürülməyini təmənna etməyimiz faydasızdır. Biz ancaq özümüz öz əlacımızı edək. Bizim də gərək mükəmməl və müsəlləh partiyamız olsun. Bizim də gərək daşnaksütyunlarımız olsun. Bir hökumət ki, bir tərəfdən belə işlərə dözür, gərək o biri tərəfdən də dözə, yoxsa ki, hərs-mərc olar " (105,s.147).

Lakin çox təssüf olsun ki, Tiflisdə keçirilən bu qurultay heç bir nəticə vermədi. Qurultayda Azərbaycan nümayəndə heyətinin əhalinin silahsızlaşdırılması ilə bağlı tələbi də keçmədi. "Kaspi" qəzetində 1906-cı il 5 mart tarixli nömrəsində Tiflisdən erməni-müsəlman qurultayından göndərilən teleqramda deyilir ki, bu gün müsəlman proqramının müzakirəsi başa çatdı. Əhalinin silahsızlaşdırılması barədə sonuncu məsələ uzun müzakirələrə səbəb oldu. Erməni nümayəndə heyəti indiki həyat şərtlərində silahsızlaşdırmanın müzakirə mövzusu olmayacağını bildirərək bu məsələni gündəlikdən çıxarmağı xahiş etdi. Müsəlman nümayəndə heyəti silahsızlaşdırmanı onların proqramında göstərilən bütün tədbirlərin gerçəkləşdirilməsi ilə şərtləndirərək hesab etdi ki, silahsızlaşdırma barədə iclasın qətnaməsi əhaliyə yaxşı təsir göstərəcək (166,1906.5.03.№51).

Qurultayda Azərbaycanda erməni terrorunun əsl günahkarı hesab olunan "Daşnaksütun" partiyası kənarda qaldı. Tiflis sülh

danışıqlarının yekunu olaraq Qafqaz canişinin qəbul etdiyi qətnamədə iğtişaşda iştirak etmiş əhalidən dəyən ziyana görə cərimələrin alınması qərarlaşdırıldı. Ermənilərlə azərbaycanlılar arasında qanlı qırğınlar yenə də ölkənin müxtəlif şəhər və qəzalarını bürüdü (104,s.336).

Azərbaycan üçün bu qurultayın siyasi nəticəsi ondan ibarət oldu ki, ziyalılar və siyasi xadimlər tədricən anladılar ki, azərbaycanlıları erməni terrorundan qorumaq və azərbaycanlıların təhlükəsizliyini təmin etmək üçün siyasi cəhətdən təşkilatlanmalı, siyasi partiya və təşkilatlar yaratmalıdırlar. Çünki 1905-1906-cı illərin erməni terroru göstərdi ki, onların "Daşnaksütyun" kimi yaxşı təşkilatlanmış terrorçu partiyası və onun silahlı dəstələri mövcuddur.

Tiflis qurultayı açıq-aydın şəkildə təsdiq etdi ki, çar hakimiyyət orqanları o cümlədən də Qafqaz canişinliyi azərbaycanlıları erməni terrorundan qorumayacaq. Erməni terrorunda çar hakimiyyət orqanlarının maraqları olduğuna görə bu terror hərəkətlərinin qarşısı vaxtında alınmadı. Bundan məharətlə istifadə edən erməni terrorçuları sonrakı dövrlərdə də dinc azərbaycanlı əhaliyə qarşı terror hərəkətlərini məharətlə genişləndirdilər.

1906-cı ilin payızında Şuşada Ə.Ağayev tərəfindən "Difai" partiyası yaradıldı. Partiyanın yaranmasının əsas səbəbi Qafqazda ermənilərin azərbaycanlılara qarşı törətdiyi terror hadisələri olmuşdur. Bu partiyanın azərbaycanlıları erməni terrorundan qorumaq üçün silahlı dəstələri də var idi. Həmin dövr üçün "Difai" partiyası azərbaycanlıların erməni terrorundan qorunmasında əvəzsiz xidmətlər göstərən antiterror bir təşkilat kimi formalaşmış və fəaliyyət göstərmişdir.

## §2.3.Təhsil

XIX əsrdə Şimali Azərbaycanda təhsilin inkişaf səviyyəsi aşağı idi.Təhsil sahəsində görülən bütün tədbirlər müstəm-

ləkəçilik siyasətinin həyata keçirilməsinə xidmət edirdi. Dövrün mütərəqqi dəyişiklikləri təhsil sisteminə çətin yol tapırdı.

Cənubi Qafqaz məktəbləri haqqında 1829-cu il nizamnaməsinə görə Bakıda ilk qəza məktəbi açıldı.1872-ci il nizamnaməsinə görə isə bu qəza məktəbi şəhər məktəbinə çevrildi. Şimali Azərbaycanda ilk orta məktəb 1865-ci ildə Bakı şəhərində açıldı. Orta məktəblərdə təhsil pullu olduğuna və tədris rus dilində aparıldığına görə azərbaycanlılar uşaqlarını bu məktəblərə qoya bilmirdilər. Bu səbəbdən də azərbaycanlı uşaqlar həmin dövrdə təhsillə tam əhatə olunmurdu.

XIX əsrin sonu-XX əsrin əvvəllərində Rusiya və onun müstəmləkələrində, o cümlədən Şimali Azərbaycanda kapitalist münasibətlərinin inkişafı savadlı kadrlara ehtiyacı artırırdı. Bu səbəbdən də çar hakimiyyət orqanları müstəmləkələrində təhsil şəbəkəsinin müəyyən dərəcədə inkişaf etdirməyə məcbur oldu.

Bakı şəhərində təhsilin inkişafı və məktəb şəbəkəsinin genişlənməsində Bakı Duması mühüm rol oynamışdır. Bakıda şəhər özünüidarəsi tətbiq olunana qədər şəhər vəsaiti hesabına cəmi bir 2 sinifli məktəb fəaliyyət göstərirdi. 1871-ci il 9 noyabrda açılmış bu məktəb 1889-cu il 1 sentyabr tarixindən isə 3 sinifli məktəbə çevrildi (154,s.31).

Bakı Duması və orada təmsil olunan azərbaycanlı deputatlar şəhərdə təhsilin inkişafı, yeni "rus-Azərbaycan" məktəblərinin açılması, həmin məktəblərdə ana dili və şəriət dərslərinin tədrisi, Şimali Azərbaycan məktəbləri üçün müəllim kadrlarının hazırlanması, şəhərdə ali məktəbin açılması istiqamətində geniş və hərtərəfli fəaliyyət göstərmişdirlər (37,s.76).

Bu dövrdə azərbaycanlı deputatlar, xüsusən şəhərdə müsəlman qızları üçün məktəbin açılmasına xüsusi diqqət yetirirdilər. Bu sahədə H.Z.Tağıyev xüsusi fəallığı ilə seçilirdi. Bakıda ilk qız məktəbini açmış H.Z.Tağıyevə o dövrün ziyalılarının və ictimai fikrin müsbət təsiri olmuşdur. Həmin məktəbi yaratmaq təşəbbüsü 1896-cı ildə qalxmışdır. H.Z.Tağıyevin qız məktəbi açmaq istəyini bilən H.Zərdabi 1896-cı ilin yanvarında

Bakı qubernatoruna məktubla müraciət edərək qız məktəbi açmaqdan ötrü vəsait ayırmağı xahiş etdi və rədd cavabı aldı (166,19.01.1896).

H.Z.Tağıyev 1896-cı il aprelin 24-də Qafqaz təhsil dairəsi hamisi senator Yanovskiyə yazdığı məktubunda Bakıda müsəlman qız məktəbini açmaq istəməsini və buna icazə verilməsini xahiş edir. O, məktubunda məktəbin vəzifələrini də göstərmişdir. H.Z.Tağıyev hesab edirdi ki, məktəbdə yalnız azərbaycanlı qızlar təhsil almalı, əl işini və ev işini öyrənməklə yanaşı, rus və azərbaycan dilləri üzrə təhsil almalı və hər iki dili azərbaycanlı müəllimlər tədris etməlidirlər. Tədris müddəti 4 il müəyyən edilirdi. O qeyd edirdi ki, məktəb üçün binanı tikdirmək xərclərini, məktəbi və onun nəzdində olacaq 20 nəfərlik pansionatı saxlamaq xərclərini də öz üzərinə götürür.1896-cı ilin mayında H.Z.Tağıyev Dumada çıxış edərək Bakıda müsəlman qız məktəbinin və onun yanında internatın açılması və saxlanılması üçün 150 min rubl ianə verəcəyini bildirirdi. O, göstərilən məbləğin 25 min rublunı binanın tikilməsi üçün, qalan pulun isə ilk qadın məktəbinin saxlanılması üçün təyin etdiyini bildirdi. Binanın tikilməsi üçün əlavə 60 min rubl tələb olunduğu aydınlaşdıqda H.Z.Tağıyev dərhal bildirdi ki, o binanın tikilməsi üçün əlavə 35 min rubl da ödəməyə hazırdır. 1898-ci il mayın 19-da açılacaq qız məktəbinin nizamnaməsi və layihəsi təsdiq olundu (37,s.76).

1901-ci il sentyabrın 22-də Ə.M.Topçubaşovun "Kaspi" qəzetində "Bakıda ilk rus-Azərbaycan qız məktəbinin açılışı münasibəti ilə" adlı məqaləsi dərc edilmişdir. O, azərbaycan qızlarının həyatında açılacaq məktəbin əhəmiyyətinə toxunaraq yazırdı:" Müsəlman qadınının vəziyyəti təəssüflər olsun ki, qapalı dairə içərisindədir. O, indi hüquqsuzdur. Haqları güclü cins tərəfindən tapdalanır. Ağlını və təbii isdedadını inkişaf etdirmək imkanından məhrumdur. Bir sözlə, "Allahın və peyğəmbərin bəxş etdiyi" hər şey əlindən alınıb. O, həmçinin göstərirdi ki, Müsəlman qadınını mövcud fərəhsiz və acınacaqlı vəziyyətdən məktəbin və maarifin köməyi ilə çıxmsı

mümkündür. Bakıda açılan rus-müsəlman qız məktəbi, sözün həqiqi mənasında, müsəlman qadınının əqli-mənəvi inkişafının əsasını qoyacaq ilk təhsil ocağı kimi böyük əhəmiyyətə malikdir. Ə.M.Topçubaşov Bakıda açılacaq ilk rus-Azərbaycan qız məktəbini H.Z.Tağıyevin maarifçilik fəaliyyətinin zirvəsi sayır və yeni işə başlayan məktəbin gələcəkdə müsəlmanların mənəvi inkişafında mühüm rol oynayacağını qeyd edirdi” (166,1901.22.09).

Mühafizəkar din xadimləri məktəbin açılmasına qarşı ciddi müqavimət göstərirdilər. Onların təsiri altına düşən mövhumatçı valideynlər də öz qızlarını məktəbə göndərməkdən imtina edirdilər. Ona görə də, Ə.M.Topçubaşov 1901-ci il sentyabrın 23-də qəzetin növbəti sayında bu barədə yazırdı: “Dindaşlarımızı inandırmaq lazım idi ki, Bakıda açılan “rus-müsəlman” məktəbi sadəcə qızlarımıza gələcəyin qadını, həyat yoldaşı və ana kimi müəyyən zəruri olan bilikləri vermək məramına xidmət edir. Məktəbdə aldıqları biliklər onları ailədən uzaqlaşdırmayacaq, ailə ənənələrinə yadlaşdırmayacaq, heç birini gələcək həyat yolunda dil və dinindən, məişət şərtlərinin özünəməxsusluğundan təcrid etməyəcək. Onları başa salmaq lazım idi ki, müsəlman qızına təhsil vermək ona yalnız ana dilini unudub rusca danışmağı öyrətmək deyil. Bu həm də zövq və səliqə ilə geyinməyi bacarmaqdır. Ərinin sədaqətli həyat yoldaşı, uşaqlarının həqiqi anası kimi qalmaqla yanaşı, asudə vaxtından da ağılla istifadə etməyi öyrətməkdir.Sadalanan bu şərtlər bütün qız məktəblərinə münasibətdə rəhbər tutulmalıdır. Müasir mərhələdə müsəlman qızlarının təlim-tərbiyyəsini ilk dəfə üzərinə götürən bu məktəb həmin şərtlərə daha həssas və yüksək səviyyədə cavab verəcəkdir” (166,1901.23.09).

O, məqaləsinin sonunda qeyd edirdi ki, ağıllı ana olmaq üçün müsəlman qadınına hər şeydən əvvəl şəraitin hökmü ilə əlindən alınmış qadın və insan haqlarını qaytarmaq lazımdır. Qadın həmin haqqı yalnız məktəbin köməyi ilə geri ala bilər (166,1901.23.09).

“Kaspi” qəzeti 1901-ci il 7 oktyabr tarixli nömrəsində Ə.M.Topçubaşov “Günün hadisəsinə dair” adlı məqaləsində qeyd edirdi ki, bu gün məktəbin binası ətrafında vaxtı ilə qadın təhsilinin carçısı olmuş insanların ruhu dolaşmaqdadır və onlar təhsil ocağına həyatda olan qardaşları ilə birlikdə göylərdən xeyir-dua diləyirlər. Bəşəriyyətin tərəqqisinə çalışanların hamısı bu hadisəni işığın zülmət üzərində qələbəsi kimi qeyd edir və hamılıqla deyir: bu gün müsəlmanlar üçün əsl bayramdır (166,1901.07.10).

Məktəbin açılış mərasimində Bakının bütün hakimiyyət orqanlarının nümayəndələri, tanınmış ziyalılar və ictimai xadimlər iştirak edirdi. Qafqazın mədəni həyatında mühüm rol oynayan bu hadisə ilə bağlı “Kaspi”qəzeti yazırdı:“oktyabrın 7-ci günündə sübh tezdən məktəbin Nikolayeviski küçəsində vaqe olan gözəl imarət bayraqlarla bəzənmişdi”. Bu imarətin ikinci mərtəbəsindəki böyük zal gündüz saat 12-yə dəvət olunmuş əyan və əşrəflə dolmuşdu.Məktəbin yaradılması və tikilməsi haqqında məlumat dinlənildikdən sonra çıxışlar oldu. Hamı məktəbin açılışını böyük bir hadisə kimi qiymətləndirdi. Məktəbdə təlim görəcək qızlardan təşkil edilmiş xor dəstəsi bir neçə Azərbaycan mahnısı ifa etdi. Ə.M.Topçubaşovun oxuduğu təbrik ünvanına H. Zərdabi imza etdi və bu sözləri yazdı: “Çox yaşa Hacı”. Həmin hadisəni 25 il sonra Ə.M.Topçubaşov belə təsvir edirdi: Diqqətəlayiq mədəni uğur münasibətilə “Kaspi” qəzeti ətrafında toplaşmış müsəlman ziyalıları böyük şadyanlıq düzəltmişdilər. Məktəbin açılış günü onun xeyirxahı və banisi H.Z.Tağıyevə həmin ziyalılar adından müraciət ünvanlanmışdı. Müraciətdə ilk imzanı müsəlman ziyalılarının ağsaqqalı olan Həsən bəy atmışdı. O, böyük sevinc hissinin təsiri ilə imzasının altında “Yaşasın Hacı Zeynalabdin Tağıyev!”sözləri yazılmışdı” (57,s.71).

H.Z.Tağıyevin açdığı qızlar məktəbini dəstəkləyənlərdən biri Şəhər Dumasının deputatı Ə.Ağayev idi. Bu əlamətdar hadisəyə həsr olunmuş məqaləsində O, məktəbin açılmasını alqışlayır, onun böyük əhəmiyyəti və prespektivləri barədə

söhbət açır, bu məktəbin vəzifələri sırasında ənənəvi şərq qadınına xass olan cəlbedici xüsusiyyətləri ilə Avropa sivilizasiyasının atributlarını özündə birləşdirən yeni tipli müsəlman xanımının yetişdirilməsini görür (166, 1901.5.X.№218).

Həqiqətən də bu məktəb Azərbaycan qadınlarının maarifləndirilməsində, onların sıralarından müəllim kadrlarının hazırlanmasında, ictimai-mədəni fəaliyyətə cəlb olunmasında böyük rol oynamışdı (25,s.101).

Məktəbin açılmasında onun işinin təşkilində, fəaliyyətinin təbliğində Ə.M.Topçubaşovun xidmətləri böyük idi. Məktəbin açılışı ilə bağlı onun oxuduğu  təbrikdə deyilirdi: Gələcəyin tarixçisi bu gün yaşadığımız hadisəni  bütün xalqlarda olduğu kimi, müsəlman qadınının-ictimai, dövləti və beynəlxalq ittifaqlara həyat verən  ailə ocağının təməli olan bu gözəl məxluqun intibah dövrünün başlanğıcı kimi qeyd edəcək. Müsəlman qadının hazırda yaşadığı intibahının ən parlaq  səbəbkarlarından biri Sizsiniz, çox möhtərəm Hacı Zeynalabdin!....Bu xeyirxah işdə fəaliyyətinizi davam etdirərək Siz qadın təhsilində də müsəlmanlar arasında öncül oldunuz. Müsəlman qadınını indi əhatə edən əlverişsiz həyat şəraiti Sizi belə bir doğru fikrə gətirmişdir ki, müsəlman qadınının cəhalətdən çıxarmaq vaxtı yetişib və yalnız təhsil onu həyat yoldaşı və ana olmaq vəzifələrini şüurla yerinə yetirməyə öyrədə bilər. Qadının təlim və tərbiyəsi bir təməl daşdır ki, onsuz müsəlmanların mədəni, mənəvi və iqtisadi cəhətdən tərəqqisi mümkün deyildir (166,1901.9.10).

Nəhayət, 1901 ci ilin oktyabrın 7-də məktəbin təntənəli açılışı oldu. Bu məktəb Cənubi Qafqazda yeganə qız məktəbi idi. Burada qızların 20 nəfəri H.Z.Tağıyevin hesabına pulsuz təhsil alırdı. Lakin ərizə verənlərin sayı çox olduğu üçün H.Z.Tağıyev əlavə olaraq, 13 nəfər qızı da binanın zirzəmilərindən gələn gəliri hesabına məktəbə qəbul etdi  (2,s.1.iş.46.v.135).

Məktəbin nəzdində hamilər şurası yaradılmışdır. Şuranın tərkibinə Şəhər Dumasının 3 deputatı, H.Zərdabi, Ə.M.Topçubaşov və  F.Vəzirov daxil idi.

Bakı Dumasının deputatı və görkəmli ictimai siyasi xadim Ə.Ağayev H.Z.Tağıyevin qız məktəbi açmasını yüksək qiymətləndirərək bu barədə yazırdı: "Bundan sonra müsəlman qadınları ailəyə maarifin həyatverici şüalarını saçmaq imkanını əldə edəcəklər. Onlar gələcək nəslə proqres, yaxşı adamlar, yaxşı insanlara məhəbbət təlqin edəcəklər. Bunlarsız hər bir cəmiyyət ölümə məhkumdur" (75,s.30).

H.Z.Tağıyevin 1901-ci ildə fəaliyyətə başlamış qız məktəbini açması bütün Rusiya imperiyasında əks-səda doğurmuş və bütün imperiya mətbuatı öz səhifələrində bu məsələyə toxunmuş, ona yüksək qiymət vermişdir. Tiflisdə dərc olunan "Zaqafqaziya" qəzeti bu barədə yazırdı:"şəhərin təhsil tərbiyə həyatında ilk böyük hadisə müsəlman qız məktəbinin açılması olacaqdır" (224,1901.№261).

H.Z.Tağıyevin qızlar məktəbini açması nəinki şəhərin, bütövlükdə Azərbaycanın ictimai-siyasi, mədəni və təhsil həyatında böyük dəyişikliklərə səbəb oldu. Bu məktəb fəaliyyətə başladıqdan sonra valideynlərin qızlarını məktəbə göndərmək və oxutmaq istəyinə təkan verdi. Azərbaycanlı valideynlər də gördülər və tədricən anladılar ki, qızlarını gerilikdən, cəhalətdən və hüquqsuzluqdan qurtulmasının tək yolu məktəbdən və təhsildən keçir.

H.Z.Tağıyevin qızlar məktəbindən sonra belə məktəblər Tiflis, Dərbənd və İrəvanda da açıldı (74,s.243).

H.Z.Tağıyev qızlar məktəbinin açılması azərbaycanlı qızların məktəbə cəlb olunmasının sonrakı inkişafına müsbət təsir göstərdi. Belə ki, 1908-ci ilin yazında şəhərin Çəmbərəkənd və Dağlıq hissələrində yaşayan müsəlmanlar kollektiv surətdə ərizə verərək bildirirdilər ki, müsəlman qızlarının məktəbləri olmadığı üçün təhsildən məhrumdurlar. Şəhərdə təkcə H.Z.Tağıyevin qızlar məktəbidir ki, orada da varlı azərbaycanlı qızları təhsil alırlar, yoxsul azərbaycanlı qızları yüksək təhsil haqqı verə bilmədikləri üçün ora daxil ola bilmirlər. Müsəlmanlar ərizələrində "Qubernator küçəsindəki Belinski adina 7 saylı məktəbin qız məktəbinə çevirilməsini

xahiş edirdilər. Bu şərtlə ki, orada dərs deyən müəllimlərin hamısı azərbaycanlı olmaqla, dərslər də Azərbaycan dilində tədris edilməlidir (37,s.78).

Xalqın müraciətinə cavab olaraq Dumanın Məktəb Komissiyası 1908 ci il martın 31-də təklif etdi ki, 1908-ci il sentyabrın 1-dən etibarən 7-ci qarışıq qız məktəbi yenidən qurulsun və qəbul zamanı azərbaycanlı qızlara üstünlük verilsin (128,s.32).

Dumanın 1908-ci il mayın 24-də keçirilən iclasında azərbaycanlı deputatlar, Məktəb Komissiyası və Şəhər İdarəsi Çəmbərəkəndin müsəlman əhalisinin müraciətini nəzərə alaraq onların qızlarının təhsil almaları məqsədilə 7-ci "rus-Azərbaycan" məktəbini azərbaycanlı qız və oğlanların bir yerdə oxumaları üçün qarışıq məktəbə çevrilməsi haqqında təklifini müdafiə etmədilər. Deputatlardan İ.Hacıyev və Ə.Əhmədov bu təklifin əleyhinə çıxış etdilər. İ.Hacıyev çıxışında bildirdi ki, kim öz qızını oğlanların da oxuduğu "rus-Azərbaycan" məktəbinə qoyar. Çünki buna bizim həyat tərzimiz imkan vermir. O, çıxışının sonunda H.Z.Tağıyevin qızlar məktəbi tipində azərbaycanlı qızlar üçün qapalı bir məktəb açılmasını təklif etdi (166,1908.№ 61).

Deputat M.Əfəndiyev də İ.Hacıyevin təklifini müdafiə edərək bildirdi ki, Bakı müsəlmanları öz uşaqlarını qarışıq məktəbə qoymazlar, o da yeni xüsusi qapalı qız məktəbinin açılmasını təklif etdi (166,1908.№61). Bu məsələ əleyhinə azərbaycanlı deputatların çıxışı təkcə o dövrdə azərbaycanlı qız və oğlanların bir məktəbdə oxumalarının qeyri-mümkünlüyündən yox, həmçinin Azərbaycan dilində dərs deyə biləcək qadın müəllim kadrlarının olmamasından irəli gəlirdi. Bununla da azərbaycanlı deputatların tələbi ilə layihə qəbul olunmadı. Həmçinin Şəhər İdarəsi xüsusi qapalı qız məktəbi haqqında layihənin işlənib hazırlanmasını Məktəb Komissiyasına tapşırdı. Məktəb Komissiyası isə öz növbəsində qarışıq qız məktəbinin qız məktəbinə çevrilməsi haqqında qərar qəbul etdi. Duma bu qərarı təsdiq etdikdən sonra ilk dəfə olaraq azərbaycanlı qızlar üçün "rus Azərbaycan" məktəbi açıldı. 1909-cu ildə isə ikinci və

üçüncü “rus-Azərbaycan” məktəbləri təşkil edildi (166,1913.№ 115**)**.

Azərbaycan müsəlman qadın müəllimlərinin hazırlığı isə demək olar ki, bərbad halda idi. Azərbaycan qızları üçün orta məktəblərin olmaması bu işi daha da çətinləşdirirdi. Belə vəziyyətin nəticəsi idi ki, böyük səylər, çalışmalar nəticəsində məktəb açılmasına icazə alındıqdan sonra məktəblərdə dərs deyəcək qadın müəllimləri tapmaq mümkün olmurdu (100,1910.№ 30**)**.

Mövcud qız məktəblərinin, o cümlədən H.Z.Tağıyev qız məktəbinin məzunlarına müəllim hüququ verilmirdi. Pedaqoji təhsil görmüş ana dilində dərs deyəcək müəllimlər isə yox idi. Buna görə də H.Z.Tağıyev 1913-cü il fevral 1-də Dumaya müraciət edərək müsəlman qızlar məktəbini seminariyaya çevirmək istədiyini bildirdi (37,s.79).

Beş gün sonra o, xalq məktəbləri direktoruna yazdığı xahişnamədə yenə bu fikri təsdiq edir və 100 min rubl vəsait ayırdığını bildirir, və bu barədə Qafqaz təhsil dairəsində məsələ qaldırmasını xahiş edirdi (37,s.79).

Lakin azərbaycanlı qızlar üçün pedaqoji kurslar açılması işi süründürülürdü. Nəhayət, 1915-ci ilin sentyabrında Bakı “rus-Azərbaycan“ qız məktəbinin nəzdində pedaqoji kurslar açıldı.

Bu müəllimlərdən “rus-Azərbaycan“ məktəblərində istifadə etmək üçün nəzərdə tutulurdu. Bu məsələ həll olunana qədər isə məktəb nəzdində, müəllimlər hazırlamaq üçün ikiillik pedaqoji kurs təşkil olundu. Bu kursda aşağıdakı fənlər də tədris olunurdu: rus dili və onun metodikası, riyaziyyat və onun metodikası, azərbaycan dili və onun metodikası, pedaqogika, didaktika, təbiət, fizika, tarix, coğrafiya, əl işi, ev işi v.s (37,s.80).

H.Z.Tağıyev azərbaycanlı qızların təhsil almalarına qayğı göstərdiyi kimi, şəhərdə məktəb binalarının tikintisi üçün torpaq sahəsi ayrılmasına da xüsusi diqqət və əhəmiyyət verirdi. Dumanın 1898-ci il 23 fevral tarixli iclasında ibtidai texniki

məktəb üçün binanın və onun yanında məktəbin emalatxanası üçün sinif otaqlarının tikilməsi haqqında çıxış edən H.Z.Tağıyev bildirdi ki, əgər söhbət məscid, kilsə, məktəb və s. tikilməsi üçün torpaq sahəsi ayrılmasından gedirsə, torpağın qiyməti hesaba alına bilməz və alınmamalıdır. Çünki məktəbdə bizim uşaqlarımız oxuyacaqlar. İndi biz nə qədər torpaq sahəsi ayırsaq, gələcəkdə bizim üçün bir o qədər yaxşı olacaq. O, həmçinin qeyd etdi ki, Tiflisdə politexnik məktəb açmağa çalışırlar, məgər bizə o lazım deyilmi? Vaxt gələcək o bizdə də olacaq, buna görə də biz hazır torpaq sahəsinə malik olmalıyıq. H.Z.Tağıyev çıxışının sonunda qeyd edirdi ki, hazırda məktəbdə 200 şagird təhsil alır. Onları xaraba, rütubətli və tədris müəssisəsi üçün zəruri tələblərə cavab verməyən bir binada yerləşdiriblər. Məktəbə özümüzünkü kimi can yandırmalıyıq. Biz pula xəsislik etmədən, bütün tələblərə cavab verən tədris binası tikməliyik, yalnız o zaman biz hökumətdən ali tipli məktəbin yaradılması üçün müraciətimizin təmin olunması hüququ əldə edə bilərik (166,1898.№44**).**

Deputatlar H.Z.Tağıyevin çıxışını müdafiə etdilər və Duma texniki məktəb binası tikmək üçün tələb olunan miqdarda torpaq sahəsi ayırmaq barədə qərar qəbul etdi. 1901-ci ildə H.Z.Tağıyev bu məktəbin ehtiyacları üçün 6.600 rubl da pul vermişdi. Daha sonra o, bu məktəbin nəzdində azərbaycanlı uşaqlar üçün sinif və məktəbdə öz hesabına kimya laboratoriyası açdırdı.

Dumanın 1900-cu il 11 may tarixli iclasında Bakıda orta ixtisas texniki məktəbin açılması məsələsi müzakirəyə çıxarılır. Şəhərdə isə peşə məktəbi (onun iki şöbəsi-mexaniki və kimya şöbəsi) və ibtidai texniki məktəb var və bu təhsil müəssisələri üçün bina tikilir. İbtidai texniki məktəbin direktoru deyir ki, texniki məktəb yanında kimya bölməsinin Bakı şəhəri üçün gözlənilən nəticəni verməyəcək, buna görə də şəhərin maraqları naminə onu tikinti bölməsi ilə əvəzləmək lazımdır. Məktəb Komissiyası Duma qarşısında kimya bölməsinin tikinti bölməsiylə əvəzləməyi və Rusiya Maarif Nazirliyi qarşısında

Bakıda büdcə hesabına orta ixtisas məktəbin açılması ilə bağlı məsələ qaldırmağı qərara alır. Məktəb Komissiyasının bu qərarı Duma tərəfindən yekdilliklə qəbul olunur (30,s.238).

Texniki məktəb binasının tikintisinin başa çatdırılması üçün isə 81 min on rubl 50 qəpik ayrılması müzakirəyə çıxarılır. Müzakirədə çıxış edən H.Z.Tağıyev deyir ki, Dumanın ayırdığı 185 min rublla tikinti işləri yekunlaşdırıla bilməz, çünki tikinti materiallarının qiyməti qalxıb, buna görə də o, komissiyanın istədiyi məbləği ayırmağı təklif etdi. Deputatlardan A.Nağıyev, M.Zaxarbəyov, M.Unanov və başqaları bildirdilər ki, komissiyanın fəaliyyətindən şübhələnməyə əsas yoxdur, əksinə, gördükləri işə görə onlara minnətdarlıq etmək və tələb olunan məbləği ayırmaq lazımdır. Duma texniki məktəbin tikintisinin başa çatdırılması üçün tələb olunan məbləğin ayrılması barədə qərar qəbul etdi (166,1900.13.05.№ 104).

1898-ci ildə şəhər əhalisi arasında savadlılığın yayılması üçün ümumi tədbirlərə 10 min iki yüz əlli rubl ayrılır, bunun böyük hissəsi məktəblərdə nəğmə və əl işləri dərslərinə, 1.500 rubl isə şəhər kitabxanasının saxlanılmasına və genişləndirilməsinə sərf olunmalı idi. Şəhər başçısı vəzifəsini icra edən M. Belyavskinin iclasda verdiyi izahatından görünür ki, Şəhər İdarəsində yerləşən bu kitabxanadan yalnız Şəhər İdarəsinin qulluqçuları və şəhər məktəblərində təhsil alanlar istifadə edə bilərlər. H.Zərdabinin "kitabxananı ictimailəşdirmək olmazmı" sualına cavab verən M. Belyavski deyir ki, bunun üçün orada kitab azdır, bir neçə ildən sonra kitabxanada kitablar artanda o ictimailəşə bilər. Bundan başqa, indi onun üçün yerdə yoxdur. Onun ictimaiyyətə açılması, bina kirayəsi, işçilər, xidmətçilər və sairə üçün xərclər tələb olunur ki, indiki çətin dövrdə biz buna gedə bilmərik (166,1898.20.02.№ 39).

Şəhər İdarəsi şəhər kitabxanasının saxlanılması üçün 1.500 rubl tələb etdikdə, komissiya isə bu məbləği 700 rubladək azaltdı. Bu zaman H.Zərdabi etiraz edərək bildirir: "Bu cür kiçik məbləğlə kütləvi kitabxana formalaşdırmaq olmaz. Biz o vaxt bu məbləği açılış üçün nəzərdə tutmuşduq.Üstəlik, kitabxanada

nədənsə masanın üstündə heç bir qəzeti tapa bilmirsən. Ondan heç kim istifadə edə bilmir. Mən məktəb komissiyasının üzvü kimi gələcək kitabxana üçün ilk növbədə jurnallara abunə olmaqdansa, qiymətli kitabların alınmasını daha vacib hesab edirəm. Yoxsa kitabxanının açılışınadək jurnallar köhnələcək və onların heç birinin dəyəri qalmayacaq"(166,1898.20.02.№ 39).

Kitabxananın ictimailəşdirilməsi məsələsinə münasibət bildirən H.Zərdabi çıxışında göstərdi ki, kitabxanaya ildə 1.500 rubl ayrılmasını, onun ictimaiyyət üçün açılmasının təxirə salınmasını və kitabxananın yalnız Şəhər İdarəsi işçiləri üçün xidmət göstərməsini məqsədəuyğun hesab etmir. O, həmçinin qeyd etdi ki, kitabxananın mövcudluğunu qeyri-adi sir pərdəsinə bürünməsindən təccübləndiyini və bu barədə ilk dəfə eşitdiyini dilə gətirir. Məsələ ilə bağlı çıxışında deputat A.Vaçyants bildirdi ki, kitabxananın ümumi istifadə üçün açılmasına 20 min rubldan çox xərc tələb olunur. Odur ki, köhnə qaydanın saxlanılmasına tərəfdardır (166,1898.20.02.№ 39).

Göründüyü kimi H.Zərdabi və onu müdafiə edən azərbaycanlı deputatlar şəhər əhalisi arasında savadlılığın yayılmasında kitabxananın müstəsna rolunu və əhəmiyyətini nəzərə alaraq kitabxananın bütün şəhər əhalisi üçün açıq olmasını və ondan nəinki Şəhər İdarəsinin işçiləri o cümlədən, şəhər əhalisinin də geniş istifadə etmələrini nəzərdə tuturdular. Bu məqsədlə kitabxananın saxlanılması üçün büdcədən ayrılan illik pulun azaldılmaması və kitabxananın kitab bazasının daha da zənginləşdirilməsi istiqamətində fəal iş görürdülər. Lakin azərbaycanlı deputatlardan fərqli olaraq A.Vaçyants və onu müdafiə edən erməni deputatlar isə şəhər əhalisinin maariflənməsində müstəsna əhəmiyyəti olan kitabxanaya tələb olunan pulun ayrılmasına etiraz edirdilər. Onların da bundan məqsədi şəhərin azərbaycanlı əhalisinin maariflənməsinin qarşısını almaq və kitabxananın xidmətlərindən istifadə etmələrinə imkan verməmək idi.

Dumanın 1899-cu il 29 aprel tarixli iclasında A.Puşkinin yubleyinin qeyd olunması ilə bağlı məsələ müzakirə olunur.

Məktəb Komissiyası bayram tədbirlərinə və şagirdlərə hədiyyələr alınmasına 1.700 rubl ayrılmasını təklif edir. Bundan başqa, Ə.M.Topçubaşovun təklifi ilə bayram şərəfinə Bakıda müxtəlif maarif müəssisələri-kitabxanaları, oxu zalları, muzeyləri, tamaşa zallarını, məktəbləri birləşdirəcək “Xalq evi” yaratmaq qərara alındı. Bunun üçün komissiya şəhər torpaqlarından 1.000 kvadrat sajen ərazi və evin tikilməsi üçün şəhər büdcəsindən 50 min rubl vəsait ayırmağı məsləhət bildi (166,1899.1.05.№ 91; 30,s.14).

Ə.M.Topçubaşov bu təklifi irəli sürməkdə yaxşı başa düşürdü və anlayırdı ki, böyük rus şairi A.Puşkinin yubleyi münasibəti ilə keçiriləcək tədbirlərdən şəhərin və azərbaycanlı əhalinin xeyrinə nəsə etmək fürsəti yaranıb və bundan şəhərin xeyrinə istifadə etmək olduqca vacibdir. Ona görə də o özündə kitabxana, oxu zalları, muzey və tamaşa zallarını birləşdirəcək “Xalq evi”ni yaratmağı təklif etdi. Adi vəziyyətdə bu təklifləri Dumadan keçirmək olduqca çətin idi. Çünki bu cür mədəni tədbirlərin həyata keçirilməsi həm xeyli vəsait tələb edir, həm də erməni deputatlar bu cür tədbirlərə qarşı çıxırdılar.

Dumanın qeyri azərbaycanlı deputatlarından A.Nikitin və A.Vaçyants bu tədbirlərin əleyhinə çıxdıqlarını bildirdilər. A.Nikitin hər hansı bir məktəbin A.Puşkinin şərəfinə adlandırılmasını, A.Vaçyants isə elə məbləğlə kifayətlənməliyik ki, cari smetadan onu götürə bilək təkliflərini irəli sürdülər (166,1899. 1.05.№ 91).

H.Zərdabi isə çıxışında onlara etiraz edərək dedi ki, “Xalq evi”ndə iki məktəb olacaq. Bunlar ayrılıqda tikilsə, 50 min rubla başa gələcək. Bundan başqa, əvvəl-axır açmalı olacağımız kitabxana da var. Daha sonra o vurğulayır ki, bütün məbləğin A.Puşkinin adının əbədiləşdirilməsinə sərf olunacağını düşünmək lazım deyil, çünki orada məktəblər, kitabxana və başqa müəssisələr də var və onlara ehtiyac çoxdan yetişib (166,1899.1.05.№ 91).

Ə.M.Topçubaşov isə çıxışında “Xalq evi”nin tikilməsi layihəsini qızğın müdafiə edir və bildirir ki, şairin xatirəsi özü

nəsə böyük və faydalı addım istəyir, belə ki, bizdə fəhlə sinfinin çoxluq təşkil etdiyini nəzərə alsaq, Bakımızın “Xalq evi” kimi ümumfaydalı müəssisəyə daha çox ehtiyacı var. Buna görə də Məktəb Komissiyasının böyük şairin xatirəsinin əbədiləşdirilməsi barədə etdiyi məruzənin qəbul olunması şəhər əhalisinin maariflənməsi işinə də böyük xidmət göstərmiş olacaq. Belə ki,“Xalq evi”nə çəkilən xərc şəhərə artıqlaması ilə geri qayıdacaq.

Müzakirələrdən sonra Duma Ə.M.Topçubaşovun təklifini səs çoxluğu ilə bayram münasibətilə “Xalq evi” üçün torpaq sahəsi ayırmağı və şəhər büdcəsinin hesabına orada bina tikməyi və bu xərcləri isə 1900-cü ilin smetasına daxil etmək barədə qərar qəbul edir (166,1899.1.05.№ 91; 30,s.121).

Dumanın 1900-cu il 16 fevral tarixli iclasında həmin ilin smetası üzrə tikintisi təxirə salınan tikililərin sırasında A.Puşkin evinin tikintisi üçün nəzərdə tutulan 20 min rubl da var idi. Maliyyə Komissiyası bunu şəhərin vəsaitinin çatışmaması ilə əsaslandırırdı. Şəhər İdarəsi isə buna etiraz etmirdi. Göstərilən məsələ ilə bağlı çıxış edən Ə.M.Topçubaşov bildirdi ki, Şəhər İdarəsi smetanın tərtib olunması zamanı A.Puşkin evinin tikintisinə bu il başlamağın zəruriliyini nəzərə almalıydı.Mən indi sadalamağa çətinlik çəkirəm, amma smetada elə xərclər var ki, onları cəsarətlə ixtisar edib, 20 min rublı A.Puşkin evi üçün ayırmaq olardı. Bu çox vacibdir, çünki Duma A.Puşkinin xatirəsini əbədiləşdirməyi qərara alıb və bunun üçün şairin adını daşıyan “Xalq evi”nin üzərində dayanıb, bu, təkcə şairin xatirəsinə yaxşı abidə deyil, həm də çox böyük fəhlə kütləsi müqabilində maarifçi müəssisələri az olan Bakı kimi şəhər üçün zəruridir.Əgər indi Duma A.Puşkin adına “Xalq evi”nin tikintisini təxirə salsa, bu evin gələn il tikiləcəyinə hansı təminat ola bilər? Əvvəl-axır bizim Duma haqqında artıq söylənilənlər özünü doğruldacaq: biz vaxtında A.Puşkinin şərəfinə “Xalq evi” tikmək arzumuz barədə gur-gur guruldadıq, sonra isə susduq! Şəhər İdarəsi bu bəndin çıxarılmasına heç etiraz etmir, üstəlik, evin tikilməsi üçün yer də seçilməyib. Sonda o Dumadan xahiş

edri ki, A.Puşkin evinin tikilməsi üçün nəzərdə tutulan 20 min rubl smetada saxlanılsın (166,1900.18.02.№ 39; 30,s.215).

Məsələ ilə bağlı çıxış edən erməni deputatlar isə bildirdilər ki, Maliyyə Komissiyası 20 min rublı smetadan çıxarmağa qərar verib, çünki başqa gerçək ehtiyaclara, məsələn, küçələrin döşənməsinə bir qəpik də qalmır.

Duma müzakirələrdən sonra Ə.M.Topçubaşovun təklifini qəbul edərək A. Puşkin evinin tikilməsi üçün nəzərdə tutulan 20 min rublın 1900-cü ilin smetasından çıxarmamaq barədə qərar qəbul edir (166,1900.18.02.№ 39).

Dumanın 1899-cu il 9 iyun tarixli iclasında şəhərdə özəl təhsil məktəbinin sahibi Lavrovun müraciəti müzakirə edilir. Lavrov müraciətində sahibi olduğu məktəbin klassik gimnaziyaya çevrilməsini və bütün məktəb xərclərini şəhərin üzərinə götürməsini təklif edir. Məsələ Məktəb Komissiyasında müzakirə edilir və komissiya məktəbin klassik gimnaziyaya çevrilməsi barədə müraciəti zəruri hesab edir. Lakin komissiya xəzinənin məktəbin xərclərinin yarısını öz üzərinə götürməsini təklif edir. Məktəb üçün isə ildə 13 min rubl tələb olunur. Şəhər İdarəsi bütün xərcləri qarşılamağa hazırdır, amma əvəzində gələcək gimnaziyanı illik 11 faizlik vergidən Rusiya Maarif Nazirliyinin hesabına azad etməyi təklif edir (166,1899.11. 06.№121).

Məsələ ilə bağlı şıxış edən H.Zərdabi Dumanın diqqətini ona çəkir ki, şəhər gimnaziyasının 1.000 nəfərdən çox şagirdi var. “Bu qədər çox insanın olduğu yerdə nə düzgün təhsil, nə də tərbiyə vermək mümkündür. Buna görə də yaxşı olar ki, yeni gimnaziya açmaq əvəzinə köhnəsini iki yerə bölək”.

Duma həmin iclasında Lavrov məktəbinin gimnaziyaya çevrilməsi barədə qərar qəbul edir (166,1899.11.06.№ 121).

Dumanın 1902-ci il 12 iyun tarixli iclasında deputatlara məlumat verilir ki, Məktəb Komissiyası və Şəhər İdarəsi növbəti təhsil ilində iki progimnaziya (1917-ci il inqilabından əvvəl 4 yaxud 6 sinifli natamam gimnaziya) açmağı vacib hesab edir. Onlardan hər biri üçün 13 min rubl ayrılmalıdır. Eyni zamanda

Lavrov gimnaziyasına dövlət gimnaziyası statusu verilərsə, ora da 5 min rubl ayırmaq lazım gələcək (bu subsidiya olmadan o, dövlət gimnaziyası adına ala bilməzdi). İndi əhalinin böyük bir hissəsi heç bir hüququ tanınmayan bu təhsil müəssisəsindən qaçır, amma dövlət statusu aldıqdan sonra uşaqların böyük əksəriyyəti həmin təhsil müəssisəsinə yönələcək. Progimnaziyadan gimnaziyaya keçid imtahansız olacaq (166,1902.14.06.№ 127).

Şəhər İdarəsi həmin iclasda deputatlara həmçinin məlumat verir ki, Bakının təhsil işində böhranı aradan qaldırmaq üçün Lavrov gimnaziyasına-5 min rubl və 2 progimnaziya üçün hərəsinə-13 min rubl ayırmaq lazımdır. Lavrov gimnaziyasında hazırda 700 şagird təhsil alır, onların təhsil haqqı adambaşı 100 rubldur. Lavrovun sözlərinə görə, gimnaziyanın gəliri 66 min rubla, xərcləri isə 65.900 rubla çatır. Gələn il yaxud indi bu kiçik gəlir əvəzinə kəsir yarana bilər, gimnaziya dövlətin olsa, bu kəsri xəzinə ödəməli olacaq. Amma indi şəhər subsidiyası yoxdur deyə kəsir təhlükəsi olduğundan nazirlik özəl gimnaziyaya dövlət hüququ vermir. Progimnaziyada təhsil haqqını ödəmək üçün kiçik siniflərdə 60, böyük siniflərdə 80 rubl təyin etmək nəzərdə tutulur (166,1902.14.06.№127).

Duma Lavrov gimnaziyasına dövlət gimnaziyası hüququnun verilməsi və Bakıda bir müstəqil progimnaziyanın açılması barədə nazirliyə müraciət etməyi qərara alır. Lavrov gimnaziyası üçün 5 min rubl, progimnaziyanın açılması üçün 13 min rubl subsidiya ayırır (166,1902.14.06.№ 127).

Dumanın 1903-cü il 17 sentyabr tarixli iclasında Bakı oğlan gimnaziyasının 7-ci sinfinə üçüncü paralel sinfin açılması məsələsi müzakirəyə çıxarılır. Bu məsələ "Lavrov gimnaziyası" ilə bağlıdır. Lavrov özəl gimnaziyasının 12 şagirdi küçədə qalıb, Lavrov 7-ci sinfi açmaq istəmədiyindən, məktəb komissiyası Bakı gimnaziyasında 7-ci sinif üçün üçüncü paralel sinfi açmaq qərarına gəlib.Amma smeta tərtib olunmayıb. Ehtimallara görə, paralel sinfin açılması 3.800 rubla başa gələcək.

H.Zərdabi bu məsələ ilə bağlı çıxış edərək göstərdi ki, o, gimnazıyanın açılmasının tərəfdarıdır, amma istərdi ki, ərazidə

yerləşən təhsil müəssisələrini Bakı şəhəri öz vəsaiti hesabına saxlaya bilsin: "Orta təhsil müəssisəsi açmazdan əvvəl başqa şəhərdəki orta təhsil müəssisələri, orada oxuyan şagirdlər, şəhərin və xəzinənin məsrəflərdəki iştirak dərəcəsi barədə məlumat toplamaq lazımdır, bundan başqa gimnaziyanın açılışı ilə bağlı məsələyə baxmaq və müvafiq qərar vermək olar. Axı hətta biz bu gün onu açmağı qərara alsaq belə, bu, Lavrov gimnaziyası şagirdlərinin vəziyyətinə müsbət təsir etməyəcək, çünki yeni gimnaziyanın açılması ən azı iki-üç il çəkəcək. Orta təhsil müəssisələrinin aşağı siniflərinin açılması ilə bağlı fərdi təşəbbüsləri dəstəkləmək lazımdır, çünki fərdi şəxslər aşağı siniflərin məsrəflərini asanlıqla qarşılaya bilərlər, gimnaziyada isə yalnız paralel yuxarı siniflər açmaq lazımdır ki, həmin özəl təhsil müəssisələrinin şagirdləri ora daxil ola bilsinlər. Lavrovun şagirdlərinə təcili yardım göstərmək lazımdır ki, gimnaziyanın saxlanılması üçün bu qədər ağır xərcləri şəhər öz üzərinə götürməsin". Odur ki, Duma Lavrov gimnaziyasının 12 şagirdinin şəhərin müxtəlif təhsil müəssisələrində yerləşdirilməsini Məktəb Komissiyasına tapşırmağı və hər şagird üçün həqiqi məsrəflərin qanunla müəyyən olunmuş qaydada ödənilməsi barədə qərar qəbul etdi (30,s.15).

Dumanın 1903-cü il 28 oktyabr tarixli iclasında Lavrov gimnaziyasının növbəti təhsil ilinədək dəstəklənməsi məsələsi müzakirəyə çıxarıldı. Məlumat verilir ki, Lavrov gimnaziyası şagirdlərinin acınacaqlı durumu bir il də çəkəcək. Onlara dəstək verilməsi üçün 10-15 min rubl tələb olunur. Məktəb Komissiyası bu məbləğin ayrılmasına etiraz etmir. Şəhər İdarəsi isə Dumadan sonuncu dəfə Lavrov gimnaziyasının 200-dək şagirdinin taleyinə qayğı ilə yanaşmağı, cəmi bir il müddətində lazımi məbləği ayırmaqla onları acınacaqlı və çarəsiz durumdan çıxarmağı xahiş edir. Deputatların əksəriyəti lazımi məbləğin ayrılmasının lehinə çıxış etdilər. Müzakirələrdən sonra Duma 10 min rubl ayrılması barədə qərar qəbul etdi (166,1903.30.X.№ 233).

Dumanın 1903-cü il 4 noyabr tarixli iclasında isə Lavrovun müraciəti dinlənilir. Lavrov müraciətində gimnaziyanın

inventarı və avadanlıq xərcləri üçün pul ayrılmasını xahiş edir. Məsələ ilə bağlı çıxış edən H.Zərdabi bildirir ki, cənab Lavrovun tərk etdiyi məktəb işini öz üzərinə götürərkən Şəhər İdarəsi bu mülahizələrdən çıxış edərək dedi ki, o, şəhər xəzinəsini hər cür qəsddən qoruyacaq. Şəhər özünü küçəyə atılmış şagirdlərin yerinə qoydu və onlar üçün müəyyən məbləğ ayırdı. Onsuz da, o pul çatmayacaq. Artıq 1.500 və ya 2.000 rubl qalıq yalnız bizə çox görünə bilər. Sonra o, çıxışını davam etdirərək deyir, pul təhsil işinə ayrılmışdı və qəyyumlar şurasının şəhər pullarını başqa təyinata xərclənməsinə icazə vermək hüququ yoxdur. Cənab Lavrov artıq şagirdlərdən 5.229 rulb alıb. Deputatlardan Hacıyev, Tixnov, S.Tagıanosov, Ə.Ağayev və başqaları Lavrova o qədər məbləğin ayrılması əleyhinə çıxış etdilər. Onlar hətta Lavrova bir min, 2 min, 3 min rubl verilməsini təklif etdilər (166,1903.6.XI.№ 239).

Deputatlara məlumat verildi ki, qəyyumlar şurası gimnazıyanın inventarına baxış keçirib və Lavrova 3 min rubl ayrılması barədə Dumaya müraciət edir. Bu 3 min rubl Lavrovun tələbələrdən aldığı 5.229 rubldan çıxılmalı idi (166, 1903.6.XI.№239).

Bununla da Duma Lavrov gimnaziyasının şagirdlərinə sahib çıxdı onların təhsillərini davam etdirmələri üçün hərtərəfli köməklik göstərdi və Lavrov gimnaziyasına dövlət gimnaziyası statusu verildi.

Dumanın 1903-cü il 14 oktyabr tarixli iclasında şəhərdə ikinci oğlan gimnaziyasının açılması məsələsi müzakirəyə çıxarıldı. Şəhər İdarəsi məruzəsində belə nəticəyə gəlir ki, ikinci gimnaziyaya çoxdan ehtyac yaranıb. Məlum olduğu kimi şəhərdə bir gimnaziya fəaliyyət göstərir. Bu vəziyyəti normal hesab etmək olmaz. Təkrar açılmış progimnaziya da problemi həll etmir. Əvvəla, orada hələlik üç sinif var, ikincisi, cəmiyyət hələ də ona inamsızlıqla yanaşır, çünki o, hələ indiki tərkibdə olan progimnaziyadır. Bütün bunları nəzərə alan Məktəb Komissiyası progimnaziyanı aşağıdakı şərtlərlə altısiniflik gimnaziyaya çevrilməsini təklif edir:1) şəhər ilk ildə indiki progim-

naziya üçün ödədiyi 5 min rublı və əlavə 5 min rubl, gələn il isə 12 min rubl, səkkiz sinif açıldıqdan sonra isə ildə 14 min rubl ayırır; 2) 16 sinif otağının olduğu progimnaziyanın binasını Duma yeni gimnaziya üçün ayırır və heç bir tikinti və binanın genişləndirilməsini öz üzərinə götürmür; 3) təhsil haqqı 75 rublı aşmamalıdır; 4) qalan bütün xərcləri-əgər bu xərclər ortaya çıxarsa-xəzinə öz üzərinə götürür (166,1903.16.X.№ 223).

Məsələ ilə bağlı çıxış edən Ə.Ağayev bildirdi ki, Lavrov gimnaziyasının şagirdlərinin halına acıyıram, onların acınacaqlı durumu olmasaydı, yeni gimnaziyanın açılmasını istəməzdim, çünki biz orta təhsil müəssisələrinə çox pul, konkret desək, büdcənin 22 faizini xərcləyirik. Bizim ibtidai xalq və peşə təhsilinə çox güclü ehtiyacımız var, bu, zəruri təlabatdır, orta məktəblər isə şəhər üçün israfçılıqdır, amma ortalıqda şagirdlərin olması gimnaziyanın açılmasını vacib sayır. Sonra o çıxışını davam etdirərək diqqəti şəhərin aşağı təbəqələrinin acınacaqlı vəziyyətinə çəkir, onlar zənginlər qədər vergi ödəyirlər, amma şəhərin sərvətlərindən yararlana, təhsil müəssisələrindən onlar qədər istifadə edə bilmirlər. Buna görə də çoxluq üçün ibtidai və peşə məktəblərinin açılması lazımdır. Şəhərin pullarını daha çox orta məktəblərə sərf etməklə biz sanki uşaqlarımızı yoxsulların hesabına tərbiyə etmək istəyirik. Xaricdə heç bir şəhər orta məktəb müəssisələrinin saxlanılmasında iştirak etmir. Müzakirələrdən sonra Duma şəhərdə ikinci gimnaziyanın açılması barədə qərar qəbul edir (166,1903.16.X.№ 223; 30,s.453).

Şəhər Duması və orada təmsil olunan azərbaycanlı deputatlar şagirdlərin təhsil haqlarının artırılmasına qarşı daima çıxış edirdilər və bununlada daha az təminatlı ailələrin uşaqlarının da təhsillərini davam etdirmələrinə dəstək olurdular. Belə ki, Dumanın 1902-ci il 5 noyabr tarixli iclasında şəhər oğlan gimnaziyasında təhsil haqqının artırılması məsələsi məruzə edilir. Məruzədə göstərilir ki, gimnaziyanın açılışı zamanı şəhər ona bina və illik 19 min rubl subsidiya ayırmağı boynuna götürmüşdü, bu şərtlə ki, təhsil haqqı 60 rubldan çox olmasın. Bu

arada cari təhsil ilinin başlanması ilə Rusiya Maarif Nazirinin göstərişi əsasında bu məbləğ 75 rubla qədər artırıldı.

Məsələ ilə bağlı çıxış edən H.Zərdabi bildirdi ki, gimnaziyanın təhsil haqqı olmadan yaşaya bilməyəcəyini düşünən nazirə müraciət edərək demək lazımdır: "Bizim uşaqlarımızdan təhsil haqqı üçün 75 rubl istəməyin, cəmi 60 rubl istəyin, amma gimnaziyanın xərcləri üçün şəhər xüsusi ödəmə edəcək". Şəhər bu pulu vermək istəməsə, demək ki, naziri də narahat etməyə ehtiyac yoxdur (166,1902. 7.11.№ 241).

Belə ki, şəhərdə oğlan gimnaziyası açılarkən, şəhər xərcləri bir şərtlə üzərinə götürüb ki, 60 rubl məbləğində müəyyən olunan təhsil haqqı sonradan artırılmasın. Lakin Qafqaz təhsil dairəsi qəyyumunun təklifi ilə bu norma Rusiya Maarif Nazirliyi tərəfindən 15 rubl artırılıb və 1.000 şagirddən əlavə 15 min rubl pul alınır. Bu isə əhalinin vəziyyətini getdikcə ağırlaşdırır və gimnaziyada təhsil alan şagirdlərin valideynlərinin bu təhsil haqqını ödəməkdə çətinlik çəkəcəklərini nəzərə alan Duma deputatları bu qərara etiraz etdilər və Maarif Nazirinin qərarından imperiya Senatına bu barədə şikayət verilməsi barədə qərar qəbul edilir (166,1902.28.11.№ 256).

XIX əsrin sonu-XX əsrin əvvəllərində Duma və azərbaycanlı deputatlar azərbaycanlı uşaqların ibtidai təhsil aldıqları "rus-Azərbaycan" məktəblərinin sayını artırmaq, məktəbdə ana dili və şəriət fənlərinin tədrisinə nail olmaq, habelə azərbaycanlı müəllim kadrların hazırlanmasına səy göstərirdilər. Əsrin sonunda azərbaycanlı uşaqların böyük əksəriyyəti təhsillə əhatə olunmamışdı. Məscidlərin nəzdində və başqa məktəblərdə azərbaycanlı uşaqlar az da olsa təhsil alırdılar. Bakıda fəaliyyət göstərən rus dövlət məktəblərində təhsil alan azərbaycanlıların sayı çox az idi.

1887-ci il sentyabrın 27-də S.M.Qənizadə və H.Mahmudbəyov tərəfindən əsası qoyulan ilk yeni tipli "rus-Azərbaycan" məktəbi Azərbaycan xalqının tələblərinə cavab verirdi. Çünki məktəbdə ana dili, rus dili, fars dili, hesab və şəriət tədris

edilirdi. Məktəb tədrisin məzmunu və təşkilinin orjinalığı baxımından bütün imperiya miqyasında seçilirdi (48,s.17)

1891-ci ildə Şəhər Dumasının sərəncamına verildikdən sonra bu məktəblərinin şöhrəti isə əhali arasında getdikcə artırdı. 1891-ci ildə Bakı müsəlman əhalisinin 150 nəfərinin imzası ilə Dumaya verilən ərizədə əhali yeni "rus-Azərbaycan" məktəbinin açılmasını xahiş edirdi (3,s.2.iş.961.v.15-17).

Azərbaycanlılar arasında bu tipli məktəblərə marağın artdığını nəzərə alaraq Duma 1891-ci ildə 2-ci, 1892-ci ildə isə 3-cü "rus-Azərbaycan" məktəbinin açılması haqqında qərar qəbul etdi (154,s.32).

1913-cü ildə Bakı şəhərində 40 məktəb fəaliyyət göstərirdi ki, bunlardan da 16-ı ümumi, 12-i "rus-Azərbaycan", 6-ı "rus-erməni", 6-ı isə 1872-ci il əsasnaməsi əsasında fəaliyyət göstərən məktəblər idi. Həmin ildə Bakı məktəblərində 1.0724 şagird təhsil alırdı ki, onlarında 4.064-ü ümumi məktəblərdə, 2.586-ı "rus-Azərbaycan" məktəblərində, 1870-i "rus-erməni" məktəblərində, 2.204-ü isə 1872-ci il əsasnaməsi əsasında fəaliyyət göstərən məktəblərə gedirdi (154,s.32).

Göründüyü kimi 1913-cü ildə şəhərdə "rus-Azərbaycan" məktəblərin sayı 12-ə və həmin məktəblərdə təhsil alan azərbaycanlı uşaqların sayı isə 2.586 şagirdə çatmışdı.

M.Ə.Rəsulzadə "Rus-müsəlman məktəblərində türkcə tədris" adlı məqaləsində yazırdı:"Rus-müsəlman məktəblərini təsis etməkdən məqsəd rusca ilə bərabər türkcəni də öyrətməkdir. Yoxsa müsəlmanlar üçün böylə ayrı bir tipdə ibtidai məktəblər təsisinə lüzum qalmazdı. Bundan əlavə rus-müsəlman məktəblərində təhsil alanların bir çoxu sonra başqa rüşdi və edadi məktəblərə giriyorlar və nəhayət məktəbi-aliyəyə daxil olub da mükəmməl təhsil görənlər də oluyor.

Rus-müsəlman məktəblərində yaxşı və əsaslı bir surətdə türkcə öyrənilməyəcək olursa, artıq heç bir tərəfdə öyrənmək imkanı qalmıyor kimidir. Ana dilini öyrənməyib də təhsili-ali görən cavanlarımızın sonradan nə kimi bir xiffət və məhrumiyyət içində qaldıqları və nə kimi bir həsrət və məsuliyyəti

mənəviyyə ilə sıxıldıqlarını təxmin etmək isə çox da müşkül deyildir" (110,s.253).

"Rus-Azərbaycan" məktəblərinin açılması üçün tələb olunan pulun ayrılması məsələsinə H.Zərdabi xüsusi diqqət yetirirdi. Dumanın 1899-cu il 23 fevral tarixli iclasında çıxış edən H.Zərdabi Məktəb Komissiyasında 2 yeni "rus-Azərbaycan" məktəbinin açılmasını təklif etdi. O deyirdi:"Komissiya mənim təklifimlə razılaşmasa da, bununla belə, bir məktəbin tikilməsi üçün pul ayırdı". O, çıxışında, həmçinin bildirdi ki, indi "rus-Azərbaycan" məktəblərinə xüsusi ehtiyac vardır. Çünki müsəlmanlar ümumi tipli məktəblərə getmirlər. Buna görə də "rus-Azərbaycan" məktəbləri həddindən artıq dolubdur. O çıxışına əlavə etdi ki, ümumi tipli məktəblərin əleyhinə deyil, nə qədər lazımdırsa açılsın, lakin "rus-Azərbaycan" məktəbləri də açılsın ki, müsəlman uşaqları savadsız qalmasınlar (37,s.82).

Nəticədə, görkəmli maarifçinin çıxışı və təklifi, Bakı müsəlman əhalisinin tələbi əsasında Dumada 2 yeni "rus-Azərbaycan" məktəbinin açılması haqqında məsələyə baxıldı və müsbət həll edildi, məktəbin tikilməsi üçün tələb olunan məbləğ ayrıldı (37,s.82).

Göründüyü kimi H.Zərdabi Dumada və Məktəb Komissiyasındakı çıxışları çox mühüm məsələyə şəhərdə azərbaycanlı uşaqların oxuması, təhsil alması və məktəblərdə tədrisin Azərbaycan dilində aparılması ilə öz dövrü üçün çox böyük əhəmiyyətə malik olan məsələlərin qaldırılması ilə bağlı idi (37,s.82).

Məktəb Komissiyasının 1898-ci il 7 fevral tarixli iclasında çıxış edən H. Zərdabi "rus-Azərbaycan" məktəblərində Azərbaycan dili və şəriət dərslərinin lazımi səviyyədə tədris edilmədiyindən narazılığını bildirdi. O, çıxışında qeyd etdi ki, "rus-Azərbaycan" məktəblərində Azərbaycan dili və şəriət dərsləri keçirilir və bu fənlərə çox pis və xor baxılır. Keçən il bu fənlər çox pis tədris olunmuş və illik imtahan aparılmamışdır. Bu il isə bu fənlərin tədrisi tamamilə dayandırılıb. H.Zərdabi məruzəsinin sonunda bildirdi ki, bütün bu dedikləri şagirdlərin və onların valideynlərinin şikayətlərinə əsaslanır. Çünki azərbaycanlılar öz

uşaqlarını Azərbaycan dili və şəriət dərslərinin keçirilmədiyi, yaxud da lazımi səviyyədə keçirilmədiyi məktəblərə qoymaq istəmirdilər. Azərbaycanlı uşaqların məktəblərdən uzaqlaşdırılması üçün hökumət göstərilən fənləri qəsdən sıxışdırırdı. Bu da təhsil sahəsində çarizmin müsəlman xalqlarına münasibətdə yeritdiyi müstəmləkəçilik siyasətinin mahiyyətindən irəli gəlirdi (166,1898.№ 257).

Məktəb Komissiyası 1901-ci il mayın 18-də keçirilən iclasında H.Zərdabi yenə də "rus-Azərbaycan" məktəblərində Azərbaycan dili və şəriət dərslərinin keçirilməsi, imtahanın aparılması qaydaları haqqında çıxış etdi. O, çıxışında bildirdi ki, bu məktəblərin müdiriyyəti imtahanların keçirilməsi haqqında hər il Məktəb Komissiyasına məlumat göndərirdi. Məktəb Komissiyasının üzvləri üçün əlverişli olsun deyə Azərbaycan dili və şəriət dərslərindən imtahanlar hətta Duma zalında keçirilirdi. Belə ki, müdiriyyətin bilavasitə nəzarəti altında bu fənlərin müvəffəqiyyətli tədrisi mümkün deyil. H.Zərdabi çıxışının sonunda bildirdi ki, bu il isə artıq "rus-Azərbaycan" məktəblərində Azərbaycan dili və şəriət dərslərindən imtahanlar başlasa da məktəb müdiriyyəti bu barədə komissiyaya heç bir məlumat göndərməyib. Məktəb Komissiyası H.Zərdabinin çıxışı əsasında məktəb müdiriyyətlərinin imtahanların keçirilməsi haqqında komissiyaya müntəzəm olaraq məlumat verməsi barədə qərar qəbul etdi (166,1901.№ 209).

H.Zərdabi həmçinin "rus-Azərbaycan" məktəblərində imtahan keçirilməsinin tərəfdarı idi. Belə ki, o, 1901-ci il sentyabrın 6-da Məktəb Komissiyasının iclasında "rus-Azərbaycan" məktəblərində imtahanların keçirilməsi haqqında geniş məruzə ilə çıxış etdi. O, çıxışında ana dili və şəriət dərslərinin saatlarının azaldılmasına qarşı çıxaraq, bunu kəskin tənqid etdi. H.Zərdabi çıxışında qeyd edirdi ki, "rus-Azərbaycan" məktəbləri açılan vaxt onların proqramı yerli dil və şəriət dərslərinin tədrisinə nisbətdə geniş idi. Şəriət və ana dili hər bir şöbədə müvəffəqiyyətlə tədris edilirdi. Buna görə də bu məktəblərdə azərbaycanlıların sayı hər il artırdı. Burada rus dili də tədris

edilirdi. Ana dili və şəriət dərslərinin sayı azaldıqdan sonra isə müəllimlər işə çıxmadılar. Şagirdlərin də sayı isə azalmağa başladı. Çünki bu məktəbə müsəlmanlar əsas etibarilə öz dillərini və şəriəti öyrənmək məqsədilə gəlirdilər. H.Zərdabi bu məktəblərdə ana dili və şəriət dərslərinin tədrisinə heç kim tərəfindən nəzarət edilmədiyini və bu dərslərin müntəzəm olaraq yoxlanılmadığını kəskin tənqid etdi (166,1901.№ 227).

Dövlət müəssisələrinin maliyyələşdirilməsində, Şəhər İdarəsi məmurlarının əmək haqlarının artırılmasında imperatorun tacqoyma mərasimi münasibətilə təntənələrin keçirilməsində qeyri-adi səxavətlik göstərən Duma maarif sahəsində pul xərclənməsinə xəsislik edirdi. İş o yerə gəlib çatmışdı ki, Duma 1898-ci ilin fevralında Maliyyə Komissiyasının təklifi ilə təhsil haqqından azad olunan gimnaziya şagirdlərinin sayının kəskin azaldılması barədə qərar qəbul etdi. Bu qərarın əsl motivləri H.Zərdabi və digər azərbaycanlı deputatların çıxışlarında ifşa edildi. Onlar həyəcanla deyirdilər ki, Duma şəhər başçısına 10 min rubl məbləğində əmək haqqı müəyyən etdiyi və Şəhər İdarəsi üzvlərinin əmək haqlarını xeyli artırdığı vaxt, “kasıb uşaqların gimnaziyadan qovulması” barədə qərar qəbul edir (166,1898.№ 37).

Dumanın 1904-cü il 28 dekabr tarixli iclasında Ə.Ağayev “rus-Azərbaycan” məktəblərində Azərbaycan dili və şəriət dərslərinin sayının artırılması barədə deputatlara müraciət edir. Bu məsələ ilə əlaqədar H.Zərdabi bildirdi ki, Azərbaycan dili və şəriət dərslərinin sayı əvvəllər iki dəfə artıq idi. Lakin müdiriyyət tərəfindən o fənlərin yarısı ixtisar edildi. Bundan sonra isə şəhər məktəblərində Azərbaycan dili və şəriət dərsi müəllimlərinin yeni tərkibi təyin edilmədi. Hələ iki il bundan əvvəl bu məsələ Məktəb Komissiyasında müzakirəyə çıxarılmışdı. Məktəb Komissiyası Ə.Ağayevin təklifi əsasında Azərbaycan dili və şəriət dərslərinin sayını artırmaq haqqında Dumaya müraciət edir. Müraciət isə Duma tərəfindən müsbət həll edildi (166,1904.№ 289).

1905-ci il oktyabrın 4-də Məktəb Komissiyasının iclasında H.Zərdabi ibtidai məktəblərdə tədris edilən ana dili dərsinin yeni proqramını qəbul etməyi təklif edir və çıxışında bildirir ki, bizim şəhərin əhalisi “rus-Azərbaycan” məktəbləri haqqında azərbaycanlı deputatlardan daha çox maraqlanırlar və bu məktəblərdə ancaq yerli dili bilən insanlardan müəllim təyin olunmasını istəyirlər (166,1905.№ 194).

Məktəb Komissiyasının 1906-cı il 19 fevral tarixli iclasında çıxış edən H.Zərdabi qeyd etdi ki, əhaliyə məktəbdə ana dilində təhsil almaq hüququ verilməlidir. O, həmçinin “rus-Azərbaycan” məktəbləri üçün ixtisaslı müəllim kadrlarının hazırlanması məsələsinə toxunaraq, bildirdi ki, belə müəllimləri hazırlamaq üçün Qafqaz Müəllimlər Seminariyası (Qori Müəllimlər Seminariyası) təşkil edilibdir. Seminariyada yerli dil dərslərinin sayı minimuma endirilib. Ona görə də oranı bitirən və hazırda orta məktəblərdə müəllimliklə məşğul olanlar dərsləri deməyə lazımi səviyyədə hazır deyillər. O, çıxışının sonunda Qafqaz Müəllimlər Seminariyasında yerli dillərin tədrisi proqramında dəyişiklik edilməsi haqqında canişin qarşısında müraciət irəli sürülməsini təklif etdi (166,1906.№ 42).

M.Ə.Rəsulzadə “rus-müsəlman məktəblərində türkcə tədris” adlı məqaləsində yazırdı: “Şəhərdə çoxalan rus-müsəlman məktəblərindən əlavə neçə ildən bəri kəndlərdə bir çox məktəblər açılır. Bu məktəblərə də müəllimlər lazımdır.Rus-müsəlman məktəbləri tipindəki məktəblərə təyin olunan müəllimlərin rusca ilə bərabər türkcə də bilmələri lazımdır. Beləbləri də, Qori Darülmüəlliminin yetişdirdiyi müəllimlərdən təyin olunurlar. Lakin təcrübə ilə görülmüşdür ki, xaricdən öz dilini öyrənməyib də Qori Darülmüəlliminə girmiş olan tələbə türkcəni öyrənməyərək oranı bitirir. Belə müəllimlər də ibtidai məktəblərdə ana dilini öyrətmək iqtidarına hazır olmurlar. Bu nöqteyi nəzərdən rus-müsəlman məktəbləri müəllim baxımından böyük bir böhran keçirir” (110,s.252).

“Rus-Azərbaycan” məktəblərində müəllimlərin azərbaycan dilini bilməmələrinin əsas səbəbi Qori Müəllimlər Semi-

nariyasının Azərbaycan şöbəsində Azərbaycan dilinin tədrisinə verilən saatların az olması idi. Bu məsələ 1909-cu ilin dekabr, 1911-ci və 1912-ci illərin fevralında Duma və Məktəb Komissiyasının iclaslarında müzakirə edilmiş, Azərbaycan dilinin saatlarını artırmaq haqqında Qori Müəllimlər Seminariyasının direktoruna dəfələrlə məktub yazılmışdır (37,s.86).

Göründüyü kimi XX əsrin əvvəlləri Şimali Azərbaycanda təkcə sosial iqtisadi həyatın inkişafı, çarizmə qarşı milli azadlıq hərəkatının sürətlə genişlənməsi dövrü deyildi, həm də, mədəni həyatda güclü irəliləyişlər dövrü idi. Belə bir vaxtda 1906-cı il avqustun 15-də Bakıda "Nicat cəmiyyəti" tərəfindən Şimali Azərbaycan müəllimlərinin birinci qurultayı keçirildi. Qurultayda müəllim hazırlığı, tədrisin ana dilində aparılması və ümumi icbari ibtidai təhsilə keçilməsi məsələsi geniş müzakirə edildi (37,s.86).

Şəhərdə ümumi icbari ibtidai təhsilin tətbiqi o dövrün qabaqcıl ziyalılarını, habelə, Dumanın azərbaycanlı deputatlarını maraqlandırırdı. Azərbaycanlı deputatlar Dumada şəhərdə ümumi icbari ibtidai təhsilin tətbiq edilməsi məsələsini dəfələrlə qaldırmışdılar. Bu sahədə H.Zərdabi, xüsusilə fərqlənirdi. O, Duma iclaslarında ümumi icbari ibtidai təhsilə keçilməsini dəfələrlə təklif etmişdi (3,s.2. iş.961.v.18).

Duma və azərbaycanlı deputatlar sonrakı illərdə də bu mühüm və əhəmiyyətli məsələyə dəfələrlə qayıtmışdırlar. Belə ki, Dumanın 1910-cu il mayın 5-də keçirilən iclasında azərbaycanlı deputatlar həmçinin şəhərdə ümumi icbari ibtidai təhsilin tətbiqi haqqında gedən müzakirələrdə çox fəal iştirak etdilər. Deputatlardan A.Həsənov, İ.Hacıyev, İ.Aşurov, H.Z.Tağıyev, M.Sultanov və M.Əfəndiyev çıxışlarında ümumi icbari ibtidai təhsilin tətbiqinin zəruriliyindən danışdılar. İ.Hacıyev çıxışında bu məsələnin son dərəcə vacib olduğunu bildirdi, müsəlmanların geriliyi haqqında, məktəblərdə azərbaycanlı müəllimlərin çatışmazlığından danışdı, o, bütün bunlara görə müsəlman cəmiyyətlərini günahlandırdı və bildirdi ki, bizim qonşularımız ermənilər ½ milyon nəfər olsalar da onların 4

seminariyası var, amma biz üç milyonuq heç bir seminariyamız belə yoxdur (37,s.87).

Belə vəziyyəti müsəlmanlar üçün təhqir hesab edən İ.Hacıyev çıxışının sonunda bildirdi ki, biz bu dünyanın bütün millətləri ilə bir sırada getməliyik. Deputat M.Vəkilov isə çıxışında ümumi icbari ibtidai təhsilin Bakı şəhəri üçün son dərəcə vacib olduğunu və şəhərdə azərbaycanlılardan az olan rusların hətta daha çox məktəblərinin olduğunu qeyd etdi. O, çıxışının sonunda bildirdi ki, azərbaycanlıların özləri qərara alıblar ki, ruslar kimi azərbaycanlı uşaqlar da ibtidai təhsil alsınlar (166,1910.№100).

Göründüyü kimi azərbaycanlı deputatlar Dumada öz dövrü üçün mühüm əhəmiyyətə malik olan şəhərdə ümumi icbari ibtidai təhsilin tətbiq edilməsi haqqında məsələ qaldırırdılar. Onların təkidi ilə Duma özünün 1910-cu il 1 iyun tarixli iclasında Bakı şəhərində ümumi icbari ibtidai təhsilin tətbiqi haqqında yekdilliklə qərar qəbul etdi (166,1910.№111).

Lakin çox təəssüflər olsun ki, Dumanın qəbul etdiyi bu qərar kağız üzərində qalaraq həyata keçirilmədi.

Azərbaycanda müəllim məsələsi həll edilməmiş bir problem olaraq qalmaqda idi. "Zaqafqazya" qəzeti 1907-ci ildə bu vəziyyətlə əlaqədar yazırdı ki, məktəblər barəsində hara yazılırsa, qəzetlərdə uzun-uzadı söhbətlər gedirsə də, yenə müəllim məsələsi havadan asılı olaraq qalırdı. Bizim özlərindən razı, təkəbbürlü bəylərimiz, burjuaziyamız müəllimləri gözüm çıxdıya salmış, onlara həqarətlə baxmışlar. Bir tərəfdən cahillər, digər tərəfdən yaşayışın ağırlığı müəllimləri çıxılmaz vəziyyətə qoyur, onları öz sevimli işlərindən uzaqlaşmağa vadar etmişdir. İndi belə tərəqqi vaxtında biz müəllimlərə böyük ehtiyac duyur, onları əl-əl axtarırıq (224,1907.№17).

Beləliklə, Azərbaycanda müəllim məsələsi ictimai həyatın ən yaralı yeri idi. Çarizmin müstəmləkəçilik siyasəti pedaqoji kadrların hazırlanması işində də özünü göstərirdi. Müəllim çatışmazlığı üzündən Azərbaycan məktəbləri çətinlik çəkirdi. Azərbaycan məktəblərinin əsl təhsil ocaqlarına çevirməkdən

ötrü ilk növbədə pedaqoji təhsil görmüş bilikli müəllimlərə ciddi ehtiyac vardı. O zaman belə müəllim çox az idi (37,s.88).

Azərbaycanda müəllim kadrlarının hazırlanması üçün pedaqoji seminariyanın açılmasına böyük ehtiyac var idi. Bu məsələ ilə əlaqədar olaraq, 1906-cı ildə Azərbaycan müəllimlərinin 1-ci qurultayında bir çox fikirlər irəli sürülsə də, hətta Müəllimlər Seminariyasının açılması üçün proqram tərtib olunub Məktəb Komissiyasına verilsə də, bu məsələ həll olunmamış qalırdı. Bu, müəllim kadrlarının yetişdirilməsi məsələsinə, o cümlədən Müəllimlər Seminariyasının təşkilinə hökumət tərəfindən edilən laqeyd münasibətin nəticəsi idi (37,s.88).

Bu dövrdə, xüsusilə Bakıda azərbaycanlılar üçün müəllim kadrlarının hazırlanması vacib məsələlərdən biri idi. Belə ki, məktəblərdə tədrislə məşğul olan, ana dilində savadlı müəllimlər demək olar ki, çox az faiz təşkil edirdi. Bu müəllimlərdən bir qismini Qori Seminariyasında təhsil alan müəllimlər təşkil edirdi. Bu seminariyada isə başqa millətlərin dillərinin keçirilməsinə əhəmiyyət verilmirdi (37,s.88).

Azərbaycanda maarifin inkişafı, təhsil sisteminin əsaslı təşkili üçün müəllim kadrlarının hazırlanması xalqın qabaqcıl nümayəndələrini düşündürən mühüm problemlərdən biri idi. Məhz bu baxımdan azərbaycanlı deputatlar həmçinin azərbaycanlı müəllimlərin hüquqlarının müdafiəsinə də xüsusi diqqət yetirirdilər. H.Zərdabi Dumanın iclaslarında müəllimləri müdafiə edir, onların iş şəraitinin yaxşılaşdırılmasını, əmək haqlarının artırılmasını, azərbaycanlı müəllimlərin hüquqlarının digər millətlərdən olan müəllimlərin hüquqları ilə bərabərləşdirilməsini tələb edirdi (37,s.89).

Dumanın 1899-cu il 9 fevral tarixli iclasında Şəhər İdarəsi qulluqçularının əmək haqlarının artırılması haqqında məsələ müzakirə edildikdə H.Zərdabi bu məsələyə münasibətini bildirərək deyirdi:"Siz yalnız öz işçilərinizin əmək haqlarını artırırsınız digərlərinin isə yox, müəllimlər köhnə ştat vahidi üzrə əmək haqqı aldıqları halda, siz kargüzarların əmək

haqlarının 1.320 rubldan 1.500 rubla qaldırırsınız” (166,1898.№33).

H.Zərdabi 1898-ci il üçün şəhər büdcəsinin təsdiq edilməsi ilə əlaqədar keçirilən müzakirələrdə çıxış edərək, Şəhər İdarəsi dəftərxanasının işçiləri üçün nəzərdə tutulmuş ştatın azaldılmasını və Şəhər İdarəsi baş mühasibinin köməkçisi vəzifəsinin ləğv olunmasını təklif etdi. H.Zərdabi həmçinin, dəftərxananın şəxsi heyətində və Şəhər İdarəsində ixtisar edilməsini və onların saxlanılması üçün ayrılan pulların hesabına müəllimlərin əmək haqlarının artırılmasını və şəhərdə bir neçə yeni məktəblərin açılmasını təklif etdi (3,s.1.is.84.v.131).

Deputatlar sonrakı dövrlərdə də müəllimlərin sosial müdafiəsinə xüsusi diqqət yetirirdilər. Dumanın 1910-cu il 3 iyun tarixli iclasında çıxış edən deputatlardan A.Həsənov, H.Həsənov və İ.Hacıyev bütün şəhər müəllimlərinin əmək haqlarının artırılmasını təklif etdilər. Lakin Duma deputatların qaldırdığı bu çox mühüm məsələyə laqeyd münasibət bəsləyərək onların təkliflərini qəbul etmədi (37,s.89).

1911-ci ildən başlayaraq təhsilin inkişafı sahəsində M.Əzizbəyovun fəaliyyəti xüsusilə təqdirə layiq olmuşdur. Onun Dumadakı fəaliyyətində maarif məsələsi mühüm yer tuturdu. Dumanın 1912-ci il 13 may tarixli iclasında o, Bakı rayonlarının birində məktəb tikmək üçün sahə ayrılmasını tələb etdi (140,1912.№ 281).

1913-cü il yanvarın 22-də Dumada M.Əzizbəyov milliyyətdən və mənşəyindən asılı olmayaraq yoxsul tələbələrin təhsil almaları üçün 5 min rubl vəsait ayrılması təklifini irəli sürdü (107,s.63).

Həmin ilin aprelin 2-də o, Dumanın iclasında o dövr üçün çox əhəmiyyət kəsb edən bir təklif irəli sürdü. Onun təkidi ilə Duma belə bir qərar qəbul etdi: “məktəblərdə yerli dillərə, xüsusilə Azərbaycan dilinə diqqət yetirilməsi arzu edilsin. Çünki müsəlman məktəbləri üçün müəllimlər seçilməsində şəhər daim çətinlik çəkir” (143,1914.№ 23).

Dumanın 1914-ci il 13 may tarixli iclasında "Şəfa müsəlman mədəni-maarif" cəmiyyəti köhnə müsəlman qəbiristanlığında məktəb tikmək üçün 396 kv sajen torpaq sahəsinin verilməsi üçün müraciət irəli sürmüşdü. Müzakirələrdə M.Əsədullayev, N.Nağıyev və M.Əzizbəyov müraciətə tərəfdar olduqlarını ifadə etdilər. Duma həmin iclasında bu mədəni-maarif cəmiyyətinin müraciətini təmin etdi. (166,1914.№ 106).

Azərbaycanlı deputatların xeyriyyə cəmiyyətinin təklifini müdafiə etmələri səbəbsiz deyildir. Çünki digər müsəlman xeyriyyə cəmiyyətləri kimi, "Şəfa" xeyriyyə cəmiyyəti də müsəlman uşaqları üçün xüsusi məktəblər açır və bu məktəblərdə ehtiyacı olanların çoxu pulsuz oxuyurdu (37,s.90).

Azərbaycanlı deputatlar həmçinin şəhərdə ibtidai məktəblərin açılmasına da xüsusi diqqət yetirirdilər. Belə ki, Dumanın 1912-ci il 11 sentyabr tarixli iclasında Bayılda, "Nəşri-maarif" cəmiyyətinin sərəncamında olan şəhərin azərbaycanlı məktəblərinin nümunəsində ibtidai məktəb açmaq haqqında məsələnin müzakirəsində H.Mahmudbəyov fəal iştirak etdi. O, çıxışında Bayılda şəhər məktəbinin açılmasının vacibliyini sübut edərək qeyd etdi ki, biz Bayıl əhalisindən rüsum və vergi tələb etdikdə, onlar onu vermək istəmirlər və buna görə onlar tamamilə haqlıdırlar. Çünki onlar soruşurlar bunun əvəzində şəhər onlara nə verib. Onlara məktəb, xəstəxana, körpü və işıq lazımdır. H.Mahmudbəyovun bu çıxışını deputatlardan A.Aşurov və İ.Məmmədov müdafiə edərək Bayılda şəhər məktəbinin açılmasına tərəfdar olduqlarını ifadə etdilər (166,1911.№ 207).

Nəticədə, Duma Bayılda məktəb açılması məsələsini müsbət həll etdi ki, bu da öz növbəsində şəhərin bu hissəsində azərbaycanlı uşaqların təhsilə cəlb olunmasında irəliyə doğru atılmış müsbət bir addım oldu.

Azərbaycan məktəblərində müəllim kadrlarının çatışmazlığı şəhərdə yenə də həll edilməmiş bir problem olaraq qalırdı. Dumanın azərbaycanlı deputatları bu ehtiyacı nəzərə alaraq şəhərdə Müəllimlər Seminariyasının açılması uğrunda fəal çıxış edirdilər. Dumanın 1915-ci il 11 aprel tarixli iclasında Bakı

şəhərində Müəllimlər Seminariyasının açılması haqqında məsələ müzakirə edildi. İclasda qeyd edildi ki, Seminariya üçün dövlət binası tikilənədək şəhər öz vəsaitindən hər il tələb olunan 10 min rubl pul versin. Bu məsələ ətrafında deputatlardan İ.Hacınski, H.Mahmudbəyov, M.Əzizbəyov, A.Aşurov və Q.Qasımov çıxış etdilər. İclasda çıxış edən İ.Hacınski Müəllimlər Seminariyasına azərbaycanlıların çox böyük ehtiyacı olduğunu bildirərək qeyd etdi ki, Seminariyada dövlət təqaüdlərinin yarısı azərbaycanlılara verilməlidir.İ.Hacınskinin çıxışını müdafiə edən H.Mahmudbəyov azərbaycanlıların dövlət təqaüdlərinə daha çox ehtiyacı olduqlarını sübut etdi və qeyd etdi ki, digər Seminariyalarda qeyri-müsəlmanlara dövlət təqaüdləri verilir. Müsəlmanlara təqaüdlərin az verilməsinin nəticəsidir ki, az sayda da müsəlman müəllimləri hazırlanır. Müzakirəyə qoşulan A.Aşurov bildirdi ki, müsəlmanlar arasında müəllim kadrı azdır, buna görə də əhali çox əziyyət çəkir. O, həmçinin çıxışında deputatların nəzərinə çatdırdı ki, hazırda qəzalarda "Nəşri-maarif" cəmiyyətinin 35 məktəbi var, lakin müvafiq müəllimlərlə təmin olunmur. Haqqında müzakirə aparılan Müəllimlər Seminariyası isə Bakı quberniyasına xidmət göstərəcək (37,s.91).

Duma Müəllimlər Seminariyasına binanın tikilməsi üçün torpaq sahəsinin ayrılması və dövlət binası tikilənədək hər il 10 min rubl verilməsi haqqında yekdilliklə qərar qəbul etdi (37,s.91).

Çar Rusiyanın apardığı ağır müstəmləkə siyasətinin nəticəsində azərbaycanlılar yaşayan şəhərlərdə seminariya yox idi. Halbuki bu dövrdə Qafqazda dörd seminariya mövcud idi. Bunlar İrəvan Müəllimlər Seminariyası, Tiflis Müəllimlər İnstitutu, Şimali Qafqaz Müəllimlər Seminariyası və Qori Müəllimlər Seminariyası idi (166,1915.№ 218).

Azərbaycanlılar ali təhsil almaq üçün daha çox Qori, Tiflis və İrəvan şəhərlərinə getməli olurdular. Qori və Tiflis şəhərlərinə gedib orada təhsil almaq azərbaycanlılar üçün bir qədər çətin idi. Cənubi Qafqazda rus dilində ümumu təhsil müəs-

sisələrinin sayının artması hökuməti həmin məktəblər üçün müəllim kadrları hazırlamaq məsələsi ilə daha yaxından məşğul olmağa vadar edirdi. Şimali Azərbaycanın ibtidai məktəbləri, o cümlədən "rus-Azərbaycan" məktəbləri üçün müəllimlər hazırlanmasında böyük rolu olan Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsi 1879-cı ildə fəaliyyətinə başladı.

İrəvan Müəllilmlər Seminariyası isə 1881-ci il 7 noyabrda təsis edilmiş və 1918-ci il 16 avqustadək fəaliyyət göstərmişdir. Seminariyada rus, erməni və Azərbaycan şöbələri fəaliyyət göstərirdi. Bu seminariyanı çar hökuməti azərbaycanlıların deyil, Qərbi Azərbaycanda yaşayan ermənilərin təhsil almalarını nəzərə alaraq açmışdır. Qərbi Azərbaycanda yaşayan əhalinin yarıdan çoxunu həmin dövrdə azərbaycanlılar təşkil etdiklərinə görə çar hökuməti İrəvan Müəllilmlər Seminariyasında Azərbaycan şöbəsini də açmağa məcbur olmuşdur.

XIX əsrin sonunda İrəvan quberniyasında azərbaycanlı uşaqların təhsil almaları digər millətlərlə müqayisədə aşağı idi. "Kaspi" qəzetində 1893-cü ildə dərc edilmiş bir məlumata görə İrəvan quberniyasında hər min nəfərə görə məktəblərdə təhsil alanların sayı ruslar arasında -50, ermənilər-16, azərbaycanlılar arasında isə cəmi 4 nəfər təşkil edirdi (166,1893.15.08).

N.Nərimanov da 1906-cı il iyulun 18-də "Həyat" qəzetində dərc etdirdiyi məqaləsində "Qori Seminariyasının Azərbaycan əhalisinin yaşadığı başqa mərkəzi şəhərə" köçürülməsi məsələsini qoymuşdu. O bunu belə əsaslandırırdı ki, hər şeydən əvvəl seminariyadakı tədris proqramını dəyişmək lazımdır. Seminariya elə müəllimlər hazırlamalıdır ki, öz dilini, ədəbiyyatını bilsinlər və ibtidai məktəblərdə uşaqlara zamanın tələbinə uyğun dərs keçə bilsinlər, xalq və vətən üçün tərbiyəli, savadlı uşaqlar hazırlaya bilsinlər. O, müəllimlərin buraxılışını ildə 10 nəfərdən 40 nəfərə artırmağı təklif edirdi. Qori Seminariyasından başqa 2-3 seminariya, özü də Azərbaycan əhalisinin yaşadığı mərkəzi yerlərdə: Bakıda, Gəncədə və başqa yerlərdə seminariyalar açmaqla bu problemi həll etməyin mümkün olduğunu qeyd edirdi. Məqaləsinin sonunda müəllif yazırdı:

"Qori Seminariyasına ən yaxşı halda 60 şagird qəbul olunur və təkrar edirik ki, Qoridə daima yaşayan azərbaycanlılar yoxdur. Əgər belələri yoxdursa, kənardan oxumağa gələnlərdə olmayacaqdır" (61,1906.18.07).

Azərbaycan şəhərlərinin birində Müəllimlər Seminariyası açmaq üçün Dumanın azərbaycanlı deputatları, qabaqcıl ziyalılar uzun illlər mübarizə apardılar. Nəhayət, Azərbaycan şəhərləri içərisində ilk dəfə olaraq 1914-cü il noyabrın 5-də Gəncə şəhərində, 1916-cı ilin noyabrında Bakı şəhərində Müəllimlər Seminariyası da fəaliyyətə başladı (37,s.92).

Beləliklə, tədqiq olunan dövrdə Bakı Şəhər Duması və orada təmsil olunan azərbaycanlı deputatların gərgin fəaliyyəti nəticəsində Duma Bakı şəhərində təhsilin inkişafı sahəsində o dövr üçün tarixi əhəmiyyətə malik bir sıra qərarlar qəbul etdi. Şəhərdə azərbaycanlı qızlar üçün qız məktəbinin açılması, "rus-Azərbaycan" məktəbi şəbəkəsinin genişləndirilməsi və şəhərdə ümimi icbari ibtidai təhsilə keçilməsi, Bakı və Gəncə şəhərlərində Müəllimlər Seminariyasının açılması azarbaycanlı deputatların birbaşa fəaliyyətinin nəticəsi idi.

## §2.4. Su təchizatı

1878-ci ildə Bakıda "Şəhər Əsasnaməsi"nin tətbiqi ilə əlaqədar olaraq şəhərin bütün təsərrüfat sahələri kimi su təchizatı da Şəhər İdarəsinin sərəncamına keçdi. Bakı Duması şəhərin su təchizatı məsələsində əsasən iki istiqamətdə fəaliyyət göstərirdi: 1) şəhər əhalisinin getdikcə artmağa başlayan içməli suya olan tələbatını müvəqqəti olaraq ödəmək üçün əhalini şirinləşdirilmiş su ilə təmin etmək; 2) şəhəri davamlı içməli su ilə təmin etmək üçün müxtəlif su mənbələrindən-Zuğulba, Samur, Kür, Şollar və s. mənbələrdən su kəmərinin çəkilməsi.

XIX əsrin sonu-XX əsrin əvvəllərində Bakı şəhərində əhalinin sayının artması, neft sənayesinin və bununla əlaqədar olaraq sənayenin digər sahələrinin sürətli inkişaf etməsi, şəhərin böyüməsi, şəhərdə bağların və yaşıllıqların sayının artması,

küçələrin su ilə yuyulması və əhalinin istifadə etdiyi quyu sularının yararsız olması həmin dövrdə şəhərdə içməli suya olan tələbatı kəskin surətdə artırmışdır.

Göstərilən səbəblərdən şəhərin suya olan tələbatının artması, yoluxucu xəstəliklərin yayılması və xaricdən çoxsaylı qonaqların və iş adamlarının gəlməsi Şəhər Duması və İdarəsini şəhərin su ilə təchiz edilməsində yeni-yeni layihələrin işlənib hazırlanmasına məcbur edirdi. Bu dövrdə şəhərdə hər bir adam üçün sutkada təxminən orta hesabla 1,3 vedrə və yaxud da 16 litr su tələb olunurdu.

Əhalinin sayının ildən-ilə artması içməli suya olan təlabatı da artırırdı. Belə ki, 1859-cu ildə şəhərdə yaşayan 12.191 nəfərə sutkada 15.848 vedrə və ya 195.056 litr, 1873-cü ildə 15.105 nəfərə sutkada 19.636 vedrə və ya 241.680 litr, 1886-cı ildə 86.611 nəfərə sutkada 112.594 vedrə və ya 1.385.776 litr, 1897-ci ildə 111.904 nəfərə sutkada 145.475 vedrə və ya 1.790.464 litr, 1903-cü ildə 143.786 nəfərə sutkada 186.921 vedrə və ya 2.300.576 litr, 1913-cü ildə 214.672 nəfərə sutkada 279.073 vedrə və ya 3.434.752 litr su tələb olunurdu.

Şəhərdə əhalinin artım sürətinə nəzər salsaq görərik ki, 1903-cü ildən 1913-cü ilə kimi son 10 ildə əhalinin sayı orta hesabla 70.886 nəfər, suya olan tələbat da 92.151 vedrə, və ya 1.134.176 litr artmışdır. Həm əhalinin sayı, həm də içməli suya olan tələbat son 10 ildə 49.30% yüksəlmişdir.

Şəhərdə əhalinin sayı demək olar ki, hər il orta hesabla təxminən 7.000 nəfərdən çox artırdı. Bu artıma müvafiq olaraq şəhərin içməli suya olan tələbatı da hər il təxminən 9.100 vedrə və ya 112.000 litrdən çox artırdı.

Bakı Dumasının formalaşdığı ilk gündən azərbaycanlı deputatlar şəhər əhalisini davamlı və uzun müddətli içməli su ilə təmin edilməsi istiqamətində səmərəli və ardıcıl fəaliyyətə başladılar. Bu istiqamətdə H.Z.Tağıyevin fəaliyyəti xüsusilə diqqətə layiq olmuşdur. O, Dumanın 1879-cu il 11 yanvar tarixli iclasında çıxış edərək təklif edir ki, Şəhər İdarəsinin sərəncamına 1.000 rubl ayrılsın və həmin vəsait su mənbələrinin ax-

tarışına və yeni su kəmərinin layihə işlərinin maliyyələşdirilməsinə sərf olunsun. H.Z.Tağıyevin bu təklifi Duma tərəfindən qəbul edilir (3,f.389, siy.7,iş.1,v.7;iş.14,v.57).

Göstərilən bu məbləğin şəhərə su kəmərinin çəkilməsi müsabiqəsində qalib gələn ən yaxşı layihə müəllifinə verilməsi nəzərdə tutulmuşdur. Su kəmərinin çəkilməsi məsələsi Dumada azərbaycanlı və erməni deputatlar arasında kəskin mübarizə şəraitində gedirdi. Azərbaycanlı deputatlar şəhərə saf, təmiz və davamlı su kəmərinin çəkilməsini tələb etdikləri halda, erməni deputatlar isə şəhərdə su alverini öz nəzarətlərində saxlayan və bu ticarətdən külli miqdarda gəlir götürən erməni iş adamlarının maraqlarını müdafiə edərək şəhər əhalisini şirinləşdirilmiş su ilə təmin etmək və su kəmərinin çəkilməsini mümkün qədər ləngitməyə çalışırdılar.

XIX əsrin sonuna kimi Şəhər İdarəsi şəhərin su təchizatını yaxşılaşdırmaq üçün 320 min rubl pul xərcləmişdir. Lakin su təchizatı yaxşılaşmamış və problem isə həll edilməmiş qalırdı. H.Zərdabinin Bakı şəhər başçısına 1900-cü il 15 may tarixində göndərdiyi məktubunda bu barədə yazırdı:"Bakı şəhərində içməli su məsələsi demək olar ki, 20 ilə qədər müddətdir ki, uzanır. Hər dördilliyin əvvəlində Dumanın tərkibinin yeniləşməsi ilə bu məsələ gündəliyə çıxarılır, qızğın müzakirələr olur, müxtəlif axtarış, araşdırma, tədqiqat və s. işlərə məlum məbləğdə pul buraxılır və sonra da növbəti dördilliyin əvvəllərində yenidən səhnəyə çıxarılmaq və yenidən vəsait ayrılması üçün arxivə ötürülür" (137,s.887-888).

H.Zərdabinin şəhər başçısına ünvanladığı məktubunda göstərdiyi 320 min rubldan artıq xərclənən pul öz dövrünə görə olduqca böyük məbləğ idi. Lakin şəhər rəhbərliyi xərclənən bu pulun müqabilində şəhərin su ilə təchiz olunmasında heç bir dəyişiklik edə bilməmişdir. Şəhər İdarəsində əhalini içməli su ilə təmin etmək vəzifəsini icra edən ayı-ayrı vəzifəli şəxslərin bu işə laqeydliyi və etinasızlığı nəticəsində əhali sudan korluq çəkir, bu da əhali arasında müxtəlif yoluxucu xəstəliklərin yayılmasına gətirib çıxarırdı. H.Zərdabi kimi bir ziyalını da narahat

edən məsələ o idi ki, şəhərin su təchizatı üçün göstərilən məbləğ xərclənilib, amma əhaliyə hələ də su verilməyibdir. 320 min rubl məbləğində pulu isə maraqlı şəxslər su təchizatı adı ilə mənimsəyib və şəhər əhalisini isə susuz qoyublar.

Şəhər Duması və İdarəsi isə əhalinin içməli su ilə təchizi məsələsinə olduqca biganə yanaşırdı. Şəhər rəhbərliyinin su təzhizi kimi mühüm məsələyə məsuliyyətsiz və diqqətsiz yanaşmasını H.Zərdabi "Kaspi" qəzetinin 1899-cu il 27 iyun tarixli nömrəsində "Susuzluq" adlı məqaləsində yazırdı: "Bizdə nəinki içməyə, hətta küçələri sulamağa və yanğını söndürməyə su var.Uzun müddət bizi inandırırdılar ki, dəniz suyu ilə küçə sulamaq olmaz, amma indi artıq bir ildir bu su ilə sahilyanı küçələr sulanır və bundan şəhər camaatının sağlamlığına heç bir ziyan dəymir, hətta Duma küçələrin sulanması və yanğınların söndürülməsi üçün Şəhər İdarəsi dənizdən su kəmərinin çəkilməsi barədə qərar da qəbul etmişdir. Di gəl ki, Şəhər Duması üzvlərinin bu məsələyə dair dəfələrlə səslənən bəyanatlarına baxmayaraq, kəmərin tikintisinə hələ də başlanılmayıb. ...Deməli, bizdə ağacları sulamaq üçün su var, amma ondan istifadə etmirik, çünki bu, kimlərinsə xoşuna gəlmir... Kimsə eşidibmi ki, hansısa sahibkar öz şəxsi müəssisəsinin su tələbatını ödəyə bilmir? Bu sahibkarlar müəssisələri üçün kifayət qədər su əldə edə bilirlər, bunu o fakt da sübut edir ki, həmin ticarət müəssisələri gündən-günə irəliləyir və daha çox qazanır... İxtiyarlarında onlarca texnika və milyonlarca vəsait olduğu halda, bizim Şəhər İdarəsi nəinki su, hətta dəniz suyu əldə edə bilmirsə, bu o deməkdir ki, məsələnin kökündə başqa bir şey gizlənir" (166,1899.27.06. №135).

H.Zərdabi tərəfindən məsələyə belə ciddi yanaşılması səbəbsiz deyildir. Çünki şəhər rəhbərliyi əhalinin su təchizatı məsələsinə məsuliyyətsiz yanaşmasının nəticəsində şəhərdə suyun qiyməti kəskin surətdə bahalaşmışdır. Bu da su ticarəti ilə məşğul olan erməni su alverçilərinin maraqlarına tam cavab verirdi. Su çatışmazlığından məharətlə istifadə edən erməni su alverçiləri şəhərdə suyun qiymətini istədikləri kimi tənzimləyir,

bundan da yüksək mənfəət əldə edirdilər. Su qıtlığı üzündən bir vedrə suyun qiyməti 2-2,5 qəpiyə satılırdı, bu da maddi imkanı aşağı olan şəhər əhalisi üçün əlçatmaz olurdu. Onlar yenə də əvvəlki kimi istifadəsi yararsız hesab edilən quyu sularından istifadə etmək məcburiyyətində qalırdılar.

XIX əsrin sonunda şəhərdə uzun müddət su qıtlığının hökm sürməsi, kanalizasiya sisteminin olmaması, küçələrin natəmiz saxlanılması, küçələrdəki daşınmayan tullantıların sayının daşınan tullantıların sayından hər il çoxalması, və küçələrin su ilə yuyulmaması şəhərdə vəba və digər yoluxucu xəstəliklərin baş verməsi ilə nəticələndi.

Həmin dövrdə həmçinin Cənubi Azərbaycandan Bakıya taun xəstəliyi, 1892-ci ildə isə vəba xəstəliyi yayılmışdı.1892-ci ildə yayılan vəba epidemiyası Bakı şəhərinin daha çox fəhlələrin yaşadığı rayonlarını əhatə etmiş və ağır fəlakətə səbəb olmuşdur. Həmin epidemiyanın nəticəsi olaraq Bakı şəhəri və qəzasında 8.322 nəfər vəba xəstəliyinə məruz qalmış, onların da 4.143 nəfəri vəfat etmişdir. Epidemiyaya yoluxmayan əhali isə demək olar ki, şəhəri tərk etmişdir. Şəhərdə cəmi 10-15 min nəfər qalmışdı.

Bakı şəhərində vəba, taun və digər yoluxucu xəstəliklərin sürətlə yayılması mədən və zavod rayonlarında, həmçinin şəhərin kasıb təbəqəsinin məskunlaşdığı digər rayonlarda içməli suyun olmaması və antisanitariya şəraitinin hökm sürməsi ilə bağlı idi.

1893-cü ilə qədər Bakı şəhər əhalisi əsasən quyu və ovdan sularından istifadə edirdi. Quyu suları yüksək codluğa və acı-şor dadı ilə fərqlənərək, çox aşağı keyfiyyətli idi. Bu çatışmazlıqlarla yanaşı, quyu sularını tərkibində müxtəlif xəstəliklər törədən bakteriyaları olan çirkab sular və tullantılar da çirkləndirirdi. 1892-ci ildə Bakıda baş vermiş vəba epidemiyasının səbəblərindən biri də məhz şəhərin su təchizatının qeyri-qənaətbəxş olması ilə bağlı idi.

XIX əsrin sonunda şəhərdə, xüsusən də neft mədənləri ərazisində suyun çatışmazlığı səbəbindən əhalinin müvəqqəti

olaraq şirinləşdirilmiş su ilə təchizi məsələsi gündəmə gəldi. Belə bir vəziyyətdə Duma 1891-ci il 19 mart tarixində Şəhər İdarəsinə əhalini müvəqqəti olaraq şirinləşdirici su ilə təmin etmək üçün tədbirlər görməyi tapşırdı.

Bakıda 1892-ci il vəba epidemiyasının yayılması ilə bağlı şəhərin su quyuları istifadəyə yararsız hesab edilərək onların həm tibbi, həm də sanitar nöqteyi-nəzərdən tədqiq olunmasına başlanıldı. Bakı quberniya idarəsinin tibb şöbəsinin vəba epidemiyasının yayılması ilə bağlı 1893-cü ildə Bakı şəhərinin içməli su ilə təchiz edilməsi barədə hesabatında qeyd edirdi ki, Bakı şəhərində quyu sularından istifadə olunur və başqa su mənbəyi də yoxdur. Quyuların suyu duzludur. Bəzi quyularda duz o qədər yüksəkdir ki, hətta yerli sakinlər içməkdən belə imtina edir və onu dadsız adlandırırlar. Bundan əlavə, bu suyun özəlliyi ondan ibarətdir ki, təxminən bir gün çəllək və ya vedrədə qala bilər və bataqlıq kimi bir qoxu alır. Əvvəllər, Bakıda yoluxucu xəstəliklərə az rast gəlinirdisə, indi su çatışmazlığından hər il difteriya, skarlatin, vəba və tif xəstəliyinə yoluxma halları getdikcə çoxalır (154,s.338-339).

Vəba epidemiyasından sonra 1893-cü ildə Bakıda ilk dəfə dəniz suyunu duzsuzlaşdıran qurğu quraşdırılır. Bu şəhərdə birinci su təmizləyən qurğu idi. 1894-cü ilin yanvar ayından isə əhaliyə şirinləşdirilmiş su verilməyə başlandı. Şəhər İdarəsinə icazə verilirdi ki, əhalinin imkansız təbəqəsinə su vedrələrlə pulsuz verilsin. Lakin dəniz suyunun emalı olduqca böyük vəsait hesabına başa gəlirdi. 10-12 vedrə dəniz suyu emal etmək üçün 1 pud yanacaq sərf olunurdu. Şəhərə 200 min rubla başa gəlmiş şirinləşdirici aparatın istehsal gücü sutkada 30 min vedrə olan bu qurğudan alınan, dadsız və qoxulu suyun bir vedrəsi əhali üçün yarım, sənaye ehtiyacları üçün 1 qəpik nəzərdə tutulsa da, su qıtlığı üzündən dəfələrlə baha satılırdı. Beləliklə, alınan təmiz gəlir qoyulan vəsaiti 5 dəfə üstələyirdi. Bu məbləğ isə əsasən Şəhər İdarəsinin və bilavasitə suyun satışı ilə məşğul olan ayrı-ayrı erməni sahibkarlarının əlində cəmlənirdi. Bu təmizlənmiş suyun qırmızı-qonur rəngi, xoşagəlməz dadı ürək bulandırır, özü

də ilıq olub pis iy verirdi. Buna görə də, əhali əksərən quyu suyu işlədirdi. Quyu suyu da təhlükəli idi (122,s.20).

Bakı quberniya idarəsi tibb şöbəsinin quberniyada vəba epidemiyasının yayılması ilə əlaqədar olaraq 1893-cü ildə Bakı əhalisini içməli su ilə təchiz etmək haqqında hesabatında göstərirdi ki, 50 quyunun suyu üzərində tədqiqat aparılmışdır. Tədqiqat nəticəsində quyu sularında çöküntü, həll olunmuş üzvü maddələr, amonyak, azot və azot turşularının miqdarı müəyyən olunmuşdur. Bütün sularda az və ya çox çöküntü var. Həll edilmiş üzvü maddələrin miqdarı hər litr suya 18 ilə 56 mmqr arasında dəyişir, amonyakın yalnız izləri müəyyən edilmişdir. 19 quyuda azot və azot turşusunun izləri, 24 quyuda azot və azot turşuları aşkar edilib, cəmi 7 quyuda isə üzvü maddələrlə çirklənmə əlaməti demək olar ki, yoxdur (154,s.338).

1897-ci ildə Şəhər İdarəsi yanında Sanitar büro içməli su quyularının keyfiyyətini yaxşılaşdırmaq üçün bütün mümkün və qanuni tədbirlərin görülməsinə başladı. Bu məqsədlə şəhərdə mövcud olan bütün içməli su quyularının yenidən qeydiyyata alınması və satış məqsədli su quyularına xüsusi diqqət yetirilməsi qərara alındı. Sonra satış və içməli su quyularının kimyəvi analizinə başlandı, kimyəvi analizin nəticələrini aldıqdan sonra suyu yararsız olduğu aşkar edilən quyularla bağlı tədbirlərin görülməsinə başlanıldı.1897-ci ilin sonunda həkimlər tərəfindən quyuların qeydiyyatı tamamlandı və növbəti ilin yanvar ayında satış məqsədli su quyuları yenidən yoxlanıldı.1893-cü ildə tədqiqatı aparılmış 102-i satış, 58-i yeni, 44-ü köhnə olmaqla ümumilikdə 549 içməli su quyusu qeydiyyata alınmışdır ki, onlardan 11-i doldurma,18-i məişət, yalnız 15-i satış üçün nəzərdə tutulmuşdur.Yoxlama zamanı məlum olmuşdur ki, 1893-cü ildə qubernatorun göstərişi ilə doldurulması nəzərdə tutulmuş 25 quyudan yalnız 7-i doldurulmuşdur.Təsərrüfat üçün qalan 52 quyudan təkcə 18-dən əhaliyə su satılır.1898-ci ilin fevralından etibarən şəhər kimyaçısı S.Paşkovetski 24 quyunun suyunu analiz etdi. Nəticədə məlum oldu ki, onlardan yalnız 2-nin suyu məişətdə istifadəyə yararlıdır. Qalan 22-i nəinki içmək üçün,

hətta məişətdə istifadə üçün belə yararsızdır. Şəhərin baytar həkimi Y.Matyuşevski qeyd edirdi ki, əksər şəhər quyularının suyu hətta "heyvanların içməsi üçün yararsızdır" (3,f.389.s.4,iş 710.v.1-2).

1898-ci il iyulun 1-də Sanitar büronun təqdimatı ilə Şəhər İdarəsi suyu içməyə və məişətdə istifadəyə yararsız hesab edilən bütün quyuların ev sahiblərinin vəsaiti hesabına, aztəminatlı sakinlərin evlərində isə sanitar şəraitin yaxşılaşdırılması üçün ayrılan şəhər vəsaiti hesabına doldurulması barədə qərar verdi (3,f.389.s.4.iş 710.v.3-4).

Qeyd etmək lazımdır ki, ümumiyyətlə, 1908-1915-ci illər ərzinidə su quyularından götürülmüş 700 müayinədən 400-də vəba, qarın yatalağı, dizenteriya və digər kəskin bağırsaq xəstəliklərinin mənbəyi aşkar edilmişdir. Həmin dövrdə Bakı Şəhər İdarəsinin tibbi-sanitar bürosu nəzdində fəaliyyət göstərən sanitar-bakterioloji laboratoriya tərəfindən quyu sularında aparılmış 6.782 sayda su nümunələrinin 381-də kəskin yoluxucu bağırsaq xəstəlikləri çöpləri törədicilərinin əlamətləri, 19 ədəd Qriqoriyev-Şiqa bakterial dizenteriya və 33 ədədində isə vəba aşkarlanmışdır. 1916-cı ildə bir neçə il davamlı olaraq S.Slonevcki tərəfindən şəhər gigiyenik laboratoriyada aparılan kimyəvi və bakterioloji laborator müayinələrinin nəticəsində içmək məqsədi ilə istifadə olunan quyu sularının kəskin çirklənmələrə məruz qalmaları müəyyən edilmişdir. Məhz bu səbəbdən qarın yatalağı, dizenteriya və digər bağırsaq xəstəliklərinin baş vermə səbəblərindən birincisi kimi quyu sularının epidemioloji təhlükələrinin artması göstərilirdi (95,s.67-68).

XIX əsrin 90-ci illərində baş verən iqtisadi yüksəliş şəhərdə yeni-yeni sənaye müəssisələrinin meydana gəlməsinə səbəb olurdu. Bununla yanaşı olaraq şəhər əhalisinin də sayı durmadan artırdı.

Şəhərdə əhalinin sayının artması su təchizatının çatışmamasına səbəb olurdu. Həmin dövr üzrə şəhərdə 132 su taciri qeydə alınmışdı. Şəhərə yeni su kəmərinin çəkilməsinə maneəçilik törədənlər də elə onlar idi. Halbuki 1832-ci ildə çar

idarəsi tərəfindən tutulan ilk kameral siyahıda şəhərdəki tacirlər arasında bir su satıcısı qeydə alınmşdı (210,s.75).

Həmin dövrdə şəhərin su ticarəti erməni su işbazlarının əlində cəmlənmişdir. Onlar bütövlükdə su ticarətini inhisarlarında saxlayır və qiymətləri istədikləri kimi tənzimləyirdilər. Bu su tacirlərini şəhər əhalisini keyfiyyətli su ilə təmin etmək deyil, daha çöx gəlir götürmək maraqlandırırdı. Su ticarəti ilə məşğul olan ermənilər şəhər rəhbərliyi tərəfindən də müdafiə olunurdu.

O dövrün su şirinləşdirici qurğuları da mükəmməl olmadığından emal olunan su dadsız və qoxulu olurdu, əhali ondan içmək üçün istifadə edə bilmirdi. Digər tərəfdən yenicə emal olunmuş su yüksək temparaturaya malik olduğundan ağacların suvarılması üçün də yaramırdı. Buna görə də yeni qurğunun işə salınması şəhərin su təchizatında əhəmiyyətli dəyişiklik yarada bilmirdi (37,s.97).

XIX əsrin sonlarından başlayaraq idarə şəhər əhalisini içməli su ilə təmin etmək üçün ayrı-ayrı şəxslərlə müqavilələr bağlamağa başladı. Belə müqavilələrdən biri 1898-ci ilin yanvarında mühəndis N.Yaqn ilə bağlanmışdır Müqavilədə şirinləşdirici su aparatının istehsal gücünün sutkada 50 min vedrəyədək olmaqla tikilməsi və bir vedrə üçün suyun qiyməti 0,5 qəpik müəyyən edilirdi və s. (3,f.389.s.4.iş.710.v.3-4).

H.Zərdabi göstərilən bu müqavilə barədə "Kaspi" qəzetində yazırdı: "Bizim xadimlərimiz (şəhər idarəsini nəzərdə tutur) su kəməri tikilib başa çatana qədər, müvəqqəti fəaliyyət göstərəcək yeni su şirinləşdiricinin tikilməsi barədə mühəndis Yaqn ilə danışıqlar aparılması məsələsini qaldırdılar. Duma könülsüz olaraq, şirinləşdiricinin tikilməsinə icazə verdi və onun fəaliyyət müddətini 5 il müəyyən etdi ki, həmin vaxta qədər Kür-Bakı su kəməri hazır olacaq"(166,1901.28.03. №70).

Dumanın 1898-ci il fevralın 3-də keçirilən iclasında Su Təzhizatı Komissiyasının sədri, deputat X.Antonov məruzə ilə çıxış edərək bildirdi ki, su xətti şəhərə bir neçə milyona başa gəlsə belə, bu işi həyata keçirmək vacibdir. İçməli suyu Volqadan alanda bu su bizə vedrəsi ikidə bir qəpik baha başa

gəlir, amma Kür çayından alsaq, bunun vedrəsi bizə ucuz başa gələr. Şəhərin sulanmasına ayrılan suyun miqdarı çox azdır və bu su özü də pis sudur, qiyməti isə bahadır. Yaxşı olar ki, suyu bizə vedrəsi 0,5 qəpiyə satsınlar. Amma N.Yaqn isə suyun şəhərə 0,6 qəpikdən ucuz satılmayacağını qeyd edir. Çünki müvəqqəti də olsa şəhəri su ilə təchiz etmək vacibdir. Daha sonra X.Antonov deyir ki, şəhərin su ilə təchiz olunması ondan eyni zamanda bağçaların, bağların da sulanmasında istifadə olunmasına imkan verir. Küçələrin sulanmasında isə texniki sudan da istifadə etmək mümkündür (166,1898.5.02.№ 28).

X.Antonov həmin iclasda həmçinin məlumat verir ki, ikinci su şirinləşdiricinin qurulması ilə bağlı Krukdan təklif alıb. Amma məlumatlara görə Kruk şirinləşdirici qurğunu öz hesabına quracaq konsessiya sahibi deyil inşaatçıdır. O bir pud yanacaqdan neçə vedrə su alınması barədə göndərilən sorğu teleqramına belə cavab verməyib. Onda təcili teleqramda N.Yaqna da suyu 0,5 qəpikdən verməklə bağlı sorğu göndərilib, amma N.Yaqn məsələ ilə bağlı cavab verib ki, 0,6 qəpikdən aşağı qiymətə heç cür razılaşa bilməz. Şəhərin müvəqqəti suyla təchiz olunması zəruridir, kimlə olsa belə saziş imzalamaq lazımdır, əgər 0,5 qəpikdən alınmırsa, 0,6 qəpikə razılaşmaq olar (30,s.33).

Deputatlardan Benkendorf N.Yaqnın su şirinləşdirici qurğusunun əleyhinə çıxaraq bildirdi ki, N.Yaqnın işi uğursuzdur. Suyun dəfələrlə distilə olunması onun icadı deyil. Suyun bu cür alınma üsulu çoxdan məlumdur və ondan bütün okean gəmilərində istifadə olunur (166,1898.5.02.№ 28).

N.Yaqnın şirinləşdirici aparatının inşası getdiyi bir vaxtda Dumanın iclaslarında şəhərin Zuğulba suyu, yoxsa şirinləşdirilmiş su ilə təchiz edilməsi məsələsi geniş müzakirələrə səbəb oldu. Müzakirələr zamanı H.Z.Tağıyevin çıxışı olduqca diqqətəlayiq olmuşdur. Əslində onun çıxışında su probleminin dərhal həllinin vacibliyini, bu və ya digər layihənin uğuru və ya uğursuzluğu haqqında sonsuz və uzun-uzadı müzakirələrin şəhər əhalisi üçün ağır nəticələrini yaxşı dərk edən nüfuzlu şəxsin və

onun kimi düşünən ictimai xadimlərin mövqeyi əks olunmuşdu. H.Z.Tağıyev çıxışında bildirdi ki, su təchizatı kimi olduqca mühüm bir iş daim ləngidilir. Bunun da səbəbi odur ki, şəhərin maraqlarından daha çox ayrı-ayrı şəxslərin maraqlarına üstünlük verilir, nəticədə isə şəhərə əhəmiyyətli dərəcədə maddi ziyan dəyir. Komissiyanın təklif etdiyi şirinləşdirilmiş su öz keyfiyyətinə görə Zuğulba suyundan qat-qat üstündür.Söylədiklərini əsaslandırmaq üçün H.Z.Tağıyev öz təcrübəsindən misal gətirərək deyir ki, tikdirdiyi toxuculuq fabrikinə Zuğulba suyunu çəkdirmək onun üçün daha əlverişli olsa da, fabrikdə su şirinləşdirici aparat quraşdırıb, çünki istəmir ki, Zuğulba suyundan istifadə edən fəhlələri xəstəliklərə tutulsunlar (2,f.50.s.1.iş. 79.v.143).

Uzun sürən müzakirələrdən sonra Duma Su Təchizatı Komissiyasına həkimlər də cəlb edilməklə, həm Zuğulba, həm də şirinləşdirilmiş suyun sanitar baxımdan tədqiqi və müqayisəsinin aparılması göstərişinin verilməsi barədə qərar qəbul edir.

Duma 1898-ci il 17 mart tarixli iclasında Su Təchizatı Komissiyanın hesabatını dinləyir. Deputatların müzakirəsinə iki vacib təklif çıxarılmışdı. Birinci təklif Peterburqdan mühəndis N.Yaqn irəli sürmüşdü, o özünün icad etdiyi su aqreqatı yolu ilə suyu şirinləşdirmək (duzdan təmizləmək) istəyirdi. İkinci təklif Zuğulba qəsəbəsindəki quyulardan şəhərə su kəmərinin çəkilməsi idi. Bu təklifi isə erməni sahibkar Artyom Adamov vermişdi. Deputatlar müzakirə edib, suyun keyfiyyətini və tərkibini, dəyərini nəzərə alaraq daha sərfəli olananı seçməliydilər. Bu məsələnin altında ciddi kommersiya məsələləri dururdu, buna görə də mübahisələrlə yanaşı, iri müəssisə sahibləri və bəzi deputatların da maraqları burada toqquşurdu. Duma uzun müddət məsələylə bağlı yekdil fikrə gələ bilmədi.

Dumanın 1898-ci il 26 may tarixli iclasında X.Antonov çıxışında məlumat verdi ki, komissiya Zuğulbadan suyun çəkilməsi layihəsini qəbul etmir və müvəqqəti su təchizatı kimi iki variant üzərində dayanır:1)N.Yaqnın şirinləşdirici aparatının inşası və mövcud aparatın məhsuldarlığının artırılması;2) Kür

suyunun dəmir yolu vasitəsilə gətirilməsi (2,f.50.siy.1.iş 79.v.313).

1898-ci il noyabrın 28-də əhalini içməli su ilə təchiz etmək üçün Şəhər İdarəsi "Artur Koppel" şirkəti ilə gündəlik istehsal gücü 50 min vedrə olan yeni şirinləşdirici su qurğusu tikmək haqqında müqavilə bağlayır. Yeni şirinləşdirici aparat 1899-cu il avqustun 10-da fəaliyyətə başladı, 1 il sonra şəhərə sutkada 70.000 vedrədən az olmayaraq içməli su verməli və vedrəsi 0,5 qəpikdən satılmalı idi. Müqavilənin şərtlərinə görə ilkin olaraq Bakıda gündə 30 min vedrə olan dəniz suyunun duzsuzlaşdırıcı qurğusu tikilmişdir. Daha sonra "Artur Koppel" şirkəti tərəfindən sahildə bir neçə yerdə quraşdırılan dəniz suyunu şirinləşdirici qurğularla əhaliyə ödənişlə içməli su verilirdi. Bu qurğularda təmizlənən su Çəmbərəkənddəki supaylayacı rezervuarlara, oradan isə əhaliyə vedrə və çəlləklərdə satılması üçün quraşdırılmış 16 ədəd su köşklərinə və 300 sayda fərdi evə verilməli idi. Bu qurğularda içməli suyun alınması yüksək temperaturda (350 c) baş verdiyindən istehsalat yerində suyun tərkibinin keyfiyyət göstəricilərində orqanizm üçün heç bir zərərli maddələr olmasa da, suyun nəqlində və çatdırılmasında sistematik olaraq çirklənmə əmələ gəlirdi. Buna səbəb həmin suların Bakının iqliminə uyğun soyudulmaması idi, bu da onun əsas çatışmazlıqlarından olmaqla, suyun tərkibində əsasən yay aylarında xəstəlik törədən bakteriyaların artmasına səbəb olmaqla, bir çox hallarda içməyə yararsız hesab olunurdu (95,s.66).

İstər N.Yaqnla, istərsədə "Artur Koppel" şirkəti ilə bağlanan müqavilə şəhər əhalisinin ancaq təxminən 53.846 nəfərinin su ilə təmin edilməsinə imkan verirdi. Şəhər isə suyun müqabilində istehsalçılara sutkada 500 rubl pul ödəməli idi. Bu da yenə şəhər əhalisinin suya olan tələbatını ödəmirdi. Çünki həmin vaxt şəhərə sutkada ən azı 145.600 vedrə və ya 1.792.000 litr su tələb olunurdu.

Bakı şəhərinin sabiq başçısı A.Novikov "Şəhər başçısının qeydləri" kitabında bu barədə yazırdı: "Həmin aparat mənim Bakıya gəlişim vaxtı fəaliyyət göstərirdi. Yayda su ılıq idi və

sərinlik gətirmirdi. Həm də tərkibində az da olsa, lakin dözülməz miqdarda mis var idi. Suda misin olması şirinləşdirici aparatın çatışmazlıqları ilə, dəmirin olması isə şəhər şəbəkəsinin yararsızlığı və içəridən pasla örtülməsi ilə əlaqədar idi. Bəzən su tamamilə qırmızı olurdu. Şəhər budkalarında filtrlər yox idi. Təbii ki, əhali narazı idi və ilk növbədə su tələb edirdi" (27,s.54).

H.Zərdabi "Kaspi" qəzetində su epopeyasına dair məqaləsində isə yazırdı: "Məlumdur ki, bir ildən də qabaq şirinləşdirilən dəniz suyuna bal da qatıldığı müəyyən edilmişdi və o vaxtdan da belə bir mübahisə davam edir ki, bu suya qatılan balın qədəri "Artur Koppel və K"nin və cənab Yaqnın təsdiq etdikləri kimi, həqiqətənmi onu içən insanların sağlamlığına ziyan törətmir, yoxsa törədir?

Məqalədə göstərilir ki, indi yay gəlir və istifadə edilən suyun həcmi artırılmalıdır, amma bununla belə, hazırda şirinləşdirici nasaz vəziyyətdədir, orada iş axsayır və gözəl günlərin birində şəhərimiz susuz qala bilər.

Müqaviləyə görə Şəhər İdarəsi,"Artur Koppel və K"-nə şəhər üçün sutka ərzinidə 50 min vedrə şirinləşdirilmiş su götürəcəyini vəd etmişdir, başqa sözlə desək, istifadə olunsa da, olunmasa da, idarə hər sutka üçün cəmiyyətə 50 min vedrə suyun pulunu ödəməlidir.Amma əgər Şəhər İdarəsi sutkada 50 min vedrədən artıq su istəyərsə, cəmiyyətin borcudur ki, o halda şəhərə sutka ərzinidə ötürülən suyu 70 min vedrəyə qədər artırsın, həm də bu zaman ödəniş, götürülən suyun qədərinə əsasən aparılacaq.

Şəhər İdarəsi "Artur Koppel və K"-nə su şirinləşdiricini öz sistemləri əsasında inşa etmək imkanı vermişdi və həm də bu cəmiyyətə icazə vermişdi ki, şəhərin əvvəlki, köhnə su şirinləşdiricinin lazım olan hissələrindən pulsuz olaraq, istədiyi qədər istifadə etsin. Mühəndis Yaqn da məhz həmin köhnə şirinləşdiricinin su qülləsinə gedən borulardan istifadə etmişdi.

İndi aydın olur ki, bu borular gödək imiş və buxtada su azalandan bəri, şirinləşdirici qurğular suyu lap sahilin özündən

götürür və bu su da çox çirklidir. Bu səbəbdən də şirinləşdirilən suyun qoxusu da, dadı da dəyişmişdir. Həm də, su şirinləşdirici vəd verdiyindən də xeyli az su hasil edir.

"Artur Koppel və K" cəmiyyəti cənab Yaqn ilə birlikdə tələb edir ki, Şəhər İdarəsi həmin su borusunu körfəzin daha dərin yerinə tərəf uzatsın və bu işə indiyədək 10 min rubla qədər pul xərclənib.

Şəhər İdarəsi isə qüvvədə olan müqaviləyə əsasən tələb edir ki, "Artur Koppel və K" və cənab Yaqn müqaviləyə əməl etsinlər və əgər su qülləsindən gələn borular lazımi vəziyyətdə deyilsə, onlar həmin boruları öz vəsaitləri hesabına yararlı hala gətirsinlər. Şirinləşdiricinin sahibləri bu tələbi yerinə yetirməkdən imtina edirlər və Şəhər İdarəsini şəhərə istifadə üçün yararsız su ötürəcəkləri ilə hədələyirlər" (166,1902.8.05.№100).

Dumanın 1899-cu il 12 yanvar tarixli iclasında H.Zərdabi sədrə N.Yaqnla müqavilənin bağlanması məsələsinin nə yerdə olması barədə sual verir. X.Antonov isə cavabında bildirir ki, komissiyaya 8 təklif-layihə verilib. Biz hələlik onların içərisində "Bütner və Deyçelin" layihəsini ən faydalı hesab edirik. Amma bu layihədə də düzəlişə ehtiyacı olan qüsurlar var. Bu zaman H.Zərdabi ideal layihəni işləyib hazırlamağa və sonra "Bütner və Deyçel" də daxil olmaqla hamının layihəsini müzakirəyə verməyi təklif etdi.

Ə.M.Topçubaşovda iclasda Su Təchizatı Komissiyasının mövqeyini kəskin tənqid edərək çıxışında göstərdi ki, əgər komissiya əvvəlcə ideal layihəni tərtib edib, sonra müsabiqə elan edəcəksə, onda nə üçün "Bütner və Deyçel"şirkətini müsabiqədən kənarda saxlayır? Daha sonra O, çıxışına davam edərək qeyd etdi ki, xatırlayıram ki, komissiya özü hətta bu layihədə bəzi bəndlərə əlavə və dəyişikliyin edilməsini zəruri saymışdı. Məsələn, su kəməri borularının hansı materiallardan olacağı göstərilməyib. Bu isə çox vacibdir. Çünki su kəməri keyfiyyətsiz borularla da çəkilə bilər. Bu iş 10 min rubl almaq üçün edilirsə, belə yanaşma şəhərə qarşı ədalətsizlikdir. Ə.M. Topçubaşov çıxışının sonunda təklif etdi ki, bir halda ki, ko-

missiya öz layihəsini hazırlamağı və müsabiqə elan etməyi qərara alıb, onda “Bütner və Deyçel”şirkətinin təklifindən imtina etsin və aldığı girovu da qaytarsın. (166,1899.14.01.№ 10).

Dumanın 1899-cu il 17 mart tarixli iclasında deputatlara məlumat verilir ki, hazırda şəhərdə fəaliyyət göstərən şirinləşdirici qurğunun təmizlədiyi su qətiyyən kifayət etmir. Bu səbəbdən, kifayət qədər suyun çatdırılması üçün şəhər başçısı Qafqaz dəmiryollarının rəisi ilə suyun sisternlərdə çatdırılması barədə danışıqlar aparmaq üçün Tiflisə gedib. Artıq şəhər başçısı teleqram vuraraq bildirib ki, cənab Vedenev şəhərə sutkada 5 min vedrə suyun təxminən yarım qəpikdən verməsi ilə razılaşıb. Amma bu həcmdə su da şəhər üçün kifayət deyil, buna görə də Su Təzhizatı Komissiyası ilə birgə yollar axtarılır (166,1899.19.03.№ 62).

Həmin iclasda X.Antonov məruzə edərək bildirdi ki, o, gəmi sahibləri sindikatının sədri ilə danışıqlar aparıb, öz növbəsində, sədr də gəmi sahiblərinin fövqəladə iclasını çağırıb və onlar Bakıya su nəqli ilə bağlı məsələni müzakirə ediblər. Nəticədə ona-X.Antonova cavab verilib ki, sindikat Kür çayının və ya hətta Volqanın mənsəbindən istənilən miqdarda su çatdırmağa hazırdır. Birinci halda su 0,7 qəpiyə, ikinci halda vedrəsi 1 qəpiyə başa gələcək. Sindikatla yekun razılaşma üçün həm Kür, həm də Volqa çayının mənsəbindən sınaq reysləri etmək lazım gələcək. Bu reysləri sindikat öz hesabına yetirməyə hazırdır, bir şərtlə ki, şəhər yalnız yanacaq pulunu ödəsin. Bu məsələ ilə bağlı iclasda mübahisələr başlayır. Dumada deputatların nəzərinə çatdırılır ki, şəhərdə su yoxdur, buna görə də hansı şərtlərlə və hansı keyfiyyətdə su təklif etsələr, almaq lazımdır. Erməni deputat Qukasov çıxışında bildirdi ki, artıq şəhərdə su vedrəsi 5 qəpikdən satılır, şirinləşdirici su qurğusunda kiçik bir nasazlıq ortaya çıxarsa, şəhərdə böhran vəziyyəti yarana bilər (166,1899.19.03.№ 62).

Dumanın 1899-cu il 29 aprel tarixli iclasında Şəhər İdarəsinin üzvü V.Smolenski məruzə edir ki, Su Təzhizatı Komissiyası su kəmərinin çəkilişini dayandıraraq onu konsessiya

verməklə kifayətlənib və eyni zamanda “Kür-Bakı” və “Samur-Bakı” su kəməri ilə bağlı tədqiqatlara başlamağa, bütün bunlar üçün texniki layihələr və smetalar, eyni zamanda kanalizasiya layihəsini tərtib etməyi qərara alıb. O, su kəmərinin mütləq təsərrüfat üsulu və kanalizasiya ilə birlikdə qurmaqda israr edir. Tədqiqat və layihələr üçün 70 min rubl dəyərində borc tələb olunur. Layihələrin tərtib olunması üçün V.Smolenski Varşava su boru kəmərinin qurucusu U.Lindleylə və ya layihələrin icrası tapşırıla biləcək başqa bir şəxslə razılığa gəlməyi təklif etdi (166,1899.1.05.№ 91).

Şəhər İdarəsi və Komissiya eyni zamanda bir neçə mütəxəssisə müraciət etməyi və bir neçə təklif arasından sərfəli layihəni seçməyi əlverişli hesab etdi. Bununla da, su məsələsi yenidən təxirə salındı. Bu məsələ ilə əlaqədar olaraq H.Zərdabi iclasda Şəhər İdarəsi və Komissiyanı neçə ildir ki, şəhəri su məsələsi ilə bağlı ələ salmaqda və heç cür qəti qərara gələ bilməməkdə qınadı.

Şəhər İdarəsini üzvü Əlibəyov isə çıxışında qeyd etdi ki, layihələrin hazırlanması üçün pul ayırmaq lazımdır, istənilən halda həm təsərrüfat üsulu, həm də konsessiya üsulu zamanı layihələrin hazırlanması vacibdir. Konsessiya üsulu az sərfəlidir, üstəlik, hakimiyyət buna icazə verməyəcək, çünki şəhərə su kəmərinin çəkilməsini, konsessiya vermək icazəsi barədə müraciətini motivləşdirəcək məlumatlar yoxdur (166,1899.1.05.№ 91).

Həmin iclasda Duma deputatlarının əksəriyyəti şəhərə su kəmərinin konsessiya üsulu ilə deyil, təsərrüfat üsulu ilə çəkilməsinə üstünlük verdiklərini bildirdilər. Hətta Dumanın erməni deputatı Qukasov da kəmərin çəkilməsində təsərrüfat üsuluna üstünlük verdiyini bildirdi.

Duma həmin iclasında su kəməri layihəsinin hazırlanmasına şəhərin ehtiyat kapitalı hesabından 70 min rubladək pul ayrılması barədə qərar qəbul etdi (166,1899.1.05.№ 91).

“Kaspi” qəzetinin 1899-cu il 2 iyun tarixli nömrəsində H.Zərdabi “Şərqi Zaqafqaziyada suya ehtiyac” məqaləsində

yazırdı:“Yay gəlir mərkəzi Bakı da daxil olmaqla bütün Şərqi Zaqafqaziyada yenə də su məsələsi gündəmə gəlir. Hələlik Bakının su problemindən danışmayacağıq, əvvəla, bu məsələ öz xüsusiyyətlərinə görə istisna təşkil edir, ikincisi, bu barədə, onsuz da, çox danışıblar, səmərəsi olmayıb, yazmaq da heç nəyi dəyişməyəcək, çünki məsələnin həlli tapşırılan adamlar da iş barədə elə çox danışır, az düşünürlər” (166,1899.2.06.№ 114).

Müəllif bu məqaləsində Bakı su kəmərinin çəkilməsində məsul olan Şəhər İdarəsinin üzvlərini məsələ ilə bağlı daha çox danışmaqda və daha az iş görməkdə tənqid edirdi.

Dumanın 1899-cu il 18 oktyabr tarixli iclasında şəhərin şirinləşdirici qurğusu fəaliyyətini dayandırdığından H.Zərdabi Şəhər İdarəsinə Kür və Volqa suyu ilə şəhərin müvəqqəti təchiz olunması məqsədilə tənzimləyicinin yanında quraşdırılan qurğuların taleyinin necə olması barədə sorğu ünvanlayır. Dumanın qərarına görə, bu qurğular satılmalı, əldə olunan pul isə ehtiyat kapitala yönəlməli idi. H.Zərdabinin sorğusuna cavab olaraq bildirilir ki, həmin qurğular satılmayıb, çünki onlardan şəhərin suvarmasında istifadə edilməsi nəzərdə tutulub (166,1899. 21.10.№ 227).

Şəhər İdarəsinin bu cavabına etirazını bildirən H.Zərdabi isə qeyd edir ki, şəhərin su təchizatına 54 min rubl ayrılmışdı. Kür və Volqa suyundan gələn gəlirdə ehtiyat kapitala yönəlməliydi. Amma Şəhər İdarəsi bu suların satılması üzrə ayrıca hesab aparmadı, onu təmizlənmiş suyla qarışdırdı və satışdan qazanılan məbləği şəhərin gəlirlərinə aid etdi, ehtiyat kapitalına bir qəpik də daxil olmadı (166,1899.21.10.№ 227).

Bu çıxışı ilə H.Zərdabi şirinləşdirici suyun satışından əldə edilən gəlirlərin şəhərin gəlirlərinə aid edilməsini tənqid edirək Şəhər İdarəsi tərəfindən yol verilən saxtakarlığı kəskin tənqid edirdi.

Dumanın 1902-ci il 29 yanvar tarixli iclasında “Artur-Koppel” və “Yaqn cəhmdar cəmiyyəti” ilə müqavilə layihəsi müzakirə edildi və şirinləşdirilmiş suda misin zərəri barədə məlumatlar olduğuna görə qəbul edilmədi. Aparılan araşdırma-

dan məlum olmuşdur ki, tərkibində nə qədər misin olmasından asılı olmayaraq o su şübhəsiz ziyanlıdır (166,1902.1.01.№ 26).

Dumanın 1902-ci il 7 iyun tarxli iclasında şəhərlə "Artur Koppel cəmiyyəti" arasında şəhəri şirinləşdirici su ilə təmin edilməsi barədə 1898-ci ildə imzalanmış müqavilənin dəyişdirilməsi barədə məsələ müzakirəyə çıxarıldı. Keçən il müqavilə imzalanmadı, çünki şəhər suda mis duzların tamamilə təmizlənməsini tələb edirdi, "cəmiyyət" isə buna əməl edə bilməmişdi. Su Təchizatı Komissiyasının 6 iyun iclasında iştirak edən "cəmiyyət"in təmsilçisi və şəriki N.Yaqn bəyan etdi ki, hazırda "cəmiyyət" şirinləşdirilımiş suda qurğuşun, arsen, qalay və mis kimi zəhərli metalların tamamilə olmadığına təminat verərək və ümumiyyətlə, şirinləşdirilmiş suyun mütləq tərkibini açıqlaya bilər:1 litr suda 20 mm-dək əhəng (süni şəkildə daxil edilir), 25 adda təbii maddə var, başqa mineralların, eyni zamanda xlorun, sulfat və azot turşuların miqdarıda müəyyən edilib. Su oksigenlə yetərincə zəngin olmalı və onun temperaturu soyuducudan çıxarkən 12 dərəcədən yüksək olmamalıdır. Şirkətin üzərinə götürdüyü öhdəliklər sayəsində komissiya özünün ötən il işləyib-hazırladığı əsaslarla cəmiyyətlə yeni müqavilə imzalamağı mümkün hesab edir və Şəhər İdarəsi müqavilədəki 4 bənddə dəyişiklik edilməsini arzuolunan hesab edir:1)şəhərin su sərfinin mütləq minimumu-gündə 50 min vedrə və şirinləşdirici qurğunun məhsuldarlığının minimumu-gündə 70 min vedrə olmalı; 2) müqavilənin müddəti dəqiqləşdirilməli; 3) müqavilə cari ilin yanvarından və ya iyulun 1-dən imzalanmalı; 4)"Artur Koppel cəmiyyəti"nin müqaviləni icra etmədiyi təqdirdə şəhər hüququnda olduğu addımların gerçəkləşdirilməsi üçün müqavilənin dəyişdirilməsini tələb edə bilər (166,1902. 9.06.№ 123).

Müzakirələrdə çıxış edən H.Zərdabi Dumanın diqqətinə çatdırır ki, indi-5 illik müddət bitəndən sonra köhnə müqaviləyə əsasən vedrəsinə 0,5 qəpik ödəmə başlamalı olduğu halda, yeni müqaviləyə görə, 5 il boyunca ödəmə 0,7 qəpik müəyyən olunur. Daha sonra o diqqəti N.Yaqnın açıqlamasına çəkir-onun

şirinləşdirici suya mis duzu buraxmamağın sirrini tapması barədə bəyanatı, guya indi daha təmiz su verən üsulun tədqiqatı, axtarışı ilə əlaqədar olduğu üçün vaxtın uzadılmasına səbəb olmuşdur.

Deputat S.Tağıanasov müqaviləyə qarşı çıxaraq bildirdi ki, cəmiyyətin müqaviləni icra etmədiyi təqdirdə yüksək məbləğdə cərimə olunması uydurma bəhanədir, şəhər onu tətbiq edə bilməyəcək və bunu bilən "cəmiyyət" burada heç bir təhlükə görməyəcək. Ehtimal ki, suyun keyfiyyəti və ya kəmiyyəti ilə bağlı müqaviləyə əməl olunmayacağı təqdirdə şəhər suyu istədiyi mənbədən ala və bunun qarşılığını "Artur Koppel" şirkətinin hesabına-vedrəsinə 5 qəpikdən çox olmayaraq-ödəyə bilər. Amma bu şərtlər daxilində, Kür və Volqa çayından su nəqlini gerçəkləşdirməyin mümkün olmadığı halda, şəhər şirinləşdiricinin keyfiyyətsiz suyundan istifadə etməyə məhkumdur və onu cəriməmələmək imkanı yoxdur.

İclasda çıxış edən deputat Antonov isə deyir ki, şəhər Volqadan içməli su aldığı vaxt suyun vedrəsi baha başa gəlmirdi. Kürdən, yəqin ki, daha ucuz başa gələcək, buna görə də maksimal qiymət olan 5 qəpikdən qorxmaq və bununla bizi qorxutmaq lazım deyil, şəhər heç vaxt suya 5 qəpik xərcləməli olmayacaq.

Duma aparılan müzakirələrin nəticəsində Şəhər İdarəsinə "Artur Koppel cəmiyyəti" ilə Su Təzhizatı Komissiyasının ötən il işləyib-hazırladığı müqaviləni imzalamaq barədə qərar qəbul edir (166,1902.9.06.№ 123).

A.Novikov göstərilən kitabında bu barədə yazırdı:"Bizim Artur-Koppel firması ilə şəhərə şirinləşdirilmiş suyun gətirilməsinə dair müqaviləmiz var idi. Müqavilənin vaxtı iki ildən sonra bitirdi. Su qənaətbəxş deyildi. Həddindən artıq ılıq, qazsız olan bu suyun tərkibində mis vardı. Koppel firmasının nümayəndələri kontraktın müddətinin uzadılması şərti ilə suyu düzəltməyi, onu daha da təmizləməyi, qazlarla zənginləşdirməyi, misin xırda izlərini belə məhv etməyi, habelə zavodun

məhsuldarlığını artırmağı təklif edirdilər. Lakin heç bir razılıq əldə edilmədi” (27,s.58).

1902-ci il 30 noyabr tarixində bağlanan yeni müqaviləyə əsasən “Artur Koppel” cəmiyyətinə məxsus şirinləşdirici aparatın istehsal gücü sutkada 60 min vedrəyə çatdırılmışdı. Lakin bu da əhalinin suya artan tələbatını ödəməyə kifayət etmirdi. Çünki həmin ildə şəhərə 186.921 vedrə və ya 2.300.576 litr su tələb olunurdu.

Dumanın 1908-ci il iyunun 5-də keçirilən iclasında şəhər əhalisini içməli su ilə təchiz etmək üçün İ.Hacıyev çıxışında bildirdi ki, bizə ucuz qiymətə su lazımdır. Əgər biz “Kür suyu” cəmiyyəti ilə razılaşsaq, onda heç vaxt su ala bilməyəcəyik. Bu çıxışı ilə o, “Kür suyu” cəmiyyətinin əhaliyə baha qiymətə su satmasının əleyhinə çıxdı (2,f.50.s.1.iş.142.v.6).

“Kür suyu” cəmiyyəti 1908-ci ildə Saruxanov tərəfindən yaradılmış və Kür çayından yelkənli gəmilərlə şəhərə gündəlik 20 min vedrə su çatdırılırdı. Bu su istər təmizlənmiş, istərsə də təmizlənməmiş halda su xətləri vasitəsi ilə verilirdi. Sənaye obyektlərinə verilən Kür suyu dəniz yolu ilə iri ölçülü çənlər vasitəsi ilə gətirilir, anbarlara tökülür, bir qisim su təmizlənmiş halda, bir qismi isə Amerikanın “Cuel” firmasının mexaniki süzgəclərində təmizlənməklə əhaliyə çatdırılırdı (136,s.303).

“Kür-Bakı” su kəmərinin çəkilməsi baş tutmasada müxtəlif yollarla daşınan Kür suyu Bakı əhalisinin suya olan tələbatını müəyyən qədər ödəmişdi.

Dumanın 1908-ci il 30 dekabr tarixli iclasında deputatlardan N.Sadıxov, H.Həsənov, İ.Hacıyev, Ə.Əhmədov və Y.Əhmədov çıxış edərək əhalinin içməli su ilə təchiz etmək üçün tədbirlər görülməsini tələb etdilər. Bu iclasda yenə də əhalini Zuğulba suyu ilə təchiz etmək məsələsi müzakirə edildi. Zuğulba suyunda aparılan son kimyəvi və bakteroloji tədqiqat göstərir ki, bu su içmək üçün yararsızdır. Bununla əlaqədar olaraq iclasda çıxış edən Ə.Əhmədov Zuğulba suyundan imtina edilməsini və əhalinin içməli su ilə təchiz etmək üçün “Zuğulba suyu” şirkəti ilə müqavilə bağlanılmamasını təklif etdi. İclasda

çıxış edən Y.Əhmədov isə Zuğulba suyu ilə müqayisədə Kür suyunu müdafiə edərək qeyd etdi ki, bu sudan minlərlə Tiflis Dəmir yol işçiləri istifadə edirlər. Ona görə də Kür suyuna pis münasibət bəslənilməməlidir (166,1908.№176).

Şəhər Dumasının 1914-cü il 25 fevral tarixli iclasında Şəhər İdarəsinin üzvü, deputat M.Hacınski əhalinin içməli su ilə təchizi haqqında məruzə etdi. O, bildirdi ki, "Artur Koppel" cəmiyyəti "Şollar-Bakı" su kəməri çəkilənədək əhalinin su təchizi ilə bağlı şəhərlə yeni müqavilə bağlamağa razıdır. Bu məsələ ilə əlaqədar olaraq Duma iclasında çıxış edən A.Aşurov sazişə yaxşı münasibət bəslədiyini bildirdi. O, qeyd etdi ki, hətta 1916-ci ilin ortalarınadək Şollar suyu olmayacaq və o vaxtadək yeni müqavilənin bağlanması lazımdır. Nəticədə, Şəhər İdarəsinin təklifini Duma yekdilliklə qəbul etdi (166,1914.№ 47).

Göründüyü kimi "Şollar-Bakı" su kəməri istifadəyə verilənədək Bakı şəhərinin su təchizatı əsasən dəniz suyunu şirinləşdirən "Artur Koppel" şirkətinin (sutkada 90.000 vedrə); 1908-ci ildən Saruxanovun rəhbərlik etdiyi "Kür suyu" cəmiyyətinin (sutkada 20. 000 vedrə); Adamov qardaşlarının rəhbərlik etdiyi "Bakı gəmi sahibləri" sindikatının (sutkada 30. 000 vedrə); və 1908-ci ilə qədər isə A.Melikovun "Zuğulba" su kəməri şirkətinin (sutkada 45. 000 vedrə) əlində cəmləşmişdir.

Bu su mənbələri şəhərə ümumilikdə orta hesabla sutkada təxminən 185.000 vedrə su verirdi. Lakin bu da şəhər əhalisinin içməli suya olan tələbatını ödəyə bilmirdi. Çünki 1913-cü ildə şəhərə sutkada təxminən orta hesabla 279.073 vedrə və ya 3.434.752 litr su tələb olunurdu.

Bakının mədən rayonlarının sənaye müəssisələrini isə ermənilərə məxsus "Aramzad", P.Qukasyanın "Kaspi boru kəməri" və X.Şahgedanyanın "Bibi-Heybət su kəməri" şirkətləri dəniz suyu ilə təmin edirdi (113,2017.20.01.№17).

Bakı Şəhər Duması şəhər əhalisini içməli su ilə təchiz etməklə yanaşı, həmçinin şəhərə uzun müddətli və dayanıqlı su kəmərinin çəkilməsi istiqamətində də geniş fəaliyyət göstərirdi.

Belə ki, XIX əsrin 80-ci illərində Bakıda əhalinin artması, dəmir yol xəttinin çəkilməsi və neft sənayesinin sürətli inkişafı su kəmərinin çəkilməsini zəruri məsələyə çevirmişdi. Belə bir şəraitdə iri burjuaziyanın özü də şəhərə su kəməri çəkilməsində maraqlı idi. Hətta bu dövrdə şəhərə su kəməri çəkmək üçün H.Z.Tağıyevin təklifi əsasında layihə tərtib etmək haqqında müsabiqə də elan edilmişdir. H.Z.Tağıyev müsabiqədə qalib gələcək ən yaxşı layihə üçün sanballı mükafat fondunun yaradılmasına kifayət qədər pul da ayırmışdı. Müsabiqə ilə əlaqədar olaraq Kür, Araz, Samur, Zuğulba, Altıağac və Göygöl mənbələrindən şəhərə su kəməri çəkmək üçün Şəhər İdarəsinə 40-dan çox layihə təklif olunmuşdur. Lakin Duma bu təkliflərin hamısını rədd etdi. Çünki təklif olunan layihələrin reallaşması böyük xərc tələb edirdi (37,s.96).

1870-ci ildə Bakı qubernatoru A.Kolyubakinin sərəncamı ilə mühəndis-hidravlik N.Şibanov Zuğulbaya göndərilmişdir. N.Şibanov Zuğulbada suyun keyfiyyəti və kəmiyyətini yoxlamış və bu barədə qubernatora yazılı məlumat vermişdi. Bu məlumatda deyilirdi ki, Zuğulbada bir neçə yerdə qayadan su çıxıb və dənizə axır. Buradan sutkada 26.849 vedrə su almaq mümkündür (74,s.169).

Duma 1880-ci il mayın 20-də su mənbələrinin axtarışı üzrə birinci komissiyanı seçdi. Zuğulba su mənbələrini araşdırmaq üçün təyin edilən bu komissiyanın tərkibinə deputatlardan H.Z.Tağıyev və P.Nikitin, şəhərin texnik və mütəxəsisləri P.Semyannikov, V.Uspenski və L.Batseviç, kimyaçı V.Eyxler daxil edilmişdi (27,s.16). Komissiya 1881-ci il 2 avqustda su mənbələrinə baxışı həyata keçirir. Komissiyanın geoloq və mühəndisləri Zuğulba mənbələrindən çıxan suyun şəhərə gətirilməsinin lüzumsuz olduğu və şəhərin lap yaxınlığında belə su mənbələrinin olduğu qənaətinə gəlirlər.

Duma 1881-ci ilin avqustunda N.Şibanovun tədqiqatlarına yenidən qayıtmaq, Buzovna kəndi yaxınlığında Zuğulba mənbəyini yenidən nəzərdən keçirmək haqqında qərar qəbul etdi. Müəyyən edilir ki, Zuğulba suyu bir neçə qaynaqlardan bəh-

rələnərək sahil boyu yolla dənizə tökülür. Lakin bu su mənbəyinin münasib yerdə olmaması və şəhərdən uzaq məsafədə yerləşməsi onun şəhərə gətirilməsini çətinləşdirirdi. Digər tərəfdən bu mənbənin su ehtiyatları kifayət qədər deyil. Zuğulba suyu cod idi və hesablamalara görə bu kəmərin tikintisi şəhərə 500 min rubla başa gəlməli idi (95,s.64).

Göstərilən bu səbəblərə görə həmin dövrdə Zuğulbadan şəhərə su kəməri çəkilməsi baş tutmadı.

1881-1889-cu və 1896-1898-illərdə də bir neçə dəfə Zuğulbadan su kəməri çəkilməsinə təşəbbüs göstərilsədə, lakin heç bir nəticə əldə edilmədi. Buna səbəb İmperator hərbi Tibb Akedemiyasının həkimləri Zuğulba suyunu tədqiq edərkən onun tərkibində kükürd turşusu və xlorlu duzların həddindən artıq olduğunu müəyyən etmələridir (95,s.41).

Su komissiyanın gəldiyi nəticələrə əsaslanan Duma 1882-ci il 12 may tarixli iclasında su kəmərinin Zuğulba mənbələrindən çəkilməsi layihəsini qəbul etmədi. Su təchizatı üzrə yeni komissiya təşkil olundu və onun tərkibinə H.Ş.Dadaşov, L.Debur, K.İretski,V.Abramoviç, H.Z.Tağıyev, H.H.Dadaşov, H.Həşımov, və A.A.fon Burmeyster daxil edildilər (3,f.389.siy.7.iş. 1.v.7; iş.14.v.57).

Həmin ilin noyabrın 17-də komissiya Duma qarşısında hesabatla çıxış edir. Hesabatda L.Batseviç və N.Sokolovski ümumiyyətlə Bakı şəhəri və onun yaxın ətrafında şirin su qaynaqlarının olmaması barədə ümumi fikrə gəlir və bu axtarışlara tamamilə mənfi rəy verilir. Bakı şəhərində 307 quyuda analiz və ölçmə işləri aparan V.Eyxlerin nəticələri bütün quyuların suyunun tam kimyəvi tərkibini müəyyənləşdirir. Bütün işlərin yekununa əsasən, L.Batseviç Bakı şəhəri və onun ətraf ərazilərində olan bütün şor və şirin suları müəyyən edir və göstərir ki, şəhərin şərq hissəsində-Şamaxinkanın və Çəmbərəkəndin arxasındakı xan su kəmərinin ilk 9 quyusunun suyu şirin sudur (95,s.65).

Dumanın 1884-cü il 8 iyul tarixli iclasında mühəndis Otto Lents şəhərin su təchizatı layihəsi ilə bağlı çıxış edir. O, suyun

Pirşağı, Nardaran, Kürdəxanı, Zabrat, Maştağa kəndlərinin yerləşdiyi Abşeron yarımadasının şimal-şərq hissəsindən çəkilməsini təklif etdi. Lakin göstərilən su kəmərinin çəkilməsi üçün tələb olunan miqdarda kapitalın çatmışmaması və tədqiq olunan suyun tərkibindəki duzların çoxluğuna görə O.Lents işləri dayandırmağa məcbur oldu (154,s.433).

1889-cu ilin avqustunda dağ mühəndisləri A.Sorokin və A.Konşin Bakıdan 106,7 km uzaqda yerləşən Altıağac yaxınlığındakı Dibrar rayonunun bulaqlarını tədqiq etdilər. Şəhər İdarəsinin tapşırığı ilə mühəndis A.Konradinin 1890-cı ilin iyulunda bu rayonda apardığı axtarış işləri böyük uğurla nəticələndi. Müəyyən olundu ki, Bakı şəhərindən 128 km-dən də az məsafədə, Çəkilçay, Gözdüçay və Pirsaat çaylarının yuxarı axarlarında şəhəri su ilə təmin etmək üçün kifayət qədər-sutkada 987 min vedrə bulaq suyu ehtiyatı var (27,s.20).

Lakin Su Təchizatı Komissiyası ərazinin relyefi və coğrafi xüsusiyyətlərini nəzərə alaraq göstərilən layihəni qəbul etmədi.

1891-ci ildə Altıağac layihəsindən imtina edən Komissiya Kür suyu variantı üzərində dayandı. Həmin ideya hələ 1889-cu ildə meydana gəlmişdi. O zaman suyun keyfiyyətini, onun məişətdə və texniki məqsədlər üçün istifadəyə yararlılığını və Kür çayının özünün sənaye əhəmiyyətini öyrənmək qərara alındı (3, f.389.s.1.iş 283. v.139-139).

Kür çayından kəmərin çəkilməsi üzrə işlər X.Antonovun rəhbərliyi altında 1891-ci ilin yayında başlandı. 1892-ci ildə isə kəmərin təsərrüfat üsulu ilə inşası qərara alınır. Tələb olunan vəsaiti istiqraz yolu ilə əldə etmək nəzərdə tutulurdu.

1892-ci ildə vəba epidemiyasının başlanması ilə əlaqədar olaraq şəhərdə içməli su qıtlığının getdikcə kəskinləşməsi təhlükəli həddə çatır. Yalnız bundan sonra Duma içməli su məsələsini həll etmək barədə ciddi addımlar atmağa başladı. Bu məqsədlə müsabiqə elan edilir, ayrı-ayrı şəxslərdən, müxtəlif firmalardan xeyli təklif daxil olur. Bu dövrdə Şəhər İdarəsi mühəndislərdən Moskvadan M.Altuxanova, Tiflisdən Q.Royta

və Parisdən A.Dümona Kür çayından şəhərə su kəməri çəkmək üçün layihə tərtib etməyi sifariş verdi (3,f.389.s.1.iş.2.v.4).

1893-cü ildə hər üç layihə hazır oldu. M.Altuxanovun təklif etdiyi layihəyə görə su kəməri-5.117.000 rubla, A.Dümonun layihəsinə görə-7.700.000 rubla, Q.Roytun layihəsinə görə isə 7.000.000 rubldan da artıq qiymətə başa gəlməli idi. Lakin bu layihələr həm texniki, həm iqtisadi baxımdan düzgün əsaslandırılmadığına və böyük vəsait tələb etdiyinə görə Daxili İşlər Nazirliyinin Sankt-Peterburqdakı Texniki-İnşaat İnstitutu tərəfindən qəbul edilmədi (166,1894.5.05.№ 95).

Çünki Rusiya imperiyası müstəmləkələrində çox vəsait tələb edən belə layihələrin həyata keçirilməsinə hələ ki, böyük məbləğdə pul xərcləmək istəmirdi. Lakin hökumət imperiya üçün böyük iqtisadi əhəmiyyət kəsb edən Bakı kimi bir şəhərin də susuz qalmasını istəmir və o dövrdə çalışırdı ki, şəhər öz vəsaiti hesabına belə su kəməri layihələrini həyata keçirsin.

1897-ci ildən başlayaraq Kür çayının suyundan içmək məqsədi ilə istifadə olunmağa başlanıldı. 1898-ci il iyunun 26-da Duma konsessiya üsulu ilə "Kür-Bakı" su kəmərinin tikintisi haqqında qərar qəbul etdi. 1898-ci il dekabrın 1-dək Şəhər İdarəsinə daxil olan 7 təklifdən daha əlverişlisi "Bütner və Deyçel" şirkətinin təklifi idi. Şirkət ona 32 illik konsessiyanın verilməsini xahiş edirdi. Şəhərə isə 16 ildən sonra su kəmərini yarı qiymətinə satın almaq hüququ verilirdi. Lakin bu təklifdən də Duma imtina etməyə məcbur oldu, çünki sahibkarlar götürdükləri öhdəliklərin təminatı kimi 90 min rubl vəsaiti köçürməmişdilər. Bir qədər sonra şəhər konsessiyadan da imtina edərək, su kəmərini təsərrüfat üsulu ilə tikməyi qərara aldı. Beləliklə, Duma Kür çayından su kəmərinin çəkilməsi barədə qərar qəbul etdi. Lakin bu kəmər də icra edilməmiş qaldı (27,s.27).

Dumanın 1899-cu il 9 dekabr tarixli iclasında yenidən şəhərin su təchizatı ilə bağlı məsələ müzakirəyə çıxarılır. İclasda çıxış edən H.Mahmudbəyov Kür çayından su kəmərinin çəkilməsinə üstünlük verdi. O, çıxışında bildirdi ki, Duma bu məsələ ilə bağlı sanki labrintə düşüb, orada nəinki gəzə, heç

sürünə də bilmir: "Biz heç nə anlamırıq, bizə çox vəd verirlər, amma bu vədlərin nə dərəcədə ciddi olduğu məlum deyil. Komissiya məruzə təqdim edib. Orada bir yığın ziddiyyət var....Bizə deyirlər ki, 150 min rubl ora verin, 50 min rubl bura verin. Nəticə nə olacaq, bilmirik. U.Lindley su kəmərinin dəyərinin 15 milyon rubla başa gələcəyini deyir. Bu məbləğin bağlanması üçün 5 faizdən hesablasaq, ildə 12 milyon rubl tələb olunur. Şəhərin ümumi büdcəsi 1 milyon 3000 min rubldur. Nə üçün Kür suyunu içə bilmirik. Bir çox şəhərlər Volqa suyu içir, 9 quberniya və saysız-hesabsız kənd bu çayın sahilində yerləşir. Kürün suyu ondan təmizdir. Kür çayından su kəməri çəkmək də, yəqin, 6 milyon rubldan baha başa gəlməz". H.Mahmudbəyovun bu çıxışını Ə.M.Topçubaşov müdafiə etdi (166,1899.09. 12.№ 265).

Şəhərə Kür çayından su kəməri çəkmək layihəsi qəbul edilmədiyindən Duma iclaslarında əhalini Zuğulba suyu ilə təchiz etmək üçün geniş müzakirələr keçirildi.

Zuğulba suyu nə o zaman, nə də sonralar ortaya çıxsa da, reallaşmamış qalırdı. Bunun da səbəbi bir neçə laborator yoxlamalardan sonra Zuğulbada qayadan çıxan Xəzər dənizinə tökülən suyun tərkibində kükürd turşusu və xlorlu duzların həddən artıq olması və onu içməli su kimi yararsız, hətta zərərli olması ilə əlaqədar idi. Zuğulba su kəməri layihəsini Dumanın erməni deputatları müdafiə edirdilər. Hər dəfə erməni deputatlar bu layihəni müzakirəyə çıxaranda H.Z.Tağıyev onun əleyhinə çıxış etmişdir. H.Z.Tağıyevin ciddi etirazı qarşısında Su Təchizatı Komissiyasının azərbaycanlı üzvləri F.Vəzirov, M.Mikayılov, H.Zərdabi və H.Z.Tağıyevin özü də çəkiləcək kəmərin keçəcəyi ərazini öyrənmək üçün Zuğulbaya göndərilirlər (2,f.50.s.1.iş.79.v.143).

Dumanın 1898-ci il 17 mart tarixli iclasında Zuğulba suyunun analizi ilə bağlı deputatlara məlumat verilir. Məlumatda göstərilirdi ki, suyun rəngsiz və təmiz olduğu ortaya çıxır. Adi şəraitdə onun heç bir qoxusu yoxdur, amma kalium qələvisi əlavə ediləndə və 40 dərəcə selsidə qızdırılanda gil və qum

qoxusu gəlir, bunun da elə bir əhəmiyyəti yoxdur. Suda zəif turşuluq müşahidə olunur və coddur. Bu suda tərəvəz gec bişir, su daha çox sabun tələb edir və s. Sanitariya laboratoriyasının rəyinə görə, Zuğulba suyunun sanitar baxımdan yararlı hesab etmək olmaz, xalq arasında bu su ona görə yaxşı hesab olunur ki, camaat onu daha çox yerli quyu suyu ilə müqayisə edir (166,1898.20.03.№ 63).

İclasda çıxış edən F.Vəzirov bildirir ki, Zuğulba suyunun bir qüsuru var- coddur. N.Yaqn isə şirinləşdirilmiş suyun bu dəfə də bulanıq və çirkli olmayacağına heç bir təminat verməyib. Zuğulba suyunun çəkilməsini üzərinə götürən A.Adamov imkanlı şəxsdir, suyun çəkilməsi ilə bağlı bütün maneələri aradan qaldırmaq, kiminlə lazımdırsa, razılaşmaq onun işidir. Duma üstünlüyü hansı suya verirsə-versin, şəhər təminatla bağlı heç bir öhdəliyi üzərinə götürməməlidir (30,s.67).

İclasda Şəhər İdarəsinin üzvü Əlibəyov çıxış edərək Zuğulba suyunun əleyhinə çıxdı. O, çıxışında bildirdi ki, şirinləşdirilmiş su ona görə bulanıqdır ki, ehtiyat hovuzlar azdır, dəmir borular da korruziyaya uğrayaraq paslanır və turşlaşır. İndi əlavə hovuz tikiləcək və təzə borular olacaq, suda bulanıqlıq olmayacaq. Zuğulba suyu o qədər yararsızdır ki, hətta yerli sakinlər belə ondan istifadə etmirlər (166,1898.20.03.№ 63).

H.Z.Tağıyev isə çıxışında Dumaya müraciət edərək deyir:"Su təchizatı probleminin həlli çoxdandır ki, bu məsələdə marağı olan adamlar tərəfindən ləngidilir. Mən əvvəlcə vedrəsi yarım qəpikdən öz hesabıma su kəməri çəkməyi təklif etmişdim, bu işdə maraqlı adamlar bizə maneə oldular, mənim təklifim rədd edildi. İndi sakinlər vedrəsi 2 qəpikdən daha pis su alırlar. Mən F.Vəzirov kimi savadlı adamın Zuğulba suyunun şirinləşdirilmiş sudan üstün tutmasına məəttəl qalıram. Əlbəttə, mən suyun keyfiyyətinə yalnız onun dadına görə qiymət verə bilərəm, bu məsələdə peşəkar deyiləm, amma şirinləşdirilmiş suyu Zuğulba suyundan çox üstün tuturam, o suyu nəinki adam, heç at da içməz, amma bu məsələdə marağı olan adamlar camaatın xəstəlik tapacağını bilə-bilə bu variantı necə təklif

edirlər? Zuğulba suyunun nüfüzunu ora gəzməyə gələn adamlar qaldırıb, bu su soyuqdur, şəfafdır və isti havada sərinləşdirici içki kimi xoşdur, amma, daima istifadə üçün yaramır. Onu hətta buxar qazanı üçün də istifadə etmək olmaz ” (166,1898.20.03.№ 63).

Deputatlardan M.Unanov çıxışında bildirdi ki, Zuğulba suyu səhvən cod suların sırasına daxil edilib, qələvi mahiyyətinə görə bu su haqqında yalnız onu demək olar ki, o, ideal sudan sərtdir. Yayda şirinləşdirilmiş su 26 dərəcədə istiliyə malikdir, o, susuzluğu yatırmır, rəngi sarı və çirklidir. Bağların suvarılması üçün o, quyu suyundan yaxşı olsa da, quyu suyu içməyə daha yararlıdı (166,1898.20.03.№ 63).

Müzakirələrə qoşulan H.Zərdabi isə çıxışında deyir: “Bulaq suyu təkcə içməli su deyil, həm də orqanizm üçün qidadır, biz hamımız quyu suyu ilə boya-başa çatmışıq, şirinləşdirilımiş su bütün tənqidlərdən də aşağı dayanır. Əgər Zuğulba suyu cənab Tağıyevin fabriki üçün yaramırsa, bu hələ onun orqanizm üçün yararsız olduğunu sübut etmir. Biz fabrik üçün nəyin yarayıb-yaramadığının qeydinə qalmırıq, biz əhalidən danışırıq. Şəhər sakinləri bizim qardaşlarımızdır. N.Yaqnı biz tanımırıq, amma A.Adamov bizim sakindir (o, zəngin adamdır, şəhər üçün hər şey edə bilər), o bizi fırıldaqçı N.Yaqn kimi məhv etməz” (166,1898. 20.03.№ 63).

H.Zərdabinin N.Yaqnı deyil A.Adamovu müdafiə etməsi ilk növbədə onunla bağlı idi ki, o belə hesab edirdi ki, şirinləşdirici su şəhər üçün müəvəqqəti tədbirdir və bu su şəhər əhalisi üçün baha başa gələcək və daimi olmayacaq. Ona görə də şəhəri tez bir zamanda daimi və ucuz su ilə təmin etmək üçün Zuğulbadan su kəmərinin çəkilməsinə üstünlük verirdi.

H.Zərdabinin N.Yaqnı fırıldaqçı adlandırması Dumanın bir qrup erməni və rus deputatlarının ciddi narazılığına və kəskin etirazlarına səbəb oldu. Erməni deputat A.Saparov çıxışında bildirdi ki, H.Məlikovdan (H.Zərdabi) oğurluq, yaltaqlıq, mənfətkarlıqla bağlı ittihamlar eşidirik. Bu gün Yaqnı “fırıldaqçı”

adlandırdı, sabah bizlərə daha pis ad verəcək, bu cür təhqirlərə birdəfəlik son qoymaq lazımdır (166,1898.20.03.№ 63; 30,s.68).

Dumanın 1898-ci il 31 mart tarixli iclasında deputat A.Saparov H.Zərdabinin "hansısa fırıldaqçı Yaqn" ifadəsinə görə ona töhmət verilməsini təklif etdkdə deputatların bəziləri bu təklifə etiraz etdilər. H.Z.Tağıyev H.Zərdabini müdafiə edərək çıxışında qeyd etdi ki,:"Biz hamımız bir ailənin üzvü kimi şəhərin maraqlarını müdafiə eləmək üçün toplaşırıq. H.Zərdabi əsəbləşib. Özü də N.Yaqn haqqında deyib ki, biz onu tanımırıq, A.Adamovu isə hamımız tanıyırıq". Deputatların əksəriyyətinin mövqeyini nəzərə alan Duma H.Zərdabiyə töhmət verməkdən imtina etdi (166,1898.02.04.№ 73**)**.

1902-ci ildə vəba epidemiyasının geniş yayılması Bakının su təchizatını təxirəsalınmaz məsələlərdən birinə çevirdi. Yaranmış vəziyyətdən istifadə edən erməni neft sahibkarı Ambarsum Melikov 1902-ci ildə Zuğulba su kəmərinin çəkilməsinə Dumanın və Şəhər İdarəsinin razılığını əldə edə bildi. Çünki bu yoluxucu xəstəliyin yayılması həm əhalinin həlak olmasına, həm də şəhər təsərrüfatına ciddi zərər vururdu. Şəhər təsərrüfatına vuralacaq zərərin qarşısını almaq üçün şəhər rəhbərliyi Zuğulba su kəmərinin çəkilməsinə razılığ verməyə məcbur oldu.

Dumanın 1902-ci il 3 oktyabr tarixli iclasında Zuğulba suyunun çəkilməsi ilə bağlı məsələ müzakirəyə çıxarılır. Zuğulba su kəmərinin çəkilməsilə bağlı məsələ "Kaspi" qəzetinin 1902-ci il 213 nömrəli sayında ətraflı məlumat verilmişdir. Məlumatda göstərilir ki, suyun qiyməti vedrəsi 0.4 qəpikdir; su şəhərə həmişə qarışıq halda çatdırılmalıdır; üstəlik, qarışdırılma şirinləşdiricinin çənlərində həyata keçiriləcək; Zuğulba cəmiyyəti Qanlıtəpədən Çəmbərəkəndədək ana xəttin çəkilişini öz hesabına, Şəhər İdarəsinin xərclərdə hər hansı iştirakı olmadan aparılacaq; cəmiyyət isə ayda 600 min, gündə 20 min vedrədən az su verə bilməz. Məsələ ətrafında çıxış edən Ə.M.Topçubaşov Zuğulba suyunun əleyhinə çıxaraq dedi ki, Zuğulba suyunda şirinləşdirici su çatışmır və bu su yüksək

keyfiyyətə malik deyil və gigiyenik nöqteyi nəzərdən də bu suyun qiymətli hesab olunmadığını vurğuladı. Daha sonra o, çıxışında əlavə etdi ki, Zuğulba suyunun çəkilməsinin nə ilə bağlı olduğunu aydınlaşdırmağı vacib sayaraq, Dumaya sual verir, şirinləşdirilmiş su kifayət etmir, yoxsa Zuğulba suyunun keyfiyyəti daha yüksəkdir? O çıxışında həmçinin bildirdi ki, Zuğulba suyu yaxşı keyfiyyəti ilə seçilmir və gigiyenik cəhətdən qiymətli hesab oluna bilməz Həmin iclasda çıxış edən deputat Ə.Ağayev isə əhalinin yoxsul təbəqəsinin təxirə salmadan içməli su ilə təchiz edilməsini təklif etdi (166,1902.5.10.№ 215).

Duma həmin iclasında şəhərə Zuğulba suyunun çəkilməsi barədə qərar qəbul etdi. Qərara əsasən “Zuğulba cəmiyyəti” Qanlıtəpədən Çəmbərəkəndə qədər Şəhər İdarəsinin heç bir iştirakı olmadan öz hesabına boru kəmərlərinin çəkilişini-ayda 600 min vedrə və ya sutkada 20 min vedrədən az olmayaraq-həyata keçirməli idi. Su müxtəlif minerallarla qarışıq şəkildə şəhərə çatdırılır, qarışma şirinləşdirici qurğunun çənlərində baş verməli idi (166,1902.5.10.№ 215).

Bundan sonra Şəhər İdarəsi vedrəsi 0.4 qəpik olmaqla gündəlik 20 min vedrə suyun şəhərə çatdırılması haqqında “Zuğulba” cəmiyyəti ilə 1903-cü ildə müqavilə bağlamağa məcbur oldu (3,f.389.s.7.iş.1.v.80).

Müqavilənin şərtlərinə görə, cəmiyyətin rəhbəri A.Melikov Zuğulba mənbəyindən şəhərə su kəməri çəkməli və bu su şirinləşdirilmiş dəniz suyu ilə qatışdırıldıqdan sonra istehlaka buraxılmalı idi. Zuğulbadan çəkilmiş su kəməri şəhər əhalisini və mədən rayonlarını su ilə təmin etməli idi.

Bununlada, Zuğulbadan şəhərə altı aydan gec olmayaraq su kəmərinin çəkilməsi məsələsi təsdiqlənir. “Artur-Koppel” birliyi bu işin icrasına başlayır. İşin başlanması üçün 25 min rubl pul ayrılır. 100 min vedrə tutumu olan daş su çənin əvəzinə, tutumu 200 min vedrə olan beton çən tikilir və bu çən suyun təzyiqinə davam gətirməyərək partlayır. Onda bu birlik 100 min vedrəlik olan dəmir çən tikdirməyi lazım bilir, bunun müqabilində əlavə olaraq Dumadan 5 min rubl pul istəyir. Duma bu məbləğdə

pulun verilməsi barədə qərar qəbul etsədə, lakin Bakı qubernatoru bunu təsdiqləmir və bildirir ki, "əlavə təzminatı bu işdə günahı olanlar ödəməlidir". Bununla da, şəhər əhalisinin su ilə təzhizatı çətinləşir (31,s.42-43).

Dumanın 1902-ci il 5 noyabr tarixli iclasında H.Zərdabi Çəmbərəkənddəki çənə sərf edilən təkrar xərc barədə bəyanatının cavabına Şəhər İdarəsinin izahatı məruzə edilir. Şəhər İdarəsi bildirir ki, həqiqətən də, su komissiyası daş çənin əvəzinə beton çən quraşdırmağı qərara alıb, bu çən də dağılıb. Şəhər İdarəsi təkrar xərc kimi 5 min rubl və yeni çənin quraşdırılması üçün 11 min rubl ayrılmasını xahiş edir.Quberniya İdarəsi Dumanın qərarını təsdiqləyib, yəni dağılmış çənlə bağlı 5 min rubl təkrar xərci və yeni çənin quraşdırılması üçün 11 min rubl ayrılmasaına icazə verib.Cənab Qubernatorun təklifinə gəlincə, həqiqətən də, belə bir fikir olunub, amma hələ də bu iki il müddətində heç bir sərəncam verilməyib.Məsələ ilə bağlı çıxış edən H.Zərdabi Şəhər İdarəsinin izahatının yetərli olmadığını bildirdi, Quberniya İdarəsinin təsdiqlədiyi Dumanın qərarını və onun gələcək icrası barədə ətraflı məruzə olunmasını tələb edir (166,1902.7.11.№241).

H.Zərdabinin bu tələbi əsasında Şəhər İdarəsi izahatında göstərir ki, Quberniya İdarəsi dağılmış çənə 5 min rubl ayrılması ilə bağlı məsələdə ictimai idarənin diqqətini bu çənin quraşdırılması zamanı yol verilmiş sui-istifadə hallarına çəkməyi lazım bilib. Qubernator bu barədə məlumat verərkən araşdırma aparmağı, günahkarları tapıb məhkəməyə cəlb etməyi təklif edir. Amma Şəhər İdarəsi tərəfindən indiyədək heç bir araşdırma aparılmayıb.

Şəhər İdarəsinin bu izahatından görünür ki, dağılmış çənlə bağlı iki ilə yaxın bir müddətdir ki, heç bir araşdırma aparılmayıb və günahkarları məsuliyyətə cəlb edib cəzalandırmayıblar. Bu vəziyyət H.Zərdabini və azərbaycanlı deputatları olduqca narahat edirdi. Çünki çənin dağılması nəticəsində həm şəhərə xeyli miqdarda maddi ziyan dəyib, həm də şəhər əhalisinin içməli su ilə təmin edilməsində çətinliklər yaranıb.

Dumanın 1902-ci il 26 noyabr tarixli iclasında Çəmbərəkənddəki çənin quraşdırılmasına 5.200 rubl təkrar xərclə bağlı Şəhər İdarəsinin izahatı dinlənilir. Şəhər texniki Ponomaryov Çəmbərəkənddəki dağlıq qüllənin yanında su üçün 100 min vedrə tutumu, 12.374 rubl 18 qəpik dəyəri olan daş çənin quraşdırılması smetası və çertyojunu tərtib edir. Həmin pulun 12.000 min rublunu Duma artıq ayırmışdı. Amma daş baha olduğundan, planın icrası zamanı çəni daşdan deyil dəmir əsası olan betondan düzəldirlər, amma tikinti komissiyasının sədri, Şəhər İdarəsinin üzvü V.Smolenskinin bu barədə qaralama qeydi, eləcə də qərarlar jurnalı Şəhər İdarəsinə verilmir, halbuki Şəhər İdarəsi və Su Təchizatı Komissiyasının çənin quraşdırılması üçün əlavə 5.200 rubl ayrılması barədə qərarı var, çünki Ponomaryov 100 min yox, 200 min vedrəlik çən quraşdırıb. Bundan başqa, çənin dörd fuddan artıq hündürlükdə su ilə doldurulması zamanı sızma yaranıb və bütün su bir gecəyə axıb. Çənə baxış keçirən tikinti komissiyası aydınlaşdırıb ki, hadisəyə səbəb çənin dibinin düzgün hörülməməsidir.Su Təchizatı Komissiyası zədələnmiş çənin daxilində ikinci dəmir çənin quraşdırılması üçün daha 11.200 rubl ayrıb. Bu məsələ ilə bağlı Bakı qubernatoru 2 il yarım əvvəl Şəhər İdarəsinə sorğu göndərib: beton çən üçün smeta və çertyoj tərtib olunmadan, bu smeta Duma tərəfindən təsdiqlənmədən işlər necə başlanıb? Amma Şəhər İdarəsi sorğunun cavabına heç bir izahat verməyib (166,1902.28.11.№256).

Məruzə oxunarkən H.Zərdabi 5.200 rubl əlavə yardım ayrılması barədə qərarın nə zaman verildiyini soruşduqda isə şəhər başçısı cavabında bildirir ki, 2 mart 1900-cü ildə. Hadisə də elə həmin ildə baş verib.

H.Zərdabi çıxışında günahkarların cəzalandırılmasını tələb etdikdə onu müdafiə edən azərbaycanlı deputatlar Ziyadxanov, Sultanov və başqaları işi vaxtında araşdırmadığı üçün Şəhər İdarəsini ittiham edərək təhqiqata başlanılmasını israr etdilər. Sultanov bildirdi ki, bununla Duma öz nüfuzuna zərbə vurur.

Məlumdur ki, Şəhər İdarəsi onun icazəsi və xəbəri olmadan yeni xərclər çəkib. Günahkarı məsuliyyətə cəlb etmək lazımdır.

H.Zərdabinin Bakı şəhər başçısına 1900-cü il 15 may tarixində göndərdiyi məktubunda bu barədə yazırdı: .... İndi Şəhər İdarəsi izahat verir ki, Duma 12 min rublu 100 min vedrəlik rezervuarın daşdan tikilməsi üçün ayırmışdır. Amma bu rezervuarı təsərrüfat üsulu ilə tikməyi öhdəsinə götürən şəhər texniki onu betondan inşa etmək qərarına gəlmiş, necə olubsa, tutumunu hesablayarkən, səhvə yol vermişdir.Yəni, rezervuar 100 min yox, 200 min vedrəlik alınmışdır, dəyəri isə 12 min rubl yox, 17.200 rubl təşkil edir və idarə tikinti üçün əlavə 5.200 rubl da ayırmağı Dumadan xahiş etmişdir. Halbuki həmin rezervuara su vurularkən, çatlar əmələ gəldi və onun yararsızlığı məlum oldu, buna görə də indi dəmirdən yeni rezervuar tikmək lazım gəlir.

Beləliklə, Duma Şəhər İdarəsinin məruzəsini təsdiq edərək, əslində, mövcud olmayan rezervuara əlavə 5.200 rubl da pul ayırdı. Göstərilən məsələ ilə bağlı o, qeyd edirdi ki, hər necə olsa da hər bir müəssisə və vəzifəli şəxs fəaliyyətləri nəticəsində dəyən ziyana görə cavab verməlidirlər, və belə hesab edirəm ki, Dumanın 5.200 rublu ayırmağa ixtiyarı yox idi. Bu vəsaiti bu zərəri törədənlərin özləri ödəməlidirlər. Bundan əlavə, şəhərə dəyən 1.200 rublluq ziyan da onlardan tutulmalıdır (137,s.887-889).

Lakin xristian deputatlar X.Antonov, A.Saparov, K.İretski və başqaları Şəhər İdarəsini müdafiə etdilər və bildirdilər ki, bu məsələni yekunlaşdırmaq lazımdır. Duma həmin iclasında məsələnin yekunlaşdırılması barədə qərar verdi. Bununla da dağılmış çənə görə heç kim məsuliyyətə cəlb edilib cəzalandırılmadı və vurulmuş ziyan da heç kim tərəfindən ödənilmədi (166,1902.28.11.№256).

Su Təchizatı Komissiyasının 1903-cü il 3 iyul tarixli iclasında Zuğulba su kəmərinin çəkilişi ilə bağlı Duma deputatı erməni A.Melikovla bağlanan müqavilənin icra vəziyyəti müzakirə edildi. Məlum oldu ki, A.Melikov su kəmərinin çəkilişini müqavilədə göstərilən müddətə-1 iyuladək bitirə bilməyib.

İclasda A.Melikovun müraciəti məruzə olundu. Müraciətdə o, kəmərin çəkilişini tələb olunan müddətə bitirmədiyini bildirir, buna görə də xahiş edir ki, bir ay müddətində ondan su tələb etməsinlər və hər vedrə üçün cərimə kimi ayda 2 qəpik almasınlar. Həmin iclasda X.Antonov izah etdi ki, "Zuğulba su kəməri cəmiyyəti"nin indi, yayın qızmar çağında şəhərə su çəkməyə ehtiyacı və marağı yoxdur, belə ki, o artıq qalan suyun hamısını Balaxanıda satır və bu ona daha çox sərf edir.

A.Melikov tikintinin gecikdirilməsini onunla izah etdi ki, Şəhər İdarəsi və şəhər texnikləri onu şəhərin indi Zuğulba suyuna ehtiyacı olmadığını və tələskənlik üçün heç bir əsas olmadığına inandırıblar (166,1903.5.06.№146).

H.Zərdabi çıxışında bu məsələ ilə bağlı qeyd etdi ki, A.Melikova ilk iki ayda şəhərə cərimə ödəmək və suyu Balaxanıda satmaq çox sərfəlidir. Ona növbəti iki ayda şəhərə vəd etdiyi suyun miqdarı (gündə 20 min vedrə) üçün pul istəməməsini təklif etmək lazımdır. Bu təklif ilə hamı razılaşdı və A.Melikovun qarşısında aşağıdakı şərtin qoyulması qərara alındı: onun vəd etdiyi-gündə 20 min vedrə Zuğulba suyunu ondan almaq və əvəzində 4.500 rubl ödəmək şəhərə sərf etmir. Lakin o iki ay müddətində şəhərə cərimə ödəməzsə və bu iki ay müddətində suyu özünə sərfəli şəkildə Balaxanıda satmağa davam edərsə, həmin ilin noyabrın 1-dən vəd verdiyi 20 min vedrə suyun deyil (ayda 4.500 rubl edir), gerçək alınmış suyun qiymətini ondan alacaq (166,1903.5.06.№ 146).

Uzun mübahisələrdən sonra Su Təchizatı Komissiyası həmin ilin iyulun 1-dən başlayaraq 3 ay müddətində A.Melikovdan cərimə tələb olunmaması və şəhər də öz növbəsində A.Melikova vəd olunan deyil, gercəkdə aldığı suyun pulunu ödəyəcəyi barədə qərar qəbul edir (166,1903.5.06.№ 146).

1903-cü ildə istifadəyə verilən Zuğulba suyunun tibbi və bioloji baxımdan içməyə qətiyyən yaramadığına görə 1908-ci ildə onun yalnız mədən rayonlarında istifadəsinə icazə verilir. Həmin ildən isə Zuğulba suyunun yerinə şəhər əhalisinə Kür suyunun verilməsinə başlanıldı.

Bakı şəhərinin sabiq başçısı A.Novikovun göstərilən kitabında Zuğulba suyu barədə yazırdı: "Mən müvəqqəti su təchizatı üçün bu mənbənin istifadə olunmasını düşündüm. Mənbə Duma üzvü Ambartsum Sergeyeviç Melikova məxsus idi. Mən ona yazdım, yerin özünə gedib əmin oldum ki, su zahirən yaxşıdır. Kimyaçılar mənə dedilər ki, o tam təmizdir (bakteriyasız və üzvü maddələrsiz), lakin çox coddur. Daimi su mənbəyi kimi onu istifadə etmək olmazdı, lakin bakılıların quyulardan içdiyi həddindən artıq zərərli suyun yanında bu su xəzinə idi" (27,s.59)

Duma deputatı Ə.Ağayev "Kaspi" qəzetində "Bakı Panaması" adlı məqalə çap etdirərək Bakı şəhərinin su ilə təchiz edilməsində Dumanın və Şəhər İdarəsinin rəhbərliyini kəskin tənqid etmişdir. Bu məqalə Dumanın erməni icmasından olan deputatların və şəhər başçısı A.Novikovun ciddi narazılığına səbəb oldu. Dumanın 1903-cü il 28 oktyabr tarixli iclasında şəhər başçısı bu məsələ ilə bağlı deyir: "Şəxsən mənə əsassız təhqir qətiyyən təsir etmir, ona heç vaxt fikir vermirəm. Elə indiki kimi. Amma qalan adamlar, o cümlədən Şəhər İdarəsinə aidiyyatı olan şəxslər məsələyə başqa cür yanaşırlar. Onlar məndən buna diqqət yetirməyi xahiş edirlər, belə ki, onların fikrincə, bu, şəhər özünüidarəsinin üzərinə atılan ağır və haqsız iftiradır. Həmin məqaləni oxuyan Şəhər İdarəsi yekdilliklə Dumadan bu məsələni müzakirə etməyi və haqsız iftiranı Şəhər İdarəsinin üzərindən götürməyi təklif edir. Fransız sözü olan "panama" sözünün altında hər hansı müəssisədə çalışan rəhbər işçilərin iri miqyasda rüşvətxorluğu və satqınlığı, adamları rüşvətlə ələ almaları, müəssisənin etimadından sui istifadə etmələri başa düşülür və düşülməkdədir" (166,1903.30.10.№ 233).

İclasda çıxış edən Ə.Ağayev bildirdi ki, məqaləni mən yazmışam, altında imzam var və ictimai ittihamlarada və məhkəmənin də qarşısında ona görə cavabdehliyi mən daşıyıram. Amma bu məsələyə keçməzdən əvvəl "panama" sözünün mənası ilə bağlı bir neçə kəlmə demək istərdim."Panama" sözü məcazi mənadadır, o heç də həmişə rüşvətxorluğu işarə etmir və

mən heç vaxt belə düşünməmişəm. O, daha sonra çıxışını davam etdirərək deyir..... şəhərə içməyə tamamilə yararsız su gətirilib. Bu suyun yararsızlığına gəlincə, hərbi-tibbi akademiya, professorlar başda olmaqla həkimlərədək nüfuzlu müəssisələrin və şəxslərin rəyləri buna sübutdur. Mən bu məsələ ilə tanış deyildim, amma bu barədə oxuyandan sonra, bir tərəfdən Şəhər İdarəsinin əhaliyə Zuğulba suyunun satışa daxil olması barədə elanı və camaatı ondan istifadə etməyə dəvət etməsi, digər tərəfdən bu suyun içmək üçün tamamilə yararsızlığını bildirən şəhər baş həkiminin rəyi məni sarsıtdı, məsələ ilə maraqlandım. Həmin vaxt Duma məni təftiş komissiyasına üzv seçdi. Zuğulba su kəməri ilə bağlı işi öyrəndim. Bu istiqamətdə uzun araşdırmalardan sonra belə nəticəyə gəldim ki, Şəhər İdarəsi bu işdə bağışlanmaz səhvə yol verib. Mən cənab Novikovu və Arutyunovu aşağıdakı məqamlarda günahlandırıram:

1) onlar hərbi-tibbi akademiya, professorlar başda olmaqla həkimlərədək nüfuzlu müəssisələrin və səlahiyyətli şəxslərin dəfələrlə içməli su kimi Zuğulba suyunun yararsızlığı barədə verdiyi rəyləri nəzərə almadılar;

2) onlar bu işdə qəbahət sayılan düşüncəsizlik və tələskənliklə öz vəzifə borclarını yerinə yetirməyə çalışırlar, Zuğulba suyunun yararlı olması kimi vacib məsələni özlərinə, Dumaya və Su Təchizatı Komissiyasına hərtərəfli və ətraflı aydınlaşdırmalıdırlar;

3) xüsusilə cənab A.Novikov özünün yaxşı əsaslandırılmış fikirləri ilə Dumanın və Su Təchizatı Komissiyasının qərarlarına təzyiq göstərərdi;

4) deputatlar ondan suyun keyfiyyəti barədə soruşanda şəhər başçısının əsaslandırdığı yeganə araşdırma cənab Paşkovetskinin rəyi idi. Onu heç cür ciddiyə almaq olmazdı, çünki arxiv materiallarından da görünür ki, elə həmin cənab Paşkovetski iki dəfə Zuğulba suyu ilə bağlı mənfi fikir söyləmişdir;

5) elə həmin Paşkovetskinin Zuğulba suyu ilə şirinləşdirilmiş suyun qarışığı barədə rəyi də qeyri müəyyənliyə görə dəqiq mühakimə yürütmək üçün əsas ola bilməz. Həmin rəy

budur:"Şirinləşdirilmiş suyun tərkibindəki mis olmasa, Zuğulba suyu ilə qarışıq qənaətbəxş sayıla bilər";

6) bütün bunları nəzərə alaraq, Dumanın və komissiyanın Zuğulba su kəməri ilə bağlı qərarını birtərəfli və yetərincə işıqlandırılmamış məlumatların nəticəsi hesab etmək olar;

7) nəhayət, bu qərar lap əvvəldən Zuğulba su kəmərinin çəkilməsində maraqlı olan bəzi deputatların orada iştirakı ilə ləkələnib (166,1903.30.10.№ 233).

Daha sonra çıxışını davam etdirən Ə.Ağayev bir daha bildirdi ki, bu məsələ üzrə uzun araşdırmadan sonra sənədlər əsasında öyrəndim ki, Şəhər İdarəsi bu işdə düşüncəsiz davranıb. Burada tamamilə yanlış düşünürlər ki, Duma da, komissiya da məsələnin hərtərəfinə bələd idi. Xeyir! Onlar kor-korənə fəaliyyət göstərirdi. Nahaq yerə bəzi deputatlar dəfələrlə yeni, daha ətraflı məlumat istəyirdilər. Amma onlara bu məlumatları verən yox idi. Çıxışının sonunda o bir daha bildirdi ki, mən şəhər başçısı A.Novikovu, Şəhər İdarəsinin üzvləri-Arutyunovu və Smolenskini ittiham edirəm, onları rüşvətxorluqda deyil düşüncəsizlikdə və başısoyuqluqda ittiham etmişəm (166,1903. 30.10.№ 233).

1899-cu il aprelin 4-dən-11-dək Odessada keçirilən Rusiya su mühəndislərinin 4-cü qurultayında Bakı nümayəndə heyətinə rəhbərlik edən Şəhər İdarəsinin üzvü V.Smolenski qurultayda dünyanın bir sıra tanınmış mühəndisləri ilə görüşür və onları Bakı şəhərinə su kəmərinin çəkilməsi üçün müsabiqə barədə məlumatlandırır. Bu mütəxəssislər arasında ingilis Uilyam Lindley V.Smolenskiyə daha nüfuzlu görünür və onu A.Altuxanov, Q.Royt və A.Dümonun "Kür-Bakı" su kəməri layihələri ilə tanış edir.U.Lindleydə bu layihələrə maraq göstərərək görəcəyi işlərə dair öz şərtlərini və alacağı qonorarın məbləğini açıqlayır (113, 2017.26.01.№17).

Su Təchizatı Komissiyasının 1899-cu il 3 avqust tarixli iclasında su kəmərinin layihəsinin tərtibi üçün U.Lindleyin Bakıya dəvət olunması qərara alınır (121,s.106). Bununla da

Bakı şəhərinin içməli su ilə təchiz olunmasında yeni dövr başlayır.

Dumanın təklifi ilə razılaşan U.Lindley bəzi şərtlər irəli sürür, onlardan biri su təchizatı mənbəyinin seçilməsi ilə bağlı idi. Duma U.Lindleyin şərti ilə razılaşdı, eyni zamanda qeyd etdi ki, yeni su təchizatı mənbələri məsələsinə onun Bakıya gəlişi ərəfəsində baxılacaq (3,f.389.s.7.iş 10.v.74).

Şəhər Duması və İdarəsi U.Lindleyin şərtlərini məqbul sayaraq Kür və Samur çaylarından gündə 2-3 milyon vedrə su daşıyacaq kəmərin çəkilişinə dair 2 layihə hazırlamaq təklifi ilə U.Lindleyi Bakıya dəvət edir.U.Lindley bu dəvəti "su mənbəyini özü seçmək" şərti ilə qəbul edir.

1899-cu ilin oktyabrında Bakıya gələn U.Lindleyə Şəhər Duması və İdarəsində ilk növbədə Samur çayından kəmər çəkilişinə üstünlük vermək təklif olunur. Samurdan kəmər çəkmək niyyəti ondan irəli gəlirdi ki, bakterioloji və kimyəvi göstəricilərinə görə bu çayın suyu Kür çayından daha yaxşı idi. Eyni zamanda Samurdan suyu Bakıya öz axarı ilə gətirmək mümkün idi.

U.Lindley Kür və Samur çaylarında geoloq və mühəndislərin iştirakı ilə hidroloji axtarışlar apardıqdan sonra qəti olaraq şəhərin su təchizatı üçün ən əlverişli mənbə olan Şolları seçdi. Bakıya qayıdan U.Lindley Dumaya hesabatında yeni su kəməri üçün Kür və ya Samur çaylarından deyil, Quba qəzasındakı yeraltı sulardan və bulaqlardan istifadə edilməsini təklif edir. Lakin Dumanın Su Təzhizatı Komissiyasının sədri erməni X.Antonov dərhal bu layihənin əleyhinə çıxır, Bakıya tez bir zamanda su lazım olduğunu əsas gətirərək yeni kəmərin Kür və ya Samurdan çəkilməsini təkid edir.

Dumanın həm azərbaycanlı, həm də erməni və onları müdafiə edən rus deputatları Şollardan su kəmərinin çəkilməsinə münasibəti bir mənalı deyildi. Erməni deputatlar şəhərə tezliklə ucuz başa gələn çaydan kəmərin çəkilməsini istəyirdilər və suyun keyfiyyəti isə onlar üçün o qədər də maraqlı deyildi.

Onlardan fərqli olaraq H.Z.Tağıyev istisna olmaqla azərbaycanlı deputatlar isə Şollar su mənbəyinə ehtiyatla yanaşır, tələskənliyə yol verməkistəmirlər və milyonlarla qiyməti olan bu kəmərin suyunun şəhər əhalisini daimi içməli su ilə təmin edib-edilməməsindən olduqca narahat idilər.

H.Zərdabi "Kaspi"qəzetində "Yeni su borusu kəmərlərinin layihəsi haqqında" məqaləsində bir növ azərbaycanlı deputatların və şəhərin azərbaycanlı əhalisinin Şollar su kəmərinə olan narahatçılığını əks etdirirdi. O, məqaləsində yazırdı:Su Təchizatı Komissiyasının U.Lindley tərəfindən irəli sürülən fikirlərini əks etdirən məruzəsi bu gün Dumaya təqdim olunacaq. U.Lindley əvvəlki "Kür-Bakı" və "Samur-Bakı" su kəmərlərini yararsız hesab edir və öz tərəfindən Qusar ətrafındakı mənbələr üzərində dayanmağı təklif edir.

Biz cənab Lindleyin geoloji və texniki düşüncələri üzərində dayanmayacağıq, çünki bu, mütəxəssislərin işidir, hərçənd səhv olmasa da, bəzi ziddiyyətləri özündə cəmləyən bəzi məqamları qeyri-mütəxəssislər də görə bilər, Məsələn, Samurdan su kəmərinin çəkilməsinin riskli olması barədə danışarkən U.Lindley deyir: "Samur çayına bitişik zirvələr hələ tam formalaşmayıb, hərəkətdədir və su onların ətəklərini yuyur".

Əvvəllər bütün su kəmərlərinin dəyərinin 8 milyon rubl olacağı deyilirdi, indi isə məlum olur ki, təkcə borular 10 milyon rubla başa gəlir. Onu da demək lazımdır ki, cənab U.Lindley öz layihəsindəki su kəmərinin dəyəri barədə heç yanda bir kəlmə də danışmayıb. Təxminən məbləği, heç olmasa, milyonla müəyyən etmək olar (160; 166,1899.11.11. № 243).

Göründüyü kimi H.Zərdabi məqaləsində Şollardan su kəmərinin çəkilməsinə qarşı çıxmır, Şollar su kəmərinin çəkilməsinin şəhərə baha başa gələcəyinə görə narahatçılığını bildirir. Onun bütün bu narahatçıllığının əsas səbəbi şəhər və onun əhalisinin mənafeyi ilə bağlı idi. Çünki hər hansı texniki və maliyyə baxımdan kəmərin vaxtında çəkilməməsi və ya yubadılması içməli suya ehtiyacı olan şəhər əhalisini uzun müddət susuz qoya bilərdi.

Dumanın erməni deputatları U.Lindleyin Şollardan Bakıya su kəmərinin çəkilməsi əleyhinə çıxış edirdilər. Dumanın 1899-cu il 9 dekabr tarixli iclasında erməni deputatlar X.Antonov, S.Tağıanosov, Qarsoyev və başqaları U.Lindleyin layihəsinə qarşı çıxdılar. Erməni deputat S.Tağıanosov çıxışında bildirdi ki, "Kaspi" qəzetində mühəndis Sorokinin məqaləsi dərc olunub. Orada sübut olunur ki, Lindleyin bütün təklifləri absurddur. Bu rəylə hesablaşmalı olduğumuzu düşünürəm. Sonra isə o məşhur geoloqlar dəvət etməyi və dərhal "Kür-Bakı" və "Samur-Bakı" su kəmərinin layihəsinin hazırlanmasını təklif etdi. Qarsoyev isə çıxışında bildirdi ki, müqavilə layihəsi heç bir tənqidə duruş gətirmir. Onu yenidən komissiyaya qaytarmaq və komissiyanın təkibini hüquqşünas deputatlarla doldurmalıyıq (166,1899.09. 12.№ 265; 30,s.162).

A.Saparov isə çıxışında qeyd etdi ki, mən bu günədək şübhə edirdim, amma "Kaspi"dəki məqalə mənim Lindleyin əleyhinə şübhələrimi qətiləşdirdi. Ötən həftə mənə etiraz etdilər ki, Samur sahilləri orta deyil, yuxarı axınlarda yerləşməyə meyillidir, su kəməri də başlanğıcını oradan götürəcək. Sual verirəm: əgər Samur yuxarı axınlarında istiqaməti dəyişərsə, onun orta axınlarındakı məcrasına nə olacaq? İxtisaslı kadr dəvət etmək lazımdır. Bunun üçün dağ komitəsinə də müraciət edib "Kür-Bakı" və "Samur-Bakı" su kəməri layihələrini hazırlamağı tapşıra bilərik. Duma həmin iclasda "Kür-Bakı" və "Samur-Bakı" layihələrinin hazırlanmasını U.Lindleyə tapşırmağı qərara aldı (166,1899.09.12.№265).

1899-cu il dekabrın 18-də Su Təchizatı Komissiyasının iclasında U.Lindley məruzə ilə çıxış edərək fikrini aşağıdakı amillərlə əsaslandırdı:

1. Şollar suyu keyfiyyətinə görə Kür və Samur çaylarının suyundan üstündür;
2. bulağın ərazisi həm güclü yeraltı su ehtiyatına, həm də öz mənbələrini daim qarla örtülü olan dağlardan alan 12 çaya malikdir. Ərazinin illik yağmurluq səviyyəsi 600 ml-dir;

3. bütövlükdə bulağın ərazisi şimaldan cənuba doğru meyl etdiyindən su şəhərə demək olar ki, öz axını ilə gələ bilər. Bu amil Şollardan çəkiləcək su kəmərinin daha ucuz başa gəlməsi üçün əsasdır (64,s.30-31).

Buna görə də, U.Lindley Dumaya Şollardan su kəməri çəkməyi təklif etdi. Duma isə onun təklifini qəbul etmir və ona "Kür" və "Samur" çaylarından su kəməri layihələrinin hazırlanması tapşırığını verir.U.Lindley isə çıxışında bildirdi ki, Bakı şəhəri üçün ən yaxşısı yeraltı və bulaq sularından təchizatdır, texniki, keyfiyyət və kəmiyyət baxımından yalnız yeraltı və bulaq suları Bakı üçün arzuolunandır" (3,f.389.s.7.iş 6.v.22).

U.Lindley həmçinin sübut eməyə çalışırdı ki, Şollar ərazisi Şahdağın zirvələrindəki qarların əriməsindən və bu ərazidə çoxsaylı yağışların yağmasından yaranan yeraltı sularla çox zəngindir. Duma yenə də bütün bu dəlilləri və onun yeraltı mənbələrin axtarışı üçün ona 30 min rubl ayrılması təklifini rədd edir. Lakin bu dəfə U.Lindleyin təklifini Dumanın azərbaycanlı deputatları xüsusən, H.Z.Tağıyev müdafiə edir. H.Z.Tağıyevin U.Lindleyin tədqiqatlarına inanması və onu müdafiə etməsi şəhərə su kəmərinin Şollardan çəkilməsinin demək olar ki, taleyini həll etdi.

1901-ci ilin aprelində hər üç variant üzrə hidroloji axtarışlar aparan U.Lindley ikinci dəfə Dumaya müraciət edərək "Şollar" mənbəyinin daha əlverişli olduğuna görə öz təklifini müdafiə etdir və çıxışında bildirir ki, Dumada Quba yaxınlığında, Bakıdan 190 km uzaqda tapılmış su mənbəyinə şübhə ilə yanaşırlar, inanmırlar və su kəməri çəkməyi rədd etməyə çalışırlar.

U.Lindleyin dəvəti ilə Bakıya gələn xarici mühəndis-hidravliklərdən ibarət ekspedisiya qrupu Xudatdan şimal-şərqə doğru meşədə bulaq suyu olduğunu aşkarlayır. Ən böyük bulaq Şollar kəndinin yaxınlığında yerləşdiyi üçün sənədlərdə su mənbəyi kimi daha çox Şolların adı çəkilir. Qazılmış quyular və suyun tərkibinə dair aparılan laborator yoxlamalar U.Lindleyin verdiyi proqnozları-yeraltı suların həcminin Bakının içməli suya

olan ehtiyaclarından dəfələrlə çox olduğunu təsdiq edir (114,s.441).

H.Zərdabi "Kaspi" qəzetində "Su epopeyasının sonu" adlı məqaləsində yazırdı: "Dumada müzakirə olunmalı olan ilk məsələ budur: Kür, Samur, yoxsa yeraltı su? Əlbəttə, su təzhizatının mənbəyi ilə bağlı ilk işi həll etmədən su kəmərini çəkmək mümkün deyil.Yeraltı sular barədə danışmayacağıq, çünki Duma bu məsələni istisna edib, hərçənd qeyd edək ki, cənab Lindleyin bununla bağlı arzusu hələ də qalmaqdadır. Bu həm də ondan bəllidir ki, Lindleyin agentləri yeraltı sular üzərində də tədqiqatlar aparırlar".

Müəllif daha sonra məqaləsində qeyd edirdi ki, Samur çayının həcmi bizə məlum deyil, biz hələ ondan bir dəfə belə kimyəvi analiz götürməmişik, onun saxlanma müddəti haqqında heç nə bilmirik. Bir sözlə bir yığın sual var ki, onları cavablandırmadan Samur su kəmərinin çəkilməsinə başlamaq olmaz. Yüz ölçüb, bir biçmədən 20 milyon rublu havaya sovurmaq olmaz. 240 verstlik su kəmərini çəkib haradasa 10-20 ildən sonra şəhəri tamamən və ya qismən susuz qoymaq olmaz.

Bizim şəhər başçılarının gözlərini açmaq vaxtı gəlib ki, Bakı şəhərinin su təzhizatı işi ilə bağlı keçmişi unudub Kürə keçsinlər, onsuz da gec-tez bu çaydakı suyun bolluğuna görə ona müraciət etməli olacağıq (166,1901.9.05.№ 102).

Şəhərə hansı mənbədən su kəmərinin çəkilməsi məsələsi ətrafında Dumada qızğın müzakirələrin getdiyi bir vaxtda H.Z.Tağıyev Şəhər İdarəsinə 1901-ci il 22 iyun tarixində ərizə yazaraq bildirdi ki,"təsadüfən öyrəndim ki, Duma deputatlarının əksəriyyəti cənab Lindleyin göstərdiyi ərazilərdə şəhərə kifayət edəcək qədər yeraltı suyun olmasına inanmadığına görə ilkin sınaq axtarışlarının aparılması üçün tələb olunan məbləği ayırmaqdan imtina etmişdir. Bu məqsədlə mən aşağıdakı şərtlərlə tələb olunan 25 min rubl ayırıram: əgər cənab Lindleyin təcrübə axtarışları uğurla nəticələnərsə və sübuta yetirilərsə ki, cənab Lindleyin su tapacağı ehtimal etdiyi yerlərdə şəhərin ehtiyaclarını ödəyə biləcək kifayət qədər su var, onda şəhər

mənim vəsaitim hesabına aparılan xərcləri mənə qaytarmalıdır; əgər idarə mənim bu təklifim haqqında indi Dumaya məruzə edə bilmirsə, onda təklif etdiyim pulun qəbul olunmasını və Su Təchizatı Komissiyası vasitəsilə işlərin başlanmasını idarədən xahiş edirəm. Bu məsələ Dumada sonra da müzakirə edilə bilər və əgər Duma bu xərcləri qəbul etməsə, mən yenə də onları boynuma götürürəm. İdarədən xahiş edirəm ki, bu ərizəmə mümkün qədər tez cavab verilsin. H.Z.Tağıyev ərizəsinin sonunda U.Lindleyin layihəsinə şübhə ilə yanaşan deputatlara üz tutaraq "Şahdağ öz qarı və buzlaqları ilə əbədi olduğu kimi, Şollar bulaqlarının suyu da əbədidir" deyərək onları inandırmağa çalışır ki, Şollar mənbəyinin suyu şəhər əhalisini içməli su ilə təmin edə biləcək qədər ehtiyata malikdir (3,f.389,s. 1.iş.13.v.77-78).

Lakin onun bu təklifini Şəhər İdarəsi qəbul etmir. Buna səbəb isə Dumanın şəhər üçün yeraltı su axtarışını qadağan etməsidir. Şəhərə bulaq suyu deyil çay suyu gətirməyi planlaşdıran Su Təchizatı Komissiyası H.Z.Tağıyevin təkidi ilə 1901-ci il sentyabrın 20-də hər hansı qərar qəbul etmədən məsələni Dumanın müzakirəsinə çıxarmağı qərara alır.

Duma 1901-ci ilin oktyabrın 9-da keçirilən iclasında H.Z.Tağıyevin Quba qəzasında yeraltı sularla bağlı ilkin tədqiqatların aparılmasına 25 min rubl təklif etməsi müzakirə olunur. İyunda Duma U.Lindleyin yeraltı su tapmaq üçün quyu qazmaq barədə təklifini rədd etmişdi, o zaman H.Z.Tağıyev şəhər başçısına məktub yazır. Məktubda o bildirir ki, Su Təchizatı Komissiyasına sınaq qazıntılarının aparılması üçün 25 min rubl təklif etmiş, bir şərtlə ki, tədqiqatlara elə həmin vaxt (yəni iyunda) başlanılsın, nəticə yaxşı olarsa, şəhər bu 25 min rublı ona qaytarır, yox, əgər araşdırmalar uğurla nəticələnməzsə, H.Z.Tağıyev pulları geri istəməyəcək. Şəhər başçısı bu şərtlə H.Z.Tağıyevin təklifini qəbul edə bilməmişdi. Sentyabrın əvvəlində H.Z.Tağıyev bu təklif barədə yenidən Su Təchizatı Komissiyasına məlumat vermiş və komissiya H.Z.Tağıyevin təklifini bu dəfə qəbul etməyi qərara almışdır. Dumaya təqdim

etmək üçün bu barədə xüsusi məruzə hazırlandı.Orada bircə əlavə vardı-şəhər bu pulu yalnız o zaman cənab H.Z.Tağıyevə qaytaracaq ki, bu ilkin araşdırmaların sayəsində hasil olunmuş nəticədən istifadə edə bilsin. Duma H.Z.Tağıyevin təklifini qəbul etməyi qərara aldı (166,1901.11.10.№221).

H.Z.Tağıyev 1901-ci il 5 dekabr tarixində Bakı şəhər başçısı vəzifəsini icra edən M.Belyavskiyə yazdığı məktubunda bildirir ki, cari il iyunun 22-də təqdim etdiyim ərizədən sizə bəllidir ki, mən, hansı fikirlərdən irəli gələrək və hansı şərtlər əsasında Bakı şəhər əhalisinin istifadəsi üçün cənab Lindleyin təklif etdiyi yeraltı-bulaq suyunun sınaq axtarışlarının öz hesabıma aparılmasını təklif etmişəm. Bunun üçün ayırdığım 25 min rublu mən heç də Bakı şəhərinin xeyrinə ianə etməyi nəzərdə tutmurdum; bu fikir ağlımdan da keçmirdi, çünki mən yaxşı bilirəm ki, şəhərin birinci dərəcəli ehtiyacları-şübhəsiz, bunlara su təchizatı da aiddir və təmin etməyə lazımi vəsaitləri var. Lakin mən buranın köhnə sakini kimi, mənə doğma olan şəhərin ehtiyaclarını, onun yaxşı, sağlam suya kəskin tələbatını qəlbimə yaxın bilərək, yuxarıda adı çəkilən təklifi verməyə məcbur oldum, o məqsədlə ki, şəhər ictimai idarəsi cənab Lindleyin təklifini qəbul eləsin. Hal-hazırda mən aşağıdakı fikirlərimi bölüşməyi lazım bilirəm: yuxarıda xatırlatdığım təklifi irəli sürərkən mən tam əmin idim ki, cənab Lindley işin peşəkarı kimi şəhər əhalisinin daimi istifadəsi üçün adı çəkilən ərazidə yaxşı, sağlam yeraltı suyun axtarışlarında fəallıqla və vicdanla çalışır. Hətta cənab Lindleyin izahı olmadan belə, mənə şəxsən məlumdur ki, həmin ərazi yeraltı su ilə zəngindir, bu səbəbdən mən dediyim məbləği ayırmaq qərarına gəldim. Fikirləşdim ki, bu yolla mən-birincisi, şəhər ictimai idarəsinin cənab Lindleyin təklifinə razılıq verməsinə səbəbkar olacağıma, ikincisi, əksər Duma üzvlərinin həmin ərazidə kifayət qədər suyun olmaması haqqında şübhələrinə son qoyacağıma nail olaram. Çox güman ki, Duma üzvlərinin əksəriyyətində axtarışların aparılması nəzərdə tutulan ərazi haqqında təsəvvür olmadığından, belə bir şübhə yaranıb ki, hətta lazımı həcmdə su tapılsa belə, o şəhər

əhalisini daimi olaraq təmin edə biləcəkmi? Burada izah etmək lazım idi ki, həmin ərazi Şahdağın yamacında yerləşir və daim Şahdağ buzlaqlarının suyundan qidalanır. Beləliklə, Şahdağ özünün əbədi qarlı papağını atmayınca, onun buzlaqları da o vaxta kimi mövcud olacaq və həmin ərazidə yeraltı su tükənməyəcəkdir. Nəhayət, əgər bu sınaq axtarışları nəticə verməsə və lazımi qədər su tapılmasa, bu arada 25-30 min rubl xərclənsə belə, ən azı şəhər ictimai idarəsinin vicdanı təmiz olacaq ki, o yaxşı, sağlam suyun axtarılması üçün tədbirlər gördü, lakin orada şəhər əhalisini tam təmin etməyə qadir su tapılmadı, bu səbəbdən də Şəhər İdarəsi Kür suyu üzərində dayanmalı oldu. Sözgəlişi, Kür suyu həmişə bulanıq və çirklidir. Ondan hətta Tiflis də imtina etmişdir, baxmayaraq ki, bu su orada hər halda daha təmizdir. Mənim fikrimcə, Samur suyu haqqında söhbət gedə bilməz, çünki apreldən başlayaraq oktyabradək bu su Samur çayından gur axan çirkab kütləsinə oxşayır. İndi isə, Sizin 16 noyabr tarixli məktubunuzdan aydın olur ki, mənim ərizəm təəssüf ki, Şəhər Dumasında xüsusi rəğbətlə qarşılanmayıb. İstənilən halda mən iyunun 22-də verdiyim ərizədən, orada göstərilən ərazidə yeraltı suyun sınaq axtarışlarına dair şərtlərimdən imtina etmirəm (3,f.389.s.7.iş 13.v.79-81).

U.Lindley bulaqlıq ərazisində sınaq quyularını qazdıqdan sonra Şəhər İdarəsi H.Z.Tağıyevin 25 min rublını geri qaytarır və sınaq quyularının qazılması üçün tələb olunan pulu ayırır. Qeyd etmək istəyirəm ki, H.Z.Tağıyevin Şollardan su kəmərinin çəkilməsində belə cəsarətli mövqeyi olmasaydı Dumada U.Lindleyin təklifi qəbul olunmayacaq və “Şollar-Bakı” su kəməri isə baş tutmayacaqdı. Bundan sonra Dumada şəhərə Şollardan su kəmərinin çəkilməsi ətrafında azərbaycanlı və erməni deputatları arasında müzakirə və mübahisələr başlandı.

1902-ci ildə Bakını bürüyən vəba eyidemiyası su probleminin həllini yenidən təxirəsalınmaz bir məsələyə çevirdi. Bu epidemiya Duma və Şəhər İdarəsinin rəhbərliyinə və sahibkarlara sübut etdi ki, şəhərin su problemi vaxtında və tez bir zamanda həll edilməsə,sanitar durum stabilləşməsə və əhalinin

sudan təhlükəsizliyi birdəfəlik həll edilməsə şəhərin iqtisadi inkişafı tənəzzülə uğrayacaq və təsərrüfat həyatı dağılacaq. Çünki belə epidemiyalar zamanı əhali təhlükəsizliyini təmin etmək üçün kütləvi şəkildə şəhəri tərk edirdi. Bu da müəssisələrdə işçi qüvvəsinin çatışmazlığına və şəhər büdcəsinə ödənilən vergilərin miqdarının azalmasına gətirib çıxarırdı.Belə bir vəziyyətdə milliyətindən asılı olmayaraq şəhərdə fəaliyyət göstərən sahibkarlar tədricən anlamağa başladılar ki, Bakının su probleminin həlli yeni su kəmərinin çəkilməsindədir.

1902-ci ildə Bakı şəhərinə yeni başçı təyin edilən Aleksandr Novikov şəhərə yeni su kəmərinin çəkilməsində qətiyyətli mövqe tutdu. A.Novikov 1902-ci il sentyabrın 22-də Tiflisdə Qafqaz mülki hissəsinin baş rəisi knyaz Q.Qolitsınla görüşür və ona Bakı şəhərini bulaq suyu ilə təmin etmək üçün Şollar bulaqları ərazisində tədqiqatlar aparmaq üçün ehtiyat kapitaldan 182 min rubl borc götürməyin zəruriliyi barədə məlumat verir. Məruzəni dinləyən knyaz Q.Qolitsın cavab verir ki, məsələnin həlli bu və ya digər mənada bulaqların yerləşdiyi su və torpaq hüququnun dəqiq müəyyən olunmasından asılıdır. Bununla yanaşı, müəyyən etmək vacibdir ki, yerli əhali tarlaların suvarılması üçün bulaqlardan istifadə edirmi, əgər edirsə, əhalinin tələbatını ödəmək üçün nə qədər su lazımdır? Şəhər üçün bu vacib məsələnin həllini sürətləndirmək üçün şəhər başçısı Şəhər İdarəsi ilə birgə dərhal şəhərin Şollar mənbələrinin yerləşdiyi torpağa və suya hüquqi haqqının müəyyənləşdirilməsi ilə məşğul olacağını bildirdi (166,1902.26.09.№ 203).

Şəhər İdarəsi Qafqaz su müfəttişliyinə müraciət edərək Şollardan Bakıya su kəməri çəkmək məsələsini nəzərdən keçirməyi xahiş edir. Bununla əlaqədar olaraq Bakının su təchizatı məsələsi müzakirə üçün 1902-ci ilin dekabrında Tiflisdə keçirilən su mühəndisləri qurultayına təqdim olundu. Görkəmli su mühəndislərindən B.Uspenskinin, B.Matveyevin, F.Kondratyevin, Q.Tarioviskinin və başqalarının iştirakı ilə keçirilən bu qurultayda Bakının su təchizatı məsələsi geniş müzakirə olundu və bu məsələdə yeraltı sulara üstünlük verildi. Lakin qurultayın

bu haqda qəbul etdiyi qərarında göstərilirdi ki, Şəhər İdarəsi Şollar bulağından su kəməri çəkdiyi təqdirdə götürəcəyi suyun miqdarını əvvəlcədən müəyyənləşdirməli və bunun müqabilində Quba qəzası kəndlilərinin mənafeyinə uyğun olaraq Samur çayının öz sularından faydalanmalı, xalqın xeyiri üçün xüsusi suvarma kanalı çəkdirməlidir (65,s.39).

Dumanın 1902-ci il 10 dekabr tarixli iclasında bulaq suyunun alınması üçün dağ idarəsinə icazə verilməsinə təminat müddəti məsələsi müzakirə edildi. Su müfəttişliyi Bakı şəhərinin bulaq suyundan istifadəsi üçün aşağıdakı şərtləri irəli sürür: Bakı şəhəri bulaq mənbələrindən su götürə bilər; bu mənbələrin gündəlik səmərəliliyi 52 milyona bərabərdir; amma kəndlilər bu suyun yarısını öz əkin sahələrini suvarmağa sərf edirlər; Buna görə də şəhər onlardan aldığının əvəzində sözügedən bulaqların 24 verstliyində yerləşən Samur çayından su kəməri çəkməklə onlara su verməyi boynuna götürür. Üstəlik, kəmər zədələnsə və kəndlilər sudan məhrum olsalar, şəhər sutakada 500 rubl cərimə ediləcək. Bu şərtlərlə razılaşarsa, hidravliklərin qurultayı ona tədqiqatlar aparmağa və su götürməyə icazə verəcək (166,1902.12.12.№ 267).

Su müfəttişliyinin təklifi Dumada azərbaycanlı və erməni deputatlar arasında kəskin mübarizə şəraitində keçdi. Azərbaycanlı deputatlar Su Müfəttişliyinin təklifini qəbul edərək şəhərə bulaq suyunun gətirilməsini müdafiə etdikləri halda, erməni deputatlar hər vəchlə çalışırdılar müxtəlif bəhanələrlə şəhərə bulaq suyunun çəkilməsinin qarşısını alsınlar.

Bu məsələ ətrafında çıxış edən H.Zərdabi qeyd etdi ki, hökumətin bizə təqdim etdiyi şərtlər mahiyyətcə ağır deyil. Sağlam, içməli su naminə Samur bulaqlarından su kəməri çəkməyə razılaşmağa dəyər. Amma şərtin ikinci hissəsi-su kəmərinin zədələnməsi halında cərimə ödənilməsi sərfəli deyil, çünki kəmər tez-tez xarab ola bilər, onu elə kəndlilər özləri də zədələyə bilər, bu səbəbdən su kəmərinin qorunması üçün xüsusi, ayıq-sayıq nəzarət lazım olacaq (166,1902.12.12.№ 267).

H.Z.Tağıyev isə bulaq suyundan su kəmərinin çəkilməsini müdafiə etdi. O, çıxışında göstərdi ki, su kəmərinin çəkilməsində xüsusi risk və təhlükə görmür. Bizə təmiz, saf bulaq suyu təklif edirlər, əvəzində onlara çirkli çay suyu veririk. Bu şərt olmasa, özümüz Samurdan su kəmərini birbaşa Bakıya çəkəcəkdik. Bu, nəhəng xərcdən əlavə, üstəlik, suyun süzülməsinə, təmizlənməsinə və sair xeyli xərc çəkəcəkdik.

Ə.Ziyadxanov isə çıxışında müfəttişliyin kəndlilərə su çəkmək tələbinin qanuni olduğunu göstərdi. Su müfəttişliyi ilə danışıqlara gedib, Samurdan özümüzə istədiyimiz şərtlər altında su çəkməklə bağlı razılığa gəlmək olar, və ya su kəmərinin zədələnməsi zamanı müfəttişlik şəhərə məlumat verə və nasazlığı aradan qaldırmaq üçün müddət göstərə bilər-əks halda cəriməni ödəmək lazım gələcək.

Şərəbəndov, Zaxarbəyov və digər erməni deputatlar bu cür təminat verməyi təhlükəli hesab edirlər, çünki nasazlıq baş verərsə, gündə 500 rubl ödəmək çətin olacaq. Kəmərin neçə dəfə zədələnəcəyini və onun neçə günə təmir olunacağını da indidən söyləmək mümkün deyil. Zaxarbəyov hətta çıxışında göstərdi ki, bu şərtləri bir qeydlə qəbul etmək olar, su kəmərinin şəhərdən asılı olmayan səbəblərdən-təbii fəlakət üzündən və sairə xarab olması zamanı şəhər cərimə ödəməyəcək. Şəhər başçısı A.Novikov isə bu çıxışa münasibət bildirərək qeyd etdi ki, bu imtinaya bərabərdir, onu qəbul etməsək, bizə icazə verilməyəcək və iş uzanacaq. Bu isə arzuolunan hal deyil. Bu təminat yalnız işin başlanması üçündür. (166,1902.12.12.№ 267).

Duma şəhər başçısı A.Novikovun və azərbaycanlı deputatların mövqeyini müdafiə edərək su müfəttişliyinin şərtlərlərini qəbul etmək barədə qərar qəbul edir (166,1902.12.12.№267).

Şəhərə bulaq suyu deyil, Kür və ya Samur çaylarından su kəməri çəkilməsində erməni su tacirlərinin mənafeyini müdafiə edən və Şollardan su kəmərinin çəkilməsinin qarşısını ala bilməyəcəyini görən Su Təchizatı Komissiyasının sədri X.Antonov tutduğu vəzifəsindən istefa verdi. X.Antonovun tutduğu vəzifədən istefa verməsi şəhərə Şollar mənbəyindən su kəmə-

rinin çəkilməsində əsaslı maneələrdən birini aradan qaldırmış oldu.Şəhər başçısı A.Novikovun bu komissiyanın sədrliyini öz üzərinə götürməsi su komissiyasını ermənilərin nəzarətindən çıxartdı. Bundan sonra komissiya məhz şəhərin və əhalinin mənafeyini önə çəkərək şəhərə məhz bulaq suyundan su kəməri çəkilməsi üzərində əməli fəaliyyətə başladı.

Duma iclaslarında şəhəri Samur, Kür və Şollar suyu ilə təchiz etmək məsələsi geniş müzakirə edilməkdə idi. H.Zərdabi "Kaspi" qəzetində "Su epopeyasına dair" məqaləsində Samur, yoxsa Kür çayından su kəməri çəkilməsinin müqayisəsini aparır. Müəllif məqaləsində yazır: "Tədqiq etmək, oradakı meşələrin sahəsini müəyyənləşdirmək və digər işləri görmək çox vacibdir ki, görək, zaman keçdikcə, oradakı şəraitin dəyişməsi səbəbindən bu çayda suyun miqdarı azalmayacaq? Həm də bu elə bir işdir ki, heç cənab Lindleyin özü də mühəndisləri, yerölçənləri və digər mütəxəssisləri ilə birgə belə, onun öhdəsindən gələ bilməyəcək".

..... Bizim 10 ildən də çox əvvəl "Kür-Bakı" su kəməri layihəmiz vardı. Amma bu layihənin tikintisinə ona görə başlaya bilmədik ki, bu barədə söhbət gedən kimi, müxtəlif su mənbələrinin bu məqsədlə istifadə olunmasında marağı olan ayrı-ayrı su işi ustaları ortaya müxtəlif su təchizatı mənbələrini ataraq, diqqəti əsas məqsəddən yayındırırdılar. Beləliklə, biz Zuğulba, Altıağac, Sumqayıt çaylarına diqqəti yönəltsək də, hər dəfə yenidən Kürün üzərinə qayıtdıq.

H.Zərdabi Bakıya Kür çayından su kəməri çəkilməsinin tərəfdarı idi. O yazırdı: Gec, ya tez, biz onsuzda yenidən Kürə qayıdacağıq. Belə isə, Kürdən su çəkilməsi məsələsinə niyə də qayıtmayaq və bununla da neçə yüz min rubl ictimai vəsaitə qənaət etməyək və su kəmərinin tikintisinə tezliklə nail olmayaq? (166,1901.28.03.№70).

H.Zərdabinin şəhərə Samur çayından deyil, Kür çayından su kəmərinin çəkilməsinə üstünlük verməsi hər şeydən əvvəl Kür su kəmərinin daha ucuz və daha tez başa gələməsi ilə əlaqədar idi ki, bu da şəhər əhalisini qısa bir müddətdə içməli su

ilə təmin edə bilərdi. Digər tərəfdən isə H.Zərdabi Kür çayının sahilində Zərdab kəndində yaşamış və görmüşdür ki, Kür çayı sahili boyunca yaşayan əhali bu çayın suyundan illərdir içməli su kimi istifadə edir və bu suyun insan orqanizminə heç bir ziyanı və fəsadları yoxdur.

Dumanın 1903-cü il mayın 27-də keçirilən iclasında bulaq suyu axtarışının təşkili haqqında məsələ müzakirə edilərkən, şəhər başçısı A.Novikov məlumat verdi ki, əlahəzrət Qafqaz canişini yeraltı suların axtarışı üçün 150 min rubl xərclənməsinə icazə veribdir. İcazə verildiyi vaxtdan 9 ay keçib. Yeraltı suyun axtarışını aparmaq üçün Duma qərar da verib. Lakin çox təəssüflər olsun ki, 150 min rublın gətirilməsi gecikdirilib. Hazırda Kür, Samur və Şollar su mənbələrindən su axtarışı işi aparılır. Bu su axtarışının layihəsi U.Lindleydədir. Bu məsələ ətrafında azərbaycanlı deputatlardan H.Zərdabi, İ.Hacıyev və M.Sultanov çıxış etdi. İclasda çıxış edən İ.Hacıyev təklif etdi ki, U.Lindleydən göstərilən layihəni alanadək bu məsələni müzakirə etmək düzgün olmaz. Deputatlardan A.Vaçyants və M.Sultanov da onun fikrini müdafiə etdilər (2,f.50.s.1.iş.226. v.70-71).

Şəhər Dumasının 1903-cü il iyunun 24-də keçirilən iclasında isə A.Novikov məlumat verdi ki, keçən yayadək Kür və Samur çaylarında axtarış aparılırdı. Kür və Samur su kəmərinin çəkilməsi məsələsinin müzakirəsi zamanı, bu çaylardan su aparılması böyük tikintiyə, suyun süzülməsi və qaldırılması üçün isə xeyli xərc tələb etməsi aydınlaşdı. Quba qəzasında yerləşən Şollar su mənbəyində də axtarış aparılır. Son axtarışlar sübut edir ki, bu mənbədə cüzi miqdarda qarışıqlı, yüksək keyfiyyətli və aşağı temperaturlu bol su mövcuddur (2,f.50.s.l.iş. 226.v.70-72).

1901-ci il iyunun 23-də Şəhər İdarəsi ilə U.Lindley arasında müqavilə imzalandı. Müqaviləyə görə, U.Lindley 1902-ci il aprelin 1-dək hidroloji axtarışları başa çatdırmalı, oktyabrın 1-i üçün isə Kür və Samur su kəmərlərinin, eləcə də şəhər kanalizasiyasının layihələrini təqdim etməli idi. İlkin işlərə və

layihələrin hazırlanmasına görə Şəhər İdarəsi U.Lindleyə 35 min rubl ödəməyi öhdəsinə götürürdü. Suyun analiz edilməsini aparmaq üçün Qusarda kimya və Kür çayının sahilində bakteroiloji laboratoriyalar təşkil edildi (2,f.50.s.7.iş. 10.v.4-9).

"Kür-Bakı" su kəməri layihəsinin tərtibi məsələləri 1901-ci il dekabrın 17-də Tiflisdə keçirilən mühəndis-hidravliklərin qurultayında müzakirə olunaraq müsbət həllini tapdı.1902-ci il martın 7-də keçirilən analoji qurultayda isə Şəhər İdarəsinin Bakı üçün Samur çayından su kəmərinin çəkilməsi haqqında vəsatəti təmin olundu.

1902-ci ilin avqustunda su kəmərinin layihə işləri başa çatdırıldı. Bu zaman kəmərin seçimi məsələsində Su Təchizatı Komissiyasının mövqeyində köklü dəyişikliyə səbəb olmuş hadisə baş verdi. Xaricdə səfərdə olan Bakı şəhərinin başçısı A.Novikov Frankfurt-Maynda U.Lindleyi ziyarət etmiş və oradan Bakıya yeraltı, həmçinin bulaq suyunun çəkilməsinin zərurətinə inanmış adam kimi qayıtmışdı. U.Lindley su kəmərinin çəkilməsi üzrə komissiya qarşısında hesabat verilməsi üçün 1902-ci il avqustun 20-də çağrılmış iclasa dəvət olundu. İclasada Şəhər İdarəsi Dumaya Samur və Kür çaylarından su kəmərlərinin çəkilməsi layihələrinin hazırlanması üçün ayrılmış 35 min rubldan 9 min rublu bu işlərin həyata keçirilməsinə, 10 min rubl axtarışların aparılmasına görə U.Lindleyə ödənilməsini, 10 min rublu su kəməri bürosu işçilərinin əmək haqqı, 1.500 rubl bakteroloji tədqiqatlara, 4.500 rublu evlərin kirayəsi haqqı üçün verilməsini, bundan əlavə yeraltı işlərin davam etdirilməsi üçün 20 min rubl lazım gəldiyini bəyan etdi (101,s.40).

Dumanın həmin iclasında Şəhər İdarəsinin bulaq suyunun axtarışına 165 min rublun ayrılması haqqındakı layihəsi oxunan zaman onun ayrı-ayrı bəndləri ilə bağlı gərgin müzakirələr başlandı. İclasda çıxış edən U.Lindley bildirdi ki, tərəfimdən göstərilən bulaqlar daim 7 milyon vedrə təmiz su verə bilər və bu miqdarı gələcəkdə artırmaq da olar. Bulaqların suyu yayda da qışdakı kimi soyuqdur. Codluğu nə aşağı, nə də yuxarıdır. Kəmərin təhlükəsizliyinə gəldikdə isə seysmik hadisələr kəməri

zədələyə bilər. Lakin bundan fərqli olaraq, Kürdən çəkilən su kəməri vulkanların olduğu ərazilərdən keçdiyindən zəlzələyə daha tez məruz qala bilər”. Nəhayət, U.Lindleyin çıxışına münasibət bildirən Duma üzvləri Bakının ehtiyat kapitalından 135 min rubl məbləğində pulun şimal, 18 min rublın cənub su mənbələrinin axtarışına yönəldilməsinə qərar verdi və səs çoxluğu ilə şəhər başçısı A.Novikovdan Tiflisə gedərək Qafqazın baş hakimi qarşısında bəhs olunan məsələnin qaldırılmasını xahiş etdi (143,1902.22. 08).

Dumada su kəmərinin hansı mənbədən çəkilməsi məsələsi azərbaycanlı və erməni deputatlarının kəskin mübarizəsi şəraitində gedirdi. Erməni deputatlar hər vasitə ilə U. Lindleyə qarşı çıxır, ona hər cür maneələr yaratmağa çalışırdılar. 1902-ci ildə Duma iclaslarının birində U.Lindleyi erməni deputatlarının kəskin tənqidlərindən müdafiə edən H.Z.Tağıyev söz alaraq üzünü U.Lindleyə tutaraq deyir: “Mən sənin palıd kimi dözümünə həsəd aparıram. Səni sağdan da, soldan da sıxırlar, təhqir edirlər. Lazım olan sənədləri vaxtında vermirlər, sonra da deyirlər ki, öhdənə götürdüyün işi vaxtında yerinə yetirmirsən. Sən bu gün bizim şəhərə çay yox, bulaq suyunu çəkməyi təklif edirsən. Kimlərsə səninlə razılaşmır, səni özlərinə düşmən hesab edir. Nəyə və kimə görə özünə düşmən qazanırsan? Pulunu al, bunların dediyi kimi Kürdən suyu çək. Sən bakılı deyilsən, ancaq Bakıya, bakılılara onlardan çox can yandırırsan. Mən sənin yerinə olsam bu yaxşılıq bilməyən insanlara heç nə etməzdim” (114,s.442).

H.Z.Tağıyevin çıxışından sonra U.Lindley ayağa qalxaraq özünün Bakıda çox möhtəşəm bir çıxışını edir: “Bizə qarşı olan bütün təxribatlara, hədə-qorxulara baxmayaraq, şəhərə keyfiyyətli bulaq suyu verəcəyəm. Əleyhimə çıxanlara isə deyirəm. Elə düşünməyin ki, mən sizə görə buradayam, sizə yaxşı su verməyə çalışıram. Xeyir, mən şor su içən kasıb bakılılara keyfiyyətli su vermək istəyirəm” (113,2017.26.01.№ 17).

Bakı şəhərinin sabiq başçısı A.Novikov göstərilən kitabında bu barədə yazırdı: “Lindleyin ideyası çox sadədir.O, Du-

maya deyir ki, siz Kürdən və ya Samurdan çay suyu istəyirsiniz. Onların hər ikisini filtrdən keçirmək və yuxarı qaldırmaq lazımdır. Lakin Şahdağın yüksəkliklərindən bulaq suyunu götürsək, siz tamamilə təmiz və özü axan su əldə edəcəksiniz. Belə suyun bir vedrəsinin qiyməti təxminən iki dəfə ucuz olacaq. Filtrlənmiş və şəhərə çəkilmiş Samur suyunun 100 vedrəsi 20 qəpiyə, amma Gil yüksəkliklərindən gələn yeraltı suyun 100 vedrəsi 10 qəpiyə başa gələcək. Lindley sonra deyir ki, mənim Gil suyunun tapılacağına qəti əminliyim olsa da, təsəvvür edin ki, hansısa səbəbdən həmin su çıxmadı.İndi şəhər axtarışlara sərf olunan 100-150 min rubulu itirəcək, axı bu hər hansı bir mənbədən suyun çəkilməsinə sərf ediləcək 10-20 milyonun qarşılığında dəryada bir damladır. Belə olan təqdirdə, çay suyuna yox, bulaq suyuna dəstək verin. Şahdağdan axan bu sular dəniz sahillərinə yaxın ərazilərdə yerin səthinə çıxır, Şollar və başqa mənbələri yaradır. Axı Samurla Şolların nə fərqi var? Samur Şahdağ yüksəkliklərindən yerin üstü ilə axır. Şollar da Şahdağdan axan çaydır, lakin iyirmi verstlik tükənməz yeraltı filtrdən Allahın özü tərəfindən təmizlənib.

Şollar suyunun yerin altından qaldırmaq lazım olacaq, lakin onun filtrlənməyə ehtiyacı qalmayacaq. O Gil suyundan baha, lakin Samur çayından ucuz-10 və 20 qəpik yox, 15 qəpik olacaq. Həm də Şollar Samurla Bakının arasındakı yolun üstündədir və axtarışlar çox ucuz başa gələcək (27,s.55-56).

1903-cü ilin noyabrın 25-də Şəhər İdarəsi nəhayət ki, U.Lindleylə Şollar kəməri üçün layihə tərtib etmək barədə müqavilə imzaladı. Həmin müqaviləyə əsasən, U.Lindleyə axtarışlar aparmaq və layihələr tərtib etmək həvalə olunurdu. Axtarışlar üzrə bütün işlər şəhər tərəfindən maliyyələşdirilir, qazma və axtarışlar üzrə digər işləri U.Lindleyin rəhbərliyi altında şəhər özü həyata keçirməli idi. Axtarışlar aparmaq üçün şəhər lazımi avadanlıqla təmin olunmuş büro təşkil edirdi. Layihələr 1 il müddətində şəhərə təqdim olunmalı idi (3,f.389.s.7.iş 24.v.5).

Duma tərəfindən 1903-cü ildə şəhər başçısı A.Novikovun sədrliyi ilə yeraltı su axtarmaq məqsədilə xarici firmaların və mütəxəsislərin fəaliyyətinə nəzarət etmək üçün komissiya yaratmışdı. Bu komissiyanın tərkibinə H.Zərdabi, M.Unanov, İ.B.Hacınski və İ.B.Hacıyev daxil idilər. Bu komissiya səlahiyyət çərçivəsindən kənara çıxaraq bir fransız qazma şirkəti ilə bulaqlıq ərazisində qazma işlərinin aparılması barədə müqavilə bağladı.

Komissiyasının fransız qazma şirkəti ilə müqavilə bağlaması azərbaycanlı deputatların böyük narazılığına səbəb olmuşdur. Çünki bu komissiya fransız qazma şirkəti ilə müqavilənin layihəsini işləyib hazırlamalı və Şəhər İdarəsinə təqdim etməli idi. Lakin komissiyasının fransız qazma şirkəti ilə müqavilə bağlamağa səlahiyyəti yox idi. Dumanın 1903-cü il dekabrın 16-da keçirilən iclasında Fransız qazma şirkəti ilə bağlanmış müqavilə müzakirə edildi. Müzakirələrdə deputatlardan H.Zərdabi, Ə.M.Topçubaşov, H.Z.Tağıyev, M.Sultanov, N.Sadıxov və Ə.Ağayev məsələ ətrafında çıxış etdilər. Dumanın icazəsi olmadan müqavilənin bağlanması əleyhinə çıxış edən H.Zərdabi bildirdi ki, mən Dumanın icazəsi olmadan 125 min manatlıq müqavilənin bağlanmasının mümkün olmadığını bildirdim. Lakin komissiya böyük əksəriyyətlə müqavilə bağlamaq haqqında qərar qəbul etdi. İndi artıq komissiya müqavilə bağlayıb. Daha sonra o, çıxışında əlavə etdi ki, mən komissiya üzvlərinə təklif etdim ki, müqavilə layihəsini hərtərəfli müzakirə etmək üçün mütəxəsislər dəvət edilsin lakin komissiya bu təklifi də qəbul etmədi. O, müqavilənin bağlanması əleyhinə çıxış edərək bildirdi ki, Dumadan səlahiyyət almadan komissiyanın müqaviləni bağlamaq üçün heç bir hüququ yoxdur. Buna baxmayaraq komissiya üzvləri, məndən başqa müqavilə layihəsini tərtib edərək imzalayıblar (2,f.50.s.l.iş.141.v.3)

Ə.M.Topçubaşov isə çıxışında müqavilənin bağlanması əleyhinə çıxış edərək, Dumadan səlahiyyət almadan komissiyanın hər hansı bir müqaviləni bağlamaq hüququ olmadığını bildirdi. O, daha sonra qeyd etdi ki, komissiya müqavilə müna-

sibətlərinə daxil olmaq səlahiyyətinə malik deyil. Onun səlahiyyətinə isə ancaq yeraltı suları axtarmaq işi daxildir. Bu isə təmiz texniki səciyyə daşıyır. Ə.M.Topçubaşov daha sonra qeyd etdi ki, komissiyanın 3-4 nəfər üzvünün müqaviləni bağlayıb məsuliyyəti öz üzərinə götürməsi qeyri-qanunidir. Şəhər "Əsasnaməsi"nə görə isə şəhər müqavilə münasibətlərinə ancaq ictimai özünüidarənin icra orqanı olan Şəhər İdarəsi vasitəsilə daxil ola bilər. Sonda o bu məsələnin təxirə salınıb su kəməri komissiyasına verilməsini təklif etdi və su kəməri komissiyasına aid olan məsələlərin tələsik və təcili baxılmasından narahat olduğunu ifadə etdi (2,f.50.s.l.iş.242.v.3-4).

Bakı şəhərinin sabiq başçısı A.Novikov göstərilən kitabında bu barədə yazırdı:"Yeraltı axtarışlar mənim sədrliyim altında dörd nəfərdən ibarət kiçik komissiyaya tapşırılmışdı. Komissiya Lindleyin axtarışlarının əlehdarlarından təşkil olunmuşdur.Yalnız Duma üzü İ.Hacınski mənim xahişimlə seçilmişdir. İş birtəhər gedirdi. Lakin mən olmayanda Lindleyin nümayəndələrinin istəyinə zidd olaraq fransız qazma cəmiyyəti ilə axtarışların aparılmasına dair müqavilə bağlandı.Vəziyyət çox dolaşdı. Lindley öz nümayəndəsi vasitəsi ilə axtarşlar aparır, şəhər isə onlara hər cür maneə olurdu. Həm də mən səhv elədim: yalnız zahiri əlamətlərinə aldanaraq, gənc erməni mühəndisini axtarışlar aparılan yerdə şəhərin nümayəndəsi qismində məsləhət gördüm. O, heç də özünü yaxşı tərəfdən göstərmədi. Didişmələr başladı. Hər şeyin başında isə Lindleyə və mənə qarşı qərəzlik dururdu. Addımbaşı axtarışların dayandırılması haqqında söhbətlər gedirdi".

Cəmiyyət özü necə gəldi işləyir, qazmanı yubadır və şəhərin xərclərini artırırdı. Mən qayıdıb gəldim, komissiyanı çağırdım. Görürəm ki, ancaq bir şey istəyirlər- məndən, Lindleydən və axtarşlardan qurtarmaq. Axtarışlar aparılan yerə birgə səfər etmək təklifini verdim. Razılaşdılar. Təkcə Hacınski getdi.Yerində əmin olduq ki, iş pis gedir (27,s.59).

A.Novikovun göstərilən kitabından məlum olur ki, komissiya səlahiyyəti olmadan bir fransız qazma cəmiyyəti ilə

bağladığı müqavilə Lindleyin əleyhinə yönəlməklə bir növ Şollar ərazisindən su kəmərinin çəkilməsinin əleyhinə çevrilmişdir. Məqsəd isə A.Novikovu və V.Lindleyi şəhərə su kəmərinin çəkilməsindən uzaqlaşdırmaq və Şollarda başlanan işi yarımçıq qoymaq idi.

Şollarda ilk işlər suyun dərinlik səviyyəsinin və həcminin müəyyən edilməsi məqsədilə quyuların qazılmasından ibarət oldu. 1904-cü il fevralın 3-də Lindleyin rəhbərliyi altında "Şollar" da sınaq qazma işlərinə başlanılır. Fransız qazma şirkəti ilə bağlanan müqaviləyə görə, şirkət bir sajeni 55 manatdan olmaqla 40 su quyusu (dərinliyi 20-100 sajen) qazmalı idi. Birinci quyu Xudat stansiyasından 5 verstlikdə "Şollar" bulaqlarının yaxınlığında qazıldı. Bununla da, ilk quyunun qazılması ilə laylar mərkəzində güclü su ehtiyatlarının olduğunu tam olaraq sübuta yetirmiş oldu. Ümumiyyətlə, Şollar mənbəyində toplanan sular çay-buzlaq çöküntülərindən əmələ gəlir və Şahdağın ətəklərindən Xəzər dənizinin sahilləri istiqamətində yönələn bütün ərazilərdə yeraltı sular intensiv yağıntılardan qidalanır (95,s.74).

Lakin qazma dəzgahları ərazidəki çınqıl layları keçə bilmədiyindən nəzərdə tutulan müddətdə və sayda quyuların qazılması mümkün olmur, bu səbəbdən layihələr gecikdirilir, əlavə xərclər isə artırdı. U.Lindleyin nümayəndələri hidroloji və geoloji tədqiqatları davam etdirməklə yanaşı sahənin masştablı xəritəsini də hazırlayırdılar. Lakin çox keçmədən işin sürəti xeyli azaldı. Fransız qazma şirkəti texnika çatışmadığından işləri iki köhnə qazıma dəzgahı ilə aparırdı ki, bu dəzgahlar da çınqıl layları keçə bilmirdi. Bunun nəticəsi idi ki, şirkət tərəfindən 1904-cü ilin may ayına kimi cəmi 4 buruq quyusu qazılmışdı. Layihəyə görə isə ümumi dərinliyi 250 sajen olan 40-a qədər quyu qazılmalı idi (64,s.34).

Dumanın 1904-cü il 18 may tarixli iclasında Şəhər İdarəsinin gil yüksəkliyində yeraltı sularla bağlı axtarışlar barədə məruzəsi müzakirə edildi. Deputatlara məlumat verilir ki, 1903-cü ilin əvvəlində Qafqaz mülki hissə üzrə baş rəisi gil yüksəkliyində tədqiqatlar üçün 125 min rubl ayrılmasına icazə verib.

Tədqiqatlar U.Lindleyə tapşırıldı, payızda onun nümayəndələri hadisə yerinə gəlib işlərə başladılar.Tədqiqatlara "Fransız qazma cəmiyyəti" də cəlb olundu. Eyni zamanda Duma bulaqlıq ərazisindəki araşdırma işlərinin aparılması üçün A.Novikovun sədrliyi ilə komissiya yaratdı. Son zamanlar isə həmin ərazidən işlərin qənaətbəxş olmaması barədə tez-tez məlumatlar gəlirdi ki, tədqiqatlar tısbağa sürəti ilə aparılır, hər "tədqiq olunmuş" sajen şəhərə lazım olduğundan dörd dəfə baha başa gəlir. Bu səbəblərdən, bir müddət əvvəl komissiyanın iclası keçirildi və qərara alındı ki, A.Novikov və İ.Hacınski yoxlama üçün hadisə yerinə getsinlər (166,1904.20.05.№ 113; 30,s.497).

Yoxlama nəticəsində işlərin ləngiməsi və onların qənaətbəxş olmaması barədə kədərli fakt-çox pul xərclənib, az iş görülməsi təsdiqləndi. Məlumdur ki, bu şəraitdə işlər davam etdirilə bilməz. Şəhər üçün böhranlı vəziyyətdir. U.Lindley Şəhər İdarəsinə fransız "qazma cəmiyyəti"ni işdən uzaqlaşdırmağı, bütün araşdırmaların istisnasız olaraq onun təmsilçilərinin mühəndisi və rəhbərliyi altında, təsərrüfat üsulu ilə aparılmasını təklif edir (166,1904.20.05.№ 113).

Bu şərtlərlə hər qazılan sajen 42 rubla başa gələcək. Şəhər arzu edərsə, U.Lindleyin təmsilçiləri ilə məsləhətləşib işi podratçılara da verə bilərlər. İşlərin təsərrüfat və ya podrat üsulu ilə görüləcəyi təqdirdə ortaya çıxacaq izafi işlərə U.Lindley cavabdeh deyil.

Göstərilən məsələ ilə bağlı çıxış edən İ.Hacınski belə hesab etdi ki, şəhər pullarını havayı xərcləmək cinayətdir. Bu günədək işlərin yaxşı aparılmamasının və ləngimənin günahkarı U.Lindley və onun təmsilçiləri deyil.

H.Z.Tağıyev isə çıxışında qeyd edir ki, təssüf ki, 15 il müddətində bu məsələ ilə bağlı heç bir qərara gələ bilməmişik. Dumada qruplar yaranıb, onların hərəsi öz marağını güdür, hamısı bəlağətlə danışır, deputatlar bu cür vacib məsələni həll etməkdə bacarıqsızlıqlarını sübut edirlər. Bizə nə Kür çayı lazımdır, nə Samur. Bizə istədiyimiz su lazımdır.Sudan başı

çıxmayan deputatların onun keyfiyyəti barədə danışdığını eşidəndə mat-məəttəl qalıram (166,1904.20.05.№ 113).

Deputat K.İretski bulaq suyunun əleyhinə çıxaraq bildirdi ki, ilk gündən U. Lindley fanatikcəsinə sübut edirdi ki, bizə öz axarı ilə bulaqlıq ərazisindən gələn su lazımdır. Onunla mübahisə edirdik, nəticəsi olmurdu.Ona deyirdik ki, Şollar suyunun codluq dərəcəsi 19-dur, sübut edirdi ki, 8-dir. Biz gil yüksəkliyindən suyu öz axını ilə şəhərə gətirməyin mümkünlüyünə inanmayanda, 4 mütəxəsis bunun mümkün olmadığını deyəndə şəhər başçısı bəyan etdi:"Lindley deyir ki, olar və mən ona inanıram". Şəhər başçısının cənab Lindleyə inamı dörd mütəxəsisin elmi məlumatlarını təkzib edir.Sonra o çıxışını davam etdirərək deyir: Gil yüksəkliyində bütün işləri dayandırmaq və Şollar bulaqlarının tədqiqini 30 min rubl civarında davam etdirməyi təklif etdi. Qeyd etmək yerinə düşərdi ki, keçmiş şəhər başçısı olmuş deputat K.İretski ötən illərdə Şollar su kəmərinin əleyhinə idi. İndi artıq onunda Şollar su kəmərinə olan münasibətinin tədricən dəyişdiyini görürük (30,s. 498).

H.Zərdabi isə çıxışında bildirdi ki, Duma Şollar suyu üzərində dayandı. U. Lindleyin təmsilçiləri orada suyun 12 dərəcə cod olduğunu deyirlər. Yenə suyun texniki komitəyə analizə verilməsini təklif edirəm. Duma onun təklifini qəbul etdi (166,1904.20.05.№ 113).

Göründüyü kimi artıq H.Zərdabinin də Şollardan su kəmərinin çəkilməsinə münasibəti tədricən dəyişir. O əvvəllər birmənalı şəkildə şəhərə Kür çayından kəmərin çəkilməsini irəli sürürdü. Artıq aparılan araşdırmalardan sonra Şollardan su kəməri çəkilməsinin əleyhinə çıxmasada onun analiz edilməsi və şəhərə daha keyfiyyətli suyun gətirilməsi istiqamətində mövqe tutduğunu görürük.

Duma 1904-cü il mayın 18-də yeraltı sular üzrə axtarışları dayandırmaq barədə qərar qəbul etdi (166,1904.20.05.№ 113).

Dumanın 1904-cü il 26 may tarixli iclasında şəhər başçısı A.Novikov Su Təchizatı Komissiyasının sədrliyindən imtina etdiyini bəyan etdi. Onun istefa verməsinin əsas səbəbi bulaqlıq

ərazisində fransız qazma şirkətinin su quyularının qazılmasında işlərin ləng görməsi ilə bağlı idi.

A.Novikovun istefasını azərbaycanlı deputatlar narazılıqla qarşıladılar. Çünki o şəhərə bulaq suyunun çəkilməsinin tərəfdarı idi. H.Zərdabi çıxışında bildirdi ki, mən sizin su kəməri komissiyasının sədrliyindən nə üçün imtina etdiyinizi anlaya bilmirəm. Səbəb Gil yüksəkliyindəki tədqiqatların iflasa uğramasıdırsa, bunda günahkar Duma yox, sizsiniz.Deputatlar tədqiqatların yox, Lindleyin çox əlverişsiz təklifinin əleyhinə idilər. Məsələni elə qoydunuz ki, Duma ya Linleyin rəhbərliyi ilə tədqiqatların davam etdirilməsini, ya da işlərin dayandırılmasını seçməli idi.Siz mühəndis Lindleysiz Gil yüksəkliklərində heç bir tədqiqatın aparılmasını qəbul etmirsiniz, sanki əlinizin altında başqa sahibkarların təklifi yoxdur. Axı siz özünüz sədr olmaq istəmisiniz, indi isə imtina edirsiniz (166,1904.28.05.№119; 30,s.503).

Lakin Dumanın 1904-cü il iyunun 4-də keçirilən iclasında Şollar və ətraf ərazilərdə aparılan qazma işlərinin dayandırılması haqqında qərar verdi və iyunun 5-də fransız cəmiyyəti işləri dayandırmalı oldu (3,f.389.s.7.iş.21.v.11).

Dumanın 1904-cü il 21 sentyabr tarixli iclasında Şəhər İdarəsinin "Fransız qazma cəmiyyəti" ilə bulaqlıq ərazisindəki işlərin dayandırılması barədə məlumatı verilir. Dumanı həmin ərazidə bütün tədqiqatları dayandırmaqla bağlı 4 iyul qərarından və şəhərin sabiq mühəndisi Arutyunovun müşahidəsi altında gedən bütün işlər ləğv olunduqdan sonra "Fransız qazma cəmiyyəti" Şəhər İdarəsinə 8.471 rubl hesab təqdim edib. Cəmiyyətin fikrincə, Şəhər İdarəsi görülən işlərin əvəzində bu məbləği və eyni zamanda cəmiyyətin qoyduğu girovu ödəməlidir. Şəhər İdarəsi bu pulu "Fransız qazma cəmiyyəti"nə ödəmək qərarına gəlir. Duma elə həmin iclasında göstərilən məbləğin "Fransız qazma cəmiyyəti"nə ödənilməsi barədə qərar qəbul edir (166,1904.22.09.№ 214).

Qazma işləri dayandırıldıqdan sonra Şəhər İdarəsi U.Lidleylə də müqaviləni pozur. Su kəmərinin çəkilməsi ilə bağlı bütün işlər 1908-ci ilə qədər aşağıdakı səbəblərdən dayandırıldı:

1.Quba qəzası əhalisi Şollar suyundan suvarma məqsədi üçün istifadə etdiyindən bulaqlıq ərazisindən şəhərə su çəkilməsinə icazə vermirdilər. Yalnız Bakı şəhərinin hesabına Samur çayından suvarma kanalı çəkilməsi şərti ilə, razılq alındı;

2. bulaqlıq mərkəzində tədqiqat məqsədilə quyuların qazılması ləng gedirdi. Bu işlə məşğul olan Fransız qazma şirkəti müqavilədə göstərilən müddət ərzinidə bütün işin yalnız 8 faizini görmüşdü. Bununla əlaqədar olaraq müqavilə dayandırılmış və bütün işlər əl ilə davam etdirilmişdi;

3.su kəməri çəkilişi üçün minimum 934,25 hektar torpaq icarəyə götürmək lazım idi ki, bunun üçün də 120 min rubl tələb olunurdu. Əgər su kəmərinin özünün tikintisi üçün tələb olunan 23,5 milyon rubl da nəzərə alınarsa şəhər maliyyə cəhətdən ağır vəziyyətdə salınırdı (65,s.41).

Rusiyada baş verən inqilabı hərəkatlar və onunla eyni vaxda Bakıda 1905-1906-cı illərdə erməni terroru təbii ki, şəhərin təsərrüfat həyatında da əks olunurdu. Bakıda baş verən siyasi hadisələr şəhər təsərrüfatının kəskin böhranına gətirib çıxartmış, su kəməri məsələsinin həllini xeyli ləngitmişdi. Yalnız 1908-ci ildə Şəhər İdarəsi su kəmərinin çəkilməsi ilə bağlı işlərə yenidən başlaya bildi.

Rus inqilabının təsiri ilə Azərbaycanda həm inqilabi, həmdə milli azadlıq hərəkatı gücləndi və milli şüur inkişaf etdi. Bu hal Duma seçkilərində də öz təsirini göstərdi. 1907-ci il seçkisindən sonra Dumanın mühafizəkar tərkibinin dəyişilməsi şəhərin su kəməri ilə təchizi işində böyük dəyişiklik yaratdı.

1907-ci ilin yayında Dumanın və Su Təchizatı Komissiyasının üzvi Mirzə Əsədullayev Berlinə gedir və U.Lindleylə görüşərək Şəhər İdarəsi adından onu yenidən Bakıya dəvət edir. Dəvəti qəbul edib Bakıya qayıdan U.Lindley dərhal işə başlayır və bu dəfə şəhər rəhbərliyi, xüsusən yeni şəhər başçısı N.Rayevski tərəfindən hər cür dəstək alır. Duma üzvləri 1907-ci

ildə H.Z.Tağıyevin təklifi ilə N.Rayevskini şəhər başçısı vəzifəsinə seçirlər. Məhz H.Z.Tağıyevlə şəxsi tanışlıq və onun təklifi əsasında N.Rayevskinin Bakı şəhərinə şəhər başçısı vəzifəsinə seçilməsi şəhərə su kəmərinin hansı mənbədən çəkilməsində öz müsbət təsirini göstərdi. Onun rəhbərliyi dövründə azərbaycanlı deputatların xüsusən də, H.Z.Tağıyevin illərdir irəli sürdüyü və tələb etdikləri "Şollar-Bakı" su kəməri reallaşmağa başladı. Bunu N.Rayevskinin H.Z.Tağıyevə göndərdiyi və "Kaspi" qəzetində dərc olunan məktubu da təsdiq edir. N.Rayevski məktubunda yazırdı: "Sizinlə ilk görüşümə nəzər salarkən, məni Bakıya işləməyə çağırarkən dediyiniz sözləri xatırlayıram: "... su,su, Şollar-budur bizim işimiz". Hacı, Siz 25 il doğma şəhər üçün su arzusu ilə yaşamısınız. Arzunuzun həyata keçməsi yolu çətin idi. Dörd ildən artıq kəskin mübarizə, ağır, yalnız öz maddi maraqlarını güdən adamlarla mübarizə. Onlar üçün Bakı şəhərinin maraqları yalnız öz maddi xeyirləri baxımından əhəmiyyətli idi. Hər şeyi qaydasına düşdüyü təsəvvürü yarananda, kəmərin tikintisi üçün ayrılan pulun götürülüb-götürülməməsi məsələsi uğrunda mübarizə başladı. Yenə də mübarizə şəhərin maraqları deyil, şəxsi maraq üçün gedirdi. O anı xatırlayıram ki, Siz işi xilas etməkdən ötrü krediti imzalamağa şəhərin müvəkkil etdiyi şəxs kimi öz yerinizi başqasına verdiniz. İş görüldü və indi əlehdarlar bayram edə bilmirlər, onlar öz şəxsi maraqlarını qurban verməyə və cəmiyyətin maraqlarına tabe olmalı oldular" (166,1917.1.03.№ 48)

Su kəmərinin çəkilməsində yaranan problemlərdən biri də Quba qəzasının əhalisi Şollar suyundan istifadə etdiyindən bu bulaqlardan Bakıya kəmər çəkilməsinə icazə vermirdilər. Bu məsələ sonradan Bakı şəhəri hesabına Quba qəzasına Samur çayından suvarma kanalı çəkilməsi şərti ilə həll olundu.

Digər bir problem isə su kəməri çəkilişi üçün əhalidən icarəyə götürülən torpaq haqqı və kəmərin özünün tikintisi üçün tələb olunan vəsaitlə bağlı idi. Qafqaz canişini və Mərkəzi hökumət bu iş üçün hər hansı vəsait ayırmaqdan imtina edirdi,

şəhərin özünün isə 4 milyona yaxın maliyyə xərcini çəkməyə gücü çatmırdı.

Dumanın erməni deputatları tərəfindən müdafiə edilən erməni mühəndis Markarov U.Lindleyin prosesə ayrılan vəsaitin guya düz xərcləmədiyindən təqsirləndirərək məsələnin Dumada müzakirəsinə və həqiqət aydınlaşana qədər işlərin saxlanılmasına nail omuşdur. Sonradan erməni Markarov səhv etdiyini boynuna alsa da, bu fakt kəmərin tikintisinin qarşısının alınmasında, yaxud uzadılmasında marağı olan erməni deputat və sahibkarların öz məqsədləri yolunda heç bir vəsaitdən, hətta böhtandan belə çəkinmədiyini göstərdi.

1909-cu ilin mart ayının 15-dən 22-nə kimi Tiflisdə Rusiya hidravliklərin IX qurultayı keçirildi. Bu qurultayda "Bakı şəhərinin su təchizatı haqqında" çıxışında U.Lindley Şollar bulaqları qrupuna daxil olan suyun miqdarının sutkada 6 milyon vedrə hesablandığını göstərdi. Şollardan suyun öz axını ilə kəmərlə çəkilməsinin böyük səmərə verəcəyini qeyd etməklə, Şollardan bir qədər şimalda və cənubda olan bulaqların suyunu buraya əlavə etsək sutkada 12 milyon vedrə su götürülməsinin mümkünlüyünü sübut etdi. Bütün aparılan müqayisəli təhlillər nəticəsində Şollar ərazisindən çəkiləcək qrunt suları Bakı şəhərinin su təchizatı sistemi üçün həm suyun keyfiyyəti, texniki cəhətdən etibarlılığı və həm də ucuz başa gəlməsi ilə ən yaxşı həll yolu olduğunu sübuta yetirmiş oldu. Qurultayda Bakı su kəmərinin Şollardan çəkilməsinin məqsədəuyğunluğu barədə qərar qəbul etdi. Qurultaydan sonra, bu məsələ ilə əlaqədar U.Lindley Duma üzvləri və texniki cəmiyyət nümayəndələri qarşısında çıxış edərək, Şollar suyunun o dövrdə şəhərin su tələbatını tam ödəyəcəyi barədə fikrini iclas iştirakçılarına inandıra bildi (95,s.75).

1909-cu ilin yayında Bakıda yenidən vəba epidemiyası yayıldı. Bakıda içməli su kimi istifadə olunan 800 su quyusunda sanitariya vəziyyətinin son dərəcə ağır olduğu qeydə alındı. Şəhərdə vəba epidemiyasının yayılması və əhalinin su təchizatında yaranmış ağır və dözülməz vəziyyət Dumanı əməli işə

başlamağa məcbur etdi. 1909-cu il martın 25-də U.Lindley Bakı şəhərinin su təchizatı ilə bağlı Dumaya Kür və Samur çaylarından və Şollar mənbələrindən kəmərlərin çəkilməsi haqqında üç layihə təqdim etdi. Bu layihələr əsasında şəhər başçısı N.Rayevskinin imzası ilə Şəhər İdarəsinin Maliyyə və Su Təchizatı Komissiyalarının məruzəsi hazırlandı. Məruzədə göstərilirdi ki, komissiyalar və idarə 1909-cu ilin aprelin 29-u, 30-u və mayın 1-də keçirdikləri iclaslarında yekdilliklə Şollar su kəmərinin üstünlüklərini bəyənmiş və aşağıdakı səbəblərə görə həmin kəmərin layihəsinin qəbul olunmasını təklif edir:1) şollar kəməri tərkibində bakteriyalar olmayan qrunt suyunu verir və həmin su keyfiyyətinə görə bakteriyaları çox olan Kür və Samur sularından qat-qat yüksəkdir; 2) şollar suyunda azotlu maddələr ümumiyyətlə yoxdur; 3) kür və samur suyu təmiz olmadığından bu mənbələrdən kəmər çəkilərsə filtrlərin quraşdırılması lazım gələcək, halbuki Şollar su kəmərində filtrlərə ehtiyac olmayacaq; 4) bulaq suyunun temperaturu qışda və yayda sabit, Kür çayındakı isə dəyişkəndir. Bakının isti yayını nəzərə alaraq, üstünlüyü daim mülayim temperaturu olan suya vermək məqsədəuyğundur.

Məruzədə həmçinin Şollar kəmərinin texniki üstünlüklərinə də diqqət yetirilirdi. Belə ki, Samurdan su Bakıya öz axarı ilə gəlsə də, bununla yanaşı böyük təzyiqli sifonların quraşdırılması lazım gələcək və buna görə də xüsusilə möhkəm konstruksiyalara, torpağın bərkidilməsinə tələbat yaranacaq, bu səbəbdən kəmərin hər hansı bir hissəsi xarab olarsa, daimi suyun təchizatında fasilə yarana bilər. Kür çayından kəmərin çəkiləcəyi təqdirdə təzyiqin ümumi hündürlüyü 173 m olan 3 su ötürücü stansiyanın tikilməsi lazım gələcək. Kəmərin əlverişsiz qrunt üzərindən keçəcəyini və xüsusi bərkidilmə işlərinə ehtiyac olduğunu nəzərə alaraq, məruzədə Kür kəmərinin də texniki xüsusiyyətləri mənfi xarakterizə olunurdu. Şollar layihəsinə gəldikdə isə, bu kəmərin Sumqayıtda 1 su ötürücü stansiyası olmalı idi, onun da təzyiqinin hündürlüyü 139 m-ə çatacaqdı. Şollar kəmərinin keçəcəyi ərazinin qruntu da əsasən əlverişli idi.

Nəhayət, Şollar kəməri ilə gətirilən suyun əhaliyə satış qiyməti də ən aşağı olacaqdı (27,s.37).

Bu məruzəyə baxan Duma 1909-cu il mayın 5-də Şollar su kəməri layihəsini təsdiq etdi. Beləliklə, "Şollar-Bakı" su kəmərinin tikintisi məsələsi nəhayət ki, öz müsbət həllini tapdı. Bundan sonra, 1909-cu ildə Şollar su kəmərinin çəkilməsi haqqında Şəhər İdarəsi U.Lindleylə müqaviləni yenidən bərpa etdi. U.Lindley onunla yenidən bağlanan müqavilədə nəzərdə tutulan bütün işləri artıq maneəsiz yerinə yetirə bilirdi.

1909-cu ilin mayın 5-də Duma və Geoloji Komitənin birgə iclasında Şollar su kəmərinin tikintisinə başlamaq barədə qərar qəbul edildi. Lakin şəhərin su kəmərini çəkmək üçün kifayət edə biləcək qədər vəsaiti yox idi. Su kəmərinin çəkilməsini sona çatdırmağı

qərar verən Duma Şəhər İdarəsinə 23,5 milyon rubl məbləğində istiqraz buraxmağı həvalə edir və bu məqsədlə şəhər başçısı N.Rayevskini Peterburqa göndərir. Peterburqda hökumət üzvləri ilə görüşən N.Rayevski uzun müzakirələrdən sonra, nəhayət ki, məqsədinə nail olur. Çar II Nikolay 1909-cu il 6 oktyabr tarixli fərmanı ilə Bakı şəhərinə 49 il müddətinə, illik 5 faiz, 27 milyon rubldan çox olmamaq şərti ilə istiqraz buraxılmasına icazə verir. Bu vəsaitdən 23,5 milyon rubl su kəmərinin inşasına, 3,5 milyon rubl isə şəhərin digər ehtiyaclarına xərclənməli idi (154,s.35).

Lakin bundan sonra Bakı neftini ələ keçirmiş müxtəlif xarici şirkət sahibləri və xüsusəndə erməni neft sahibkarları Şollar su kəməri üçün buraxılan istiqrazlara qəsdən maraq göstərmirdilər. Buna görə də Şəhər İdarəsi U.Lindleyin bilavasitə köməkliyi ilə 1909-cu ilin dekabrın 18-də "K.Berç-Krisp və K" və "İngilis-rus" tresti ilə müqavilə bağlayır və istiqrazların nominal dəyərinin 93 faizi miqdarında qiymətə satışına nail olur.1910-cu il mayın 7-də Maliyyə Naziri müqavilənin şərtlərini təsdiq edir. Şəhər İdarəsi isə su kəməri istifadəyə verildikdən sonra 49 il müddətinə su satışından əldə edilən gəlir hesabına ona verilən kreditin ödənişini həyata keçirməli idi (154,s.35).

Lakin göstərilən bu vəsait su kəmərinin maliyyələşdirilməsinin öhdəsindən tam gələ bilmədi və tikintinin gedişində yenidən bir sıra obyektiv səbəblərdən pula ehtiyac yarandı. Belə ki, Birinci dünya müharibəsinin gedişi ilə əlaqədar olaraq pulun dəyərdən düşməsi, tikinti materialları qiymətinin, daşıma xərclərinin və tikintidə işləyən fəhlələrə ödənilən əmək haqlarının artması bir şəraitdə su kəmərinin tikintisinə ayrılan vəsaitin xərclənib qurtardığını ortaya çıxartdı. Bu səbəbdən də 1915-ci il iyulun 2-də Şəhər Duması Şollar su kəmərinin maliyyələşdirilməsi üçün 10 milyon rubl məbləğində əlavə istiqrazların buraxılması haqqında qərar qəbul etdi. Mərkəzi hökumət isə istiqrazların buraxılmasına qədər Şəhər İdarəsinə Moskva banklarından 8 milyon rubl qısamüddətli kredit götürməsinə icazə verdi. Görülən bu tədbirlər su kəməri tikintisinin sonrakı gedişinə öz müsbət təsirini göstərdi.

1910-cu il martın 30-da Şəhər İdarəsi U.Lindley ilə bağlanan müqaviləyə görə Bakı şəhəri və ətrafının yeni su təchizatı qurğularının layihələndirilməsi ilə bağlı rəhbərlik və yoxlama, həmçinin su kəmərinin istismarı və onunla əlaqəli bütün sahələrə nəzarət işini su şəhər şəbəkəsinə qoşulduğu andan sonrakı bir il müddəti də daxil olmaqla U.Lindleyə həvalə olunurdu (166,1910.17.03.№ 61).

Tikintinin təşkili üzrə bütün işlər 1910-cu il mayın 1-də Şəhər İdarəsi nəzdində yaradılan Su Kəmərinin tikintisi üzrə şöbə tərəfindən aparılırdı. Tikintinin baş mühəndisi U.Lindley, onun müavini mühəndis-texnoloq Stefan Skrjivan təsdiq olunmuşdur. 1910-cu ildən-1912-ci ilədək Su Kəmərinin Tikintisi üzrə Şöbəyə şəhər başçısı N.Rayevski rəhbərlik edib, 1912-ci ildən isə bu vəzifəyə yollar mühəndisi P.Freze təyin olundu.

"Şollar-Bakı" su kəmərinin tikintisi çərçivəsində Şollar ərazilərində qazıntı işlərinin aparılması, Sumqayıt nasos stansiyasının, suyun yığılması üçün şəhər daxili su tutarların tikilməsi, şəhər və sənaye boru kəmərlərinin çəkilməsi, bu məqsədlə boruların sifarişi, qum və çınqıl alınması, tikintinin su təchizatı, eləcə də tikintiyə nəzarətin, tibbi xidmətin, mühafizənin həyata

keçirilməsi ilə bağlı bütün işlər U.Lindley tərəfindən əvvəlcədən hazırlanmış smeta əsasında aparılırdı. Bununla da 1910-cu ilin iyun ayında "Şollar-Bakı" su kəmərlərinin trassasının müəyyən olunması sahəsində kəşfiyyat işlərinin həyata keçirilməsinə başlanır. Şəkil çəkmə, haşiyələnmə, işçi planlarının hazırlanması, onlarının surətlərinin xəritəyə köçürülməsi və sairə bu kimi işlər 1911-ci il mart ayının 1-də başa çatdırılır (95,s.76).

Su kəmərinin çəkilməsi üçün maddi vəsait həll edildiyi vaxtda kəmərin keçəcəyi torpaqların icarəyə verilmədiyi və ya torpaq sahiblərinin külli miqdarda pul tələbi ortaya çıxdı. Lakin bu məsələ də öz müsbət həllini tapır. 1912-ci il yanvarın 29-da çar II Nikolay Şollar su kəmərinin keçəcəyi 872 hektaradək torpaq sahəsinin Bakı şəhərinin ixtiyarına verilməsi haqqında fərman verdi (140,1913.06.03.№52).

1910-cu ilin oktyabrında Şollar su kəmərinin konsessiya üsulu ilə çəkmək haqqında müsabiqə elan edilməsi ilə bağlı qərar qəbul olundu. Su kəmərini Peterburqdan "Bunqe-Bray-keviç və Plaşkoviski", İtaliyadan "Luici-Fakkanoni" və ingilis "Vooker və K" firmaları çəkmək istəyirdilər. Sonradan ingilis "Qriffits və K" firmasıda onlara qoşuldu.1911-ci ilin yanvarına kimi Şəhər İdarəsi su kəmərinin çəkilməsində rus firmasına üs-tünlük verirdi. Lakin 1911-ci ilin yanvarından ingilis şirkətinin təklif etdiyi daha ucuz və səmərəli yeni şərtlər şəhər üçün daha əlverişli olduğundan, Şəhər İdarəsi 1911-ci il fevralın 14-də su kəmərinin çəkilməsi haqqında "Qriffits və K" şirkəti ilə mü-qavilə bağladı. Kəmərin tikintisinin ingilis şirkətinə tapşırılması ilə əlaqədar H.Z.Tağıyev Dumada çıxışında ingilis firmasının etimada layiq olduğunu qeyd edərək işin icrasını həmin fir-maya tapşırılmasına razı olduğunu bildirdi. O, həmçinin qeyd etdi ki, ingilis firması işi ucuz qiymətə 400 min rubla görür (166,1911.№ 22).

Müqavilənin şərtlərinə görə şirkətin görəcəyi bütün podrat işlərinə 1911-ci ilin fevralın 15-dən başlayaraq, 1914-cü ilin fevralın 15-nə kimi 36 ay vaxt ayrılırdı (154,s.35).

Beləliklə, 1911-ci ilin fevralından "Şollar-Bakı" su kəmərinin tikintisinə başlanıldı. Kəmərin tikintisinin əlehdarları olan su işbazları xüsusən, ermənilər yerli qəzetləri ələ alaraq onların vasitəsilə Şollar suyunun guya həddindən artıq cod, kimyəvi tərkibcə yararsız, malyariya bakteriyalarının yayıcısı olduğunu təbliğ edir və suyu əhalinin gözündən salaraq kəmərin çəkilməsinə maneə olurdular. Su ticarəti ilə məşğul olanlar su kəməri çəkilməsinin özləri üçün sərfəli olmayacağını nəzərə alaraq belə bir şayiə yayırdılar ki, güya Şollar suyu içmək üçün yararsızdır.

Şəhər Dumasının 1912-ci il sentyabrın 29-da keçirilən iclası Şolar suyunun tərkibinin tədqiqinə həsr olundu. Duma iclasında çıxış edən M.Əzizbəyov qeyd edir ki, Duma Şollar suyunun xəstəlik yoluxdurucu olması barədə əhali arasında yayılmış şayiəni ləğv etməlidir (219,1967.№47). İclasda çıxış edən İ.Hacınski və M.Əsədullayev də Şollar suyunun kimyəvi tərkibcə insan üçün yararlı olduğunu qeyd etdilər və Şollar suyuna sanitar nəzarətinin lüzumsuz olduğunu dedilər. İ.Hacınski həmçinin çıxışında əlavə etdi ki, Şollar suyu üzərində sanitar nəzarəti təşkil etmək lazım deyil, çünki su 22 sajen dərinlikdən çıxarılır (166,1913. №222).

Şollar suyu haqqında su alverçilərinin yaydıqları şayiə həm əhali, həm də Dumanın azərbaycanlı deputatlarını narahat edirdi. Deputat A.Quliyev 1913-cü il Duma iclaslarının birində təqdim etdiyi ərizədə Şollar su mənbəyində suyun çatışmazlığından narahat olduğunu bildirir, məsələni hərtərəfli müzakirə etmək üçün Dumanın xüsusi iclasının çağrılmasını xahiş edirdi. O, hesab edirdi ki, məsələni yerindəcə hərtərəfli öyrənmək və həll etmək üçün Şollara yeni səfər təşkil etmək vacibdir (140,1913.№ 85).

Su kəmərinin çəkilişi ilə bağlı layihənin həyata keçirilməsi üçün podratçı şirkət tərəfindən Xaçmazda zavod tikildi.1912-ci ilin mart ayından etibarən Caqqerin xüsusi sistemi əsasında beton boru istehsalının başlanması ilə, demək olar ki, yeni texnologiya olan basma üsullu beton su xətlərinin əsası qoyuldu.

1913-cü ilin yayına kimi podratçı təşkilat tərəfindən su kəmərinin keçəcəyi diametri 800 mm olan çuqun boruların və sifonların quraşdırılması işləri, demək olar ki, başa çatdırıldı. Sumqayıt nasos stansiyasının tikilməsini, eyni zamanda Şollardan daxil olacaq suyun tam həcmdə şəhərə ötürülməsi üçün bu stansiyadakı maşın və avadanlıqların quraşdırılmasını da həyata keçirməli idi. Dumanın 1913-cü il 19 fevral tarixli iclasında Sumqayıt stansiyası üçün nəzərdə tutulan maşınların məsələsinə baxılaraq, Almaniyanın "Aşersleben" firmasına sifariş verilməsi qərara alınmışdı. Ümumi məbləği 36 min rubla bərabər olan sifarişin yerinə yetirilməsi, çatdırılması və "Dizel" sistemli 600 at gücünə malik üç mühərrikin yerində quraşdırılması işlərini də firma öz öhdəsinə götürürdü (94,s.240).

Müqavilə üzrə nəzərdə tutulan işlərin vaxtında həyata keçirilməsi üçün istər U.Lindleyin, istərsə də Şəhər İdarəsinin ciddi səy göstərmələrinə baxmayaraq "Qriffits və K" podratçı şirkəti öhdəsinə götürdüyü işləri xeyli ləng aparması, müqavilədə göstərilən 36 ay müddətinə su kəməri çəkilişinin başa çatmayacağına dəlalət edirdi. Bundan narahat olan Şəhər İdarəsi, artıq müəyyən tədbirlər həyata keçirməyə məcbur oldu. O, şirkətə rəsmi olaraq bir neçə dəfə müraciət edərək işləri sürətləndirməyi və müqavilədə göstərilən müddətdə başa çatdırmağı tələb etdi. Bundan bir nəticə əldə etməyən Şəhər İdarəsi U.Lindleyin Bakıya növbəti gəlişi zamanı, sözügedən podratçı ilə işlərin sürətləndirilməsi barədə danışıqlar aparılmasını ona həvalə etdi. Lakin bu da bir nəticə vermədi, şirkət işlərin sürətləndirilməsi istiqamətində heç bir tədbir görmədi. Araşdırmalar zamanı məlum oldu ki, 1913-cü ilin iyul ayına kimi "Qriffits və K"podratçı şirkəti tərəfindən layihədə nəzərdə tutulan işlərin yalnız 30%-i görülmüşdü. Şirkətin fəaliyyəti ilə bağlı bir sıra xoşagəlməz məqamlar da üzə çıxdı ki, bunlara da şirkətin eyni vaxtda bir neçə yerdə tikinti işləri aparması, bu səbəbdən də gündəlik işlərə daimi rəhbərlik etməyi həyata keçirə bilməməsi, işlədiyi obyektlərin isə heç də hamısını texniki vasitələrlə təmin edə bilməməsi və s.aid idi (166,1911.№ 22).

Eyni zamanda, texniki nəzarət komissiyası da görülən işlərin yarıtmaz olduğunu və xeyli texniki səhvlərə yol verildiyini aşkar etmişdi. Bunları nəzərə alan Şəhər İdarəsi 1913-cü ilin iyulunda müqavilənin dayandırılması barədə qərar verdi (64,s.42).

Bu şirkət ilə müqavilənin pozulması məhkəmə araşdırmasına səbəb oldu. Kəmərin əlehdarları bundan istifadə edərək yenidən əks-təbliğat kompaniyasına başladılar. “Qriffits və K” şirkəti ilə Şəhər İdarəsi arasında başlanan məhkəmə prosesi 6 ay davam etdi, yalnız Rusiya Daxili İşlər Nazirliyinin işə qarışmasından sonra, şirkətin tikinti ərazisindən qovulması ilə nəticələndi (94,s.241).

Duma 1913-cü il 28 iyun tarixində su kəməri çəkilməsinin təsərrüfat üsulu ilə davam etdirilməsi barədə qərar verir. “Qriffits və K” şirkəti ilə müqavilə pozulduqdan sonra Şəhər İdarəsi “Şollar-Bakı” su kəmərinin tikintisini öz üzərinə götürdü. Baş mühəndis vəzifəsinin icrası su kəmərinin çəkilməsinə nəzarət və rəhbərlik olunması üzrə U.Lindleyin köməkçisi S.Skşivana həvalə olunur. Bütün inşaat işləri Şəhər İdarəsi tərəfindən təsis edilmiş su kəmərlərinin inşaat şöbəsinə və Duma deputatlarından ibarət su kəmərləri komissiyasına həvalə olundu (95,s.78).

Komissiya işin sürətləndirməsini təmin etmək məqsədi ilə 1913-cü ilin noyabr ayından etibarən tikinti işlərini 10 müxtəlif sahəyə ayıraraq, müvafiq işlərin görülməsi üçün bir neçə podratçı ilə müqavilə bağladı. Müqavilələr hüquqi şəxslərlə yanaşı, fiziki şəxslərlə də bağlanılırdı. Müxtəlif işləri icra edəcək podratçılar sırasında şəhərdəki su borularının çəkilişi ilə məşğul olacaq-“Kolobov və K” şirkətini, şəhər rezervuarlarını inşa edəcək-“Veys və Freytaq səhmdar cəmiyyəti”ni, su kəmərinin keçəcəyi Yaşma ərazisindəki xəndəklərin qazılması işini həyata keçirəcək “Texniki-sənaye səhmdar cəmiyyəti”ni, iki ayrı müqavilə ilə (1914-cü il 3 mart və 22 aprel) Sumqayıt nasos stansiyasının maşın binası üçün daş, beton, dülgərlik işlərini və Xocahəsən dükerindən təzyiqli su xəttinədək beton su kəmərinin

inşasını yerinə yetirəcək fiziki şəxslər-Hacı Səttar Heybətovu, 6 yeni quyunun qazılması və bir quyuda yarımçıq qalmış işləri yerinə yetirəcək-S.F.Korçakı, Rəhimxan Mürsəlovu, Abdulla Tahirbəyovu və başqalarını göstərmək olar. Ümumiyyətlə, "Şollar-Bakı" su kəmərinin inşası dövründə 35 podratçı ilə müqavilə bağlanmış və 170-dən artıq sifariş vermişdi (94,s.240).

Görülən tədbirlər nəticəsində müəyyən irəliləyişlərə nail olunsa da, ümumən işin gedişində ləngimə hiss olunurdu. Bunun da əsas səbəbi o idiki işlər əl ilə görülürdü və Birinci dünya müharibəsi ilə əlaqədar olaraq Qafqaz cəbhəsinin yaranması Cənubi Qafqaz dəmir yolu ilə hərbi sifarişlərin yerinə yetirilməsi tikinti işləri üçün yüklərin daşınmasını xeyli çətinləşdirdi. Tikintidə işləyən təcrübəli mütəxəsislərdən 260 nəfər, o cümlədən mühəndis, texniki dairə işçiləri, həkim, feldşer müharibəyə çağrıldı. İşçi qüvvəsi çatışmırdı. Əsas işçi qüvvəsini Quba qəzası kəndliləri təşkil edirdilər, onlar da yalnız tarla işlərindən sonra payız və qış aylarında tikintiyə cəlb olunurdular (64,s.42).

Şəhər Dumasının 1914-cü il 14 fevral tarixli iclasında "Şollar-Bakı" su kəməri tikintisinin gedişini yoxlamaq üçün göndərilən təftiş komissiyasının məlumatları müzakirə edildi. Təftiş komissiyasının üzvü M.Əzizbəyov Duma iclasında çıxış edərək tikinti işlərinin keyfiyyətsiz aparılmasına görə Şəhər İdarəsini kəskin tənqid etdi. M.Əzizbəyov çıxışında podratçıları ifşa edərək göstərdi ki, su kəmərinin çəkilişində beton işləri pis yerinə yetirilir. Dəvəçi məntəqəsində aşağı keyfiyyətli çınqıldan istifadə edildiyini misal gətirdi. M.Əzizbəyov su kəməri çəkilişində işlərin sürətləndirilməsi üçün kiçik operativ komissiya yaradılmasını tələb etdi (140,1913.№ 85).

Ümumiyyətlə, M.Əzizbəyov "Şollar-Bakı" su kəməri tikintisinin ardıcıl tərəfdarı kimi çıxış edir və bu sahədə çox fəal iştirak edirdi. Duma su kəməri tikintisini xarici firmalara konsessiyaya vermək istədikdə, M.Əzizbəyov bu təklifin qəti əleyhinə çıxdı və dedi ki, belə olsa iş daha da yubadılar. O, xarici firmaların qüvvəsini şişirdənlərə və rus mütəxəssislərinin qabiliyyətini lazımınca qiymətləndirməyənlərə qarşı kəskin çıxış

etdi. M.Əzizbəyova görə rus mühəndisləri "Şollar-Bakı" su kəmərini xarici konsessiyaçılardan daha yaxşı və daha tez çəkə bilərdilər (37,s.110).

Lakin sonralar, işin gedişində əsas işləri görən xarici firmalar və mütəxəssislər ilə Şəhər İdarəsi arasında ixtilaf yarandı. Təftiş komissiyası onların tikintidən kənar edilməsini tələb edəndə M.Əzizbəyov bunun əleyhinə çıxdı və dedi ki, müqavilə pozularsa, iş başqa podratçılara tapşırılarsa xeyli vaxt keçər və 3 milyon rubl vəsait arada itər. Bu isə şəhərin təsərrüfatı üçün böyük zərərdir. Ümumən bu yol şəhər üçün təhlükəli və zərərlidir (37,s.110).

Şəhər İdarəsi su kəməri tikintisinin çəkilişi Birinci dünya müharibəsi dövrünə düşdüyünə və çox xərc apardığına görə müharibə başa çatanadək təxirə salmaq istəyirdi. Bu məsələ Dumanın 1915-ci il 7 aprel tarixli iclasında geniş müzakirə edildi. İclasda çıxış edən M.Əsədullayev və A.Aşurov tikintinin dayandırılmasının əleyhinə olduqlarını bildirdilər. Müzakirədə fəal iştirak edən deputat A.Aşurov qeyd etdi ki, işin dayandırılmasının əleyhinədir və heç kim deyə bilməz ki, müharibə altı aydan, yaxud da iki ildən sonra başa çatacaqdır. Su kəməri komissiyası işin ləngiməsi məsələsi ilə mütləq məşğul olmalıdır. A.Aşurov çıxışının sonunda təklif etdi ki, kəmərin çəkilişi davam etdirilsin və məsələ maliyyə komissiyası ilə birlikdə müzakirə edilmək üçün su kəməri komissiyasına verilsin. Duma böyük səs çoxluğu ilə deputat A.Aşurovun təklifini qəbul etdi (166,1915.№ 89).

Birinci dünya müharibəsinin başlanması ilə əlaqədar olaraq su kəmərinin tikintisi nəzərdə tutulan vaxtda başa çatdırıla bilmədi. U.Lindley yaranmış vəziyyətə uyğun olaraq layihədə bir sıra dəyişikliklər etmək məcburiyyətində qaldı. Su quyularının sayı 13-dən 9-a endirilir. Müharibə Almaniyadan 600 at gücündə 3 mühərrikin gətirilməsinə imkan vermədiyindən, Vyanadan 200 at gücünə malik 3 dizel mühərriki alınır. Bu, mühərriklə kəmərə nəql olunacaq suyun sutkalıq həcmi 3 milyon vedrədən 1 milyon vedrəyə düşməsinə səbəb olacaq idi.

Beləliklə, U.Lindleyin vaxtında gördüyü bu tədbirlər su kəmərinin tikintisini dayanmaqdan xilas etdi.

Birinci dünya müharibəsinin davam etdiyi bir vaxtda U.Lindleyin, Dumanın, ilk növbədə isə azərbaycanlı deputatların və Şəhər İdarəsi rəhbərliyinin, tikintidə çalışan minlərlə azərbaycan kəndlisi və fəhləsinin möhkəm iradəsi və əzmi, gərgin əməyi və zəhməti hesabına 1916-cı ilin dekabrında "Şollar-Bakı" su kəmərinin tikintisi hazır oldu və 1917-ci ilin yanvarında iş tamamilə sona çatdı. Şollar su kəmərinin tikintisi xəzinəyə təqribən 32 milyon rubla başa gəldi.

1917-ci il fevraln 18-də "Şollar- Bakı" su kəmərinin rəsmi açılışı şəhərdə əsl bayrama çevrilir. Açılış mərasimində iştirak edən H.Z.Tağıyev su anbarından şəhərdaxili kəmərlərə gedən ilk kranı açdı.

Bakı Şəhər Dumasının və orada təmsil olunan azərbaycanlı deputatların məhz ardıcıl və prinsipial mövqeyi nəticəsində Duma Bakıya Kür, Samur çaylarından deyil, yüksək keyfiyyətli və bolsulu Şollar mənbələrindən su kəməri çəkilməsi barədə qərar qəbul edir. Sonrakı illərdə də Duma və azərbaycanlı deputatlar bu qərarın həyata keçirilməsinə xüsusi diqqət və qayğı göstərdilər.

Beləliklə, XX əsrin əvvəllərində Bakı Duması və azərbaycanlı deputatların hərtərəfli fəaliyyətinin nəticəsi olaraq Bakı şəhər əhalisinin içməli su ilə təchiz edilməsi problemi o dövr üçün həll edildi.

## 2.5. Abadlaşdırma

XIX əsrin sonu-XX əsrin əvvəllərində Bakı Şəhər Duması şəhərin abadlaşdırılması-küçələrin genişləndirilməsi, işıqlandırılması, təmizlənməsi, elektrikli tramvay xəttinin çəkilməsi istiqamətində geniş və ardıcıl fəaliyyət göstərmişdir.

Duma və o cümlədən, azərbaycanlı deputatlar şəhərdə şərnişin daşınmasının o dövr üçün müasirləşdirilməsinə olduqca böyük əhəmiyyət verirdilər. Çünki Bakı şəhəri XIX əsrin 60-70-

ci illərindən başlayaraq sürətlə böyüyür və əhalinin sayı isə gündən-günə artırdı. Belə olan halda isə şəhərdə sərnişin daşınması istiqamətində də müəyyən tədbirlərin görülməsi vacib idi. Belə ki, XIX əsrin sonuna kimi Bakı şəhərində şərnişin daşınmasında əsas nəqliyyat vasitəsi kimi faytonlardan istifadə olunurdu. Həmin dövrdə şəhərdə müxtəlif istiqamətlərdə hərəkət edən 418 fayton qeydə alınmışdı.1886-cı ildə isə şəhərdə 86.611 nəfər əhali yaşayırdı. Orta hesabla 207 nəfərə bir fayton düşürdü.

Lakin XIX-əsrin sonlarından etbarən şəhərdə neft sənayesinin sürətli inkişafı ilə əlaqədar olaraq çoxsaylı yeni sənaye müəssisələrinin meydana gəlməsi və həmin müəssisələrdə işləmək üçün əhalinin Bakıya axını ilə əlaqədar olaraq şəhərdə əhalinin sayı kəskin surətdə artmışdı. Şəhərdə əhalinin artımı isə şərnişin daşınmasında yeni nəqliyyat növünə eytiyac yaradırdı. Artıq fayton şəhərdə sərnişin daşınmasının öhdəsindən gələ bilmirdi. Şəhərdə sərnişin daşınmasında həmin dövr üçün müasir nəqliyyat vasitəsi hesab olunan Konka at-dəmir yoluna keçilməsini zərurətə çevirmişdir.

Şəhərdə yeni nəqliyyat növünə keçilməsində Duma deputatı H.Z.Tağıyev xüsusilə diqqətəlayiq fəaliyyət göstərmişdir. O, Dumada hələ 1887-ci ilin noyabrın 5-də Bakıda Konka at-dəmir yolunu çəkmək üçün cəmiyyət yaratmaq təklifi ilə çıxış etdi və elə həmin ildə at-dəmir yolu səhmdar cəmiyyəti təşkil edildi. H.Z.Tağıyev səhmdar cəmiyyətin sədri oldu (166,1887.8.11).

H.Zərdabi "Kaspi" qəzetində "Bakı tramvayı haqqında" məqaləsində konka barədə yazırdı: 1880-ci illərin sonlarında Bakı şəhərində konkaya-vaqonları atla sürülən şəhər dəmir yolu nəqliyyatına ehtiyac duyulanda Bakıda əcnəbi iş adamları peyda olaraq bizə öz xidmətlərini təklif etdilər, lakin əcnəbilərin Tiflisdə bu işi necə təşkil etdiklərini bilən bakılılar tramvay kimi gəlirli sahəni əldən vermək istəmədilər və bu işi özləri görmək qərarına gəldilər.1889-cu ildə şəhər camaatının nümayəndəsi Adamov o vaxtkı şəhər rəhbərliyi ilə Bakı şəhərində atla işləyən

dəmir yolu tikib istismara verməsi barədə müqavilə bağladı (166,1999. 23.09.№204).

Konka at-dəmir yolunun tikinti işləri əvvəl B.Rotulda, sonra isə L.Rıjanskiyə həvalə edildi. Tikinti işlərinə ilkin olaraq 52 min rubl pul ayrıldı. Nəhayət, 1889-cu il 7 aprel tarixində Bakıda rels üzərində hərəkət edən at qoşqulu nəqliyyat vasitəsi-Konka fəaliyyət göstərməyə başladı.

Duma 1893-cü il 18 yanvar tarixində Bakı şəhərində Konka at-dəmir yolunun istismarının məcburi qaydalarını qəbul etdi. Qaydalara görə "Konka at-dəmir yolunun istismarı barədə müqavilə bağlayan sahibkar yük və sərnişinlərin daşınması üçün məsuliyyət və cavabdehliyi üzərinə götürərək, şəhərin hal-hazırda konka işləyən küçələrində vaqonları atla dartılan şəhər dəmir yolu şəbəkəsi inşa etmək həvalə olunurdu.

1895-ci ildə artıq şəhərdə dörd xətt üzrə dəmiryol konkaları işə salındı. Bunlar Vağzal-Bayıl, Vağzal-Şamaxinka, Şamaxinka-Bayıl və Vağzal-Qara şəhər xətlərindən ibarət idi. Bakı konkasında iki tip vaqondan istifadə edilirdi: yay və qış vaqonları. Bu konka bütün Rusiya imperiyasında nadir konkalardan idi ki, burada siqaret çəkmək qadağan idi. Qış vaqonlarında gediş haqqı 5 qəpik, yay vaqonlarında isə 3 qəpik idi (9,2019.23.06).

Şəhər daxilində gediş haqqı ümumən 5 qəpikdən, Qaraşəhərə və Qaraşəhərdən o tərəfə isə 10 qəpikdən, yüklərin daşınmasına gəlincə, hər verst məsafə üçün 1 pudun daşınmasına ½ qəpikdən artıq haqq alınmamalı idi. Sahibkar sərnişin və yük daşımaların qiymətini artıra və ya azalda bilərdi, lakin bu dəyişiklik ümumi, həm də təsdiq olunmuş tarif çərçivəsində olmalı idi. 5 yaşınadək uşaqlar və polis geyimli şəxslər pulsuz aparılmalı idi.

Vaqonları atla çəkilən şəhər dəmir yolunun itismar müddəti 1889-cu ilin yanvarından başlamaqla 45 il nəzərdə tutulurdu (3,s.3.iş.2132.v13-17;154.s.33-337).

1910-cu il 12 yanvar tarixində Şəhər İdarəsi cəmiyyətin xeyrinə 850 min rubl ödəyərək Bakı konkası-at dəmir yolunun istifadəsini əldə etdi (154,s.385-391).

Həmin vaxtdan Konka-at dəmir yolu şəhərin sərəncamına keçdi və oradan gələn gəlir isə şəhərin xəzinəsinə daxil olmağa başladı. Artıq idarə şəhər əhalisinə şərnişin daşınmasında əvvəlkindən daha yaxşı xidmət göstərmək imkanı əldə etdi.

Bakı şəhərində konka 1923-cü il oktyabrın 1-ə kimi fəaliyyət göstərdi. (9,2019.23.06).

XX əsrin əvvəllərində Bakı şəhərində sərnişin və yük daşıyan yeni nəqliyyat növü-mexaniki hərəkət edən avtomobillərə ehtiyac yarandı. Həmin dövrdə demək olar ki, Avropanın bütün şəhərlərində nəqliyyatın bu növünə keçilmişdi. Bakı şəhəri iqtisadi inkişafına, əhalinin sayına və şəhərə istirahət üçün gələnlərin çoxluğuna görə Avropa şəhərlərindən geri qalmırdı və demək olar ki, öndə idi. Bu səbəbdən də Şəhər İdarəsi 1907-ci il 16 iyun tarixində Bakı küçələrində sərnişin və yük avtomobillərinin hərəkətinə icazə verilməsi barədə məcburi qaydaları təsdiq etdi. Qaydalara görə şəxsi tələbatın ödənilməsi, sərnişin və yük daşınmasına görə Bakı küçələrində avtomobillərin hərəkətinə icazə verildi. Yalnız yaşı 20-dən aşağı olmayan şəxslərə avtomobilləri idarə etmək hüququ verilirdi. Sürücüyə avtomobili idarə etmək üçün xüsusi bilet verilir və avtomobili idarə edən şəxsin şəkili biletin üzərinə yapışdırılır və Şəhər İdarəsinin möhürü ilə təsdiq edilirdi. Avtomobillərin sürəti şəhərdə saatda 12 verstdən, şəhər ətrafında isə 20 verstdən çox olmamalı, yol ayrıcında, keçidlərdə, döngələrdə və enişlərdə isə sürət həddi minimuma endirilməli idi. Avtomobillər küçələrin sağ tərəfi ilə hərəkət edə, ötmə əməliyyatını isə saatda 12 verstdən çox olmayan sürətlə yerinə yetirilməli idi (154,s.365-367).

Bu məcburi qaydalarla Bakı küçələrində avtomobillərin hərəkətinə icazə verildi. Avtomobillərin hərəkətinə icazə verilməsi şəhər küçələrinin abadlaşdırılmasına, yeni küçələrin salınmasına, mövcud küçələrin genişləndirilməsinə, asfaltlanmasına, təmizlənməsinə, işıqlandırılmasına və piyadaların hərəkəti üçün səkilərin salınmasına öz müsbət təsirini göstərdi. Digər

tərəfdən isə avtomobillər şəhərdə yük və sərnişin daşımalarının ucuzlaşmasında və ticarətin inkişafında əhəmiyyətli rol oynadı.

********

Bakı Duması və  azərbaycanlı deputatlar şəhərdə elektrikli tramvay xəttinin çəkilməsi istiqamətində də geniş fəaliyyət göstərmişdirlər.Çünki XX-əsrin ikinci onilliyində konka at-dəmir yolu artmaqda olan şəhər əhalisinin sərnişin daşınmasının öhdəsindən gələ bilmirdi. Bu dövrdə şəhərin elektrikli tramvay xəttinə keçilməsi məsələsi Dumanın müzakirəsinə dəfələrlə çıxarılmışdır. Belə ki, elektrikli tramvay həm sürətinə, həm də sərnişin tutumuna görə konkadan əhəmiyyətli dərəcədə fərqlənirdi. Bütün bunları nəzərə alan Duma və şəhər rəhbərliyi tramvay xəttinin çəkilməsi və şəhərin tezliklə elektrikli tramvay xəttinə keçilməsini şəhərin nəqliyyat infrastrukturunda  zəruri hal hesab edirdilər.

Dumanın 1911-ci il yanvarın 11-də keçirilən iclasında şəhərdə elektrikli tramvay xəttinin çəkilməsi ilə bağlı məsələ müzakirə edildi. Deputat Y.Əhmədov qeyd etdi ki, tramvay şəhər üçün böyük gəlir verə biləcək bir sahədir. Ona görə də, belə məsələni tələsik həll etmək olmaz. O, bu məsələnin müzakirəsinə və həllinə mütəxəssislərin dəvət olunmasını təklif etdi. O, çıxışında tramvay xəttinin çəkilməsində təsərrüfat üsuluna tərəfdar olduğunu, ondan fərqli olaraq isə İ.Hacınski konsessiya üsuluna tərəfdar olduğunu bildirdi. Duma həmin iclasında böyük səs çoxluğu ilə Bakıda tramvay xəttinin çəkilməsinin konsessiyaya verilməsi haqqında qərar qəbul etdi (166,1911.№7).

Şəhərdə tramvay xəttinin çəkilməsi istiqamətində M.Əzizbəyovun fəaliyyəti  diqqəti daha çox cəlb edir. Tramvay yolunun çəkilməsi məsələsi Dumada müzakirə ediləndə M.Əzizbəyovla Duma üzvləri arasında mübahisə xüsusilə kəskinləşdi. Duma tramvay yolunu xarici ölkələrdən olan konsessiyaçıların ixtiyarına vermək niyyətində idi. M.Əzizbəyov buna qarşı çıxış edərək dedi: “belə iri bir müəssisəni xaricilərə vermək olmaz. Biz şəhər üçün böyük əhəmiyyəti olan bir konsessiyanı

xaricilərə versək özümüzü əsarət altına salmış olarıq, bu bizim tərəfimizdən cinayət olar. O, həmçinin qeyd etdi ki, niyə belə güman edirlər ki, biz tramvay yolu çəkməyi bacarmırıq? Bu işdə ixtisaslaşmış böyük təcrübəyə malik insanlar var və biz onlara ümüd edə bilərik (166,1904.04. 05.№98).

Deputatlardan H.B.Mahmudbəyov da tramvay yolunun çəkilişini xaricilərə konsessiyaya verilməsinin əleyhinə idi. O, Dumanın 1914-cü il 4 mart tarixli iclasında geniş həcmli məruzə ilə çıxış edərək bildirdi ki, Bakı şəhərinin vəziyyəti ilə əlaqədar Duma bir sıra müqavilələr bağlamalı olmuşdur. Lakin bunlardan 3-ü böyük müqavilədir. Onlardan birincisi “Elektriçeskaya sila” səhmdar cəmiyyəti ilə bağlanılıb. Bu zaman deputatların əksəriyyəti az savadlı idi. Nüfuzlu deputatlar öz çıxışları ilə hamıya təsir göstərirdilər və deyirdilər ki, xaricilər gəliblər ki, bizə işıq versinlər, buna görə də onlara təşəkkür etməli və bütün şərtləri qəbul etməliyik. Belə də etdilər. Nəticəsində də müqavilənin necə olduğunu görürsünüz, 6-7 ildən sonra biz müqaviləni dəyişmək və iflasdan çıxmaq istəyirik, amma əbəs yerə ikinci müqavilə “Qriffits və K” şirkəti ilə su kəmərinin tikintisi məqsədilə bağlanılmışdır. Nəticəsi də göz qabağındadır.

Üçüncü müqavilə tramvay xəttinin çəkilməsi ilə bağlıdır. Bu barədə də Dumada xeyli çıxışlar edilib və müqavilə bağlanılıb. Burada biz bir neçə gündür ki, bir-birimizə Bakının inkişaf etdiyini sübut etməyə çalışırıq və onun gələcək rifahından danışırıq. Bizə bu lazım deyil. Nəyə lazımdır Bakını Sankt-Peterburq və digər şəhərlərlə eyniləşdirmək. Sonra isə o, üzünü Duma deputatlarına tutaraq deyir, siz Bakının iqlim şəraitini unudursunuz. Su çəkin və dənizin sahilində istirahət evləri tikin bura dünyanın hər yerindən insanlar axışacaq. Bunun üçün nə çatışmır? Dəniz var, qum var, isti hava var və su da olacaq. Bizim şəhəri xoşbəxt və böyük gələcək gözləyir və buna göz yummaq olmaz. H.B.Mahmudbəyov daha sonra qeyd edirdi ki, bir ay əvvəl bizi su kəmərinin tikintisi ilə bağlı yaxşı xəbərlərlə sevindirdilər. Bizim yaxşı və qabiliyyətli işçilərimiz var. Artıq onlara inamsız yanaşmağa son qoymaq lazımdır. Onlar tramvay

xətlərinin tikintisi işlərini də yerinə yetirməyə qadirdilər. Qoy biz əvvəlcə az mənfəət götürək, amma bu işi görək, bizə konsessionerlərin himayəsi bəsdir.

Həmin iclasda Duma tramvay xəttinin konsessiya müddətini 32 il müəyyən edilməsi barədə qərar qəbul etdi. Şəhərə isə 16 ildən sonra onu almaq hüququ verilirdi (166,1914.№ 53).

Lakin çox təssüf olsun ki, şəhərdə elektrikli tramvay xəttinin çəkilməsi istiqamətində Dumanın və azərbaycanlı deputatların prinsipal və ardıcıl fəaliyyət göstərmələrinə baxmayaraq şəhər Birinci dünya müharibəsinin başlanması ilə əlaqədar olaraq maliyyə çatışmazlığı səbəbindən elektrikli tramvay xəttinə keçə bilmədi. Bakı şəhəri elektrikli tramvay xəttinə yalnız Sovetlər dövründə 1923-cü il 1 oktyabrda keçdi.

*********

XIX əsrin 80-ci illərində şəhərdə baş verən böyük yanğınlardan sonra Duma şəhərin yanğından mühafizəsinin təşkil edilməsi üçün yanğın komandasının yaradılması təşəbbüsü ilə dəfələrlə çıxış etmişdir. Bu məsələdə H.Z.Tağıyev Duma iclaslarında olduqca fəal iştirak edirdi. O, Bakıda yanğın komandasının yaradılmasını Duma iclaslarında dəfələrlə qaldırmışdı. Dumada yanğın komandasının yaradılması ilk dəfə 1883-cü ildə müzakirə edilmişdir. Lakin bu böyük xərc tələb etdiyindən Duma bu məsələnin müzakirəsini təxirə salmışdır. H.Z.Tağıyevin təşəbbüsü ilə 1884-cü il yanvarın 11-də Dumanın iclasında, şəhər yanğın komandasının təsis edilməsi ilə bağlı məsələ müzakirə edildi. Müzakirə nəticəsində şəhərdə yanğın komandasının yaradılmasına dair Dumanın 1884-cü il 11 yanvar tarixli qərarında deyilirdi: “Şəhər yanğın komandasının” yaradılması ilə bağlı layihənin təcili tərtib edilməsinə qayğı göstərilsin və onu zəruri avadanlıqlar əldə etmək üçün su yolları açılana qədər Dumanın təsdiqinə versin. H.Z.Tağıyev Duma iclaslarında Bakıda yanğın komandası ilə bağlı məsələ müzakirə edilərkən özünə məxsus evlərdən birinin həyətini yeni

yaradılacaq yanğın komandasının istifadəsinə verilməsini təklif etmişdir (2,f.50.s.4.iş. 212.v.6-7).

1884-cü il martın 6-da Dumada "Yanğına qarşı təhlükəsizlik tədbirlərinin məcburi qaydaları" təsdiq olundu və aprel ayının 29-dan isə bu "Qaydalar" qüvvəyə mindi (68,2000.№ 5.s.165).

H.Z.Tağıyevin təşəbbüsü və təkidi ilə Duma 1884-cü ildə Bakıda yanğın komandasının yaradılması üçün lazım olan 10 min rubl smetanı təsdiq etdi. (74,s.145).

Bununlada Bakı şəhərində yanğından mühafizə komandası təşkil edildi və həmin vaxtdan da fəaliyyət göstərməyə başladı. Şəhərin yanğın komandasının yaradılması şəhərdə baş verən yanğınların vaxtında söndürülməsi, şəhər sakinlərinin həyatlarının vaxtında xilas edilməsi və əmlaklarının mühafizə edilməsində böyük əhəmiyyəti oldu.

********

Bakıda özünüidarə tətbiq edildikdən sonra şəhər küçələrinin abadlaşdırılmasıda Şəhər İdarəsinin ixtiyarına keçdi.1878-ci ildə şəhər üç inzibati ərazi hissəsindən- mərkəzdə Bakı, cənubda Bayıl və şərqdə isə Qara şəhərdən ibarət idi. Neft sənayesinin inkişafı və əhalinin sayının artması şəhərin bir-birindən ayrı olan hissələrinin birləşməsinə imkan verdi (52,s.43).

Duma şəhər küçələrinin abadlaşdırılmasına xüsusi əhəmiyyət vermiş və bu istiqamətdə geniş fəaliyyət göstərmişdir. H.Z.Tağıyev hələ 1887-ci ildə Bakının küçələri, bağları, bulvarı və məktəblərinin tikilməsi və yenidən qurulmasının plan layihəsini Dumaya təqdim etmişdi. Layihədə qeyd olunurdu ki, Bakının küçələri dar və zibillidir, bağçaları və böyük meydanları yoxdur. Şəhər salınanda 10-15 min əhalinin yaşaması nəzərdə tutulmuşdu. Şəhəri genişləndirmək, xüsusən dəniz sahili boyu genişləndirmək lazımdır. Sonra H.Z.Tağıyev qeyd etdi ki, bu xərclərdə iştirak etməyə hazırdır (166,1887.9.X).

H.Z.Tağıyev Dumada şəhər üçün çox vacib olan torpaq məsələsinin nizama salmağa dair geniş şəhərsalma proqramı ilə

çıxış etmişdir. O, təklif edirdi ki, Duma indidən boş torpaqların planlaşdırılmasına başlasın, yəni küçələri, bağları, bulvarı, meydanları, bazarları, məscid, kilsə, məktəb və s. ictimai binalar tikmək üçün sahələr layihələşdirilsin və tərtib olunmuş plan hökumətin təsdiqinə verilsin

H.Z.Tağıyevin fikrincə, mübahisəli məsələlərin həllində aşağıdakı şərtləri rəhbər tutmaq zəruridir:

Birincisi, mübahisəli torpaq sahələrini onların sahiblərinə o şərtlə vermək lazımdır ki, onlar şəhərə, layihələşdirilən plana görə bağ, bulvar, meydan, küçə və ictimai yerlər-məscid, məktəb, hamam və s. üçün lazım olan ölçüdə torpaq güzəştə getsinlər;

İkincisi, torpaq sahibləri 5 il ərzində öz sahələrinin yarısına və yaxud 1/3-nə ağac əkməli idilər (166,1887.9.X).

Beləliklə, H.Z.Tağıyevin təklifi boşaldılmış torpaq sahələrində geniş küçələr, meydanlar və bulvar salmağa imkan verirdi.

Şəhərin abadlaşdırılması məsələsində Şəhər İdarəsinin fəaliyyətini "Kaspi" qəzeti açıqca tənqid edirdi. Belə ki, qəzetin 1895-ci il 15 may tarixli sayında deyilirdi: "Bizim deputatlardan hansı əhalinin yoxsul təbəqəsinin həyat şəraiti barədə fikirləşməyi özünün borcu hesab edir. Onlar fikirləşmirlər ki, günəş şüaları onların da həyatına düşsün. Onlar çirkabdan boğulmasınlar, zərərli suyu içməsinlər" (166,1895.15.05).

Lakin Dumanın azərbaycanlı deputatları şəhərin abadlaşdırılmasına münasibətdə laqeyd mövqe tutmurdular. Əksinə erməni və rus deputatlarından fərqli olaraq daima şəhərin abadlaşdırılmasına çalışırdılar. Onlar həmçinin deputat mandatından istifadə edərək, vergidən yayınma ilə müşahidə edilən sahibkarlıq fəaliyyətini genişləndirən Dumanın qeyri azərbaycanlı deputatlarının fəaliyyətini tənqid edirdilər

XIX əsrin 70-ci illərin sonundan başlayaraq neft sənayesinin sürətli inkişafı ilə əlaqədar olaraq imkanlı şəxslər tərəfindən şəhərdə dəbdəbəli yaşayış binaları və müəssisələr inşa edilirdi. Bakının iqtisadi yüksəlişi şəhər ərazisinin genişlənməsi yeni rayonların meydana gəlməsi ilə müşaiyət olunurdu. Bu da

öz növbəsində ayrı-ayrı imkanlı şəxslər tərəfindən şəhər torpaqlarının özbaşına zəbt edilməsinə, şəhərdə torpaqların bahalaşmasına, torpaq sahələrinin satılmasında möhtəkirliyin genişlənməsinə təkan verirdi. Sahibkarlar və bəzi Duma deputatları şəhər torpaqlarını dəyərindən ucuz qiymətə alır bir müddət sonra isə onu hissələrə bölərək ayrı-ayrı şəxslərə baha qiymətə sataraq külli miqdarda qazanc götürürdülər. Sahibkarların və bəzi deputatların torpaq zəbt edib satmaları onlar üçün böyük qazanc mənbəyinə çevrilmişdir.

Şəhərdə torpaqların qiymətinin sürətlə artması hər şeydən əvvəl torpaqların mülkiyyətə verilməsi və torpağa tələbatın getdikcə artması ilə bağlı idi.

XIX əsrin sonlarından başlayaraq şəhər torpaqlarının özbaşına zəbt edilməsi halları getdikcə genişlənməyə başladı.Torpaq zəbt edənlərə qarşı şəhər özünüidarə orqanları mübarizə aparmaqda belə çətinlik çəkirdi. Torpaqları zəbt edənlər həmin torpaqları hasara alır və abadlaşdırmağa başlayır, daha sonra isə Dumaya müraciət edərək dəyərindən ucuz qiymətə icarə müqaviləsinin bağlanmasına nail olurdular. Torpaqları özbaşına zəbt edənlər bəzən Duma deputataları tərəfindən də müdafiə olunur və onlarla güzəştli şərtlərlə icarə müqavilələrinin bağlanmasında və sonra mülkiyyətlərinə keçirilməsində deputatların köməkliyindən istifadə edirdilər. Özünüidarə orqanlarının torpaqları özbaşına zəbt edənlərə qarşı qanuni tədbirlərin görülməsi üçün dəfələrlə polismeyestrə etdiyi müraciətlər də belə cavabsız qalırdı. Polismeyestr də onlarla mübarizədə çətinlk çəkirdi.

Duma iclaslarında torpaq zəbt edənlərə qarşı mübarizə aparılması və tədbirlərin görülməsi dəfələrlə müzakirə edilmişdir. Müzakirələrdə deputatların əksəriyyəti zəbt edilmiş torpaqların qiymətləndirilməsində güzəştə gedilməməsini və bütün torpaqların düzgün və ədalətli şərtlərlə hərrac yolu ilə satlmasını təkilif edirdilər. İclasların birində H.Zərdabi çıxışında bildirir ki, qiymətləndirmədə güzəştlə bağlı qərar talançılara aid edilməməlidir, onlar şəhər torpaqlarını zəbt edir, hətta gecəyarı

tikintiyə başlayırlar, belə vicdansızlara qarşı heç bir halda mərhəmətli davranmaq olmaz (166,1898.6.03.№ 30).

Dumanın 1898-ci il 19 mart tarixli iclasında şəhər torpaqlarının qanunsuz mənimsənilməsindən qorunması istiqamətində atılan addımlarla bağlı Bakı sakini Əbiyevin şəhər torpağına yaxın ərazidəki tutulmuş və qəsb edilmiş boş torpaq sahəsinin ona verilməsi barədə müraciətinə baxılır. Məlum olur ki, Əbiyev təkcə şəhər torpağını işğal etməyib, üstəlik, onu şəhərə icarəyə verib və əvəzində şəhərin öz torpağından gəlir götürüb. Duma hələ onun müraciətinə baxmamış o yeni işğallara da başlayıb. Hətta o kupçası olan torpaqları da zəbt edib. İclasda bu barədə çıxış edən M.Nağıyev deyir ki, Əbiyev kimi adam təkcə şəhərin ərazisini yox, həm də kupçası olan torpaq alan fərdi şəxsin mülkünü də işğal edib. Vaçyants isə çıxışında qeyd etdi ki, Əbiyev tipik talançıdı. İstila pilləkənindən qalxdıqca o guya namuslu adama çevrilib, hətta torpaq icarəyə götürmək üçün Dumaya da müraciət edib (166,1898.6.03.№ 66; 30,s.70).

Şəhər İdarəsi şəhər torpaqlarını erməni və rus millətindən olan şəhər sakinlərinə dəyərindən qat-qat ucuz qiymətə icarəyə verirdi. Məsələn, erməni Ter-Ovanesovun Qanlıtəpə küçəsindəki 245 kv.sajenlik ərazinin alqı-satqısı hərracda təsdiq olunmadığına görə Şəhər İdarəsi Ter-Ovanesova həmin torpağı satış qiymətinin dörd faizi məbləğində illik icarəyə verir və plan təsdiqləndikdə ərazini ona köhnə qiymətə-13 rubldan satacağına boyun olur. Bütün bunlar Dumanın azərbaycanlı deputatlarının kəskin narazılığına səbəb olurdu. Belə ki, Duma iclaslarının birində H.Zərdabi çıxışında bildirir ki, biz Şəhər İdarəsinin ərazilərini icarəyə verilməsi təkliflərini müzakirə etməliyik. Bu torpaqlar müxtəlif şəxslər tərəfindən bir şərtlə alınıb ki, hərraclar təsdiqlənəndən sonra onları köhnə qiymətlə mülkiyyətə alsınlar. Gerçək qiymətlər komissiya qiymətləndirilməsindən bəzən üç dəfə yuxarı olduğundan torpaqları sonradan ucuz qiymətə satmaq öhdəliyini mən şəhərin maraqlarına zidd sayıram. O, Dumanın Qanlıtəpədə 975 kv.sajen torpağın N.Terentyevə verilməsi barədə Şəhər İdarəsinin məruzəsinin təsdiqlənməsi barədə

deyir: “Biz torpaqıları tikinti üçün veririk, möhtəkirlik üçün yox. Bunun üçün iri torpaq sahələri ayırmaq düzgün deyil, bu torpaqların həcmi onun alıcısının bina tikmək istəyindən yox, başqa məqsədlərindən xəbər verir.Mülkiyyətə verilən torpaqların normal həcmini məsələn 200 kv.sajen müəyyən etmək lazımdır”. Həmçinin O, təklif edirdi ki, alıcıların boynuna qoymaq lazımdır ki, aldıqları torpaqları hissə-hissə başqalarına satmasınlar. Çünki 1.000 kv.sajen torpaq alan adamın tikinti aparmaq niyyəti yoxdur, o, möhtəkirliklə məşğul olacaqdır (166,1898. 8.03.№ 53).

H.Zərdabinin çıxışına münasibət bildirən şəhər başçısı vəzifəsini icra edən M.Belyaviski qeyd edir ki, mülkiyyət sahibinə öz əmlakından istifadə ilə bağlı hər hansı məhdudiyyət qoymaq olmaz. Yaxşısı budur torpağı mülkiyyətə verərkən alıcılara hansısa müddətə, məsələn, 3 ilə tikinti aparmaq və alqı-satqı günündən altı ay gec olmayaraq ərazini hasarlamaq öhdəliyi qoyulsun, üstəlik, müqavilədə alıcının şərtləri gözləmədiyi halda ərazinin şəhərə qaytarması və ödənilən pulun şəhərdə qalması nəzərdə tutula bilər (166,1898.8.03.№ 53).

Digər bir erməni sahibkara edilən güzəştə nəzər salaq. Dumada “Mantaşov və K cəmiyyəti” ilə dəmiryol relsləri üçün ayrılmış ərazi ilə bağlı müqavilənin yenilənməsi məsələsi müzakirə edilərkən məlum olur ki, 1900-cü ilin may ayının əvvəlində icarə müddəti bitib. İcarə müddəti ildə 200 rubl olmaqla 12 il müddətinə bağlanılmışdır. Mart ayının 18-də qiymətləndirmə komissiyası yenə icarə haqqını 200 rubl müəyyən etdi. Şəhər İdarəsi Dumadan müqavilənin eyni şərtlərlə yeniləməyi xahiş etdikdə H.Zərdabi bu müqavilənin əleyhinə çıxaraq bildirdi ki, bütün icarə razılaşmaları üzrə müqavilələrin yenilənməsi zamanı Duma icarə haqqını qaldırır, çünki şəhər torpaqlarının da qiyməti durmadan artır, ola bilməz ki, bir ərazi 12 il əvvəlki qiymətində qalsın. Buna görə də o, icarə haqqının ən azı iki dəfə artırılmasını təklif edir. Lakin Duma Şəhər İdarəsinin göstərilən şərtlərlə müqavilə bağlanması təklifini təsdiq edir (30,s.244).

Azərbaycanlı deputatlardan H.Zərdabi, Ə.M.Topçubaşov, M.Hacınski və başqaları şəhər torpaqlarının hərrac yolu ilə satılmasını təklif edirdilər. Qaydalara görə hərrac Şəhər İdarəsi tərəfindən keçirilir və nəticələri Duma tərəfindən təsdiq edilirdi. Bəzən də hərracın nəticələrini Şəhər İdarəsi özü təsdiq edirdi. Bununla bağlı Duma iclaslarının birində çıxış edən Ə.M.Topçubaşov qeyd etdi ki, ilk dəfədir eşidirəm ki, Şəhər İdarəsi özünün hərrac təsdiqləmək hüququndan istifadə etsin, amma Duma təsdiqləmək üçün bütün hərracları ondan istəyə bilər axı. Duma indiyədək bu barədə qərar verməyib, çünki Şəhər İdarəsi özü hərracların təsdiqlənməsini Dumaya təqdim edib. Şəhər İdarəsi belə bir hüququnun olmasında israr edirsə, o zaman Duma gələcəkdə bütün hərracların qərarverici orqana təqdim olunması üçün Şəhər İdarəsi qarşısında öhdəlik qoymalıdır. Bu, həm də ona görə vacibdir ki, Şəhər İdarəsi hərracların icrası üçün müəyyən qaydaları yoxdur. Bu məsələyə isə barmaqarası baxmaq olmaz. Şəhərin sahibi kimi Duma şəhərin maraqlarını nəzərə almalıdır. Göründüyü kimi, çox hallarda hərraclar ədalətli və qaydalara uyğun keçirilmirdi.

Duma nə qədər cəhd göstərsədə torpaq zəbt edənlərə və talançılara qarşı mübarizədə əsaslı tədbirlər görə bilmirdi. Çünki talançıların əksəriyəti Şəhər İdarəsi və bəzi Duma deputatları tərəfindən müdafiə edlirdi. Talançılar zəbt etdikləri torpaqları sonradan Şəhər İdarəsi ilə icarə müqaviləsi bağlamağa və hərrac yolu ilə satın almağa nail olurdular.

********

Duma şəhər küçələrinin işıqlandırılmasına xüsusi fikir verirdi.Şəhər abadlaşdıqca küçələrin işıqlandırılması Şəhər İdarəsi qarşısında ciddi bir məsələ kimi dururdu. 1878-ci idə Duma təşkil olunduğu ildə şəhərdə cəmi 86 fənər var idi. Şəhəri işıqlandırmaq üçün küçələrə dirəklər basdırılıb fənərlər asılırdı.

Duma Bakı-Tiflis dəmir yolunun tikintisinin başa çatdırılması ərəfəsində Şəhər İdarəsinə 1882-ci il fevralın 23-də icazə

verdi ki, dirəklərin sayını 698-ə qədər artırsın. Çünki dəmir yolunun işə düşməsi, ticarət və sənayenin inkişafı ilə əlaqədar olaraq əhalinin sayının artması küçələrin işıqlandırılmasını tələb edirdi.

1895-ci ildə isə fənərlər elektrik lampaları ilə əvəz olunmağa başladı. Şəhər İdarəsi Dumaya elektrik lampalarının sayını 1000 çatdırmaq barədə müraciət etdi. Duma Şəhər İdarəsinin bu müraciətini təmin etdi (3,f.389.s.4.iş.147.v.1-2).

Dumanın 1899-cu il 19 oktyabr tarixli iclasında Şəhər İdarəsi şəhər küçələrinin işıqlandırılması ilə bağlı hərracların keçirilməsi barədə məruzə edir. Hərracda işıqlandırma hər fənər üçün-5 rubl 4 qəpik nəzərdə tutulduğu bildirilir, bu şərtlə ki, kerosinə aksiz tətbiq edilərsə, ödəniş haqqı proporsional qaydada artırılacaq (166,1899.21.10.№ 227).

Həmin iclasda çıxış edən H.Zərdabi qeyd etdi ki, nə üçün biz də elektrik işıqlarına keçmirik? Bütün qonşu şəhərlərin başı elektrik işığının qurulmasına qarışıb. O, həmçinin izah etdi ki, elektrik işıqlandırılması kerosindən daha sərfəli olmasa belə, ondan daha çox ziyan da verməyəcək. Elektrik işıqlandırılması Tiflisdə 400 min rubla başa gəlib. Sahibkara bu məbləğin ödənilməsinə ildə 40 min rubl olmaqla 10 il möhlət verilib. Bakı bu gün işıqlandırmaya 25 min rubl sərf edir, kerosinə aksiz tətbiq olunarsa, bu xərc 50 min rubla çatacaq (166,1899.21.10.№ 227).

H.Zərdabini müdafiə edən Ə.M.Topçubaşov isə çıxışında sübut etməyə çalışırdı ki, elektrik işıqlandırılması israfçılıq deyil və onu tezliklə həyata keçirmək lazımdır. Şəhərin rifahı bir yana, bu həmdə vətəndaşların təhlükəsizliyini ciddi şəkildə təmin edəcək, çünki yaxşı işıqlandırma olmadan şəhərin bir çox yerlərində təhlükəyə məruz qalmadan keçinmək mümkün deyil (166,1899.21.10.№ 227).

Deputat Eyvazov da çıxışında bildirdi ki, şəhərin elektrik işıqlandırılması məsələsinin müzakirəsi zamanı yetişib, bu məsələ hələ ötən il baxılacaq məsələlərin sırasında idi, anlamadım ki, Şəhər İdarəsi nə üçün onu məruzəsinə daxil etməyib?

Şəhərin elektrik işıqlandırılması məsələsini yubatmaqla xüsusi sahibkarların işinə yarayırıq, onların şəbəkəsi şəhərə maneə olacaq (166,1899.21.10.№ 227).

İclasda deputatlara məlumat verildi ki, “Simens və Qalks şirkəti” şəhərin elektrik işıqlandırılması məsələsini öz üzərinə götürüb. Bu məlumat Duma tərəfindən razılıqla qarşılandı (166,1899.21.10.№ 227).

Dumanın 1902-ci il 10 dekabr tarixli iclasında məlumat verilir ki, Abşeron elektrik cəmiyyətindən şəhərə elektrik xətlərinin çəkilməsi barədə yeni təkliflər irəli sürüb. Cəmiyyət işığı 9 qəpikdən verməyi təklif edir.

Həmin vaxtadək elektrik xətlərinin çəkilməsinin qəti əlehdarlarından olan deputat Hacıyev də bəyan etdi ki, şəhərin bundan heç nə itirməyəcəyi, əksinə, qazanacağı qərarına gəlib, üstəlik, şəhər buna razılıq verməklə boynuna heç bir öhdəlik də götürməyibdir.

Lakin Duma Şəhər İdarəsinin küçələrin işıqlandırılması ilə bağlı məruzəsini kifayət qədər hərtərəfli olmadığına görə qəbul etmədi (166,1902.12.12.№ 267).

Bakı şəhərini elektrik enerjisi ilə təmin etmək üçün 1899-cu ildə “Elektriçeskaya sila” səhmdar cəmiyyəti təşkil olundu. Bu şirkət Bakı şəhərini və mədənləri elektrik enerjisi ilə təmin edirdi.“Elektriçeskaya sila”nın iki stansiyasından biri Bibiheybətdə, o biri isə Ağ şəhərdə idi. Bibiheybət stansiyası 1901-ci ildən, Ağ şəhər stansiyası isə 1902-ci ildən enerji verməyə başlamışdır. Bu stansiyaların işə düşməsi nəinki fabrik, zavodların, habelə şəhərin də elektrik enerjisinə olan ehtiyacını təmin edirdi (74,s.144).

Dumanın 1910-cu il fevralın 16-da keçirilən iclasında Şəhər İdarəsinin üzvü M.Hacınski şəhər küçələrinin işıqlandırılması haqqında ətraflı məruzə ilə çıxış etdi. M.Hacınski bildirdi ki, insana su, çörək və işıq lazımdır. Suyu və çörəyi bir təhər çatdırırıq, indi isə işıq üzərində dayanmalıyıq. O, çıxışında, həmçinin tezliklə şəhərin işıqlandırılması layihəsinin həyata keçirilməsinə başlanılmasını təklif etdi. Digər deputatlardan

Y.Əhmədov, İ.Hacıyev, A.Həsənov da onun təklifini müdafiə edərək şəhərin tezliklə işıqlandırılmasının həyata keçirilməsini müdafiə etdilər (166,1910.№ 39).

Göründüyü kimi XX əsrin əvvəllərində şəhərin elektrik enerjisi ilə təmin edilməsi və küçələrin işıqlandırılması Duma qarşısında duran həlli vacib məsələlərdən biri idi. Çünki şəhərin elekrtik enerjisi ilə təmin edilməsi həm şəhər təsərrüfatının inkişafına, həm də şəhər əhalisinin maddi rifah halının yüksəldilməsinə təkan vermiş olardı.

*******

Dumanın şəhərin abadlaşdırılması istiqamətində göstərdiyi fəaliyyət sahələrdən biri də dənizkənarı bulvarın salınması idi. Belə ki, şəhər əhalisinin və qonaqların mədəni istirahətinin təmin edilməsi və şəhərin abadlaşdırılması baxımından dənizkənarı bulvarın olduqca böyük əhəmiyyəti var idi.

Bakıda dənizkənarı bulvarın əsası 1865-ci ildə memar Qasım bəy Hacıbababəyov tərəfindən qoyulub.

Neft sənayesinin inkişafı nəticəsində Bakı şəhəri böyük ticarət limanına çevrilir. Bakı limanı Rusiya imperiyasının ən böyük limanları sırasına daxil olur. Burada yük və sərnişin daşımaları həyata keçirilirdi. O zaman iqtisadi məqsədlər üçün istifadə olunan ensiz sahil zolağında yerləşən müxtəlif körpülər və anbarlar buranı tamamilə baxımsız və yararsız vəziyyətə salmışdı. Sahil zolağı iki hissəyə ayrılırdı: qərbdə Aleksandrovski, şərq istiqamətində isə Petrovski sahili. Belə bir vəziyyət vahid sahil küçəsinin salınmasına məhdudiyyət yaradırdı. Eyni zamanda, şəhər əhalisinin dənizə çıxışına da əngəl olurdu (52,s.340).

1902-ci ildə Duma Bakının dənizkənarı şəhər olduğunu, sahil zolağında çoxsaylı körpüləri nəzərə alaraq, əhaliyə bulvar şəkilində dənizə bir çıxış verməyi qərara aldı.

Bulvarın salınması təşəbbüsü ilə 1909-cu ildə Şəhər İdarəsinin üzvü M.H. Hacınski çıxış etmişdir. O, 1909-cu il aprelin 7-də Dumanın iclasında dənizkənarı bulvarın tikintisi ilə

bağlı məsələnin müzakirəyə çıxarılmasına nail oldu. 1909-ci il aprel ayının 9-da Dumanın iclasında M.H.Hacınski Aleksandrovski sahil küçəsində bulvar salınması ilə bağlı tikinti komissiyasının müzakirələrinin nəticələri barədə məruzə edir. Şəhər İdarəsi sübut edir ki, Bakı əhalisinin sürətlə artması fonunda şəhər bağlarının ümumi sahəsinin olduğu kimi saxlanılması, hətta bəzən onların ərazicə kiçilməsi əhalinin tələbatını ödəmədiyindən, yeni bulvarın salınması Bakı əhalisi üçün olduqca əhəmiyyətlidir. Şəhər İdarəsi təklif edir ki, bulvar yeni ərazidə salınsın. Bulvarın salınması üçün birdəfəlik xərclərin 10 min rubl, illik isə 2.500 rubl məbləğində olması nəzərdə tutulurdu. Şəhər İdarəsi güman edirdi ki, bu xərcləri bulvar ərazisində alınacaq torpaqlar və bulvar ətrafındakı icarələrdən gələn gəlirdən çıxartmaq mümkündür. Belə ki, həmin icarələrdən ildə 4 min rubl vəsait qazanmaq olar (80,s.125-128).

1909-cu il aprelin 9-da "Kaspi" qəzetində M.H.Hacınskinin dənizkənarı bulvarın tikintisi ilə bağlı Duma iclasındakı məruzəsi çap olunur. O, çıxışında şəhərdə yeganə olan Mixaylovski bağının azlıq etdiyini, şəhər əhalisinin asudə vaxtının keçirməsi üçün geniş bir yerin ayrılmasının zəruriliyini vurğulayır. M.H.Hacınski çıxışında əsaslandırırdı ki, iqtisadi cəhətdən də sərfəlidir-yeni salınacaq dənizkənarı bulvardakı çiçək və sərinləşdirici su köşkləri şəhər büdcəsinə müntəzəm olaraq ayda 4-6 min rubl gəlir gətirəcək.

Nəticədə Duma M.H.Hacınskinin çıxışını və bulvarın salınmasının əhəmiyyətini nəzərə alaraq, bu layihənin icrasına 10 min rubl ayırdı (166,1909.7.04.№77).

M.H. Hacınski Duma iclasında çıxış edərək həmçinin bildirdi ki, "bu adi, *sıravi bir layihə deyil. Burada incə zövqə malik, belə işi sevən mütəxəssis lazımdır. Ancaq bu xüsusiyyətlər hər bir memara xas deyil. Gözəl texnik olmaq olar, lakin belə xüsusiyyətlərə sahib olmaq olmaz. Azca xərc tələb olunur, buna xəsislik etmək olmaz. Burada fantaziya, gözəllik lazımdır*" (80,s.125-128)

Onun çıxışından sonra Duma müsabiqəni elan etmək üçün qərar qəbul etdi. Bulvarın planlaşdırılması və yaşıllıqların salınması üçün yerlərin seçilməsi müəlliflərin öz öhdəsinə buraxıldı. Müsabiqədə mühəndis Q.Termikelovun "Zvezda" adlı layihəsi birinci yerə layiq görüldü (80,s.125-128).

Beləliklə dənizkənarı bulvar 1909-cu ildə Bakı Duma-sının qərarı ilə salındı və Şəhər İdarəsinin üzvü M.Hacınskinin adı ilə sıx bağlıdır. O zaman tender yolu ilə seçilmiş layihənin işlənib həyata keçirilməsində mühəndis K.Skureviçin və memar A. Eyxlerin də böyük zəhməti olmuşdur. Onların təklifi əsa-sında dəniz sahili ilə yeni salınmış II Aleksandr küçəsinin (indiki Neftçilər prospekti) arasında yaşıllıq zolağının salınması nəzərdə tutulmuşdu. İki il müddətrində buraya kənardan münbit torpaq daşınmış, Azərbaycanın başqa bölgələrindən və hətta Avropadan belə müxtəlif nadir bitki növləri gətirilib əkilmişdir. Bunlardan Eldar şamı, hələb şamı, Türküstan qovağı, Livan ked-ri, Luzitan sərvi və başqalarını göstərmək olar” (9,1998.30. 12.№303).

Nəhayət, Bakı dənizkənarı bulvarın tikintisi 1910-cu ildə başa çatdırıldı və şəhər sakinlərinin və qonaqların istifadəsinə verildi.

******

Duma küçələrin təmizlənməsinə də xüsusi diqqət yetirirdi. XIX əsrin 90-cı illərinin əvvəllərinə qədər şəhər küçələrinin təmizlənməsi ev sahiblərinin özləri tərəfindən, sonra 1898-ci ilə kimi ev sahiblərindən dövlət xəzinəsinə alınan 2% vergi hesabına podrat üsulu ilə həyata keçirildi. 1898-ci ildən isə podrat üsulu təsərrüfat üsulu ilə əvəz edildi.

Dumanın 1898-ci il 23 fevral tarixli iclasında şəhər küçələrinin təmizlənməsi haqqında çıxış edən H.Z.Tağıyev küçələrın təmizlənməsinin şəhər üçün son dərəcə əhəmiyyətli

olduğunu bildirdi. O, həmçinin küçə və mənzillərin təmizlənməsi sayəsində Qərbi Avropa şəhərlərində ölüm hallarının mindən iyirmi nəfərədək düşdüyünü dedi.O, çıxışının sonunda şəhərin təmizlənməsini podratçılara deyil, təsərrüfat üsulu ilə Şəhər İdarəsinə verilməsinə tərəfdar olduğunu bildirdi (166,1898.№ 43).

H.Zərdabi küçələrin təmizlənməsi ilə bağlı "Kaspi" qəzetində dərc etdirdiyi məqaləsində bu barədə yazırdı: XIX əsrin 90-cı illərində küçə və həyətlərin təmizlənməsi ilə ev sahiblərinin özləri məşğul olurdular. Sonralar bu üsulun lazımı səmərə vermədiyini, şəhər sakinləri üçün üzücü iş olduğunu əsas gətirərək və sakinlərin bu işin kimlərəsə gördürülməsi üçün müəyyən məbləğdə pul ödəməyə razı olmalarını nəzərə alaraq, şəhər təmizliyi və abadlığı işlərini görməyi ictimai idarə öz üzərinə götürdü. Bu zaman idarə Dumadan xahiş etdi ki, şəhərin təmiz saxlanılması təsərrüfat hesabı üsulu ilə həyata keçirməyə ona izn versin. Amma Duma Şəhər İdarəsinə görüləcək iş metodunu təklif etdi ki, bu iş üslubu da 1898-ci ildə tətbiq olundu. Həmin illərdə idarə təmizlik işləri üçün ev sahiblərindən yığılan pulları şəhərin ümumi xəzinəsinə verirdi və beləliklə də, küçələri şəhərin vəsaiti hesabına təmiz saxlayırdı (166,1901. 16.01.№12).

Dumanın qərarı ilə 1898-ci ildən başlayaraq şəhər küçələrinin təmizlənməsi təsərrüfat üsulu ilə həyata keçirilməyə başlanıldı. Küçələrdən zibillərin və digər məişət tullantılarının daşınmasında atlardan istifadə olunurdu. Dumanın 1899-cu il 22 sentyabr tarixli iclasında şəhər küçələrinin təmizlənməsi üçün şəhərə 60 atın gətirilməsi və özü də bir atın alış qiymətinin 80 rubldan müəyyən olunması barədə məsələ müzakirəyə çıxarıldıqda H.Zərdabi buna etiraz edirək, bildirir ki, şəhər üçün 50 at yetərlidir və hər bir atın qiymətinin isə 60 rubldan hesablanması təklifini irəli sürdü. O, həmçinin çıxışında bildirir ki, 60 manatdan cəmi 50 at almaq kifayətdir və elə 50 manatdan da iş atı almaq olar. Beləliklə, o şəhərin təmizlənməsində cəmi 50 atla

kifayətlənməyi təklif edir və daha sonra bildirir ki, əgər 50 at az olarsa, onların sayını artırmaqda olar (166,1899.24. 09.№ 205;30,s.146).

Duma isə şəhər küçələrinin təmizlənməsi üçün 50 min rubl pul xərclənməsi və 1899-cu il yanvarın 1-dək küçələrin təmizlənməsini ev sahiblərinin hesabına həyata keçirilməsi barədə qərar qəbul edir (166,1899.24.09.№ 205).

Lakin görülən bu tədbirlər şəhər küçələrinin təmizlənməsinin öhdəsindən gələ bilmir. Belə ki, Dumanın 1900-cu il 10 fevral tarixli iclasında Şəhər İdarəsi tərəfindən deputatlara məlumat verilir ki, şəhərdə yağışlar nəticəsində xeyli çirk yığılıb. Əlimizdə olan nəqliyyat onu küçələrdən yığışdırmağa, eyni zamanda şəhəri təmiz saxlamağa imkan vermir. Ona görə də Dumadan yığılmış çirkin küçədən təmizlənməsi üçün əlavə araba almağa 500 rubl ayırmağı təklif edir. Duma Şəhər İdarəsinin təklifini qəbul edərək göstərilən çirkin küçədən təmizlənməsi üçün 500 rublın ayrılması barədə qərar qəbul edir (166,1900.10.02.№32).

Dumanın 1900-cu il 25 yanvar tarixli iclasında H.Zərdabi çıxışında küçələrin təmizlənməməsini və Şəhər İdarəsinin bu sahədə fəaliyyətsizliyini tənqid edərək deyir ki, Şəhər İdarəsi təmizlik işlərinin təsərrüfat üsulu ilə aparılmasını təklif etdikdə deyirdi ki, 60 araba ilə işlər yağ kimi gedəcək. Bu gün ayın 25-dir və bu gün ilk dəfə mənim qapıma zibil dalınca gəliblər. Küçələrdə isə araba görən olmayıb. Onda nə üçün podratçılar işdən kənarlaşdırıldılar? Onları cəzalandırmaq olurdu. Şəhər İdarəsi onlardan tələb edər, onları cərimə edirdi. İndi kimdən kimə şikayət edəsən ? Siz də özünüzdə cəsarət tapıb deyə bilərsiniz ki, arabalar həftədə 3-4 dəfə evləri gəzir? Əslində isə evlərin əksəriyyətində onlar bir dəfə də olsun görünməyibdirlər (166,1900.27.01.№ 21).

H.Zərdabi “Kaspi” qəzetində dərc etdirdiyi başqa bir məqaləsində yenə də bu barədə yazırdı: Şəhərin əvvəlki podratçıları təmizlik işlərini bir ildə 45 min rubla həyata keçirirdilər və cəmi 60 arabaları vardı. İdarə isə komissiyanın birgə iclasında

israr etdi ki, onlara 80 araba almağa icazə verilsin. Lakin komissiya İdarənin 60 araba almasına qərar verdi. Komissiyanın bu qərarını Dumaya təqdim edən İdarə xahiş etdi ki, ona şəhərin ümumi gəlirindən təqribən 5 min rubl da ayrılsın ki, ətraf küçələr də təmiz saxlanılsın. Duma İdarənin bu təklifini təsdiq etdi.

Sırf təsərrüfat işlərinin görülməsi məqsədilə işçilərinə atlar alan və arabalar sifariş edən idarə 1900-cü il yanvarn 1-dən bu işə yiyəlik etməyə başladı və həmin gündən Allaha yalvardı ki, şəhərdən xəzrisini əsirgəməsin. Amma İdarə təssüfləndi ki, ilin ilk günlərindən Allah-təla xəzri əvəzinə qar və yağış göndərdi, küçələr çirkaba batdı, şəhərdə hərəkət etmək mümkün olmadı və Duma üzvləri dəhşət içində Şəhər İdarəsinə iradlar yağdırdılar:“Bu nə təmizlikdir? Guya yenidən təşkil edilən şəhər araba karvanı haradadır və niyə təmizlik işlərinə cəlb olunmur ?”.

Fevral ayında idarə bəyan etdi ki, düzdür, arabalar hazırdır. Amma İdarə küçələri təmizləmək gücündə deyil, çünki son vaxtlar şəhərdə təmizlik işləri aparılmadığına görə, xəzri küləyi həddən çox qum gətirib ki, bu qədər tozu, qumu bu arabalarla daşımaq mümkün deyil. Buna görə də Şəhər İdarəsi bu işlərin görülməsi üçün ayrıca olaraq daha 500 rubl vəsait buraxılmasını xahiş etdi. Duma bu 500 rubla da razılıq verdi.

Lakin yağışlar davam edirdi. Buna görə də şəhər sakinlərinin şikayətləri və Duma üzvlərinin xəbərdarlıqları daha da artdı. Onda Şəhər İdarəsi anlamağa məcbur oldu ki, bu idarə özü istəsə də təmizlik yaratmaq iqtidarında deyil və Dumadan xahiş elədi ki, arabaların sayını ən azı 2 dəfə artırsın.

Təhsil müəssisələrinin şagirdləri evdə oturmağa məcburdurlar, xəstələr həkim yardımı ala bilmirlər. Hətta ərzağı xüsusi tacirlər keçilməz palçığın içindən adlayaraq, çiyinlərində gətirirlər və əlbəttə, bu zəhmətlərinin əvəzində əlavə pul tələb edirlər ki, bu halda bəzən qiymətlər 2 dəfə bahalaşmış olur (166,1901.16.01.№12).

1900-cu il üçün şəhər küçələrinin təmizlənməsi ilə əlaqədar smeta müzakirə edilərkən H.Zərdabi Şəhər İdarəsinin bu sahədəki fəaliyyətini tənqid edərək bildirdi ki, şəhəri iki hissəyə

ayırıb iki rəhbər təyin etdilər ki, onlar bir-biri ilə yarışsınlar. Şəhər İdarəsi iki komissar təyin edib: birinə arabanın təsərrüfat hissəsini, o birinə təmizliyi verib. Beləliklə, ortada heç bir yarışma yoxdur. Şəhər çirkin içində batır. Belədirsə, iki komissar nəyə lazımdır? Onsuz da onlar yatırlar, heç olmasa, qoy biri yatsın. Buna görə də Dumanın qərarı ilə təmizlik işləri ilə bağlı smeta 2.899 rubladək azaldılır (166,1900.10.02.№ 32).

Dumanın 1900-cu il 15 may tarixli iclasında yenə də şəhər küçələrinin təmizlənməsi məsələsi müzakirəyə çıxarılır. Şəhər İdarəsi məlumat verir ki, şəhərin təsərrüfat üsulu ilə təmizlənməsi qərara alınanda Duma xüsusi komissiya yaratdı və Şəhər İdarəsi onunla birgə təmizləmə qaydalarını işləyib-hazırlamağı tapşıranda Şəhər İdarəsi bəyan etmişdi ki, 80 araba lazım olacaq. Amma komissiyanın fəaliyyəti ilə bağlı Duma hesab etdi ki, şəhərdə özəl arabaçıların ixtiyarında olan cəmi 60 araba ilə onlar şəhəri pis-yaxşı təmizləyir, üstəlik, şəhər arabalarının yeri geniş, atları daha gümrahdırlar və 60 araba ilə küçələri podratçılardan daha yaxşı təmizləmək mümkündür. Bu səbəbdən də cəmi 60 arabanın alınması barədə qərar verildi. İndi məlum olur ki, bu arabaların sayı təmizlik işlərini aparmağa kifayət etmir və fəhlələrin bütün səylərinə baxmayaraq küçələr hələ də çirklidir. Şəhər İdarəsi həm də Dumadan Qara şəhərdəki ev sahibləri ilə razılaşmağa icazə istəyir ki, cəmi iki faiz vergi müqabilində Qara şəhərdə də təmizlik işlərinə başlasın (30,s.245).

Bütün bunlara əsasən Şəhər İdarəsi arabaların sayının 80-dək, Qara şəhərdə isə 14-dək artırılmasına razılıq verilməsini və araba almaq üçün ehtiyat fonddan pul ayrılmasını xahiş edir. Bunun üçün əlavə 15 min rubl xərc tələb olunur. H.Zərdabi məsələ ilə bağlı çıxışında izah etdi ki, şəhərin təmizlənməsi ev sahiblərinin də vəzifəsidir, onlar Şəhər İdarəsi ilə könüllü müqavilə imzalayıblar və 2 faiz vergi əvəzində təsərrüfat üsulu ilə təmizləmə aparmağı öz üzərilərinə götürüblər. Dumanın şəhər pullarını təmizlik üçün xərcləməyə ixtiyarı yoxdur, əgər verginin 2 faizi təmizlik üçün azlıq edirsə, ev sahibləri ilə danışıb faizi artırmaq lazımdır. Ə.M.Topçubaşov isə çıxışında

bildirdi ki, təsərrüfat üsulu ilə təmizləmə özünün bütün yararsızlığını sübut edib. Buna görə də əvvəlki podrat üsuluna nə qədər tez keçilərsə, bir o qədər yaxşı olar. M.Unanov isə çıxışında sübut etməyə çalışrdı ki, mövcud qayda nümunəvidir, Şəhər İdarəsi işi çatdırmırsa, səbəb arabaların azlığıdır, buna görə də onların sayını artırmaq və təsərrüfat üsulu ilə təmizlik aparmağı davam etmək lazımdır (166,1900.17.05.№ 107).

Dumanın 1901-cu il 2 yanvar tarixli iclasında deputat F.Vəzirov şəhərin qardan təmizlənməməsinə görə Şəhər İdarəsini fəaliyyətsizlikdə tənqid edərək bildirdi ki, şəhər təsərrüfatının heç bir sahəsində iş görülmür. Kanalizasiya, su kəməri, işıqlandırma kimi vacib məsələlər unudulur. Şəhər çirk içində itib-batır, hər cür xəstəlik-difteriya, skarlatin, tif və s. inkişaf edir. İçməyə su verilmir, verdikləri yeməklər də iyrəncdir. Doğrudanmı, şəhəri təcili şəkildə təmizləmək mümkün deyil? heç onu demirəm ki, küçələr çirkdən xarab olur, şəhər zəngindir və onun heç nəyə heyfi gəlmir.... biz burada oturmuşuq və heç olmasa, etiraz edə bilərik, ama indi Çəmbərəkənddəkilər və digər uzaq qəsəbədə yaşayanlar nə hiss edir? Axı ora yol getmir, ehtiyac olanda ora həkim aparmaq da mümkün deyil. Onlar vergi verirlər, seçkilərdə səslərini verirlər, amma heç nə etmirik. Bəs şəhər özünüidarəsi nədən ötrüdür? Biz nədən ötrüyük? (166,1901.4.01.№ 3).

Şəhər İdarəsini üzvü K.Səfərəliyev isə F.Vəzirovun çıxışına etiraz edərək qeyd etdi ki, uğursuz təmizləmə işləri arabaların azlığı ilə bağlıdır. Onların sayını iki dəfə çoxaltmaq və vergini 3 faizədək artırmaq lazımdır. F.Vəzirov isə ona cavab olaraq bildirdi ki, arabaları artırmağa ehtiyac yoxdur. Belə qar uçqunları üç ildən bir olur. Dərhal arabalar tutmaq və qarı təmizləmək olardı. Qarın əriməsini və küçələrdə lehmə yaranmasını gözləməməliydiniz. Sonda o şəhərdə kanalizasiyasının, su kəmərinin və işıqlandırılmanın olmadığını bildirdi. H.Zərdabi isə çıxışında qeyd etdi ki, podratçıların vaxtında qarı küçələrdən ilk gündəcə təmizləyirdilər, bu dəfə isə az qala dörd gündən sonra təmizləməyə başladılar. Onu da ona görə elədilər ki, baş

rəisin köməkçisi general Freze gəlirdi. Sultanov isə çıxışında şəhər arabaları üzərində heç bir nəzarətin olmaması və fəhlələrin isə işsiz-gücsüz küçələrdə dayandıqlarını bildirdi (166,1901.4. 01.№ 3).

Dumanın 1901-ci il 17 yanvar tarixli iclasında deputatlardan Rəsulov, Mehdiyev və başqaları bəyan etdilər ki, şəhəri təmizləməli olan arabaçılar nəinki küçələri təmizləmir, hətta həyətlərdən mətbəxt tullantılarını da həftələrlə yığıb aparmırlar, bir müddət sonra bu qalıqlar çürüyür və üfunət ətrafa yayılır, şəhər sakinləri həyət və küçələrinin təmizlənməsi üçün pul xərcləyirlər. Şəhər İdarəsi təmizlik işini bacarmırsa, qoy bu işi görmək istəyən podratçı gəlsin. Şəhər İdarəsinin üzvü Səfərəliyev məruzə edərək bildirdi ki, keçən il dekabrın 23-dən bəri ev sahibləri və istehlakçılardan həyət və küçələrin çirkliliyi ilə bağlı daha az şikayət gəlirdi. Amma bundan sonra güclü qar yağdı, hamı şikayətlənməyə başladı, şəhər arabası təmizlik işlərini həqiqətən də çatdırmırdı və bu səbəbdən də muzdlu arabalar tutuldu. Onlar şəhər arabalarından daha tutumlu idi. Şəhər İdarəsini ittiham etmək olmaz. Çünki o bacardığını eləyir (166,1901.19.01.№ 15).

Rəsulov Şəhər İdarəsininin məruzəsinə etiraz edərək bildirdi ki, şəhərin hər yeri çirk içərisindədir və onu təmizləmirlər. Şəhər İdarəsi təmizlik işlərini boynuna götürdüyündən öhdəliklərini də özü yerinə yetirməli, şəhərdə çirkdən, zir-zibildən xəstəliklər yayılmaqdadır (166,1901.19.01.№ 15).

Dumanın 1901-ci il 22 fevral tarixli iclasında H.Zərdabi küçələrin podrat üsulu ilə təmizlənilməsini təklif edir və göstərir ki, təsərrüfat üsulu bərbad şəkildə aparılır. Prinsipcə, təsərrüfat üsulu daha yaxşıdır, amma əfsuslar olsun ki, işdə bu özünü göstərmir. Kimsə Şəhər İdarəsinin işini yoxlamağa başlasa, tükləri biz-biz olacaq. O çıxışında həmçinin küçələrin daş ilə döşənməsinə heç kəs tərəfindən nəzarət edilmədiyini də bildirdi.

H. Zərdabi “Kaspi” qəzetində bu barədə yazırdı: Əvvəlki podratçılar hər gün hər araba ilə 10-12 reys zir-zibil daşıyırdılarsa, idarə isə 2-3 arabadan artıq yük daşımır. Əvvəlkilər hava

işıqlaşana kimi işə çıxırdılar, bunlar isə səhər saat 8-9-da işə başlayırlar. Podratçılar yaxşı işləməyəndə, protokol tərtib olunurdu, cərimə kəsilirdi və təmizlik yaratmaq işi onların öz vəsaiti hesabına davam etdirilirdi.

O daha sonra yazırdı, qış gəldi. Qardan əsl təpələr yarandı. Keçmiş zamanlarda podratçılar hələ axşamdan qarı daşımağa girişirdilər ki, şəhər küçələrində qar yığılıb qalmasın. Bunlar isə, 4 gün keçib, amma şəhər arabalarını heç kəs heç yerdə görməyib. Bir qədər əvvəl yağan qardan az sonra şaxta oldu, sonra hava qızdı. Çirkab gölməçələri və çirkab suları bütün küçələri örtdü (166,1901.16.01.№ 12).

Lakin Şəhər İdarəsi küçələrin təmizlənməsində təsərrüfat üsuluna üstünlük verdiyini bir daha bəyan etdi. İclasa sədrlik edən M.Belyavski bildirdi ki, mövcud üsul ən yaxşısıdır. O bu işdə qüsurların ola biləcəyini inkar etmir, amma deyir ki, indi küçələrin vəziyyəti podrat üsulu zamanından çox yaxşıdır (30,s.272).

1909-cu il 1 yanvar tarixində Bakı şəhər başçısının tələbi ilə şəhərin mərkəzi küçələrindəki həyətlərin təmizlənməsi ev sahiblərinin hesabına həyata keçirilməsinə başlandı. Ev sahiblərindən alınan 2% vergi 1,3%-dək azaldıldı. Bu qayda 1913-cü ildə ev sahiblərində alınan 2% verginin bərpa edilməsinə kimi davam etdirildi (191,s.110).

Küçələrin təmizlənməsi istiqamətində görülən işlərdən biri də şəhər küçələrinin su ilə yuyulmasından ibarət idi. Lakin Şəhər İdarəsi isə su kəmərinin çəkilməməsini bəhanə edərək şəhər küçələrini su ilə yumurdu və bildirirdi ki, su kəməri çəkildikdən sonra küçələr su ilə yuyulacaq. Küçələrin su ilə yuyulmaması şəhərdə həm yoluxucu xəstəliklərin yayılmasına səbəb olur və həm də külək əsdikdə küçələr tozlu olurdu.

H.Zərdabinin "Kaspi" qəzetində Bakı şəhərində küçələrin sulanması və bağların becərilməsi barədə məqaləsində yazırdı: Bakıda yaxşı içməli su yoxdur, amma küçələrin yuyulması və bağların suvarılması üçün nə qədər desən, suyumuz var. Biz Saxara səhrasında deyil, Bakıda yaşayırıq axı! Xəzər dənizi

əlimizin altındadır, nə qədər su lazımdır, oradan götür, küçələrə səp, yanğınları söndür.

Bakıda ağacları suvarmaq, hamamlarda çimmək üçün yararlı olan yeraltı sular da nə qədər desən var, lakin biz bu sulardan istifadə etmirik. İctimai idarə isə sanki qəsdən küçələrin və ağacların suvarılmasını su kəməri məsələsi ilə əlaqələndirir, nəticədə, yavaş-yavaş istidən qovrulan bakılılar cənab Yaqnların, Lindleylərin və başqa-başqa şəxslərin müxtəlif hiylə və hoqqalarına sadəlövcəsinə inanırlar.

Küçələrin sulanmasının vacibliyi bakılıların yaşayışını zəhərləyən güclü tozun sayəsində aydın hiss olunur. Hamı, lap savadsız adam da yaxşı bilir ki, küçələr sulansa, toz olmaz və yaşamaq şəraiti də xeyli yaxşılaşar (166,1902.26.07.№161; 27.07,№162).

Şəhər küçələrinin dəniz suyu ilə yuyulması XIX əsrin sonlarında ortaya çıxsada ondan da istifadə olunmurdu. Hətta onu zərərli sayırdılar. Şəhər rəhbərliyi hesab edirdi ki, küçələrə çilənən dəniz suyu quruyanda, onun yerində qalan duz adamların gözünə düşə bilər, gözün selikli qişasında iltihab törədə bilər.

H.Zərdabi göstərilən məqaləsində Avropa ölkələrindən misal gətirərək göstərirdi ki, avropalılar dəniz suyunu bəyəndilər və misal üçün, Londonda küçələri yumaqdan ötrü dənizdən ayrıca su kəməri çəkdilər, halbuki o şəhərin küçələri indiyədək ümumi su kəmərindən sulanırdı. Ağıllı ingilislər dəniz suyunun üstünlüyünü bilib, onu bəyənəndə, həmişəki kimi, biz yenə də ağıllı adamların yolu ilə gedərək, küçələrin dəniz suyu ilə sulanması məsələsini irəli sürdük. Amma elə bu zaman şəhər rəhbərliyində bir qorxu yarandı. Onlar fikirləşdilər ki, əgər küçələr dəniz suyu ilə sulansa, onda yəqin ki, Lindley ümumi su kəmərini tikmək istəməyəcək və bu sahədəki digər tədbirlərin həyata keçirilməsi də lazım gəlməyəcək (166,1902.26.07.№161; 27.07,№162).

Şəhərin abadlaşdırılması istiqamətində görülən işlərdən biri də şəhərdə ağac əkilməsi və yaşıllıqların salınmasından

ibarət idi. Duma ağacların az olduğu Bakı şəhərində küçələrin yaşıllaşdırılması və havanın təmizlənməsi baxımından şəhərdə ağac əkilməsinə xüsusi diqqət yetirirdi. Şəhər İdarəsi hər il əhaliyə ağac əkmək üçün minlərlə pulsuz ağac paylayırdı. Lakin suyun olmamasından həmin ağacları əkib becərmək və şəhəri yaşıllığa çevirmək işi olduqca çətin idi. Şəhər İdarəsi ağacların suvarılmasını şəhərə su kəmərinin çəkilməsi ilə əlaqələndirirdi. Lakin XIX əsrin 90-cı illərində şəhərdə su quyuları sanitar bürosu tərəfindən içməyə yararsız hesab edilərək istifadəsinə qadağa qoyulmuş və bağlanmışdır. İstifadəsinə qadağa qoyulmuş həmin su quyularının suyundan ağacların sulanmasında istifadə etmək və su kəməri çəkilənədək şəhəri yaşıllığa çevirmək olardı. Lakin Şəhər İdarəsi belə etmədi. Ona görə də XX əsrin əvvəlləri üçün Bakı şəhərində ağacların sayı olduqca az idi. Olan az-çox ağacları da ayrı-ayrı şəxslər kəsərək yerlərində yaşayış binaları inşa etmişdirlər.

Bakıda özünüidarənin tətbiqindən sonra şəhərdə yaşıllıqların sayı ildən-ilə artırdı. Əgər 1878-ci ildə şəhərdə yaşıllıqların sahəsi 3,02 hektar təşkil edirdisə, bu rəqəm 1908-ci ildə 4,68 hektara, 1910-cu ildə 5,95 hektara, 1913-cü ildə 9,62 hektara və 1918-ci ildə isə 10,03 hektara çatmışdır (52,s.239).

Göründüyü kimi Bakıda özünüidarənin tətbiqindən sonra keçən 40 il ərzinidə şəhərdə yaşıllıqların sahəsi 3 dəfə artmışdı. Bu da şəhər özünüidarə orqanlarının fəaliyyətinin birbaşa nəticəsi idi. H.Zərdabi "Kaspi" qəzetində "Şəhər məsələləri" adlı başqa bir məqaləsində isə şəhərdəki bağların, ağacların sulanması barədə yazırdı: Məlumdur ki, keçmiş zamanlarda-Bakıda əhalinin sayı az olan dövrlərdə demək olar, bütün həyətlərdə ağaclar vardı, sonradan onları kəsdilər. O zamanlar həmin ağacları suvarmağa su da vardı və əgər ictimai idarə yaradılandan sonra da ağac əkilməsi işi lap başlanğıcdan düzgün qurulsaydı, su kəməri tikintisi ilə əlaqələndirilməsəydi, yenə də ağacları suvarmağa su tapmaq olardı.

Ağacları quyuların suyu ilə suvarmaq olardı. Lakin o quyular sanitar baxımından dolduruldu. Bu cür doldurulan

quyular şəhərimizdə yüzlərlədir və əgər istəyimiz olsaydı, həmin quyuların suyu ilə neçə-neçə bağ-bağça suvara bilərdik.

Daha sonra o, təssüf hissi ilə yazır: "Amma bu yalançılar Bakının küçələrinin su kəməri tikiləndən sonra düzələcəyini vəd etdilər və bunun üçün Dumadan bu və ya digər axtarış-tədqiqat işlərinin aparılmasından ötrü vəsait buraxılmasını xahiş etdilər. Dedilər ki, su kəməri tikiləndən sonra Kürün, yaxud Samur çayının, ya da ki, hansısa bir mənbənin həyatverici ləpələri birbaşa Bakı şəhərini vuracaq, şəhərimiz yaşıllığa bürünəcək, əkinlər gül-çiçəyə qərq olacaq, bülbüllər və başqa nəğməkar quşlar tökülüşüb gələcək, bir sözlə, Bakı yer üzünün cənnətinə çevriləcək" (166,1902.№ 41, 44 və 48).

Beləliklə, tarixi faktların və arxiv sənədlərinin müqayisəli təhlili göstərir ki, Bakı Duması şəhərin abadlaşdırılması, küçələrin təmizlənməsi və işıqlandırılması, dəniz kənarı bulvarın salınması, şəhərdə at-dəmir yolu xəttinin çəkilməsi və elektrikli tramvay xəttinə keçilməsi istiqamətində və əhalinin maddi rifah halının yaxşılaşdırılması naminə ardıcıl və məqsədyönlü fəaliyyət göstərmişdir. Dumanın bu sahədə fəaliyyəti müsbət qiymətə layiqdir.

## §2.6. Tibbi xidmət

Bakı şəhərində özünüidarənin tətbiqi ilə əlaqədar olaraq şəhərdə əhaliyə tibbi xidmətin göstərilməsi də Şəhər İdarəsinin ixtiyarına keçdi. Şəhər Duması əhaliyə tibbi xidmət göstərilməsi istiqamətində də hərtərəfli fəaliyyət göstərmişdir. Şəhər əhalisinə tibbi xidmət göstərmək üçün Şəhər İdarəsi yalnız bir xəstəxanaya və 7 ambulatoriyaya malik idi ki, bunlar da 700 nəfərdən çox xəstə qəbul edə bilərdi. Şəhərdə Mixaylov adına şəhər xəstəxanası və Neft Sənayeçiləri Qurultayı Şurasının Qara şəhərdəki xəstəxanası əhaliyə pulsuz xidmət göstərirdi. Bundan

başqa 2 şəhər və Neft Sənayeçiləri Qurultayı Şurasının 1 xəstəxanası yerli vəsait hesabına fəaliyyət göstərirdi.

XIX əsrin sonu-XX əsrin əvvəllərində Şimali Azərbaycanda sanitar gigiyena və tibbi xidmət səviyyəsi çox aşağı idi. Yalnız kütləvi epidemiyalar baş verdikdə hökumət idarələri komissiyalar, sanitar dəstələr yaradır, kampaniya xarakterli bəzi tədbirlər görürdü. Epidemiyalar sovuşan kimi bu qurumlar da fəaliyyətlərini dayandırırdı (39,s.98).

Yoluxucu xəstəliklərin kütləvi yayılmasının səbəblərindən biri də şəhərin təmiz saxlanılmaması idi. XIX əsrin 90-cı illərinə kimi Bakı şəhərinin təmiz saxlanılması üçün heç bir rəsmi qayda işlənib hazırlanmamışdı. Yalnız, 1884-cü ildə Duma təmizliyə riayət olunması barədə məcburi qaydalar qəbul etdi. 1890-cı ildə bu qaydalara əlavələr olundu. Qaydalarda bütün sahələrdə (mənzillərdə, küçədə, karvansaraylarda, fəhlə yataqxanalarında və s.) təmizliyə riayət etməyin məcburi əsasları göstərilirdi. Lakin bu qaydaların icrası təmin olunmurdu. Qaydaların yerinə yetirilməsini təmin etməyə borclu olan polis və Şəhər İdarəsi bu işə biganə yanaşırdılar (39,s.101).

Bakı şəhərində 1892, 1893, 1904, 1908, 1909, 1910, 1915 və 1918-ci illərdə vəba epidemiyası qeydə alınmışdır. 1892-ci ildə vəba epidemiyası daha geniş miqyas aldı. Bəzən elə günlər olurdu ki, bu xəstəliyə gündə 400 nəfər yoluxurdu. Bakı şəhərində vəba epidemiyasının geniş yayılmasının səbəbləri sırasına Cənubi Azərbaycan və Mərkəzi Asiyadan iş dalınca Bakıya gələn fəhlələrin sayının gündən-günə artması, şəhərdə içməli suyun çatışmaması, küçələrin təmizlənməməsi və sulanmaması, şəhərdə sanitariya işlərinin düzgün təşkil edilməməsi, şəhər sakinlərinin şəxsi gigiyena qaydalarına əməl etməmələri, şəhərdə ixtisaslı həkim və digər tibb heyətin çatışmaması, xəstəxanaların az olması, dövlət tərəfindən əhaliyə tibb xidmət göstərilməsinə maliyyə vəsaitinin lazımınca ayrılmaması və əhalinin bu xəstəliklərdən müalicə olunması üçün maddi imkanlarının olmaması kimi hallar daxil idi.

1892-ci ildə vəba epidemiyası daha ağır nəticələrə gətirib çıxartdı. Bu dövrdə Bakıda epidemiyalara qarşı səmərəli fəaliyyət göstərə biləcək xüsusi tibb müəssisəsi də yox idi. Xəstələr baraklarda (xəstəxanada yoluxucu xəstələrə məxsus şöbələr) yerləşdirilirdi. Ona görə də şəraitsizlikdən onların arasında ölüm halları 50 faizdən yuxarı olurdu. Belə baraklar, çox vaxt qaydaya görə 100 nəfər xəstə üçün nəzərdə tutulurdu.

Vəba epidemiyasından sonra xəstəliklərlə mübarizəyə, ümumilikdə sanitariya işlərinə nisbətən ciddi diqqət yetirilməsinə başlandı. Şəhər ərazisi icraaçı komissarlar arasında 6 hissəyə bölündü. Sanitar Büronun nəzdində 2 sanitar dəstə yaradıldı. Hər bir dəstəyə bir sanitar həkimi, bir feldşer, bir dezinfektor və 3 icraçı komissar daxil edilmişdi. Şəhərin sanitariya mühitinin sağlamlaşdırılması üçün 1893-cü il ərzinidə xeyli iş görüldüyü nəzərə çarpırdı. 1893-cü ilin mart ayında şəhər başçısı Despot-Zenoviç Bakı quberniya sanitariya komissiyasına məruzə edərək, vəba epidemiyasına qarşı mübarizə üçün barak tipli yoluxucu xəstəliklər xəstəxanasının tikintisini, dezinfeksiya kamerasının təşkilinin zəruriliyini bildirildi (190,s.99).

1896-cı ildə Bakıda ilk dəfə şəhər sanitariya stansiyası açıldı. Stansiyanın qarşısında duran vəzifə yeyinti məhsulları və su üzərində ciddi nəzarət funksiyasını həyata keçirmək idi. Lakin bu stansiya mövcud tələbatın ödənilməsini təmin etmək iqtidarında deyildi. 1896-cı ildə Bakıda malyariya xəstəliyi iki dəfə artdı. Kür-Araz çayları ətrafındakı məntəqələrdə bu xəstəliyə tutulanların sayı daha artıq olmuşdur (39,s.104).

Duma tərəfindən qəbul edilmiş təlimata əsasən sanitariya tədbirləri həyata keçirmək üçün birinci növbədə yaşayış evlərinin dezinfeksiyası nəzərdə tutulurdu. Bakıya işləmək üçün Cənubi Azərbaycandan gələn kəsbkar axınlarının güclənməsi şəhərdə yoluxucu xəstəliklərin yayılma təhlükəsini getdikcə artırırdı.

1902-ci il oktyabrın 24-də Duma deputat M.Vəkilov tərəfindən hazırlanan sanitar-həkim işlərinin yenidən qurulması

haqqında planı qəbul etdi. Bu plan  şəhər başçısı A.Novikov tərəfindən də bəyənilmişdi.

1903-cü ilin axırlarında Şəhər İdarəsində tibbi-sanitar büro təşkil edildi. Bu büronun işinə də xəstəxanalardan, müalicəxa-nalardan, məktəb xəstəxanalarından, sanitariya və baytarlıq müəssisələrinin  hər birindən 1 həkim cəlb edildi (192,s.92).

Beləliklə, tibbi-sanitar büronun yaradılması ilə şəhər özünüidrəsi tərəfindən əhaliyə tibbi-sanitar xidmət göstərilməsi istiqmətində mərkəzləşdirilmiş və koordinasiya edilmiş bir qu-rum təşkil edildi.

1904-cü ilin yayında Bakı şəhərində vəba xəstəliyinin yayılma təhlükəsi qarşısında Dumada sanitar tədbirlərin həyata keçirilməsi müzakirəyə çıxarıldı. Məlumat verildi ki, yeni xəstə-xanalar yaradılmalı, xəstələrin başqa yerə köçürülməsi təşkil olunmalıdır. Bunların hamısı isə vəsait tələb edir. Cari vəsait isə yoxdur.Yalnız ehtiyat kapitaldan istifadə etmək olardı. Buna görə də, Şəhər İdarəsi ehtiyat kapitaldan lazım olacaq qədər pul xərcləmək üçün Dumadan səlahiyyət  istəyir.

Məsələ ilə bağlı Dumada çıxış edən deputat A.Benkendorf bildirdi ki, yoluxucu xəstəliklərin inkişaf tarixçəsi göstərir ki, onlardan yalnız faydalı suyun və düzgün qurulmuş kanalizasiya sisteminin olması ilə yaxa qurtara bilərik. Bizdə su babatdır, amma kanalizasiya barədə düşünmək lazımdır. Siz bilmirsiniz şəhərdə nə baş verir. Bütün çirkab şimala axıdılır, oradan daimi əsən külək şəhərə xəstəlik gətirir.Bunu dayandırmaq lazımdır. Burada 10-25 min rubldan danışılır. Mən Odessada taun xəs-təliyini xatırlayıram. Bu xəstəlik ona görə Rusiya ərazisində yayılmadı ki, ona qarşı Odessada yaxşı su və yaxşı kanalizasiya sistemi vardı. Bu səbəbdən də müxtəlif tədbirlərlə yanaşı, kanalizasiya sisteminin qurulmasını təklif edirəm, xərcləri heç bir rəqəmlə məhdudlaşdırmayaq, çünki bu məsələdə xəsislik etmək olmaz. Nə qədər lazımdırsa, o qədər də xərcləməliyik. Duma isə həmin iclasında vəba ilə mübarizədə sanitar tədbirlərin həyata keçirilməsinə ehtiyat kapitaldan məhdudlaşdırılmamış

məbləğin ayrılması üçün Şəhər İdarəsinə səlahiyyət verdi (30,s.523).

Duma iclaslarının birində çıxış edən H.Zərdabi Dumanın Şəhər İdarəsinə qeyri-məhdud vəsait verilməsi barədə qərarının ləğv olunmasını və Şəhər İdarəsinin hər xərclənən qəpiyi göstərməklə Dumaya məruzə etməsini təklif etdi.Onun bu çıxışı səbəbsiz deyildi, çox hallarda yoluxucu xəstəliklərlə mübarizə aparmaq üçün ayrılan vəsaitlər təyinatına uyğun istifadə olunmur və ayrı-ayrı şəxslər tərəfindən mənimsənilirdi.

H.Zərdabi və digər deputatların etirazının nəticəsidir ki, Quberniya İdarəsi həmin qərarı ləğv etdi və vəba ilə mübarizədə xərclənə biləcək məbləğin dəqiq miqdarı müəyyənləşdirildi (166,1904.23.09.№ 214).

Şəhər İdarəsi şəhərdən yığılan bütün zibil və tullantıları şəhərin şimal hissəsinə toplayırdı və oradan da əsən külək isə həmin zibil və tullantıları yenidən şəhərə səpələyirdi. Bu məsələ ilə bağlı Dumanın 1904-cü il 21 sentyabr tarixli iclasında çıxış edən deputat Hacıyev bildirdi ki, bütün zibil və tullantılar şəhərin şimal hissəsinə daşınır, oradan isə daimi külək əsir. Bu məsələ ilə bağlı təcili tədbirlər görülməsini tələb etdi. Çünki şəhərə yayılan həmin zibil və tullantılar sonradan yoluxucu xəstəliklərin yayılmasının mənbəyinə çevrilirdi (166,1904.23. 09.№ 214).

1904-cü ildə Bakıda vəba epidemiyası o qədər geniş yayılmışdı ki, şəhərdə demək olar ki, adam qalmamışdır. Bunu Ə.M.Topçubaşovun Ə.Hüseynzadəyə 1904-cü il 14 sentyabr tarixində yazdığı məktubundan da görmək olar. Ə.M.Topçubaşov məktubunda yazır: Mənə böyük zövq verən gözəl məktubuna cavab yazmaq istəyimdir, amma zamanım olmadı. İndi isə heç yoxdur.Çünki qəzetdən başqa, bu günlər həm də vəbaya qarşı mübarizə ilə məşğulam. Həm də vəba əsl epidemiyaya çevrilib. Hər gün 25 nəfər adam vəfat edir. Hamısı da müəsəlmanlardır. Dəqiq məlumatları çap eləməyə icazə vermirlər. Ən pisi isə bizim müsəlmanların heç bir tədbir görmək

istəməmələridir. Hətta mənə deyirlər ki, bütün bəlalar həkimlərdən gəlir.

Onların əvəzindən də özümü oda-közə vurmaq lazım gəlir. Bu da çox vaxtımı alır.Amma mübarizə get-gedə qızışır. Var qüvvə ilə qurbanların sayını azaltmağa çalışırıq.Xəstəlik uşaqları xüsusi amansızlıqla biçib-tökür (131, s.104).

Ə.M.Topçubaşov Dumanın sədri kimi həmçinin vəba epidemiyasına qarşı da kəskin mübarizə aparırdı. O, epidemiyanın kəskin xarakter almasını şəhər təsərrüfatına məsul olan işçilərin yarıtmaz fəaliyyəti, Bakının sanitar həyatının pozulması, səhiyyə sisteminin qaydada olmaması ilə izah edirdi. Şəhər başçısı K.İretskinin sədrliyi ilə 1905-ci ilin yanvar ayının 19-da keçirilən Duma iclasında Ə.M.Topçubaşov şəhərin təmizliyi məsələsini kəskin şəkildə irəli sürdü. O, çıxışında vəba kimi qorxulu epidemiyaya qarşı mübarizədə şəhərin təmiz saxlanılmasının vacibliyini bildirdi. Ə.M.Topçubaşov bu işdə şəhər təsərrüfatına səriştəli və bacarıqlı adamların rəhbərlik etməsinin zəruriliyini xüsusi şəkildə vurğuladı (57,s.89).

1904-cü ildə vəba epidemiyası ilə yanaşı şəhərdə çuma xəstəliyidə geniş yayılarkən Bakı şəhəri üzrə sanitar-icra komissiyası bu xəstəliklə mübarizə aparmaq üçün 8 həkim və 12 feldşeri şəhərin müxtəlif yerlərinə ezam etmişdir. Bakı şəhərində xəstəliyin qarşısını almaq üçün şəhər 10 sanitar sahəyə bölündü və sonra bu 24-ə qədər artırıldı (116,s.135).

Dumanın 1906-cı il 28 noyabr tarixli iclasında şəhər məktəblərində həkim vəzifəsinin ləğvi məsələsi müzakirəyə çıxarılır. Belə ki, Şəhər İdarəsi məktəblərdə paralel siniflərin açılması ilə əlaqədar olaraq tələb olunan xərcin məktəb həkimlərinə ödənilən xərclər hesabına qarşılanması barədə təkliflə Dumaya məruzə edir.

Şəhər İdarəsinin məktəblərdə həkim vəzifəsinin ləğv etmək istəməsini deputatlar narazılıqla qarşıladılar və bildirdilər ki, həkimlər məktəblərdə işləməyə məcbur edilməlidir. Belə ki, deputatlardan X.Antonov dedi ki, Şəhər İdarəsi ilk dəfədir ki, tələskənliyə yol verərək Dumadan razılıq almadan məktəb

komissiyasının rəyinə əsaslanaraq paralel siniflər açıb. Amma məktəb həkimlərinin işdən çıxarılması ilə razılaşmaq olmaz. Həkimlərə ehtiyac var. Bu tamam başqa məsələdir ki, onlar heç bir iş görmürlər.

Bu məsələ ilə bağlı H.Zərdabi çıxışında bildirdi ki, həkimlər iş görmürlərsə, bu məhz Şəhər İdarəsinin günahıdır. Çünki o, işçilərindən kimin nə iş gördüyünü və nə üçün maaş aldığını bilmir. Paralel siniflər açmaq lazımdır, amma məktəb həkimləri vəzifəsinin ləğvini isə təxirə salmaq lazımdır. Əhmədov da çıxışında qeyd etdi ki, mən müsəlman məktəblərinin qəyyumu kimi bəyan edirəm ki, məktəb həkimlərini heç yerdə görmək mümkün deyil, onlara nə üçün maaş verildiyini heç kim bilmir. Bununla belə, məktəblərin həkimlərə ehtiyacı var, onları işdən çıxarmaq deyil, işləməyə məcbur etmək lazımdır. Bu da Şəhər İdarəsinin işidir.

Duma deputatların mövqeyi ilə razılaşaraq məktəblərdə paralel siniflərin açılması və məktəblərdə həkim vəzifələrinin ləğvindən isə imtina edilməsi barədə qərar qəbul etdi (166,1906. 30.X.№ 257).

Şəhərdə yoluxucu xəstəliklərin yayılma mənbələrindən biri də müsəlman hamamları idi. 1904-cü ildə yayılan vəba epidemiyası göstərdi ki, şəhər hamamları təmiz saxlanılmır və sanitar gigiyena qaydalarına cavab vermir.Əhalinin sağlamlığı və yoluxucu xəstəliklərin yayılmasının qarşısının alınması üçün Dumanın 1904-cü il 21 sentyabr tarixli iclasında müsəlman hamamları barədə yeni məcburi qaydalar qəbul edildi.

Həmin məcburi qaydalar aşağıdakılardan ibarət idi: 1) hamamlar tamamilə təmiz, qoxusuz sudan istifadə etməli; 2) soyunma otaqlarındakı hovuzlar yenidən quraşdırılmalı;3) yuyunduqdan sonra yaxalanmaq üçün hovuzlardan kərpic arakəsmə ilə ayrılan su anbarının və ya duşun quraşdırılmasına icazə verilir; 4) ümumi su çənlərinin yerləşdiyi hissə hamamın digər hissələrindən ayrılmalı; 5) soyunma hissəsindəki hovuzlar iki həftədə bir dəfə, böyük ümumi hovuzlar isə həftədə bir dəfədən az olmayaraq təmizlənməlidir; 6) soyunma hissəsində

vannalar və ya çanaqlar quraşdırılmalıdır; 7) alt paltarların yuyulması qadağan edilir; 8) yoluxucu xəstəliklərdən əziyyət çəkən şəxslər hamama buraxılmamalıdır (30,s.549).

Şəhərdə yayılan yoluxucu xəstəliklərdən biri də çiçək xəstəliyi idi. Bu xəstəliyin vaxtında qarşısının alınması üçün peyvənd vurulması çox vacib bir məsələ idi. Elə bu səbəbdən də çiçək xəstəliyinə qarşı peyvənd vurulması Dumada ciddi müzakirəyə çevrilir. Deputatların əksəriyyəti peyvəndin vurulmasının həkim nəzarəti altında həyata keçirilməsini təklif edirdilər. Deputat Zaxarbəyov Dumada çıxışında təklif edir ki, çiçək xəstəliyinə qarşı peyvəndin cahil peyvəndvuranlara deyil, bütünlüklə həkimlərə etibar etmək lazımdır. Şəhər başçısı vəzifəsini icra edən M.Belyavski isə ona cavab olaraq dedi ki, çiçək xəstəliyinə qarşı peyvənd vurulması sanitar büronun nəzarəti altında həyata keçirilir.

Deputatlardan Axundov isə çıxışında bildirdi ki, peyvənd vurulması ilə bizim həkimlər məşğuldurlar. Rusiyada çiçəyə qarşı peyvəndin vurulmasını mamalar, qadın və kişi feldşerlər və peyvəndvuranlar həyata keçirir. Bizdə bu peyvəndi Mixaylov xəstəxanasında, pulsuz müalicəxanada və sanitar büroda, həkimlərin nəzarəti altında vururlar. Əhalimiz bu peyvəndin vacibliyini dərk eləmir, buna görə də çox zaman peyvəndvuran özü xəstə axtarmalı olur (166,1898.20.02.№ 39).

Şəhərdə ruhi xəstələr onların müalicəsi üçün ayrıca xəstəxananın olmamasından əziyyət çəkirdi. Dumanın 1899-cu il 9 iyun tarixli iclasında qubernatorun ruhi xəstələr üçün xəstəxana tikilməsi barədə məruzəsi müzakirəyə çıxarılır. Orada deyilir ki, yalnız kənd sakinləri üçün nəzərdə tutulmuş ruhi xəstəxanadakıların əksəriyyəti Bakı sakinləridir. Bu arada ora xəstələrlə doludur və kənd sakinlərini öz müalicə hüquqlarından məhrum etməmək üçün adminstrasiya şəhər sakinlərinin qəbulundan imtina edir və şəhəri öz sakinləri üçün ayrıca xəstəxana tikməyə çağırır.

Şəhər İdarəsi isə mövqeyini belə izah edir ki, 1892-ci ildən ruhi xəstəxanada yalnız 15 bakılı vardı, bu o qədər kiçik rəqəm-

dir ki, ona görə ayrıca xəstəxana acmağa dəyməz. Bu səbəbdən Duma xəstəxana tikməklə bağlı müraciəti rədd etməli, xəstələri isə başqa şəhərin xəstəxanalarına göndərməlidir ki, orada şəhər hesabına saxlanılsınlar (30,s139).

Lakin deputat Axundov Şəhər İdarəsinin mövqeyinə etiraz edərək bildirdi ki, cəmi 15 xəstənin qohumları qubernatora və Şəhər İdarəsinə müraciət edib, nəhayət, xəstələrini xəstəxanaya qəbul etdirə biliblər. Əslində isə, şəhərdə ruhi xəstələrin sayı, şübhəsiz ki, başqa qəza və quberniyalarda olanlardan çoxdur. Bu səbəbdən də ruhi xəstəxananın açılmasına ehtiyac var (166,1899.11.06.№121).

Dumanın 1899-cu il 21 sentyabr tarixli iclasında deputatlara məlumat verilir ki, Odessadan xeyriyyəçi Budaqov şəhər üçün 50 min rubl ianənin qəbul olunmasını xahiş edir, bir şərtlə ki, o pulla ruhi xəstələr üçün kişili-qadınlı 50 nəfərlik xəstəxana tikilsin. Xəstəxana şəhər vəsaiti hesabına fəaliyyət göstərəcək və Budaqov qardaşlarının adını daşıyacaq. Duma ianəni qəbul edərək və şəhər vəsaiti hesabına fəaliyyət göstərəcək ruhi xəstəxananın tikilməsi barədə qərar qəbul edir (166,1899.23.09.№ 204).

Bununlada şəhərdə ruhi xəstələr üçün ayrıca xəstəxana tikilməsi məsələsi öz müsbət həllini tapmış olur.

1901-ci ilin martında Dumada Peterburq şəhərinin nümunəsində əhalinin yoxsul hissəsinin pulsuz müalicəsi üçün Duma həkimləri institutunun təsis edilməsi barədə məsələ qaldırılır. Belə bir institut hələ 1884-cü ildə görkəmli tibb xadimi S.Botkinin təklifi və iştirakı ilə Peterburqda yaradılmışdı. Baxmayaraq ki, söhbət iki ştatlı həkimdən gedirdi, deputatların bir çoxu bunun əleyhinə çıxış etdilər və bildirdilər ki, bu tədbir şəhəri müflisləşdirə bilər (180,s.229).

Dumanın 1901-ci il 15 fevral tarixli iclasında çıxış edən H.Zərdabi və Ə.M.Topçubaşov şəhər ətrafı yerlərdə əhaliyə tibbi xidməti yaxşılaşdırmaq üçün ambulatoriya açmaq haqqında Şəhər İdarəsi tərəfindən irəli sürülmüş məsələni müdafiə etdilər.Ə.M.Topçubaşov çıxışında bildirdi ki, deputatların

hamısı ambulatoriyanın zəruri olduğunu bildirir, lakin bununla belə təklif edirlər ki, məsələ tibb komissiyasına verilsin. Amma bu yenə də çox vaxt aparacaq və şəhərin ətraf əhalisi yenə də həkimsiz və müalicəsiz qalacaqdır. Ə.M.Topçubaşov çıxışında təklif edir ki, ambulatoriyanın açılması üçün tələb olunan xərc təsdiq edilsin və bundan sonra onun yaxşılaşdırılmasına çalışılsın. Ə.M.Topçubaşovun bu təklifi Dumada səs çoxluğu ilə qəbul edilir (166,1901.№ 218).

Dumanın 1901-ci il 11 sentyabr tarixli iclasında məlumat verilir ki, iyulun sonunda şəhər yetimxanasında uşaqlar arasında göz xəstəliyi yayılıb və avqust ayında bu xəstəlik epidemiya halını alıb, qırxdan çox uşağın vəziyyəti ağırlaşıb. Yetimxana həkimi epidemiya ilə mübarizə üçün uşaqları sağlam, yoluxmamış əraziyə köçürülməsini təklif edib. Göz xəstəlikləri üzrə həkim dərhal çağrılb. Amma mənzillə bağlı məsələ yubanır. Heç kəs heç bir qiymətə mənzilini qısa müddətə kirayə vermək istəmir.Yalnız avqustun sonunda mənzil tapılır və həmçinin feldşer də dəvət edilib.

Dumada bu məsələ ilə bağlı çıxışında H.Zərdabi deyir: "Görünür, yetimxanaya nəzarət yoxdur, xəstəliyin qarşısının vaxtında alınmaması üzündən uşaqların təxminən yarısı xəstələnib və gözlərinin tutulması da bununla izah olunur" (166,1901.13.09.№ 200).

H.Zərdabinin bu çıxışından sonra şəhər rəhbərliyi məsələyə münasibət bildirir. Duma iclasında məlumat verilir ki, məsələ ilə bağlı dərhal ölçü götürülüb. Amma indiyədək xəstəlik epidemiya xarakteri almayıb, bu qədər ziyan da verilməyib.Artıq dördüncü gündür xəstə uşaqlar mütəxəsis doktor Krauzenin yanına göndərilib. O, uşaqları müayinə edib, amma xəstəliyin yoluxucu olduğunu deməyib (166,1901.13.09.№ 200).

Şəhər İdarəsində də bu məsələ ilə bağlı dərhal tədbirlər görüldü. Sağlam uşaqlar ayrıca təhlükəsiz əraziyə köçürüldü, həkimlər və tibb bacıları dəvət olundu. Eyni zamanda Dumanın iclasında sığınacaqdakı yetim uşaqların, onlara qulluq edən şəxsi heyətin, uşaqların ərzaq təminatı və digər xərclərini Şəhər

İdarəsi öz üzərinə götürməsi barədə məsələyə də baxıldı. H.Zərdabi çıxışında deputatlara xatırlatdı: "Ötən il Duma uşaq sığınacaqlarının xərcləri üçün lazımi vəsait ayırıb, bunun üzərindən heç yarım il keçməyib, biz yenə onlara pul ayırırıq, bu pulu kimə və nə üçün ayırdığımızı özümüz də bilmirik ki, Duma və şəhərin qarşısında kim məsuliyyət daşıyır, buna görə də hər şey üç dəfə bahasına başa gəlir.... Ötən il Duma uşaq sığnacağı ilə bağlı məruzə hazırlamalı idi, sentyabrda bu məruzə hazırlanmasa, Şəhər İdarəsi məhkəməyə veriləcək. Çünki şəhərin sahibi kimi Duma şəhərdən fayda əldə etməlidir" (30,s.18).

Duma həmçinin şəhərin yoxsul əhalisinə tibbi xidmət göstərilməsini də daima diqqət mərkəzində saxlayırdı.Ona görə də Duma yoxsullar üçün şəhər həkimlərinin təlimatını təsdiq edir. Bu təlimata görə, həkimlər yoxsullara həm xəstəxanada, həm də xəstələrin evlərində qulluq edə bilərlər. Buna görə də həkimlərin maaşı ildə yol və telefon xərci üçün 750 rubl artırılır (əvvəllər isə 3,600 rubl idi) (166,1901.13.09.№ 200).

Dumanın 1902-ci il 16 oktyabr tarixli iclasında Mixaylov xəstəxanasının smetası müzakirə olunanda tibb komissiyasının üzvi kimi H.Zərdabi çıxışında xəstəxanalar barədə məlumat verdi və öz rəyini belə yekunlaşdırdı ki, Peterburqda xəstələr üçün ərzaqlar Bakıdakından bahadır, bununla belə, Bakıda xəstələrə ayrılmış ərzaqlar müqayisə olunmayacaq dərəcədə baha başa gəlir, Moskvada isə xəstə üçün ərzağa bir qəpik artırmaq üçün bütün bir həftəni mübarizə aparırlar, müzakirə edirlər, düşünüb-daşınırlar, bizdə isə asanlıqla artım əlavə olunur. Sonra o, Mixaylov xəstəxanasında yaranmış vəziyyətlə bağlı çıxış edərək bildirdi ki, xəstəxana açılan gündən bəri heç bir hesabat təqdim olunmayıb. Buna görə də xəstəxanadakı gerçək vəziyyəti təsəvvür etmək mümkün deyil. Cəmi bir dəfə hesabat verilib, halbuki hesabata böyük ehtiyac var.Yenidən qurulma məsələsi qaldırılanda siz dediniz ki, yeni sahə müalicəxanalarının açılması ilə xəstəxanaları əhaliyə yaxınlaşdırmaq mümkündür, bu, Mixaylov xəstəxanasında da ambulator xəstələrin qəbulunu azaldar. İndi isə siz yeni ambulatoriya tikmək

istəyirsiniz, bu nəyə lazımdır axı? Deyirsiniz ki, barakların sayı azdır, çarpayı çatmır. Təklif edirəm ki, ambulatoriya əvəzinə baraklar tikəsiniz, onun da yanında kiçik ambulatoriya olsun.Sonra siz yeni apteklərin açılmasını təklif edirsiniz, bu nəyə lazımdır, doğurdanmı, bizim aptek bütün tələblərə cavab vermir? Təkcə şəhər xəstəxanalarında pulsuz müalicəni təmin etmək kifayətdir"

H.Zərdabinin qaldırdığı bu mühüm məsələ digər deputatlar tərəfindən də müdafiə olunaraq xəstəxanada həkimlərin iş qrafiki dəqiq müəyyənləşdirildi. Dumanın qəbul etdiyi müvafiq qərara əsasən Mixaylov xəstəxanasında həkimlər qışda saat 9-da, yayda isə saat 8-də işdə olmaları, günorta isə saat 12-dən tez işdən getməmələri müəyyənləşdirildi (166,1902.31.05.№116).

Elə həmin iclasda H.Zərdabi Dumadan və Şəhər İdarəsindən Mixaylov xəstəxanası nəzdində diş müalicəsi üçün kabinetin açılmasını tələb etdi və qeyd etdi ki, burada bütün lazımi dərmanlar əl altında olmalıdır. Lazım olarsa, xəstəxanalar növbətçi həkimin xidmətindən də istifadə edə bilər. Bundan başqa, xəstəxananın nəzdində diş kabinetinin olmasının bir üstün cəhəti də vardır ki, kasıb əhali də orada müalicə oluna bilər (30,s.19).

H.Zərdabi "Kaspi" qəzetində "Şəhər məsələləri" adlı məqaləsində Mixaylovski xəstəxanası barədə yazırdı: Mixaylovski xəstəxanası fəaliyyətə başlayanda, tibbi yardım göstərən və hətta xeyriyyəçilk edən yeganə müəssisə idi. Zaman keçdikcə, əhaliyə tibb xidmət genişləndi, şəhər həkimləri: sanitar, məktəb həkimləri ortaya çıxdılar, müalicəxanalar, doğum evləri yaradıldı, sonra yoxsullar üçün həkim təyin edildi, indi də nəzdində ambulatoriya olmaqla, sahə həkimləri vəzifələri təsis edilir. Bu ilin smetasında həmin xəstəxana yanında ambulatoriya tikilməsinə 100 min rubla yaxın vəsait ayrılmışdır.

Amma indiki vaxtda xəstəxana yanında ambulatoriya lazımdırmı? Əlbəttə, Mixaylov xəstəxanası fəaliyyətə başladığı ilk illərdə onun nəzdində xüsusi ambulatoriya olması çox vacib idi, axı, tibbi yardım üçün müraciət edənlərin hamısını xəstə-

xanaya qəbul etmək olmazdı, həm də ona görə ki, şəhərin bu xəstəxanada o qədər çarpayı təşkil etmək imkanı yox idi. Buna görə də tibbi yardım üçün müraciət edən çoxlu sayda insanların yalnız tibbi yardıma daha çox ehtiyacı olanlarını xəstəxanaya qəbul edir, qalanlarına isə ambulator yardım göstərirdilər (166,1903.№ 33,34).

Şəhər demək olar ki, hər il ambulatoriyaların sayını artırır, aydındır ki, yerli sakinlər bunun üçün şəhər rəhbərliyinə minnətdardır, amma rəhbərlik xəstəxanalardakı çarpayıların sayını artırsaydı, camaat ona daha çox minnətdar olardı. Axı, təsəvvür edin ki, indiki dövrümüzdə yeganə xəstəxana olan Mixaylovskdə kub sajen hesabı ilə palataların ümumi norması cəmi 170 çarpayı təşkil edir, amma orada zərurət üzündən 270-ə yaxın xəstə yerləşdirilir ki, onlar da demək olar, bir-birinin belində yatmağa məcburdurlar. Əgər xəstəxanadakı çarpayıların sayını 2 dəfə artırmaq imkanı olsaydı, onda bircə həftəyə bu çarpayıların hamısı xəstə ilə dolardı. Buradan görünür ki, ambulator xidmətindənsə, palatalara ehtiyac daha çoxdur (166,1903.№ 33,34).

Həmin vaxt şəhərdə 143.786 nəfər əhali yaşayırdı. Orta hesabla təxminən 533 nəfərə bir çarpayı düşürdü. Bu da olduqca az idi və şəhər əhaliyə lazımi səviyyədə tibbi xidmət göstərə bilmirdi. Bu səbəbdən də Şəhər İdarəsi əhaliyə tibbi xidmətin göstərilməsini yaxşılaşdırmaq üçün ambulatoriyaların sayını artırmağa çalışırdı. Lakin H.Zərdabi başda olmaqla azərbaycanlı deputatlar isə əhaliyə tibbi xidmətin göstərilməsini yaxşılaşdırmaq üçün xəstəxanalarda çarpayıların sayını artırmaqla xəstələrə stasionar xidmətin göstərilməsinə çalışırdılar.

Dumanın 1902-ci il 29 may tarixli iclasında valideyn himayəsindən məhrum olmuş uşaqların sığınacağına həkim təyin edilməsi ilə bağlı məsələ müzakirə edilərkən bu barədə çıxış edən H.Zərdabi xatırladır ki, ötən il Duma Şəhər İdarəsinə iki ay müddətində sığınacaqdakı vəziyyətlə bağlı məruzə təqdim etməyi tapşırmışdı, artıq il yarım keçib, amma biz, bəlkə də cinayət adlandıracaq faktlara görə kimin Duma qarşısında məsul

olduğunu, şəhərin vəsaitini üç qat artığına xərcləndiyini bilmədən sığınacağa hələ də pul ayırırıq. Heç kim bilmir ki, bu pul kimə və nəyə gedir. Şəhər İdarəsi ərzaq üçün gündə 26 qəpik, maliyyə komissiyası 25,6 qəpik ayırır, amma elə axırıncı rəqəmin özü də çoxdur, məsələn, H.Z.Tağıyevin qızlar məktəbində ərzaq gündə 20 qəpiyə başa gəlir, bura həm ət yeməyi, həm də süd və şirniyyat daxildir. Amma kimsə şəhər vəsaitləri hesabına aşağıdakı predmetləri əldə etmək istəyir:uzağı 3 rubla başa gələn uşaq çarpayılarını 7 rubla, 6 rubla başa gələn iri çarpayıları 12 rubla almaq təklif olunur və s. Təsərrüfatın bu cür idarə olunduğu şəraitdə mən sığınacağa bir qəpik də verməkdən imtina edirəm (166,1902.31.05.№116).

Deputat Zaxarbəyov isə çıxışında həkimləri tənqid edərək bildirdi ki, həkimlər xəstəxanadan daha çox öz fərdi xəstələrinə vaxt ayırır və fərdi xəstələrinin müalicəsi ilə məşğul olurlar. O, həmçinin çıxışında göstərirdi ki, Mixaylov xəstəxanasının bütün həkimləri fərdi işlə məşğuldurlar və oturmalı olduqları xəstəxanadan daha çox kənardadırlar. Orada kifayət qədər həkim var amma təəssüf ki, onların hərəsi xəstəxanada bir saatdan artıq qalmır. Xəstələr saat 6-7-dən döşəmədə, ya küçənin səkisində yıxılıb qalırlar, saat 10-dək bizim həkimlər gözə dəymir, çünki evlərində öz xəstələrini qəbul edirlər. Heç kəs işə vaxtında gəlmir. Sonra isə o xahiş etdi ki, səhər saat 9-dan 1-dək həkimlər mütləq xəstəxanada olmalı, axşamlar isə öz sahələrindəki barakları gəzib öz xəstələrini müayinə etsinlər (166,1902.31.05. №116).

Dumanın 1902-ci il 12 iyun tarixli iclasında deputatlara atılmış uşaqların sığınacağı ilə bağlı məlumat verilir ki, iyunun 3-də Şəhər İdarəsinin, tibb komissiyasının, Mixaylov xəstəxanasının təsərrüfat şöbəsinin və Bakıda çalışan bütün həkimlərin birgə müşavirəsində sığınacağın vəziyyəti müzakirə edilib. Müşavirə aşağıdakı qənaətə gəlir: 1) sığınacaqda uşaq ölümü 59 faiz təşkil edir. Hərçənd sığınacağa bütün uşaqlar sağlam vəziyyətdə təhvil verilib; 2) sığınacaqda bütün işə istiqamət verəcək məsul, rəhbər şəxs yoxdur.

Göstərilənlərə əsasən müşavirə qərara alır: 1) sığınacağa rəhbərlik etmək üçün 15.00 rubl maaş, 500 rubl mənzil pulu alan ayrıca həkim təyin edilməli; 2) sığınacağı Bakıdan kənarda daha ucuz başa gələcək və onun şəraiti daha gigiyenik olacaq hansısa kəndə köçürməli; 3) iki uşağı eyni dayənin yedizdirməsi ziyanlı və yolverilməzdir; 4) sınaq üçün uşaqlara qida kimi uzunqulaq südü verməli-bu təcrübə Parisdə tətbiq olunur və orada ölüm faizi cəmi 30 faizdir; 5) uşaqların sığınacaqlarda deyil, ailədə saxlanılması onların hər birinə ayda 8, yarım ildə 18, ildə 32 rubl ayrılır. Və qeyd edilir ki, onları bu cür saxlamaq sığınacaqdakından (2.270 rubl) daha ucuz başa gəlir və Qərbi Avropa ölkələrinin, qismən də Rusiyanın təcrübəsindən göründüyü kimi, uşaqların həyatı sığınacaqdan daha yaxşı qorunur.

Duma həmin iclasında müşavirədə müzakirə edilən məruzəni təsdiqləyir (166,1902.4.06.№ 127).

Dumanın 1902-ci il 26 noyabr tarixli iclasında yenə də atılmış uşaqların sığınacağının saxlanılması barədə məsələ müzakirə edilir və müəyyən edilir ki, şəhər bu sığınacağa 40 min rubla yaxın pul ödəyir və bildirilir ki, orta hesabla hər uşağa 400 rubl xərclənir, bununla belə uşaqlar arasında xəstəliklər və ölüm halları yüksək olaraq qalır.

Məsələ barəsində çıxış edən H.Zərdabi bildirdi ki, bu sığınacağa 9 min rubldan başlanan xərclər ildən-ilə artır, şəhər bütün digər ehtiyaclarını kənara qoyub elə bura yeni məbləğlər artırır. Həmçinin o uşaqların kəndlərə verilməsinin əleyhinə olduğunu bildirdi və dedi ki, bizim uşaqlar xəstədirlər, onlar düşdükləri ailələri də yoluxduracaqlar (166,1902.28.11.№256).

Atılmış uşaqların sığınacağı üzrə qəyyum şurasının üzvü K.İretski isə izahatında göstərdi ki, ölüm faizini xərclərin artırılması ilə əlaqələndirirlər. Xərcləri on dəfə yox, lap yüz dəfə artırın, ölüm faizi aşağı düşməyəcək.Uşaqlar ana südü çatışmadığından ölürlər, bu baxımdan onların kənara, kəndlərə verilməsi arzuolunandır. Amma bir şərtlə: təcrübə göstərir ki, yetimxanadakı uşaqlar kimi kənara verilən uşaqlar da ölürlər, bu onların qidalanmasına və saxlanılmasına 5-6 rubl ayrılması ilə

izah olunur, bu məbləğ kifayət deyil, bu səbəbdən də qəyyumlar şurası belə uşaqlar üçün ildə 240 rubl ödəmək səlahiyyəti istəyir. Şübhəsiz ki, bu mükafatlandırma əvəzində körpəni götürən ailə hər vəchlə onu yaxşı saxlamağa çalışacaq ki, ölməsin, əks halda, ailə bu mükafatdan məhrum ola bilər. Körpələrə uzunqulaq südünün verilməsi də təcrübədən keçiriləcək, nəticə qənaətbəxş olsa, o zaman bütün sığınacağı kəndə köçürmək və bu cür qidalanmanı tətbiq etmək olar. (166,1902.28.11.№256).

Məsələ ilə bağlı çıxış edən deputatlardan İ.Hacıyev və Ə.M.Topçubaşov uşaqların kənara verilməsinin əleyhinə olduqlarını bildirdilər. İ.Hacıyev çıxışında dedi ki, belə çıxır ki, şəhər öz uşaqlarını başdan eləmək istəyir. Boynundakı valideyn, ata məsuliyyətini atıb onları başqalarına verir. Orada heç ayda 10 rubla da uşaqları yedirməzlər. Ə.M.Topçubaşov da çıxışında həmçinin uşaqların saxlanılması üçün onların kənara verilməsinin əleyhinə çıxdı (166,1902.28.11.№256).

Əksər deputatların etirazını nəzərə alan Duma şəhər sığınacaqlarında olan uşaqların kənddə yerləşdirilməsinə icazə vermədi.

Dumanın 1902-ci il 4 dekabr tarixli iclasında yetimxana üçün yeni binanın kirayələnməsi məsələsi müzakirə ediləndə deputatlara məlumat verilir ki, 1899-cu ildə şəhər yetimlər üçün sığınacağı H.Z.Tağıyevin Bayıldakı evində yerləşdirdi. Sonra atılmış uşaqların sayı gündən-günə artdığından yeni binaya ehtiyac yarandı. Hazırda qəyyumlar şurasının məlumatına əsasən, bina atılmış körpələrin sığınacağı üçün yararlı deyil. Binanın kiçikliyi, darısqallığı, rütubətliyi, qaranlığı uşaqlar arasında müxtəlif yoluxucu xəstəliklərin yayılmasının və onlar arasında baş verən ölüm hallarının səbəblərindən biridir. Şəhər İdarəsi və qəyyumlar şurası yetimxana uşaqları üçün yeni daha uyğun bina tapıb və bu binanın 5 il müddətinə, ildə 4.200 rubla kirayələməyi Dumadan icazə istəyir. Bu ev üç mərtəbəlidir, orada 45 otaq var, ora sakitlikdir, havası təmizdir və s. Artıq qalan otaqları isə məktəbə vermək olar (166,1902.6.12.№263).

Deputatlardan A.Eyvazov yeni bina kirayələməyin əleyhinə çıxdı və qeyd etdi ki, əvvəla, bina bahalıdır, ikincisi, belə uzun müddətə müqavilə bağlamaqla əl-qolumuzu bağlamağa ehtiyac yoxdur, axı bu sığınacağın Maştağaya köçürülməsi nəzərdə tutulur, bir il sonra sığınacaq köçməli olsa, binanı neynəyəcəyik? Şəhər başçısı A.Novikov A.Eyvazovun sualına cavab olaraq bildirdi ki, kirayə götürülən binanın ən pis halda, doğum evinə, müalicəxanalardan birinə, məktəbə və sairə vermək olar. Bu məsələ ilə bağlı çıxış edən H.Zərdabi bildirdi ki, yetimxananın indiki binası yalnız otaqların yerləşməsinə görə əlverişsizdir, çünki 25-30 otaq normal yerləşmə zamanı kifayət edir, anlamıram ki, bir halda sığınacaq kəndə köçürüləcək, 45 otaq bizim nəyimizə lazımdır. Deyirsiniz ki, otaqları məktəbə vermək olar. Belə uzaq binada hansı məktəbi yerləşdirmək olar? Həmin binanın yerləşdiyi ərazi üçünsə bircə məktəb kifayətdir. Deyirsiniz ki, onu doğum evinə uyğunlaşdırmaq olar, maraqlıdır, bu barədə doğum evinin rəhbərliyindən bir söz soruşmusunuz? Doğum evi elə bir müəssisədir ki, məhz şəhərin mərkəzində yerləşməlidir. Çünki adətən, hamilə qadınlar ən son halda, bəzən doğuşa dəqiqələr qalmış doğum evinə gedirlər, bəzən onlar doğum evinə çatmamış faytonda doğurlar. Doğrudanmı, 30-35 otaqlı bina kirayələmək olmaz (30,s.420).

Duma Şəhər İdarəsinin məruzəsini qəbul edərək yetimxana uşaqları üçün daha geniş və rahat bir binanın kirayə götürülməsi ilə bağlı qərar qəbul edir (30,1902.6.12.№263).

Dumanın 1902-ci il 24 oktyabr tarixli iclasında X.Antonov, K.İretski, Ə.M.Topçubaşov, H.Zərdabi və Q.Qukasovdan ibarət komissiya Bakıda 6 məntəqə müalicəxanası təşkil etməyi təklif etdilər. Bu sahələrdən ikisi mürəkkəb tiplidir: Onlardan biri Təzəpir bölgəsində, digəri isə Şamaxinka ərazisində olmalı idi. Təzəpir bölgəsində sahə həkimindən başqa, göz həkimi və bir qadın həkimi, Şamaxinka ərazisində isə sahə həkiminin yanında eləcədə bir qadın həkiminin olması nəzərdə tutulur.

Məsələ ilə bağlı çıxış edən K.İretski bildirdi ki, ...ambulator xəstələrin qəbulu müstəqil funksiya şəklinə keçməlidir, özü

də xəstələrin səhər saat 8-dən qəbul olunması arzuedilәndir, bu, işləyən adamlar üçün vacibdir və günün itirilməsinə imkan vermir....Altı pulsuz müalicəxananın təsis olunması həyatın tələbidir. Şəhərin fəallığı, fəhlələrin sayı və bununla yanaşı, təbii ki, ödənişsiz müalicəyə tələb də günü-gündən artır. Göz xəstəliklərinin müalicəsinin genişləndirilməsinin də səbəbi eynidir, Bakıda belə xəstələrin sayı çoxdur və onların müalicəsinin haradasa vahid mərkəzləşdirilmiş yerdə deyil, müalicəxanalar olan hər yerdə aparılmasına ehtiyac var. Məktəb həkimlərinin şagirdləri evdə müalicə etməkdən azad olunması məsələsinə gəlincə o, qeyd etdi ki, nəzərdə tutulan bu islahat həkimlərin məktəb binalarına sanitar-gigiyenik nəzarət etməsi baxımından fəaliyyət dairəsini genişləndirəcək (166,1902.24.10.№ 231).

Duma komissiyanın irəli sürdüyü aşağıdakı təklifləri təsdiq edir:

Təzəpir müalicəxanası üçün müqaviləyə əsasən mənzilə-ildə 200 rubl, göz həkiminə-1.500 rubl, qadın həkiminə-1.800 rubl, feldşerə-600 rubl, gözətçiyə-240 rubl, dərmanlara-600 rubl, qızdırıcı və işıqlandırmaya-100 rubl, 4 yeni çarpayının qurulması üçün 200 rubl, 8 çarpayılı xəstəxananın saxlanılmasına-720 rubl, 2 xəstə baxıcısına-400 rubl və əczəxana köməkçisinə-360 rubl. Cəmi 8.220 rubl, adi normal xərclərə 7.745 rubl ayrılır. Ümumiyyətlə, Təzəpir müalicəxanası ildə 15.965 rubla başa gəlir (166,1902.24.10.№ 231).

Şamaxinka müalicəxanası üçün mənzilə-200 rubl, qadın həkiminə-1.500 rubl. Cəmi 1.700 rubl, adi normal xərc 77.456 rubl. cəmi-9.945 rubl.

Sadə tipli 4 müalicəxanaya-ildə hərəsi 7.745 rubl və ya ümumilikdə 30.980 rubl. Üç sanitar həkiminə-hərəsi 1.500 rubl-4.500 rubl. Hər həkimə yolxərci üçün 300 rubl-ildə 900 rubl. Altı sanitar baxıcısı üçün 600 rubldan-3.600 rubl (166, 1902.24.10.№ 231).

Üç məktəb həkiminə 1.200 rubldan-ildə 3.600 rubl, qız gimnaziyası üçün qadın həkimi-600 rubl üstəgəl gigiyena fənnindən dərs hesabı əmək haqqı. Qızlar üçün digər təhsil

müəssisələrindəki qadın həkimlər üçün -800 rubl üstəgəl dərs hesabı əmək haqqı təyin edilir. Tibbi yardımın yenidən təşkili üçün bütün xərc 78.130 rubl məbləğində müəyyən olunur. Bu rəqəmi əvvəlki xərclə-67.241 rublla müqayisə edəndə cəmi 9.889 rubl artım edir (166,1902.24.10.№ 231).

Dumanın 1902-ci il 12 noyabr tarixli iclasında şəhər doğum evi yanında doğuşayardımçı məktəbin açılması məsələsi deputatlara məruzə olunur. Məruzədə bildirilir ki, ötən il buna bənzər təhsil müəssisəsi açılmışdı, amma ilin sonunda 20 tələbədən yalnız 10 qalmışdı. Amma cari təhsil ilinin əvvəlində ərizəçilərin sayı həddən çox idi və doğum evinin qəyyumlar şurası daha 14 tələbənin müəssisəyə qəbul olunmasını qərara alıb. Bu vəziyyət belə müəssisəyə tələbatdan xəbər verir. Məruzədə başqa şəhərlərdə fəaliyyət göstərən məktəblər tipində, ali dərəcəli təhsil müəssisəsi açmaq təklif olunur. Birinci kursa qəbul olunması üçün ərizəçinin gimnaziyanın ilk dörd siniflik təhsil senzinə sahib olması tələb olunur. Buna görə xüsusi xərcə ehtiyac yoxdur. İlkin avadanlıq üçünsə 350 rubl tələb olunur ki, bu da smetaya daxil edilib. Məsələ ətrafında çıxış edən Ə.M.Topçubaşov və H.Zərdabi yaranmış imkandan istifadə etməyə çalışaraq azərbaycanlı qızların bu tipli məktəblərdə təhsilə cəlb edilmələrini irəli sürdülər. Ə.M.Topçubaşov çıxışında yerli qızların bu təhsil müəssisəsinə cəlb olunması məqsədi ilə layihələndirən doğuşayardımçı məktəbi ilə yanaşı, savadlı, amma təhsil senzi olmayan yerli qızları cəlb etmək üçün belə məktəb də yaratmağı təklif etdi.

H.Zərdabi isə çıxışında bildirdi ki, məlum təhsil senzi ilə mamaların məhz yerli tələbələrdən hazırlanması arzusu arasında uyğunsuzluq görür, çünki belə senzə (gimnaziyanın 4 sinfini bitirən) malik qızlar tapmaq çətin olacaq.

Duma şəhər doğum evi yanında doğuşayardımçı məktəbin açılması barədə qərar qəbul etdi (166,1902.14.11. № 247).

Dumanın 1902-ci ilin iyununda keçirilən iclaslarının birində Mixaylov xəstəxanası üçün tərcüməsi təyin olunması məsələsi müzakirə olunur. Xəstəxanada çalışan həkimlərin

əksəriyyəti gəlmələr olduğundan onlar rus dilində danışırdılar, yerli əhalinin böyük əksəriyyəti isə bu dili bilmirdi. Duma xəstəxana üçün bir nəfər təcrübəli tərcüməçinin işə götürülməsini qərara alır. Bu zaman H.Zərdabi qeyd etdi ki, bir nəfər təcrübəli tərcüməçini işə götürmək kifayət deyil. Məsələ burasındadır ki, belə vəziyyət tərcüməçi vasitəsilə həkimə müraciət etmək istəyən xəstə qadınları utandıra bilər, buna görə də eyni zamanda müalicə müəssisəsinə bir müsəlman tərcüməçi qız da işə götürmək vacibdir. Duma H.Zərdabinin təklifi ilə razılaşaraq aylıq 15 rubl məvaciblə tərcüməçi ştatı təsis etdi (30,s.20).

Dumanın 1904-cü il 9 noyabr tarixli iclasında Ə.M.Topçubaşovun sədrliyi altında xüsusi yardımçı komissiya müsəlman xəstəxanasının tikilməsi haqqında irəli sürülən məsələni müzakirə etdi. Müzakirədə ətraflı məruzə ilə çıxış edən Ə.M.Topçubaşov müsəlman xəstəxanasının tikilməsi və fəaliyyət göstərməsinin zəruriliyini qeyd etdi. Çünki vərəm xəstəliyinə tutulmuş xəstə müsəlmanların müalicəyə daha çox ehtiyacı vardı. Ə.M.Topçubaşov çıxışının sonunda bu məsələni təxirə salmadan hazırkı iclasda həll edilməsini təklif etdi. Duma bu təklifi həmin iclasda qəbul edərək, həll etdi (2,f.50.s.1.is.941.v.217).

Dumanın 1902-ci il 28 mart tarixli iclasında F.Vəzirov şəhərin sanitar vaziyyəti barədə çıxış etdi. O, şəhərin sanitar bürosunun fəaliyyətinin yarıtmaz olduğunu qeyd etdi, hər üç aydan bir Dumaya ətraflı sanitar işi barədə hesabat verilməsini təklif etdi. O əvvəllər şəhərdə cürbəcür xəstəliklərin olmadığını göstərdi, hazırda isə şəhərdə üç şəhər təqaüdçüsünün vərəmdən, 7-8 nəfərin isə yatalaq xəstəliyindən öldüyünü bildirdi. O, çıxışında yatalaq və digər müalicə olunmaz yoluxucu xəstəliklərin inkişafını ancaq təsadüflərdən öyrəndiyini qeyd etdi. F.Vəzirov belə yoluxucu xəstəliklərin əsas səbəbini şəhərdə suyun və kanalizasiyanın olmamasında görürdü. Həqiqətən də, şəhərdə suyun və kanalizasiyanın olmaması belə qorxunc yoluxucu xəstəliklərin qarşısını almağa imkan vermirdi.

Dumada deputatlar şəhərdə vəba və taun xəstəliklərinin geniş yayıldığı bir şəraitdə xəstələrə köməklik edilməsi və onlara qulluq edən tibb işçilərinin əmək haqqlarının artırılmasını dəfələrlə təklif etmişdirlər. M.Əsədullayev Dumanın 1911-ci il 18 yanvar tarixli iclasında köhnə Mixaylov xəstəxənasını əvəz edən yeni şəhər xəstəxanasının tikilməsini, İ.Hacıyev isə yeni xəstəxana binasının tikilməsi üçün ilk növbədə 150.000 rubl ayrılmasını təklif etdilər (166,1911.№15).

M.Əzizbəyov da Dumada səhiyyə məsələlərinə çox qüvvə və əmək sərf edirdi. O, Bakıda uşaq xəstəxanasının açılmasına əzmlə çalışırdı, məhz Duma onun təşəbbüsü ilə bu xəstəxananın tikilməsi üçün şəhərdə böyük torpaq sahəsi ayırdı (107,s.63).

1910-cu ilin axırlarında Bakı şəhər özünüidarə orqanlarının tabeliyində 33 kişi həkim, 9 qadın həkim, 20 feldşer, 19 mama fəaliyyət göstərirdi. Bununla yanaşı bu sistemdə daha 2 diş həkimi və 10 əczaçı fəaliyyət göstərirdi. Deməli, 1910-cu ildə Bakı şəhər özünüidarəsininn xətti ilə çalışan cəmi 93 tibb işçisi qeydə alınmışdı.1916-cı ildə isə onların sayı 124 çatmışdı (190,s.93).

Şəhər İdarəsinin tibb-sanitar şöbəsinin ştatları da çox deyildir. 1916-cı ildə Şəhər İdarəsinin məmurlarının sayı 180 nəfər idisə, tibbi-sanitar şöbədə cəmi 25 nəfər çalışırdı. Onlardan yalnız 3 nəfəri azərbaycanlı (N.Nərimanov, Məmməd bəy Qayıbov, Mustafa Şərifov) idi (190,s.91).

XIX əsrin axırlarından etibarən şəhər büdcəsindən tibbi xidmətə ayrılan vəsait də ildən-ilə artırılırdı. Belə ki, 1886-cı ildə şəhərin tibb müəssisələrinə çəkilmiş ümumi xərc 36.000 rubla yaxın olmuşdursa, 1896-cı ildə 90.140 rubla, 1897-ci ildə 106.900 rubla, 1898-ci ildə 139.493 rubla, 1900-cü ildə isə 181.153 rubla çatmışdır. Beləliklə, 1886-cı ildən 1900-cü ilə qədər şəhər özünüidarəsinin tibb-sanitariya işlərinə ayırdığı vəsaitin məbləği təxminən 5 dəfə artmışdır

Şəhər büdcəsindən həmçinin 1908-ci ildə 325.000 rubl, 1909-cu ildə 342.000 rubl, 1910-cu ildə 370.000 rubl, 1913-cü ildə 500.000 rubl, 1914-cü ildə 624.000 rubl, 1915-ci ildə 1.080

000 rubl, 1917-ci ildə isə 1.203 000 rubl şəhərin tibb müəssisələrinə vəsait ayrılmışdır. Göründüyü kimi 1908-ci ildən 1917-ci ilə kimi səhiyyəyə çəkilən xərc 3,6 dəfə artmışdır (190,s.89).

Dumanın 1898-ci il 18 fevral tarixli qərarı ilə şəhər həkimlərinin əmək haqları müəyyənləşdirildi. Qərara əsasən şəhərə iki həkim ayrılmasına 2.360 rubl; onların yanında iki feldşerin saxlanılmasına 500 rubl, şəhər mamasına 390 rubl, çiçək xəstəliyinə qarşı peyvənd vuranlara-700 rubl əmək haqqı müəyyən olundu (166,1898,20.02,№ 39).

1899-cu ilin smetası üzrə Şəhər İdarəsi şəhər üçün iki həkimin, iki feldşerin və iki mamanın saxlanılmasına 3.750 rubl vəsait ayrıldığını təsdiq edir. Mixaylov şəhər xəstəxanasının saxlanılması xərclərinə Şəhər İdarəsi yeni diş həkiminin dəvət olunması üçün yeni xərc layihəsini müzakirəyə çıxartdıqda deputat Zaxarbəyov həmin məbləği 1.200 rubladək artırmağı, diş həkimini deyil, diş xəstəlikləri üzrə mütəxəsis həkimi dəvət etməyi təklif etdi. Duma onun təklifi ilə razılaşaraq xərc layihəsini təsdiq edir.

Şəhər İdarəsi yoxsullara pulsuz paylanacaq dərmanlar üçün 1899-cu ilin smetası üzrə 300 rubl yardım ayırdığını bildirdikdə bu təklif deputaların narazılığına səbəb olur. Deputatlardan, Ə.M.Topçubaşov, H.Zərdabi, Vaçyants və Zaxarbəyov bu məbləğin 2.000 rubladək artırılmasında israr edirlər.

Lakin Duma deputatların təkliflərini nəzərə alaraq yoxsullara pulsuz paylanacaq dərmanlar üçün 1.000 rubl məbləğində pul ayrılması barədə qərar qəbul edir (166,1899.20.02.№ 46).

Duma iclaslarının birində pulsuz şəhər müalicəxanasının saxlanılması üçün xərc smetasına uşaq həkiminin dəvət olunması üzrə yeni məsrəf 1.200 rubl məbləğində pul ayrıldığı bildirilir. Deputatlardan Zaxarbəyov və Saparov çıxışlarında uşaq həkiminin dəvət olunmasını zəruri hesab etmirlər və fikirlərini belə əsaslandırırlar ki, müalicəxanada onun xəstələri qəbul etməsi üçün yer çatmır. Bundan başqa Zaxarbəyov çıxışında bil-

dirir ki, ixtisaslaşdırılmış uşaq həkimi yoxdur və daxili xəstəliklər üzrə istənilən həkim eyni zamanda uşaq həkimi ola bilər.

Zaxarbəyovun bu çıxışına qarşı Şəhər İdarəsinin üzvü Əlibəyov cavab verir ki, xəstəxanada xəstələri qəbul etmək üçün yer var və artıq mütəxəsislərimiz də var. Duma 1899-cu il 24 fevral tarixli iclasında pulsuz şəhər xəstəxanasında uşaq həkimi üçün 12.00 rubl təyin edir (166,1899.20.02.№ 46).

Duma tərəfindən 1900-cu ilin smetasında Mixaylov xəstəxanasına 108 min rublın ayrılması barədə qərar qəbul edir. Bununla bağlı Zaxarbəyov bildirdi ki, zəruri hallarda, xüsusən də gecələr əhali həkim üçün Mixaylov xəstəxanasına müraciət edir. Belə hallarda yardım xüsusilə vacibdir. Fərdi həkim isə tapmaq çətindir. Bəzən həkim evdə olanda deyirlər ki, yoxdur. Bunu nəzərə alıb növbətçi həkimlər təyin etmək lazımdır. Duma uzun mübahisələrdən sonra növbətçilik üçün 10 rubl olmaqla ikinci növbətçi həkimi təyin etmək barədə qərar qəbul etdir. Bu şərtlə ki, o, kasıb xəstələrin dəvəti ilə evlərdə pulsuz tibbi yardım göstərsin. İclasda Ə.M.Topçubaşov həmçinin Bakıda göz xəstəxanasının və Zaxarbəyov isə Mixaylov xəstəxanasında göz xəstəlikləri bölməsinin açılmasını təklif etdilər (166,1900. 12.02.№34). Qaldırılan bu məsələ də olduqca vacib bir məsələ idi. Çünki həmin vaxt şəhərdə əhalinin yoxsul təbəqəsi göz xəstəliklərindən xüsusilə əziyyət çəkirdilər və onların vəsaiti yox idi ki, həkimə müraciət edərək ixtisaslı tibbi yardım ala bilsinlər.

Dumanın 1902-ci il 16 dekabr tarixli iclasında 1903-cü ilin smetasında tibbi xidmət göstərilməsinə ayrılan vəsaitlər barədə qərarlar qəbul etdi. Xəstəxanadan kənar işləyən həkim heyətinin saxlanılmasına: iki şəhər həkiminə-2.760 rubl, onların yanında iki feldşerə -600 rubl, şəhər mamasının saxlanılmasına 420 rubl, çiçək xəstəliyinə qarşı peyvənd vurulmasına 1.000 rubl, şəhər müalicə müəssisəsinin saxlanılması üçün: Mixaylov şəhər xəstəxanasına 124.333 rubl 50 qəpik; bundan şəxsi heyətin saxlanılmasına 50.332 rubl; ötən illə müqayisədə bu səndə cüzi dəyişikliklər edilmişdir: 4 deyil, 3 əczaçı köməkçisinə 720 rubl,

2 deyil, 1 əczaçı şagirdinə 360 rubl, 38 əvəzinə 40 palata qulluqçusuna 80 rubl; 240 nəfər xəstənin saxlanılmasına 28 qəpikdən-24.528 rubl; işçilərin ərzağına 6.497 rubl; xəstələrin müalicəsinə -21.500 rubl. Bundan əlavə dərman və sarğı materiallarına gündə 15 qəpikdən-13.140 rubl (1902- ci ildə gündə 16 qəpik idi) və ambulatoriya üçün-83.589 rubl; içmək və yemək bişirmək üçün şirinləşdirici suya-3.500 rubl və quyudan su çıxrılması üçün xərclər-500 rubl və s. xərclər nəzərdə tutulurdu (166,1902.18.12.№273).

Mixaylov xəstəxanasının smetası bütünlükdə maraqlı müzakirə və mübahisələrə səbəb oldu. Məsələ ilə bağlı şıxış edən H.Zərdabi bildirdi ki, "Bizim xəstəxanada 240 çarpayı var və xəstə 474 rubla başa gəlir, bir xəstəyə 28 qəpik, bir reseptə-15-16 qəpik xərc çəkilir. Kiyevdə-240 çarpayı, hər xəstəyə çəkilən xərc 319 rubldur, bir xəstəyə 21, reseptə 11 qəpik xərc çıxır. Peterburqda müqəddəs Maqdalina xəstəxanasında 240 çarpayı var və hər xəstə 250 rubla başa gəlir, hər xəstəyə 18 qəpik, bir reseptə 5 qəpik xərc çəkilir. Tiflisdə 245 çarpayı var və hər xəstə 340 rubla başa gəlir, bir xəstəyə 70 qəpik, bir resptə -11 qəpik xərc çəkilir və s. Ərzaqların qiymətini müqayisə edək: bizdə ət 4 rubl 18 qəpik, Sankt-peterburqda 4 rubl 50 qəpik, çörək-1 rubl 40 qəpik, düyü 2 rubl 20 qəpik, -2 rubl 80 qəpik, yağ 13 rubl 60 qəpik-14 rubl, kələm 65 qəpik-83 qəpik, kartof 45-60, yumurta (100 ədəd) bizdə 1 rubl 90 qəpik, onlarda 1 rubl 50 qəpikdir. Yəni, ümumiyyətlə götürdükdə Peterburqda adıçəkilən ərzaqların qiymətləri bizdəkindən yüksəkdir, bununla belə Bakıda xəstəyə çəkilən xərc müqayisə olunmayacaq dərəcədə baha başa gəlir. Moskvada xəstə üçün ərzağa bir qəpik artırmaq üçün bütün bir həftə mübarizə aparırlar. Müzakirə edirlər, düşünüb-danışırlar, bizdə isə asanlıqla artım əlavə olunur" (166,1902.18.12.№273).

Dumanın 1902-ci il 16 dekabr tarixli iclasında 1903-cü il üzrə mürəkkəb tipli Təzəpir müalicəxanasının şəxsi heyətinin saxlanılmasına smeta üzrə 9.520 rubl, bina üçün 3.575 rubl, müxtəlif xərclər üzrə 3.015 rubl, göz xəstələrinin saxlanılmasına

1.719 rubl; orta tipli Şamaxinka müalicəxanasının şəxsi heyətin saxlanılmasına 6.540 rubl, bina üçün 1.525 rubl, müxtəlif xərclər üzrə 1.900 rubl; sadə tipli pulsuz müalicəxananın saxlanılmasına 7.965 rubl ayrılır (166,1902.31.05, №116).

Beləliklə, Duma bir qayda olaraq əhalinin maddi-rifah halının, sosial durumunun yaxşılaşdırılmasında rolu ola biləcək bütün məsələlər ətrafında fəaliyyət göstərirdi. Eyni zamanda qeyd edək ki, iş çox vaxt müzakirələrdən uzağa getmir, qərarlar isə bəzən kağız üzərində qalırdı. Lakin Bakı Dumasının şəhər əhalisinə tibb xidmət göstərilməsi istiqamətində fəaliyyətini bütövlükdə müsbət qiymətləndirmək lazımdır.

## §2.7. Ərzaq təchizatı

Bakı şəhərində özünüidarənin tətbiq edilməsi ilə əlaqadar olaraq şəhər əhalisinin ərzaqla təchiz edilməsi də Şəhər İdarəsinin ixtiyarına verildi. Tədqiq olunan dövrdə Bakı şəhər əhalisinin ərzaqla təchiz edilməsini şərti olaraq iki dövrə bölmək olar. Birinci dövr XIX əsrin sonlarından başlayaraq Birinci dünya müharibəsinə qədər və ikinci dövr isə Birinci dünya müharibəsi illəri.

1894-cü ildə qəbul etdilən ticarətlə bağlı məcburi qaydalara görə un və ətin qiyməti Dumanın qərarı ilə tənzimlənirdi. Digər ərzaq məhsullarının, meyvə və tərəvəzin qiyməti isə sərbəst idi, bazarda tələb və təklif əsasında formalaşırdı. Bir il sonra məcbiri qaydalarda dəyişiklik edilərək çörək bişirənlər və meyvə-göyərti satanlar istisna olmaqla istirahət və bayram günləri şəhərdə ticarətin aparılması qadağan edildi. Tacirlər xüsusəndə, azərbaycanlı tacirlər Şəhər İdarəsinə şikayət edirdilər ki, onlar həftədə iki gün itirir və ona görə də ziyana düşürlər. Buna görə də idarə meyvə tacirləri və baqqal dükanlarına azad ticarət imkanı verməyi və bazar günləri gəmiçilik idarələrinin açıq olmasını Dumadan xahiş edir. Duma iclasında bu məsələ ilə bağlı çıxış edən H.Z.Tağıyev bildirir ki, Bakını qəza şəhərləri ilə müqayisə et-

mək olmaz, bizim şəhərimiz kommersiya şəhəridir, gəmilər gəlib-gedir. Nəsə xarab olubsa yenisini almaq lazımdır, emalatxanalar və dükanlar bağlıdır və gəmi limanda bir gün artıq qalmalıdır, gəmi sahibləri bundan zərər çəkəcək.Bütün idarələr açıq olmalıdır, biz ticarətin genişlənməsinin qayğısına qalmalıyıq, dükanlar işləməlidir, bu mədənlərdən qayıdan işçilər üçün də bu vacibdir (30,s.75).

H.Z.Tağıyevin bu çıxışı digər deputatlar tərəfindən də müdafiə olundu. Elə ona görə də məsələ ilə bağlı Duma kontor və dükanların günorta saat 12-dən axşam saat 6-dək açıq olmasına icazə verilməsi barədə qərar qəbul etdi (30,s.76).

Bazarda ətin və çörəyin məzənnəsinin tənzimlənməsi həm Duma, həm də şəhər əhalisi üçün olduqca böyük əhəmiyyət kəsb edirdi. Çünki həmin ərzaq məhsullarının qiyməti sərbəst buraxılardısa və ya nəzarət zəif olardısa ticarətçilər ətin və çörəyin qiymətini süni şəkildə qaldırardılar. Bazarda ətin məzənnə qiyməti necə müəyyənləşdirilirdi? Misal üçün ət alverçiləri bazar nəzarətçisinə bildirirlər ki, mal-qara bahalaşıb və mövcud məzənnə qiymətinə ət satmaq onlara sərf etmir. Nəzarətçi dərhal elə həmin tacirlərdən bu barədə arayış-məlumatlar toplayır və Şəhər İdarəsinə yazdığı raporta onları da əlavə edir. Xahiş eləyir ki, ətin məzənnəsi artırılsın. Şəhər İdarəsi bu məlumatları məzənnə komissiyasına göndərir və xahiş edir ki, ət alverçilərinin xahişi təmin olunsun. Komissiya özü bu məlumatları yoxlamaq imkanına malik deyil və buna görə də, o da öz növbəsində, Şəhər İdarəsindən xahiş edir ki, idarə mal qaranın qiyməti barədə daha dəqiq məlumatlar toplasın. İdarənin apardığı araşdırmalar nəticəsində müəyyən edilsə ki, ətin məzənnəsi artırılmalıdır, onda idarə bu barədə Dumaya məzənnədə dəyişiklik etmək üçün müraciət etməli idi. Duma da, növbəti iclaslarının birində məzənnədə dəyişiklik edilməsi barədə qərar qəbul edirdi (166,1901,№ 4).

H.Zərdabi "Kaspi" qəzetində ətin və çörəyin məzənnəsinin müəyyənləşdirilməsi qaydalarını tənqid edərək yazırdı: "Belə şəraitdə müəyyənləşdirilən məzənnə qiymətləri düzgün ola bilər-

mi? özlüyündə aydındır ki, bazar nəzarətçisinin əsaslandırılmamış, dəlil-sübutsuz təklifi əsasında müəyyən edilən məzənnə düzgün ola bilməz və bu məzənnə heç bir müştərini qane etməyəcək.

Şəhər İdarəsində işlər belə davam etsə, təəccüblü olmayacaq ki, alverçilər eyni əti birinə bir qiymətə, başqasına, yəni təcrübəsiz müştəriyə başqa qiymətə satacaq, üçüncüsünə, varlı müştəriyə isə ətin ən yaxşı yerini kəsib verəcək, hər funtuna da 20-25 qəpikdən pulunu alacaq.

Axı, hamı varlı və ya hamı səriştəli alıcı ola bilməz. Buna görə də, alverçiləri məhsulun məzənnə qiymətinə satmağa məcbur etmək lazımdır. Amma, bizdə tacirləri məzənnəyə əməl olunmasına məcbur edə biləcək kimsə yoxdur və onlar əti özləri müəyyənləşdirdikləri qiymətə satırlar" (166,1901,№ 4).

Duma iclaslarının birində ətin qiyməti ilə bağlı çıxış edən H.Zərdabi bildirirdi ki, qəssablar əti tarif üzrə satmırlar. Mən qiymətləri 1-2 qəpik artırmağı təklif edirəm, amma Şəhər İdarəsi qəssabları əti tarif üzrə satmağa məcbur etməlidir. İndiki halda belə şikayətləri tez-tez eşidirsən: bazar rəhbərliyi qəssabların tərəfini tutur və etiraz edən alıcıları döyüb qovurlar.

Deputatlardan Nikitin isə çıxışında bildirdi ki, qəssablar bütün əti birinci növ adıyla satırlar, sanki II növ ət satışda yerli-dibli yoxdur. Ətin üzərində onun hansı növdən olduğu qeyd edilməlidir. A.Saparov isə çıxışında qəssabların müəyyən olunmuş qiymətlərə riayət etmədiyini və hələ bir neçə gün əvvəl mal ətinin 18 qəpikdən, qoyun ətinin isə 25 qəpikdən satıldığını bildirdi.

Ə.M.Topçubaşov isə çıxışında bildirdi ki, qəssablar qiymət tarifinə tabe olmurlar və təklif etdi ki, bu səbəbdən onlar barədə ölçü götürmək lazımdır (166,1900.27.01.№ 21).

Lakin qəssablar mal ətinin müəyyənləşdirilmiş qiymət tarifinə əməl etmirdilər. Dumanın 1900-cu il 27 yanvar tarixli iclasında deputat A.Benkendorf çıxışında bildirdi ki, bir neçə gün əvvəl biz ətin qiymət tarifini müzakirə etdik və onun ucuzlaşdırılması üçün yollar aradıq. İndi məlum olur ki, "Kaspi"

qəzetindən də oxuduğumuz kimi, ətin qiymətini bazar nəzarətçisi qaldırıbmış. O, tarif üzrə ət almağa, ola bilsin, elə satmağa da maneə olurmuş. Bu ittiham o qədər ağırdır ki, Şəhər İdarəsi araşdırma aparmalı və özbaşınalığa son qoymalıdır (166,1900. 29.01.№ 23).

Dumanın 1901-ci il 2 yanvar tarixli iclasında yenidən şəhərdə satılan ətin qiymətlərinə baxıldı.Tarif komissiyası mal ətinin bir funtunu 8-10 qəpiyədək, qoyun ətinin qiymətini isə 13 qəpikdən 14 qəpiyədək qaldırmağı zəruri hesab etdi. Bu məsələ ilə bağlı çıxış edən Sultanov tarifə heç kimin fikir vermədiyini bildirdi və qoyun ətinə tarif müəyyənləşdirilməməsini təklif etdi. Vəzirov isə çıxışında bazar nəzarətçilərini kəskin tənqid edərək bildirdi ki, nəzarətçilər etibarlı deyil, böyük ehtimalla onlar tacirlərlə əlbir hərəkət edirlər. Vəziyyətdən çıxış yolu kimi təklif edirdi ki, nəzarətçi vəzifəsinin başına intelligent adam qoymaq və ona ayda 300 rubl vermək lazımdır. Onun fikrincə isə bu, şəhər sakinlərinə ayda 10 min rubl qənaət etdirəcək (166,1901. 4.01.№ 3).

H.Zərdabi isə çıxışında bildirdi ki, tacirlər dükanlara görə haqq verməli olurlar. Dəyəri 500 rubldan çox olmayan dükan üçün 5 min rubl icarə haqqı verirlər. Bütün bunlar istehlakçıların belindən çıxır. Bazarı böyütmək lazımdır. Bundan əlavə, tacirlər arasında xəlvəti sövdələşmə olur. Buna qarşı xüsusi tədbirlər görülməlidir.

Duma həmin iclasında ətin qiyməti ilə bağlı Şəhər İdarəsi tərəfindən təklif olunan tarifi təsdiq etdi (166,1901.4.01.№ 3).

Dumanın 1900-cu il 15 may tarixli iclasında kənd istehlakçılarının bazarlara və meydanlara gətirdikləri ərzağın ticarət qaydaları barədə məsələ müzakirəyə çıxarılır. Şəhər İdarəsinin üzvü Səfərəliyevin məruzəsindən məlum olur ki, bazarlar möhtəkirlərin əlindədir və şəhər nümayəndələri onlarla mübarizə aparmağa qadir deyillər, buna görə də Şəhər İdarəsi təklif edir ki, şəhərə gətirilən ərzaq yalnız göstərilən yerlərdə və məlum saatlarda, məhz 12 saata satılsın ki, beləcə, şəhər agentləri qanuni pozan möhtəkirləri məsuliyyətə cəlb edə bilsinlər. Depu-

tatlardan Nikitin və Sultanov isə bildirdilər ki, bu qaydaları tətbiq etməzdən əvvəl bazar və meydanlar tikmək lazımdır, bizdə isə bunun üçün uyğun yerlər yoxdur. Şəhər başçısı isə Nikitin və Sultanovun çıxışına münasibət bildirərək cavab verdi ki, Quba meydanı və Nikolayev bazarı tamamilə yetərlidir.

Ə.M.Topçubaşov isə çıxışında möhtəkirliyə qarşı mübarizə aparılmasında yerli polis qüvvələrindən istifadə olunmasını təklif etdi.Onun bu təklifi səbəbsiz deyildir. Çünki möhtəkirlər kənddən şəhərə gələn məhsulları ucuz qiymətə kəndlilərdən alır sonra bazara çıxararaq dəyərindən baha qiymətə satırdılar. O, həmçinin bəyan etdi ki, möhtəkirlərin zərərsizləşdirilməsi üçün yerli qəza polisi vasitəsilə ətraf kəndlərin sakinlərini şəhərin icbari qanunları ilə tanış etmək, kəndliləri möhtəkirlərdən qorumaq üçün şəhərə gələn yollara süvari dəstəsi göndərmək lazımdır. Başqa şəhərlərdə də belə edirlər (166,1900.17.05.№ 23).

Duma isə əhalinin ərzaqla təchiz edilməsində şəhərdə bazarların sayının artırılmasına üstünlük verirdi. Çünki o dövrdə şəhərdə əsas bazar Quba meydanında yerləşən bazar idi. Şəhər əhalisinin də hamısı həmin bazara gedərək alış-veriş edə bilmirdi. Ona görə də məcbur olaraq küçələrdən kənd təsərrüfatı məhsullarını dəyərindən baha qiymətə alırdılar.

H.Zərdabi "Kaspi" qəzetində Bakı şəhərində yeni bazar yaradılmasının vacibliyi barədə məqaləsində yazırdı:"Şəhər məzənnə komissiyası və Şəhər İdarəsi bazarların sayını artırmağı vacib bilib və qərara gəlib ki, yeganə bazarımız olan Quba meydanındakı bazardan başqa, Vorontsov və Birja meydanlarında, bir də Nikoloyev bazarının yerində yeni bazar tikilsin. Nikoloyev adlanan bazar isə əslində bazar deyil, şəhər ərazisində ayrıca sahədir, bu yer necə olubsa, sanki təsadüfən, gözlənilmədən bazara çevrilib" (166,1901.10.01.№ 7).

H.Zərdabi yenə də "Kaspi" qəzetində "Şəhər məsələləri" adlı başqa bir məqaləsində şəhər əhalisinə xidmət göstərəcək örtülü bazarın tikilməsi məsələsinə toxunaraq yazırdı: Bakı şəhərində örtülü bazar tikmək məsələsi çoxdan gündəmdə idi. Amma bizim şəhər başçıları bu məsələni həll etmədilər və çox

arxayınlıqla mərkəzdəki boş torpaqları zəbt etməyə girişdilər, onların da bəxtindən, bu torpaqların qiyməti çox bahalaşdı.

O, məqaləsində təkilf edirdi ki, mərkəzdə əsas bazar inşa edilsin, ətraf yerlərdə isə kiçik bazarlar tikilsin. Mərkəzi bazar üçün ya bazarla qonşuluqdakı kilsə idarəsindən torpaq almaq, ya da cənab H.Z.Tağıyevə məxsus olan, bilavasitə Nikoloyev bazarına bitişik evin torpaq sahəsini şəhərdəki hansısa müvafiq boş sahə ilə dəyişməklə almaq, yaxud da, tezliklə yeni binaya köçəcək realnı məktəbin torpaq sahəsini almağı təklif edirdi. Lakin bu təklif elə təklif olaraq qaldı (166,1903.№ 44).

Dumanın Bakı şəhərinin ərzaqla təchiz edilməsi istiqamətində fəaliyyəti Birinci dünya müharibəsi illərində geniş miqyas almışdır.

Birinci dünya müharibəsinin başlanması Bakı şəhərinin daxili ticarətinin zəifləməsinə səbəb oldu. Müharibə dövrünün çətinlikləri, təsərrüfat dağınıqlığı və hər şeyin dəfələrlə bahalaşması ilə əlaqədar şəhər özünüidarəsinin maliyyə sistemi özünü doğrultmurdu. Maliyyə vəziyyətində sabitlik yaratmaq üçün Duma ən son tədbirlərə əl atmağa məcbur olurdu: vergilər artırılır, qiymətlər qaldırılır, şəhərin torpaq fondu satışa qoyulur, külli miqdarda istiqraz vərəqələri buraxılırdı.

Ümumiyyətlə, müharibə illərində dövlətin bütün siyasəti dünya müharibəsində qələbənin təmin edilməsinə yönəldilmişdir və cəbhənin tələblərinə tabe edilirdi. Ölkə daxilində sabitliyi gözləmək üçün güc aparatı möhkəmləndirilir və polis ştatları artırılmışdı. Bütün qüvvələr hakimiyyətə qarşı kütləvi çıxışların baş qaldırılmasına yol verməmək üçün səfərbər edilirdi.

Birinci dünya müharibəsi dövründə şəhərin ərzaq təchizatı ilə məşğul olan idarə və təşkilatları ərzaq ehtiyatları məsələsinə xüsusi diqqət yetirir, tez-tez bu ehtiyatların miqdarını müəyyənləşdirmək üçün yoxlamalar keçirir, vaxtaşırı ticarət müəssisələri sahiblərindən onların satış ehtiyatları barədə məlumat toplayır, malik olduqları imkanlar daxilində bu ehtiyatların məqbul səviyyədə saxlamağa çalışırdılar (99,s.110).

Bakı Duması və Şəhər İdarəsinin ərzaq şöbəsi ərzağın alınması, nəqli, paylanması və satışını müxtəlif yollarla həyata keçirirdi. Ərzağın alınmasının təşkili məsələsi bütün müharibə dövründə Şəhər İdarəsini ən çox narahat edən problemlərdən biri idi. Əsas tədarük rayonlarında xüsusi agentlərə malik olmayan Şəhər İdarəsi ərzağı müxtəlif tacir və ya sənayeçilərdən daxil olan təkliflər üzrə almalı olurdu.

1915-ci ilin yayında çar tərəfindən ərzaq məsələsi üzrə tədbirlərin müzakirəsi və birləşdirilməsi üçün Xüsusi Ərzaq Müşavirələri yaradıldı. Qafqaz canişinin 1915-ci il 16 noyabr tarixli təklifi üzrə quberniya və vilayət ərzaq müşavirələri ilə yanaşı mühüm əhəmiyytli Qafqaz şəhərlərində-Bakı, Tiflis, Vladiqafqaz və Yekaterinodorda da şəhər ərqaz müşavirələri təşkil olundu (98,s.147).

Bakı şəhər başçısının sədrliyi altında 1915-ci il noyabrın sonu-dekabrın əvvəllərində yaradılan şəhər ərzaq müşavirəsinə əvvəlcə 3, sonra isə 6 Duma deputatı, habelə digər idarələrin nümayəndələri daxil oldular. Təşkilatçıların fikrincə, bu müşavirələr zəruri məhsullarla tələbatı və onların ehtiyatlarını aydınlaşdırmalı, yerlərdə əhalinin təchizatı ilə məşğul olan orqanlara rəhbərlik etməli, ərzaq ehtiyatlarının tədarükü, bu tədarük tədbirlərini maliyələşdirmək, habelə ərzaq təchizatı sahəsində müxtəlif sui-istifadə və pozuntulara qarşı mübarizə ilə məşğul olmalı idi (98,s.147).

Birinci dünya müharibəsi dövründə Bakının ərzaq təchizinin təşkili məsələsi bütünlüklə şəhər özünüidarə orqanlarının və bəzi quberniya təşkilatlarının üzərinə düşmüşdür.

1915-ci ilin fevralında Şəhər İdarəsi şəhərin zəruri ərzaq malları ilə təmin edilməsi vəziyyəti, vaxtaşırı olaraq ərzaq ehtiyatlarını müəyyənləşdirmək üçün özünün, inzibati, və hərbi idarələrin nümayəndələrindən ibarət xüsusi komissiyanın təşkil edilməsini məqsədəuyğun saydı.

Şəhər İdarəsinin ərzaq şöbəsi çörəyin bazar qiymətini nizamlamaq məqsədi ilə şəhərdə ən azı 250-300 min pud un ehtiyatı yaratmağı, ancaq bu ehtiyatları müntəzəm olaraq təzə-

ləmək üçün ayda ən azı 60 min pud un almağı zəruri sayırdı. (99,s.84)

Şəhərin ərzaqla təchiz edilməsi sistemində əsas məsələlərdən biri tədarük idi. Bakı şəhəri isə həm un, buğda, ət və tərəvəz məhsulları, həm də şəkərlə təminatı baxımından başlıca olaraq Şimali Azərbaycandan kənarda yerləşən bölgələrdən asılı idi. Bu ərzaq məhsulları başlıca olaraq Volqaboyu, Şimali Qafqaz və Ukraynadan gətirilirdi.

Ümumiyyətlə, müharibədən əvvəlki dövrə nisbətən yaşayış üçün zəruri olan ərzaq məhsullarının qiyməti 300-500% bahalaşmışdır, bəzi sahələrdə bu rəqəm daha böyük idi (3,f.389.s. 3.iş.301.v.153).

Müharibə dövründə Bakıda ərzaq məhsullarının qiymətlərinin qalxmasının başlıca səbəbləri dəmir yolu ilə hərbi sursat daşındığından Şimali Qafqazdan Azərbaycana taxıl və un gətirilməsi məhdudlaşmışdı. Şəhərdə qıtlıq və aclıq başlanmışdı. Tacirlər və möhtəkirlər yaranmış vəziyyətdən istifadə edərək qiymətləri süni şəkildə qaldırırdılar. 1914-1917-ci ilin ilk 4 ayı ərzinidə Bakıda un və çörəyin qiyməti kəskin şəkildə artdı. Belə ki, göstərilən dövrdə qara çörək -220%, çovdar unu-200-305%, buğda unu-305%, qarğıdalı unu 260%, I növ buğda unu isə 160% bahalaşmışdı. (99,s.110).

Şəhər İdarəsi statistika şöbəsinin məlumatına görə isə 1914-cü ilin iyunundan 1917-ci ilin dekabrınadək bir funt çörəyin qiyməti 3 qəpikdən 28,8 qəpiyə, ərinmiş yağın qiyməti-51 qəpikdən 8 rubl 36 qəpiyə, ətin qiyməti-15,5 qəpikdən 1 rubl 68 qəpiyə, qəndin qiyməti-15 qəpikdən 52 qəpiyə, kartofun qiyməti-3,2 qəpikdən 27,5 qəpiyə, kələmin qiyməti-4 qəpikdən 44,4 qəpiyə qalxmışdır (99,s.20).

Qiymət qoymanın nəzarətdən çıxmasının daha ağır nəticələr doğuracağını başa düşən hökumət idarələri möhtəkirliyi cilovlamaq ücün tədbirlər görməyi vacib sayırdılar. Quberniya İdarəsinin sərəncamı ilə bütün mağaza və dükanlarda satılan ərzaq mallarının üstündə qiymətləri göstərilirdi. Bir çox mağaza sahibləri belə göstərişə əməl etmədiklərindən hökumətin

sərəncamı ilə cərimə və cəzaya məhkum edilmişdilər. Hər yerdə hökm sürən ərzaq qıtlığı bilavasitə mərkəzi hökumətin iqtisadi siyasətinin səbatsızlığı, ərzaq məsələlərinin səhv qoyuluşu ilə bağlı idi. Möhkəm qiymətlər, əkin sahələrinin azaldılması, hökumət tərəfindən istehlak mərkəzləri arasında ərzaq norması qoyulması, ordu üçün taxıl və un tədarükü üzrə xüsusi müşavirənin müvəkillərinin fəaliyyəti faktiki olaraq çörək bahalığına gətirib çıxartmışdır. Müharibənin ilk aylarında burada olan ticarət müəssisələrinin fəaliyyəti son dərəcə çətinləşdi. Müharibənin ilk günlərindən bir sıra ən zəruri mallara sabit satış qiyməti qoyuldu. 1916-cı ildə Bakıda qənd və düyü ehtiyatları müəyyənləşdirildi. Məlum oldu ki, Bakıda 1.400 min pud qənd və 1.400 min pud düyü ehtiyatı vardır (140,1916.№ 52).

Şəhərin unla təchizi xüsusilə kəskin xarakter almışdır. Müharibə şəraitində ərzaq qıtlığının, xüsusən də çörək çatışmazlığının özləri üçün necə ağır nəticələrə gətirib çıxaracağını nəzərə alsaq şəhər rəhbərliyi daima 300 min pudluq un ehtiyatının yaradılmasını zəruri saydı. Duma bu 300 min pudu almaq üçün Şəhər İdarəsinin 800 min rublluq kredit götürməsinə ancaq 1915-ci ilin sentyabrın 11-də icazə verdi (96,s.372).

1916-cı ilin fevralından etibarən Bakı general-qubernatoru bir sıra ərzaq məhsulları ilə yanaşı unun da icazəsiz olaraq şəhərdən aparılmasını qadağan etdi. Bu və ya digər tədbirlərin nəticəsində bir müddət Bakı bazarlarında yerli un və çörəyin çox bahalaşmasının qarşısını almaq mümkün oldu (96,s.373).

Şəhərin çörəklə təchizatı işində müəyən nizam-intizam yaradılmasına ancaq 1917-ci ilin əvvəllərində başlanıldı. 1917-ci ilin yanvarın 25-dən etibarən Bakıda Xüsusi Çörək Bürosu fəaliyyətə başladı. Bakıda çörək və un kartoçkalarının tətbiqi şəhərin çörəklə təminində mühüm rol oynadı. Təxminən 1917-ci ilin yazında "Çörək və un kartoçkalarının verilməsi üzrə təlimat" işlənib hazırlandı (96,s.376).

M.Ə.Rəsulzadə "Açıq söz" qəzetində Bakı şəhərində və ümumiyyətlə Rusiya imperiyasında müharibənin gətirdiyi bahalıq, qıtlıq və ağır həyat şəraiti barədə yazırdı: "Müharibənin

ayrılmaz yoldaşları bahalıqla qəhət. Müəllif məqaləsində qeyd edir ki, bütün dünyaya ərzaq verən böyük Rusiyanı bahalıq və ərzaqsızlıq əndişəsi tutmuşdur. Bakı bu vəqtə qədər belə yoxsulluqları görməmişdir. Artıq çörəkçilər un satmaq istəmirlər, bəzi dəyirmanlar adətən buğdasız qalmışdır. Bakıya ərzaq və buğda göndərmək üçün vaqon belə vermirlər”.

Müəllif məqaləsində təklif edirdi ki, Şəhər İdarəsi, gərək hökumət adamları Bakının qışını nəzərə alıb, burasını ərzaq tərəfindən təminə var qüvvətlərilə çalışmalıdırlar. Bakı xəlqinin mənafeyindən əlavə Bakı neftinin bütün dövlətcə olan əhəmiyyəti dəxi bunu tələb etməkdədir (21,1915.10.11).

Duma Birinci dünya müharibəsi dövründə əhalinin mənafeyinin müdafiəsi baxımından fəaliyyət göstərirdi. Dumanın 1915-ci il 27 oktyabr tarixli iclasında deputat A.Aşurov çıxış edərək unun bahalaşmasnın əleyhinə olduğunu bildirdi və göstərdi ki, unun qiymətini müəyyən etmək üçün başqa bir yol axtarmaq lazımdır. O, çıxışının sonunda əhalinin unu baha qiymətə almaq imkanının olmadığını bildirdi, un ticarəti üzərində nəzarətin qoyulmasını təklif etdi (166,1915.№141).

Unun bahalaşması ilə əlaqədar olaraq, 1915-ci ilin payızında Dumada çıxış edən M.Əzizbəyov əhalinin aclıq çəkdiyini göstərmiş və tələb etmişdir ki, Şəhər İdarəsi möhtəkirliyin qarşısını almaq üçün dərhal dəyirmanlarda olan bütün unu satın alıb onları anbara doldursun və əhalini ucuz qiymətə unla təmin etsin. M.Əzizbəyov çar hakimiyyət orqanlarının razılığı ilə möhtəkirlərin bazarlarda törətdikləri özbaşınalıq və biabırçılıqları ifşa edərək bazarlardakı alver üzərində xüsusi nəzarət qoyulmasını tələb edirdi. O, mal-qara və ət alverçilərini öz mallarını həddindən artıq baha qiymətə sata bilməsinlər deyə ət və mal-qara üçün sabit qiymət qoyulmasını təklif edirdi (166,1916. 23.01).

1916-cı ildə şəhərdə ən vacib ərzaq məhsullarının qiyməti xeyli bahalaşmışdı. Qıtlıq başlamışdı. Bazarda qiymətlər 4-5 dəfə artmışdı. 1916-cı ildə çörəyin qiyməti 1914-cü ilə nisbətən 266 faiz artmışdı.Un, düyü, çörək, ət, toyuq, yumurta, göyərti və

başqa ərzaq mallarının qiyməti gündən-günə yüksəlirdi. Südün qiyməti 305 faiz, ətin qiyməti 327 faiz, düyünün qiyməti 355 faiz, ərinmiş yağın qiyməti isə 520 faiz artmışdı. Şəhərdə əhalinin yoxsul təbəqələri içərisində acından ölmə halları da çoxalmışdı. Buğda olmadığından şəhərdə dəyirmanların çoxu işləmirdi. Nəticədə, 1916-cı ilin fevralın 14-də Bakıda qadınların qiyamı baş verdi. Hadisə yerinə polis və yanğınsöndürən dəstələri göndərilsə də izdiham yatırıla bilmir. Şəhərdə hərbi qüvvələrin azlığına görə əməliyyatlar uğursuzluqla nəticələnir.

"Açıq söz" qəzeti 1916-cı il 2 mart tarixli nömrəsində qiyam barədə yazırdı: "Yekşənbə günü Bakıda iğtişaşlar başladı. Ərzağın, xüsusilə katrofun bahalaşması ilə əlaqədar olaraq iğtişaş göyərti dükanlarından başlamış, baqqal, bəzzaz dükanlarına da yayılmışdı. Düşənbə günü arvad və uşaqlar şəhərin mərkəzində olan mağazaları, çərşənbə günü isə un dəyirmanlarını və anbarlarını yarmağa başladılar. Polis və jandarm da uzaqda durub tamaşa edirdi. Onlar əksinə, camaatı qızışdırırdılar. Sonra qorodonaçalnikin tədbirləri ilə iğtişaşçı dəstələr dağıdıldı və hətta atəş açıldı. Sonra polis məmurları evləri axtarıb, oğurlanmış malları geri qaytarmış və mal oğurlayanlar həbs edilmişdir. İğtişaş nəticəsində 64 nəfər adam ölüb və yaralanmışdı. Şəhər Polis rəisi Martınovun raportunda qadınlar qiyamı zamanı şəhərə 2 milyon 957 min rubl ziyan dəydiyi göstərilirdi" (21,1916. 02.03).

1916-cı ilin əvvəllərindən başlayaraq şəhərdə kəskin şəkər qıtlığı hiss olunmağa başladı. Bütün Şimali Azərbaycan o cümlədən Bakı qənd və şəkər tozunu bütövlükdə kənardan, ən çox da Ukraynadan alırdı. Bakı həm də digər quberniyalar və xüsusən də İranda və Cənubi Azərbaycanda yerləşən rus qoşunları üçün bu ərzağın mərkəzləşdirərək paylaşdırdığı ən mühüm məntəqə idi. Birinci dünya müharibəsi illərində Bakıda birinci olaraq qənd və şəkər tozu üzərində kartoçka sistemi tətbiq olunmuşdur (99,s.51).

Əhalinin şəkərə olan tələbatını ödəmək məqsədi ilə Dumanın 1916-ci il 15 yanvar tarixli iclasında çıxış edən deputat

M.Əsədullayev şəhərin 100-200 min pud toxunulmaz şəkər ehtiyatına malik olduğunu göstərdi. O, dövlət idarələri qulluqçuları üçün şəkəri özlərinin almasını və əhalinin qalan hissəsi üçün isə şəhərdə bir neçə şəkər dükanları açmasını təklif etdi (166,1916.02.03).

A.Aşurov həmin iclasda M.Əsədullayevin təklifini müdafiə etdi.1916-ci il iyunun 27-də A.Aşurov şəkər qıtlığından qurtuluşu yalnız kartoçka sisteminin tətbiqində görürdü. O, həmçinin qeyd etdi ki, bu işin təşkili üçün Dumanı heç bir xərc qorxutmamalıdır. Çünki bu sistem hələlik şəkər üçün nəzərdə tutulur (166,1916.№13).

1916-cı ilin yazında Şəhər İdarəsi və şəhər ərzaq müşavirəsi kartoçka sisteminin tətbiqinə hazırlıq işlərinə başladı. Bu məqsədlə Şəhər İdarəsi artıq kartoçka sisteminə keçmiş şəhərlərə məsləhət üçün müraciət etmiş, Xarkov və Petroqraddan müvafiq cavablar da almışdı (98,s.148).

Bakı şəhər ərzaq müşavirəsinin iclasında iştirak edən M.Hacınski qeyd edirdi ki, bütün bu işlər Dumanın tapşırığı üzrə Şəhər İdarəsi tərəfindən yerinə yetirilmiş, talonu (kartoçka sistemini) birinci olaraq qəndə tətbiq etmək, bunun üçün şəhəri xüsusi hamiliklər tərəfindən idarə olunan rayonlara bölmək nəzərdə tutulmuşdu. Həmin dövrdə Şəhər İdarəsi iki cür qənd talonu (yoxsullar üçün həftəlik, varlılar üçün 3 aylıq) hazırlayıb tətbiq etməyi nəzərdə tuturdu.

Əhalinin şəkərə olan tələbatının ödənilməsində M.Əzizbəyov da fəal iştirak edirdi. O, bu dövrdə Şəhər İdarəsinə şəkər barədə aşağıdakı məzmunda sorğu verir: Şəhərdə kəskin şəkər qıtlığı hiss olunur. Dükançılar şəkəri məzənnəsindən xeyli baha, girvəngəsini 25, hətta 30 qəpiyə satırlar. Normal olmayan bu vəziyyəti aradan qaldırmaq üçün Şəhər İdarəsi nə etmək niyyətindədir? M.Əzizbəyov ağır vəziyyətdən çıxış yolunu şəhərin Tiflis kimi öz (dumaya məxsus) xüsusi ərzaq mağazalarını təşkil etməkdə görürdü (140,1916.№88).

Bundan başqa, M.Əzizbəyov Duma iclaslarında qəndin çatışmazlığı barədə dəfələrlə məsələ qaldırmışdır. O, Dumanın

1916-cı il 27 iyun tarixli iclasında qənd satan dükanlar üzərində satışını himayəçilərin nəzarəti altında aparılmasını təklif etdi. M.Əzizbəyov, həmçinin 1916-ci il yanvarın 21-də Duma iclasında əhalini qəndlə təmin etməkdən ötrü qəndin başqa yerə daşınmaması üçün müsadirə edilməsini təklif etmişdir (140, 1916.№ 18).

Beləliklə, 1916-cı ilin ikinci yarısında Duma qənd və şəkər tozunun satışı üzərində kartoçka sistemi tətbiq etdi (166,1916. №136).

Duma 1916-cı ilin iyunun 21-də keçirilən iclasında şəhərin bütün ərazisini 20 sahəyə (rayon ərzaq hamiliklərinə) böldü və bu hamiliklərin üzvlərini seçdi. 20 rayon hamiliyinə cəmisi 258 nəfər üzv seçilmişdir. Bunların ancaq 79 (bütün üzvlərin cəmi 30 faizindən bir qədər çoxu) nəfəri azərbaycanlı idi. 7 rayon üzrə üzvlər arasında bir nəfər belə azərbaycanlı yox idi, 8 rayon üzrə isə onlar üzvlərin yarıdan azını təşkil edirdilər. Lakin hamilik üzvlərinin 67 nəfəri erməni idi (98,s.149).

1917-ci ildə Bakı şəhər ərzaq təşkilatının strukturunda dəyişiklik edildi. Dəyişikliyə görə Bakının 15 müxtəlif mədən və kənd sahələrini özündə birləşdirən mədən-zavod rayonunda ərzaq işini mərkəzləşdirilmiş qaydada sahmana salmaq üçün şəhər ərzaq komitəsi yanında xüsusi mədən-zavod şöbəsi yaradıldı. 1917-ci il iyulun 1-ə olan məlumatlara görə Sabunçu, Balaxanı, Ramana, Zabrat və Suraxanı rayonlarının 149 minlik əhalisinin təxminən 107 min nəfərini əhatə edən, Balaxanı Mərkəzi Ərzaq Komitəsi adlanan bu şöbə həmin ərazidə un və çörək təchizatı məsələləri ilə məşğul olmalı idi.

Dumanın 1917-ci il 30 noyabr tarixli qərarı ilə şəhər Ərzaq Komitəsinin bütün səlahiyyətləri Dumanın və Şəhər İdarəsinin ixtiyarına keçdi. Bu qərara müvafiq olaraq Şəhər Ərzaq Komitəsinin 1917-ci il 1 dekabr tarixli qərarı ilə Şəhər Ərzaq Komitəsi işlərinin şəhər özünüidarəsinin ixtiyarına keçdiyi andan Şəhər Ərzaq Komitəsinin funksiyaları dayandırılmış hesab edildi.

Duma  ilkin tələbatı ödəyən ərzaq məhsullarının, o cümlədən çörəyin və ətin qiymətinin bahalaşmasına qarşı da çıxış edirdi. Birinci dünya müharibəsi illərində Bakı üçün qıtlığı güclü hiss olunan ərzaq məhsullarından biri də ət idi. Əvvəllər əti Şimali Azərbaycandakı qəzalardan başqa, həm də Qars vilayəti, Şimali Qafqaz, Volqaboyu və Mərkəzi Asiyadan alan Bakının ət tədarükü rayonları müharibə illərində xeyli məhdudlaşmışdı (99,s.91).

Ət təchizatı sahəsində Bakının Şimali Qafqazdan asılılığı nisbətən zəif idi. Belə ki, Şimali Qafqaz Bakıda kəsilən ətlik mal-qaranın ancaq 20%-ni verirdi. Dumanın 1916-ci il 29 mart tarixli iclasında Şəhər İdarəsi və qiymət komissiyası bütün növlərdən olan çörəyin və ətin qiymətini qaldırmaq istədikdə A.Aşurov bu tədbirə qarşı çıxaraq qeyd etdi ki, indiyədək Şəhər İdarəsinin özü qiymət qaydalarını pozubdur. Çünki ət və digər ərzaq məhsullarının baha qiymətə hərbi xəstəxanalar üçün alırlar. Buna baxmayaraq bütün ət məhsulları restoranlara verilir və onlara isə əhalinin əli çatmır (140,1916.№ 78).

Göründüyü kimi, Birinci dünya müharibəsinə qədər və müharibə illərində Bakı Duması və azərbaycanlı deputatlar əhalinin ən çox işlənən ilkin zəruri ərzaq məhsulları ilə təmin etməsi istiqamətində çoxsahəli fəaliyyət göstərmişdirlər. Dumanın şəhər əhalisini ən zəruri ərzaq məhsulları ilə təmin edilməsi istiqamətində göstərdiyu fəaliyyət nəticəsində şəhər əhalisinin zəruri ərzaqla təmin olunmasında müsbət dəyişikliklər baş verdi. Buna görə də Bakı Dumasının bu istiqamətdəki fəaliyyətini müsbət və təqdirə layiq hesab etmək olar.

# NƏTİCƏ

Müasir dövrdə dünya dövlətlərinin təcrübəsində bələdiyyələr yerli əhalinin hüquq və mənafelərinin daha dərindən müdafiə edən onlara daha yaxın olan, yerli əhali ilə daimi olaraq sıx əlaqədə fəaliyyət göstərən seçkili, demokratik bir təsisatdır.

Dünyanın inkişaf etmiş demokratik dövlətləri tarixi inkişaflarının müəyyən mərhələsində yerlərdə idarəçiliyi mərkəzi hakimiyyətə tabe olmayan, yerlərdə inzibati ərazi vahidləri ərazisində yaşayan əhali tərəfindən seçilən və onlar qarşısında məsuliyyət daşıyan bələdiyyələrə vermək zərurəti qarşısında qaldı. Çünki mərkəzi hakimiyyətin bölgələrə təyin etdikləri məmurlar vasitəsilə yerli idarəçiliyi əhalinin mənafeyi baxımından tam və hərtərəfli həyata keçirə bilmirdi. Yerlərdə idarəçiliyin zəifliyi həmin ərazidə yaşayan əhalinin mərkəzi hakimiyyətdən narazılığına gətirib çıxarır və növbəti seçkilərdə hakimiyyətin yerlərdə mövqelərinin itirilməsi ilə nəticələnirdi.

Yerli özünüidarə orqanları Mərkəzi haklimiyyət orqanları ilə müqayisədə əhaliyə daha yaxındır və onların fəaliyyətini yerli əhali gündəlik həyatlarında həm yaxşı, həm də pis mənada hər gün görə bilir və qiymətləndirir.

Müasir dövrdə yerlərdə inkişaf etmiş özünüidarəetmə sistemi olmayan dövlətlər demokratik dövlət hesab edilmir. Çünki demokratiyanın əsaslarından biri yerlərdə özünüidarənin təşkilidir. Yerli əhali özünüidarə orqanları vasitəsilə özlərinin idarəçilik orqanlarını seçir və bu seçkili orqanlar da yerli əhəmiyyətli problemlərin həlli ilə məşğul olmaqla həm əhaliyə xidmət edir, həm də yerlərdə sosial iqtisadi inkişafaköməklik göstərir.

Tarixi sənədlərin elmi-nəzəri təhlili belə qənaətə gəlməyə əsas verir ki, XIX əsrin sonu-XX əsrin əvvəllərində Şimali Azərbaycanda özünüidarə orqanlarının fəaliyyəti tarixinin tədqiqi tarix elmi qarşısında duran aktual və problemli məsələlərdən biridir. Bu problemin tədqiq olunmasında maraqlı və mühüm istiqamətlərdən biri Bakı Şəhər Dumasının tarixidir.

XIX asrin ikinci yarısında Rusiya şəhərlərində özünüidarə islahatı keçirildi. Şimali Azərbaycan şəhərləri içərisində bu islahat 1878-ci ildə təkcə Bakı şəhərində tətbiq edildi.

Bakı şəhərində özünüidarənin tətbiqi öz dövrünə görə Şimali Azərbaycan tarixində yeni bir tarixi hadisə idi. Ona görə də Bakı Dumasının təşkili və fəaliyyətinin elmi nöqteyi nəzərdən tədqiq edilməsi həm elmi-nəzəri, həm də təcrübi baxımdan əhəmiyyətə malikdir.

Şəhər özünüidarə islahatının tətbiqi ilə əlaqədar olaraq şəhərin ictimai həyatında böyük dəyişikliklər baş verdi. Çünki bu islahatla Şimali Azərbaycan tarixində ilk dəfə olaraq seçkili orqan olan Duma fəaliyyət göstərməyə başladı. Bu isə öz növbəsində Azərbaycan cəmiyyəti üçün yeni bir tarixi hadisə idi. Bu yenilik, hər şeydən əvvəl getdikcə Şimali Azərbaycanın siyasi mərkəzinə çevrilən Bakının siyasi həyatının canlanmasına böyük təsir göstərdi.

Bakı Duması mövcudluğu dövründə şəhərdə ictimai həyatın bütün sahələrini əhatə edən geniş və hərtərəfli fəaliyyət göstərmişdir. Duma şəhərdə təhsilin inkişafı, əhaliyə tibbi xidmətin göstərilməsinin yaxşılaşdırıması, şəhərin su və ərzaq təchizatı, abadlaşdırma və digər sahələr üzrə fəaliyyət göstərmişdir. Göstərilən bu fəaliyyət sahələrindən ən əhəmiyyətlisi şəhərin su təchizatı ilə bağlı fəaliyyət olmuşdur. Şəhərə su kəmərinin çəkilməsi Dumada azərbaycanlı və erməni deputatlarının kəskin mübarizəsi şəraitində getmişdir. Erməni deputatlar şəhərdə su alveri ilə məşğul olan erməni işbazlarının mənafeyindən çıxış edərək şəhərə davamlı və dayanaqlı su kəmərinin çəkilməsinə hər cür maneələr törədirdilər. Başda Azərbaycan xalqının böyük övladı H.Z.Tağıyev olmaqla azərbaycanlı deputatlar isə şəhərə məhz Şollar mənbələrindən su kəmərinin çəkilməsini tələb və təkid edirdilər. Nəhayət, Duma şəhərə Şollardan su kəmərinin çəkilməsi barədə qərar qəbul etdi. Bu qərar H.Z.Tağıyev başda olmaqla azərbaycanlı deputatların və şəhərin qələbəsi idi.

Bakı Şəhərinin su təchizatı tarixini şətri olaraq dörd mərhələyə bölmək olar:

1. 1893-1917-ci illər- bu mərhələdə Duma şəhərə Şollar su mənbələrindən kəmərin çəkməsinə nail oldu. 1958-ci ildə isə şəhərə Şollardan ikinci kəmər çəkildi;

2. Ceyranbatan və Dəvəyatağı göllərinin yerində yeni su anbarı yaradılır. Samur-Dəvəçi kanalı Abşerona qədər uzadılır. 1961-ci ildə nəhayət Ceyranbatan su anbarı istifadəyə verilir;

3.1970 və 1971-ci illərdə Kür su kəmərinin 1-ci və 2-ci növbəsi istifadəyə verilir;

4. 2010-cu il dekabrın 28-də uzunluğu 262,5 km olan Oğuz-Qəbələ-Bakı su kəməri istifadəyə verilir.

1893-1917-ci illəri əhatə edən birinci mərhələdə şəhərə su kəmərinin çəkilməsi vəzifəsini Bakı Duması həyata keçirtdi. Məhz bu mərhələdə "Şollar-Bakı" su kəməri çəkilib istifadəyə verildi. Bu kəmər öz dövrünə görə Avropanın ən uzun su kəməri hesab edilir. Uzunluğu təxminən 190 km. olan bu su kəməri XX əsrin ən böyük layihələrindən biri hesab olunur. Bu kəməri əhəmiyyətinə və miqyasına görə ancaq XXI əsrin layihəsi hesab olunan Bakı-Tiflis-Ceyhan neft boru kəməri ilə müqayisə etmək olar. Fikrimcə "Şollar-Bakı" su kəmərinin ideya müəllifləri və baniləri H.Z.Tağıyev və U.Lindley hesab olunurlar. Məhz bu iki böyük şəxsiyyətlər olmasaydı bu su kəməri çəkilib istifadəyə verilə bilməzdi. Bax budur tarixdə şəxsiyyətin rolu! Bu şəxsiyyətlər əməli fəaliyyətləri ilə sübut etdilər ki, tarixi şəxsiyyətlər yaradır, tarixi şəxsiyyətləri isə tarix özü yetişdirir.

U.Lindleyin ilk dəfə "Şollar" sözündən istifadə etməsi Dumada qızğın müzakirələrə səbəb oldu. O, bulaq suları ilə zəngin olan və su hövzəsi kimi müəyyənləşdirdiyi ərazini Şollar adlandırırdı və bu su kəməri də tarixə "Şollar-Bakı" su kəməri kimi daxil oldu. Kəmərin çəkilişi ən çətin bir dövrə təsadüf etdi. Birinci dünya müharibəsi illərinə. Lakin U.Lindley başda olmaqla ona inanan Dumanın azərbaycanlı deputatları və onları müdafiə edən digər deputatların iradəsi sayəsində nəhəng su kəməri 1917-ci il yanvarın 22-də 63 saata öz axını ilə Bakıya

gəlib çatdı. Su kəmərinin kranını açmaq şərəfi isə bu kəmərin çəkilməsində daha çox əməyi olan bir şəxsiyyətə H.Z.Tağıyevə nəsib oldu. 1917-ci il martın 1-dən "Şollar-Bakı" su kəmərinin istismarına başlanıldı.

Fikrimcə H.Z.Tağıyevi ona görə "Şollar-Bakı" su kəmərinin banisi hesab etmək olar ki, məhz onun iradəsi, nüfuzu və maliyyə dəstəyi sayəsində Duma şəhərə Kür və Samur çaylarından deyil, Şollardan su kəmərinin çəkilməsinə qərar verdi. H.Z.Tağıyev Şollardan ona görə şəhərə su kəmərinin çəkilməsini istəyirdi ki, Şollar suyu Kür və Samur çaylarının suyundan olduqca keyfiyyətli və insan orqanizmi üçün yararlı idi.

Şahdağın ətəyində yerləşən bu mənbə yeraltı bulaq suyu olduğundan kimyəvi vasitələrlə təmizlənməsinə ehtiyac qalmır. Çünki suda mexaniki çöküntü və bakterioloji-yoluxucu ünsürlər yoxdur, daimi temperaturu 130 S, kimyəvi qalığı isə 320 milli qram\litrdir. 1917-ci ildən fasiləsiz fəaliyyət göstərən bu mənbənin məhsuldarlığı demək olar ki, hələ də dəyişməyib. Şollar ilin bütün dövründə orta hesabla saniyədə 1.200-1.300 litr su verir.

Şollar suyunun bu xüsusiyyətlərinə və keyfiyyətlərinə görə H.Z.Tağıyev və onu dəstəkləyən azərbaycanlı deputatlar məhz bu suya üstünlük verdilər. "Şollar-Bakı" su kəməri Bakı Dumasının həyata keçirtdiyi ən böyük tarixi əhəmiyyətə malik olan bir layihədir. Bu su kəmərinin çəkilməsi ilə şəhər əhalisinin su təhlükəsizliyi demək olar təmin edildi. Bakı əhalisini isə şəhərdə su ticarətini öz nəzarətində saxlayan erməni su işbazlarının asılılığından xilas etdi.

Çarizm Duma seçkilərində azərbaycanlıların hüquqlarının məhdudlaşdırılmasına, seçkilərin çoxsaylı qanun pozuntuları və özbaşınalıq şəraitində keçirilməsinə baxmayaraq, Dumanın azərbaycanlı deputatları milli hüquq bərabərsizliyinin aradan qaldırılmasını çar hakimiyyət orqanlarından qətiyyətlə tələb etmiş və bu istiqamətdə Dumanın erməni və rus deputatlarına qarşı mübarizə aparmışdırlar.

Çarizmin şəhər özünüidarə sahəsində azərbaycanlılara münasibəti müstəmləkə xarakteri daşıyırdı. Bu müstəmləkəçi siyasət Dumaya seçkilərdə özünü daha aydın göstərirdi. "Şəhər Əsasnamə"lərinə görə, qeyri-xristianlar (azərbaycanlılar) Duma deputatlarının yarıdan çoxunu təşkil edə bilməzdilər.

Dumanın azərbaycanlı deputatları, həmçinin seçkilərdə milli hüquq bərabərsizliyinin aradan qaldırılması və şəhər özünüidarəsi sahəsində azərbaycanlıların hüquqlarını imperiyanın digər millətlərinin hüquqları ilə bərabərləşdirilməsi kimi radikal tələblər irəli sürmüşdürlər. Bu da öz dövrünə görə mühüm tarixi əhəmiyyətə malik idi. Bu istiqamətdə Ə.Ağayevin fəaliyyəti xüsusi tarixi əhəmiyyətə malik olmuşdur. Onun bu istiqamətdə fəaliyyəti əsərdə ətraflı tədqiq edilmiş və müsbət qiymətləndirilmişdir.

Təəssüflər olsun ki, azərbaycanlı deputatlar Duma seçkilərində milli hüquq bərabərsizliyini özündə əks etdirən "Şəhər Əsasnaməsi"nin ədalətsiz 44-cü maddəsinin ləğv olunmasına nail ola bilmədilər. Ancaq aparılan bu mübarizənin elə özü siyasi baxımdan tarixi əhəmiyyətə malik bir hadisə idi.

Azərbaycanlıların seçki hüquqlarının məhdudlaşdırılması nəticəsində Dumada Azərbaycan dilinə, mədəniyyətinə, adət-ənənələrinə və məişətinə yaxından bələd olmayan qeyri-azərbaycanlıların-erməni və rusların üstünlük əldə etmələrinə səbəb olurdu. Bu deputatlar isə ümumşəhər əhəmiyyətli məsələlərin həllinə biganəlik nümayiş etdirir, şəhərin deyil ayrı-ayrı qrupların mənafeyini üstün tuturdular.

Bakı Duması və azərbaycanlı deputatlar şəhərdə məktəb şəbəkəsinin genişləndirilməsi, azərbaycanlı uşaqların doğma ana dilində təhsil almaları, şəriət dərslərinin tədrisi, azərbaycanlı müəllimlərin hüquqlarının imperiyanın digər millətlərindən olan müəllimlərin hüquqları ilə bərabərləşdirilməsi istiqamətində fəaliyyət göstərmişlər.

Monoqrafiyada azərbaycanlı deputatların Duma seçkilərində milli hüquq bərabərsizliyinin aradan qaldırılması Şəhər İdarəsi qulluqçularının özbaşınalığına və rüşvətxorluğuna qarşı müba-

rizələri, şəhərdə təhsilin inkişafına və tibbi xidmətin yaxşılaşdırılması, əhalinin su və ərzaq ilə təchiz edilməsi, şəhərin abadlaşdırılması və digər sahələrdə fəaliyyətləri ilk qaynaqlar əsasında geniş işıqlandırılmışdır.

Bakı Şəhər Dumasının tarixinin öyrənilməsi göstərdi ki, Duma XIX əsrin sonu-XX əsrin əvvəllərində bələdiyyə orqanı səviyyəsindən çıxaraq şəhər parlamenti səviyyəsinə qədər yüksələ bilmişdir. Fikrimcə Şimali Azərbaycanda parlamentarizmin əsası məhz Bakı Duması ilə qoyuldu. Duma seçkiləri dövründə seçkiyə hazırlıq, seçki kampaniyasının təşkili, dövrü mətbuatda seçkilərlə bağlı müzakirələrin aparılması, Duma iclaslarının keçirilməsi, iclasın gündəliyinə çıxarılan məsələlərin əvvəlcə müvafiq komissiyalarda və Şəhər İdarəsində müzakirə edildikdən, bəyənildikdən və qərar layihələrinin ilkin müzakirələri başa çatdıqdan sonra Duma deputatlarının müzakirəsinə çıxarılması prosesi parlamentin fəaliyyət prosesinə daha çox bənzəyir. Dumanın müzakirəsinə çıxarılan məsələlər deputatlar tərəfindən şəhərin mənafeyi baxımından müzakirə və təhlil edildikdən sonra tam hazır layihələr qəbul edilir, yenidən işlənilməyə ehtiyacı olanlar isə komissiyanın təkrar müzakirəsinə qaytarılırdı. Bütün qərar layihələrinin müzakirəsi əsasən azərbaycanlı və erməni deputatlarının kəskin qarşıdurması və müzakirəsi şəraitində keçirilirdi. Dumanın azərbaycanlı deputatları demək olar ki, bütün qərarlara şəhərin və şəhər əhalisinin mənafeyi baxımından yanaşaraq münasibət bildirir, şəhərin mənafeyinə uyğun gəlməyən qərar layihələrinin rədd edilməsini tələb etdikləri halda, şəhərin erməni icmasına mənsub olan deputatlar isə öz şəxsi maraqlarından çıxış edirdilər.

Araşdırmalar göstərir ki, azərbaycanlı deputatlar da çox hallarda ümumşəhər mənafelərini deyil öz şəxsi maraqlarını da üstün tutmuşdurlar. Onlar Dumanın deputatı adından özlərinin kommersiya maraqları naminə istifadə etmiş, bir növ toxunulmazlıqlarını təmin etmişdirlər. Lakin milli burjuaziyanın görkəmli nümayəndəsi H.Z.Tağıyev isə deputat mandatından həm sahibkarlıq fəalyyətini genişləndirilməsi, həm də doğma şəhə-

rinin mənafeyi baxımından məharətlə isifadə edə bilmişdir. 1897-ci ilə kimi Duma iclaslarında ermənilər tərəfindən təklənən və azərbaycanlı deputatlardan ümummilli mənafe baxımından gözlədiyi dəstəyi ala bilməyən H.Z.Tağıyev bu dəstəyi Dumadan kənarda axtarmalı oldu. O, H.Zərdabini, Ə.M.Topçubaşovu, Ə.Ağayevi və H.Mahmudbəyovu Bakıya dəvət etdi və Duma seçkilərində siyasi nüfuzundan və mövqeyindən istifadə edərək onların 1897-ci ildə Dumaya deputat seçilmələrinə nail oldu. Məhz onların sayəsində 1898-ci ildən başlayaraq Duma iclaslarında azərbaycanlı deputatlar ali təhsilli və rus dilini mükəmməl bilən şəhərin erməni icmasının deputatları ilə siyasi rəqabət apara bildilər, ümummilli və ümumşəhər mənafələrini ön plana çəkərək şəhərin problemlərinin həllinə nail olmağa başladılar. Göstərilən ziyalılar sonra XX əsrin əvvəllərində milli azadlıq hərəkatına rəhbərlik etdilər və dövlət müstəqilliyinin bərpa edilməsində əvəzsiz xidmətlər göstərdilər.

Bakı Duması XX əsr Şimali Azərbaycanın görkəmli dövlət və siyasi xadimlərini yetişdirən və formalaşdıran bir siyasi məktəb rolunu oynamışdır. Belə ki, XX əsrin əvvəllərində Şimali Azərbaycanın görkəmli siyasi xadimləri və Azərbaycan Demokratik Respublikasının yaradıcılarından olan Ə.M.Topçubaşov, Ə.Ağayev, H.Mahmudbəyov, M.Vəkilov, F.Xoyski və başqaları müxtəlif dövrlərdə Bakı Dumasının deputatları olmuşdurlar. ADR parlamenti deputatlarının əksəriyyəti, deputat kimi, siyasi fəaliyyətlərinə məhz Bakı Dumasında başlamışdılar. 1918-ci il 28 may tarixində Şimali Azərbaycanda dövlətçiliyin bərpa olunmasında Şəhər Dumasının azərbaycanlı deputatlarının özünəməxsus xidmətləri və rolu olmuşdur. Bu baxımdan Şimali Azərbaycanda bələdiyyə tarixinin öyrənilməsi müasir dövrdə də xüsusilə aktuallıq kəsb edir.

Bakı Dumasının XIX əsrin sonu-XX əsrin əvvəlləri tarixinin tədqiqi həm elmi, həm də siyasi baxımdan müasir mərhələdə olduqca əhəmiyyətlidir. Şimali Azərbaycan şəhərlərində özünüidarə tətbiq edildiyi zaman müasir Avropanın inkişaf et-

miş bir çox ölkələrində və o cümlədən, Türkiyə Respublikasında yerli özünüidarə sisteminə hələ keçilməmişdir. Həmin ölkələrdə sonradan özünüidarə tətbiq edilmiş və bələdiyylərin fəaliyyətinin nəticəsində bölgələrdə müasir inkişafa nail olunmuşdur. Bu baxımdan Şimali Azərbaycan tarixində bələdiyyələrin tarixinin öyrənilməsi xüsusi yer tutur.

Müasir inkişaf etmiş Avropa və Amerika ölkələri hazırkı inkişaf səviyyələrinə çatmalarında, insan hüquq və azadlıqlarının qorunmasında, liberal yönümlü bazar iqtisadiyatının təşəkkül tapmasında, mətbuat azdalığının təmin olunmasında ən əsası isə demokratik sivil bir cəmiyyətin formalaşmasında bələdiyyələrin özünəməxsus yeri və rolu olub.

Ümumiyyətlə hər bir inkişaf etmiş cəmiyyətdə həmin cəmiyyətin o inkişaf səviyyəsinə çatmasında bələdiyyələrin rolu inkar edilməzdir.Yerli özünüidarə orqanları güclü olan bölgələrdə sosial-iqtisadi inkişaf da baş verir, əhalinin həyat səviyyəsi və güzəranı da yüksək olur. Əksinə yerli özünüidarə sistemləri zəif olan bölgələrdə tənəzzül baş verir və əhalinin həyat səviyyəsi isə aşağı olur.

Müasir dövrdə Avropanın inkişaf etmiş ölkələrində olduğu kimi Azərbaycan Respublikasında da yerli özünüidarəetməni bələdiyyələr həyata keçirir.

Azərbaycan Respublikasının Konstitusiyanın 142-ci maddənin 1-ci hissəsinə görə yerli özünüidarəetməni bələdiyyələr həyata keçirir.

Azərbaycan Respublikası 1985-ci il oktyabrın 15-də Strasburqda şəhərində imzalanmış “Yerli özünüidarə haqqında” Avropa xartiyasına 25 dekabr 2001-ci ildə qoşulub.

1999-cu il 12 dekabrda Azərbaycan Respublikasında bələdiyyələrə ilk, 2004, 2009, 2014 və 2019-cu illərdə isə növbəti seçkilər keçirildi. Beləliklə, 25 ildən artıq bir zamandır ki, Azərbaycan Respublikasında çöxsaylı irili xırdalı bələdiyyələr yaradılıb və fəaliyyət göstərir. Lakin əhali hələ də bu günə qədər gündəlik həyatlarında bələdiyyələrin fəaliyyətlərini görmür və hiss etmirlər. Bələdiyyələr yalnız öz

ərazilərindəki torpaqların satışı və özlərinə xidmət göstərməklə məşğul olurlar. Halbuki 25 il ərzinidə Bakı Duması Şəhər üçün çoxsaylı işlər görə bilmişdir.

Buna görə də bələdiyyələri yerli əhaliyə xidmət göstərən bir quma çevirmək zərurəti yaranmışdır. Bunun üçün:

Birincisi-Bakı, Gəncə, Sumqayıt, Mingəçevir, Naftalan, Xankəndi, Naxçıvan, Lənkəran, Yevlax və Şirvan kimi respublika tabeli şəhərlərdə ümumi bələdiyyələr yaradılmalı və həmin şəhərlərin idarə edilməsi bələdiyyələrin səlahiyyətinə verilməlidir;

İkincisi-rayon və şəhərlərdə icra hakimiyyətləri ləğv edilməli və yerli idarəçilik bələdiyyələrə verilməlidir. Rayon və şəhərlərdə Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən nümayəndəlik və ya Türkiyə Respublikasında olduğu kimi valilik idarə sisteminə keçilməli;

Üçüncüsü- rayon və şəhərlərin təsərrüfat və sosial-iqtisadi inkişafla bağlı bütün səlahiyyətləri (abadlaşdırma, yolların təmiri, parkların salınması, yaşıllaşdırma və.s) bələdiyyələrə verilməli;

Dördüncüsü-bələdiyyələrə ərazilərində torpaq sahələrinə mülkiyyət hüququnu təsdiq edən reyestrdən çıxarış verilməlidir. Bu olduqca vacib bir şərtdir, ona görə ki, bələdiyyə torpaqlarını satın alan vətəndaş maneəsiz olaraq aldığı torpaq sahəsinə reyestrdən çıxarış ala bilsin.

Beşincisi-bələdiyyə ərazilərindəki yaşayış və qeyri yaşayış sahələrinin tikintisinə icazənin verilməsi bələdiyyələrin səlahiyyətinə verilməlidir;

Faktiki materialların öyrənilməsi və təhlili Bakı Dumasının fəaliyyətində çatışmazlıqlar və nöqsanların olduğunu da aşkara çıxarmışdır. Ümumşəhər mənafeyi bəzən ayrı-ayrı deputatların mənafeyinə qurban verilirdi. Şəhər vəsaitinin xərclənməsində, şəhər torpaqlarının bölgüsü, satışı və icarəsində özbaşınalıqlar da üzə çıxarılırdı və yerində də tənqid edilirdi. Deputatların əksəriyyəti ümumi işə laqeyd münasibət bəsləyirdi. Bələdiyyə

fəaliyyətinin bir sıra məsələləri üzrə Duma deputatlarının səriştəsizliyi özünü göstərirdi. Çatışmazlıqların müəyyən hissəsi azərbaycanlı deputatların bələdiyyə təcrübəsinin yoxluğu ilə izah olunur. Bu çatışmazlıq "Şəhər Əsasnaməsi"nin tətbiq olunduğu ilk dövrlərdə Dumada milli ziyalı kadrların azlığı şəraitində xüsusilə özünü göstərirdi. Dumada Milli ziyalıların azlığı və sahibkarların üstünlük təşkil etdikləri dövrlərdə azərbaycanlı deputatlar çox vaxt ümummilli maraqlarını deyil, şəxsi maraqları ön plana çəkirdilər.

Monoqrafiyanın yazılmasında çoxsaylı arxiv materiallarından, XIX əsrin sonu-XX əsrin əvvəllərində nəşr olunmuş dövrü mətbuatdan və elmi ədəbiyyatdan istifadə olunaraq Bakı Dumasının fəaliyyəti elmi nöqteyi nəzərdən tədqiq edilmişdir. Əsərdə ilk dəfə Dumanın inkişaf prosesi və onun səciyyəvi xüsusiyyətləri işıqlandırılmış, Duma deputatlarının sosial və milli tərkibi, habelə yerli özünüidarə sahəsində çarizmin müstəmləkəçi siyasəti hərtərəfli təhlil olunmuşdur.

Çoxsaylı arxiv materialları, "Kaspi" qəzeti və digər dövri mətbuat və elmi ədəbiyyatın araşdırılması və təhlili əsasında aparılmış tədqiqatlar göstərdi ki, Bakı Dumasının fəaliyyəti bütövlükdə yüksək qiymətə layiqdir.

Yuxarıda göstərilənlərə əsasən qətiyyətlə demək olar ki, Şimali Azərbaycanda bələdiyyələrin tarixi təcrübəsini öyrənmək və onun müsbət dərslərindən bəhrələnmək xüsusi əhəmiyyətə malikdir. Bakı Şəhər Dumasının 40 illik tarixi təcrübəsi onu deməyə əsas verir ki, Şimali Azərbaycanın çox zəngin bələdiyyə tarixi təcrübəsi var və bu təcrübədən daima bəhrələnmək lazımdır. Bələdiyyələri işlək bir quruma çevirmək üçün qabaqçıl ölkələrin təcrübəsindən istifadə etmək olduqca zəruridir. Fikrimcə qardaş Türkiyə Respublikasaının bələdiyyə təcrübəsini hərtərəfli öyrənmək və Azərbaycan Respublikasında həmin təcrübəni tətbiq etmək zamanı demək olar gəlib çatıbdır.

## İstifadə edilmiş ədəbiyyat siyahısı.

### Arxiv sənədləri.
### Azərbaycan Dövlət Tarix Arxivinin Fondları:

1. Fond 45. Bakı quberniyasının dəftərxanası. siy 1 iş 39, siy 1 iş 35, 218, 223, 235, 240, 340.
2. Fond 50. Şəhər İşləri üzrə Quberniya İdarəsi. siy 1 iş 1, 5, 7, 12, 13, 11, 17, 31,40, 46, 53 90, 81, 84, 125, 152, 170, 174, 191, 113, 142, 260, 280, 284, 290, 301, 328, 342, 346, 348, 349, 374, 400, 401, 413, 414, 416, 424, 433, 445, 449, 456, 467, 482, 493, 517, 532, 545, 586, 584, 588
3. Fond 389. Bakı Şəhər İdarəsi. siy 1 iş 14, 25, 29, 35, 40, 44, 56, 60, 111, 120, 140, 294, 356, 435, 467, 474, 482, 496, 503, 552, 596, 643, 665, 669,724, 727, 740, 757, 1014, 1017, 1083, 1085, 1122, siy 2 iş 2303, 2304, 2305. siy 3. iş.1888, 1753, 2364, 2667, 1797, 2832, 2868, 2887, 2954, 2640, 2917, 2878, 2761, 2749, 2717, 2338, 2282, 2138, siy. 4 is. 835, 1229, siy. 5 is. 20, 193, 596,1083, 1093, 136.

### Azərbaycan dilində.

4.Azərbaycan tarixi II cild. Bakı, 1964.
5.Azərbaycan tarixi. Bakı, 1993.
6.Azərbaycan tarixi. Bakı, 1994.
7.Azərbaycan tarixi. Yeddi cilddə, IV cild (XIX əsr). Bakı, 2007.
8. Azərbaycan tarixi. Yeddi cilddə, V cild (1900-1920- ci illər). Bakı, 2008.
9. “Azərbaycan” qəzeti.
10.“Azərbaycan müəllimi” qəzeti.
11. Abdullayev Ç. XX əsrin unikal qurğusu.Şollar-100. ”Şollar-Bakı su qurğuları kompleksinin” 100 illiyinə həsr olunmuş “su ehtiyatları, hidrotexniki qurğular və ətraf mühit” mövzusunda

Beynəlxalq elmi-praktiki konfransın materialları. I hissə. Bakı, 2017.
12.Adıgözəlova A. Fevral inqilabından sonra Azərbaycanda müvəqqəti hökumətin yerli hakimiyyət orqanlarının və şəhər özünüidarəsinin təşkili və fəaliyyəti. Tarix elm. nam. dissert. avtoreferatı. Bakı, 1995.
13. Adıgözəlova A. Fevral inqilabından sonra Azərbaycanda müvəqqəti hökumətin yerli hakimiyyət orqanlarının və şəhər özünüidarəsinin təşkili və fəaliyyəti. Tarix elm. nam. dissert. Bakı, 1995.
14.Adıgözəlova A. Azərbaycan Xalq Cümhuriyyəti dövründə şəhər özünüidarə orqanları.Tarix və onun problemləri, 2013, №-4.
15. Ağayev T. Şollar-Bakı və Xaçmaz-Bakı su kəmərlərinin tikilmə tarixi. Bakı, 2013.
16. Ağayev T. Bakı şəhərinin su təchizatı. Bakı, 2013.
17. Ağayev T. Şollar-Bakı su kəmərinin tikintisi, layihə gücünə çatdırılması və mövcud vəziyyəti. Bakı, 2016.
18. Ağayev Ə. Bəs bizim ziyalılarımız haradadır? "Kaspi"dən seçmələr.(tərtib edən, ön söz, izah və şərh V.Quliyev). Bakı, 2019.
19. Ağaoğlu Ə. Seçilmiş əsərləri. (tərtib edənlər: Ə.Mirəh-mədov, V. Quliyev). Bakı, 2007.
20. Ağaoğlu Əhməd bəy. Qafqazda milli məsələ (məqalələr və sənədlər toplusu.Tərtib edən, ön söz, qeyd və şərh F. Cabbarov). Bakı, 2019.
21."Açıq söz" qəzeti.
22.Aşurbəyli S. Bakı şəhərinin tarixi: orta əsrlər dövrü. Bakı, 1998.
23.Bağırova İ. XIX əsrin sonu-XX əsrin əvvəllərrində Azərbaycanda liberal cərəyanın inkişafı. Bakı, 2005.
24.Bağırova İ. Əli Mərdan bəy Topçubaşovun ictimai-siyasi fəaliyyəti (Ə.M.Topçubaşovun 150 illiyinə həsr olunmuş beynəlxalq konfransın materialları). Bakı, 2014.

25. Bağırova İ. Əhməd bəy Ağayevin ictimai-siyasi fəaliyyəti (1894-1908-ci illər) Ə.Ağaoğlunun anadan olmasının 150 illiyinə həsr edilmiş Beynəlxalq Simpoziumun Materialları. Bakı, 2019.
26.Baykara H.Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı, 1992.
27.Cabbarov F.Məmmədov M. Şollar-Bakı su kəmərinin tarixindən. Bakı, 2016.
28.Cabbarov F.Rusiya imperiyasının Şimali Azərbaycanda milli siyasəti və 1905-1906-cı illərdə kütləvi qırğınlar. Tarix üzrə elm.dokt.dər.almaq üçün təq.ed.dis. avtoreferatı. Bakı, 2022.
29. Cabbarov F. Erməni yazıçısı A.Şirvanzadə . Ə. Ağaoğlunun Bakıda 1905-ci il fevral qırğını ərəfəsində fəaliyyəti haqqında. Ə.Ağaoğlunun anadan olmasının 150 illiyinə həsr edilmiş Beynəlxalq Simpoziumun Materialları. Bakı, 2019.
30.Cavadova E. Həsən bəy Məlikov Zərdabinin Bakı Şəhər Dumasında fəaliyyəti (1897-1907). Bakı, 2019.
31. Cavadova E. Millət fədaisi Həsən bəy Zərdabi. "Kaspi"-Maarifçilik meydanı. Bakı, 2016.
32.Cəfərli C. H.Z.Tağıyevin Duma fəaliyyəti (1878-1911). Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Xəbərləri" (humanitar, pedaqoji, psixoloji elmlər seriyası), № 3.Bakı, 1999.
33.Cəfərli C. Ə.Ağayevin Duma fəaliyyəti (1903-1907). Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Xəbərləri" (humanitar elmlər seriyası),№ 5.Bakı,2000.
34.Cəfərli C. 1892-ci il Şəhər islahatından sonra Bakı Şəhər Dumasına seçki keçirilməsi və bu seçkidə azərbaycanlıların iştirakı. Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Xəbərləri" (humanitar elmlər seriyası), № 5. Bakı,2000.
35.Cəfərli C. 1911-1915-ci illərdə Bakı Şəhər Dumasına seçkilər keçirilməsi və bu seçkidə azərbaycanlıların iştirakı (humanitar, pedaqoji, psixoloji elmlər seriyası), № 1-2. Bakı, 2001.
36.Cəfərli C.H.Zərdabinin Duma fəaliyyəti (1898-1907). Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Xəbərləri" (humanitar, pedaqoji, psixoloji elmlər seriyası), № 1-2. Bakı, 2011.

37. Cəfərli C.Azərbaycanlı deputatların Bakı Şəhər Dumasında fəaliyyəti (1893-1917). tarix elm. nam. dissertasiyası. Bakı, 2004.
38. Dadaşov A. Məhəmməd Həsən Hacınski. Bakı, 2004.
39.Eminova Z. XIX-XX əsrin əvvəllərində Azərbaycanda səhiyyənin tarixi.Bakı, 2015.
40. Ə.M.Topçubaşovun 150 illiyinə həsr olunmuş beynəlxalq konfransın Materialları. Bakı, 2014.
41.Ə.Ağaoğlunun anadan olmasının 150 illiyinə həsr edilmiş Beynəlxalq Simpoziumun Materialları. Bakı, 2019.
42.Əmrahov M. XX əsrdə Azərbaycanda milli-azadlıq hərəkatı. Bakı, 2009.
43.Əmrahov Z. İrəvan quberniyasının tarixi (1850-1917-ci illər).Bakı, 2022.
44.Əkinçi 1875-1877 (tam mətn). Bakı, 2005.
45. Əzimova A. Bakı Sovetinin antiazərbaycan siyasəti. fevral 1917-mart 1918-ci il. tarix elm. nam. dissertasiyasının avtoreferatı. Bakı, 2022.
46.Əzizbəyova P. M.Əzizbəyov. Bakı, 1955.
47.Əzizov T. Azərbaycan XX əsrin əvvəllərində. Bakı, 1997.
48.Əliyeva G. XIX-XX əsrin əvvəllərində Şimali Azərbaycanda rus dilli təhsil. Tarix üzrə fəls.dokt.dər.almaq üçün təq.ed.dis. avtoreferatı. Bakı, 2014.
49.Əkbərov K. Səlimov S. Azərbaycanın dövlət və hüquq tarixi. Bakı, 2003.
50.Əliyev T, Məmmədova M. Bakı şəhər əhalisinin mövcud və gələcək su təchizatı mənbələri, onların ekoloji problemləri. Bakı, 2003.
51.Fətullayev Ş. XIX əsr-XX əsrin əvvəllərində Azərbaycanda şəhərsalma və memarlıq. Bakı, 2013.
52.Fətullayev Ş. Bakıda şəhərsalma XIX əsr və XX əsrin əvvəllərində. Bakı, 2015.
53.“Füyuzat” jurnalı (1906-1907). Tam mətni. Bakı, 2007.
54.Göyüşov Z. Həsən bəy Məlikov Zərdabi (Bioqrafiq məqalələr, məktublar, xatirələr, tədqiqatlar). Bakı, 2010.

55. Yaqublu N. “Kaspi” qəzetinin yaranması və fəaliyyəti. Bakı, 2011.
56. Hacıyeva K.“Əkinçi” qəzeti XIX əsrin II yarısı Azərbaycan tartixini öyrənmək üçün mənbə kimi. Tarix üzrə fəls.dokt.dər.almaq üçün təq.ed.dis. avtoreferatı. Bakı, 2013.
57.Həsənli C. Tarixi şəxsiyyətin tarixi: Əlimərdan bəy Topçubaşov. Bakı, 2013.
58.Həsənov H. XIX əsrin ortaları- XX əsrin əvvəllərində İrəvan Quberniyasında inzibati-ərazi bölgüsü və etnodemoqrafik proseslərə dair. Akademik tarih və Düşünce Dergisi, c.9,s.3, 2022.
59.Həsənov H. Hacı Zeynalabdin Tağıyev-Bakı Su təchizatı məsələləri.XIX əsrin sonu-XX əsrin əvvəllərində (”Şollar-Bakı su qurğuları kompleksinin” 100 illiyinə həsr olunmuş “su ehtiyatları, hidrotexniki qurğular və ətraf mühit” mövzusunda Beynəlxalq elmi-praktiki konfransın materialları).I hissə, Bakı, 2017.
60.Hüseynzadə Ə. Seçilmiş əsərləri. Bakı, 2007.
61.“Həyat” qəzeti.
62.Hüseynov Ş. Əhməd bəy Ağaoğlunun dünyagörüşü. Bakı, 1998.
63.Xanəliyev V. Bakı şəhərinin su təchizatı tarixi (XIX əsrin ikinci yarısı-XX əsrin 70-ci illəri).Tar.elm.nam.diis. avtoreferatı. Bakı, 1994.
64.Xanəliyev V. Bakı şəhərinin su təchizatı tarixi (XIX əsrin ikinci yarısı -XX əsrin 70-ci illəri) tar.elm.nam.dissertasiyası. Bakı, 1994.
65.Xanəliyev V. Məmmmədəov Ə. Şollar-Bakı-100.Su kəmərinin çəkiliş tarixindən. Bakı, 2017.
66.Xəlilov P. Bakı neft sənsayeçiləri qurultayının səhiyyə və mədəni-maarif sahələrində fəaliyyəti. Tarix üzrə fəls.dokt.dər.al. üçün təq.ed.dis.avtoreferatı. Bakı, 2015.
67.Xəlilov P. XIX əsrin sonu-XX əsrin əvvəllərində böyük Bakı sənaye rayonunun su təchizatı üzrə layihələr və onların taleyi. ”Şollar-Bakı su qurğuları kompleksinin” 100 illiyinə həsr

olunmuş “su ehtiyatları, hidrotexniki qurğular və ətraf mühit” mövzusunda Beynəlxalq elmi-praktiki konfransın materialları. I hissə, Bakı, 2017.
68. Xuduyev H. (Cəmilzadə) Qaynaqlarda Azərbaycanda yanğından mühafizə xidmətinin təşəkkülünə dair bəzi məsələlər. Azərbaycan Dövlət Pedaqoji Universitetinin xəbərləri. (humanitar elmlər seriyası) №5, 2000, 182.s.
69. İbrahimova A. Bakı Şəhər Dumasının demokratikləşdirilməsi uğrunda bolşeviklərin mübarizəsi (mart - oktyabr 1917). Azərbaycan SSR EA. “Xəbərləri”Tarix, fəlsəfə, hüquq seriyası,Bakı, 1970, № 3-4.
70. İbrahimova A. Azərbaycan sosialist inqilabının hazırlanması və həyata keçirilməsi dövründə. Bakı, 1989.
71. İbrahimova A. Azərbaycanda ictimai-siyasi qüvvələrin mübarizəsi (1917-1918-ci illər). Bakı, 2010.
72. İbrahimov N. XIX əsrin sonu XX əsrin əvvəllərində Bakı şəhərinin siyasi və mədəni tarixi. Bakı, 1997.
73.”İqbal”qəzeti. 1915.
74. İlkin Q. Bakı və Bakılılar. Bakı, 1998.
75.İsmayıl M. M.İbrahimov. El atası. Bakı, 1995.
76.İsmayılova J.Azərbaycanda milli azadlıq ideyalarının inkişaf tarixindən (”Açıq söz” qəzetinin materialları əsasında). Tarix üzrə fəls.dokt.dər.almaq üçün təq.ed.dis. avtoreferatı. Bakı,2018.
77.İsmayılov X. XIX əsrin II yarısı- XX əsrin əvvəlllərində Azərbaycanda yerli özünüidarəetmə: təşkilati və hüquqi aspektləri. Bakı, 2009.
78.İsmayılov X. Azərbaycanda məhkəmə və yerli özünüidarəetmə orqanları: XIX əsr-XX əsrin əvvəlləri. Bakı, 2020.
79.İsmayılov X. Azərbaycanda yerli özünüidarənin təşkili və fəaliyyətinin normativ-hüquqi əsasları. Hüquq üzrə elm.dokt. diss. avtoreferatı. Bakı, 2015.
80.İmamverdiyeva K. Dənizkənarı Bulvar-yüz on yaşlı istirahət məkanı. Geostrategiya. 2019, № 4.s.125-128.
81.“Kaspi”-Maarifçilik meydanı. Bakı, 2016.
82. ”Kaspi”. Üç əsrin qəzeti. Bakı, 2016.

83.Kərimov Z. Şimali Azərbaycanda ictimai-siyasi hərəkatın tarixində mətbuatın rolu (XX əsrin əvvəlləri). Tarix üzrə fəls.dokt.elmi dər.almaq üçün təq.ed.dis.avtoreferatı. Bakı, 2014.
84. Manafov İ. İnqilabdanqabaqkı Bakıda tibbi-sanitariya işinə dair materiallar. Bakı, 1961.
85.Məmmədov X. Azərbaycan Milli Hərəkatı (1875-1918). Bakı, 1996.
86.Məmmədov X. Azərbaycan Milli və maarifçilik hərəkatı (1875-1918) Bakı, 1996.
87.Məmmədov X. Azərbaycan Milli və maarifçilik hərəkatı (1875-1918). Tarix elm. dokt.diss. avtoreferatı. Bakı, 1998.
88.Məmmədov X. Azərbaycan xalqının milli istiqlal mübarizəsi (XIX yüzilliyin sonları-XX yüzilliyin əvvəlləri). Bakı, 2005.
89.Məmmədov Z. Həsənbəy Zərdabi. Bakı, 1957.
90.Məmmədov S. Azərbaycanda qadın təhsilini və Azərbaycanın tərəqqipərvər qadınlarının maarifçilik fəaliyyəti (XIX əsrin ikinci yarısı 1990-ci ilə qədər) tar. elm. dokt. diis. avtoreferatı. Bakı, 1996.
91. Mirəhmədov Ə. Əhməd bəy Ağaoğlu. Bakı, 2014.
92.Musayev M. XIX əsrdə Bakı şəhərinin ticarəti. Bakı, 1972.
93.Musayev M. XX əsrin əvvəllərində Bakı şəhərində ticarət. Bakı, 1975.
94.Mustafayeva S. Şollar-Bakı su kəmərinin çəkilişinə dair. ”Şollar-Bakı su qurğuları kompleksinin” 100 illiyinə həsr olunmuş “su ehtiyatları, hidrotexniki qurğular və ətraf mühit” mövzusunda Beynəlxalq elmi-praktiki konfransın materialları. I hissə, Bakı, 2017.
95.Nağıyev Z. Bakı şəhəri və Abşeron regionunun su mənbələri. Bakı, 2021.
96.Nəbiyev R. I Dünya Müharibəsi illərində Bakı şəhərinin un və çörək təchizatı. ADPU Xəbərləri. Bakı, 2006, № 1.
97. Nəbiyev R. I Dünya Müharibəsinin başlanmasının Bakı şəhərinin ərzaqla təzhizatında yaratdığı problemlər və bununla

əlaqədar görülən tədbirlər. Bakı Universitetinin xəbərləri. Humanitar elmlər seriyası. Bakı, 2012, № 1.
98.Nəbiyev R. XX əsrin əvvəllərində Bakı şəhərinin ərzaq təchizatı.Tarix üzrə fəls.dokt.dər.al. üçün təq.ed.dis. avtoreferatı. Bakı, 2014.
99.Nəbiyev R. XX əsrin əvvəllərində Bakı şəhərinin ərzaq təchizatı.Tarix üzrə fəls.dokt.dər. al. üçün təq.ed.dissertasiyası. Bakı, 2014.
100.“Nicat” qəzeti.
101.Niftəliyev R. XX əsrin əvvəllərində Şimali Azərbaycanda içməli su mənbələrinin axtarışı tarixindən: Şollar. ”Şollar-Bakı su qurğular kompleksinin” 100 illiyinə həsr olunmuş “su ehtiyatları, hidrotexniki qurğular və ətraf mühit” mövzusunda Beynəlxalq elmi-praktiki konfransın materialları. I hissə, Bakı, 2017.
102.Osmanov M. XIX-XX -əsrin əvvəllərində Azərbaycan ticarəti. Tarix elm. nam. dis. avtoreferatı. Bakı, 1997.
103. Osmanqızı L. Əhmədbəy Ağaoğlunun publisistikası (“Kaspi” qəzetinin materialları əsasında). Bakı, 2012.
104. Osmanqızı L. Əhməd bəy Ağaoğlunun “Difai” partiyası necə yarandı. ”Kaspi”. Üç əsrin qəzeti. Bakı, 2016.
105. Ordubadi M.S. Qanlı sənələr. Bakı, 1991.
106.Qafarova Z.Şollar su kəmərinin çəkilişində Bakı Şəhər Dumasının fəaliyyətinin tarixi. ”Şollar-Bakı su qurğuları kompleksinin” 100 illiyinə həsr olunmuş “su ehtiyatları, hidrotexniki qurğular və ətraf mühit” mövzusunda Beynəlxalq elmi-praktiki konfransın materialları. I hissə, Bakı, 2017.
107.Qazıyev M. M.Əzizbəyov. Bakı, 1966.
108.Qazıyev M. M.Əzizbəyov. həyat və fəaliyyəti. Bakı, 1976.
109.Rəsulzadə M.Ə. Əsərləri. Birinci cild. 1903-1909. Bakı,1992.
110.Rəsulzadə M.Ə. Əsərləri. İkinci cild. 1909-1914. Bakı, 2001.
111.Rəsulzadə M.Ə. Əsərləri. Üçüncü cild.1915-1916. Bakı, 2012.

112.Rüstəmov İ. Həsən bəy Zərdabi. Bakı, 2012.
113.Rüstəmova-Tohidi S. Əsl bakılı kimdir. Şollar-Bakı su kəmərinin tarixi bu suala cavab verir.”Azərbaycan” qəzeti. 2017.25.01, 26.01, № 16-17.
114.Rüstəmova-Tohidi S. “Şollar” su kəmərinin tarixi Bakının siyasi-ictimai və iqtisadi mühitini göstəricisi kimi. (XIX əsri sonu-XX əsrin əvvəlləri) ”Şollar-Bakı su qurğuları kompleksinin” 100 illiyinə həsr olunmuş “su ehtiyatları, hidrotexniki qurğular və ətraf mühit” mövzusunda Beynəlxalq elmi-praktikikonfransın materialları. I hissə, Bakı, 2017.
115.Sadıqova H. XIX əsrdə və XX əsrin əvvəllərində Bakının iqtisadi inkişafının şəhərin sosial- demoqrafik durumuna təsiri haqqında. Azərbaycan Respublikası MEA Tarix institunun elmi əsərləri. Bakı, 2010, cild 34-35, səh.30-31.
116. Sadıqova H. XIX- XX əsrin əvvəllərində Bakı şəhər əhalisinin etnik və ictimai tərkibi. Bakı, 2017.
117. Sadıqova H. XIX- XX əsrin əvvəllərində Bakı şəhər əhalisinin etnik və ictimai tərkibi. Tarix üzrə fəls.dokt.elmi dər.al. üçün təq.ed.dis.avtoreferatı. Bakı, 2016.
118.Seyidzadə D.Azərbaycan XX əsrin əvvəllərində: müstəqilliyə aparan yoldur.Bakı, 2004.
119. Sertçelik S. Rus və erməni mənbələri işığında erməni problemi. Meydana çıxma prosesi 1678-1914. Bakı, 2017.
120.Sovet hakimiyyəti uğrunda alovlu mübariz. M.Əzizbəyov Nitqlər, sənədlər və xatirələr. Bakı, 1976.
121.Süleymanov M. Eşitdiklərim, oxuduqlarım və gördüklərim. Bakı, 1987.
122.Süleymanov M. H.Z.Tağıyev. Bakı, 1996.
123.Süleymanova S. Azərbaycanda ictimai-siyasi hərəkatlar (XIX yüzilliyin sonu- XX yüzilliyin əvvəllərində) Baki, 1999.
124.Şahbazov F. Bakı qəzasında su məsələsi. Bakı, 1938.
125.Şahtaxtlı M. Seçilmiş əsərləri. Bakı, 2006.
126.Tağıyev İ. Babayev N. Bakı şəhərinin içməli su təchizatının inkişaf tarixi. ”Şollar-Bakı su qurğuları kompleksinin” 100 illiyinə həsr olunmuş “su ehtiyatları, hidrotexniki qurğular və

ətraf mühit” mövzusunda Beynəlxalq elmi-praktiki konfransın materialları. I hissə, Bakı, 2017.
127. Tağıyev F. XIX əsrdə (80-ci illərin ortalarınadək) Bakı şəhərini su təchizatının tarixindən. ”Şollar-Bakı su qurğuları kompleksinin” 100 illiyinə həsr olunmuş “su ehtiyatları, hidrotexniki qurğular və ətraf mühit” mövzusunda Beynəlxalq elmi-praktiki konfransın materialları. I hissə, Bakı, 2017.
128. Tağıyev Ə. Azərbaycan məktəb tarixi. Bakı, 1993.
129. Topçubaşov Ə.M. Azərbaycanın yol göstərəni (tərtib, tərcümə və müqəddimə V. Quliyev). Bakı, 2010.
130. Topşubaşov Ə.M.“Xalqımızın müstəqil yaşayacağına inanırdıq” (tərtin edən Quliyev V). Bakı, 2019.
131.Topçubaşov Ə. “Kaspi”dən seçmələr (tərtin edən Quliyev V). Bakı, 2018.
132.Topçubaşov Ə.M. Seçilmiş əsərləri. Birinci cild, Bakı, 2016.
133.Topçubaşov Ə.M. Seçilmiş əsərləri. İkinci cild, Bakı, 2016.
134.Topçubaşov Ə.M. Seçilmiş əsərləri. Üçüncü cild, Bakı, 2016.
135.Vahabova E. Bakı Şollar su kəmərinin tikintisini Bakı şəhər mətbuatında işıqlandırılması. ”Şollar-Bakı su qurğuları kompleksinin” 100 illiyinə həsr olunmuş “su ehtiyatları, hidrotexniki qurğular və ətraf mühit” mövzusunda Beynəlxalq elmi-praktiki konfransın materialları. I hissə, Bakı, 2017.
136.Verdiyeva N.Şollar su kəməri-dayanıqlı və etibarlı su təchizatı sistemi.”Şollar-Bakı su qurğuları kompleksinin” 100 illiyinə həsr olunmuş “su ehtiyatları, hidrotexniki qurğular və ətraf mühit” mövzusunda Beynəlxalq elmi-praktiki konfransın materialları. I hissə, Bakı, 2017.
137. Zərdabi H. Seçilmiş məqalələri və məktubları.Bakı, 2016.

## Rus dilində

138. АКАК (Акты Кавказкой Археологической Комиссии) T.V. № 204
139. Алышевский В. Город Баку и промыслово-заводской район.Бакy,1971.
140.”Bakу”.
141.Бакинские водопроводы. Баку, 1908.
142. “Бакинское exo”.
143. “Бакинские известия”.
144.Баку-Шолларский водопровод. Баку, 1915.
145.Багирova И.Политические партии и организации Азербайджана в начале XX вeka (1900-1917). Bakу, 1997.
146. Багирова И.Политические партии и организации Азербайджана в начале XX вeka (1900-1917). Автореф.дис. доkт. ист.наук. Bakу, 2000.
147.Байдакова Н. Введение городового положения 1870 в Н.Новгороде и выборы в Нижнигородскую думу (1870-1890 г). "Ученые записки" Горьковского университета.1969, вып. 105 сер. гум. наук.
148.Будак İ. Буржуазные реформы 60-70.г XIX в. Бессарабия. Кишнев, 1961.
149.Бурдина Q. Городские органы самоуправления в Среднем Поволжье в пореформенный период. Автореф.дис. канд.ист.наук. Москва, 1993.
150.Бендианишвили А. Тблисское городкое самоуправление. Тблиси, 1960.
151.Джафарли Н. История города Ленкорани в XIX - начале XX- вв. Автореф.дис.канд. ист. наук. Баку, 1985.
152.Джаббаров Ф. Армянский экстремизм на Южном Кавказе: второя половина XIX-начало XX вв.Баку,2018.
153.Дойников И. Городская реформа 1870 года и становление городского самоуправления в России. Автореф. дис. канд. юрид. наук. Москва, 1991.
154.Документы по истории Бaky (1810-1917). Бaky, 1978.

155. Есадзе С. Историчиские записки об управлении Кавказом.т.1-2. Тифлис,1907.
156.Евангулов Г. Местная реформа на Кавkазе. СПб, 1914.
157.Еромkин Н. История государственных учреждений до дореволюционном России. Моckva, 1983.
158.Юрочкин М. Городсkая реформа и становление городского самоуправления в Беларуси во второй половине XIX –nачале XX вв. Автореф. дис. канд. юрид. наук.Минск, 2002.
159.Юрочкин М. Реформа городского самоуправления в Беларуси во второй половине XIX –nачале XX вв Минск, 2002.
160. Ибрагимов З. Революция 1905-1907 г. в Азербайджане. Баку, 1955.
161. Ибрагимова А. Двоевластие в Азербайджане. Автореф. дисс. кант. ист. наук. Баку, 1974.
162. Исмаилова Г. История города Шуши в XIX-начало XXвв. Автореф.дис. канд. ист. наук. Баку,1987.
163."Известия Бакинской Городской Думы".
164.Жвания З. Судебная реформа в Грузии (60-80 rodы- XIX beka). Автореф.дис. канд. ист. наук. Тбилиси, 1979.
165 .Кавказский календарь (1878-1916).
166.“Каспий” (1881-1918).
167. Каржанский Н. Kаk избиралось и работала Моcковская Городская Дума.Москва, 1947.
168.Коротkих М. Судебная реформа 1864 года в России. Автореф. дис.докт. юрид. наук. Ленинград, 1990.
169. Кружалов Н. Московское городское самоуправление в 1905-1912 гг. Avтореф.дисс. kанд.ист.наyk. Мосkва, 1982.
170.Куприянов Л. Города Северного Kавkаза во второй половине XIX в. Москва, 1981.
171. Кручковская В. Ретроградсkая Городская Дума. Август-ноября 1917. Avтореф.дисс. kанд.ист.наyk. Ленинград, 1978.

172. Корнова Н. Политика самодержавия в области судоустройства и судопроизводства (1881-1905). Автореф. дисс. канд. ист. наук. Ленинград, 1990.
173 Горловский.М. История городской реформы в России. Ученные записки Уральского гос. университета, 1948 вып. 5. общественные науки.
174. Гвинтадзе Ю. Самоуправление грузинских городов (1875-1917). Автореф. дисс.канд. ист. наук. Тбилиси, 1980.
175. Гусейнова Д. Азербайджанская интеллигенция в конце XIX- начале XX - вв. Автореф. дисс.докт.ист.наук. Баку, 1993.
176.Геесен В. Городсkое самоуправление. СПб, 1902.
177. Мамедов N. История города Кубы в XIX - начало XX- вв. Автореф.дисс.канд.ист.наук. Баkу, 1989.
178. Мамедов Ф. Город Гянджа в период капитализма (1868-1917 г.). Автореф.дисс.докт.ист.наук. Баkу, 1990.
179. Мильман А. Как избирали органы Самоуправления в дореволюционном Азербайджане. Баkу, 1961.
180. Мильман А. Политический строй в Азербайджана в XIX – начале XX - вв. Баkу, 1966.
181. Михайловский Э. Реформы городского самоуправления в России. Москва, 1908.
182. Мурадалиева Е. Города Северного Азербайджана во второй половине XIX веке. Баkу, 1991.
183. Мовлаева С. Пропаганда русский и азербайджанской культуры на страницах газеты “ Каспий” (1881-1917гг). Баку,1983.
184. Мустафаев А. Борьба демократической интеллигенции и деятелей революциотого движения за школьное образование в Азербайджане посредством газеты “Каспий” (1881-1907гг). Автореф дисс.кан. ист. наук. Баку, 1973.
185.Наджафов Б. История армянского национализма в Закавказье в конце XIX- начале XX века. Баку, ч.1. 1993; ч.2.1994.

186.Нардова В. Городское сомоуправление в России в 60-х-начале 90-х годов XIX в. Ленинград 1984.
187.Нардова В. Самодержавие и Городские Думы в Росии в конце XIX- начале XX вв.СПб, 1994.
188. Немировский А. Реформа городского сомоуправления. Москва, 1907.
189. Новиков А.Записки городского головы. СПб, 1905.
190.Оджагова К. Городское самоуправление города Баку в конце XIX- начале XX века. Автореф.дисс. кан.ист. наук. Баку, 1996.
191. Оджагова К. Городское самоуправление Баку в конце XIX- начале XX вв. Баку, 2003.
192. Оджагова К. Городское реформа в Баку в конце XIX века. доклады второй Республиканской научной конференции молодых иследовательных. Проблем истории Азербайджана. Баку, 1989.
193. Оджагова К. Админстративный аппарат и городское самоуправление в начале XX века. доклады третьей Республиканской научной конференции молодых иследовательных. Проблем истории Азербайджана Баку, 1996.
194.Очерки развития водоснабжения в города Баку. Баку,1904.
195.Павлюченко Е. Московское городское управления в 70-80-е гг. XIX в. Автореф. дис. канд. ист.наук. Москва, 1956.
196.Пожитанов К. Городское и земское самоуправление. СПб,1913.
197.Писарькова Л. Московское городское общественное управления с сер. 1880-х годов до первой русской революции. Автореф. дис. канд. ист.наук. Москва, 1979.
198. Полное собрание законов Российской империи. СПб, 1876.
199. Первая всеобщая перепис населения Российской империи. Бакинская Губерния. СПб, 1904.

200. Сеидзаде Д. Из истории Азербайджанской буржазии в начале XX в. Баку,1978.
201. Сеидзаде Д. Общественно-политическая деятельност Азербайджанской буржазии (1905-1917). Автореф. дисс. докт. ист.наук. Баку, 1993.
202.Сеидзаде Д. Азербайджанские депутаты в Государственной Думы России.Баку, 1991.
203.Семенов Д. Городское самоуправление. СПб,1901.
204.Семин О. Основные вопросы местного самоуправления. Баку, 1910.
205.Собрание узаконнений и распоряжение временого правителства. СПб, 1917.
206.Свешников М. Основы и пределы самоуrгавленuя. СПб, 1892.
207.Шихалиев А. Из история города Шемахи второй половине XIX в (1859-1901). Автореф. дисс.канд.ист.наук. Баку, 1968.
208.Шефер А. Органы самоуправления царской России. Куйбышев,1939.
209.Тагиев А. Истории города Баку в первой половине XIX века (1806-1859). Автореф. канд. ист.наук. Баку, 1998.
210. Тагиев А. Истории города Баку в первой половине XIX века (1806-1859). Баку, 1998.
211. Туманов Г. Заметки о городском самоуправление на Кавказе. Тифлис, 1900.
212.Туманов Г. Баку и его окрестности. Тифлис, 1902.
213. Ваидова Х. История города Ордубад в XIX-начало XX вв. Автореф.дис. канд. ист.наук. Баку, 1990.
214. Ваидова Х. История города Ордубад в XIX-начало XX вв. Баку, 2009.
215. Ванишвили Ш Закавказье и системе Российского правления 1864-1917 г.Автореф. дис.докт. ист. наук. Тифлис, 1990.
216. Василевский Н.Движение населения в городе Баку и причина смертности в 1908-1910 г. Баку, 1911.

217.Вернер III. Городское самоуправление в Росии. СПб, 1905.
218. Виленский Б. Судебная реформа и контреформа в России.Автореф. дис.докт. юрид. наук. Москва, 1966.
219. Вышkа газета.
220.Водаснабжения города Баку. Ваку, 1909.
221.Вагабова Е. Вопросы народного образования в Азербайджане на страницах газеты "Kasпий" (1893-1917). Автореф. дис. канд.ист.наук. Баку, 2000.
222. Вагабова Е. Из истории народного образования в Северном Азербайджае (второй половина XIX в- 1917г). Baky, 2015.
223. Вяликова Л. Московское городское самоуправление в 1912 фев-1917 Автореф. дис. канд.ист.наук. Москва, 1989.
224. "Закавказье" газета.
225. Златоустовскй В. Московское городское самоуправление в период буржуазных реформ 60-х годов XIXв. Автореф. дис. канд.ист.наук. Moskba, 1953.

*Nəşriyyatın direktoru:* *Hüseyn Hacıyev*
*Redaktor:* *Mustafa Şəfiyev*
*Korrektor:* *Sevinc Mamoyeva*
*Dizayn:* *Müşfiq Hacıyev*
*Cildçi:* *Elmar Mikayılov*

*Çapa imzalanmış 06.06.2024-cü il*
*Kağız formatı 70x100 $^{1/16}$, çap vərəqi 19*
*Sifariş 166, sayı 100*

*ADPU-nun nəşriyyatı*
*Bakı, Ü.Hacıbəyli küçəsi, 68*
*Tel: (+912) 493-74-10*
*E-mail: poliqrafiya@mail.ru*